# HEYDƏR ƏLİYEV

*çıxışlar • nitqlər*

*bəyanatlar • müsahibələr*

*məktublar • məruzələr*

*müraciətlər • fərmanlar*

AZƏRNƏŞR
BAKI-2011

# HEYDƏR ƏLİYEV

## MÜSTƏQİLLİYİMİZ ƏBƏDİDİR

*otuz üçüncü kitab*

***mart, 2001 - aprel, 2001***

AZƏRNƏŞR
BAKI-2011

**BBK 32**
**Ə 56**

Buraxılışına məsul
akademik

**RAMİZ MEHDİYEV**

**ƏLİYEV HEYDƏR**
**Ə 56 Müstəqilliyimiz əbədidir.** B., Azərnəşr, 2011, 480 səh.

Azərbaycan xalqının ümummilli lideri Heydər Əlirza oğlu Əliyevin çoxcildlik əsərlərinin oxuculara təqdim olunan bu cildində Azərbaycan Respublikası Prezidentinin Fransaya, ABŞ-a işgüzar səfərləri zamanı Azərbaycanın ən ağrılı problemi olan Dağlıq Qarabağ münaqişəsinin sülh yolu ilə nizamlanması barədə apardığı geniş müzakirələrin, keçirilən görüşlərin, həmçinin bu səfərlərin nəticəsində imzalanmış sənədlərin materialları və mətbuat orqanlarına verdiyi bəyanat və müsahibələri toplanmışdır.

Bu cilddə, həmçinin ulu öndərin İstanbulda Türkdilli ölkələrin dövlət başçılarının VII Zirvə görüşündəki parlaq nitqi, Türkiyənin dövlət və hökumət başçıları ilə görüşləri, danışıqları, bölgəyə aid məsələlər, Bakı–Tbilisi–Ceyhan neft kəmərinin tikintisinə başlanmasına aid materiallar öz əksini tapmışdır.

Kitabda Heydər Əliyevin Azərbaycana gələn Türkiyə, Ukrayna, Rusiya və İranın nüfuzlu dairələrinin nümayəndələri, Skandinaviya ölkələri və Rusiyanın bir qrup jurnalistləri ilə söhbətləri həmçinin, ölkədaxili ictimai-siyasi məsələlərə, respublikamızın sürətli tərəqqisinə, xalqımızın rifahı naminə aparılan iqtisadi və siyasi islahatlara həsr olunmuş materialları yer almışdır.

$$\text{Ə}\,\frac{\mathbf{0801000000}}{\mathbf{M-651(07)-2010}}$$

**BBK-32**

© Azərnəşr, 2010

# GÖRKƏMLİ DÖVLƏT XADİMİ VƏ İCTİMAİ XADİM NİKOLAY BAYBAKOVA

Çox hörmətli Nikolay Konstantinoviç!

Sizi, görkəmli dövlət xadimini və ictimai-siyasi xadimi əlamətdar yubiley–anadan olmanızın 90 illiyi münasibətilə ürəkdən təbrik edirəm.

Əziz Nikolay Konstantinoviç, sizi uşaqlıq çağlarınızın, Bakı Neft İnstitutunda təhsil illərinizin keçdiyi Azərbaycanda yaxşı tanıyır, sevir və sizə dərin hörmət bəsləyirlər. Sizin mürəkkəb, eyni zamanda sıravi neftçidən görkəmli siyasi və dövlət xadiminədək şanlı əmək yolunuz burada, Balaxanı neft mədənlərində başlamışdır.

Sizin mənalı həyatınız, yüksək vətəndaşlıq qayəniz, dərin peşəkarlığınız, tükənməz əməksevərliyiniz və enerjiniz, seçdiyiniz işə sədaqətiniz sizə haqlı nüfuz və hörmət qazandırmışdır.

Neft sənayesinin inkişafına sizin töhfəniz ölçüyəgəlməzdir, hamı tərəfindən qəbul olunmuş və geniş yayılmış «Baybakov metodu» isə hələ 30 yaşınızda başçılıq etdiyiniz SSRİ neft sənayesinin tarixinə həmişəlik daxil olmuşdur.

Siz uzun müddət ərzində SSRİ hökumətinin üzvü, Dövlət Plan Komitəsinin rəhbəri olaraq, xalq təsərrüfatının inkişafı naminə fədakarlıqla çalışmısınız. Vətəniniz Azərbaycanda minlərlə adam respublikamızın iqtisadiyyatının, sosial həyatının inkişafına sizin konkret töhfənizi xatırlayır.

Həmvətənləriniz, Azərbaycan neftçiləri qırx ildən artıq bir dövrdə sizə böyük etimad göstərərək, sizi Sovet İttifaqının ali qanunvericilik orqanına üzv seçmişlər.

Siz bu gün də Azərbaycanla əlaqələri kəsmirsiniz. Rusiya–Azərbaycan Dostluq Cəmiyyətinə başçılıq edərək, Rusiya Federasiyası ilə Azərbaycan Respublikası arasında dostluq münasibətlərinin inkişafına və möhkəmlənməsinə sanballı kömək göstərirsiniz.

İstər Azərbaycanda, istərsə də Moskvada – SSRİ Nazirlər Sovetində sizinlə sıx əməkdaşlığımızı, birgə işimizi yüksək qiymətləndirir və böyük səmimiyyətlə xatırlayıram.

Əziz Nikolay Konstantinoviç, bizim hamımız üçün əlamətdar olan yubiley münasibətilə sizi bir daha təbrik edirəm. Sizə möhkəm cansağlığı, uzun ömür, xoşbəxtlik və uğurlar arzulayıram.

*Dərin hörmətlə,*

**HEYDƏR ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı şəhəri*, 1mart 2001-ci il*

## UKRAYNA ALİ RADA-sının SƏDRİ İVAN PLYUŞŞ BAŞDA OLMAQLA BU ÖLKƏNİN PARLAMENT NÜMAYƏNDƏ HEYƏTİ İLƏ GÖRÜŞDƏ SÖHBƏT

*Prezident sarayı*

*2 mart 2001-ci il*

**H e y d ə r Ə l i y e v:** İvan Stepanoviç, mən sizi və bütün nümayəndə heyətinizi, Ukrayna parlamentinin nümayəndə heyətini Azərbaycanda ürəkdən salamlayıram. Çox şadam ki, Ukrayna parlamentinin nümayəndə heyəti ilk dəfə olaraq Azərbaycana səfərə gəlmişdir. Bu sözləri Azərbaycan parlamenti haqqında da demək olar. Odur ki, burada biz öz nöqsanlarımızdan da, sizin nöqsanlarınızdan da danışa bilərik, hərçənd bir çox hakimiyyət orqanları, ilk öncə Ukrayna və Azərbaycan prezidentləri qarşılıqlı rəsmi səfərlər etmişlər, burada, Kiyevdə, Yaltada görüşlər olmuşdur. Bir sözlə, mənim Ukrayna ilə, ilk növbədə, prezident Leonid Daniloviç Kuçma ilə əlaqələrim çox genişdir. Ancaq parlament bir qədər geri qalmışdır, ən çox da sizin təqsiriniz üzündən. Gəlin bunun səbəbini açıqlamayaq. Salamlaşdıqdan dərhal sonra belə ittiham irəli sürdüyümə görə, əlbəttə, məni bağışlayın, lakin biz parlamentlər xətti ilə də bir-birimizə nümayəndə heyətləri göndərməyə həmişə hazır olmuşuq.

Mənə dedilər ki, burada çoxlu görüşləriniz, söhbətləriniz olubdur. Şadam ki, siz xalqımızla, respublikamızla, Bakı şəhəri ilə bir az tanış olmusunuz. Düşünürəm ki, bu, yaxşı bir

işin – Ukrayna ilə Azərbaycan arasında parlamentlərarası münasibətlərin daha da inkişaf etdirilməsinin başlanğıcıdır.

Biz hesab edirik ki, Ukrayna ilə Azərbaycan arasında strateji tərəfdaşlıq münasibətləri mövcuddur. Biz bunu Ukrayna və Azərbaycan prezidentlərinin imzaladıqları sənədlərdə təsbit etmişik. Amma məsələ heç də formada deyil, məsələ məhz məzmundadır. Ölkələrimiz arasında, iki dövlətin başçıları arasında çox yaxşı dostluq münasibətləri təşəkkül tapmışdır. Zənnimcə, bu həm Azərbaycanın, həm də Ukraynanın xeyrinədir. Ümidvarm ki, sizin Azərbaycana səfəriniz bu münasibətlərin daha da genişlənməsinə kömək edəcəkdir.

**İ v a n  P l y u ş ş:** Heydər Əliyeviç, sağ olun. Xahiş edirəm, nümayəndə heyətimizin belə geniş tərkibdə olduğuna görə bizi bağışlayasınız.

**H e y d ə r  Ə l i y e v:** Yox, çox da geniş deyildir. Əgər parlamentinizlə müqayisə etsək, siz kiçik nümayəndə heyəti gətirmisiniz.

**İ v a n  P l y u ş ş:** Bu hamısı deyildir. Bizim ikinci heyətimiz də var – onlar işgüzar dairələrin nümayəndələridir.

Doğrudan da, parlamentlərarası münasibətlərimiz dövlətlərarası münasibətlərin səviyyəsindən bir qədər geri qalır. Amma şadıq ki, son 6–7 ildə istər ikitərəfli, istərsə də çoxtərəfli səviyyələrdə həqiqətən daim dialoqumuz olmuşdur. Sözün düzü, mən Nyu-Yorkda zirvə toplantısında həmkarımın təklifini məmnuniyyətlə qəbul etdim. Biz ilk dəfə olaraq orada danışdıq, bundan əvvəl Avropa Şurasında söhbətimiz olmuşdu.

Bilirsinizmi, buraya gəlməyimizə şadıq, səfərimiz yerinə düşdü. Siz artıq ötən ilin noyabrında seçki kampaniyasını keçirmisiniz, biz isə onu gələn ilin martında keçirməliyik.

**H e y d ə r  Ə l i y e v:** Sizə elə gəlmirmi ki, seçkiləri tez-tez keçirirsiniz?

**İ v a n  P l y u ş ş:** Dörd ildən bir.

**H e y d ə r   Ə l i y e v:** Mənə elə gəlir ki, siz seçkiləri hər il keçirirsiniz.

**İ v a n   P l y u ş ş:** Bizdə keçən il yox, inişil noyabrda prezident seçkiləri oldu. İnişil noyabrda Leonid Kuçma ikinci dəfə prezident seçildi.

İndi Ukraynada bizim üçün ən kəskin bir diskussiya gedir – seçkiləri hansı sistem üzrə və necə keçirməli ki, parlamentdə çoxluq olsun. Buna görə məsələlər də, şərhlər də olduqca çoxdur. Bu gün mən Bakıda Ukrayna icması ilə görüşdə dedim: təsəvvürünüzə gətirin, mən özümü rəhbərliyə daha da yaxınlaşmaq istəyənlərə aid etmirəm. Amma şadam ki, bizim hamımızın nəyə can atmalı və nəyi həyata keçirməli olduğumuzu Azərbaycanda gördüm – bu, cəmiyyəti siyasi cəhətdən strukturlaşdırmaqdan, cəmiyyəti, xalqı siyasətə cəlb etməkdən ibarətdir. Sizə deyəcəyəm, bəlkə də ifrata varıram, amma mənə elə gəlir ki, bu, postsovet məkanında ən yaxşı sizdə, Azərbaycanda həyata keçirilmişdir. Çünki ötən ilin noyabrındakı seçkilərin nəticələri sübut edir ki, kağız üstündə deyil, cəmiyyətin özündə siyasi qüvvə mövcuddur – bu, Yeni Azərbaycan Partiyasıdır. Ali qanunvericilik orqanı, nümayəndəli orqan olan parlamentin 70 faizi bu partiyanın üzvlərindən ibarətdir. Bu, artıq siyasi qüvvədir, artıq komanda yaradılması üçün bazadır, həm də aparılan siyasət üçün öz xalqı qarşısında məsuliyyət deməkdir.

Ona görə də şübhə etmirəm ki, nəticə də olacaqdır. Çünki bu, artıq sahmanlanmış cəmiyyətdir və bu cəmiyyətdə səmərəli sistem olacaqdır. Şəxsən mən də, həmkarlarım da özümüz üçün belə bir nəticə çıxarmışıq. Biz isə bunu hələ seçkilərədək qalan bir il ərzində həyata keçirməli, Azərbaycanın təcrübəsindən geniş bəhrələnməli və bu cür siyasi qüvvə yaratmalıyıq. İstəmirəm ki, bu, başqalarının səhvləri əsasında edilsin. Başqa bir nümunə də var – bu, Moldovada keçirilmiş seçki-

lərdir. Lakin orada belə qüvvə olmadığı üçün seçkilərin nəticələri də tamam başqa cür oldu.

Biz həmişə yadda saxlamalıyıq ki, Ukraynada enerji ehtiyatları ilə təchizat sarıdan çətinliklər olduqda – xüsusən inişil – Azərbaycan haqqının ödənilməsi imkanından asılı olmayaraq yardım göstərirdi.

**H e y d ə r Ə l i y e v:** İndiyədək ödənilməmişdir.

**İ v a n P l y u ş ş:** Biz səfər zamanı Baş nazirlə görüşdə bu məsələyə toxunduq və ona minnətdarıq ki, məsələnin aydınlaşdırılması üçün elə bizim yanımızda tapşırıq verdi.

Biz xalqlarımız səviyyəsində humanitar tədbirlərin – Ukraynada Azərbaycan mədəniyyəti günləri və Azərbaycanda Ukrayna mədəniyyəti günlərinin keçirilməsini gözləyirik. Nazirlərimiz hazırdırlar. Bütün bu tədbirlərə siyasi məna və sanbal vermək üçün biz belə bir təklif irəli sürürük ki, Ukraynada Azərbaycan mədəniyyəti günləri Azərbaycanın parlament nümayəndə heyətinin ölkəmizə səfəri ilə bir vaxta düşsün.

Lakin başlıcası budur ki, – mən Sizə düzünü deyirəm – Siz belə şəraitdə bu cür siyasi qüvvə yaratmısınız. Bu, böyük qələbədir.

**H e y d ə r Ə l i y e v:** İvan Stepanoviç, sağ olun. Bilirsiniz ki, Ukrayna da, Azərbaycan da dövlət müstəqilliyi qazandıqdan sonra demokratik inkişaf yolu, Dünya Birliyinə inteqrasiya yolu, həm siyasi, həm sosial, həm də iqtisadi islahatlar aparılması yolu, bazar iqtisadiyyatı yolu seçmişlər. Bu, düzgün yoldur. Biz bu yoldan heç zaman dönməyəcəyik. Amma eyni zamanda bunu necə həyata keçirməli? Əlbəttə, hər respublikanın öz xüsusiyyəti var. Hesab etmək olmaz ki, bütün insanlar eyni cürdür. Bax, mənimlə yanaşı Murtuz Ələsgərov əyləşmişdir, axı biz eyni deyilik. Eləcə də siz. Ona görə də dünyada iki eyni cür xalq yoxdur, adət-ənənələri, tarixi oxşar olan iki eyni cür xalq yoxdur.

Mən Ukraynanı bir qədər tanıyıram. O, böyük ölkədir. Onun müxtəlif regionları ölkənin keçmişinə və bu gününə müxtəlif cür yanaşırlar. Ukrayna ilə müqayisədə Azərbaycan kiçik ölkədir. Bununla belə, onun da öz xüsusiyyətləri var. Hər regionun öz tarixi var, amma xalqın mentaliteti ümumidir. Ona görə də demokratiya, hüquqi, dünyəvi dövlət quruculuğu yolu ilə gedərkən vacib şablon üzrə hərəkət etmək olmaz.

Biz şablonun nə demək olduğunu sovet dövründə çox görmüşük, Moskvada nə edirdilərsə, deyirdilər, gəlin bunu Ukraynada, Azərbaycanda, Özbəkistanda da tətbiq edək. Biz bunları artıq görmüşük. Lakin onda bu, şablon nəticələr verirdi, çünki bir ideologiya vardı, çox ciddi sistem vardı. Hətta kimsə başqa istiqamətdə getmək istəsəydi, heç kəs buna icazə verməzdi. İndi isə azadlıqdır – söz, mətbuat azadlığı var, siyasi plüralizm mövcuddur. Bunsuz demokratiya ola bilməz. Uzun illər ərzində sərbəstliyi, müstəqilliyi, dövlətçiliyi olmayan xalq da, əlbəttə, bütün bunlara malik olmaq istəyir. Arzu-istək bir şeydir, buna necə, hansı müddətdə nail olmaq isə başqa şeydir.

Əlbəttə, populizm ilə məşğul olan adamlar var və onlar hesab edirlər ki, guya bir ilə, beş ilə Fransa, İngiltərə, İsveç kimi ölkə olmaq mümkündür və sair. Bu cəfəngiyatdır. Ona görə də əgər siz ölkəmizdə, həqiqətən, müsbət vəziyyət görmüsünüzsə, bu onun nəticəsidir ki, biz demokratiya yolu ilə getməklə yanaşı, hesab edirik ki, demokratiyanın olması üçün ölkənin sabitliyini, müstəqilliyini təmin etmək lazımdır. Daxili siyasi sabitliyi təmin etmək lazımdır, islahatları ardıcıl sürətdə aparmaq gərəkdir ki, insanlar bunları anlaya bilsinlər. Onlara, sadəcə olaraq, yuxarıdan «edin» deyilməməlidir. Çünki hər bir insanın öz qavrayış qabiliyyəti var. Məsələn, kimsə bir işarədən başa düşür, başqasına isə bunun üçün üç gün, bəzilərinə isə hətta üç il vaxt lazımdır. İnsanlar müxtəlif olurlar. Ona görə də biz bunların hamısını nəzərə almışıq və alırıq. Eyni zamanda biz mövcud çətinlikləri də nəzərə almalıyıq.

Ən böyük çətinliyimiz bundan ibarətdir ki, bizi hələ 1988-ci ildə, Sovet İttifaqının mövcud olduğu dövrdə Ermənistanla münaqişəyə cəlb etmişlər.

Müxtəlif səbəblərə görə, o cümlədən də daxili səbəbə görə, qüvvələri Ermənistanın Azərbaycan xalqına qarşı təcavüzü ilə mübarizəyə səfərbərliyə almaq, ermənilərin torpaqlarımıza iddia edə bilməsinə yol verməmək əvəzinə, burada insanlar, necə deyərlər, azadlıqdan istifadə edərək, daha çox kimin hakimiyyətə gəlməsi, kimin özü üçün fayda götürməsi, kimin bu fürsətdən varlanmaq üçün bəhrələnməsi barədə düşünürdülər. Bax, bu, Ermənistan silahlı qüvvələrinin ərazimizi işğal etməyə müvəffəq olmasının başlıca səbəblərindən biridir.

Deməliyəm ki, Azərbaycandan fərqli olaraq, Ermənistanın da öz daxili ziddiyyətləri var, orada da müxtəlif qruplaşmalar mövcuddur. Lakin onlar bir ideya, Dağlıq Qarabağı Ermənistana birləşdirmək ideyası – onlar buna ermənicə «miatsum» deyirlər – ətrafında toplaşdılar, heç nəyə baxmayaraq, şəxsi münasibətləri, ədavəti bir yana qoyaraq, bununla məşğul oldular. Xatirimdədir, daha işləmədiyim, Moskvada pensiyada olduğum vaxtlarda Qorbaçov Spitak zəlzələsindən sonra – daha təhlükə yox idi – Ermənistana getmişdi. O, Moskvaya qayıtdı, mən onun televiziya ilə çıxışını dinlədim. Deyirdi ki, uçuqların altından çıxan cavan bir adam zəlzələdən, valideynlərini itirməsindən, özünün xəsarət almasından danışmaqdansa, «miatsum» deyir.

Bizim çətinliklərimiz sizdəkindən çoxdur, işğal olunmuş ərazilərimizi indiyədək azad edə bilmirik. Ərazimizin 20 faizi işğal edilib, oradan bir milyon insan didərgin salınıb, onların əksəriyyəti çadırlarda yaşayır. Bir təsəvvürünüzə gətirin, 7-8 il çadırlarda yaşamaq nə deməkdir. Təbii ki, belə bir şəraitdə biz müstəqilliyin həqiqətən real olması üçün onu möhkəmlətmək prinsiplərimizi, bu hərc-mərcliyi aradan qaldırmaq prinsiplərimizi müəyyənləşdirməli idik. Yeri gəlmişkən, bu hərc-

mərclik 1993-cü ildə vətəndaş müharibəsinin başlanmasına gətirib çıxardı.

Təsəvvür edirsinizmi, müharibə gedir, Ermənistan silahlı qüvvələri hücuma keçib torpaqlarımızı zəbt edir, burada isə adamlar hakimiyyət uğrunda öz aralarında vuruşurdular. Daha çox silahlı dəstələri olan bir qüvvə mövcud hakimiyyəti devirmək və onun yerini tutmaq üçün Gəncə şəhərindən Bakıya hücum etmişdi. Hakimiyyət isə aciz qalmışdı. O, artıq bir ildə nüfuzunu itirmişdi, xalqı təhlükəyə qarşı çıxmaq üçün birləşdirə bilməmişdi. Maksimum onu edə bildilər ki, öz vəzifələrini qoyub qaçdılar və Əliyevdən xahiş etdilər ki, gəl, bizi xilas et. 1993-cü ildə pərən-pərən düşmüş adamlar – o vaxt mən Naxçıvanda yaşayırdım – 5-6 gün ərzində hərəsi gündə 5–6 dəfə mənə zəng edir, deyirdilər ki, xahiş edirik, gəlin. Halbuki bundan əvvəl hətta Naxçıvanda da yaşamağımı istəmirdilər, məni oradan sıxışdırıb çıxarmağa çalışırdılar. Xahiş edib deyirdilər, gəlin. Mən gəldim ki, onlarla əməkdaşlıq edim. Mən buraya gələndən iki gün sonra prezident gizlincə qaçıb aradan çıxdı. Bir görün, bizim vəziyyətimiz necə idi və hərcmərclik vəziyyətindən çıxmaq, daxili siyasi şəraiti, sabitliyi mökəmlətmək, adamlara rahat yaşamağa imkan vermək üçün, islahatları həyata keçirmək, Konstitusiyanı qəbul etmək, başqa tədbirləri görmək üçün bizə neçə illərlə vaxt lazım idi.

Müharibəni dayandırmaq lazım idi, çünki o, Ermənistan üçün də, Azərbaycan üçün də hər cəhətdən təhlükəli idi. Müharibəni dayandırmaq lazım idi – dayandırdıq, sülh danışıqları apardıq. Mən tarixin bir neçə faktını xatırlatdım, deyəm ki, hər bir respublika, hər bir xalq bu yol ilə necə getdiyini özü müəyyənləşdirməlidir.

Moldovada kommunistlər qələbə qazandı, hakimiyyətə gəldilər. Onlar xalqa nə verəcəklər, nə verməyəcəklər – mən bunu bilmirəm. Çətin ki, bir şey versinlər. Amma xalq onları seçdi, heç nə edə bilməzsən. Mən bilirəm ki, digər qüvvələr,

xüsusən prezident Luçinski nə qədər müqavimət göstərdi, lakin bir şey çıxmadı, xalq onları seçdi. Onların öz xüsusiyyətləri, sizin öz xüsusiyyətləriniz, bizim öz xüsusiyyətlərimiz var. Bizim parlamentdə Yeni Azərbaycan Partiyasının çoxluğa malik olması cəmiyyətimizin reallığıdır. Hərçənd müxalifətdə olanlar hesab edirlər ki, yox, belə deyildir. Axı müxalifət ona görə müxalifətdir ki, «yox» desin, «hə» deməyəcək ki. Müxalifət bütün xalq tərəfindən dəstəklənmir, ancaq hansısa bir ovuc adam tərəfindən dəstəklənir. Burada isə söhbət xalqın seçimindən gedir. Ona görə də əgər siz parlamentimizdəki vəziyyəti müsbət qiymətləndirirsinizsə, demək istəyirəm ki, bu, xalqımızın seçimidir. Xalqımızın seçimi isə kortəbii deyildir, məhz bizim bu illər ərzində apardığımız düzgün daxili və xarici siyasətlə şərtlənmişdir.

Düşünürəm ki, sizdə də qarşıdakı seçkilərdə müsbət nəticə olacaqdır. Mən Ukraynanın son illərki tarixinə bələdəm. Ukrayna gah oraya, gah da buraya silkələnirdi, xalq artıq kimin kim olduğunu görmüşdür. Bilirəm, sizdən əvvəl RADA-nın başqa sədrləri olmuşdur. Sonra isə sizi seçdilər. Sizi nə üçün seçdiklərini bilirəm. Ona görə ki, bu, sabitliyə doğru aparan yoldur və əminəm ki, siz qalib gələcəksiniz.

Leonid Daniloviç Kuçmaya mənim böyük hörmətim var. Hesab edirəm ki, onun ikinci müddətə prezident seçilməsi Ukrayna xalqı üçün böyük nailiyyətdir. Sözün düzü, mən onun tərəfini saxlayırdım, bu gün Kuçmanın Ukrayna xalqı üçün kimliyi barədə öz fikrimi hər vasitə ilə, sizin televiziyanız vasitəsi ilə də bildirdim.

İndi sizdə bəzi hadisələr baş verir. Düşünürəm ki, siz onları aradan qaldıracaqsınız. Əgər siz Leonid Daniloviç Kuçmanın ətrafında sıx birləşsəniz, sağlam qüvvələri birləşdirsəniz, zənnimcə, qarşıdakı seçkilərdə sabit parlamenti təmin edəcəksiniz və o, gələcəkdə işləyəcəkdir. Bilirəm, Leonid Daniloviç mənə deyibdir. İslahat aparmaq lazımdır, o, təklifi parla-

mentə təqdim edir, parlament rədd edir. Ona görə rədd edir ki, bu islahat yaramır, ona görə rədd edir ki, şəxsi münaqişə gedir. İndi bizim parlamentimiz rədd etmir, amma müxalifətimiz deyir ki, parlament Əliyev tərəfindən idarə olunur. Bu cəfəngiyatdır. Parlamenti Əliyev idarə etmir.

Parlamentdə deputatların çoxu başa düşür ki, torpaq islahatı aparmaq lazımdır. Biz onu hələ 1995-ci ildə aparmağa başlamışıq. Torpağı tamamilə özəlləşdirmişik. Mən bunu ona görə deyirəm ki, Ukraynada kənd təsərrüfatının çox mühüm yer tutduğunu bilirəm. Amma mənə o da məlumdur ki, siz bu məsələni indiyədək parlamentdən keçirə bilmirsiniz.

**İvan Plyuşş:** Artıq birinci oxunuşda keçirmişik.

**Heydər Əliyev:** Nəhayət ki. Biz isə onu 1995-ci ildə keçirmişik və artıq konkret nəticələr var. Bilirsiniz ki, keçmişdə biz özümüzü heyvandarlıq məhsulları ilə təmin edirdik. Onları Ukraynadan, Belarusdan, Rusiyadan alırdıq. İndi isə bizdə ət, süd boldur, bütün heyvandarlıq məhsulları boldur. Çünki onları bizim kəndlinin özü istehsal edir. Mən bu yaxınlarda bir kənd sakini ilə söhbət etdim. O mənə dedi ki, onların kəndində min baş qoyunu olan adamlar var. Təsəvvür edirsinizmi?! Yəqin ki, onun, bir kəndli ailəsinin 50–60 baş qaramalı var. Məsələn, mən mal-qaranın sayının, heyvandarlıq məhsullarının artım sürətini bilirəm. Siz daha yaxşı bilirsiniz, axı kənd təsərrüfatı mütəxəssisisiniz. İşlədiyim illərdə bu məsələləri mən də yaxşı öyrənmişəm.

Sovet sistemi şəraitində qaramalı orta çəki dərəcəsinə çatdırmağın necə ağır olduğunu bilirəm. Yaxud, məsələn, əgər sağıcı 5000 litr süd sağırdısa, o, artıq qəhrəman idi. Xatirimdədir, o vaxtlar, rəhbərliyə başladığım 1969-cu ildə bizdə qaramalın orta çəkisi təxminən 200 kiloqram idi. Brejnev bir dəfə plenumda çıxış edərkən dedi ki, bu nədir, siz keçi saxlayırsınız, yoxsa inək? Yaxud, məsələn, hər toyuqdan neçə yumurta almaq olar. İndi bizdə belə bir problem yoxdur. Qətiy-

yən yoxdur. Artıq özümüz bundan qat-qat çox əldə edirik. Ona görə də bu keçid dövründə icra hakimiyyəti ilə qanunvericilik hakimiyyətinin ahəngdar işi xüsusilə böyük əhəmiyyətə malikdir. Hakimiyyətin hər iki qolunun nümayəndələri dövlətin mənafelərini, bazar iqtisadiyyatına, özəlləşdirməyə keçidlə bağlı bu və ya digər proqramların həyata keçirilməsinin nə dərəcədə önəmli olduğunu başa düşməlidirlər.

İnanıram ki, sizdə hər şey olacaqdır, çünki mən yaxşı meyl olduğunu görmüşəm. Ən başlıcası, Leonid Daniloviçin ətrafında sıx birləşin.

**İvan Plyuşş:** Mənə elə gəlir ki, bu aksiomadır. Ötən ilin timsalında belə deməyə, həqiqətən, əsasımız var ki, biz geriləmənin qarşısını hər halda almışıq. Ən çətini artıq arxada qalmışdır.

Leonid Daniloviç ikinci müddətə prezident seçildikdən sonra onun ilk fərmanı aqrar islahat haqqında olmuşdur. Əgər o, noyabrın 14-də seçilmişdirsə, artıq dekabrda torpaq islahatı haqqında fərman çıxmışdır. Bizdə dekabr, yanvarda haray-həşir salırdılar ki, aclıqdır, bu, ərzaq müstəqilliyinin itirilməsidir. Aradan bir il keçdi və biz son 10 ildə ilk dəfə olaraq kənd təsərrüfatı məhsulları istehsalını 7 faizdən çox, sənaye məhsulunu 13 faiz, ümumi daxili məhsulu 6 faiz artırdıq. Biz birinci ili Beynəlxalq Valyuta Fondundan yardım almadan yaşadıq, çünki bu fond əməkdaşlıq proqramını 1999-cu ilin oktyabrından dayandırmışdı.

Fevralda biz ilk dəfə olaraq kəsirsiz sabitləşdirmə büdcəsi qəbul etdik. Xarici borcumuzu 2,5 milyard dollar azaltdıq, valyuta ehtiyatlarını 41 faiz artırdıq. Halbuki 15 ay ərzində heç bir sərmayə olmamışdı. İndi məsələ belə durur ki, həmin təsisatlar qarşısında özümüzü təmizə çıxarmaq və izahat vermək bizi, sadəcə, bezikdiribdir. Əgər bu Çernobıl fəlakəti, bu faciə olmasaydı… Yoxsa bizi o həddə gətiriblər ki, az qalır deyək, aman verin işləyək, sizsiz də ötüşərik. Axı biz 1995-ci

ilin memorandumu üzrə öhdəliklərimizi yerinə yetirmişik. 1995-ci il memorandumunda üzvi yanacaq alınması, enerji güclərinin bərpa edilməsi üçün kompensasiya nəzərdə tutulmuşdu. İndi də hər şeyi öz üzərimizə götürmək çətin olardı.

**H e y d ə r  Ə l i y e v:** Çernobıl bağlandı, kompensasiyanı isə almadınız.

**İ v a n  P l y u ş ş:** Biz Çernobılı bağladıq, 4000 işçi isə hələ də Çernobıla gedir. Onlar elektrik enerjisi istehsal edirlər. Odur ki, bu sənaye meydançasında bir milyard dollaradək vəsaitdən istifadə olunmalıdır. Axı bu meydança ilə bağlı nə varsa, onların dəyəri 780 milyon dollardır və yeni örtük gərəkdir. Orada min tonlarla nüvə yanacağı var. Çernobılı bağlamaqla bu məntəqənin təhlükəsizliyi azalmayıb, əksinə, artıbdır.

**H e y d ə r  Ə l i y e v:** Məncə, stansiyanın tamamilə örtülməsinə dair layihə var. Bundan ötrü pul lazımdır.

**İ v a n  P l y u ş ş:** Özü də böyük məbləğdə. Ona görə də biz inandırmağa məcburuq. Sizin nə kimi iş gördüyünüzü bir daha demək istəyirəm. Gəlin Belarusun timsalında nəzərdən keçirək. Orada siyasi qüvvələr arasında pərakəndəlik dəhşətli dərəcədədir. Leonid Kuçma da deyir ki, 100-dən çox partiya və xalqın ümumi etimadı 1,5 faiz olan ölkədə necə qanun yaratmaq olar. Başlıcası budur ki, biz görürük. 1996-cı ildə Ukraynanın vahid demokratik qüvvələrinin birinci qurultayını keçirdik. Əgər Yeni Azərbaycan Partiyası kimi partiya yaratsaydıq, onda 1998-ci ildə bizə lazım olan parlamentə seçkilər keçirərdik. Amma 1997-ci ildən 1999-cu ilədək boş-boşuna işlədik. Kuçma ikinci müddətə seçildi. O görür ki, islahatın alternativi yoxdur, fərman verir, parlament isə hər gün qışqırır ki, o, xalqın düşmənidir. Necə bir şəraitdə işləməli olduğumuzu təsəvvür edirsinizmi?

Bugünkü vəziyyətə gəldikdə, çoxları deyir ki, Ukraynada siyasi böhran var. Heç bir böhran yoxdur. Çünki legitim, fəaliyyət qabiliyyətli prezident var. Hökumət, Baş nazir var.

Onun namizədliyini prezident təklif etmiş, parlament onu, eləcə də bu hökumətin proqramını bəyənmişdir. Əlbəttə, bu gün hökumətdən, prezidentin xəttindən narazı olan ayrı-ayrı siyasi qüvvələr mövcuddur. Onlar demokratiyanın üstünlüyü metodlarından istifadə etməyə çalışırlar.

Mən üç həftə bundan əvvəl ABŞ konqresmenlərini qəbul etdim. Onlar deyirdilər ki, bizi daha çox Ukraynada söz azadlığı, demokratiya maraqlandırır.

Deyirəm ki, bax, bu çadır şəhərciyinin olması və bu küçə nümayişi sübut edir ki, bizdə demokratiya və söz azadlığı var. İslahatlar isə pis gedir. Ona görə ki, biz islahatları mahnı oxuya-oxuya həyata keçirmirik. Əgər islahatları kollektivləşdirmə, sənayeləşdirmə illərindəki kimi mahnı oxuya-oxuya aparsaydıq, onları çoxdan başa çatdırardıq.

Siz dediniz ki, islahatlar xalqın əksəriyyətinin şüurundan keçməlidir. Bax, bu siyasi qüvvə – Yeni Azərbaycan Partiyası məhz xalqın arzu-istəklərinin həyata keçirilməsini təmin edir. Ona görə də biz təkcə təcrübəni öyrənməyəcək, həm də mart ayınadək bu cür koalisiya yaradılması üçün hər şeyi edəcəyik.

**H e y d ə r  Ə l i y e v:** Mən bir daha deyirəm ki, biz – Ukrayna ilə Azərbaycan dostuq. Mən bu dostluğa, əməkdaşlığımıza böyük əhəmiyyət verirəm. İnanıram ki, Ukrayna getdiyi yolla – demokratiya, islahatlar aparılması yolu ilə gedəcəkdir. İnanıram ki, siz mövcud olan bəzi çətinlikləri aradan qaldıracaqsınız və bizim köməyimizə, rəğbətimizə həmişə bel bağlaya bilərsiniz. Həqiqətən, o vaxt, inişil Leonid Daniloviç mənə zəng edib dedi ki, bol məhsul tələf olub gedir. Mən dərhal göstəriş verdim ki, heç nəyə baxmadan, hər şey səfərbərliyə alınsın və göndərilsin. Biz bunu etdik və bu öz rolunu oynadı. Dost dar gündə tanınar.

**İ v a n  P l y u ş ş:** Heydər Əliyeviç, maraqlıdır ki, biz nə bu il, nə də ötən il məhsul yığımı işlərinin yanacaqla təmin olunması haqqında bir dənə də qərar qəbul etmədik. Fevralın

1-ə kənd təsərrüfatı məhsulları istehsalçılarında yanacaq ehtiyatları əvvəlki ildəkinə nisbətən 1,7 dəfə çox idi. Hazırkı kənd təsərrüfatı ili əvvəlki illərlə müqayisədə hələlik əlverişlidir. Biz ötən ildəkinə nisbətən təxminən 2 milyon hektardan çox payızlıq əkin sahəsinə malikik. Bu, yazda xərcləri azaldır, yazlıq bitkilər üçün əkin sahələri boşalır. İndi meyl belədir ki, bizdə ötən il özəl sektorda 12-13 faiz artım, ictimai sektorda isə 4–6 faiz azalma olmuşdur.

Əlbəttə, sənaye də işləyir. Keçən il pensiyalar üzrə, büdcə təşkilatlarına əmək haqqının ödənilməsi üzrə borcları ləğv etdik. Bu ilin iki ayında büdcəyə mədaxil ötən illə müqayisədə təxminən 130 faiz səviyyəsindədir. Aprelin 1-dən büdcə təşkilatlarında əmək haqqını təxminən 25 faiz artıracağıq. Əgər bütün bunları etsək, zənnimcə, seçkilərdə adamlar bunu da xatırlayacaqlar.

**H e y d ə r  Ə l i y e v:** Və nəticə də olacaqdır.

## QURBAN BAYRAMI MÜNASİBƏTİLƏ AZƏRBAYCAN XALQINA TƏBRİK

Əziz həmvətənlərim!

Sizi dünya müsəlmanlarının həmrəylik və qardaşlıq rəmzi olan müqəddəs Qurban bayramı münasibətilə ürəkdən təbrik edir, bütün xalqımıza ən səmimi arzu və diləklərimi yetirirəm.

Uca Tanrının islamı bir din kimi tamamlayıb insanlar üçün hidayət yolu seçdiyi bu mübarək gün Xaliqin bəxş etdiyi nemətlərə görə minnətdarlıq duyğularını, insanlar arasında mehribanlıq, şəfqət, dostluq və qardaşlıq münasibətlərinin təntənəsini təcəssüm etdirir.

Müstəqil Azərbaycanda hər il dövlət səviyyəsində qeyd olunan Qurban bayramı xalqla dövlətin yekdil birliyini, dərin köklərə bağlılığımızı, adət-ənənələrə, milli-dini dəyərlərə sadiqliyimizi nümayiş etdirir.

Bu əziz gündə torpaqlarımızın bütövlüyü uğrunda canlarından keçmiş şəhidlərimizin müqəddəs ruhuna dualar oxunur, Ölkəmizin əmin-amanlığı, xalqımızın xoşbəxt gələcəyi naminə diləklər edilir. Bu xeyirxah dua və niyyətlərə, bayram sevincinizə qoşularaq, əmin olduğumu bildirirəm ki, biz bu gün üzləşdiyimiz bütün çətinliklərin öhdəsindən milli həmrəyliyimizlə, xalqımızın mətin əzm və iradəsi ilə uğurla gələcək, vətənimizin yüksək tərəqqisinə, dövlət müstəqilliyimizin əbədiliyinə nail olacağıq.

Əziz bacı və qardaşlarım!

Ulu Tanrıdan hər birinizə xoşbəxtlik, ailələrinizə firavanlıq, ocaqlarınıza xeyir-bərəkət arzulayıram.

Qurban bayramınız mübarək olsun!

**HEYDƏR ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı şəhəri, *2 mart 2001-ci il*

## FRANSAYA İŞGÜZAR SƏFƏRƏ YOLA DÜŞMƏZDƏN ƏVVƏL BAKININ BİNƏ BEYNƏLXALQ HAVA LİMANINDA JURNALİSTLƏRİN SUALLARINA CAVAB

*3 mart 2001-ci il*

**H e y d ə r  Ə l i y e v:** Mənim Parisə yola düşməyim artıq respublikada məlumdur. Mən bunu Milli Məclisin iclasında da demişəm, mətbuat da yazıb, hamı bilir. Ona görə də bu barədə hansısa bir bəyanat verməyə ehtiyac yoxdur. Sizin nə sualınız varsa, mənə verin.

**S u a l: Cənab Prezident, Robert Köçəryan bildirib ki, prezident Jak Şirakın iştirakı ilə üçtərəfli görüşdən əlavə, Sizinlə iki dəfə görüşəcəkdir. Orada hər hansı yeni bir təklif müzakirə olunacaqmı, yoxsa əvvəlki üç təklifdən doğan dördüncü bir təklif olacaq?**

**C a v a b:** Sən özün bir şey quraşdırırsan, istəyirsən ki, mən buna cavab verim. Mən bilmirəm ki, o deyib iki görüş olacaqdır. Gedəcəyəm ora, görüşəcəyik, əgər lazım olsa, iki dəfə görüşəcəyik, lazım olsa üç dəfə, dörd dəfə görüşəcəyik. Hər halda, biz bu görüşləri aparırıq ki, Ermənistan–Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin sülh yolu ilə həll olunmasında müəyyən bir razılığa gələk. Bu razılığa gəlmək üçün on dəfə görüşmək lazım olsa, mən on dəfə də görüşəcəyəm.

**S u a l: Cənab Prezident, Azərbaycan bu görüşə yeni təklif aparırmı?**

**C a v a b:** Mən təklif aparmıram, təklifi ondan gözləyirəm.

**S u a l: Cənab Prezident, Azərbaycan ictimaiyyətinin əksər hissəsi müharibəyə hazır olduğunu bildirib. Buna Sizin münasibətiniz necədir?**

**C a v a b:** Mən münasibətimi Milli Məclisdə demişəm. Birincisi, sən hardan bilirsən ki, Azərbaycan ictimaiyyətinin əksəriyyəti bunu bildiribdir? Sən hardan bilirsən? Belə məsuliyyətsiz sözləri niyə deyirsən? İndi sən, o birisi, bu birisi ömründə döyüşlərdə olmayanları, müharibədən xəbəri olmayanları küçədən tutub gətirirsiniz, biri nə bilim «göy polkovnikdir», biri nədir… Bəli, müharibə istəyənlər var. Amma onlar həqiqi müharibə istəyənlər deyillər. Onlar torpağı azad etmək istəyənlər deyillər. Amma bu birilər isə həmin o müharibə vaxtı qarmaqarışıqlıqdan istifadə edib öz şəxsi məqsədlərinə nail olublar, indi də həmin o dövrü təkrarlamaq istəyirlər. Müharibə etmək çətin deyil. Ancaq müharibəni aparmaq və istədiyimiz məqsədlərə nail olmaq – əsas bunlardır. Küçədə oturan, məsuliyyət daşımayan adam hər şey deyə bilər. Mən məsləhət görürəm ki, televiziyaya respublikanın tanınmış adamlarını, Azərbaycana ürəyi yanan adamları çıxarın. O adamlar ki, televiziyaya çıxırlar – xüsusən də ANS-də – onların hamısının kimliyi məlumdur. Onların heç biri heç bir döyüşdə iştirak etməyibdir. Gəlib deyir ki, mən döyüşməliyəm, qan tökməliyəm. Get qan tök. Bəs o vaxt niyə qan tökmədin? Niyə sənin bir dırnağın da cızılmadı?

**S u a l: Cənab Prezident, təcrübəli dövlət xadimi və siyasi xadim kimi, Siz münaqişənin həllinin hansı variantına üstünlük verirsiniz?**

**C a v a b:** Ay qızım, bunu mən Milli Məclisdə demişəm və bizim Milli Məclisdəki müzakirəmiz – əgər siz doğrudan da dünyadan məlumat alırsınızsa – indi bütün dünyada böyük əks-səda doğurubdur. Ermənistan iki gün, necə deyərlər, çaxnaşmaya düşübdür. Narazı olubdur ki, niyə mən bu sənədi dərc etdirmişəm. Bundan sonra onlar axırıncı sənədləri dərc

etdiriblər. Sonra isə əvvəlki iki sənədi də dərc etdiriblər. Ona görə də mənim həyata keçirdiyim tədbir, birincisi, ondan ibarət idi ki, Milli Məclis indiyə qədər məsələni müzakirə etmək istəyirdi, verdik müzakirəyə. Müzakirədə konkret bir şey deyən olmadı, indi gözləyirəm ki, bir şey desinlər.

ATƏT-in fəaliyyətdə olan sədri buraya gəlmişdi. Mən onunla iki saat təkbətək danışmışam. Sonra nümayəndə heyəti ilə birlikdə onunla iki saat danışmışam. Axşam üç saat yemək vaxtı danışmışam, gecə saat 12-də ondan ayrılmışam. Mən vaxtımı buna sərf edirəm. Amma o mənə dedi, mən də proqramdan bilirdim ki, müxalifət nümayəndələri ilə görüşəcəkdir. Gəldi görüşdü. Həmin o hay-küy salan adamlar niyə gəlib orada sözlərini demədilər? Özlərini ən böyük lider hesab edən partiya rəhbərləri niyə gəlib öz sözlərini demədilər?

Mən Milli Məclisdə dedim ki, kimin sözü varsa, desin. Milli Məclisdə desin, Milli Məclisdə demir, mətbuatda desin. Mətbuatda demir, Birləşmiş Millətlər Təşkilatına, ATƏT-ə desin. Bundan artıq fürsət ola bilərdimi? ATƏT-in yeni fəaliyyətə başlamış sədri böyük bir nümayəndə heyəti ilə – onun tərkibində həm ATƏT-in keçmiş sədrinin, Avstriyanın nümayəndəsi, həm də ATƏT-in gələcək sədri olacaq Portuqaliyanın nümayəndəsi və başqa adamlar iştirak edirdilər – Azərbaycana gəlmişdi. Gedəydilər, öz sözlərini deyəydilər. Amma qaçıb gizləndilər.

**S u a l: Cənab Prezident, «Nezavisimaya qazeta»da erməni mənbələrinin yazıları dərc olunubdur. Orada bildirirlər ki, Qarabağla bağlı məsələnin Milli Məclisdə müzakirəsi Heydər Əliyevin qələbəsidir. Erməni mənbələri Köçəryanı artıq geri çəkilən tərəf kimi göstərir, hətta məsələni dondurmağı tövsiyə edirlər.**

**C a v a b:** Bilirsinizmi, mən özümü hələ qalib hesab etmirəm. İndi kim nə cür hesab edir, qoy etsin. O vaxt biz, təkcə mən yox, Azərbaycan özünü qalib hesab edə bilər ki, məsələ-

nin ədalətli həllinə nail olaq. Onda deyərik ki, bəli. Biz heç onda da «qalib» sözünü işlətməyəcəyik. Çünki biz böyük məğlubiyyətlərə uğramışıq. Əgər biz öz torpaqlarımızı azad edə bilsək, insanları oraya qaytarsaq, azı 10–15 il lazımdır ki, onların ev-eşikləri, binaları tikilsin. Buna ömür lazımdır, iradə lazımdır. Lazımdır ki, Azərbaycana rəhbərlik edən şəxs xalqa can yandırsın.

Mən orada, Milli Məclisdə dedim ki, oturmusunuz burada, gedin o çadırlarda yaşayın. On gün o çadırda yaşayın. Əgər evini vermək istəmirsənsə, o çadırdakına de ki, mənə burada bir yer ver, mən də səninlə 10 gün yaşayacağam. Hansı gedib yaşayıbdır, onların hansı çadırda yaşayan adamlar haqqında düşünür?

Mən bu dərddən gecə-gündüz yata bilmirəm. Mənim gördüyüm tədbirlərin bəlkə də yüzdə birini heç kəs bilmir. Mən xalqın dərdini, millətin dərdini çəkirəm və məsuliyyətimi dərk edirəm ki, Azərbaycanın prezidentiyəm.

**S u a l: Cənab Prezident, Milli Məclisdəki müzakirələrdən sonra münaqişənin həlli ilə bağlı az təkliflərin verilməsini necə qiymətləndirirsiniz?**

**C a v a b:** Heç bir şey verilməyib, necə qiymətləndirəcəyəm? Elə mən bilirdim ki, verməyəcəklər də.

**S u a l: Cənab Prezident, Sizcə, danışıqlar prosesində irəliləyiş mümkündürmü?**

**C a v a b:** Bilirsənmi, irəliləyişə nail olmağa biz neçə ildir ki, çalışırıq. Əlbəttə, biz çalışırıq ki, irəliləyişə nail olaq. İrəliləyiş nə vaxt olacaq? Bunu deyə bilmərəm.

**S u a l: Cənab Prezident, Fransada danışıqlara hansı ümidlərlə gedirsiniz?**

**C a v a b:** O ümidlərlə gedirəm ki, danışıqlarda bir irəliləyiş olsun.

**S u a l: Dağlıq Qarabağa ən yüksək muxtariyyətin verilməsi ilə bağlı nə deyə bilərsiniz?**

**C a v a b:** Birinci, ikinci təkliflərdə bu vardı. Mən onunla razıyam. Amma Ermənistan onu qəbul etmədi. İndi də Milli Məclisdə oturanlar, təkcə onlar yox, kənarda olanlar, xüsusilə müxalifət deyir ki, bunların heç birini qəbul etmək olmaz. Yaxşı, mən razıyam, heç birisini qəbul etmək olmaz. De görüm, sən nə təklif edirsən? Sən gözləyirsən, bir balaca imkan olsun ki, hay-küy salasan, yığışasan. Ola bilər Milli Məclisin müxalifətə bir xeyri o oldu ki, bir-birindən zəhləsi gedən adamların hamısı yığışdı bir yerə. Mən onlara kömək etdim. Amma bu da müvəqqətidir. Bir azdan sonra dağılacaqlar. Çünki onların hərəsi öz iddiası ilə yaşayır.

**S u a l: Cənab Prezident, Köçəryan bildirir ki, budəfəki danışıqlarda irəliləyiş olacaqdır. Sizcə o nəyi nəzərdə tutur?**

**C a v a b:** Axı bu sual verildi, nə üçün təkrar edirsən?

**S u a l: Cənab Prezident, beynəlxalq ictimaiyyətin təsiri altında Köçəryanın geri çəkilməsindən danışılır. Bu geriçəkilmə Ermənistanın Dağlıq Qarabağın yüksək muxtariyyəti ilə razılaşması ola bilərmi?**

**C a v a b:** Bu barədə heç nə deyə bilmərəm.

**S u a l: Cənab Prezident, Qarabağ əlilləri ilə bağlı onların cəmiyyətində yoxlamalar oldu, bir neçə Qarabağ əlili həbs edildi. Onların müəyyən sosial tələbləri var idi. Qəbulla bağlı Sizə müraciət etmişdilər. Onları qəbul edəcəksinizmi?**

**C a v a b:** Birincisi, mən onların müraciətini almamışam. İkincisi, onlarla məşğul olan bizim müvafiq orqanlar vardır. Onlar məşğul olacaqlar, ölçü götürəcəklər. Bunu şişirtmək lazım deyildir. Qızım, sənə yenə də məsləhət görürəm ki, belə şeyləri şişirtmə. Bilirsənmi, Qarabağ əlilləri təkcə oraya yığışanlardan ibarət deyildir. 7-8 min Qarabağ əlili vardır. Bunlar onları təmsil etmirlər. Amma mən bu işlərlə məşğul olmuram.

**S u a l: Cənab Prezident, Sizcə, işğal edilmiş rayonlardan hansının azad olunması ehtimalı daha yüksəkdir?**

**C a v a b:** Bunların hamısı özümüzün suallarıdır.

**S u a l: Cənab Prezident, NTV-də «Qarabağ sülh ordusu» adlı veriliş hazırlanıb, onun efirə getməsinin qarşısı alındı. ANS teleşirkəti bu məsələni qaldırdı. Azərbaycanın Rusiyadakı səfiri də bunun qarşısını aldı, yəni veriliş efirə getmədi. Respublikamızın əhalisini narahat edən belə məlumatlar yayan həmin kanalların verilişlərinin Azərbaycanda məhdudiyyətsiz yayımlanmasına necə baxırsınız?**

**C a v a b:** Biz heç kəsə məhdudiyyət qoymuruq. İndi mətbuat və söz azadlığıdır. Sağ olun.

## *AZƏRBAYCAN RESPUBLİKASININ PREZİDENTİ HEYDƏR ƏLİYEV PARİSƏ GƏLMİŞDİR*

*Azərbaycan Respublikasının prezidenti Heydər Əliyev martın 3-də Fransa paytaxtına işgüzar səfərə gəlmişdir.*

*Respublikamızın rəhbərinin şərəfinə Parisin beynəlxalq Orli hava limanında fəxri qarovul dəstəsi düzülmüşdür.*

*Azərbaycan prezidenti Heydər Əliyevi hava limanında Fransa hökumətinin yüksək vəzifəli şəxsləri və ölkəmizin Parisdəki səfiri Eleonora Hüseynova qarşıladılar.*

*Dövlətimizin başçısı fəxri motosikletçilər dəstəsinin müşayiəti ilə Parisdə onun üçün ayrılmış iqamətgaha gəldi.*

*Burada prezident Heydər Əliyevi Fransada təhsil alan azərbaycanlı tələbələr hərarətlə qarşıladılar. Respublikamızın rəhbərinə gül dəstəsi təqdim edildi.*

*Prezident Heydər Əliyev tələbələri mehribanlıqla salamladı, təhsildə və gələcək işlərində onlara uğurlar arzuladı.*

*Görkəmli dövlət xadimi, xalqımızın müdrik rəhbəri prezident Heydər Əliyev ilə görüşməkdən böyük şərəf duyduqlarını bildirən gənc soydaşlarımız respublikamızın rəhbərini əmin etdilər ki, onlar Fransada öz təhsillərini uğurla başa vuracaq, burada oxuduqları müddətdə Azərbaycanın haqq işinin Avropanın bu nüfuzlu ölkəsində geniş təbliğ olunması üçün bütün imkanlardan istifadə edəcəklər.*

# FRANSADA TƏHSİL ALAN SOYDAŞLARIMIZLA GÖRÜŞ*

*Paris,*
*Azərbaycan prezidentinin iqamətgahı*

*3 mart 2001-ci il*

*Görüşə gələnlər prezident Heydər Əliyevi hərarətlə qarşıladılar. Respublikamızın rəhbərinə gül dəstəsi təqdim edildi.*

*Dövlətimizin başçısı Heydər Əliyev tələbələri mehribanlıqla salamladı, təhsildə və gələcək işlərində onlara uğurlar dilədi.*

*Görkəmli dövlət xadimi, xalqımızın müdrik rəhbəri prezident Heydər Əliyev ilə görüşməkdən böyük şərəf duyduqlarını bildirən gənc soydaşlarımız dedilər:*

– Cənab Prezident, mən Şərq Dilləri və Ölkəşünaslıq İnstitutunda Azərbaycan dilini tədris edirəm.

– Cənab Prezident, mən də Sorbonna Universitetinin beynəlxalq Münasibətlər fakültəsində «Ermənistan–Azərbaycan münaqişəsi Azərbaycanın xarici siyasətində» mövzusunda elmi iş müdafiə etmişəm. Bu, Fransada həmin mövzuda fran-

---

* Görüşdə Şərq Dilləri və Ölkəşünaslıq İnstitutunun Azərbaycan dili müəllimi Elnurə Zeynalova, Sorbonna Universiteti Beynəlxalq Münasibətlər fakültəsinin diplomatiya və siyasət şöbəsinin doktorantı Turab Qurbanov, həmin şöbənin magistri və Paris Beynəlxalq Diplomatiya Akademiyasının tələbəsi Fuad Paşayev, Sorbonna Universiteti hüquq fakültəsinin tələbəsi İnam Kərimov, Qrenobl Avropa İnstitutunun Beynəlxalq Təhlükəsizlik və Müdafiə bölməsinin doktorantı Fazil Zeynalov, Qrenobl Siyasi Elmlər İnstitutunun magistrləri Məzahir Məmmədov, Fuad Rəhimov, Ali Musiqi Akademiyasının tələbəsi Murad Hüseynov, Sorbonna Universitetinin tələbəsi Mehri Quliyeva və Fransada yaşayan soydaşlarımız iştirak edirdilər.

sız dilində ilk dəfə müdafiə olunmuş elmi əsərdir. Azərbaycan dövlətçiliyinə göstərdiyiniz misilsiz xidmətinizə görə bunu Sizə təqdim edirəm.

**Heydər Əliyev:** Çox sağ olun. Yaxşı işlər görürsünüz. Mən bir neçə il bundan öncə belə şeyləri görə bilmirdim.

– Cənab Prezident, biz keçən il Avropada ilk dəfə olaraq Azərbaycan tələbələrinin assosiasiyasını yaratmışıq. Bu assosiasiya ötən il Strasburqda fəaliyyətə başlayıbdır. Biz bu il Parisdə assosiasiyanın filialını açmışıq. Keçən ay tələbələr adından Strasburqda Azərbaycan mədəniyyəti günləri keçirmişik. İstəyirik ki, bu yaxınlarda Fransada Azərbaycanı təmsil edən jurnal buraxaq. Eyni zamanda iki ay ərzində internet saytı yaratmağı nəzərdə tutmuşuq. Bu, Azərbaycan haqqında fransız dilində ilk sayt olacaqdır.

**Heydər Əliyev** (*Azərbaycanın Fransadakı səfiri*)**:** Siz fransız dilini mükəmməl bilirsiniz?

**Eleonora Hüseynova** Cənab Prezident, gözəl bilirlər.

– Cənab Prezident, sizin fevralın 2-də gənclərlə Bakıdakı görüşünüz zamanı dediyiniz sözlər bizim üçün örnəkdir. Yəni Azərbaycan gəncləri ölkəmizin gələcəyi üçün əllərindən gələni etməyə hazırdır və hər şeyi edəcəklər. Söz veririk ki, üzərimizə düşən vəzifələri şərəflə yerinə yetirək, bizə bəslənilən ümidləri doğruldaq. Biz hər zaman Sizi özümüzə nümunə bilirik.

**Heydər Əliyev:** Çox sağ olun. Strasburqda mətbuat konfransında gənc bir oğlan fransız dilində sual verdi. Sonra mən Azərbaycanda, Bakıda danışmışdım. Mənim üçün nə qədər sevinc gətirdi ki, o belə gözəl sual verdi. Ermənistan prezidentinə çox məzmunlu sual verdi, özü də fransız dilində. Mən bunlarla fəxr edirəm.

– Cənab Prezident, bizim təhsil sahələrimiz müxtəlifdir. Əsas təhsil sahələri hüquq, beynəlxalq münasibətlər sahələri-

dir. Ona görə də ümid edirik ki, bizim Fransada əldə etdiyimiz bilikləri sonra Azərbaycan üçün tətbiq etməyə nail olacağıq.

**H e y d ə r   Ə l i y e v:** Yaxşı oxuyun. Bizim gənclərə, gənc kadrlara ehtiyacımız vardır. Mən həmişə deyirəm, gənclərin toplantısında da demişdim, bilirsiniz, indi gənclər irəli getməlidirlər. Çünki biz yeni dövlət qururuq, yeni quruluşdayıq, yeni iqtisadiyyat qururuq. İndiyə qədər zəhmət çəkmiş, xidmət göstərmiş adamlar, təbiidir ki, bu gün də qiymətlidirlər. Amma nəsillər nəsilləri əvəz etməlidir. Gərək gənclər indi sürətlə inkişaf etsinlər ki, Azərbaycanda özlərinə məxsus yer tutsunlar və hansı ölkədə olursa-olsun, Azərbaycanı yaxşı təmsil etsinlər. Təkcə gedib səfirlikdə işləmək üçün yox.

İndi biz müstəqil dövlətik. Müxtəlif ölkələrə çoxlu nümayəndə heyətləri göndərmək lazım olur. Məsələn, çox vaxt çətinlik çəkirik ki, bizim nümayəndə heyətinin üzvləri xarici dilləri bilmirlər. Onlarla tərcüməçi göndərmək lazımdır. Amma məsələ təkcə dil bilməkdə deyildir. Məsələn, Fransada siz təkcə dil öyrənmirsiniz, Fransanı öyrənirsiniz, Avropanı öyrənirsiniz, burada olan təhsil sistemini öyrənirsiniz. Bunlar hamısı bizim üçün lazımdır. Mən çox sevinirəm.

– Cənab Prezident, mən Sorbonna Universiteti beynəlxalq münasibətlər fakültəsinin diplomatiya və siyasət şöbəsinin beşinci kurs tələbəsiyəm. Şəxsən bir tələbə kimi, Azərbaycan Respublikasının vətəndaşı kimi, söz verirəm ki, diplomatiya sahəsində gələcəkdə Azərbaycan üçün əlimdən gələni edəcəyəm.

**H e y d ə r   Ə l i y e v:** Yaxşı oxuyun, təhsilinizi tez qurtarın.

– Cənab Prezident, Azərbaycan dili artıq ikinci ildir ki, Parisdə Şərq Dilləri və Ölkəşünaslıq İnstitutunda tədris olunur. Azərbaycan dilini mən tədris edirəm. Burada Azərbaycan dilinin öyrənilməsinə maraq böyükdür. Təkcə dilə yox, mədəniyyətimizə də maraq böyükdür.

**E l e o n o r a   H ü s e y n o v a:** Cənab Prezident, buradakı gənclərimiz həm fəal, həm savadlı, həm də vətənpərvərdirlər. Əsas odur ki, ürəkləri Azərbaycan üçün yanır. Mən həmişə onlarla görüşəndə bunu hiss edirəm, görürəm.

– Cənab Prezident, hörmətli səfirimiz bilir. Bizim əsas məqsədimiz Fransadakı tələbələrimizi birləşdirməkdir və bunu qismən həll etmişik. Səfirimizə təşəkkür edirik və ona demişik ki, istəyirik birləşməyimiz birbaşa Azərbaycan dövlətinin himayəsi altında olsun. Digər tərəfdən isə, istəyirik ki, Fransada tələbələrimizin sayı çox olsun. Çünki biz burada ölkəmizin ikinci dərəcəli səfirləriyik, diplomatlarıyıq. Ona görə də ümid edir və inanırıq ki, Azərbaycan dövləti, cənab Prezident, şəxsən Siz özünüz burada tələbələrin vəziyyətinin yaxşılaşmasına, sayının çoxalmasına diqqət göstərirsiniz.

**H e y d ə r   Ə l i y e v:** Çox gözəl, şadam.

– Cənab Prezident, Azərbaycandan uzaqda olsaq da, ölkəmiz üçün hər şey etməyə söz veririk və bunu edəcəyik. Biz bu sözü Azərbaycan xalqının böyük etimad göstərdiyi bir şəxsiyyətin qarşısında deyirik.

**H e y d ə r   Ə l i y e v:** Çox məmnunam. Xalqımızın əsas problemini bilirsiniz. Bu, Ermənistan–Azərbaycan münaqişəsidir. Görürsünüz, bir ay keçməyibdir, mən yenidən danışıqlar aparmaq üçün buraya gəlmişəm. Yəqin siz eşitmisiniz ki, burada danışıqlar aparandan sonra Milli Məclisdə bu məsələni müzakirə etdik. Təəssüflər olsun ki, çoxları bu məsələnin nə qədər mürəkkəb, nə qədər çətin olduğunu indiyədək bilmirlər, hisslərə qapılırlar, hay-küylə məşğuldurlar.

Amma bu, nə qədər ağır, nə qədər çətin işdir. Çünki əgər bir ölkə o biri ölkənin torpaqlarının 20 faizini işğal edibsə, indi onları oradan ya hərb vasitəsilə çıxarmaq lazımdır – hər halda, hərb yolu indi o qədər də qəbul olunan yol deyil – ya da sülh yolu ilə. Əlbəttə ki, sülh yolu ilə çox çətindir və nə qədər danışıqlar aparırıq. Təkcə burada deyil, hər yerdə. Mən

bir ay müddətində ikinci dəfədir buraya gəlirəm. Danışıqları aparacağam ki, siz gənclər bundan sonra müstəqil Azərbaycanda rahat yaşayasınız.

– Cənab Prezident, sözünüzə qüvvət vermək üçün deyirəm ki, Sizə təqdim etdiyim elmi işi müdafiə etmək olduqca çətin idi. Çünki burada fransız professorlarına sübut etmək çətin idi ki, bu münaqişədə Azərbaycan haqlıdır.

Çətinliklərə baxmayaraq, bunu çox yüksək səviyyədə müdafiə etdim və elmi işimin iki nüsxəsi saxlanılmaq üçün Fransanın mərkəzi kitabxanalarına göndərilmişdir. Hazırda Sorbonna Universitetinin siyasi elmlər departamentində doktorantura təhsili alıram. Mən ilk azərbaycanlıyam ki, doktoranturaya qəbul olmuşam.

**Heydər Əliyev:** Sağ olun. Bilirsiniz, bizə qarşı, ölkəmizə, xalqımıza qarşı ədalətsizlik olubdur. Amma təəssüflər olsun ki, dünya ictimaiyyətində, bir çox ölkələrdə, o cümlədən Fransada bu ədalətsizliyi bilmirlər, ya da bilmək istəmirlər. Nə üçün? Çünki Ermənistan tərəfinin dünyada diasporu çox böyükdür. Onların təbliğatı böyükdür. Amma Azərbaycanın keçmişdə bu barədə imkanları heç olmayıbdır. Heç olmasa indi siz, necə deyərlər, yavaş-yavaş meydana gəlirsiniz. Bu bizə çox lazımdır. Çünki biz Azərbaycana qarşı edilən ədalətsizliyi, təcavüzü sübut etməliyik. Əgər bunu sübut etməsək, biz məsələni həll edə bilmərik. Burada da gərək hərə öz səyini qoysun.

– Cənab Prezident, biz Qrenobldan gəlmişik. Mən özüm Qrenobl şəhərindəki Avropa İnstitutunun Beynəlxalq Təhlükəsizlik və Müdafiə bölməsində doktorluq dissertasiyası yazıram. Allah qoysa, bu yaxınlarda institutumuzda ilk dəfə olaraq Azərbaycan haqqında elmi jurnal buraxılacaqdır. Həmin jurnal haqqında indi institutun rəhbərliyi ilə danışıqlar aparmışıq və onlar tam razılığını veriblər. Bu jurnal «Azərbaycan və beynəlxalq təhlükəsizlik» adı altında çıxacaqdır.

Bu nöqteyi-nəzərdən biz imkan dairəsində öz köməyimizi göstərəcəyik. Bu jurnal fransız və ingilis dillərində çıxacaqdır. Əgər belə olarsa, dünyada Azərbaycanın xeyrinə ictimai rəyin yaradılmasına mühüm kömək olacaqdır. Ümid edirəm, yaxın günlərdə bu jurnal işıq üzü görəcəkdir.

**Heydər Əliyev:** Bunlar çox lazımdır, çox lazımdır.

– Cənab Prezident, sonda demək istərdim ki, Fransanın keçmiş prezidenti Şarl De Qollun Parisdə 1958-ci ilin oktyabr ayında dediyi sözlər yadımıza düşür. O demişdi ki, Fransa böyük ölkədir, fransız xalqı böyük xalqdır və gələcəkdə Fransanın lazımi mövqe tutması üçün bütün xalq əlindən gələni edəcəkdir. Biz də hesab edirik, bu gün Azərbaycan gəncləri və Azərbaycan xalqı deyə bilər ki, Azərbaycan böyük ölkədir, Azərbaycan xalqı böyük xalqdır və Azərbaycan gələcəkdə böyük mövqe tutacaqdır. Biz bunun üçün əlimizdən gələni edəcəyik.

**Heydər Əliyev:** Bəli, siz gənclərin səyi ilə.

– Cənab Prezident, Sizə bütün işlərinizdə böyük müvəffəqiyyətlər arzulayırıq.

**Heydər Əliyev:** Çox sağ olun.

## AZƏRBAYCAN PREZİDENTİ HEYDƏR ƏLİYEVİN VƏ ERMƏNİSTAN PREZİDENTİ ROBERT KÖÇƏRYANIN TƏKBƏTƏK GÖRÜŞÜ

*Paris,*
*«Marini» sarayı*

*4 mart 2001-ci il*

*Görüşdə Ermənistan–Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin həll olunması məsələsi barədə ətraflı müzakirə aparan prezidentlər kompromis variantların axtarılıb tapılması üçün dialoqların davam etdirilməsinin vacib olduğunu bildirdilər.*

*Ermənistan prezidenti Robert Köçəryan ilə birbaşa danışıqlardan bəhs edən prezident Heydər Əliyev, eyni zamanda münaqişənin aradan qaldırılmasında Minsk qrupuna həmsədrlik edən ölkələrin –ABŞ-ın, Rusiyanın, Fransanın səylərinin daha da artırılmasına ehtiyac duyuldugunu nəzərə çatdırdı.*

*ATƏT-in və onun Minsk qrupu həmsədrlərinin Ermənistan–Azərbaycan münaqişəsinin sülh yolu ilə aradan qaldırılması sahəsindəki fəaliyyətini nəzərdən keçirən dövlət başçıları bu istiqamətdə səylərin daha da artırılmasının vacibliyini nəzərə çatdırdılar, Minsk qrupu çərçivəsində və birbaşa aparılan danışıqların bundan sonra da davam etdirilməsi haqqında yekdil fikirdə olduqlarını təsdiq etdilər.*

# YELİSEY SARAYINDA QARŞILANMA MƏRASİMİ

*5 mart 2001-ci il*

*Azərbaycan Respublikasının prezidenti Heydər Əliyev Fransa prezidentinin iqamətgahına – Yelisey sarayına gəldi. Sarayın qarşısındakı meydanda dövlətimizin başçısının şərəfinə fəxri qarovul dəstəsi düzülmüşdü.*

*Fəxri qarovul dəstəsinin rəisi respublikamızın rəhbərinə raport verdi. Azərbaycan prezidenti Heydər Əliyev hərbi marşın sədaları altında fəxri qarovul dəstəsinin qarşısından keçdi.*

*Fransa prezidenti Jak Şirak Azərbaycan prezidenti Heydər Əliyevi Yelisey sarayının önündə hərarətlə, mehribanlıqla qarşıladı.*

*Azərbaycan Respublikasının prezidenti Heydər Əliyevin Fransa Respublikasının prezidenti Jak Şirak ilə görüşü oldu. Dövlətimizin başçısı görüşdən sonra Parisdə onun üçün ayrılmış iqamətgaha qayıtdı.*

*Yerli vaxtla saat 11.00-da Azərbaycan prezidenti Heydər Əliyev yenidən Yelisey sarayına gəldi. Fransa prezidenti Jak Şirak Azərbaycan prezidenti Heydər Əliyevi sarayın qarşısındakı meydanda bir daha səmimiyyətlə, mehribanlıqla salamladı.*

*Daha sonra prezident Jak Şirakın, prezident Heydər Əliyevin və prezident Robert Köçəryanın görüşü başlandı. Üç saat davam edən görüşdən sonra prezidentlər yerli və xarici kütləvi informasiya vasitələrinin nümayəndələri üçün brifinq keçirdilər. Dövlət başçıları jurnalistlərin suallarına cavab verdilər.*

*Elə həmin gün Fransa prezidenti Jak Şirakın adından Azərbaycan prezidenti Heydər Əliyevin şərəfinə rəsmi ziyafət verildi.*

*Yelisey sarayının qarşısındakı meydanda yenidən fəxri qarovul dəstəsi düzüldü. Fransa prezidenti Jak Şirak Azərbaycan prezidenti Heydər Əliyevi hörmətlə, ehtiramla yola saldı.*

*Respublikamızın prezidenti Parisdə onun üçün ayrılmış iqamətgaha gəldi.*

# FRANSA PREZİDENTİ JAK ŞİRAK İLƏ GÖRÜŞ

*Paris,*
*Yelisey sarayı*

*5 mart 2001-ci il*

*Azərbaycan Respublikasının prezidenti Heydər Əliyev ilə Fransa Respublikasının prezidenti Jak Şirak arasında görüş olmuşdur.*

*Dövlətimizin başçısını səmimiyyətlə, mehribanlıqla salamlayan, Fransaya işgüzar səfərə gəldiyinə görə əziz dostu Heydər Əliyevə minnətdarlığını bildirən cənab Jak Şirak Azərbaycan rəhbəri ilə hər bir görüşündən məmnun qaldığını söylədi.*

*Səmimi sözlərə və işgüzar dəvətə görə Fransa dövlətinin rəhbərinə təşəkkürünü bildirən prezident Heydər Əliyev ölkələrimiz arasında yaranmış sıx əlaqələrə və prezident Jak Şirakla şəxsi dostluq münasibətlərinə böyük əhəmiyyət verdiyini vurğuladı.*

*Görüş zamanı Azərbaycan Respublikası üçün ən ağrılı problem olan Ermənistan–Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin həllinə dair geniş fikir mübadiləsi aparıldı. Respublikamızın rəhbəri Ermənistan silahlı qüvvələrinin təcavüzü nəticəsində yerindən-yurdundan zorla qovulmuş bir milyondan çox soydaşımızın əksəriyyətinin uzun illərdən bəri çadırlarda ağır şəraitdə yaşadığını bir daha xatırlatdı.*

*Bu münaqişənin tezliklə aradan qaldırılması üçün ATƏT-in Minsk qrupunun və onun həmsədrlərinin fəaliyyətindən ətraflı söhbət açan dövlətimizin başçısı problemin tezliklə həlli sa-*

*həsində Fransa dövlətinin və prezident Jak Şirakın səylərini yüksək qiymətləndirdi.*

*Ermənistan prezidenti Robert Köçəryan ilə birbaşa danışıqlarından bəhs edən prezident Heydər Əliyev, eyni zamanda münaqişənin aradan qaldırılmasında Minsk qrupuna həmsədrlik edən ölkələrin – ABŞ-ın, Rusiyanın, Fransanın səylərinin daha da artırılmasına ehtiyac duyulduğunu nəzərə çatdırdı.*

*Ermənistan–Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin tezliklə həll edilməsinin Cənubi Qafqaz bölgəsində sülhün, sabitliyin və təhlükəsizliyin bərqərar olunmasında, region dövlətlərində demokratiyanın daha sürətli inkişafında mühüm rol oynayacağını vurğulayan cənab Jak Şirak prezident Heydər Əliyev ilə prezident Robert Köçəryanın müntəzəm görüşlərinin münaqişəyə son qoyulması üçün vacibliyini söylədi. Cənab Jak Şirak Ermənistan–Azərbaycan münaqişəsinin bu ilin sonunadək sülh yolu ilə aradan qaldırılacağına ümidvar olduğunu bildirdi.*

*Görüşdə hər iki ölkəni maraqlandıran bir sıra digər məsələlər barədə də geniş fikir mübadiləsi aparıldı.*

# AZƏRBAYCAN RESPUBLİKASININ PREZİDENTİ HEYDƏR ƏLİYEVİN, FRANSA RESPUBLİKASININ PREZİDENTİ JAK ŞİRAKIN VƏ ERMƏNİSTAN RESPUBLİKASININ PREZİDENTİ ROBERT KÖÇƏRYANIN GÖRÜŞÜ

*Paris, Yelisey sarayı*

*5 mart 2001-ci il*

*Görüşdə prezident cənab Jak Şirak onun dəvətini qəbul edərək Fransaya işgüzar səfərə gəlmiş Azərbaycan prezidenti Heydər Əliyev və Ermənistan prezidenti Robert Köçəryan ilə yenidən görüşməkdən məmnun qaldığını bildirdi.*

*Üç saat çəkən görüş zamanı Ermənistan–Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin aradan qaldırılması məsələsinin müzakirəsinə geniş yer ayıran dövlət başçıları Azərbaycan və Ermənistan prezidentləri arasında birbaşa görüşlərin davam etdirilməsinin vacib olduğunu bir daha vurğuladılar. Eyni zamanda ATƏT-in Minsk qrupunun həmsədri olan ölkələrin münaqişənin sülh yolu ilə tezliklə həlli sahəsində öz səylərini daha da gücləndirməsinin zəruriliyini təsdiq etdilər.*

*Prezident Heydər Əliyev görüşün təşkilinə, səmərəli və geniş fikir mübadiləsinə görə Fransa prezidenti Jak Şiraka təşəkkür etdi və əmin olduğunu bildirdi ki, ATƏT-in Minsk qrupunun həmsədri olan Fransa münaqişənin tezliklə tam həlli üçün öz səylərini davam etdirəcəkdir.*

*Fransa prezidenti bu görüşü yüksək qiymətləndirdi və ümidvar olduğunu bildirdi ki, Paris danışıqları Ermənistan–Azərbaycan münaqişəsinin aradan qaldırılmasında irəliləyişə nail olmağa imkan yaradacaqdır.*

## FRANSA PREZİDENTİ JAK ŞİRAKIN, AZƏRBAYCAN PREZİDENTİ HEYDƏR ƏLİYEVİN, ERMƏNİSTAN PREZİDENTİ ROBERT KÖÇƏRYANIN ÜÇTƏRƏFLİ GÖRÜŞÜNDƏN SONRA KEÇİRİLMİŞ BİRGƏ BRİFİNQ

*Paris,*
*Yelisey sarayı*

*5 mart 2001-ci il*

**J a k Ş i r a k:** Xanımlar və cənablar! Mən Azərbaycan, Ermənistan və əlbəttə, Fransa jurnalistlərini salamlamaq istərdim. Çox qısa çıxış edəcəyəm.

Sizin hamınıza məlumdur ki, bu regionda Dağlıq Qarabağ məsələsinə görə iki ölkə – Ermənistan və Azərbaycan arasında mübahisə mövcuddur. Təbii ki, əlaqədar iki tərəf bu mübahisəni müzakirə edir və bildiyiniz kimi, üç həmsədrdən – Amerika Birləşmiş Ştatlarından, Rusiyadan, Fransadan ibarət Minsk qrupu münaqişənin ağıllı-başlı və tezliklə həllinə nail olmaq üçün tərəflərlə birlikdə hər cür səy göstərir.

Bu gün səhər mən hər iki prezidentin – Azərbaycan və Ermənistan prezidentlərinin hər biri ilə əvvəlcə ayrılıqda, sonra isə birlikdə böyük məmnuniyyətlə görüşdüm. Deməliyəm ki, bu görüşlər çox səmimilik şəraitində keçdi. Biz münaqişənin həllində mövcud olan problemləri, çətinlikləri müzakirə etdik və ümidvarıq ki, Minsk qrupu hər iki tərəf üçün məqbul olacaq qərarlar işləyib hazırlaya biləcəkdir. Mən bununla

kifayətlənirəm, çünki hamınızın gözəl başa düşdüyünüz kimi, biz indiki mərhələdə müzakirələrin təfsilatına vara bilmərik. Sözümü tamamlayaraq yalnız bunu deyəcəyəm ki, görüşlərimizin, söhbətlərimizin ab-havası mehriban və səmimi olmuşdur.

**S u a l: Mənim sualım prezident Şirakadır. Cənab Prezident, Siz necə izah edə bilərsiniz ki, Sovet İttifaqının süqutundan sonra ərazisinin 20 faizi Ermənistan tərəfindən işğal olunmuş Azərbaycanın suverenliyi və təcavüzkar dövlətin – Ermənistanın suverenliyi eyni cür tanınmışdır və onlara eyni cür münasibət göstərilir? Necə olur ki, hətta Fransa – insan hüquqlarının, beynəlxalq hüququn ədalətliliyinin əzəli müdafiəçisi olan dövlət hər iki ölkəyə eyni cür yanaşır və bu, ikili standartlar siyasətinin təzahürü deyilmi?**

**J a k Ş i r a k:** Demək istərdim ki, indi biz polemikaya yox, sülhə doğru yol axtarırıq. Ona görə də bəlkə icazə verəsiniz, mən polemikaya girişməyim, özümün hər hansı mülahizələrimi söyləməyim, təkcə onu deyim ki, hər iki tərəf onların mənafelərinə uyğun olan ədalətli qərarın axtarılıb tapılmasına eyni cür maraq göstərir. Mən çox şadam ki, belə əhval-ruhiyyə var və hər iki tərəflə bizim səmimi, yaxın və açıq münasibətlərimiz yaranmışdır.

**S u a l: Mənim sualım cənab Əliyevə və cənab Şirakadır. Cənab Əliyev, Siz çeçen xalqının və mən bilən, Kosovo xalqının, Bosniya xalqının öz müqəddəratını təyin etməsi hüququnu dəstəkləyirsiniz. Bəs Dağlıq Qarabağın erməni əhalisinin öz müqəddəratını təyin etməsi hüququnu necə, burada ikili standartlar təzahürü yoxdurmu?**

**H e y d ə r Ə l i y e v:** Sizə kim deyib ki, mən bunları dəstəkləyirəm, siz bunu haradan götürmüsünüz? Mən dəfələrlə demişəm və heç kimdə yanlış rəy olmasın deyə, sizə də təkrar edirəm.

Mən beynəlxalq hüquq prinsiplərinin, hər bir dövlətin sərhədlərinin, ərazi bütövlüyünün pozulmazlığı prinsiplərinin qəti tərəfdarıyam, separatçılığın yolverilməzliyi prinsipini qətiyyətlə müdafiə edirəm. Odur ki, Rusiyanın ərazi bütövlüyünü pozmaq istəyən çeçenləri heç cür dəstəkləyə bilmərəm. Ona görə də bu məsələ barəsində mənim baxışlarımı siz, görünür, sadəcə olaraq, bilmirsiniz və belə suallar verirsiniz.

**R o b e r t  K ö ç ə r y a n:** Mən həqiqətən bu cür diskussiya aparmamağa çağırmaq istərdim, lakin qarşılıqlı suallar səsləndiyinə, bəzi qarşılıqlı ittihamlar səsləndiyinə, cənab Əliyevin cavabına görə deməliyəm ki, misal üçün, Kəşmir məsələsi, Kipr qətnaməsi və bir sıra digər məsələlər barəsində BMT çərçivəsində keçirilən səsvermələrdə Azərbaycanın mövqeyini ikili standartlar baxımından qiymətləndirərdim. Bunun təhlili kifayət qədər yaxşı cavab ola bilər.

**J a k  Ş i r a k:** İndi növbə Fransa jurnalistlərinindir.

**S u a l: Cənab Prezident, mən Sizə belə bir sual vermək istərdim. Dağlıq Qarabağ məsələsinin nizama salınmasının perspektivi baxımından bugünkü görüşün mahiyyətini və rolunu izah edin və Siz bu problemin artıq cari il ərzində həllini nə dərəcədə real görürsünüz?**

**J a k  Ş i r a k:** Siz bilirsiniz, yaşadığımız dünyada xalqların iqtisadi inkişafı, xoşbəxtliyi münaqişələr yaranan zaman dövlət rəhbərlərinin problemləri həll etməyə qadir olmasından çox asılıdır. Tamamilə aydındır ki, dünyanın ən qədim regionlarından, ən qədim sivilizasiya məkanlarından biri olan bütün bu regionda iqtisadi və sosial tərəqqini təmin etməyə imkan verəcək sabitliyin bərpa olunması münaqişəyə qoşulmuş hər iki ölkənin xeyrinədir, regionun özünün xeyrinədir.

Bildiyiniz kimi, Fransa Azərbaycan və Ermənistan ilə olduqca səmimi münasibətlər saxlayır, ona görə də münaqişənin ədalətli və qarşılıqlı surətdə məqbul həlli yollarının axtarışına qoşulmaq imkanını əldən verməmişdir. Əlbəttə, Fransa

öz addımlarını Minsk qrupunun digər iki həmsədri ilə, yəni ABŞ və Rusiya ilə çox sıx əlaqəli şəkildə atır. Təbii ki, nəyisə bəri başdan söyləmək, formalaşdırmaq lazım deyildir, çünki bu, siyasətdə çox vaxt yersiz, səhv olur. Lakin həqiqətən ümidvar olduğumu bildirmək istərdim ki, bu münaqişə hələ cari ilin sonunadək həll ediləcək və onun qarşılıqlı surətdə məqbul – bir də deyirəm, bu çox önəmlidir – ədalətli həlli tapılacaqdır. Sağ olun.

* * *

*Azərbaycan prezidenti Heydər Əliyevin Fransaya işgüzar səfəri başa çatdı. Respublikamızın rəhbəri martın 6-da Parisin Beynəlxalq Orli hava limanına gəldi.*

*Hava limanında dövlətimizin başçısının şərəfinə fəxri qarovul dəstəsi düzülmüşdü.*

*Azərbaycan prezidenti Heydər Əliyevi Beynəlxalq Orli hava limanında Fransa hökumətinin yüksək vəzifəli şəxsləri, respublikamızın Parisdəki səfiri Eleonora Hüseynova yola saldılar.*

# FRANSAYA İŞGÜZAR SƏFƏR BAŞA ÇATDIQDAN SONRA BAKIYA QAYIDARKƏN BİNƏ HAVA LİMANINDA JURNALİSTLƏRİN SUALLARINA CAVAB

*6 mart 2001-ci il*

**H e y d ə r  Ə l i y e v:** Yəqin ki, mətbuatdan sizə hər şey məlumdur. Ona görə də belə bir bəyanat verməyə, hesab edirəm ki, ehtiyac yoxdur. Ancaq, sadəcə, onu deyə bilərəm ki, əvvəlcədən planlaşdırıldığı kimi, mart ayının 4-də Parisdə «Marini» sarayında Köçəryanla mənim iki saatdan artıq görüşüm keçdi. Məsələni təkbətək, nə o tərəfdən, nə də bu tərəfdən heç kəsin iştirakı olmadan müzakirə etdik. Təbiidir, görüşlər asan keçmir, gərgin keçir. Bunun da səbəbi məlumdur. Ona görə yox ki, hansısa tərəf yaxşı danışıqlar apara bilir, yaxud da hansının daha çox dəlili vardır. Burada ən böyük dəlil ondan ibarətdir ki, Ermənistan Azərbaycanın torpaqlarını işğal edibdir. O istəyir ki, Dağlıq Qarabağa status verilsin. Biz isə status vermək istəmirik. Status vermirik və deyirik ki, bütün torpaqlarımızı azad edin. Ola bilər, üstünlük onların əlində olubdur, buna görə də onlar deyirlər ki, vermirsinizsə, onda belə vəziyyətdə qalaq.

Səfərimin ikinci günü, mart ayının 5-də səhər saat 9.30-da Yelisey sarayında prezident Şirakla görüşdüm. 35 dəqiqə təkbətək söhbət etdik. Jak Şirak bir o qədər də Köçəryanla görüşdü. Onların görüşü qurtarandan sonra məni Yelisey sarayına dəvət etdilər. Orada bizim üçtərəfli görüşümüz keçdi – prezident Jak Şirak, prezident Köçəryan, bir də mən. Yenə də başqa heç bir kəs iştirak etmirdi. Yalnız prezident Şirak xahiş

etdi ki, onun şəxsi katibinə görüşdə iştirak etməyə icazə verilsin ki, o, müəyyən qeydlər edə bilsin. Buna da mən razı oldum, yəni hər ikimiz razı olduq. Orada bizim danışığımız təxminən üç saat çəkdi. Bu da çox mürəkkəb və gərgin keçdi. Əlbəttə, Minsk qrupunun həmsədrlərindən biri kimi, Fransanın prezidenti Jak Şirak çalışır ki, məsələnin həll olunması üçün yollar tapılsın. Müxtəlif variantlar müzakirə olundu. Ancaq o hər dəfə deyirdi, bu dəfə də dedi ki, mən heç bir tərəfə təsir etmək istəmirəm, sadəcə, öz fikirlərimi deyirəm. Hər iki tərəf bu barədə tamamilə sərbəstdir, mənim fikrimi qəbul edə bilər, ya da qəbul edə bilməz. Bununla da belə çıxır ki, heç bir konkret nəticəyə gələ bilmədik.

Əvvəllər də demişəm, danışıqlarda kompromislər mühüm yer tutur. Burada da bir irəliləyiş yoxdur. Ermənistan tərəfi narazılıq bildirdi ki, biz birtərəfli olaraq gizli sənədləri dərc etdirmişik. Dedim, bağışlayın, burda elə bir şey yoxdur. Çünki onlar artıq məxfiliyini itiriblər. O dedi ki, gərək bizə deyəydiniz, biz də dərc edərdik, çünki bizim ictimaiyyət də bu barədə çox narahat oldu. Mən dedim ki, burada bizim heç bir öhdəliyimiz yoxdur. Ona görə də bunun heç bir əhəmiyyəti yoxdur.

Eyni zamanda Köçəryanın danışıqlarından görünür ki, onlar bizim respublikamızda gedən prosesləri və vəziyyəti də öyrənir və bilirlər. Milli Məclisin iclasını başdan-ayağa – yəqin onlarda televiziya lent yazısı var – təhlil ediblər, hətta öyrəniblər. ATƏT-in sədri burada olarkən – o, Yerevandan buraya gəlmişdi – mənə dedi ki, Köçəryan sizin nitqinizin hər cümləsini yox, hər bir sözünü özü üçün təhlil edibdir. Bunları da onlar mənə dedilər.

Eyni zamanda onlar Azərbaycanda müharibə əhval-ruhiyyəsini də bilirlər. Yəni məsələnin hərb yolu ilə həll olunması haqqında fikirləri. Eyni sözləri mənə Şirak təkbətək görüşdə də dedi, sonra üçümüz bir yerdə olanda da dedi. O, tək-

bətək görüşümüzdə dedi ki, son günlər Azərbaycanda olan proseslərin hamısını bilirəm. Sənin – yəni mənim – parlamentdə nitqini də bilirəm, parlamentdə olan əhval-ruhiyyəni də bilirəm, parlamentin iclasından sonra respublikadakı əhval-ruhiyyəni də bilirəm, bunların hamısını bilirəm. Yəni bizi çox izləyirlər və prezident Şirakın bizimlə apardığı söhbətlər tək onun deyil, indi həmsədrlər, yəni dövlət başçıları – Fransa, Rusiya və Amerika Birləşmiş Ştatları bu barədə çox intensiv əlaqə saxlayırlar.

Məsələnin həll olunması üçün səylər göstərirlər. Əvvəlki vaxtlara nisbətən çox səylər göstərirlər. Həmsədrlərin nümayəndələri Parisdə idilər. Düzdür, onlar danışıqlarda iştirak etmirdilər, ancaq hər halda, kənardan vəziyyəti izləyirdilər. Onlar üçün nə mümkündürsə, öyrənməyə çalışırdılar.

Beləliklə, bu görüşün elə bir konkret nəticəsi yoxdur. Ona görə də mən sizə bundan artıq konkret heç bir şey deyə bilmərəm.

**S u a l: Cənab Prezident, biz Sizin, Jak Şirakın və Robert Köçəryanın mətbuat konfransına televiziya ilə baxdıq. Jak Şirak belə bir ifadə işlətdi ki, bu ilin sonuna qədər problemin sülh yolu ilə həlli mümkündür. Bu sözləri deməyə hansı əsaslar vardır?**

**C a v a b:** Bəli, o bu sözü deyibdir. Bu təkcə onun fikri deyil, eyni zamanda Rusiya prezidentinin, Amerika prezidentinin fikridir. Onların hamısının fikridir ki, bu il münaqişəni sülh yolu ilə həll edək. Onların əsasları odur ki, əgər Ermənistan və Azərbaycan danışıqlar nəticəsində bu barədə eyni fikrə gələ bilsələr.

**S u a l: Cənab Prezident, Robert Köçəryanın mövqelərində təkbətək danışıqlar zamanı yumşalma hiss olunurdumu? Siz demişdiniz ki, təklif aparmırsınız, təklifi Ermənistandan gözləyirsiniz. Ermənistan prezidenti konkret olaraq hansı təkliflər üzərində dayanır?**

**C a v a b:** Bilirsiniz, bunların heç birini mən sizə aça bilmərəm. Ancaq mən bunu bizim Milli Məclisdə də demişəm, indi də deyirəm: Ermənistan tərəfinin, Robert Köçəryanın əlində daha çox ümidlər var, nəinki bizim. Bizim əlimizdə beynəlxalq hüquq normaları var, Birləşmiş Millətlər Təşkilatının qətnamələri var. Bunları indiyə qədər Ermənistan saymayıbdır və saymır. Onların əlində isə gedən müharibə nəticəsində Azərbaycanın işğal olunmuş torpaqları – Dağlıq Qarabağ və onun ətrafındakı yeddi rayon var.

Bizim bir milyon qaçqınımız var – düzdür, onlar 800 min deyirlər, çünki 200 mini də Ermənistandan gələnlər hesab olunur – bunlar çadırlarda yaşayırlar. Onların isə dediklərinə görə guya Azərbaycandan, ümumiyyətlə, 350 min erməni gedibdir, amma tam əksəriyyəti Ermənistanda deyil, Rusiyada, başqa ölkələrdə yerləşir. Son illərdə çoxları Amerika Birləşmiş Ştatlarına, Avropa ölkələrinə gediblər. Ona görə də biz eyni vəziyyətdə deyilik. Onlar da bunu görürlər. Onlar görürlər ki, bizim işğal olunmuş torpaqlardan qaçqınlar çadırlarda yaşayırlar və biz istəyirik ki, onlar öz yerlərinə qayıtsınlar. Onlar bunu görürlər. Onlar tutduqları mövqelərdə güclü müdafiə sistemi yaradıblar. Düzdür, biz də yaratmışıq. Onlar ancaq müdafiə qüvvələri yaradıblar. Biz də. Amma əgər müharibə əhval-ruhiyyəsi olsa, bizim üçün təkcə müdafiə yox, gərək hücum qüvvələri də olsun. Bu barədə də ölkəmizdə işlər gedibdir. Təbiidir ki, bütün bunlara görə danışıq çətindir.

**S u a l: Cənab Prezident, Siz dediyiniz kompromislər əsasən nəyi əhatə edir? Sülhün əldə edilməsi üçün onların hansını məqbul hesab edirsiniz.**

**C a v a b:** Dedim ki, məndən bu sözləri soruşmayın.

**S u a l: Cənab Prezident, növbəti, daha bir görüş haqqında razılığa gəldinizmi?**

**C a v a b:** İndi elə bir qərar qəbul etmədik. Ancaq, ümumiyyətlə, ümumi fikir belə idi, gərək ki, Jak Şirak da elan etdi ki, bu görüşlər davam etməlidir.

**S u a l: Cənab Prezident, erməni tərəfi iddia edir ki, danışıqların növbəti mərhələsində guya Dağlıq Qarabağın erməni icması da iştirak edəcəkdir. Bu nə dərəcədə həqiqətə uyğundur?**

**C a v a b:** Yox, doğru deyildir.

**S u a l: Cənab Prezident, vaxtilə ölkəmizdə xarici siyasətlə məşğul olmuş bir sıra şəxslər belə fikir irəli sürürlər ki, respublikamızın indiki reallığında ATƏT-in Minsk qrupunun mərhələli həll təklifi ilə münaqişənin aradan qaldırılmasına müəyyən dərəcədə nail olmaq olar. Siz bununla razılaşırsınızmı?**

**C a v a b:** Axı siz sual verirsiniz, o adamlar da deyirlər. Biz bu mərhələli həllə 1997-ci ildə razılıq vermişdik. İndi bəzən, elə mənim ətrafımda olanlar deyirlər ki, gəlin, mərhələli həll haqqında təklifi qəbul edək. Bu, 1997-ci ilin sentyabr ayında – sizə dəqiq deyirəm – bizə təqdim olunmuşdu. Təqdim olunan kimi, biz bunu qəbul etmişdik ki, onun əsasında danışıqlar apara bilərik. Amma Ermənistan bunu rədd edibdir. Bir də yadınıza salıram ki, hər şeyi biləsiniz və onun əsasında da suallarınızı formalaşdırasınız. Mən istəyirəm ki, bizim mətbuat işçilərimiz yaxşı, məzmunlu suallar versinlər, yaxşı cavablar alsınlar. Belə boş sual veriləndə, düzü, ona cavab verməyə mənim həvəsim olmur. Məzmunlu sual olanda mən ona cavab vermək istəyirəm ki, bu vasitə ilə ictimaiyyətə nə isə çatdırım.

Həmin o mərhələli təklifi biz qəbul etdik, Ermənistan rədd etdi. Sonra Ermənistanın keçmiş prezidenti Levon Ter-Petrosyan ilin təxminən axırına yaxın bu təklifin qəbul olunmasını məqbul hesab etdi. Bunu öz mətbuatında verdi, çıxış etdi. Moskvada «Nezavisimaya qazeta»da böyük bir məqalə dərc etdi. Bu proses orada başladı. Mən bunu demişəm. 1998-ci ilin yanvar ayının əvvəlində Jak Şirakla telefonla

danışırdım, mənə telefon etmişdi. Dedi ki, Ter-Petrosyan buraya gəlmişdi – orada onların hansısa sərgisi vardı – mən onunla danışırdım, o, mərhələli həlli qəbul edir. Gedir Yerevana, orada Təhlükəsizlik Şurasının iclasını keçirəcək və bunu qəbul edəcəkdir. Sonra mənə xəbər verəcək, mən sizə telefon edəcəyəm, ondan sonra danışığa başlayacaqsınız.

Həqiqətən, bu adam getdi, Ermənistanın Təhlükəsizlik Şurasında özünün bu fikrini irəli sürdü və axıra qədər bu fikrin üzərində durdu. Ancaq indiki prezident və başqaları onun əleyhinə çıxdılar. Elə oldu ki, o, istefa verməyə məcbur oldu. İndi yenidən kimsə, bəzi adamlar deyirlər ki, biz ona gedə bilərik – guya ki, bizə, necə deyərlər, böyük bir yardım edirlər.

**S u a l: Cənab Prezident, keçən dəfə Siz dediniz ki, bir vaxt vilayət muxtariyyətinə razılaşmayan Dağlıq qarabağlıları indi buna razı salmaq real görünmür. Robert Köçəryan son təklif kimi Dağlıq Qarabağa hansı muxtariyyəti istəyir?**

**C a v a b:** Onlar heç bir muxtariyyət istəmirlər, yalnız müstəqillik istəyirlər.

**S u a l: Cənab Prezident, Sizin qənaətinizə görə Azərbaycan bundan sonra hansı siyasət xəttini davam etdirəcəkdir?**

**C a v a b:** Hansı siyasət xəttini davam etdirəcəyimizi mən bilirəm, onu mən sizə deyə bilmərəm.

**S u a l: Cənab Prezident, Ermənistanın kompromisə getməsi üçün hansı addımlar atıla bilər?**

**C a v a b:** Onları da mən bilirəm.

**S u a l: Cənab Prezident, Vladimir Putin Bakıda olarkən demişdir ki, Rusiya bu münaqişənin həllində maraqlıdır. Həmsədr kimi, onların işini passiv adlandırmaq olar, yoxsa fəal?**

**C a v a b:** İndi fəaldırlar, passiv deyildirlər. Ancaq bir şeyi bilməlisiniz: bu həmsədrlərdən heç biri – bunu mən bizim Milli Məclisin iclasında da demişəm, bu dəfə bir daha gördüm – Ermənistanı məcbur etmir ki, məsələnin həll olunması üçün onlar hansısa tələblərindən geri çəkilsinlər.

**S u a l: Cənab Prezident, əgər Minsk qrupu özünün vasitəçilik missiyasının öhdəsindən gələ bilmirsə, bu formatda danışıqların davam etdirilməsi nə dərəcədə məqsədəuyğundur?**

**C a v a b:** Bəs nə etməli? Axı nə etməli? Başqa heç nə yoxdur. Hər şeyi dayandırıb, status-kvonu saxlamaq, vəssalam?

**S u a l: Cənab Prezident, bu görüşdən sonra ATƏT-in Minsk qrupundan yeni təklif gözləmək olarmı?**

**C a v a b:** İnanmıram, görək.

**S u a l: Cənab Prezident, Siz Dünya Bankının regional rəhbərliyi ilə görüşəndə demişdiniz ki, mart ayında ciddi struktur islahatları edəcəksiniz. Həmin islahatları bu ayda gözləmək olarmı?**

**C a v a b:** Bəli, edəcəyik. Sağ olun.

# SKANDİNAVİYA ÖLKƏLƏRİ VƏ RUSİYANIN BİR QRUP JURNALİSTİ İLƏ GÖRÜŞDƏ SÖHBƏT

*Prezident sarayı*

*11 mart 2001-ci il*

**H e y d ə r Ə l i y e v:** Mən sizi Azərbaycanda ürəkdən salamlayıram. Ölkəmizə, xalqımıza, torpağımıza maraq göstərdiyinizə görə sizə təşəkkür edirəm. Şadam ki, siz yenidən Azərbaycandasınız. Bunu xalqımız da, mən də yüksək qiymətləndiririk.

Siz bilirsiniz, təəssüf ki, mənim iş cədvəlim çox gərgindir. Sabah səhər Türkiyəyə rəsmi səfərə yola düşürəm. Sizinlə daha ətraflı danışmağa imkanım yoxdur. Amma mənə dedilər ki, sizin bir çox görüşlər keçirmək, söhbətlər aparmaq imkanınız olub, Azərbaycanın bugünkü həyatı haqqında kifayət qədər məlumatınız var. Həm də, mən bilən, sizin qarşıda hələ səfərləriniz, görüşləriniz olacaqdır. Bütün bunlar bizim üçün çox faydalıdır.

Başa düşürük ki, müasir dünyada kütləvi informasiya orqanlarının rəyi çox böyük, bəzən həlledici rol oynayır, bəzən də real vəziyyətdən fərqli – kimin necə istəməsindən asılı olaraq – bu və ya digər istiqamətdə ictimai fikri formalaşdırır. Ona görə də Rusiyada da, dünyanın başqa ölkələrində də respublikamız, ölkəmiz haqqında tam informasiyanın olması üçün biz kütləvi informasiya vasitələri nümayəndələrinin Azərbaycana gəlməsini çox bəyənirik. Doğrudur, bəzi jurnalistlərin vicdansızlıq etməsi, vəziyyəti obyektiv işıqlandırma-

ması və hansısa xırda, əhəmiyyətsiz amillərdən istifadə edərək, respublikamız barədə ümumiləşdirilmiş nəticələr çıxarması kimi faktlarla da qarşılaşırıq. Əlbəttə, bu sizə aid deyildir. Ancaq belə faktlar var. Buna baxmayaraq, hətta bu halda da hesab edirik ki, qoy ölkəmizə tez-tez gəlsinlər. Əvvəla, biz bilirik və ümid edirik ki, respublikamıza gələnlərin əksəriyyətinin, hər halda, vicdanı var və onlar ağa qara, qaraya ağ deməzlər.

Əgər kimsə hansısa subyektiv hisslərə qapılıb vicdansızlıq etsə də, yalan danışsa da eyb etməz, biz ona dözürük, çünki bu yalanlar qəzet, jurnal, televiziya nümayəndələrinin Azərbaycana gəlib-getdikdən sonra yaydıqları informasiyanın az hissəsini təşkil edir. Onların əksər hissəsi isə, hər halda, xalqımız haqqında, ölkəmiz haqqında, bu günümüz haqqında həqiqəti yazır.

Təkrar edirəm, mən sizə bir xeyli vaxt ərzində çox şey danışa bilərdim. Lakin bir şey deyə bilərəm ki, bu ilin axırlarında biz Azərbaycanın müstəqilliyinin 10-cu ildönümünü qeyd edəcəyik. 10 il tarix baxımından kiçik bir dövrdür, insan ömrü üçünsə az müddət deyildir. Xüsusən, dövlət müstəqilliyini elan etdiyimiz vaxt ölkənin ağır vəziyyətdə, hərbi münaqişə vəziyyətində, əslində, Ermənistanla müharibə vəziyyətində olduğu, respublikamızın ərazisinin müəyyən hissəsinin Ermənistan silahlı birləşmələri tərəfindən işğal edildiyi və artıq öz doğma yerlərini tərk etmək, ev-eşiklərini, bütün əmlaklarını atmaq məcburiyyətində qalmış adamların olduğu nəzərə alınsa.

Əgər bu dövrdə Azərbaycanda daxili ictimai-siyasi vəziyyətin mürəkkəb olduğu, həmin mürəkkəb dövrdə silahlı dəstələrə malik ayrı-ayrı qruplar, ayrı-ayrı qüvvələr, hətta qruplar arasında hakimiyyət uğrunda tamamilə lüzumsuz mübarizə getdiyi də nəzərə alınsa, onda siz Azərbaycanda on illik müstəqilliyin nə demək olduğunu təsəvvürünüzə gətirə bilərsiniz. Ermənistanla müharibənin 1994-cü ilin mayınadək davam

etdiyi də, sonrakı illərdə də respublikada vəziyyətin gərginləşdiyi buraya əlavə edilsə... 1993-cü ildə vətəndaş müharibəsi başlanmışdı, Azərbaycan artıq dağılırdı, parçalanırdı. Buraya hələ onu da əlavə etmək lazımdır ki, biz vətəndaş müharibəsinin qarşısını aldıqdan sonra, 1994-cü ildə güclü dövlət çevrilişi cəhdi ilə qarşılaşdıq. 6 aydan sonra, 1995-ci ilin martında Daxili İşlər Nazirliyinin kifayət qədər çoxlu adama malik və çox güclü silahlanmış xüsusi təyinatlı polis dəstəsinin Azərbaycanda daha bir silahlı çevrilişə cəhd göstərdiyini də buraya əlavə etsək, onda siz bu on ilin bizim üçün nə demək olduğunu təsəvvür edərsiniz. Mən hələ terror aktları cəhdlərini, prezidentin təyyarəsini vurmaq cəhdini, bir çox digər faktları demirəm. Lakin şükürlər olsun ki, biz bütün bunları dəf etməyə, çevrilişlərə yol verməməyə, vətəndaş müharibəsinə son qoymağa, ölkədə ictimai-siyasi sabitlik yaratmağa, atəşin dayandırılmasının zəruriliyi barədə Ermənistanla sazişə gəlməyə – bu, 1994-cü ilin mayında baş verdi – müvəffəq olduq. Bununla da biz dövlət quruculuğu ilə, müstəqil demokratik dövlət quruculuğu, Azərbaycanda demokratiyanın təmin edilməsi üçün lazımi tədbirlər görülməsi ilə, dünyanın dövlətimizi demokratik, hüquqi və dünyəvi dövlət kimi tanıması üçün, xalqın məhz bu həyata – belə dövlət quruculuğuna qoşulması üçün iqtisadi, sosial, hüquqi islahatlar aparılması ilə məşğul olmaq imkanı qazandıq.

1995-ci ildə biz müstəqillik şəraitində ilk parlamenti seçməyə, prezident seçkiləri keçirməyə müvəffəq olduq. Bu yaxınlarda isə, ilk parlamentin səlahiyyət müddəti bitdikdən sonra yeni parlament seçdik. Bu ilin yanvarında Avropa Şurasına qəbul olunduq. Təxminən 1996-cı ildən, vəziyyəti sabitləşdirməyə başladığımız vaxtdan bəri iqtisadiyyatımız dönmədən inkişaf edir. Bütün bunlar Azərbaycan ərazisinin 20 faizinin Ermənistan silahlı qüvvələrinin işğalı altında qaldığı və həmin torpaqlardan zorla çıxarılmış bir milyondan artıq adamın

qaçqın-köçkün vəziyyətində olduğu və əksəriyyətinin də artıq 7–8 ildir çadırlarda çox ağır şəraitdə yaşadığı – əgər buna yaşamaq demək olarsa – bir şəraitdə baş vermişdir.

Bax, belə bir şəraitdə biz bütün sahələrdə islahatları ardıcıl surətdə apara bilmişik, iqtisadiyyatda tənəzzülün qarşısını almağa və tədricən artıma nail olmuşuq. Biz ümumi daxili məhsulu da, sənaye istehsalını da, kənd təsərrüfatı məhsulları istehsalını da ilbəil artırırıq, insanların gəliri çoxalır. Biz ilk növbədə Azərbaycanın neft sektoruna, sonra da iqtisadiyyatımızın başqa sahələrinə xarici sərmayə axınını təmin edə bilmişik.

Biz ötən ili də yaxşı göstəricilərlə başa vurduq. 1990-cı illərin əvvəllərindəki göstəricilərlə müqayisədə yaxşı deyirik. Əgər nəyə nail olmaq istədiyimizi bilmək istəyirsinizsə, biz iqtisadiyyatımızın tamamilə ayağa qalxmasını, Azərbaycanda bazar iqtisadiyyatının bütün sahələrdə bərqərar olmasını, həyata keçirdiyimiz islahatlardan lazımi fayda götürmək və adamların rifahını yaxşılaşdırmaq istəyirik.

Biz Azərbaycanda hələ bir çox insanların kasıb yaşaması, maddi cəhətdən lazımınca təmin edilməməsi, mənzillərinin olmaması faktını və xüsusən keçmişdə Sovet İttifaqının tərkibinə daxil olmuş ölkələrdə keçid dövrü üçün səciyyəvi olan bir çox digər halları danmırıq. Zənnimcə, bütün bunlar bizim üçün mürəkkəb proseslər deyildir, biz onları, şübhəsiz, həll edəcək və müsbət nəticələrə nail olacağıq.

Bizim üçün ən mürəkkəbi, ən çətini, ən önəmlisi Ermənistanla sülh yaradılmasına, Azərbaycanın işğal olunmuş ərazilərinin azad edilməsinə, ölkənin ərazi bütövlüyünün bərpasına və yerindən-yurdundan didərgin salınmış insanların doğma ocaqlarına qayıtmasına nail olmaqdır. Doğrudur, orada onların doğma ocaqları artıq yoxdur, işğal edilmiş ərazilərdə nə vardısa, hamısı dağıdılmış, talanmışdır, heç nə qalmamışdır. Bu bizə məlumdur. Digər ölkələrin bu bölgələrə gedib-gələn bir çox jurnalistləri və nümayəndələri də bunları görür və bu

barədə bizə məlumat verirlər. Ona görə də sülh bərqərar edildikdən sonra, azərbaycanlılar öz doğma yerlərinə qayıtmağa imkan qazandıqdan sonra onların öz evlərini və ümumiyyətlə, hərbi əməliyyatlar başlanmazdan əvvəl əla vəziyyətdə olmuş bütün bu şəhərləri, yaşayış məntəqələrini yenidən tikib abadlaşdırması, heç olmasa, əvvəlki görkəmə salınması üçün hələ çox-çox illər gərəkdir. Bundan ötrü illərlə vaxt lazım olacaqdır.

Nə etməli? Tale belədir. Lakin başlıcası bu deyildir. Başlıcası münaqişəyə son qoymaq, sülhü bərqərar etmək və Azərbaycanın ərazi bütövlüyünü təmin etmək, adamları öz yerlərinə qaytarmaqdır. Bax, biz belə çətin problemlər içərisində yaşayırıq, belə çətin şəraitdə nə kimi uğurlar qazanmışıq. Yəqin ki, bütün bunları adamlarla ünsiyyətdə olarkən, görüşərkən, söhbət edərkən siz özünüz eşitmisiniz. Lakin görüşümüzün, sadəcə olaraq, «salam, xoş gəlmisiniz» ruhunda keçməməsi üçün mən bəzi şeyləri sizə çox qısaca danışmağı qərara aldım.

Respublikamıza, xalqımıza göstərdiyiniz diqqətə görə sizə bir daha təşəkkür edirəm. Əmin ola bilərsiniz ki, siz Azərbaycanda həmişə arzu edilən qonaqlarsınız, tez-tez gəlin.

**Vsevolod Boqdanov** (*Rusiya Jurnalistlər İttifaqının sədri*): Heydər Əliyeviç, belə bir çətin məqamda bizimlə görüşməyə vaxt tapdığınıza görə çox sağ olun. Norveçlilər də, isveçlilər də, finlər də, «Röyter» agentliyinin də, Moskvanın əslində bütün aparıcı televiziya şirkətlərinin də nümayəndələri buradadırlar.

Bu gün Azərbaycana marağımız böyükdür, çünki ölkəniz çox sürətlə dirçəlir, ayaq üstdə möhkəm durur. İlk təəssürat isə belədir – adamların üzündə təbəssüm artıbdır. Mən qısa bir müddət ərzində buraya artıq ikinci dəfə gəlirəm – hava limanından başlayaraq yaxşı, mehriban, xoş simalar gördüm. Bu çox şeyə dəlalət edir. Sizin necə gərgin işlədiyinizi bilirik,

Sizə maraq olduqca yüksəkdir, çünki həyatınızın bütün məqamları, bütün mərhələləri qələmə alınsa, yüz romana kifayət edər. Ona görə də burada ilk dəfə olan bir çox həmkarlarım, şübhəsiz, Sizi görmək, dinləmək, bəlkə də, nə barədəsə soruşmaq istərdilər. Axı onlar təkcə Moskvadan deyil, həm də Helsinkidən, İsveç və Norveçdən gəlmişlər.

Lakin ilk növbədə, mətbuata belə diqqətlə yanaşdığınıza görə Sizə təşəkkür etmək istərdim. Bizim «Mətbuatla ünsiyyətdə açıqlığa görə» adlı jurnalist mükafatımız var. Siz həmişə – MK-nın katibi olanda da, Moskvada işləyəndə də belə açıq olmusunuz. Ona görə də biz Sizə maksimum qüvvə, möhkəm ruh, cansağlığı arzulamaq istərdik, qoy öz ölkənizə, xalqınıza bəslədiyiniz məhəbbət Sizə yar olsun, azərbaycanlıların Sizə bəslədikləri çox böyük inam və etimad Sizi ruhlandırsın. Dünən bir nəfər bizə dedi ki, hamımız növbəti seçkilərdə Əliyevin yenidən prezident olmasını arzulayırıq. Lakin növbəti prezident seçkiləri hələ uzaqda olduğuna görə, biz Sizi bu mükafatımızla təltif etmək və Sizə ən xoş arzularımızı bildirmək istəyirik.

**H e y d ə r Ə l i y e v:** Çox sağ olun. Bu mükafat mənim üçün çox xoşdur. Çünki mətbuatla ünsiyyətdə açıqlıq mənə, görünür, təbiətən xasdır.

Mən Azərbaycanın rəhbəri işlədiyim dövrdə – 70–80-ci illərdə və Moskvada Siyasi Büronun tərkibində işlədiyim vaxtlarda nə varsa, o vaxtlar mümkün olan çərçivə daxilində hər şeyi mətbuata açıq söyləyirdim. Hər halda, mən müəyyən edilmiş çərçivədən çox-çox kənara çıxırdım. Açığını deyim ki, buna görə məni qınayırdılar. 1969-cu ildə burada işləməyə başlayanda mən Azərbaycanın həyatındakı bütün qüsurlardan, bütün çatışmazlıqlardan, bütün xoşagəlməz hallardan açıq danışdım. Əvvəla, bu, bomba partlayışına bərabər idi. Bilirəm ki, onda bu, xaricdə çox böyük əks-səda doğurdu. Bu, xarici mətbuat vasitəsilə Sovet İttifaqının rəhbərlərinə

çatanda, onlar məni qınayıb deyirdilər ki, siz nə üçün belə edirsiniz, bu nə deməkdir? Mən də deyirdim ki, axı nə olub? Onlar isə cavabında bildirirdilər ki, belə açıq danışmaq nəyə gərək idi. Deyirdim ki, əgər mən bu qüsurlarla mübarizə aparmaq istəyirəmsə, onda necə açıq danışmayım?

Bilirsinizmi, o vaxtlar belə bir nəzəriyyə var idi, bu barədə mənə deyirdilər ki, kapitalizmlə sosializm arasında mübarizə gedir, kapitalist ölkələrində Sovet İttifaqına onsuz da çox qara yaxırlar. Siz isə özünüzün bəyanatlarınızla, faktlarınızla və sairə ilə onlara bunun üçün böyük əsaslar verirsiniz. Mən onlara deyirdim ki, bəyanatlarımın onlara bu baxımdan nə dərəcədə böyük əsaslar verdiyini bilmirəm, amma onlar onsuz da öz işlərini görürlər. Xatirimdədir, 1975-ci ildə biz bir rayon partiya komitəsinin birinci katibini işdən çıxarıb, partiyadan xaric etdikdən, ədalət mühakiməsinə verdikdən və bütün bunlar barədə qəzetlərimizin iki səhifəsində yazı dərc etdikdən sonra başqa bir respublikanın birinci katibi mənimlə görüşəndə dedi: Siz nə üçün belə edirsiniz?

Deyirdi ki, bizim bəzi rayon partiya komitələrinin birinci katibləri yanıma gəlib bildirirlər ki, Əliyev rayon partiya komitələrinin birinci katibləri təsisatını nüfuzdan salır. Mən isə ondan soruşdum ki, bəs siz bununla razılaşırsınızmı? Dedi ki, razı deyiləm, amma bütün bu işləri cəmiyyətə bəyan etmək nəyimizə gərəkdir. Dedim ki, onların özləri özlərini nüfuzdan salmışlarsa, daha mən nə ilə nüfuzdan salıram, mən onları nüfuzdan salmıram. Mən birini, ikisini, üçünü ciddi nöqsanlarına görə, nəinki səhvlərinə, hətta cinayətlərinə görə cəzalandırıram və bunu Azərbaycanın bütün ictimaiyyətinə çatdırıram ki, qalanlarını xilas edim, onlar belə yolla getməsinlər.

Müxtəsəri, açıqlıq məndə həmişə olmuşdur. Daha bir faktı xatırlayıram. Məncə, partiyanın 27-ci qurultayı idi. Bu, Siyasi Büronun üzvü kimi iştirak etdiyim axırıncı partiya qurultayı idi. Gərək ki, 1986-cı il idi. Moskvada, Xarici İşlər Nazirliyi-

nin mətbuat mərkəzində – o indi də mövcuddur, orada bəzən informasiya verirdilər – qurultayın işlədiyi bütün günlərdə kimlərin çıxış edəcəyi barədə plan hazırlamışdılar. Nazirin, Nazirlər Soveti sədrinin müavininin adını yazmışdılar. Siyasi Büro üzvlərindən isə yeganə məni yazmışdılar. Özü də o vaxtlar Nazirlər Sovetində mən başqa sahələrlə yanaşı, sosial məsələlərə də baxırdım. Odur ki, mən sosial məsələlər barəsində məlumat və suallara cavab verməli idim. Əlbəttə, bir qədər təəccübləndim, yaxşı, nə üçün Siyasi Büronun qalan üzvləri oraya, jurnalistlərin yanına getmirlər? Buna baxmayaraq, mən bundan imtina etmədim.

Xatirimdədir, mən oraya gəldim, qurultay davam edirdi, salon ağzınadək dolu idi, bəziləri hətta pilləkənlərin üstündə oturmuşdu. Mən kifayət qədər açıq çıxış etdim, sonra çox kəskin suallar oldu. Əlbəttə, bu suallar indi kəskin görünmür. Məsələn, soruşurdular ki, Sovet İttifaqında «qara bazar» varmı? Mən deyirəm, əlbəttə, var. O vaxt isə onun mövcudluğundan heç kəs danışmırdı. Rüşvətxorluq varmı? Mən deyirdim, əlbəttə, var. O vaxt, 1986-cı ildə – adama elə gəlir ki, lap bu yaxınlarda olub – bu çox güclü təsir bağışladı. Həmkarlarımdan bəziləri onda mənə deyirdilər ki, siz yaxşı cavab verdiniz. Amma bununla yanaşı, onlar ölkəmizin qüsurlarından belə açıq danışmağımdan daxilən narazı idilər.

Doğrudur, bir ildən sonra mən Siyasi Büronun tərkibindən getdim. Lakin mən həmin günü, hər halda, xatırlayıram. Ona görə də mənim bu keyfiyyətimi – mətbuatla ünsiyyətdə açıqlığımı dəyərləndirməyinizi çox yüksək qiymətləndirirəm. Sağ olun.

**Hans Şteynfeld** (*Norveç Teleradio Verilişləri Korporasiyasının şef-müxbiri*): Biz Sizi ilk dəfə ağır günlərdə, 1990-cı ildə, yanvar hadisələrindən sonra çəkmişik.

**H e y d ə r  Ə l i y e v:** Bəli, xatırlayıram. Yeri gəlmişkən, mən sizə diqqət yetirdim, ancaq sizinlə görüşdüyümüzü deməyə çəkindim.

**H a n s  Ş t e y n f e l d:** Cənab Prezident, Sizə belə bir sualım var. Norveç ilə Azərbaycan arasında Rusiya kimi böyük ölkə olsa da, fərqi yoxdur, sizin ölkəniz bizim «Statoyl» Dövlət Neft Şirkəti üçün çox mühüm tərəfdaş olmuşdur və Baş naziriniz bu yaxınlarda Norveçə gəlmişdi.

Mən Sizə Dağlıq Qarabağ barəsində sual vermək istəyirəm. Vaxtilə «İcmalar prosesi» deyilən prosesdə İsraillə fələstinlilərin mövqelərini məhz Norveç diplomatiyası vasitəsilə yaxınlaşdırmaq mümkün olmuşdu. Bilirəm, bu proses onunla səciyyələnir ki, diplomatlarımız qarşı-qarşıya duran tərəfləri danışıqlar masası arxasında əyləşməyə az qala fiziki cəhətdən məcbur etmişdilər. Biz Sizi Avropa Şurasının üzvü olmağınız münasibətilə təbrik edirik və bununla əlaqədar bilmək istərdik, Sizcə, Qərbdəki tərəfdaşlarınız Dağlıq Qarabağda münaqişənin nizama salınması üçün bu cür üsul tətbiq edə bilərlərmi?

**H e y d ə r  Ə l i y e v:** Sağ olun. Əvvəla, şadam ki, biz sizinlə artıq on ildən sonra görüşürük. Əvvəlki görüş 1990-cı ilin yanvarında olmuşdur. O günlər Azərbaycan üçün ağır günlər idi. Yeri gəlmişkən, o vaxtlar Sov. İKP MK-nın üçillik güclü təzyiqindən sonra mən ilk dəfə cəmiyyət arasına çıxmışdım. Biz onda görüşdük. Siz Moskvada evimizə, yanıma gəlmişdiniz, sonra isə hətta Naxçıvana da gəldiniz. Mən bunu qiymətləndirirəm. Norveçə rəsmi səfərim zamanı siz də orada idiniz. Gərək ki, biz sizinlə hətta hava limanında görüşmüşdük.

Şadam ki, Norveçlə Azərbaycan arasında belə sıx münasibətlər mövcuddur, birinci müqavilədə – «Əsrin müqaviləsi»ndə «Statoyl» şirkəti çox böyük paya malikdir və indi neftdən mənfəət götürür. Çünki bu müqavilənin həyata keçirilməsi sayəsində 1997-ci ildən biz neft satırıq. Burada Norveçin bir çox digər şirkətləri işləyir, özü də kifayət qədər uğurla işlə-

yirlər. Mən sizin Stavanger şəhərində olmuşam, vertolyotla platformaya getmişik, çox maraqlı idi. Mən bunların hamısını yaxşı xatırlayıram. Əlbəttə, siz də yadımdasınız, Naxçıvana gəlmişdiniz, Əliyevin Moskvadan sonra Naxçıvanda necə ağır şəraitdə yaşadığını, işlədiyini gördünüz.

Demək istəyirəm ki, biz Norveçlə Azərbaycan arasında münasibətləri bundan sonra da inkişaf etdirəcəyik. Baş nazirimizin bu yaxınlarda oraya səfəri bunu bir daha təsdiqlədi. Sizin Baş nazir Stoltenberq Neft və Energetika naziri işləyərkən burada dəfələrlə olmuşdur. Yeri gəlmişkən, o mənim yaxın dostumdur.

O ki qaldı münaqişənin həllində Norveçin bizə kömək göstərmək imkanlarına, əlbəttə, digər ölkələr kimi, Norveç də bu cür imkanlara malikdir. Amma sizə açığını deməliyəm, təəssüf ki, Norveç bu imkanlardan istifadə etmir. Axı son vaxtlaradək Norveç ATƏT-in sədri olmuşdur və cənab Vollebek Xarici İşlər naziri işləyərkən bir il ərzində ATƏT-in fəaliyyətdə olan sədri vəzifəsini həyata keçirmişdir.

Birincisi, jurnalist kimi, sizə deyim ki, o, regionumuza öz səlahiyyət müddətinin bitməsinə iki ay qalanda gəlmişdi. İkincisi isə, biz ATƏT-ə bağlıyıq, ATƏT-in Minsk qrupu mövcuddur. Hər il ATƏT-ə bir ölkə başçılıq edir. İndi isə sədr Rumıniyadır.

Həmin bir il ərzində heç nə edilmədi. Buna baxmayaraq, haqqında danışdığınız təcrübədən Norveç istifadə etsə və bizə kömək göstərə bilsə, mən buna şad olaram. Ümumiyyətlə, bizə yardım göstərə biləcək bütün ölkələrin köməyini qəbul etməyə hazırıq.

**Hans Ştaynfeld:** Cənab Vollebekin müdafiəsi naminə xatırlatmaq istəyirəm ki, onda Kosovoda müharibə başlandı və bu onun sədrliyi ilə bir vaxta düşdü.

**H e y d ə r Ə l i y e v:** O məsələ bəlkə də ön sırada idi. Bu nədir, mətbuat konfransıdır? Mənə demişdilər ki, görüş cəmi 15 dəqiqə çəkəcəkdir.

**S e r g e y S e m y o n o v** (*ORT televiziya şirkətinin müxbiri*)**:** Heydər Əliyeviç, Rusiyanın və Azərbaycanın bir böyük problemi var – bu, qaçqınlar problemidir. İndi bizdə çoxlu çeçen qaçqını var, sizdə də artıq neçə illərdir böyük qaçqın düşərgələri mövcuddur. Necə bilirsiniz, bu problem hansı yolla həll ediləcəkdir? Nə vaxt həll ediləcəkdir? Daha bir sual – əgər mümkünsə, bu günün hadisələri barədə qısaca danışasınız. Azərbaycan Rusiyada quldurluq etməkdə şübhəli sayılan iki yaraqlını Rusiyaya təhvil vermişdir. Cinayətkarların verilməsi haqqında Rusiya ilə Azərbaycan arasında nə kimi müqavilə bazası var?

**H e y d ə r Ə l i y e v:** Əgər qaçqınlardan danışsaq, bəli, Rusiyada da qaçqınlar var. Lakin əgər Rusiya ilə Azərbaycanı müqayisə etsək, Rusiya üçün bu çox cüzidir. Ona görə ki, Rusiya kimi çox böyük ölkənin Çeçenistandan, yaxud İnquşetiyadan qaçqınları var. Ölkə çox böyükdür, geniş maddi imkanlara malikdir, bu qaçqınların evlərinə qayıdanadək az-çox normal şəraitdə yaşaması üçün istədiyi hər şeyi edə bilər. İkincisi, onların sayı azdır. Bilmirəm, 200 mindir, yoxsa 300 mindir, hər halda, bundan çox deyildir. Azərbaycan isə kiçik ölkədir – 8 milyon əhalisi var. Təsəvvür edirsinizmi, bunun onda biri qaçqınlardır. Bizim Rusiyadakı qədər vəsaitimiz və imkanlarımız yoxdur. Əgər bunlar olsaydı, mən onları artıq çoxdan yerbəyer edərdim – daimi yaşayış üçün yox – biz onlara daha yaxşı şərait yaradardıq ki, doğma yerlərinə qayıdanadək çadırlarda yaşamasınlar. Odur ki, bircə yol var. Orada da, burada da münaqişəyə son qoymaq gərəkdir ki, insanlar öz yerlərinə qayıda bilsinlər. Dediyim kimi, artıq bundan sonra işin ikinci, eyni dərəcədə ağır mərhələsi başlanacaqdır, lakin biz artıq bunların hamısına dözəcəyik.

Rusiya ilə Azərbaycan arasında hüquqi yardıma gəldikdə, bizim bu sahədə müqaviləmiz var. Fürsətdən istifadə edərək deməliyəm ki, Rusiya bu baxımdan bizə çox böyük kömək göstərmişdir. Bizim Daxili İşlər naziri deyir ki, son beş ildə burada ağır cinayətlər törətmiş təxminən 300 cinayətkar Rusiya ərazisində yaxalanmış və Azərbaycana verilmişdir. Ona görə də biz Rusiyanın hüquq-mühafizə orqanlarına minnətdarıq, bunu dəfələrlə demişik. Rusiya ilə Azərbaycan arasında hüquqi yardım haqqında müqavilə ilə üzərimizə qoyulmuş öhdəlikləri yerinə yetirmək üçün biz də mümkün olan işləri görürük.

**Y e l e n a  Q u t e o n t o v a** (*TVS şirkətinin müxbiri*)**:** Mətbuatınızda oxudum ki, Siz ərzaq təhlükəsizliyi proqramını bəyənmisiniz. Bu proqram nə ilə əlaqədar qəbul edilmişdir və o hələ ümumi sovet keçmişimizdən sizli-bizli xatırladığımız ərzaq proqramına oxşamırmı? Belə bir məlumat da vardı ki, NTV kanalının Dağlıq Qarabağ ordusu haqqında süjet göstərmək niyyətində olması ilə əlaqədar Siz bu yaxınlarda Rusiya kanallarının – RTR-in, ORT-nin, NTV-nin yayımlanmasının qadağan olunmasını tələb etmisiniz. Siz belə tələblərə necə baxırsınız və ümumiyyətlə, bu cür tədbirlər səmərəlidirmi?

**H e y d ə r  Ə l i y e v:** Əvvəla, bu, ərzaq proqramı deyildir. Mən həmin ərzaq proqramına yaxşı bələdəm, çünki onun müzakirəsində iştirak etmişəm və hər bir respublika bu cür proqram hazırlamışdı. O, ölkənin tələbatının tam ödənilməsi üçün Sovet İttifaqında ərzaq məhsulları istehsalını təmin etməkdən ötrü nəzərdə tutulmuşdu. Amma təəssüf ki, biz buna nə taxıl istehsalında, nə heyvandarlıq məhsullarında, nə də digər sahələrdə nail ola bildik. Yeri gəlmişkən, 1982-ci ildə Mixail Qorbaçov öyünürdü ki, Sovet İttifaqının inkişafını təmin edəcək çox güclü ərzaq proqramı hazırlayıb. Bu proqramı MK-nın plenumunda Brejnevin məruzəsi ilə qəbul etdilər. Bu, 1982-ci ildə olmuşdur, Qorbaçov onda MK-nın kənd

təsərrüfatı üzrə katibi idi. Lakin 1985-ci ildə Baş katib olandan sonra 1991-ci ilədək heç nə etmədi. Əksinə, vəziyyət pisləşdi. Ərzaq təhlükəsizliyi haqqında bu proqram isə Dünya Bankı və Beynəlxalq Valyuta Fondu tərəfindən tövsiyə olunmuşdur. Burada zəruri hallar üçün məhz ehtiyatlar yaradılması nəzərdə tutulur. Bu, ərzaq proqramı deyildir. İndi bizdə torpaq tamamilə özəlləşdirilib, hamısı kəndlilərə paylanıbdır. Yeri gəlmişkən, bu, Azərbaycan əhalisinin ərzaq məhsulları ilə təmin edilməsində olduqca böyük rol oynamışdır.

Məsələn, sovet dövründə ixtisaslaşma mövcud idi. Biz çoxlu pambıq istehsal edir və onu Sovet İttifaqının müxtəlif yerlərinə göndərirdik. Bunun əvəzində bizə ət, süd, yağ vəd edirdilər, çünki bu məhsullar bizdə çatışmırdı. Amma biz pambıq verir, əvəzində isə nə ət alırdıq, nə də yağ. İndi isə torpağı kəndlilərə paylamışıq. Onlar nə istəyirlər, onu da əkib-becərirlər. Bizdə ət də, süd də, taxıl da, nə istəsəniz, hər şey bol-dur. Bir Bakıya baxın, hər yerdə ət satılır. O vaxtlar isə MK-nın birinci katibi kimi, mən əziyyət çəkirdim, biz talon verməli olurduq, bu talonla hər ailəyə ayda, bilmirəm, 2 və ya 3 kiloqram ət satılırdı. Vəssalam. Mağazalar bomboş idi, indi isə bilmirsən əti nə edəsən. Xatirimdədir, biz Ukraynadan, Belarusiyadan kartof alırdıq, yenə də, şübhəsiz, çatışmırdı. İndi kəndlilərimiz o qədər kartof istehsal edirlər ki, bu nəinki Azərbaycana çatır, onu hətta xaricə aparıb satırlar.

Biz onlara nəzarət etmirik. Bizim kənd təsərrüfatı məhsulları istehsalı sahəsində heç bir problemimiz yoxdur.

Doğrudur, biz onlara çox güzəştli şərait yaratmışıq. Onları bütün vergilərdən azad etmişik. Kənd təsərrüfatı məhsullarının istehsalını stimullaşdırmaq üçün biz onlara güzəştli şərtlərlə, təxminən 50 faiz ucuz yanacaq veririk. Gördüyünüz kimi, indi tamam ayrı vəziyyətdir.

O ki qaldı kanallara, mən bilmirəm, Rusiya kanalları bütün MDB ölkələrində Azərbaycanda olduğu qədər translya-

siya edilirmi? ORT var, RTR var, NTV var, TV-6 kanalını antena ilə tuturlar. Daha nə istəyirsiniz? Bilirsinizmi ki, bu kanallar bəzi ölkələrdə qadağan edilmişdir, yayımlanmır? Bizdə bunların hamısı var və hesab edirəm ki, bu yaxşıdır. Qoy insanlar kanallardan istifadə etsinlər, çünki söz azadlığı, mətbuat azadlığı var, qadağan etmək nəyə lazımdır. Doğrudur, bizə haqq ödəmirlər, çoxlu borcları var. Yeri gəlmişkən, ORT-nin borcları olduqca çoxdur.

**D e n i s  D y o m k i n** (*Röyter Teleqraf Agentliyi Bürosu rəhbərinin müavini*)**:** Dünən oğlunuz İlham dedi, o əmindir ki, Siz növbəti prezident seçkilərində namizədliyinizi verəcək, qalib gələcək və ölkəni 2008-ci lədək idarə edəcəksiniz.

**H e y d ə r  Ə l i y e v:** Əgər o deyibsə, mən daha nə əlavə edə bilərəm? O, hər halda, mənim oğlumdur, məni başqalarına nisbətən daha yaxşı tanıyır.

**D e n i s  D y o m k i n:** Siz növbəti seçkilərdə namizədliyinizi irəli sürmək niyyətindəsinizmi?

**H e y d ə r  Ə l i y e v:** Əlbəttə. Niyə də yox? Mənim hələ imkanım var.

* * *

## Görüşdən sonra Azərbaycan prezidenti Heydər Əliyevin Norveç televiziyasının müxbiri Hans Şteynfeldə verdiyi müsahibə

**S u a l: Sizin rəhbərliyiniz dövründə Azərbaycanda sabitlik təmin edilmişdir. Hazırda Qərblə inteqrasiya prosesləri müşahidə olunur. Siz Avropa Birliyinə və NATO-ya üzv olmaq barədə düşünürsünüzmü?**

**H e y d ə r  Ə l i y e v:** Bilirsiniz, biz yenicə Avropa Şurasına qəbul edilmişik. Avropa Şurasının tamhüquqlu üzvü olmaq üçün dörd il ərzində biz böyük bir yol keçməli olmuşuq. Əlbəttə, indi biz Avropa Birliyi barədə də düşünürük. Lakin, eyni zamanda, bunun necə çətin olduğunu da bilirik, çünki

orada cəmi 15 ölkə var, daha yüksək inkişaf səviyyəsində olan nə qədər Avropa ölkəsi isə Avropa Birliyinə hələ qəbul edilməyibdir. Ona görə də biz gerçəkliyi əsas tuturuq. Əlbəttə, gələcəkdə bunu qarşımıza məqsəd qoyacağıq.

**H a n s  Ş t e y n f e l d:** Çünki Türkiyə ilə birlikdə siz Qərb üçün strateji baxımdan maraqlı tandemsiniz.

**H e y d ə r  Ə l i y e v:** Bəli, həqiqətən belədir. Ona görə Qərb də məhz özünün ölkəmizə olan maraqlarını nəzərə almalıdır.

**H a n s  Ş t e y n f e l d:** Sağ olun. Sizə uğurlar arzulayıram.

# TÜRKİYƏ RESPUBLİKASININ PREZİDENTİ ƏHMƏD NECDƏT SEZƏRİN DƏVƏTİ İLƏ DOST ÖLKƏYƏ RƏSMİ SƏFƏRƏ YOLA DÜŞMƏZDƏN ƏVVƏL BİNƏ HAVA LİMANINDA JURNALİSTLƏRİN SUALLARINA CAVAB

*12 mart 2001-ci il*

Mənim Türkiyəyə rəsmi səfərim sizə məlumdur, elan olunubdur. Keçən il Türkiyənin yeni seçilmiş prezidenti hörmətli Əhməd Necdət Sezər Azərbaycanda rəsmi səfərdə olduğu zaman məni Türkiyəyə rəsmi səfərə dəvət etmişdir. Mən də indi bu dəvəti həyata keçirirəm.

Təbiidir ki, bizim orada bir çox görüşlərimiz, danışıqlarımız olacaqdır. Birinci növbədə, prezidentlə, Baş nazirlə, Baş nazirin müavinləri ilə, Baş qərargah rəisi ilə və başqa şəxslərlə dövlətlərarası, hökumətlərarası bir neçə sənədlər hazırlanıbdır. Onlar imzalanacaqdır. Azərbaycan qazının Türkiyəyə ixrac edilməsi haqqında saziş imzalanacaqdır. Bakı–Ceyhan neft kəməri haqqında elə bir problem yoxdur. Sadəcə, biz orada bu işlərin təşkil edilməsi barəsində fikir mübadiləsi aparacağıq. Ancaq bu işlər gedir. Yəni yeni bir sənədin icad edilməsinə ehtiyac yoxdur. Bütün sənədlər hazırlanıbdır. İndi mühəndis-layihə işləri aparılır. Mən Böyük Millət Məclisində millət vəkillərinə xitab edəcəyəm. Proqramda başqa görüşlər də var.

Türkiyə bizim üçün dost, qardaş ölkədir. Bizim əlaqələrimiz həmişə yüksək səviyyədə olubdur. Bu gün də yüksək səviyyədədir. Ancaq eyni zamanda belə rəsmi, işgüzar səfərlər hər dəfə hansısa məsələlərin həll olunmasını tezləşdirir, yaxud

da onun üçün şərait yaradır. Amma bunlarla bərabər, fikir mübadiləsi də çox əhəmiyyətlidir.

Təbiidir ki, mən Türkiyənin dövlət–hökumət başçıları ilə Ermənistan–Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin həll olunması problemləri haqqında fikir mübadiləsi aparacağam. Çünki biz bu illər ərzində Türkiyə ilə daim məsləhətləşmələr, fikir mübadilələri aparmışıq. Çünki Ermənistanın Azərbaycana təcavüzü zamanından indiyə qədər Türkiyə Azərbaycanı həmişə dəstəkləyibdir. Baxmayaraq ki, son vaxtlar bir neçə ölkələrdə Türkiyəyə qarşı müxtəlif mənfi hərəkətlər meydana çıxıbdır. Türkiyənin keçmişdə, 1915-ci ildə guya ermənilərə qarşı soyqırım etməsi haqqında hətta bəzi ölkələrin parlamentlərində qərarlar qəbul olunubdur. Bunlar hamısı Türkiyəyə təsir etmək məqsədi daşıyır. Ancaq Türkiyə bizimlə olan münasibətlərinə sadiqdir və bunu dəfələrlə deyibdir.

Güman edirəm, bu dəfə də təsdiq ediləcək ki, Azərbaycanın torpaqları işğaldan azad olmasa, yəni Ermənistan silahlı qüvvələri işğal etdikləri Azərbaycan torpaqlarından çıxmayana qədər Türkiyə Ermənistanla heç bir əlaqə, yəni nə diplomatik əlaqələr, nə də iqtisadi əlaqələr qurmayacaqdır. Bunu dəfələrlə bəyan ediblər. Amma bu barədə həm danışmaq lazımdır, həm də bizim bu mövqelərimizi dünyaya bir daha bəyan etmək lazımdır. Başqa işlər də olacaqdır. Bilirsiniz ki, bizim ölkələrimizin çox qarşılıqlı əməkdaşlıq işləri var. Ona görə də indi hamısını deməyə ehtiyac yoxdur. Amma mən əsas məsələləri sizə dedim.

**S u a l**: **Cənab Prezident, Dağlıq Qarabağla bağlı Türkiyədən hər hansı bir təklif gözləmək olarmı?**

**C a v a b:** Danışacağıq. Görək...

**S u a l: Cənab Prezident, Türkiyənin Xarici İşlər naziri İsmayıl Cəm təşəbbüslə çıxış etmişdi ki, Ermənistan və Azərbaycan prezidentləri Türkiyənin vasitəçiliyi ilə bir görüş keçirsinlər. Bu nə qədər realdır və Siz buna necə baxırsınız?**

**C a v a b:** Biz heç vaxt buna etiraz etməmişik. Birincisi, Türkiyə Minsk qrupunun üzvüdür və Minsk qrupunun fəaliyyətində həmişə fəal iştirak edir. Ancaq bilirsiniz ki, Ermənistan buna razı deyil və razı ola bilməz. Çünki Ermənistan Türkiyəni həmişə onlara qarşı qeyri-obyektiv mövqedə günahlandırır.

**S u a l: Cənab Prezident, Rusiya mətbuatı yazır ki, Azərbaycan Türkiyəyə qaz satılması məsələsində çox güzəştlər edir.**

**C a v a b:** Heç bir güzəşt etməmişik. Azərbaycanın qazı Türkiyəyə dünya bazar qiymətləri ilə satılacaqdır və burada heç bir güzəşt yoxdur. Yəqin ki, kimsə bunu uydurur.

**S u a l: Cənab Prezident, Siz Faruq Loğoğlunu qəbul edəndə demişdiniz ki, Türkiyə «Şahdəniz» və Bakı–Ceyhan layihələrinin həyata keçirilməsini bir qədər ləngidir. Bu problem aradan qaldırıldımı?**

**C a v a b:** Ləngitmə var idi. Amma indi bir halda ki, biz sənədləri imzalayacağıq, demək, aradan qaldırılıb.

**S u a l: Cənab Prezident, bu saziş imzalanarsa, Sizcə, Transxəzər qaz kəməri layihəsi reallığını itirirmi?**

**C a v a b:** O bizdən asılı deyildir. Biz dəfələrlə demişik: Əgər Türkmənistan əvvəlki mövqeyinə qayıtsa, heç vaxt buna etiraz etməyəcəyik.

**S u a l: Cənab Prezident, deyilənə görə, Azərbaycan Dağlıq Qarabağ münaqişəsinin həllində müddətsiz fəaliyyət rejiminə keçir. Amma indiyə qədər dəfələrlə bəyan edirdiniz ki, 2000-ci, yaxud 2001-ci ildə bu münaqişənin həlli qarşımıza məqsəd kimi qoyulmuşdu.**

**C a v a b:** Bilirsiniz, Azərbaycanda indi hərə bir söz deyir. Mən indiyə qədər görülən bütün işlər haqqında Milli Məclisdə hesabat verdim. Birincisi, Minsk qrupunun indiyə qədər verdiyi əsas təkliflər mətbuatda dərc olundu. Hər kəs onunla tanış oldu və bu gün də tanış olmağa imkanı var.

İkincisi də, son illərdə gedən bütün proseslər haqqında geniş izahat verdim. Orada bildirdim ki, görülən bütün bu işlər Azərbaycanın qarşıda qoyduğu vəzifəni hələ indiyə qədər yerinə yetirməyə imkan verməyibdir. Bu vəzifə də ondan ibarətdir ki, Ermənistan silahlı qüvvələri işğal etdiyi Azərbaycan torpaqlarından çıxmalıdır, Azərbaycanın ərazi bütövlüyü bərpa olunmalıdır və yerindən-yurdundan didərgin düşmüş insanlar öz yerlərinə qayıtmalıdır. Əsas prinsip budur. Ancaq heç bir təklif almadım. Mən deyirdim, bəlkə bizim bilmədiyimiz bir şey varsa, kimsə deyər. Mənim bu müraciətim tam səmimi xarakter daşıyırdı. Bu gün də bunu təsdiq edirəm. Səmimi idi. Əgər kim bizim indiyə qədər gördüyümüz işlərdən əlavə, o işlərdən daha da səmərəli təkliflər irəliyə sürə bilərsə, Azərbaycanın prezidenti kimi, mən, birincisi, minnətdar olacağam, ikincisi də, əlbəttə, bu bizim ümumi işimizə kömək edəcəkdir.

Amma təəssüflər olsun ki, heç bir konkret təklif yoxdur. Hərə bir söz deyir. Yəqin sizin də – müxalifət televiziyalarının da işi elə bundan ibarətdir ki, gedirsiniz, ona mikrofon verirsiniz, sən nə deyirsən, buna mikrofon verirsiniz və onları da gətirib axşam göstərirsiniz. Daha da çox qarmaqarışıqlıq yaradırsınız. Amma mən bunun da müsbət nəticəsini görürəm. Bu nədən ibarətdir? Ondan ibarətdir ki, siz əsasən müxalifətlə işləyirsiniz, onlara xidmət edirsiniz. Mən dünən axşam ANS televiziyasına da, Space televiziyasına da baxmışam. Ancaq onlara xidmət edirsiniz. Başqa bir şey yoxdur.

**J u r n a l i s t: Cənab Prezident, onlarla görüşmək daha asandır.**

**H e y d ə r Ə l i y e v:** Çünki onlar boş-boş sözlər danışırlar. Sizə də lazımdır ki, efirdə bir şey verəsiniz. Amma heç bir yeni təklif verən yoxdur. İndi siz ortaya atmısınız ki, guya Namazovla Zülfüqarov bir təklif veriblər. Mən çox təəccüblənirəm. Ancaq burada bir məsələ var. Əgər belə bir təklifi bu işin içində olmayan adamlar versəydilər, elə sizin hər gün gedib

müsahibə aldığınız partiya rəhbərləri versəydilər, bu məni təəccübləndirməzdi. Çünki mən Milli Məclisin iclasından sonra gördüm ki, onlar bu problemin həll olunması yollarından, bu problemin mürəkkəbliyindən çox uzaq bir məsafədə durublar. Anlamırlar. Ancaq tənqid etməklə, şayiələr yaymaqla, uydurmalarla məşğuldurlar. Dünən deyirlər ki, ortaya atdıqları bu təklif milli konsepsiya olacaqdır. Ona görə də əgər belə adamlar olsaydı, mən buna təəccüblənməzdim.

Ancaq bu iki şəxs yeddi il mənim yanımda işləyiblər. Mən hələ Azərbaycanda hakimiyyətə gəlməzdən əvvəl Tofiq Zülfüqarov bu işlə məşğul olan adamdır. Dəfələrlə danışıqlar aparan adamdır və nazir müavini kimi, ayda bir dəfə, iki ayda bir dəfə Moskvaya gedirdi, bir həftə orada qalırdı, Kazimirovun rəhbərliyi altında, qayıdıb gələndə deyirdi ki, bu cümləni buraya qoyduq, bu cümləni də buraya qoyduq. Başqa heç bir şey yox.

O sonra Xarici İşlər naziri idi. Bu işlərin hamısını bilir. Yəni o mənada bilir ki, indiyə qədər Minsk qrupu tərəfindən hansı təkliflər olub və bizim onlara münasibətimiz necə olubdur. Doğrudur, Namazov danışıqlar prosesində iştirak etməyibdir. Sadəcə, mənim köməkçim kimi, danışıqlarda, qapalı danışıqlarda da oturubdur – indi Dilarə Seyidzadə yazan kimi, o da yazıbdır, bəlkə Dilarə Seyidzadə ondan yaxşı yazır – bu məsələnin müzakirəsində onun başqa bir rolu olmayıbdır.

Bilirsiniz, indi bunlar camaatı aldadırlar ki, biz bir konsepsiya meydana çıxarmışıq.

Bu konsepsiya nədən ibarətdir? Siz bu şeylərə başınızı sındırmayın, vaxt itirməyin. Bu konsepsiya ondan ibarətdir ki, birincisi, biz mərhələli həll təklifini qəbul edirik. İkincisi, əgər bu olmasa, müharibə edirik. Müharibə etmək üçün də lazımdır ki, iqtisadiyyatı qaldıraq, ordunu gücləndirək, islahatlar keçirək, demokratiyanı inkişaf etdirək, bunları edək, onları edək. Amma düşünmürlər ki, bu işlərin çoxu görülübdür. Ordu quruculuğu gedir və mən demişəm, bizim güclü

ordumuz vardır. İslahatlar gedir, öz nəticəsini verir. Əgər bu islahatlar getməsəydi, hamınız belə yaşaya bilməzdiniz.

Azərbaycan öz iqtisadi göstəricilərinə görə Müstəqil Dövlətlər Birliyi içərisində ən irəlidə gedən ölkələrdən biridir. Bunu biz demirik. Bunu Dünya Bankı deyir. İndi bunlar deyirlər ki, iqtisadiyyatı inkişaf etdirmək lazımdır.

Əlbəttə ki, iqtisadiyyatı inkişaf etdirmək bundan sonra da lazımdır. İndiyə qədər görülən işlər Azərbaycan iqtisadiyyatını biz istədiyimiz səviyyəyə qaldırmayıbdır. Ancaq keçən il ümumi daxili məhsul 10 faiz artıbdır və 1996-cı ildən başlayaraq hər il artır. Sənaye istehsalı artır, kənd təsərrüfatı istehsalı artır, özəlləşdirmə prosesi gedir. Amma bunun vaxtı var. 10 faiz artırmaq olar, amma 10 dəfə artırmaq olmaz. Bu adi şeyləri bilməyən adamlar, yaxud bilərək, qəsdən insanları çaşdırmaq istəyən adamlar bu cür fikirləri ortaya atırlar. Siz də bunlara uyursunuz. Özlərini guya böyük siyasi xadim hesab edən müxalifət partiyalarının rəhbərləri bir yerə yığışıb deyirlər ki, nəhayət, ağıllı bir təklif gəlibdir, biz bunun tərəfdarıyıq. Ancaq o mənada ki, siz oradan iqtidarın gördüyü işləri çıxarın – yaxşı, əgər onları çıxarsan, orada nə qalacaqdır – qalanı ilə biz razıyıq. Bilirsiniz, bu cəfəngiyatdır.

Yenə də deyirəm, guya orada iki əsas məsələ var. Birincisi, mərhələ-mərhələ həll, ikincisi, müharibə. Mən mərhələ-mərhələ həll barədə Milli Məclisdə dedim. 1997-ci ilin sentyabr ayında bu təklif bizə rəsmi təqdim olunubdur. Onu da mətbuatda dərc etmişik. Biz onu qəbul etdik – baxmayaraq ki, orada heç də hər şey bizim üçün yararlı deyildi, məqbul deyildi – amma Ermənistan onu qəbul etmədi. Mən bunu neçənci dəfədir izah edirəm. Sonra Ermənistanın keçmiş prezidenti ilin sonunda bunu qəbul etmək fikrinə gəldi. Bunu həyata keçirən zaman müqavimətlə rastlaşdı, istefaya getməyə məcbur oldu. Müqavimət göstərənlər bu gün hökumətin başındadırlar.

Bu təklif dörd il bundan qabaq müzakirə olunubdur, həyata keçirilməyibdir və onlar bunu qəbul etməyiblər. İndi bunu Amerikanın kəşfi kimi, bir ixtira kimi ortaya qoymaq olarmı? O ki qaldı müharibəyə, müharibə heç vaxt istisna olunmayıbdır. Müharibəni nə vaxt lazım olsa, etmək olar.

Bilirsiniz, mən Parisdə idim. Bunları bilmirdim. Gəldim, bir, iki-üç gündür burada televiziyaya baxanda bir şey – Cəlil Məmmədquluzadənin «Ölülər» əsəri yadıma düşdü. Çoxlarınız cavansınız, bəlkə onu oxumamısınız, səhnədə görməmisiniz.

Şeyx Nəsrullah adamlarını bir şəhərə göndərir ki, gedin, orada xəbər verin ki, Şeyx Nəsrullah buraya gəlir, ölüləri diriləcəkdir. Cəlil Məmmədquluzadənin fikri nə idi? Bu, yüksək fəlsəfi məna daşıyan bir əsərdir. Mənim aləmimdə bu, Azərbaycan ədəbiyyatının, dramaturgiyasının, yaxud da Azərbaycan ictimai-fəlsəfi fikrinin yaratdığı ən yüksək dəyərli əsərlərdən biridir. Cəlil Məmmədquluzadə göstərmək istəyirdi ki, bizim o vaxtkı insanlar nə qədər avamdırlar. Şeyx Nəsrullahın xəbərini eşidən kimi, biri gəldi ki, mən qardaşımı dirildəcəyəm. O biri gəldi ki, mən atamı dirildəcəyəm. Biri gəldi ki, arvadımı dirildəcəyəm, nə bilim, bu birisini, o birisini dirildəcəyəm. Sonra Şeyx Nəsrullah gəldi. Cəlil Məmmədquluzadə orada gözəl bir obraz – kefli İsgəndər obrazı yaratmışdır. Kefli İsgəndər birinə deyir ki, sənin qardaşını dirildəndə, gəlib sənə deyəcək ki, mənim arvadımı almısan. O birisinə deyir ki, sənin atanı dirildəndə, gəlib sənə deyəcək ki, mənim malımı dağıtmısan. Onu deyəndə, bunu deyəndə, axırda hamı deyir ki, yox, heç kəsi diriltmək lazım deyildir.

İndi bu niyə mənim yadıma düşübdür? Bax, bu təklifi verənlər təxminən Şeyx Nəsrullaha bənzəyirlər. Sizin hər gün ətraflarında fırlandığınız müxalifət partiyalarının rəhbərləri, yaxud da başqaları – hansılar ki, bunların bu təklifinə biri deyir, çox əlverişlidir, ən əlverişlidir, biri deyir, bəli, bunu qəbul

etmək olar – onlar da mənim xatirəmə həmin avam camaatı salırlar.

**J u r n a l i s t: Cənab Prezident, Siz kefli İsgəndər deyəndə, kimi nəzərdə tutursunuz?**

**H e y d ə r Ə l i y e v:** Burada kefli İsgəndər var. Bilirsiniz, ona görə də avam olmaq lazım deyil. Xalqı aldatmaq lazım deyildir. Necə deyərlər, o təkliflər, prinsiplər dəfələrlə müzakirə olunubdur. Əgər biz onun hansını həyata keçirə bilsəydik, keçirə bilərdik. Yenə də deyirəm, meydana çıxmış iki nəfər «böyük strateqlər» yeddi ildir bu işin içindədirlər və yaxşı bilirlər ki, biz bunları nə vaxt, nə cür həyata keçirmək istəmişik və mümkün olmayıbdır. Amma kənarda olanları qınamıram.

Biz eyni zamanda mərhələ-mərhələ həll təklifini dərc etdik. Sonra mən Milli Məclisdə dedim ki, biz bunu qəbul etdik, amma Ermənistan qəbul etmədi. Sonra qəbul etdi və buna görə də Ter-Petrosyan öz vəzifəsindən imtina etdi. Bundan sonra belə bir şeyi gətirib ortaya çıxarasan və yenə də deyəsən ki, biz bunun əsasında iş görə bilərik – nə deyim, bundan da ağılsız iş ola bilərmi?

Siz sadəlövh olmayın. Biz indiyə qədər nə mümkündür etmişik. Bu gün də edirik, sabah da edəcəyik. Elə bir yol yoxdur ki, biz onu sınaqdan keçirməyək. Elə bir təklif yoxdur ki, biz ona baxıb öz fikrimizi deyə bilməyək. Əgər indiyə qədər biz bunları edə bilməmişiksə, səbəb odur ki, Ermənistan qeyri-konstruktiv yol tutur. Minsk qrupu, beynəlxalq təşkilatlar isə bu işlə məşğul olaraq Ermənistanı konstruktiv yola gətirməyə məcbur etmirlər, ya da edə bilmirlər. Məsələ bundadır. Ona görə səmərəli işlərlə məşğul olun. Vaxtı belə şeylərə itirməyin və camaatı da çaşdırmayın.

Mən Türkiyədə bütün bu məsələlər haqqında ətraflı məsləhətləşəcəyəm. Yəni onlar hər şeyi bilirlər.

**S u a l: Cənab Prezident, İranın prezidenti Xatəmi Qarabağ münaqişəsinin həllində Tehranın vasitəçiliyini irəli sürübdür. Ermənistan buna tam razı olubdur. Bəs, Azərbaycan necə?**

**C a v a b:** Bilirsiniz, əgər sizin xatirinizdədirsə, İran bir dəfə vasitəçilik edibdir. 1992-ci ildə Azərbaycan nümayəndə heyəti ilə Ermənistan nümayəndə heyəti Tehrana getmişdi ki, guya orada İran vasitəçilik etsin. Onlar Tehranda olduğu zaman Ermənistan silahlı qüvvələri Şuşanı işğal ediblər. Siz bunu bilirsiniz, yoxsa yox? Bəlkə də bilmirsiniz. Gedin, onları oxuyun.

**S u a l: Hörmətli Cümhur başqanım, Baş Qərargah rəisi və digərləri ilə görüşlərinizdə Azərbaycanla Türkiyə arasında hərb sahəsində işbirliyinə dair anlaşma gündəmdə olacaqmı?**

**C a v a b:** Bilirsiniz, biz Türkiyənin bütün dövlət orqanlarının rəhbərləri ilə, o cümlədən Baş Qərargah rəisi ilə çox sıx əlaqədəyik, dostluq, əməkdaşlıq əlaqəsindəyik. Nə mümkündür, onu edirik və edəcəyik.

**S u a l: Cənab Prezident, dediniz ki, biz həmişə...**

**H e y d ə r Ə l i y e v:** Sən haranı təmsil edirsən?

**J u r n a l i s t: «Faktor» qəzetini.**

**H e y d ə r Ə l i y e v:** O qədər qəzet var, heç bilmək olmur.

**S u a l: Siz dediniz ki, biz həmişə sülh yolunu tutmuşuq və sülh tərəfdarıyıq. Əgər sonda Ermənistan tərəfi sülhlə razılaşmasa, biz hansı mövqeni tutacağıq? Müharibə edəcəyikmi, yoxsa, məsələ necə olacaqdır?**

**C a v a b:** Mən sənə deyirəm ki, biz müharibə etməyə həmişə hazır olmalıyıq. Bizim ordumuz müharibə etmək üçün günbəgün, ilbəil öz gücünü artırır. Amma müharibə etmək, sizin üçün gedib orada söhbət etmək deyildir.

**S u a l: Cənab Prezident, Ermənistan tərəfi rəsmən bəyan etdi ki, əgər Azərbaycan müharibə edərsə, Ermənistan Azərbaycanın daha yeddi rayonunu da ələ keçirəcəkdir. Ali Baş Komandan kimi nə deyə bilərsiniz?**

**C a v a b:** Onlar hər şey deyə bilərlər. Sağ olun.

# AZƏRBAYCAN PREZİDENTİ HEYDƏR ƏLİYEVİN TÜRKİYƏYƏ RƏSMİ SƏFƏRİ

*12 mart 2001-ci il*

*Azərbaycan Respublikasının prezidenti Heydər Əliyev Türkiyə Cümhuriyyətinin prezidenti Əhməd Necdət Sezərin dəvəti ilə dost ölkəyə rəsmi səfərə gəlmişdir.*

*Azərbaycanın və Türkiyənin dövlət bayraqları ilə bəzədilmiş Ankaranın Esenboğa hava limanında respublikamızın rəhbəri Heydər Əliyevi qardaş ölkənin Dövlət naziri Əbdülxalıq Çay, Böyük Millət Məclisinin deputatları, yüksək vəzifəli dövlət və hökumət nümayəndələri, Azərbaycanın Ankaradakı səfiri Məmməd Əliyev, Türkiyənin Bakıdakı səfiri Qədri Ecvet Tezcan, ölkəmizin İstanbuldakı Baş konsulu Xeyrəddin Qoca qarşıladılar.*

*Azərbaycan prezidenti Heydər Əliyevə gül dəstəsi təqdim olundu.*

*Dövlətimizin başçısı maşın karvanının müşayiəti ilə Atatürk məqbərəsinə – Anıt Kabıra gəldi. Prezident Heydər Əliyev Türkiyə Cümhuriyyətinin banisi, böyük öndər Mustafa Kamal Atatürkün qəbrini hörmət və ehtiramla ziyarət etdi, əklil qoydu.*

*Atatürkün xatirəsi bir dəqiqəlik sükutla yad edildi.*

***Prezident Heydər Əliyev burada xatirə kitabına ürək sözlərini yazdı:***

«Türk dünyasının iftixarı, Türkiyə Cümhuriyyətinin yaradıcısı, qurucusu böyük Atatürkün qəbrini yenidən ziyarət etməkdən məmnuniyyət hissi duyuram.

Böyük Atatürkün qəbri qarşısında baş əyirəm, onun şəxsiyyətinə, qoyduğu irsə Azərbaycan xalqının daimi hörmət və ehtiramını bildirirəm.

**Azərbaycan Respublikasının Prezidenti**
**HEYDƏR ƏLİYEV**
*12 mart 2001-ci il».*

*Sonra Azərbaycan prezidenti Heydər Əliyev Türkiyə prezidentinin iqamətgahına – Çankaya köşkünə gəldi. Burada dövlətimizin başçısı Heydər Əliyevi Türkiyə Respublikasının prezidenti Əhməd Necdət Sezər böyük hörmət və ehtiramla qarşıladı. Azərbaycan prezidentinin şərəfinə toplardan yaylım atəşi açıldı. Sonra hərbi orkestr Azərbaycanın və Türkiyənin dövlət himnlərini ifa etdi.*

*Çankaya köşkündə Azərbaycan prezidentinin şərəfinə fəxri qarovul dəstəsi düzülmüşdü. Fəxri qarovul dəstəsinin rəisi dövlətimizin başçısına raport verdi.*

*Prezident Heydər Əliyev və prezident Əhməd Necdət Sezər fəxri qarovul dəstəsinin qarşısından keçdilər. Azərbaycan prezidenti Heydər Əliyev türk əsgərini hərarətlə salamladı.*

*Türkiyə Cümhuriyyətinin dövlət və hökumət nümayəndə heyəti Azərbaycan prezidenti Heydər Əliyevə, Azərbaycan Respublikasının nümayəndə heyəti Türkiyə prezidenti Əhməd Necdət Sezərə təqdim olundu.*

*Rəsmi qarşılanma mərasimindən sonra prezident Heydər Əliyev və prezident Əhməd Necdət Sezər jurnalistlər qarşısında bəyanatla çıxış etdilər.*

## Türkiyə Cümhuriyyətinin prezidenti Əhməd Necdət Sezərin bəyanatı

Azərbaycan Respublikasının prezidenti, əziz qardaşımız hörmətli Heydər Əliyevə və onu müşayiət edən nümayəndə heyətinə «Türkiyəyə xoş gəldiniz!» deyirəm.

Türkiyənin bu əziz qonaqlarını Türkiyə dövləti adından ən səmimi duyğularla salamlayarkən, onları Ankarada görməkdən məmnun olduğumuzu, duyduğumuz sevinci bildirmək istəyirəm.

Türkiyə və Azərbaycan eyni bölgənin iki önəmli ölkəsidir. Bir tərəfdən, xalqlarımızı bir-birinə bağlayan ortaq tarix və mədəniyyət, digər tərəfdən, ölkələrimizin yerləşdiyi coğrafi ərazi beynəlxalq aləmdə əməkdaşlığımızı daha da möhkəmləndirməyi tələb edir. Biz ölkələrimizin xarici siyasət xəttini daha da yaxınlaşdırmaq, qarşıya çıxan məsələlərin həllində bir-birimizin mövqeyini müdafiə etmək və dəstəkləməklə daha böyük uğur qazana bilərik.

Türkiyə–Azərbaycan əlaqələrində həyata keçirilən səfərlər hər zaman böyük əhəmiyyət daşımaqdadır. Məhz bu səfərlər zamanı biz ikitərəfli əlaqələrimizin vəziyyətini ətraflı müzakirə edərək işbirliyimizi daha da irəli aparır, iqtisadi və ticarət əlaqələrimizin möhkəmləndirilməsinə nail oluruq. İkitərəfli əlaqələrimizdə Şərq–Qərb enerji dəhlizinin qan damarı olacaq Bakı–Tbilisi–Ceyhan əsas ixrac boru kəmərinin çəkilişi ilə bağlı vəziyyəti bir daha nəzərdən keçirərək, bu layihənin tezliklə həyata keçirilməsi üçün lazımi işləri görəcəyik.

Hörmətli Heydər Əliyevin bu rəsmi səfəri zamanı biz «Şahdəniz» yatağından çıxarılacaq təbii qazın Türkiyəyə ixracı ilə əlaqədar bir saziş imzalayacağıq və bu bizim üçün qürur doğuracaq bir hadisə olacaqdır. Azərbaycan təbii qazını Türkiyəyə gətirmək sahəsində qəbul edəcəyimiz qərar yeni bir kə-

mərin çəkilişinin gerçəkləşməsi istiqamətində mühüm bir addım olacaqdır.

Biz Xəzər dənizini Avropa ilə Orta Asiya arasında bir tranzit yoluna çevirmək məqsədi ilə Azərbaycan və Türkiyə arasında imzalanacaq layihələrin həyata keçirilməsi üçün görüləcək bütün işləri dəyərləndirəcəyik.

Hörmətli Heydər Əliyev ilə biz ölkələrimizin münasibətlərinin möhkəmləndirilməsi, regional əməkdaşlığın daha da inkişaf etdirilməsi məsələləri barədə geniş fikir mübadiləsi aparacağıq.

Hörmətli Heydər Əliyevin Türkiyəyə bu rəsmi səfəri bölgəmizdə meydana çıxan problemlərin və Ermənistan–Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin sülh yolu ilə aradan qaldırılması məsələlərinin müzakirəsində də çox böyük əhəmiyyətə malikdir. Qafqaz bölgəsində mövcud olan münaqişələr regional əməkdaşlığın genişləndirilməsinə, sülhün və əmin-amanlığın möhkəmləndirilməsinə əngəllər törədir.

Bu gün keçirəcəyimiz görüşdə biz Ermənistan–Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin sülh yolu ilə həlli məsələsini birlikdə müzakirə edəcəyik. Biz Naxçıvan Muxtar Respublikasının problemlərinin həllinə göstərəcəyimiz kömək barədə də fikir mübadiləsi aparacağıq.

Mən hörmətli Heydər Əliyevin bu rəsmi səfərinin Türkiyə ilə Azərbaycan arasındakı əlaqələrin daha da inkişaf etdirilməsində mühüm əhəmiyyət daşıyacağına inanıram.

## Azərbaycan Respublikasının prezidenti Heydər Əliyevin bəyanatı

Zati-aliləri, Türkiyə Cümhuriyyətinin prezidenti hörmətli Əhməd Necdət Sezər!

Hörmətli dostlar, qardaşlar!

Mən sizin hamınızı səmimi-qəlbdən salamlayıram, Azərbaycan xalqının ən xoş arzularını sizə çatdırıram.

Hörmətli cənab Prezident!

Məni Türkiyəyə rəsmi səfərə dəvət etdiyinizə görə təşəkkürümü bildirirəm və bu səfəri Azərbaycan–Türkiyə əlaqələrinin daha da inkişaf etməsi üçün çox əhəmiyyətli hesab edirəm.

Hörmətli Prezident, Siz bizim burada görəcəyimiz işlər haqqında məlumat verdiniz. Ona görə də mənim bütün bunları təkrar etmək fikrim yoxdur. Ancaq bunu bildirmək istəyirəm ki, Azərbaycan ilə Türkiyə arasındakı əlaqələr indiyə qədər dostluq, qardaşlıq əlaqələri olubdur və bundan sonra da belə olacaqdır. Bizim əlaqələrimizin təməli budur və bunun əsasında iqtisadi, ticarət, elm, mədəniyyət və başqa sahələrdə olan əməkdaşlıqlardır. Bunların hamısı indi, demək olar ki, yüksək səviyyədədir. Ancaq bu əlaqələr bundan sonra daha da yüksəlməlidir. Ona görə də biz buraya gəlməklə həm Türkiyə–Azərbaycan dostluğunun, qardaşlığının bizim üçün çox əhəmiyyətli olduğunu bir daha nümayiş etdiririk. Eyni zamanda ölkəmizin daha da birgə işbirliyinin inkişaf etdirilməsi üçün lazımi tədbirlər görülməsini istəyirik. Mənim buradakı səfərim üçün tərtib olunmuş proqram bunların hamısına imkan verir. Ona görə də mən çox məmnunam ki, qarşımızda duran bütün vəzifələrin yerinə yetirilməsi üçün biz mümkün olan işləri görəcəyik.

Cənab Prezident, təbiidir, Sizin dediyiniz mövzuların hamısı – həm Bakı–Ceyhan əsas ixrac neft kəmərinin inşası, həm Azərbaycan qazının Türkiyəyə ixrac edilməsi və iqtisadi, ticarət əlaqələri bizim üçün çox əhəmiyyətlidir. Ancaq bizim üçün ən vacib və ən əhəmiyyətli olan Qafqazda sülhün, təhlükəsizliyin təmin edilməsi məsələsidir. Bu həm Türkiyə, həm Azərbaycan, həm də bütün Qafqaz ölkələri üçün çox əhəmiyyət kəsb edir. Azərbaycan üçün bunun əhəmiyyəti bir də ondan ibarətdir ki, Azərbaycan artıq 12 ildir Ermənistan ilə hərbi münaqişədədir. Bu münaqişə nəticəsində Ermənistan silahlı qüvvələri müəyyən səbəblərdən Azərbaycan torpaqlarının 20 faizini işğal edib və işğal olunmuş bu torpaqlardan bir milyondan artıq Azərbaycan vətəndaşı, azərbaycanlılar zorla çıxarılıb, didərgin düşübdür və indi onlar çadırlarda ağır vəziyyətdə yaşayırlar.

Hörmətli cənab Prezident!

Siz Bakıda olarkən respublikamızın paytaxtında yerləşmiş bir qrup köçkünün vəziyyətini özünüz gördünüz. Amma siz gördüyünüz hamısından yaxşısı idi. Çadırlarda yaşayan qaçqınların vəziyyəti onlardan qat-qat pisdir. Ona görə də Ermənistan–Azərbaycan münaqişəsinin həll olunması məsələsi bizim qarşımızda duran əsas məsələdir. Neçə illərdir ki, Türkiyə ilə Azərbaycan bu sahədə sıx əməkdaşlıq edir. İndiki mərhələdə bu münaqişənin sülh yolu ilə həll olunması istiqamətlərini müəyyən etmək üçün bizim Türkiyə Cümhuriyyəti, Türkiyə dövləti, hökuməti ilə danışıqlar, məsləhətləşmələr aparmağa çox böyük ehtiyacımız vardır. Mən çox ümid edirəm ki, bizim buradakı görüşlərimizdə, danışıqlarımızda bu, əsas yer tutacaqdır. Biz bu məsələni həll etmək üçün Türkiyədən lazımi dəstəklər alacağıq.

Cənab Prezident, məni bu rəsmi səfərə dəvət etdiyinizə görə bir daha Sizə minnətdarlıq edirəm. Bütün qardaş, dost Türkiyə xalqına sülh, əmin-amanlıq və firavanlıq arzulayıram. Təşəkkür edirəm.

# AZƏRBAYCAN RESPUBLİKASININ PREZİDENTİ HEYDƏR ƏLİYEVİN VƏ TÜRKİYƏ CÜMHURİYYƏTİNİN PREZİDENTİ ƏHMƏD NECDƏT SEZƏRİN TƏKBƏTƏK GÖRÜŞÜ

*Ankara,*
*Çankaya köşkü*

*12 mart 2001-ci il*

*Ali qonağı səmimiyyətlə salamlamaqdan çox məmnun olduğunu bildirən prezident Əhməd Necdət Sezər onun dəvətini qəbul edərək, Türkiyəyə rəsmi səfərə gəldiyinə görə prezident Heydər Əliyevə dərin minnətdarlığını və təşəkkürünü bildirdi.*

*Müstəqil Azərbaycan Respublikasının Avropa Şurasına tamhüquqlu üzv qəbul olunması münasibətilə ölkəmizin rəhbərini ürəkdən təbrik edən cənab Əhməd Necdət Sezər böyük dövlətçilik təcrübəsinə malik prezident Heydər Əliyevin müdrik siyasəti və liderliyi sayəsində son illər Azərbaycanda yaranmış müsbət dəyişiklikləri yüksək qiymətləndirdi.*

*Dost və qardaş ölkələrimiz arasında bütün sahələrdə möhkəm təməl üzərində qurulmuş əlaqələrin böyük surətlə inkişaf etməsindən məmnun qaldığını bildirən cənab Sezər beynəlxalq təşkilatlarda Azərbaycan ilə Türkiyənin eyni mövqedən çıxış etməsindən, bir-birini daim dəstəkləməsindən razılıqla söhbət açdı.*

*Ermənistan–Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin sülh yolu ilə həll olunması üçün prezident Heydər Əliyevin səylərini yüksək qiymətləndirən prezident Əhməd Necdət Sezər bildirdi*

*ki, Türkiyə bu münaqişənin aradan qaldırılmasında Azərbaycanın mövqeyini bundan sonra da dəstəkləyəcəkdir.*

*Rəsmi səfərə dəvətə və dost ölkədə ona göstərilən qonaqpərvərliyə görə Türkiyə xalqına və əziz dostu, qardaşı Əhməd Necdət Sezərə dərin minnətdarlığını ifadə edən prezident Heydər Əliyev xalqlarımızın iradəsinə söykənən, strateji tərəfdaşlıq xarakteri daşıyan əlaqələrimizin əbədi, sarsılmaz olduğunu vurğuladı və bu əməkdaşlığın Azərbaycan Respublikasının, Türkiyə Cümhuriyyətinin dövlət siyasətinin əsasını təşkil etdiyini bildirdi.*

*İldən-ilə inkişaf edən demokratiya içərisində yaşayan Türkiyə Cümhuriyyətinin Azərbaycan üçün dost, qardaş ölkə olduğunu bir daha nəzərə çatdıran respublikamızın rəhbəri Heydər Əliyev prezident Əhməd Necdət Sezərin xaricə ilk rəsmi səfərini Azərbaycana etməsinin respublikamızda böyük rəğbətlə qarşılandığını vurğuladı.*

*Demokratik inkişaf, bazar münasibətləri yolunu seçmiş Azərbaycanda hüquqi, demokratik, dünyəvi dövlət quruculuğu sahəsində görülən işlərdən, uğurla aparılan islahatların müsbət nəticələrindən danışan prezident Heydər Əliyev, eyni zamanda ölkəmiz üçün ən ağrılı problem olan Ermənistan – Azərbaycan, Dağlıq Qarabağ münaqişəsindən ətraflı söhbət açdı.*

*Ermənistan silahlı qüvvələrinin Azərbaycana təcavüzü nəticəsində torpaqlarımızın 20 faizinin işğal olunduğunu, bir milyondan çox vətəndaşımızın yerindən-yurdundan zorla qovularaq uzun illərdən bəri çadırlarda ağır, dözülməz şəraitdə yaşadığını xatırladan, bu münaqişənin aradan qaldırılması üçün Azərbaycan və Ermənistan prezidentləri arasında birbaşa aparılan danışıqlardan bəhs edən dövlətimizin başçısı Heydər Əliyev ATƏT-in Minsk qrupunun üzvü olan Türkiyənin bu sahədə respublikamızı daim dəstəkləməsinə görə bir daha razılıq etdi.*

*Görüşdə Bakı–Tbilisi–Ceyhan əsas ixrac boru kəmərinin inşasına başlanması üçün görülən işlər, «Şahdəniz» yatağından çıxarılacaq qazın Türkiyəyə ixrac edilməsi, Naxçıvan Muxtar Respublikasının qarşılaşdığı problemlərin həllinə Türkiyənin yaxından kömək göstərməsi məsələləri barədə ətraflı müzakirələr aparıldı, Xəzərin Azərbaycan sektorundakı yataqların birgə işlənilməsində payı olan qardaş ölkənin şirkətlərinin yaxından iştirak etməsindən məmnunluqla söhbət açıldı.*

*Mehribanlıq və səmimi dostluq şəraitində keçən görüşdə Azərbaycan–Türkiyə əlaqələrinin daha da inkişaf etdirilməsi, beynəlxalq aləmdə, bölgədə vəziyyət və hər iki ölkəni maraqlandıran bir sıra digər məsələlər barədə də geniş fikir mübadiləsi aparıldı.*

## AZƏRBAYCAN PREZİDENTİ HEYDƏR ƏLİYEVİN VƏ TÜRKİYƏ PREZİDENTİ ƏHMƏD NECDƏT SEZƏRİN RƏHBƏRLİYİ İLƏ AZƏRBAYCAN – TÜRKİYƏ NÜMAYƏNDƏ HEYƏTLƏRİNİN GÖRÜŞÜ

*Ankara,*
*Çankaya köşkü*

*12 mart 2001-ci il*

*Dövlətimizin başçısını səmimi-qəlbdən salamlayan, onun dəvətini qəbul edərək Ankaraya səfərə gəldiyinə görə respublikamızın rəhbərinə bir daha minnətdarlığını bildirən cənab Əhməd Necdət Sezər Türkiyənin prezidenti seçildikdən sonra Azərbaycana etdiyi ilk ziyarəti, zəngin dövlətçilik təcrübəsinə malik əziz dostu, qardaşı Heydər Əliyev ilə keçirdiyi görüşləri, apardığı danışıqları həmişə məmnunluqla xatırladığını vurğuladı.*

*Dəvətə, yüksək qonaqpərvərliyə və səmimi sözlərə görə minnətdarlıq edən prezident Heydər Əliyev cənab Əhməd Necdət Sezərin ölkəmizə ilk rəsmi səfərinin Azərbaycan–Türkiyə strateji tərəfdaşlıq əlaqələrinin inkişafında mühüm rol oynadığını bildirdi və bunu dost, qardaş Türkiyənin Azərbaycana diqqətinin daha bir təzahürü kimi qiymətləndirdi.*

*Dövlətimizin başçısı Heydər Əliyevin rəhbərliyi ilə son illər Azərbaycanda yaranmış böyük dəyişiklikləri çox yüksək dəyərləndirən dost ölkənin rəhbəri gənc, müstəqil Azərbaycan Respublikasının Avropa Şurasının tamhüquqlu üzvü seçilməsini də məhz onun müdrik siyasətinin uğurlu nəticəsi olduğunu bildirdi,*

*bu münasibətlə prezident Heydər Əliyevi bir daha ürəkdən təbrik etdi.*

*Ölkəmizdə hüquqi, demokratik, dünyəvi dövlət quruculuğu sahəsində aparılan islahatları yüksək qiymətləndirən Türkiyə rəhbəri respublikamızda keçirilmiş son parlament seçkilərinin Azərbaycanın demokratiya yolu ilə inamla irəliləməsinin gözəl nümunəsi olduğunu söylədi.*

*Daha sonra Türkiyə ilə Azərbaycan arasında bütün sahələrdə əlaqələrin sürətlə inkişaf etməsindən məmnunluqla söhbət açan cənab Sezər Avropa Şurasında və digər beynəlxalq təşkilatlarda dost, qardaş ölkələrimizin eyni mövqedən çıxış etməsinin, bir-birini daim dəstəkləməsinin xüsusi əhəmiyyət daşıdığını vurğuladı.*

*Ermənistan–Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin sülh yolu ilə tezliklə aradan qaldırılması üçün prezident Heydər Əliyevin ardıcıl səylərindən razılıq hissi ilə bəhs edən Türkiyə prezidenti dövlətimizin başçısını əmin etdi ki, onun ölkəsi bu münaqişənin həll edilməsində Azərbaycanın mövqeyini bundan sonra da dəstəkləyəcəkdir.*

*Ölkələrimizin iqtisadi əməkdaşlığının ildən-ilə daha da genişlənməsindən məmnunluqla söhbət açan prezident Sezərin fikrincə, Azərbaycan–Türkiyə birgə iqtisadi komissiyasının fəaliyyətinin gücləndirilməsi vacibdir.*

*Naxçıvan ilə Türkiyə arasında yaradılmış əlaqələrin əhəmiyyətindən danışan cənab Əhməd Necdət Sezər bildirdi ki, muxtar respublikanın problemlərinə Türkiyə böyük diqqət yetirəcəkdir.*

*Bakı–Tbilisi–Ceyhan əsas ixrac neft kəmərinin inşası ilə bağlı görülən hazırlıq işlərinin vəziyyətindən və zəngin «Şahdəniz» yatağından çıxarılacaq qazın Türkiyəyə nəqli barədə əldə olunmuş razılıqdan məmnunluqla bəhs edən dost ölkənin prezidenti dedi ki, bütün bunlar regional əməkdaşlığın geniş-*

*ləndirilməsi üçün yeni imkanlar yaratmaqla yanaşı, həm də bölgədə sabitliyin möhkəmləndirilməsinə xidmət edəcəkdir.*

*Prezident Heydər Əliyev Türkiyə ilə bütün sahələrdə əməkdaşlığın genişləndirilməsinə Azərbaycanın həmişə xüsusi diqqət yetirdiyini vurğuladı, dost, qardaş ölkələrimiz arasında münasibətlərin daha da sıxlaşdırılmasının vacib olduğunu bildirdi.*

*Xəzərin Azərbaycan sektorundakı yataqların birgə işlənilməsi üçün bağlanmış müqavilələrin həyata keçirilməsində Türkiyə şirkətlərinin də yaxından iştirak etdiyini xatırladan respublikamızın rəhbəri yaxın vaxtlarda Bakı–Tbilisi–Ceyhan əsas ixrac neft kəmərinin inşasına başlanacağından məmnunluqla söhbət açdı.*

*«Şahdəniz» yatağından çıxarılacaq təbii qazın ixracı ilə əlaqədar aparılan danışıqların müsbət nəticələr verməsindən razılıqla bəhs edən dövətimizin başçısı bildirdi ki, həmin qazın çox hissəsinin Türkiyəyə nəql edilməsi barədə imzalanacaq sənədlərə əsasən, biz dost ölkəyə ildə 6 milyard kubmetr qaz verəcəyik. Yaxın gələcəkdə isə Azərbaycan Türkiyəyə ildə 15–20 milyard kubmetr qaz sata bilər.*

*Azərbaycanda hüquqi, demokratik, dünyəvi dövlət quruculuğu sahəsində görülən işlərdən, aparılan islahatların uğurlarından danışan prezident Heydər Əliyev ölkəmiz üçün ən ağrılı problem olan Ermənistan–Azərbaycan, Dağlıq Qarabağ münaqişəsindən də ətraflı söhbət açaraq dedi ki, Ermənistan silahlı qüvvələrinin təcavüzü nəticəsində torpaqlarımızın 20 faizi hələ də işğal altındadır, yerindən-yurdundan zorla qovulmuş bir milyondan artıq vətəndaşımızın çoxu uzun illərdən bəri çadırlarda ağır, dözülməz şəraitdə yaşayır.*

*Bu münaqişənin aradan qaldırılması üçün ATƏT-in Minsk qrupuna həmsədrlik edən ölkələrin – ABŞ-ın, Fransanın, Rusiyanın səylərinin daha da artırılmasının vacib olduğunu nəzərə çatdıran dövlətimizin başçısı Heydər Əliyev apardığı birbaşa*

*danışıqlardan bəhs etdi, Minsk qrupunun üzvü olan Türkiyənin bu sahədəki dəstəyinin də böyük əhəmiyyət daşıdığını bildirdi.*

*Cənab Əhməd Necdət Sezərin respublikamızda keçirilmiş son parlament seçkilərini yüksək qiymətləndirilməsindən məmnun qaldığını, müstəqil Azərbaycanın bəşəri dəyərlərə sadiq olduğunu söyləyən prezident Heydər Əliyev ölkəmizin Avropa Şurasına üzv olunması üçün Türkiyənin göstərdiyi dəstəyə görə minnətdarlıq etdi. Eyni zamanda Türkiyə Cümhuriyyətinin tezliklə Avropa Birliyinə tamhüquqlu üzv qəbul ediləcəyinə ümidvar olduğunu bildirdi.*

*Bir millət və iki dövlət olduğumuzu, xalqlarımızın tarixi qardaşlıq əlaqələrinin böyük əhəmiyyət daşıdığını vurğulayan respublikamızın rəhbəri bir daha bildirdi ki, layiq görüldüyü beynəlxalq Atatürk sülh mükafatını indiyədək aldığı bütün mükafatlardan üstün tutur.*

*Türk dünyasının böyük öndəri, Türkiyə Cümhuriyyətinin banisi və ilk prezidenti Mustafa Kamal Atatürkün türkdilli xalqların tarixindəki rolunu, Azərbaycanda Atatürk irsinə xüsusi maraq göstərildiyini nəzərə çatdıran prezident Heydər Əliyev respublikamızda Atatürk Mərkəzinin yaradılması haqqında sərəncam imzaladığını və Azərbaycan prezidentinin bu mərkəzin fəxri sədri olduğunu bildirdi.*

*Prezident Əhməd Necdət Sezər ölkələrimiz arasında mədəni və elmi əlaqələrin yüksək səviyyədə olmasından razılıqla söhbət açdı, Azərbaycanda Atatürk Mərkəzinin yaradılmasına görə dövlətimizin başçısına təşəkkür etdi və böyük təcrübəyə malik görkəmli dövlət xadimi Heydər Əliyevin bu mərkəzin fəxri sədri olmasından qürur duyduğunu bildirdi.*

*Səmimilik və dostluq şəraitində keçən görüşdə hər iki ölkəni maraqlandıran digər məsələlər barədə də ətraflı fikir mübadiləsi aparıldı.*

# AZƏRBAYCAN–TÜRKİYƏ SƏNƏDLƏRİNİN İMZALANMASI MƏRASİMİNDƏ JURNALİSTLƏR QARŞISINDA BƏYANATLAR

*Ankara,*
*Çankaya köşkü*

*12 mart 2001-ci il*

*Azərbaycan Respublikasının prezidenti Heydər Əliyev və Türkiyə Respublikasının prezidenti Əhməd Necdət Sezər birgə bəyanat imzaladılar.*

*Azərbaycanın təbii qazının Türkiyəyə nəql edilməsinə dair saziş imzalandı və həmin sənədə Azərbaycan Respublikasının prezidenti Heydər Əliyev və Türkiyə Respublikasının prezidenti Əhməd Necdət Sezər də imza atdılar.*

*Ədliyyə nazirlikləri arasında əməkdaşlıq barədə protokol, Maliyyə nazirlikləri arasında əməkdaşlıq barədə protokol, vergi sahəsində əməkdaşlıq, Mədəniyyət nazirlikləri arasında əməkdaşlıq, BOTAŞ və ARDNŞ arasında təbii qazın alqı-satqısı barədə müqavilə, Gəncə və Qars arasında qardaşlaşmış şəhər və vilayət münasibətləri yaradılması haqqında saziş, Şəki və Girəsun arasında qardaşlaşmış rayon və şəhər münasibətləri yaradılması haqqında saziş imzalandı.*

## Türkiyə Cümhuriyyətinin prezidenti Əhməd Necdət Sezərin bəyanatı

Hörmətli mətbuat nümayəndələri!

Azərbaycan Respublikasının prezidenti, dəyərli qardaşımız Heydər Əliyev ilə təkbətək və nümayəndə heyətlərimiz ilə birgə çox əhəmiyyətli danışıqlar apardıq. Danışıqlar zamanı ikitərəfli əlaqələrimizin vəziyyətini ətraflı müzakirə etdik, ölkələrimiz arasında mövcud olan iqtisadi və ticarət sahəsindəki əməkdaşlığı dəyərləndirdik, bu əməkdaşlığın daha da gücləndirilməsi üçün əhəmiyyətli yolları araşdırdıq.

Bu gün imzalanmış sənəddə ölkələrimiz üçün strateji və iqtisadi əhəmiyyət daşıyan Bakı–Tbilisi–Ceyhan əsas ixrac neft kəməri layihəsinin gerçəkləşdirilməsi yönündə atılmış addımları nəzərdən keçirdik və bu layihənin tezliklə həyata keçirilməsi sahəsində eyni siyasi iradəyə və qərara malik olduğumuzu məmnunluqla nümayiş etdirdik. Danışıqlarımızın sonunda Azərbaycanın «Şahdəniz» yatağından əldə olunacaq təbii qazın alqı-satqısına–Gürcüstan üzərindən boru kəməri vasitəsilə Türkiyəyə daşınmasına dair hökumətlərarası saziş imzalanmışdır. Bu saziş Şərq–Qərb enerji dəhlizini genişləndirəcək, boru kəmərlərinin gerçəkləşdirilməsi yönündə yeni bir dövrün əsasını qoyacaq və Türkiyə ilə Azərbaycan arasındakı iqtisadi və ticarət əlaqələrinin daha da inkişaf etdirilməsi sahəsində mühüm bir addım olacaqdır.

Danışıqlarımız zamanı regional və beynəlxalq məsələlər barədə də geniş fikir mübadiləsi apardıq. Xüsusilə Ermənistan–Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin sülh yolu ilə həllinə dair məsələləri nəzərdən keçirdik. Bu çərçivədə Minsk qrupunun vasitəçiliyini, Azərbaycan və Ermənistan prezidentləri arasındakı görüşləri və hörmətli Əliyevin Dağlıq Qa-

rabağ problemi ilə bağlı Fransaya etdiyi son səfərləri dəyərləndirdik.

Məlumdur ki, Dağlıq Qarabağ münaqişəsi hələ həll olunmamışdır. Azərbaycan torpaqları hələ də Ermənistanın işğalı altındadır. Qaçqınlar hələ də yurd-yuvalarına qovuşmamışlar. Bu problem bölgə xalqlarının XXI əsrdə firavan yaşamaları üçün böyük maneə törədir. Hər bir dövlətin ərazi bütövlüyünə hörmət, sərhədlərin zor gücünə dəyişdirilməməsi prinsipləri beynəlxalq hüququn tələbidir. Təəssüf ki, bu prinsiplər Qafqazda açıq şəkildə pozulmuşdur və bu, davam etməkdədir.

Bu mənada beynəlxalq birlik Qafqazı nəzərdən qaçırmamalıdır. Türkiyə əvvəllər olduğu kimi, yenə də Dağlıq Qarabağ münaqişəsinin sülh yolu ilə həllinə xüsusi əhəmiyyət verdiyini təkrarlayır və bu sahədə dost və qardaş Azərbaycan xalqının qəbul edəcəyi həll yolunu dəstəkləməyə hazır olduğunu vurğulayır. Biz iki ölkə arasında əməkdaşlığı əlaqələndirəcək və daha da gücləndirəcək bir sıra mühüm sənədləri imzaladıq.

Bu səfər çərçivəsində hörmətli prezident Heydər Əliyev ilə birlikdə martın 14-də İstanbula gedərək hərbi akademiyaların komandanlarının illik konfrasında iştirak edəcəyik. Azərbaycan Cümhuriyyətinin prezidenti hörmətli Heydər Əliyevin və onu müşayiət edən heyətin ölkəmizə rəsmi səfərindən duyduğumuz məmnunluğu bir daha bildirmək istəyirəm. Səfər çərçivəsində apardığımız səmərəli danışıqların, üzərimizə götürdüyümüz əhəmiyyətli işlərin, yaşadığımız coğrafiyada sabitliyin və qardaş ölkələrimiz arasındakı dostluğun inkişafı üçün faydalı nəticələr verməsini arzu edirəm.

Hamınıza təşəkkür edirəm.

## Azərbaycan Respublikasının prezidenti Heydər Əliyevin bəyanatı

Hörmətli Prezident!
Hörmətli dostlar!
Hörmətli mətbuat nümayəndələri!

Mənim Türkiyəyə rəsmi səfərimin birinci hissəsi bitməkdədir. Məni Türkiyəyə dəvət etdiyinə və bu gözəl qonaqpərvərliyinə görə əziz dostum, qardaşım, Türkiyə Cümhuriyyətinin prezidenti hörmətli Əhməd Necdət Sezərə bir daha təşəkkür edirəm. Bu səfərin çox böyük əhəmiyyəti var. Ona görə ki, biz həm ölkələrimiz arasındakı əlaqələri, həm bizim bölgəyə aid olan məsələləri, həm də dünyada gedən prosesləri təhlil etdik, fikirlərimizin eyni olduğunu bir daha təsdiq etdik və gələcəkdə də Türkiyə–Azərbaycan işbirliyində birgə hərəkət etmək haqqında bəyanatlar verdik. Bu məni çox sevindirir. Çünki Azərbaycan üçün Türkiyə qüdrətli, böyük, inkişaf etmiş, demokratiya içərisində yaşayan bir dövlətdir. Türkiyə gənc, müstəqil Azərbaycan üçün həmişə örnək olubdur, bu gün də örnəkdir.

Burada bizim apardığımız danışıqlar, müzakirə etdiyimiz məsələlər haqqında hörmətli prezident artıq sizə məlumat verdi. Mən vaxt alıb təkrar etmək istəmirəm. Ancaq onu qeyd etmək istəyirəm ki, bütün məsələlərdə biz həmfikirik. Xüsusən bu gün Bakı–Tbilisi–Ceyhan əsas ixrac neft kəmərinin tikintisinə başlanması haqqında hər iki ölkədə – həm Türkiyədə, həm də Azərbaycanda eyni münasibət olduğunu bir daha hiss etdim. Əmin ola bilərsiniz ki, 1994-cü ildən başladığımız bu işi biz birlikdə sona çatdıracağıq. Azərbaycanın nefti yaxın illərdə Bakı–Tbilisi–Ceyhan boru xətti ilə həm Türkiyəyə, həm də Aralıq dənizinə axacaqdır.

Son vaxtlar Türkiyə ilə bizim əlaqələrimizdə bir çox önəmli məsələ meydana çıxıbdır. Bu da Azərbaycanın kəşf etdiyi böyük təbii qaz yataqlarının Türkiyə ilə müştərək istifadə olunması məsələsidir. Biz «Şahdəniz» qaz yatağında böyük qaz ehtiyatları əldə etmişik. Bunu bilərək, əvvəlcədən Türkiyə dövləti, hökuməti ilə danışıqlar aparıb çıxarılacaq qazın çox hissəsini Türkiyəyə ixrac etmək haqqında bizim razılığımız vardır. Bu gün mən çox məmnuniyyət hissi ilə qeyd edirəm ki, bu razılıq gerçəkləşdi və Azərbaycandan hasil olunacaq təbii qazın Türkiyəyə satılması haqqında həm hökumətlərarası anlaşma imzalandı, həm də alqı-satqı üzrə anlaşma imzalandı. Bu çox mühümdür. Çünki bu qaz Gürcüstandan keçməlidir. Bizim Bakıdan Gürcüstana qədər keçmişdə yaradılmış qaz boru xəttimiz var, onu bərpa etməliyik. Ona görə də biz bilməliyik ki, qazı haraya ixrac edəcəyik. İkincisi də, indi biz imza atdıq ki, 6 milyard kubmetr qaz veriləcəkdir. Amma gələcəkdə biz Türkiyəyə ildə 15 milyard, yaxud 20 milyard kubmetr qaz sata bilərik.

Hörmətli dostum, doqquzuncu Cümhur başqanı Süleyman Dəmirəl vaxtilə mənə dəfələrlə demişdi ki, Türkiyənin 50 milyard kubmetr qaz almağa ehtiyacı vardır, Azərbaycan nə qədər çox qaz hasil etsə, biz o qədər də alacağıq. İndi biz hörmətli prezident Əhməd Necdət Sezərlə bu işin təməlini qoyduq. Güman edirəm ki, bu, uğurlu olacaqdır. Biz indi mövcud olan xətdən istifadə edəcəyik, qazı Türkiyənin sərhədlərinə gətirib çıxaracağıq. Gərək Türkiyədə də lazımi hazırlıq işləri görülsün ki, bu qazdan vaxtında istifadə oluna bilsin.

Ancaq gələcəkdə böyük miqdarda qazın Türkiyəyə ixracı üçün biz yeni böyük boru xətti də yaratmaq fikrindəyik. Ona görə bizim qarşımızda çox böyük üfüqlər, perspektivlər açılır. Bu, Türkiyə–Azərbaycan dostluğunun, iqtisadi əməkdaşlığının inkişafını təmin edəcəkdir. Eyni zamanda, strateji nöq-

teyi-nəzərdən bizi bir-birimizlə daha sıx bağlayacaqdır. Biz Türkiyə ilə əlaqələrimizi strateji əməkdaşlıq prinsipi əsasında qurmuşuq. Bu əlaqələri bundan sonra da inkişaf etdirmək istəyirik.

Mən bu gün keçirilən söhbətlərdən və imzalanan anlaşmalardan bir daha məmnun olduğumu bildirmək istəyirəm.

Hörmətli Prezident, Sizə bir daha təşəkkür edirəm.

# TÜRKİYƏ RESPUBLİKASININ BAŞ NAZİRİ BÜLƏND ECEVİT İLƏ TƏKBƏTƏK GÖRÜŞ

*Ankara,*
*Azərbaycan prezidentinin iqamətgahı –*
*Camlı köşk*

*12 mart 2001-ci il*

*Görüşdə dövlətimizin başçısını səmimiyyətlə salamlayan Baş nazir Bülənd Ecevit prezident Heydər Əliyev ilə hər bir görüşdən çox məmnun olduğunu bildirdi.*

*Respublikamızın pəhbərinin dost və qardaş ölkəyə səfərlərinin çox böyük əhəmiyyət daşıdığını vurğulayan cənab Ecevit əmin olduğunu bildirdi ki, prezident Heydər Əliyevin Turkiyəyə bu rəsmi səfəri ölkələrimiz arasında strateji tərəfdaşlıq əlaqələrinin inkişafında yeni mərhələ açacaqdır.*

*Səmimi sözlərə görə Baş nazirə minnətdarlığını bildirən prezident Heydər Əliyev Azərbaycan–Türkiyə əməkdaşlığının bütün sahələrdə ildən-ilə inkişaf etməsindən məmnun qaldığını söyləyərək bildirdi ki, qardaş ölkəyə budəfəki rəsmi səfərinə böyük əhəmiyyət verir.*

*Prezident Heydər Əliyev və Baş nazir Bülənd Ecevit Azərbaycan ilə Türkiyə arasında bütün sahələrdə əlaqələrin daha da sıxlaşdırılmasının zəruriliyini bir daha vurğuladılar. Onlar Xəzərin Azərbaycan sektorundakı yataqlarının birgə işlənməsinə dair bağlanmış müqavilələrin həyata keçirilməsində Türkiyə şirkətlərinin yaxından iştirak etməsindən razılıqla söhbət açdılar. Bakı–Tbilisi–Ceyhan əsas ixrac neft kəmərinin yaxın vaxt-*

*larda başlanacaq inşası ilə əlaqədar görülən işlər, «Şahdəniz» yatağından çıxarılacaq qazın Türkiyəyə ixrac edilməsi, Naxçıvan Muxtar Respublikasının problemlərinin həllinə Türkiyənin yaxından kömək göstərməsi məsələləri barədə geniş müzakirələr apardılar.*

*Görüşdə Ermənisan–Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin sülh yolu ilə aradan qaldırılması prosesi ətrafında fikir mübadiləsi edildi. Baş nazir Bülənd Ecevit bu münaqişənin nizama salınması sahəsində prezident Heydər Əliyevin ardıcıl səylərinin Türkiyə tərəfindən dəstəkləndiyini bildirdi.*

*Səmimilik və mehribanlıq şəraitində keçən görüşdə Azərbaycan–Türkiyə əməkdaşlığının perspektivləri, bölgədə vəziyyət, hər iki ölkəni maraqlandıran bir sıra digər məsələlər barədə də fikir mübadiləsi edildi.*

*Prezident Heydər Əliyev Türkiyənin Baş naziri Bülənd Eceviti Azərbaycana dəvət etdi. Dəvət məmnunluqla qəbul olundu.*

# AZƏRBAYCAN RESPUBLİKASININ PREZİDENTİ HEYDƏR ƏLİYEVİN ŞƏRƏFİNƏ TÜRKİYƏ CÜMHURİYYƏTİNİN PREZİDENTİ TƏRƏFİNDƏN TƏŞKİL EDİLMİŞ RƏSMİ QƏBULDA NİTQ

*Ankara,*
*Çankaya köşkü*

*12 mart 2001-ci il*

Türkiyə Cümhuriyyətinin prezidenti, hörmətli dostum, qardaşım Əhməd Necdət Sezər!

Hörmətli dostlar, cənablar, xanımlar!

Mən sizi Azərbaycan xalqı adından səmimi-qəlbdən salamlayıram və millətimizin sizə olan ən xoş arzu və istəklərini çatdırmaqdan məmnuniyyət hissi duyuram.

Hörmətli Prezident, məni Türkiyəyə rəsmi səfərə dəvət etdiyinizə görə Sizə təşəkkür edirəm. Bu səfərin Azərbaycan üçün, düşünürəm ki, eyni zamanda Türkiyə üçün, Azərbaycan–Türkiyə əlaqələri üçün çox əhəmiyyətli olduğunu yüksək qiymətləndirirəm. Bizə göstərilən bu qonaqpərvərliyə görə, dostluğa görə, mehribanlığa görə öz adımdan və mənimlə buraya gələn böyük heyət adından təşəkkür edirəm.

Eyni zamanda onu da düşünürəm ki, Türkiyə sizin vətəniniz olduğu kimi, bizim də vətənimizdir. Ona görə də burada, güman edirəm ki, başqa bir qarşılanma ola bilməzdi. Biz Türkiyə Cümhuriyyətinə, Türkiyə xalqına hədsiz məhəbbət hissi ilə yaşayırıq. Bu məhəbbət hisslərinin dərin kökləri var. Bu bizim tarixi keçmişimizdir. Bu bizim dilimizdir. Bu bizim

milli-mənəvi dəyərlərimizdir. Bu bizim dinimizdir. Ən əsası isə, Azərbaycanın Türkiyəyə kesmişdə də, bu gün də olan məhəbbəti və sevgisidir.

Biz Türkiyənin əldə etdiyi böyük nailiyyətləri iftixar hissi ilə izləyirik. Bu nailiyyətlər ilbəil yüksəlir, artır. Bunların əsasını təşkil edən isə Türkiyə Cümhuriyyətinin yaradıcısı, böyük öndər Mustafa Kamal Atatürkdür. Məhz buna görə də mən Türkiyəyə rəsmi səfərimi ilk öncə böyük Atatürkün qəbrini ziyarət etməklə başladım. Hər dəfə Atatürkün qəbrini ziyarət edərkən, o şəxsin bəşər tarixində nə qədər böyük rol oynadığını bir daha, bir daha xatırlayıram.

Eyni zamanda düşünürəm ki, əgər Mustafa Kamal Atatürk vaxtilə, Osmanlı imperiyası dağılandan sonra cümhuriyyəti qurmasaydı və cümhuriyyətin gələcək yollarını müəyyən etməsəydi, güclü türk ordusu qurmasaydı, güclü türk əsgəri yaratmasaydı, Türkiyə rəqibləri, düşmənləri əhatəsində olduğu halda, bu qədər yüksək inkişaf edə bilməzdi. Bizdə məmnuniyyət hissi doğurur ki, sonrakı nəsillər böyük Atatürkün yolu ilə gedərək Türkiyəni inkişaf etdiriblər. Bu gün Türkiyə dünyanın ən qüdrətli dövlətlərindən biridir. İqtisadi cəhətdən inkişaf etmiş, demokratiya prinsipləri, bazar iqtisadiyyatı prinsipləri ilə yaşayan bir dövlət, bir ölkədir. Bunlar hamısı bizim üçün, Azərbaycan xalqı üçün bir tərəfdən, iftixar hissi doğurur, ikinci tərəfdən də, təcrübə mənbəyidir.

Biz, Azərbaycan gənc, müstəqil ölkəyik. Bu ilin sonunda Azərbaycanın müstəqilliyinin, istiqlaliyyətinin 10-cu ili tamam olur. Tarixi nöqteyi-nəzərdən 10 il o qədər də böyük zaman deyildir. Amma dünyada gedən prosesləri nəzərə alsaq, bizim bölgədə baş vermiş hadisələri nəzərə alsaq, Azərbaycanın 10 il müstəqil yaşaması böyük hadisədir. Biz müstəqilliyimizi əldə edəndən Türkiyənin dəstəyini, dayağını hiss etmişik. Əziz dostum, bəli, Türkiyə Azərbaycanın müstəqilliyini tanıyan ilk ölkədir. Bizim müstəqilliyimizi başqa ölkələr

də tanıyıblar, bəyanatlar veriblər. Amma Türkiyənin onlardan fərqi ondan ibarətdir ki, Azərbaycanın müstəqilliyini, istiqlaliyyətini tanıyaraq, eyni zamanda müstəqil dövlətin yaşaması üçün, inkişaf etməsi üçün ona həmişə qardaşlıq yardımı etmiş, qardaş kimi Azərbaycanın yanında olmuşdur. Bütün bunlar bizi keçmişdə olduğu kimi, bu gün də Türkiyə ilə sıx bağlayıbdır. Ona görə də hər dəfə Türkiyəni ziyarət etmək mənim üçün böyük bir xoşbəxtlikdir.

Mənimlə bərabər buraya böyük nümayəndə heyəti gəlibdir. Bir çox nazirlər, Milli Məclisin bir qrup deputatı buradadır. Onların hamısı Türkiyəyə böyük həvəslə gəliblər. Bəlkə də bu qədər böyük heyətin buraya gəlməsi bəzilərini təəccübləndirər. Ancaq bunun səbəbi ondan ibarətdir ki, biz istəyirik bütün sahələrdə əlaqələrimizin inkişaf etməsi üçün yeni addımlar ataq.

Mən böyük qürur hissi duyuram ki, XXI əsrin əvvəlində, üçüncü minilliyin əvvəlində Türkiyəyə rəsmi səfər etmək mənə nəsib olubdur. Bu gün burada hörmətli prezident ilə, hörmətli Baş nazir ilə apardığımız danışıqlar Azərbaycan–Türkiyə əlaqələrinin bütün sahələrini əhatə edibdir. Bu da bizim üçün, Azərbaycan üçün çox faydalıdır. Hər bir məsələ meydana çıxanda biz Türkiyə ilə məsləhətləşməyi vacib hesab edirik. Ona görə də bu gün danışıqlarımızın bir hissəsi Türkiyə–Azərbaycan iqtisadi, mədəni əlaqələrinin inkişaf etdirilməsinə, bir sözlə, bütün sahələrdə əlaqələrin inkişafına həsr olunubsa, digər hissəsi Azərbaycanın böyük dərdi olan Dağlıq Qarabağ probleminin, Ermənistan–Azərbaycan münaqişəsinin sülh yolu ilə həlli məsələsinə həsr edilibdir.

Azərbaycan dövlət müstəqilliyini əldə edən zaman Ermənistanın təcavüzünə məruz qalmışdı. Bilirsiniz ki, 1988-ci ildə Ermənistan Azərbaycan torpaqlarına, yəni Azərbaycanın ayrılmaz bir hissəsi olan Dağlıq Qarabağa torpaq iddiası ilə çıxış etmiş və sonra bu, hərbi münaqişəyə, müharibəyə çevril-

mişdi. Müharibə böyük itkilərə gətirmişdi. Müxtəlif səbəblərdən, Ermənistana bəzi dövlətlərin etdiyi yardıma görə və Azərbaycanda da buraxılmış bəzi nöqsanlara görə bu savaşda, bu müharibədə Ermənistan Azərbaycan torpaqlarının bir qismini işğal edibdir. Öncə Dağlıq Qarabağı, ondan sonra isə onun ətrafında olan yeddi böyük rayonu işğal edibdir. Beləliklə, Azərbaycan torpaqlarının 20 faizi Ermənistan silahlı qüvvələrinin işğalı altındadır. Özü də bu gün yox, dünən yox, bir çox illərdir ki, bu torpaqlardan bir milyondan artıq azərbaycanlı zorla çıxarılıb və qaçqın vəziyyətdə çadırlarda yaşayırlar.

Həm Ermənistan–Azərbaycan münaqişəsi, müharibəsi dövründə, həm də atəşkəs yaranandan sonra sülh danışıqlarının aparılmasında Türkiyə mühüm rol oynayıbdır. 1992-ci ildə ATƏT Ermənistan–Azərbaycan münaqişəsinin sülh yolu ilə həll olunması üçün Minsk qrupu yaradıbdır. Türkiyə Minsk qrupunun üzvüdür və onun üzvü kimi, Azərbaycanın dostu kimi, bu illər çox faydalı işlər görmüşdür. Ancaq təəssüflər olsun ki, bizim gördüyümüz bütün işlər, o cümlədən Minsk qrupunun həmsədrləri olan ölkələrin – Rusiya, Amerika Birləşmiş Ştatları və Fransanın son illərdə həyata keçirdiyi tədbirlər heç bir nəticə verməyibdir. Ermənistan işğal etdiyi torpaqlardan çıxmır. Azərbaycanın qaçqınları çadırlarda yaşayır. Bunların hamısı bizim üçün həm maddi, həm də mənəvi zərbədir.

Hörmətli Prezident, mən Sizə minnətdaram. Siz burada bəyan etdiniz ki, hüquq normaları, beynəlxalq hüquq prinsipləri, təəssüflər olsun ki, çox dövlətlər tərəfindən pozulur. Dünyada ikili standartlar var və Azərbaycan bu ikili standartlardan çox əziyyətlər çəkir. Ermənistan Azərbaycanın torpaqlarını işğal etdiyi halda, Amerika Birləşmiş Ştatlarının Konqresi hələ 1992-ci ildə Azərbaycana hər bir yardımın göstərilməsinə embarqo qoymuşdur. Eyni zamanda işğalçı Ermənistan hər il Amerika Birləşmiş Ştatlarından böyük yar-

dım alır və xüsusən 100 milyon dollara qədər pul alır. Biz bu ədalətsizlikləri görürük və siz də görürsünüz.

Məsələn, son vaxtlar Türkiyəyə qarşı edilən ədalətsizliklər bizi sarsıdır, bizi incidir. Erməni diasporunun gücünə görə bəzi ölkələrin parlamentlərində Türkiyənin vaxtilə guya ermənilərə qarşı soyqırımı etməsi haqqında qərarlar çıxarıblar. Biz belə qərarlara, belə fikirlərə daim öz etirazımızı bildirmişik.

Hələ 1998-ci ildə Amerikada bu məsələ Konqresdə qaldırılan kimi, Azərbaycanın Milli Məclisi, Azərbaycan dövləti öz etirazını bildirdi. Son vaxtlar Fransa parlamentlərinin belə bir qərar çıxarması bizi hiddətləndirdi. Bizim parlament xüsusi bəyanat verdi. Dövlət başçısı kimi, mən bu hərəkəti pislədim və bu qədər ədalətsizliyə qarşı öz iradəmi göstərdim. Hətta yanvar ayında Parisdə olarkən, Fransanın prezidenti Jak Şirak ilə danışarkən ona dedim ki, siz nə üçün belə ədalətsizlik edirsiniz? Biz buna qarşı çıxırıq. Bu, Türkiyə kimi bir dövlətə, türk xalqına, o cümlədən bütün türkdilli xalqlara olan ədalətsizlikdir. Biz bu gün də öz iradəmizi göstəririk.

Yəni bax, bu iki faktla nümayiş etdirmək olar ki, dünyada ikili standartlar mövcuddur və bunlar Azərbaycanın işğal olunmuş torpaqlarının azad olunması üçün lazımi tədbirlərin görülməsinin qarşısını alır. Hesab edirəm ki, Rusiya, Amerika Birləşmiş Ştatları, Fransa kimi böyük dövlətlər Ermənistana təsir göstərə bilmədilər ki, o bu danışıqlarda konstruktiv mövqe tutsun və işğal olunmuş torpaqları azad etsin. Ondan sonra isə Dağlıq Qarabağın statusu haqqında danışıqlar aparmaq olar. Ancaq təəssüflər olsun ki, bunu etməyiblər. Biz bu barədə geniş fikir mübadiləsi apardıq və mən bundan çox məmnunam.

Hörmətli Prezident, Siz burada Bakı–Ceyhan boru xətti haqqında bugünkü durumu bildirdiniz və Azərbaycanın «Şahdəniz» yatağından alınacaq qazın Türkiyəyə ixrac edilməsi haqqında anlaşmanın imzalanması barədə məlumat

verdiniz. Mən çox məmnunam. Çünki biz 1994-cü ildən Azərbaycanın neft strategiyasını həyata keçirərək, Bakı–Ceyhan boru xəttinin yaranması üçün Türkiyə, Azərbaycan birlikdə çalışmışıq. İndi bunu daha da irəliyə aparmalıyıq və bu boru xəttini inşa edib, tikib istismara verməliyik. Xəzər dənizindəki «Azəri», «Çıraq» və «Günəşli» yataqlarından ildə 50–60 milyon ton neft ixrac etmək olar. Amma Azərbaycan dünyanın böyük neft şirkətləri ilə 20 müqavilə imzalayıbdır. Təsəvvür edin, oradan nə qədər neft hasilatı, qaz hasilatı gözlənilir. Ona görə də bəlkə gələcəkdə Bakı–Ceyhan yetərli olmayacaq, ikincisini də yaratmaq lazım olacaqdır. Bunu eyni zamanda qaz haqqında da deyə bilərəm. Biz 6 milyard kubmetr qazın Türkiyəyə satılması haqqında saziş imzaladıq. Ancaq gələcəkdə bunu 10 milyarda, 15 milyarda, 20 milyarda da çatdırmaq olar və Türkiyənin bu barədə ehtiyaclarını təmin etmək olar. Bu sahə Türkiyə–Azərbaycan iqtisadi əlaqələrinin əsas sahəsidir. Ancaq bütün başqa sahələrdə də biz əlaqələrimizi inkişaf etdirmişik və bundan sonra da inkişaf etdirməyə çalışacağıq.

Müstəqil dövlət kimi, Azərbaycan on ildə ağır bir yol keçibdir. Bilirsiniz ki, bir tərəfdən, Ermənistanın təcavüzü, ikinci tərəfdən, Azərbaycanın daxilində ictimai-siyasi sabitliyin pozulması, ayrı-ayrı silahlı dəstələrin hakimiyyət uğrunda mübarizə aparması, hakimiyyətin bir neçə dəfə dəyişdirilməsi, nəhayət, 1993-cü ildə vətəndaş müharibəsinin başlanması görün Azərbaycana nə qədər böyük zərbələr vurubdur.

Mən sizə bildirmək istəyirəm ki, indi Azərbaycanda ictimai-siyasi sabitlik yaranıbdır. Ermənistanın təcavüzünə, bir milyon qaçqının ağır vəziyyətdə yaşamasına baxmayaraq, Azərbaycan iqtisadi cəhətdən ilbəil inkişaf etməkdədir.

Azərbaycan demokratiya yolu ilə gedir. Biz hər şeydə gəncik. Müstəqil dövlət kimi də gəncik, demokratiya yolu ilə gedən dövlət kimi də, bazar iqtisadiyyatı yolu ilə gedən dövlət kimi də gəncik. Hər yerdə gəncik. Amma bizim qardaşımız

var. Türkiyə bu yolu on illərlə keçibdir. Türkiyənin böyük təcrübəsi var. Biz bu təcrübədən də istifadə edirik. Dünya təcrübəsindən də istifadə edirik. Biz bu yol ilə gedirik. Azərbaycanda demokratik, hüquqi, dünyəvi dövlət quruculuğu prosesi gedir və bundan sonra da gedəcəkdir. Mən çox məmnunam ki, Türkiyə bu yolu çoxdan tutubdur. Atatürkün vəsiyyətlərini yerinə yetiribdir və Türkiyə hüquqi dövlətdir, demokratik dövlətdir və dünyəvi dövlət kimi yaşayacaqdır. Çünki dünyəvilik Türkiyəni Avropa ilə, Azərbaycan ilə birləşdirən əsas amillərdən biridir.

Azərbaycan Avropa Şurasına qəbul olundu. Bu bizim üçün tarixi hadisədir. Siz bilirsiniz ki, bizim oraya qəbul olunmağımıza çox böyük maneələr törədirdilər. Amma yenə də bizim dörd il daimi mübarizəmizdə yanımızda Türkiyə olubdur. Türkiyənin dövləti, hökuməti, Türkiyənin Avropa Şurasındakı təmsilçiləri olub, biz həmişə onların dəstəyini, yardımını hiss etmişik və bunlar da Azərbaycanın Avropa Şurasına qəbul olunmasına kömək edibdir və nəhayət, biz buna nail olmuşuq.

İndi biz yeni təşkilatda bir yerdəyik. Deməк, biz öz işlərimizi daha da bərabər apara bilərik. Təsadüfi deyil ki, Azərbaycanın Avropa Şurasında olan təmsilçiləri, Milli Məclisin deputatları da bu gün buradadırlar. Onlar gəlib Böyük Millət Məclisində görüşlər keçiriblər. Türkiyənin təmsilçiləri ilə danışıblar və birgə fəaliyyət göstərmək haqqında razılıq əldə ediblər.

Beləliklə, bizim indiyə qədər, on il müddətində keçdiyimiz yol çox uğurludur. Türkiyə–Azərbaycan dostluğu, qardaşlığı inkişaf edibdir. Ancaq bu, son mərhələ deyildir. Dünya inkişaf edir. Biz dünya ilə ayaqlaşmalıyıq. Onun üçün də Türkiyənin qazandığı nailiyyətlərdən faydalanaraq, Türkiyənin təcrübəsindən istifadə edərək, Azərbaycanın müstəqil dövlətini yaşadacaq və inkişaf etdirəcəyik.

Keçmiş Sovetlər Birliyinə mənsub olan ölkələr üçün müstəqilliyi əldə etmək çətinlik törətmədi. Çünki Sovetlər İttifaqı

dağıldı. Onun dağılmasının səbəbləri də məlumdur. Təbiidir ki, 15 müttəfiq respublika öz müstəqilliyini elan etdi. Bu bizim üçün tarixi hadisədir ki, 70 illik arzumuza çatdıq. Ancaq müstəqilliyi qorumaq, saxlamaq və əbədi etmək müstəqilliyi o şəkildə qazanmaqdan daha da çətindir. Siz Azərbaycanın çətinliklərini bilirsiniz. Mən bu barədə bir daha, bir daha sizə məlumat verdim.

Əmin ola bilərsiniz ki, Azərbaycanın müstəqilliyi bizim həyatımızın mənasıdır. Azərbaycan prezidenti kimi, mənim həyatımın mənasıdır. Azərbaycanın müstəqilliyi bundan sonra daha da möhkəmlənəcək, yaşayacaq və müstəqil dövlət bir daha keçmişdəki vəziyyətə düşməyəcəkdir. Biz bu yolda Türkiyə ilə həmişə bir yerdə olmuşuq, bir yerdə olacağıq. Türkiyə–Azərbaycan dostluğu əbədidir, sarsılmazdır. Biz bu dostluğa sadiqik və sadiq olacağıq. Bu dostluğu inkişaf etdirmək üçün bütün sahələrdə əməkdaşlığımızı, işbirliyimizi daha da inkişaf etdirəcəyik. Güman edirəm ki, mənim buraya rəsmi səfərim zamanı bu məsələlərin gələcəyi haqqında işlər görürük və görəcəyik. Beləliklə də, XXI əsrin başlanğıcında əsrin gələcəyi üçün, gələcək nəsillər üçün faydalı işləri bir yerdə görəcəyik.

Mən Türkiyədə olmağımdan bir daha məmnun olduğumu bildirmək istəyirəm. Bu həmişə mənim üçün sevinc gətirir.

Hörmətli Prezident, məni dəvət etdiyinizə görə Sizə bir daha təşəkkür edirəm. Azərbaycanın buraya gəlmiş bütün heyətinə göstərilən qayğıya, diqqətə və qonaqpərvərliyə görə bir daha təşəkkür edirəm.

Rica edirəm, badələrimizi Türkiyənin şərəfinə qaldıraq!

Atatürk Türkiyəsinin şərəfinə qaldıraq!

Türkiyə–Azərbaycan dostluğunun şərəfinə qaldıraq!

Bu dostluğun sarsılmazlığının, əbədiliyinin şərəfinə qaldıraq!

Əziz dostlar, sizin şərəfinizə qaldıraq!

Hörmətli Prezident, bu badəni Sizin şərəfinizə qaldırıram!

# TÜRKİYƏ SİLAHLI QÜVVƏLƏRİ BAŞ QƏRARGAHININ RƏİSİ, ORDU GENERALI HÜSEYN KIVRIQOĞLU İLƏ TƏKBƏTƏK GÖRÜŞ

*Ankara,*
*Azərbaycan prezidentinin iqamətgahı –*
*Camlı köşk*

*13 mart 2001-ci il*

*Respublikamızın rəhbərini səmimiyyətlə və mehribanlıqla salamlayan, Ankaraya rəsmi səfərə gəldiyinə görə dövlətimizin başçısına təşəkkür edən cənab Kıvrıqoğlu Azərbaycan–Türkiyə hərtərəfli əməkdaşlığının, strateji tərəfdaşlığının möhkəmlənməsində və inkişaf etməsində görkəmli dövlət xadimi Heydər Əliyevin xüsusi xidmətləri olduğunu bildirdi.*

*Səmimi sözlərə görə cənab Kıvrıqoğluna minnətdarlıq edən prezident Heydər Əliyev Türkiyə ilə bütün sahələrdə əlaqələrin daha da sıxlaşdırılmasına Azərbaycanın həmişə xüsusi diqqət yetirdiyini nəzərə çatdırdı.*

*Görüşdə Ermənistan–Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin sülh yolu ilə aradan qaldırılması ilə əlaqədar ATƏT-in Minsk qrupunun fəaliyyəti, aparılan birbaşa danışıqların gedişi, bölgədə vəziyyət və hər iki ölkəni maraqlandıran bir sıra digər məsələlər barədə geniş fikir mübadiləsi aparıldı.*

*Prezident Heydər Əliyev cənab Hüseyn Kıvrıqoğlunu Azərbaycana dəvət etdi. Dəvət məmnunluqla qəbul olundu.*

## Türkiyə Respublikası Baş nazirinin müavini, Dövlət naziri, Milliyyətçi Hərəkat Partiyasının sədri Dövlət Baxçalı ilə təkbətək görüş

*Dövlətimizin başçısını səmimiyyətlə salamlayan, Türkiyəyə rəsmi səfərə gəldiyinə görə prezident Heydər Əliyevə minnətdarlığını bildirən Dövlət Baxçalı əmin olduğunu söylədi ki, bu səfər Azərbaycan–Türkiyə əməkdaşlığının daha da möhkəmlənməsində və inkişaf etməsində mühüm rol oynayacaqdır.*

*Görkəmli dövlət xadimi Heydər Əliyevin rəhbərliyi ilə son illər Azərbaycanda hüquqi, demokratik, dünyəvi dövlət quruculuğu sahəsində müvəffəqiyyətlə həyata keçirilən islahatların qardaş ölkədə rəğbətlə qarşılandığını vurğulayan Dövlət Baxçalı Azərbaycanla bütün sahələrdə əlaqələrin sıxlaşdırılmasına Türkiyənin həmişə xüsusi diqqət yetirdiyini nəzərə çatdırdı.*

*Azərbaycan–Türkiyə münasibətlərinin durmadan inkişaf etdirilməsində prezident Heydər Əliyevin böyük zəhməti olduğunu söyləyən Dövlət Baxçalı martın 12-də Çankaya köşkündə Azərbaycan və Türkiyə prezidentlərinin iştirakı ilə imzalanmış sənədlərin qardaş ölkələrimizin bir sıra sahələrdə əlaqələrinin daha da möhkəmləndirilməsi üçün xüsusi əhəmiyyət daşıdığını bildirdi.*

*Səmimi sözlərə görə Dövlət Baxçalıya minnətdarlıq edən respublikamızın rəhbəri Heydər Əliyev dost və qardaş ölkələrimiz arasında bütün sahələrdə möhkəm təməl üzərində qurulmuş əlaqələrin sürətlə inkişaf etməsindən məmnun qaldığını nəzərə çatdırdı.*

*Demokratik inkişaf, bazar münasibətləri yolunu seçmiş Azərbaycanda hüquqi, demokratik, dünyəvi dövlət quruculuğu sahəsində görülən işlərdən, uğurla həyata keçirilən islahatların müsbət nəticələrindən danışan prezident Heydər Əliyev ölkəmiz*

*üçün ən ağrılı problem olan Ermənistan–Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi barədə də ətraflı söhbət açdı.*

*Görüşdə Xəzərin Azərbaycan sektorundakı yataqların birgə işlənilməsində Türkiyə şirkətlərinin yaxından iştirakı, Bakı–Tbilisi–Ceyhan əsas ixrac boru kəmərinin inşası ilə əlaqədar görülən hazırlıq işləri, «Şahdəniz» yatağından çıxarılacaq qazın Türkiyəyə ixracı və hər iki ölkəni maraqlandıran bir sıra digər məsələlər barədə də geniş fikir mübadiləsi aparıldı.*

*Prezident Heydər Əliyev cənab Dövlət Baxçalını Azərbaycana səfərə dəvət etdi. Dəvət məmnunluqla qəbul olundu.*

## Türkiyə Respublikası Baş nazirinin müavini, Ana Vətən Partiyasının sədri Məsud Yılmaz ilə təkbətək görüş

*Dövlətimizin başçısını səmimi-qəlbdən salamlayan, Türkiyəyə rəsmi səfərə gəldiyinə görə respublikamızın rəhbərinə minnətdarlığını bildirən cənab Məsud Yılmaz prezident Heydər Əliyev ilə hər bir görüşdən böyük şərəf duyduğunu nəzərə çatdırdı.*

*Görkəmli dövlət xadimi Heydər Əliyevin rəhbərliyi ilə Azərbaycanda bütün sahələrdə uğurla həyata keçirilən islahatların Türkiyədə böyük maraq doğurduğunu vurğulayan cənab Məsud Yılmaz xalqlarımızın iradəsinə söykənən, strateji tərəfdaşlıq xarakteri daşıyan ikitərəfli əməkdaşlığın daha da möhkəmləndirilməsində Azərbaycan prezidentinin böyük xidmətləri olduğunu bildirdi.*

*Dost və qardaş ölkələrimiz arasında bütün sahələrdə möhkəm təməl üzərində qurulmuş əlaqələrin hazırkı vəziyyətindən razı qaldığını vurğulayan prezident Heydər Əliyev əmin olduğunu bildirdi ki, Türkiyəyə bu rəsmi səfəri dostluq, qardaşlıq, strateji tərəfdaşlıq əlaqələrinin inkişafında yeni mərhələ açacaqdır.*

*Türkiyədə keçirdiyi görüşləri, apardığı danışıqları yüksək dəyərləndirən dövlətimizin başçısı Heydər Əliyev martın 12-də Çankaya köşkündə imzalanmış sənədlərin ölkələrimizin bir çox sahələrdə əlaqələrinin daha da sıxlaşdırılmasına güclü təkan verəcəyinə əmin olduğunu bildirdi.*

*Görüşdə ölkəmiz üçün ən ağrılı problem olan Ermənistan–Azərbaycan, Dağlıq Qarabağ münaqişəsindən, torpaqlarımızın 20 faizinin hələ də işğal altında olmasından, bir milyondan artıq vətəndaşımızın yerindən-yurdundan zorla qovularaq çadırlarda ağır şəraitdə yaşamasından və prezident Heydər Əliyevin apardığı birbaşa danışıqlardan da bəhs edildi.*

*Söhbət zamanı ölkələrimizin iqtisadi, ticarət əlaqələrinin gələcəkdə daha da genişləndirilməsi və inkişaf etdirilməsinin vacibliyi vurğulandı, Xəzərin Azərbaycan sektorundakı yataqların birgə işlənilməsində Türkiyə şirkətlərinin yaxından iştirak etməsindən razılıqla bəhs olundu, Bakı–Tbilisi–Ceyhan əsas ixrac boru kəmərinin inşasına hazırlıqla əlaqədar görülən işlər, «Şahdəniz» yatağından çıxarılacaq qazın Türkiyəyə ixracı və hər iki ölkəni maraqlandıran bir sıra digər məsələlər barədə müzakirələr aparıldı.*

*Prezident Heydər Əliyev cənab Məsud Yılmazı Azərbaycana dəvət etdi. Dəvət məmnunluqla qəbul olundu.*

## Türkiyə Respublikası Baş nazirinin müavini, Ana Vətən Partiyasının sədri Məsud Yılmazla təkbətək görüşdən sonra həmin partiyanın üzvü olan azərbaycanlılarla görüş*

*Soydaşlarımız dövlətimizin başçısını səmimiyyətlə, mehribanlıqla salamladılar, görkəmli dövlət xadimi Heydər Əliyev ilə görüşdən şərəf duyduqlarını bildirdilər. Hazırda Qarsda*

---

* Görüşdə Ana Vətən Partiyasının sədri Məsud Yılmaz iştirak edirdi.

*yaşayan soydaşlarımız respublikamızın rəhbərinə məlumat verdilər ki, onlar əslən Gəncə şəhərindəndirlər.*

*Bu məlumatdan çox məmnun qaldığını vurğulayan prezident Heydər Əliyev dedi ki, Gəncə ilə Qars əsrlərdən bəri çox yaxın olublar. Çünki Qarsda yaşayan insanların bir çoxu Gəncədən gəliblər.*

*Soydaşlarımız prezident Heydər Əliyevin Qarsa səfərini həmişə tarixi bir hadisə kimi xatırladıqlarını nəzərə çatdırdılar və dövlətimizin başçısına Qarsa yenidən gələcəyini səbirsizliklə gözlədiklərini bildirdilər. Onlar Qars və Ərzurum universitetlərinin prezident Heydər Əliyevi fəxri adlara layiq gördüklərini söylədilər.*

*Naxçıvanda yaşayarkən Qarsa səfər etdiyini vurğulayan respublikamızın rəhbəri, vaxt tapan kimi, Qarsa və Ərzuruma səfər edəcəyini bildirdi.*

## Türkiyə Respublikasının Xarici İşlər naziri İsmayıl Cəm ilə təkbətək görüş

*Ölkəmizin rəhbərini mehribanlıqla salamlayan, onunla yenidən görüşməkdən şərəf duyduğunu söyləyən İsmayıl Cəm prezident Heydər Əliyevin diqqət və qayğısı sayəsində ölkələrimiz arasında qarşılıqlı surətdə faydalı əlaqələrin gündən-günə inkişaf etməsindən çox məmnun qaldığını bildirdi.*

*Görkəmli dövlət xadimi Heydər Əliyevin liderliyi sayəsində beynəlxalq aləmdə özünəməxsus yer tutan gənc, müstəqil Azərbaycan Respublikasının Avropa Şurasına tamhüquqlu üzv qəbul olunması münasibətilə ölkəmizin rəhbərini təbrik edən cənab İsmayıl Cəm bu tarixi hadisənin Türkiyədə də böyük rəğbətlə qarşılandığını nəzərə çatdırdı.*

*Bəşəri dəyərlərə sadiq olan Azərbaycanın Avropa Şurasına qəbul edilməsinin xalqımızın həyatında həqiqətən tarixi hadisəyə çevrildiyini xatırladan prezident Heydər Əliyev*

*Türkiyənin bu sahədə rolunu və dəstəyini məmnunluqla qeyd etdi, ölkələrimizin Avropa Şurasında və digər beynəlxalq təşkilatlarda əlaqələrinin daha da möhkəmləndirilməsinin zəruriliyini vurğuladı.*

*Cənab İsmayıl Cəm martın 12-də Çankaya köşkündə Azərbaycan və Türkiyənin dövlət başçılarının iştirakı ilə imzalanmış sənədlərin dost, qardaş ölkələrimiz arasında əlaqələrin sıxlaşdırılmasına yeni güclü təkan verəcəyinə əmin olduğunu bildirdi.*

*Respublikamız üçün ən ağrılı problem olan Ermənistan–Azərbaycan, Dağlıq Qarabağ münaqişəsindən, torpaqlarımızın 20 faizinin hələ də işğal altında olmasından, yerindən-yurdundan zorla qovulmuş bir milyondan artıq vətəndaşımızın əksəriyyətinin çadırlarda ağır şəraitdə yaşamasından bəhs edən dövlətimizin başçısı münaqişənin həlli ilə əlaqədar ATƏT-in Minsk qrupunun fəaliyyətindən və aparılan birbaşa danışıqlardan ətraflı söhbət açdı.*

*Cənab İsmayıl Cəm bu münaqişənin tezliklə sülh yolu ilə aradan qaldırılması üçün prezident Heydər Əliyevin ardıcıl səylərinin Türkiyə tərəfindən dəstəkləndiyini nəzərə çatdırdı.*

*Görüşdə Xəzərin Azərbaycan sektorundakı yataqların birgə işlənilməsində Türkiyə şirkətlərinin yaxından iştirakı, əsas ixrac boru kəmərinin inşasına hazırlıqla əlaqədar görülən işlər, «Şahdəniz» yatağından çıxarılacaq qazın Türkiyəyə ixracı, regionda və beynəlxalq aləmdə vəziyyət, hər iki ölkəni maraqlandıran bir sıra digər məsələlər barədə geniş fikir mübadiləsi aparıldı.*

*Respublikamızın rəhbəri Heydər Əliyev cənab İsmayıl Cəmi Azərbaycana dəvət etdi. Dəvət məmnunluqla qəbul olundu.*

# TÜRKİYƏ BÖYÜK MİLLƏT MƏCLİSİNDƏ NİTQ

*13 mart 2001-ci il*

*Böyük Millət Məclisinin sədri Ömər İzgi respublikamızın rəhbərini parlamentin binası önündə səmimiyyətlə, mehribanlıqla qarşıladı.*

*Cənab Ömər İzgi dövlətimizin başçısı Heydər Əliyevin Türkiyəyə rəsmi səfərinin böyük uğurla keçməsindən məmnunluq duyduğunu vurğuladı.*

*Ölkəmizdə hüquqi, demokratik, dünyəvi dövlət quruculuğu sahəsində müvəffəqiyyətlə həyata keçirilən islahatları, son illər respublikamızda baş vermiş müsbət dəyişiklikləri yüksək dəyərləndirən cənab Ömər İzgi Azərbaycanın Avropa Şurasına tamhüquqlu üzv seçilməsi münasibətilə prezident Heydər Əliyevi bir daha ürəkdən təbrik etdi.*

*Səmimi sözlərə və qonaqpərvərliyə görə cənab Ömər İzgiyə təşəkkürünü bildirən dövlətimizin başçısı Heydər Əliyev Azərbaycan ilə Türkiyə arasında dostluq, qardaşlıq, strateji tərəfdaşlıq əlaqələrinin hazırkı vəziyyətindən razılıqla bəhs etdi, parlamentlərarası əlaqələrin daha da inkişaf etdirilməsinin vacib olduğunu nəzərə çatdırdı.*

*Ölkəmiz üçün ən ağrılı problem olan Ermənistan–Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin sülh yolu ilə aradan qaldırılması üçün aparılan danışıqlardan söhbət açan respublikamızın rəhbəri Heydər Əliyev Türkiyənin bu sahədə Azərbaycana göstərdiyi dəstəkdən razılıq etdi.*

*Görüşdə beynəlxalq aləmdə və regionda vəziyyət, hər iki ölkəni maraqlandıran bir sıra digər məsələlər barədə ətraflı fikir mübadiləsi aparıldı.*

*Daha sonra Azərbaycan prezidenti Heydər Əliyev millət vəkilləri qarşısında geniş nitq söylədi.*

**Heydər Əliyev:** Türkiyə Cümhuriyyətinin hörmətli Böyük Millət Məclisi!

Hörmətli millət vəkilləri!

Hörmətli sədr!

Hörmətli xanımlar və cənablar!

Mən sizi Azərbaycan xalqı adından səmimi-qəlbdən salamlayıram, sizə, Türkiyə Cümhuriyyətinə, Türkiyə xalqına bütün gələcək işlərinizdə uğurlar diləyirəm.

Böyük Millət Məclisində yenidən millət vəkillərinə xitab etmək imkanı aldığıma görə, mənə bu, nəsib olduğuna görə çox xoşbəxtəm və buna görə təşəkkür edirəm. Siz bilirsiniz ki, Türkiyə Cümhuriyyətinin prezidenti zati-aliləri, hörmətli Əhməd Necdət Sezərin dəvəti ilə mən dünən Türkiyəyə rəsmi səfərə gəlmişəm. Türkiyəyə səfər etmək mənim üçün yeni bir şey deyildir. Ancaq hər dəfə Türkiyəyə gələndə özümü çox bəxtiyar hiss edirəm, özümü öz vətənimdəki kimi hiss edirəm, özümü qardaşlarımın arasında hiss edirəm.

Dünən və bu gün biz Türkiyə–Azərbaycan dostluğu, qardaşlığı və bu dostluq, qardaşlıq əlaqələrinin inkişaf etdirilməsi üçün bir çox səylər göstərdik, hörmətli prezident cənab Əhməd Necdət Sezərlə, hörmətli Baş nazir cənab Bülənd Ecevitlə görüşlər keçirdik. Bu gün mən Baş nazirin müavinləri hörmətli Dövlət Baxçalı və hörmətli Məsud Yılmazla, Baş Qərargah rəisi hörmətli Hüseyn Kıvrıqoğlu ilə, Türkiyənin Xarici İşlər naziri hörmətli İsmayıl Cəmlə də ayrıca görüşlər keçirdim. Bütün bu görüşlərimizin, danışıqlarımızın əsas

məqsədi, yəni ana xətti Türkiyə–Azərbaycan əlaqələrini daha da yüksək səviyyəyə qaldırmaqdan ibarətdir.

Ötən illərdən bizim ölkələrimiz, xalqlarımız arasında dostluq və qardaşlıq əlaqələri artmaqda davam edir. Biz artıq Türkiyə–Azərbaycan strateji tərəfdaşlıq əlaqələri səviyyəsinə gəlib çatmışıq. Bu, dövlətlərarası əlaqələrdir. Ancaq xalqlarımız arasındakı əlaqələrin tarixi də çox böyükdür və onun qiyməti də bundan artıqdır. Çünki biz eyni köklərə mənsub olan xalqlarıq. Eyni milli-mənəvi dəyərlərə, eyni dilə, eyni dinə mənsub olan xalqlarıq. Biz hamımız bir kökdən gəlirik. Ona görə də bizim hamımızın fikri, zəkası bu köklərlə bağlıdır. Biz Azərbaycanda xalqlarımızın mənsub olduqları bu kökləri, milli-mənəvi dəyərləri yüksək qiymətləndiririk və bu dəyərlərə, bu tarixə daim sadiq olduğumuzu mən bir daha bəyan edirəm.

Azərbaycan dövlət müstəqilliyi əldə edəndən sonra Türkiyə ilə Azərbaycan arasında dövlətlərarası əlaqələr yaranıbdır. Dediyim kimi, bu əlaqələr ilbəil inkişaf edib və strateji tərəfdaşlıq səviyyəsinə gəlib çatıbdır.

Bizim üçün, Azərbaycan üçün, gənc, müstəqil bir ölkə üçün bunun çox böyük əhəmiyyəti vardır. Çünki biz tarixən Türkiyəyə bağlıyıq. XX əsrdə də, hələ Azərbaycanda sovet hakimiyyəti qurulmazdan əvvəl də Türkiyə ilə bizim əlaqələrimiz çox sıx olubdur və çox anlarda biz bir yerdə olmuşuq. Sonra isə Azərbaycan dövlət müstəqilliyini əldə edəndə Türkiyə Azərbaycanın istiqlaliyyətini dünyada tanıyan ilk dövlət olmuşdur və Azərbaycana o vaxtdan daim dəstək vermişdir və dəstək verməkdə davam edir.

Biz 70 il bir-birimizdən ayrı düşmüşük. Biz Sovetlər Birliyində yaşamışıq, Türkiyə isə müstəqil dövlət olaraq öz yolu ilə gedib, inkişaf edibdir.

Hər xalqın, hər dövlətin özünəməxsus nailiyyətləri də var, itkiləri də. Ancaq Türkiyə o illərdə də bizim üçün həmişə cazi-

bədar olmuşdur. O illərdə Türkiyə ilə birbaşa əlaqələrimiz olmasa da, biz həmişə Türkiyənin həyatını diqqətlə izləmişik, Türkiyəni sevmişik, qəlbimizdə saxlamışıq və Türkiyəyə qovuşmaq arzusu ilə yaşamışıq və nəhayətdə, on il bundan öncə biz qovuşmuşuq.

XX əsrdə Osmanlı imperatorluğu dağıldıqdan sonra Türkiyə böyük, şərəfli bir yol keçibdir. Mən bu gün böyük məmnuniyyət hissi ilə bu məclisə, Böyük Millət Məclisinə xitab edirəm və Böyük Millət Məclisinin 80 illik tarixinə öz hörmət və ehtiramımı bildirirəm. 80 il... Müstəqil dövlət, Türkiyə Cümhuriyyəti və Türkiyə Cümhuriyyətinin bütün həyatının məsələlərini həll edən Böyük Millət Məclisi...

Cümhuriyyət qurulandan sonra Türkiyə böyük yol keçmiş, inkişaf etmiş, dünyanın iqtisadi cəhətdən inkişaf etmiş ölkələrindən biri olmuşdur. Güclü, qüdrətli dövlət, demokratik, hüquqi, dünyəvi dövlət olmuşdur. Dünyada özünəməxsus olan yerini tutmuşdur. Bunlar hamısı bizdə, Azərbaycanda, hər bir azərbaycanlıda böyük iftixar hissi doğurur. Eyni zamanda Türkiyənin cümhuriyyət dövründə yaşadığı həyat bizim üçün örnəkdir, bizim üçün təcrübə mənbəyidir. Bunları deyərkən, təbiidir ki, Türkiyə Cümhuriyyətinin hansı ağır şəraitdə yarandığını unutmaq olmaz. Biz Azərbaycanda bunu yüksək qiymətləndiririk.

Bütün türk dünyasının böyük şəxsiyyəti, böyük oğlu, bəşər tarixinin meydana çıxardığı ən böyük insanlardan biri Mustafa Kamal Atatürkün iradəsi ilə 1923-cü ildə yaranmış Türkiyə Cümhuriyyəti o qədər güclü təməl əsasında qurulub ki, artıq 78 ildir ki, cümhuriyyət kimi yaşayır, inkişaf edir. Türkiyədə bunu hamı qiymətləndirir. Amma bilməlisiniz ki, biz qardaş, dost olaraq bunun qədrini bəlkə də sizdən çox bilirik, bunu qiymətləndiririk.

Biz Azərbaycanda çox məmnunuq ki, türk xalqı Türkiyə Cümhuriyyəti yaranandan Mustafa Kamal Atatürkün qoydu-

ğu yolla gedib və bu yol da həmişə ona uğurlar gətiribdir. Məndən soruşanda ki, böyük Atatürkün türk xalqına qoyub getdiyi irs nədən ibarətdir, mən deyirəm ki, bu irs o qədər böyükdür ki, hamısını əhatə etmək mümkün deyildir. Ancaq ən böyük irs onun yaratdığı, qurduğu və bu gün uğurla yaşayan Türkiyə Cümhuriyyətidir. Eyni zamanda böyük Atatürkün türk xalqına qoyduğu böyük irs qəhrəman, yenilməz türk ordusudur, türk əsgəridir. Məhz həm iqtisadi inkişafına görə, həm hərbi qüdrətinə, imkanlarına görə Türkiyə bu 78 ildə ən ağır, çətin dövrlərdən keçərək yaşayıb, inkişaf edib və Türkiyənin əleyhinə olan düşmən qüvvələrin hamısının qarşısını uğurla alıbdır.

Bu gün Türkiyənin tarixi haqqında sizə çox söz deməyim, bəlkə də, qəribə gələr. Çünki siz bunu məndən yaxşı bilirsiniz. Ancaq mən bunları ona görə söyləyirəm ki, Azərbaycan xalqının qəlbində olan hissləri sizə çatdırım və biləsiniz ki, Mustafa Kamal Atatürkün yaratdığı Türkiyə təkcə Türkiyə Cümhuriyyəti üçün deyil, bütün türk dünyası üçündür, Azərbaycan üçündür.

Biz Türkiyənin bugünkü yüksək durumda olmasından çox böyük məmnunluq hissi duyuruq və hesab edirik ki, Türkiyə bundan sonra da qarşısında duran vəzifələrin hamısını uğurla həyata keçirəcəkdir və tutduğu yol ilə, demokratiya yolu ilə, insan haqlarının qorunması yolu ilə, hüquqi dövlət yolu ilə, bazar iqtisadiyyatı yolu ilə müvəffəqiyyətlə irəliləyəcəkdir.

Azərbaycan gənc, müstəqil dövlətdir. Siz bilirsiniz ki, 1918-ci ildə Azərbaycan ilk dəfə dövlət müstəqilliyini əldə etmiş, ancaq o vaxt o dövlətin yaşaması mümkün olmamış, 23 aydan sonra süqut etmişdir. Müstəqillik əldə etmək olar. Osmanlı imperatorluğu dağıldığı zaman Türkiyə Cümhuriyyəti yaratmaq mümkün oldu. Amma onu yaşatmaq, onu inkişaf etdirmək onun yaradılmasından da çətin idi. Siz bunu etmisiniz. Siz bunu et-

misiniz ona görə ki, siz Mustafa Kamal Atatürkün irsinə, vəsiyyətlərinə, onun qoyduğu yola sadiq olmusunuz.

Biz 70 ildən sonra, 1991-ci ilin sonunda Azərbaycanın müstəqilliyini elan etdik. Bu o zaman idi ki, Sovetlər Birliyi dağılırdı. Nəhayət, Sovetlər Birliyinin dağılması haqqında bəyanat verildi. Sovetlər Birliyinin daxilində olan 15 bərabərhüquqlu, müttəfiq respublikanın hər biri öz istiqlaliyyətini elan etdi. Azərbaycan da elan etdi.

Ancaq Azərbaycan öz istiqlaliyyətini elan edərkən çox ağır, çətin şəraitdə yaşayırdı. Ermənistan 1988-ci ildən, hələ Sovetlər İttifaqının daxilində olduğumuz zaman Azərbaycana qarşı torpaq iddiası ilə çıxış etmiş, Azərbaycanın ayrılmaz hissəsi olan Dağlıq Qarabağı öz əlinə keçirməyə cəhd göstərmiş və nəticədə, sonra müəyyən uğurlar əldə etmiş, müharibə başlanmışdır. 1991-ci ilin sonunda Azərbaycan dövlət müstəqilliyini elan edəndə torpaqlarının bir qismi artıq Ermənistan tərəfindən işğal olunmuşdu və ölkəmizdə müharibə gedirdi. Belə bir zamanda müstəqilliyi elan edəndən sonra onu qoruyub saxlamaq, təsəvvür edirsinizmi, nə qədər çətin, nə qədər də ağır bir iş olubdur. Bu illərdə biz çox böyük sınaqlardan keçdik, böyük təhlükələrdən qurtardıq. Ancaq müstəqilliyimizi qoruduq, saxladıq və möhkəmləndirdik. Amma Azərbaycanda bir söz var: gətirmədi. Yəni biz müstəqillik əldə edəndə Sovetlər Birliyinə daxil olmuş başqa cümhuriyyətlərdə sabitlik var idi. Amma bizdə sabitlik yox idi. Eyni zamanda, Ermənistanla da savaş var idi. Bunlar Azərbaycana çox böyük zərbələr vurdu.

Ermənistanın Azərbaycan torpaqlarını işğal etməsinin səbəbləri də ondan ibarətdir ki, birincisi, Ermənistana daha çox yardım edildi. Sovetlər Birliyi zamanında, ondan sonra da bir neçə ölkədən, erməni diasporundan yardım edildi, amma Azərbaycana heç bir yardım olunmadı.

İkincisi, ermənilər o zaman Dağlıq Qarabağı ələ keçirmək üçün daxildə olan bütün ziddiyyətləri aradan qaldırdılar. Hamısı bir ideya ətrafında – ermənicə buna «miatsum» deyirlər, yəni Dağlıq Qarabağın Ermənistana birləşdirilməsi – birləşdilər. «Miatsum-miatsum» deyərək ermənilərin hamısı birləşdi. Amma Azərbaycanda, təəssüf ki, xalq birləşə bilmədi, hakimiyyət uğrunda mübarizələr getdi. 1988-ci ildən 1993-cü ilə qədər dörd dəfə hakimiyyət dəyişildi. Azərbaycanda bəzi siyasi qüvvələr silahlı dəstələr yaratdılar və bu silahlı dəstələrin hamısını səfərbər edərək cəbhəyə göndərmək, torpaqları müdafiə etmək əvəzinə, Azərbaycanın içərisində hakimiyyət mübarizəsi və ziddiyyətlər başladı. Bunlardan da Ermənistan çox məharətlə istifadə etdi.

Bunların hamısı son olaraq 1993-cü ilin iyun ayında Azərbaycanda vətəndaş müharibəsi yaratdı. Vətəndaş müharibəsi həm Azərbaycanın içərisində getdi – çünki bu da Cümhur başqanı olmaq istəyir, o da Cümhur başqanı olmaq istəyir, o birisi də Cümhur başqanı olmaq istəyirdi – ayrı-ayrı silahlı dəstələr bir-biri ilə vuruşmağa başladı. O biri tərəfdən isə Azərbaycanın bəzi bölgələrində bundan istifadə edərək separatçılar baş qaldırdılar. Məsələn, güney bölgəsində talışlar bir «talış cümhuriyyəti» yaradıb Moskvaya müraciət etdilər ki, biz Rusiyaya qatılmaq istəyirik. Yaxud da ki, Azərbaycanın quzeyində ləzgilər vardır, onlar da bir cümhuriyyət yaratmağa çalışdılar. Belə bir çətin vəziyyət, vətəndaş müharibəsi 1993-cü ilin iyun ayında meydana çıxdı.

Ancaq biz xalqımızı birləşdirə bildik və vəziyyətin öhdəsindən gəldik. Amma bununla da iş bitmədi. Ondan sonra, 1994-cü ildə əllərində hələ silahlı dəstələr olan bəzi insanlar çevriliş etmək istədilər – onda prezident, Cümhur başqanı artıq mən idim – amma xalq qalxdı, buna imkan vermədi.

1995-ci ilin mart ayında yenə də bir silahlı dəstə, bizim Daxili İşlər Nazirliyinin silahlı dəstəsi çevriliş etmək istədi.

Onun da qarşısını aldıq. Təsəvvür edin, 1991-ci ilin sonunda biz istiqlaliyyət əldə etmişik, amma 1995-ci ilə qədər hələ də dövlət çevrilişi cəhdləri ilə rastlaşmışıq. Təbiidir ki, bunlar Azərbaycanın iqtisadiyyatına da zərər verdi və Ermənistanın Azərbaycan torpaqlarını işğal etməsinə imkanlar yaratdı. Nəticədə Azərbaycan torpaqlarının 20 faizi Ermənistan tərəfindən işğal olundu.

Bu ağır müharibə zamanı – 1994-cü ilin may ayında biz Ermənistanla atəşi dayandırmaq haqqında anlaşma imzaladıq. O vaxtdan yeddi ildir ki, atəş yoxdur. Amma barış da yoxdur. Biz məsələni barış, sülh yolu ilə həll etmək istəyirik. Ancaq ermənilər özlərinin üstünlüyündən – yəni bizim torpaqlarımızı işğal ediblər və işğal olunmuş torpaqlardan bir milyon azərbaycanlını zorla çıxardıblar, onlar çadırlarda yaşayırlar. Təsəvvür edin, evini, eşiyini, hər şeyini itirmiş insan 7-8 il çadırda yaşasın – istifadə edərək konstruktiv mövqe tutmurlar.

Doğrudur, beynəlxalq təşkilatlar qərarlar qəbul ediblər. Məsələn, Birləşmiş Millətlər Təşkilatının Təhlükəsizlik Şurası qətnamələr qəbul edibdir ki, Ermənistan işğal olunmuş Azərbaycan torpaqlarından çıxmalıdır. Amma Ermənistan bunu etmir.

ATƏT 1992-ci ildə Minsk qrupu yaradıbdır. Türkiyə də Minsk qrupunun tərkibindədir. Minsk qrupu Ermənistan–Azərbaycan münaqişəsini sülh, barış yolu ilə həll etmək üçün yaradılıbdır. İndi Minsk qrupunun həmsədrləri Rusiya, Amerika Birləşmiş Ştatları, bir də Fransadır. Onlar da indiyə qədər bir iş görə bilməyiblər. Yəni bir neçə təklif irəli sürüblər, biz onları qəbul etmişik, amma Ermənistan qəbul etməyibdir.

Biz dəfələrlə Amerika Birləşmiş Ştatlarına da, Rusiyaya da, Fransaya da, digərlərinə də demişik ki, siz Ermənistana yardımlar edirsiniz. Amerika Azərbaycana embarqo qoyubdur. Demişik ki, siz Ermənistana yardımlar edirsiniz, Ermə-

nistana siz təsir edin ki, beynəlxalq hüquq normalarına tabe olsun, işğal edilmiş torpaqlardan çıxsın və biz Dağlıq Qarabağın da statusunu beynəlxalq hüquq normaları prinsipi əsasında həll edək. Ancaq onlar bunu da etmirlər.

Bilirsiniz ki, son vaxtlarda mən Ermənistan prezidenti Köçəryanla bir çox görüşlər keçirmişəm. 15 görüş keçirmişəm. Çünki bunu bizə məsləhət gördülər. Amerika da, Rusiya da, Fransa da, digərləri də məsləhət gördülər ki, siz bir görüşün, bəlkə bu görüşlər bir şey verdi. İndi görüşürük, heç bir şey əldə etmək mümkün olmur. Amma eyni zamanda hər biri deyir ki, Ermənistan və Azərbaycan prezidentləri hansı razılığa gəlsələr, biz onu dəstəkləyəcəyik. Amma razılığa gəlmək də mümkün deyildir. Çünki Ermənistan bizim torpaqlarımızı işğal edibdir, öz şərtlərini qoyur. Amma biz də o şərtləri qəbul edə bilmərik.

Biz bax, belə bir dövr yaşamışıq. Amma bütün bunlara baxmayaraq, biz 1995-ci ildə Azərbaycanda daxili sabitlik yaratdıq. Azərbaycanın daxilində olan bütün qanunsuz silahlı dəstələri aradan götürdük. Atəşkəsi təmin etdik və Azərbaycanda 1995–96-cı illərdən ictimai-siyasi sabitlik hökm sürür.

O vaxtdan ötən illər bizə imkan verdi ki, artıq Azərbaycanın iqtisadiyyatı ilə məşğul olaq. Çünki Azərbaycan öz dövlət müstəqilliyini elan edəndə bəyan edibdir ki, demokratiya yolu ilə gedəcək və biz bu yolla gedirik. Azərbaycan hüquqi dövlət quracaq – biz hüquqi dövlət qururuq. Azərbaycanda vicdan azadlığı, söz azadlığı, mətbuat azadlığı təmin olunacaq – biz bunu etmişik. Azərbaycan dünyəvi dövlət olacaq – biz bunu bəyan etmişik. Bu yolla gedirik, bu yoldan da heç vaxt dönməyəcəyik.

Mən sizə iki şeyi demək istəyirəm. Birincisi, Azərbaycan öz müstəqilliyini bundan sonra heç vaxt əldən verməyəcək və ikincisi, tutduğu yol ilə, demokratiya yolu ilə, hüquqi dövlət,

dünyəvi dövlət qurmaq yolu ilə, bazar iqtisadiyyatı yolu ilə irəliləyəcəkdir.

Belə çətin, ağır bir vəziyyətdə biz 1996-cı ildən Azərbaycanda iqtisadiyyatı inkişaf etdirməyə başladıq. Sizin vaxtınızı alıb rəqəmlər göstərmək istəmirəm. Ancaq bizim həyata keçirdiyimiz islahatlar – iqtisadi islahatlar, hüquqi islahatlar, sosial islahatlar, siyasi islahatlar, özəlləşdirmə – bunlar hamısı birlikdə Azərbaycanda iqtisadiyyatın inkişafını təmin edibdir. Əgər 1996-cı ilə qədər Azərbaycanda iqtisadiyyat ilbəil aşağıya düşürdüsə, enirdisə, yəni hər il keçən ildəkindən aşağıda olurdusa, 1996-cı ildən hər il qalxır.

Biz Azərbaycanın neft strategiyasını yaratdıq. Bilirsiniz ki, 1994-cü ildə Azərbaycan böyük bir müqavilə imzaladı və o müqavilə ilə Azərbaycanın Xəzər dənizindəki neft yataqlarının – «Azəri», «Çıraq», «Günəşli» yataqlarının 11 şirkətlə birlikdə işlənilməsinə başladıq. Bu, dünyada çox böyük əks-səda yaratdı və buna «Əsrin müqaviləsi» adı verdilər. Biz bu işə başladıq. Biz artıq 1997-ci ildə neft hasil etdik. İndi onu Bakı–Supsa neft borusu ilə Qara dəniz sahilinə, Gürcüstanın Supsa limanına, bir də Rusiyanın Novorossiysk limanına ixrac edirik.

Ancaq biz o vaxt müqaviləni imzalayanda əsas ixrac borusu kimi Bakı–Ceyhanı nəzərdə tutmuşduq. Ötən illərdə biz bu barədə işlər görmüşük. Bilirsiniz ki, artıq bütün anlaşmalar imzalanıbdır və Bakı–Tbilisi–Ceyhan neft borusunun indi inşası başlanır. Yəqin ki, beş-altı ay layihə–mühəndis işləri gedəcək, ondan sonra inşaat başlayacaqdır. Dediyim həmin neft yatağından, yalnız oradan gələcəkdə 60 milyon ton neft hasil olunub ixrac ediləcəkdir.

Türkiyə bu məsələdə həmişə bizimlə bərabər olubdur. Birincisi, Bakı–Ceyhan neft borusu həm iqtisadi nöqteyi-nəzərdən, həm də siyasi nöqteyi-nəzərdən Türkiyə üçün də, bizim üçün də önəmli olubdur. Çünki bu amillər strateji

nöqteyi-nəzərdən bir-birinə bağlı olubdur. Amma birinci müqavilə imzalananda orada Türkiyənin payı çox az idi – 1,75 faiz. Sonra Türkiyə dedi ki, bizim payımızı artırın. Hörmətli xanım Tansu Çillər mənə o vaxtlar bu barədə müraciət etdi, heyət göndərdi. Mən qərar qəbul etdim, Azərbaycanın payından 5 faiz Türkiyəyə verdik.

Amma bununla da iş bitmədi. Sonra ikinci müqavilə. «Şahdəniz» yatağı var. Biz bilirdik ki, orada çoxlu qaz ehtiyatı var, amma bu qədər olduğunu bilmirdik. Bir müqavilə imzaladıq. Mən onda Türkiyəni dəvət etdim. Dedim, gəlin burada sərmayə qoyun, 10 faiz də siz götürün. Həmin o müqavilədə Türkiyənin 10 faiz payı var. Ondan sonra yenə iki müqavilədə Türkiyənin böyük payı var. 1994-cü ildə olan 1,75 faiz paydan mən Türkiyənin payını 35 faizə qaldırdım. İndi «Türk petrolları» Azərbaycanda işləyən böyük bir neft şirkəti olubdur.

Türkiyə Azərbaycana təxminən 460 milyon dollara qədər sərmayə qoyubdur. Amma birinci müqavilədəki həmin 6,75 faiz payından 160 milyon dollar gəlir alıbdır. Biz hələ təzə-təzə gəlir almağa başlamışıq və gəlir alınacaqdır.

Beləliklə, indi Azərbaycanda neft strategiyası çox yüksəklərə qalxıbdır. 20 müqavilə imzalanıbdır. Bunların hamısı üçün təxminən 60 milyard dollar sərmayə qoyulacaqdır və nə qədər neft, nə qədər qaz alınacaq – indi bunu demək mümkün deyildir. Çünki əgər biz «Şahdəniz» yatağından təxminən 400 milyard kubmetr qaz almaq istəyirdiksə, indi onun ehtiyatı 1 trilyon kubmetrdən artıq olubdur. Ona görə də indi Azərbaycan təkcə neft yox, həm də təbii qaz ölkəsidir.

Biz düşündük, bu qazı nə edək? Qazı da Türkiyəyə ixrac etmək lazımdır. Çünki birincisi, Türkiyənin buna ehtiyacı var, ikincisi, «Şahdəniz» yatağında Türkiyənin payı var. Ona görə də Türkiyəyə ixrac etmək lazımdır. Mən məmnunam ki, bizim apardığımız işlər artıq sona çatdı. Biz dünən anlaşma imzaladıq. Həm hökumətlərarası anlaşma, həm də alqı-satqı

haqqında anlaşma ki, Azərbaycanın qazı yenə də Gürcüstan üzərindən Türkiyəyə gələcəkdir. İlkin anlaşmaya əsasən, 6 milyard kubmetr qaz gələcəkdir. Amma sonra bunu 15–20 milyard kubmetrə qaldırmaq olar.

Mənə vaxtilə deyirdilər ki, Türkiyənin 50 milyard kubmetr qaza ehtiyacı var. İndi bunun böyük bir hissəsini Azərbaycan təmin edəcəkdir. Təbiidir ki, Azərbaycan bundan gəlirlər götürəcəkdir. Türkiyə özünə məxsus paydan gəlirlər götürəcəkdir. Amma eyni zamanda Türkiyənin ehtiyacları təmin olunacaqdır. Bu bizim neft strategiyamızın nəticəsidir və Azərbaycana artıq son beş ildə təxminən 6 milyard dollar sərmayə qoyulubdur. Bilirsiniz, bəlkə sizin üçün 6 milyard dollar bir şey deyildir. Çünki sizin ölkəniz böyükdür. Əgər bizim büdcəmiz 850 milyon dollardan ibarətdirsə, təsəvvür edin, 6 milyard dollar sərmayə Azərbaycan üçün nə qədər böyük bir işdir! Bunun 50 faizi enerji sektoruna qoyulubdur. Amma 50 faizi isə başqa sektorlara qoyulubdur.

Bizim iqtisadiyyatın inkişaf etdirilməsində islahatların mühüm rolu oldu. Biz torpaqları kəndlilərə payladıq. İndi kənd təsərrüfatı məhsulları sahəsində – ət, süd, yağ – bizim problemimiz yoxdur. Kəndli özü bilir nə edir və məhsul da artır. Özəlləşdirmə keçirdik. Bütün ticarət özəlləşdirildi. Başqa sahələrin çoxu özəlləşdirildi. İndi böyük fabriklər, zavodlar özəlləşdiriləcəkdir.

İndi Azərbaycanda ticarətin 98 faizi özəl sektora məxsusdur. Kənd təsərrüfatı istehsalının 98 faizi özəl sektordadır. Sənaye istehsalının 40 faizi özəl sektordadır. Nəqliyyatda yük daşımalarının təxminən 60 faizi özəl sektordadır. Biz birinci beş ili itirdik, çünki bu işləri görə bilmədik. Amma son beş il içərisində irəlilədik və bunun nəticəsində bizim iqtisadiyyatımız inkişaf etdi.

Məsələn, keçən ilin, 2000-ci ilin göstəricilərini götürsək, ümumi daxili məhsul 11 faiz artıbdır. O cümlədən kənd təsər-

rüfatı məhsulları istehsalı 9 faiz, sənaye istehsalı təxminən 6 faiz artıbdır. Əgər keçmişdə istehsal ildə 20–25 faiz azalırdısa, indi biz beş ildir ki, onu ilbəil artırırıq. Amma Azərbaycanın potensialı böyükdür. Əgər biz torpaqlarımızı işğaldan azad etsək, bir milyon qaçqını, köçkünü yerlərinə qaytara bilsək və bu müharibə şəraitindən qurtula bilsək, Azərbaycanın iqtisadiyyatı çox inkişaf edəcəkdir. Türkiyənin yaxın dostu, qardaşı kimi, Azərbaycan bütün sahələrdə daim Türkiyə ilə bir olacaqdır, əlaqədə olacaqdır.

Türkiyə–Azərbaycan Müştərək İqtisadi Əlaqələr Komissiyası var. Mən o komissiyaya daxil olan nazirlərin hamısını buraya gətirmişəm. Onlar bu gün səhər böyük bir toplantı keçirdilər. Aldığım bilgilərə görə, çox yaxşı toplantı olubdur. Sabah İstanbulda iş adamları ilə görüşəcəklər. Orada da bizim iqtisadi əlaqələrin, yəni özəl sektorla olan iqtisadi əlaqələrin nə yolla, nə cür inkişaf etdirilməsi məsələlərinə baxacaqlar.

Ancaq mənim sizə dediklərim həyatımızın müsbət cəhətləridir. Amma mənfi cəhətlər də çoxdur. Ən mənfisi odur ki, biz hələ ki, insanların hamısının yaşayışını lazımi səviyyəyə qaldıra bilməmişik. Bizdə yoxsullar da, çox ağır maddi vəziyyətdə yaşayan insanlar da var. Bazar iqtisadiyyatı eyni zamanda bizim cəmiyyətdə təbəqələşdirmə əmələ gətiribdir. Bəziləri zənginləşib, bəziləri orta səviyyədə yaşayır. Amma bəziləri çox ağır vəziyyətdə yaşayırlar. Bizim qarşımızda duran vəzifə bu məsələni həll etməkdir. İnanıram ki, biz bunları edirik və edəcəyik.

Biz bütün əlaqələrimizdə Türkiyə ilə birlikdəyik. Türkiyə bizim üçün həm dostdur, həm qardaşdır, həm dayaq nöqtəsidir, həm də arxadır. Bilirsiniz ki, bizim Qafqaz bölgəsində vəziyyət çox da yaxşı deyildir. Çünki biz, Azərbaycan qonşu Ermənistanla savaşdayıq. Digər qonşularımızla münasibətlərimizdə çox problemlər var. Ona görə dünyada bizim bir

nömrəli müttəfiqimiz, bir nömrəli dostumuz Türkiyədir. Bizim Türkiyənin köməyinə ehtiyacımız var. Yəni iqtisadi nöqteyi-nəzərdən bizim problemimiz yoxdur. Bu işlər ilbəil gedir və gedəcəkdir. Ancaq siyasi nöqteyi-nəzərdən, strateji nöqteyi-nəzərdən və Ermənistan–Azərbaycan münaqişəsinin həll olunması baxımından Türkiyənin yardımına çox ehtiyacımız var. Mən dünən də, bu gün də apardığım danışıqlarda vəziyyəti açıq şəkildə dedim.

Mən son dəfə Parisdə Ermənistan prezidenti ilə görüşdüm. Sonra biz – Şirak, Köçəryan və mən birlikdə görüşdük, bəzi variantlara baxdıq. Amma biz o variantların heç birisini qəbul edə bilmirik. Bu təkcə Azərbaycan üçün deyil, Türkiyə üçün də böyük təhlükədir, bütün Qafqaz üçün də təhlükədir. Ona görə də Minsk qrupunun üzvü kimi, eyni zamanda bizim dostumuz, qardaşımız kimi, Türkiyə ilə birgə fəaliyyətdə olmalıyıq.

Bəzi ölkələrin onlara etdiyi yardıma, dəstəyə görə, diasporunun güclü olduğuna görə, son vaxtlar ermənilər – bizdə bir söz var – artıq çox qudurublar. Bilmirəm, sizdə bu söz var, yoxsa yox?

**Yerdən səslər:** Bəli, var.

**Heydər Əliyev:** Var. Məsələn, Fransanın parlamentində Türkiyənin onlara qarşı «soyqırımı» haqqında qərar çıxarıblar. Yaxud da, Amerikanın parlamentində Klintonun dövründə bu məsələ irəliyə gedirdi. Hakimiyyət dəyişdiyinə görə bir az dayandı. Başqa ölkələrin, İtaliyanın parlamentində qərar çıxarıblar. Biz bunların hamısına etirazımızı bildirmişik. Mən hər dəfə bəyanatlar vermişəm. Azərbaycanın parlamenti – Milli Məclisi bəyanatlar veribdir. Fransanın son qərarı bizi çox hiddətləndirdi, narahat etdi. Ona görə də biz bəyanatlar verdik, etirazımızı bildirdik.

Mən Parisdə olarkən Fransanın prezidenti Jak Şirakla təkbətək görüşəndə ona öz etirazımı bildirdim. Dedim, siz nə

edirsiniz, bunu nə üçün edirsiniz? Sonra mətbuat konfransında ona sual verdilər. O da dedi ki, prezident Heydər Əliyev bu barədə öz narazılığını, narahatlığını, etirazını mənə bildiribdir. Ancaq bu təkcə məndən asılı olan bir şey deyildir, parlamentin işidir, filandır. Doğrudan da o mənə təkbətək görüşdə deyib ki, 20 ildir Türkiyənin dostuyam. Bu mənim əlimdən gəlmir, yəni bunun qarşısını ala bilmirəm. Nə qədər səmimidir, səmimi deyil, bilmirəm. Amma o bu sözləri mənə dediyinə görə, mən də sizə çatdırıram. O bu sözləri mənə deyibdir.

Məsələn, Strasburqda biz Avropa Şurasına qəbul olunanda orada soyqırımı haqqında sual verdilər. Sualı Azərbaycan qəzetçisi vermişdi. Köçəryan buna anlaşılmaz cavab verdi. Mən isə dedim, Fransa böyük dövlətdir, istədiyi qərarı çıxara bilər. Amma Türkiyə də böyük dövlətdir. İndiki zamanda heç bir dövlətin başqa dövlətin daxili işlərinə qarışmaq haqqı yoxdur. Fransa bunu nə üçün edir? Fransa beynəlxalq hüquq normalarını pozur. Mətbuat konfransında Köçəryan dedi ki, biz indi Avropa Şurasındayıq, demokratiyadayıq. Ona görə bu mümkündür.

Mən ona cavab verdim, dedim ki, bilirsiniz, birincisi, mümkün deyildir. İkincisi, əgər siz hesab edirsiniz ki, 85 il bundan öncə guya Türkiyə ermənilərə qarşı soyqırımı edibdir – amma etməyibdir – o vaxt nə Avropa Şurası var idi, nə də demokratiya var idi. O vaxt olan şeyləri bu günün meyarları ilə ölçmək olmaz. Mən ona belə cavab verdim. Yəni biz Türkiyənin yanındayıq, Türkiyə ilə bir yerdəyik. Amma eyni zamanda mən bunu da bildirmək istəyirəm ki, bu qərarların Türkiyə üçün heç bir təhlükəsi yoxdur. Heç narahat olmayın. Türkiyə böyük dövlətdir. Türkiyənin güclü ordusu var.

Bilirsiniz ki, 1921-ci il Qars anlaşması var, onu Rusiya, Türkiyə, Azərbaycan, Gürcüstan və Ermənistan imzalayıblar və o anlaşmanın 80 ili tamam olur. Bu gün mənə məlumat

veriblər, Ermənistanda bəzi daşnaklar məsələ qaldırırlar ki, Qars anlaşmasını ləğv etmək lazımdır. Türkiyənin doğu hissəsi Ermənistanındır, Ermənistana verilməlidir. Naxçıvan Ermənistana verilməlidir və sair. Yəni onlar bəzi yerlərdən dəstək aldıqlarına görə bu cür yollara gedirlər. Belə bir zamanda biz daha da birləşməliyik, daha da bir yerdə olmalıyıq, bunların hamısına lazımi cavablar verməliyik.

Biz hesab edirik ki, ermənilərə qarşı heç bir soyqırımı olmayıbdır. Amma ermənilər həm Türkiyədə, həm də Azərbaycanda soyqırımı ediblər. 1918-ci ildə ermənilər Azərbaycanda azərbaycanlıları qırırdılar. Əgər o vaxtlar Kazım Qarabəkir Paşa Naxçıvana gəlməsəydi, Türkiyənin Qafqaz ordusu Bakıya gəlməsəydi, bəlkə də ermənilər azərbaycanlıların hamısını soyqırımı ilə yox edəcəkdilər. Həqiqət budur. Gəlin biz açıq danışaq. Biz bu tarixi dünyaya çatdıra bilmirik. Amma onlar edirlər.

İndi dost söhbəti edirik, bəlkə də sizin vaxtınızı alıram. Məsələn, Şirak mənə nə dedi? Dedi ki, bilirsiniz, burada, Fransada 600–700 min erməni yaşayır. Onlar Fransa parlamentinin qarşısında çadır qurublar, oraya gələn parlament üzvlərini o çadıra dartırlar. Onlar da kimlərdən səs almaq istəyirlərsə – bu yaxınlarda seçki olacaqdır – o adamlarla danışırlar. Sonra da gedib «soyqırıma» səs verirlər. Ancaq o mənə dedi ki, Fransada çoxlu türk də vardır, olduqca çoxdur. Amma türklər heç bir şey etmirlər.

Amerikada erməni diasporu var. Görürsünüz, onlar hər dəfə həm Azərbaycan, həm də Türkiyə məsələsini Konqresdə qaldırırlar. Amma Amerikada nə qədər türk var. Bəs niyə birləşmirlər? Bizim xalqlarımızın bir çatışmayan cəhəti ondan ibarətdir ki, gücümüzü birləşdirmirik. Biz bu məsələlərdə irəliyə düşmürük. Onlar isə irəliyə düşür və dünyanı, ictimaiyyəti aldadırlar.

Amma bunlara baxmayaraq, hesab edirəm ki, haqq-ədalət bizim tərəfimizdədir. Türkiyənin tərəfindədir, Azərbaycanın tərəfindədir və bundan sonra da belə olacaqdır. Sadəcə, biz bu hadisələrdən dərs almalıyıq. Bu hadisələrdən nəticə çıxarmalıyıq və gücümüzü artırmalıyıq, təbliğatımızı artırmalıyıq və dövlətlərimizi qorumalıyıq. Burada yenə də Türkiyə, Türkiyə, Türkiyə öndədir.

Əziz dostlar!

Biz Azərbaycanda türkdilli dövlətlərin tarixinə, Türkiyənin tarixinə, Azərbaycan–Türkiyə əlaqələrinin tarixinə böyük əhəmiyyət veririk. Xüsusən böyük Atatürkün irsinin öyrənilməsinə, araşdırılmasına, elmi cəhətdən tədqiq edilməsinə çox böyük önəm veririk. Təbiidir ki, bu barədə Türkiyədə çox işlər görülübdür. Amma hesab edirəm ki, böyük Atatürkün yaratdığı və bugünkü nəsillərə, gələcək nəsillərə qoyduğu irs elə böyük xəzinədir ki, bu araşdırmalar hələ yüz il bundan sonra da getsə, onun hamısını elm, kitab vasitəsilə, başqa yollarla meydana çıxarmaq mümkün olmayacaqdır. Ona görə də mən fərman vermişəm və Azərbaycanda Atatürk irsinin və türk xalqlarının tarixinin araşdırılması üçün yeni bir mərkəz yaratmışam. Bu mərkəzin fəxri prezidenti Azərbaycan prezidentidir.

Güman edirəm ki, biz bu sahədə də imkanlarımızı birləşdirməliyik.

Azərbaycanda çox böyük alimlər var, Türkiyədə çox böyük alimlər var. Onlar öz səylərini, güclərini birləşdirməlidir. Biz bundan sonra da Türkiyənin, Azərbaycanın tarixi, türkdilli dövlətlərin tarixi haqqında və xüsusən, Atatürkün irsi haqqında daha böyük əsərlər yaradıb bugünkü nəsillərə və gələcək nəsillərə çatdırmalıyıq.

Əziz dostlar!

Mən çox məmnunam ki, bu gün mənə bu kürsüdən xitab etmək nəsib olubdur. Bu mənim üçün ən xoşbəxt günlərdən,

dəqiqələrdən biridir. Çünki Türkiyənin Böyük Millət Məclisi keçmişdə də bizim hafizəmizdə ən yüksək bir qurum kimi qalıbdır. Mən gənc vaxtlarımda Türkiyənin Böyük Millət Məclisi haqqında kitablarda oxuyurdum. Heyranlıqla oxuyurdum, eyni zamanda düşünürdüm – ya rəbb, mən nə vaxtsa bunu görəcəyəm, yoxsa yox? Amma mən bunu gördüm. 1997-ci ildə mən burada, sizin qarşınızda xitab etdim. İndi mənə siz yenə bu imkanı verdiniz. Bunlara görə təşəkkür edirəm.

Bizim parlamentlərarası əlaqələr inkişaf etməlidir. Biz bu barədə hörmətli sədrlə söhbət etdik. Mən onu və Böyük Millət Məclisinin nümayəndə heyətini Azərbaycana dəvət etdim. Azərbaycan Milli Məclisinin sədri də buraya dəvət olunubdur. O da gələcəkdir. Yəni bu imkanlardan da istifadə etmişik və istifadə edəcəyik.

Bir sözlə, Türkiyə–Azərbaycan dostluğu əbədidir, sarsılmazdır. Azərbaycan xalqı bu dostluğu, bu qardaşlığı yüksək qiymətləndirir və bunu özü üçün ən önəmli bir hal hesab edir. Biz bu dostluğa sadiq olacağıq. Biz həmişə sizinlə bir yerdə olacağıq. İnanıram ki, siz də həmişə Azərbaycanla bir yerdə olacaqsınız, Azərbaycanın təklənməsinə yol verməyəcəksiniz. Azərbaycanın ağır problemlərinin həlli, xüsusən Azərbaycanın Ermənistan işğalından qurtulması üçün öz imkanlarınızdan istifadə edəcəksiniz. Mən sizə bir daha təşəkkür edirəm və deyirəm:

Yaşasın Türkiyənin Böyük Millət Məclisi!

Yaşasın Türkiyə Cümhuriyyəti!

Yaşasın böyük Atatürkün yolu ilə gedən türk xalqı, Türkiyə Cümhuriyyəti!

# TÜRKİYƏNİN KEÇMİŞ PREZİDENTİ SÜLEYMAN DƏMİRƏL İLƏ GÖRÜŞDƏ SÖHBƏT

*Ankara,*
*Azərbaycan prezidentinin iqamətgahı –*
*Camlı köşk*

*13 mart 2001-ci il*

**Heydər Əliyev:** Əziz dostum, qardaşım, xoş gördük Sizi.

**Süleyman Dəmirəl:** Hörmətli Prezident, Siz öz vətəninizə xoş gəlmisiniz. Türkiyəyə Sizin rəsmi səfəriniz ölkəmizdə böyük rəğbət doğurmuşdur. Türkiyə Böyük Millət Məclisindəki nitqinizdə Siz bölgədəki coğrafi-siyasi vəziyyətə son dərəcə gözəl təhlil verdiniz, onun parametrləri və Azərbaycan–Türkiyə əlaqələrinin daha da genişləndirilməsi haqqında öz dəyərli fikirlərinizi bildirdiniz.

Azərbaycan və Türkiyə bir millət, iki dövlətdir. Xalqlarımızın dostluğu əbədidir və bu dostluğu heç bir şey poza bilməz. Cənab Prezident, Türkiyə parlamentində söylədiyiniz nitqinizdə bu barədə fikirlərinizi eşitmək məni hədsiz məmnun etdi.

Çox təəssüf ki, Azərbaycanın da, Türkiyənin də bir sıra çətinlikləri vardır. Bu çətinliklərin bir qismi tarixi, digər qismi isə coğrafi səbəblərdən, qalan hissəsi isə gündəlik həyatdan irəli gəlir. Amma mən əminəm ki, biz bu çətinlikləri birlikdə aradan qaldıra biləcəyik.

Cənab Prezident, mən bu gün Sizi təkrarən Ankarada görməkdən çox məmnunam. Sizin əvvəlki söhbətlərinizdə də dediyiniz kimi, qarşılıqlı rəsmi səfərlərin müntəzəm davam etdirilməsi vacibdir. Azərbaycanın sevinci bizim sevincimizdir, məlalı bizim məlalımızdır.

Cənab Prezident, bir daha bildirirəm ki, bu gün Siz Türkiyə Böyük Millət Məclisində çox dəyərli bir nitq söylədiniz, bir sıra məsələləri çox gözəl anlatdınız. Türkiyə vətəndaşlarına müraciətlə dediyiniz sözlər də çox dəyərli idi.

Böyük Mustafa Kamal Atatürkün yaratdığı Türkiyə Cümhuriyyəti çox çətin mərhələlərdən keçmişdir, indi böyük inkişaf yolu ilə gedir.

Türkiyə Cümhuriyyəti yeni müstəqillik qazanmış türkdilli ölkələrin müstəqilliyinin əbədi olacağına əmindir. Türk dünyasında altı yeni dövlətin bayraqları dalğalanır. Bu isə bizdə böyük qürur doğurur.

Cənab Prezident, Sizin müdrik rəhbərliyinizlə Azərbaycan böyük uğurlar qazanır. Mən Sizin ölkənin son dövrdəki iqtisadi göstəricilərinə bir daha nəzər saldım. Azərbaycan böyük inkişaf yolundadır və bu məni çox məmnun edir. Hazırda Azərbaycanda ictimai-siyasi vəziyyət sabitdir. Bu məni çox sevindirir. Dünyanın bir çox ölkələrinin iş adamları Azərbaycana sərmayə qoyurlar. Əminəm ki, qarşıdakı illərdə Azərbaycan daha böyük uğurlara nail olacaqdır. Azərbaycanın Avropa Şurasına tamhüquqlu üzv qəbul olunması tarixi bir hadisədir.

Mən əziz dostumu, böyük, qardaş dövlətin müdrik rəhbərini Ankarada qarşılamaqdan hər zaman duyduğum sevinci bu gün bir daha təkrar duyuram. Türkiyəyə xoş gəlmisiniz!

**Heydər Əliyev:** Əziz dostum, qardaşım. Səmimi sözlərə görə Sizə təşəkkürümü bildirirəm. Mən də Türkiyə üçün, xüsusən də Sizi görmək üçün çox darıxmışdım. Mən bu gün Böyük Millət Məclisindəki nitqimdə dedim ki, Türkiyəyə hər

dəfə gəlmək bizim üçün böyük bir sevincdir, böyük xoşbəxtlikdir.

Əziz dostum, son illər Azərbaycanda sizin köməyinizlə çox işlər görülmüşdür. Türkiyə ilə Azərbaycan arasında bütün sahələrdə sıx əlaqələr yaranmasında Siz böyük xidmətlər göstərmisiniz. Azərbaycan xalqı bunu heç vaxt unutmur və unutmayacaqdır. Siz mənim əbədi dostumsunuz.

Böyük Millət Məclisindəki nitqimə və Azərbaycanın bugünkü durumuna verdiyiniz qiymət, respublikamızın 2000-ci ildə əldə etdiyi nailiyyətlər haqqında dediyiniz sözlər, təbiidir ki, məni daha da ruhlandırır. Bütün bunlar məni daha da həvəsləndirir ki, daha da çox işlər görək. Siz yaxşı bilirsiniz ki, bundan da çox nailiyyətlər əldə etməyə imkanlarımız vardır. Biz sizinlə bu barədə dəfələrlə danışmışıq, söhbət etmişik.

Mən bu gün Böyük Millət Məclisində dedim, indi bir daha qeyd edirəm ki, Türkiyə–Azərbaycan dostluğu əbədidir. Onu heç bir şey ilə qırmaq olmaz. Azərbaycanın müstəqilliyi, istiqlaliyyəti əbədidir. Bu müstəqilliyi heç bir qüvvə sarsıda bilməz. Biz bu müstəqilliyi möhkəmləndirmişik. Bu ilin sonunda müstəqilliyimizin 10 illiyini qeyd edəcəyik. Tarixi nöqteyi-nəzərdən 10 il o qədər də çox bir zaman deyildir. Amma bu 10 ildə dünyada, bizim bölgədə və Azərbaycanda nələr olduğunu bir-birinin üstünə qoysaq, ötən 10 il böyük bir tarixdir. Biz bu tarixi yaşamışıq. Bu tarixin acılarını da, çətinliklərini də yaşamışıq, amma xoş günlərini də görürük. Lakin bilirsiniz ki, problemlərimiz də vardır və biz bu problemlərin aradan qaldırılmasına çalışırıq və çalışacağıq.

Siz həm Baş nazir, həm də prezident olduğunuz zaman Azərbaycana çox yardımlar etmisiniz. Biz Sizinlə çox sıx əməkdaşlıq etmişik. Xalqımız, dövlətimiz, millətimiz Sizi bu gün də sevir. Ona görə də bu gün Türkiyədə Sizinlə bir daha görüşmək mənim üçün böyük bir xoşbəxtlikdir. Güman edirəm, vaxt tapıb Azərbaycana da gələcəksiniz, biz orada da

görüşəcəyik. Çünki əlaqələrimiz olmayanda, görüşə bilməyəndə darıxıram. Allaha şükürlər ki, qismət oldu, mən buraya gəldim və bu axşam Sizinlə bir yerdəyik. Məndən Nəzmiyyə xanıma da salam söyləyin.

**Süleyman Dəmirəl:** Əziz dostum, Siz mənə çox böyük şərəf verdiniz. Nəzmiyyə xanımın da Sizə çox böyük salamları vardır.

**Heydər Əliyev:** Xahiş edirəm, mənim hörmət və ehtiramımı Nəzmiyyə xanıma bildirəsiniz. Əmin olun ki, Azərbaycan Sizi sevib, bu gün də sevir, gələcəkdə də sevəcəkdir.

* * *

*Səmimilik və mehribanlıq şəraitində keçən görüşdə Ermənistan–Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin sülh yolu ilə həlli istiqamətində aparılan danışıqlar, bölgədə vəziyyət barədə ətraflı fikir mübadiləsi aparıldı.*

*Cənab Süleyman Dəmirəl görkəmli dövlət xadimi Heydər Əliyevin müdrik rəhbərliyi ilə Azərbaycanın əldə etdiyi uğurlara ürəkdən sevindiyini bir daha nəzərə çatdırdı. O, əmin olduğunu bildirdi ki, Ermənistan–Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi prezident Heydər Əliyevin uzaqgörən siyasəti sayəsində öz həllini tapacaqdır.*

*Görüşdə Azərbaycan–Türkiyə strateji tərəfdaşlıq əlaqələrinin perspektivləri, hər iki ölkəni maraqlandıran bir sıra digər məsələlər barədə də söhbət getdi.*

## AZƏRBAYCAN RESPUBLİKASININ PREZİDENTİ HEYDƏR ƏLİYEVİN İSTANBULA SƏFƏRİ

*14 mart 2001-ci il*

*Azərbaycan prezidenti Heydər Əliyev Ankarada «Etimesqut» hərbi təyyarə meydanına gəldi.*

*Azərbaycan Respublikasının prezidenti Heydər Əliyev və Türkiyə Cümhuriyyətinin prezidenti Əhməd Necdət Sezər buradan xüsusi təyyarə ilə İstanbula yola düşdülər.*

*İstanbuldakı Atatürk hava limanının hərbi terminalında prezidentləri şəhərin rəhbərləri və digər rəsmi şəxslər qarşıladılar.*

*Dost ölkələrin dövlət başçıları onların şərəfinə düzülmüş fəxri qarovul dəstəsinin önündən keçdilər. Azərbaycan prezidenti Heydər Əliyev türk əsgərlərini «Mərhaba, əsgər!» sözləri ilə salamladı.*

*Prezident Heydər Əliyev və prezident Əhməd Necdət Sezər Türkiyə dövlət başçısının İstanbuldakı iqamətgahına – «Tarabya» kompleksinə gəldilər. Burada Türkyə prezidenti Əhməd Necdət Sezərin adından Azərbaycan prezidenti Heydər Əliyevin şərəfinə rəsmi nahar verildi.*

*Sonra hər iki qardaş ölkənin prezidentləri Türkiyə Respublikasının Hərbi Akademiya kompleksinə gəldilər. Burada Azərbaycan prezidenti Heydər Əliyevin və Türkiyə prezidenti Əhməd Necdət Sezərin şərəfinə fəxri qarovul dəstəsi düzülmüşdü. Fəxri qarovul dəstəsinin başçısı prezidentlərə raport verdi.*

*Azərbaycan prezidenti Heydər Əliyev türk əsgərlərini salamladı. Dövlət başçıları hərbi marşın sədaları altında fəxri qarovul dəstəsinin qarşısından keçdilər.*

*Azərbaycan Respublikasının prezidenti Heydər Əliyev və Türkiyə prezidenti Əhməd Necdət Sezər akademiyanın fəxri qonaqlar kitabını imzaladılar.*

*Akademiyanın rəhbərliyi prezident Heydər Əliyevə və prezident Əhməd Necdət Sezərə bu mühüm hərbi təhsil ocağı haqqında məlumat verdilər.*

*Dövlət başçıları sonra Türkiyə Respublikası Hərbi Akademiya komandanlarının hər il keçirilən konfransında iştirak etmək üçün akademiyanın konfrans salonuna gəldilər.*

*Prezident Heydər Əliyev və prezident Əhməd Necdət Sezər konfransda geniş nitq söylədilər.*

*Axırda Hərbi Akademiyanın rəhbərliyi adından Azərbaycanın və Türkiyənin dövlət başçılarına xatirə hədiyyələri təqdim olundu.*

**Heydər Əliyev:** Mən Sizə, akademiyanın rəhbərliyinə təşəkkür edirəm və Azərbaycan rəssamlıq sənətinin bir nümunəsini yadigar olaraq Hərbi Akademiyaya bağışlayıram. Bu, Bakının bir hissəsinin görüntüsüdür. Görürsünüz, Xəzər dənizidir, gözəl quşlardır, bu Qız qalasıdır. Rica edirəm, bunu qəbul edin və akademiyanın bir yerində yerləşdirin. Bu da Türkiyə–Azərbaycan münasibətləri haqqında bir kitabdır. Oxuyarsınız.

* * *

*Dövlət başçıları elə həmin gün axşam xüsusi təyyarə ilə Ankaraya qayıtdılar.*

*Azərbaycan prezidenti Heydər Əliyevi və Türkiyə prezidenti Əhməd Necdət Sezəri «Etimesqut» hərbi hava limanında Türkiyənin yüksək vəzifəli dövlət və hökumət nümayəndələri qarşıladılar.*

*Hava limanında fəxri qarovul dəstəsi düzülmüşdü. Prezident Heydər Əliyev və prezident Əhməd Necdət Sezər fəxri qarovul dəstəsinin qarşısından keçdilər.*

*Dövlət başçıları hava limanından Türkiyə prezidentinin iqamətgahına – Çankaya köşkünə yola düşdülər.*

# «SNN TÜRK» TELEVİZİYA KANALININ BAŞ DİREKTORU TAHA AKYOLA VERDİYİ MÜSAHİBƏ

*Ankara,*
*Azərbaycan prezidentinin iqamətgahı –*
*Camlı köşk*

*15 mart 2001-ci il*

**T a h a  A k y o l:** Cənab Prezident, bizi qəbul etdiyinizə görə təşəkkür edirəm. Siz Böyük Millət Məclisindəki nitqinizdə Türkiyədə özünüzü vətəninizdəki kimi hiss etdiyinizi söylədiniz. Türk xalqı Sizi ikinci bir Türkiyənin Cümhur başqanı kimi görür. Sizin dediyiniz kimi, «Biz bir millət, iki dövlətik». «Si-En-En Türk» televiziyasına müsahibə verməyə razı olduğunuz üçün Sizə dərin minnətdarlığımı bildirirəm.

Mən ilk sualımı Ermənistan – Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi ilə bağlı vermək istəyirəm. Bilirsiniz ki, bu sahədə bir canlanma vardır. Siz Azərbaycanın Avropa Şurasına üzv qəbul olunması münasibətilə Parisə getdiyiniz zaman prezident Jak Şirak ilə də görüşdünüz, bu məsələ barədə müzakirələr apardınız. Bundan sonra ABŞ-ın Xarici İşlər naziri Pauell Sizi Amerikaya dəvət etdi. Jak Şirakla və Köçəryanla görüşləriniz nə yerdə qaldı ki, Siz məhz bunun üçün Amerikaya gedəcəksiniz?

**H e y d ə r  Ə l i y e v:** Mən ən öncə bildirmək istəyirəm ki, Türkiyədə «Si-En-En» kanalı açılan zaman təbrik məktubu göndərmişdim və sizə uğurlar arzulamışdım. İndi çox sevinirəm ki, siz bu kanalda çox uğurla çalışırsınız. Sizin bütün

bu işlərinizin başında duran hörmətli Aydın Doğan böyük işlər görür. Ona görə də mən ona salamlarımı, ehtiramımı çatdırıram.

Türkiyənin Böyük Millət Məclisində millət vəkillərinə xitab etmək mənim üçün tarixi bir hadisədir. Çünki Böyük Millət Məclisinin nə qədər böyük həm tarixi, həm də əhəmiyyəti olduğunu orada söylədim. Bir neçə məsələlər haqqında danışdım. Ancaq indi bizi, Azərbaycanı, təkcə Azərbaycanı yox, Türkiyəni də, Qafqazı da ən çox narahat edən problem Ermənistan–Azərbaycan münaqişəsidir. Bu münaqişənin yaşı çoxdur. Artıq 12 ildir ki, ermənilər Azərbaycanın Dağlıq Qarabağ hissəsini əlinə keçirmək üçün təcavüzə başlayıblar və bu təcavüz nəticəsində müxtəlif səbəblərə görə ermənilər Azərbaycan torpaqlarının 20 faizini işğal ediblər. Bəli, ərazimizin 20 faizini işğal ediblər və işğal olunmuş yerlərdən bir milyondan artıq azərbaycanlı yerindən-yurdundan çıxarılıbdır, qaçqın olubdur və çadırlarda yaşayırlar.

**S u a l: Cənab Prezident, Siz bunları Jak Şiraka anladandan sonra o, bir söz demədimi?**

**C a v a b:** Mən bunu bütün dünyaya anlatmışam. Dünyada o yer yoxdur ki, bunu anlatmayam. Mənim Jak Şirakla görüşüm birinci dəfə deyildi. Mən onunla 15 dəfə görüşmüşəm və hər dəfə də ona anlatmışam.

**S u a l: Sizin Jak Şirakla son görüşünüz Fransa parlamentinin «erməni soyqırımı» barədə qərar qəbul etməsi baxımından da önəmli idi. Orada Ermənistanın daşnak cümhur başqanı Köçəryan da var idi. Siz bir milyon azərbaycanlının ermənilər tərəfindən silah gücü ilə yurdlarından didərgin salındığını söylədiyiniz zaman Jak Şirak heç bir şey demədi?**

**C a v a b:** Bilirsiniz, onlar artıq buna öyrəşiblər. Dünyada ikili standartlar var. Ona görə də bir yerdə hərəkəti qanuni hesab edirlər, digər yerdə yox. Məsələn, beynəlxalq hüquq var, bir dövlət o biri dövlətin torpağını işğal edə bilməz. Sər-

hədini poza bilməz, təcavüz edə bilməz. Hər bir dövlətin ərazi bütövlüyü Birləşmiş Millətlər Təşkilatı tərəfindən qorunur. Bunlar yazılıb, bütün sənədlərdə var, hər yerdə var, hamı bunu deyir. Amma hərə öz ölkəsi üçün bunu istifadə edir. Ona görə bu, Şirak üçün yeni bir şey deyildi.

**S u a l: Siz Şirakdan prinsipial mövqe – ikili standartlıq mövqeyi yox – yəni «Azərbaycana müdaxilə olmuşdur, Ermənistan təcavüzkardır» şəklində bir mövqe gördünüzmü?**

**C a v a b:** Bilirsiniz, mən bunu ona demişəm. Özü də Ermənistanın prezidenti Köçəryanın yanında demişəm. Ancaq onlar bu şeylərə fikir vermirlər. 1992-ci ildə Minsk qrupu yaranıbdır ki, Ermənistan–Azərbaycan münaqişəsi çözülsün. Minsk qrupunun üç həmsədri var – Rusiya, Amerika, Fransa.

Doğrudur, Minsk qrupuna 12 dövlət daxildir. O cümlədən Türkiyə də Minsk qrupunun üzvüdür. Amma Minsk qrupuna üç həmsədr rəhbərlik edir. Mən Klinton ilə bu barədə 7 il müzakirə aparmışam, 15-16 dəfə görüşmüşəm və bunların hamısını demişəm. Yaxud, Rusiyanın keçmiş prezidenti Yeltsinlə – ola bilər, sayını da itirmişəm – neçə dəfə görüşmüşəm. Yeni prezident Putinlə görüşmüşəm.

**S u a l: Cənab Prezident, Siz Amerikanın məsələyə bu qədər qatılmasını, diqqət yetirməsini, Pauellin xüsusi təşəbbüsü ilə Sizi Amerikaya dəvət etməsini necə qarşılayırsınız?**

**C a v a b:** Bilirsiniz, bu, yeni bir şey deyildir. Yəni mən Amerikada 1994-cü ildən başlayaraq həm Amerikanın prezidenti Klintonla, həm Xarici İşlər naziri Olbraytla və həm də digər adamlarla dəfələrlə görüşmüşəm və anlaşmalar imzalamışıq. Onlar hər dəfə deyiblər ki, bu məsələnin çözülməsinə yardım edəcəklər. Amma yardım etməyiblər. İndi mən belə hiss edirəm ki, Minsk qrupunun həmsədrləri bir az hərəkətə gəlmək istəyirlər. Yəni prezident Şirak apardığı danışıqları həm prezident Buşla, həm də prezident Putinlə telefonla məsləhətləşibdir. Mən də, Köçəryan da Fransada olduq. Əgər

Pauell dəvət edibsə... Doğrudan, mən burada səfərdə olmuşam, hələ eşitməmişəm, amma birinci məlumatı siz vermisiniz. Ancaq bilirəm ki, onlar hazırlaşırdılar.

**S u a l: Cənab Prezident, aprelin 3-də Floridada Sizin və Köçəryanın bir araya gəlib Qarabağ məsələsinin həll edilməsi üçün uzun məsafə qət edərək Amerikaya gedəcəyinizdən məmnun oldunuzmu?**

**C a v a b:** Mən məmnunam. Mən hər bir fürsətə məmnunam. Hər bir fürsət mənə imkan verir ki, Azərbaycana təcavüz olunması haqqında fikirlərimi çatdırım. Amerikada indi yeni hökumətdir, yeni prezidentdir. Yeni adamlardır, onlar da bilməlidirlər. Amma hamısının bir fikri var: Ermənistan və Azərbaycan prezidentləri bir araya gəlsinlər, bir şeylə razılaşsınlar, ikisi də nəyi qəbul etsə, Amerika da, Fransa da, Rusiya da onu qəbul edəcəkdir. İş bundadır ki, Ermənistan Azərbaycanın torpaqlarını işğal edibdir. Ona görə də o bizim qarşımıza şərtlər qoyur. Mən o şərtləri qəbul edə bilmirəm. İndi görək Amerikada bu şərtlər nə olacaq, biz o şərtlərin hansını qəbul edə bilərik, hansını onlar qəbul edə bilər.

**S u a l: Cənab Prezident, Siz Köçəryanla görüşlərinizdə hər hansı modellər üzərində dayanırsınızmı?**

**C a v a b:** Bir neçə model olubdur. Hətta 1999-cu ildə, hesab edirəm ki, biz normal model üzərində razılaşdıq. Amma 1999-cu ilin sonunda Köçəryan bundan qaçdı.

Bəli, 1998-ci ildə Minsk qrupunun bir təklifi var idi, Ter-Petrosyan onu qəbul etmişdi. Amma Ter-Petrosyanın ətrafında olanlar onun əleyhinə qalxdılar və o, istefa verdi.

**S u a l: Qarabağ məsələsi ilə, Qafqaz və enerji məsələləri ilə bağlı şəxsən Siz çox təcavüzlərə məruz qaldınız. Sizi çevrilişlə devirmək istədilər, sui-qəsdlə rastlaşdınız. Sonra anlaşıldı ki, Moskva Yeltsinin zamanında Ermənistana bir milyard dollarlıq silah yardımı etdi. Rusiyanın yeni lideri Putin gəlib Sizinlə**

**görüşdü. Rusiyanın mövqeyində bir dəyişiklik görürsünüzmü? Rusiya Azərbaycana yaxınlaşırmı?**

**C a v a b:** Bilirsiniz, Rusiya Azərbaycana yaxınlaşmaq istəyir. Çünki Azərbaycan öz coğrafi-strateji vəziyyətinə görə, öz potensialına görə Qafqazda xüsusi yer tutur. Ona görə də Rusiya istəyir ki, Azərbaycan ilə əlaqələri yaxşı olsun, daha da yaxşı olsun.

Ermənistana bir milyard dollar dəyərində silah vermişdilər. Satmamışdılar, onlara vermişdilər. Mən bunu ilk dəfə 1997-ci ilin mart ayında Yeltsinə deyəndə, o hirsləndi ki, bunu edəcəyəm, onu edəcəyəm, filan edəcəyəm, asacağam, kəsəcəyəm. Amma üç aydan sonra mən onunla görüşdüm. Gördüm o başqa bir hava çalır. Biz belə deyirik, başqa bir mahnı oxuyur. Ondan sonra biz bir neçə dəfə səylər göstərdik.

Putin prezident oldu. Putin mənə dedi ki, bu işi çox yaxşı bilir, necə olduğunu bilir. Putinin belə bir fikri var idi ki, bir iş görsün. Amma orada ordu var, filan var. Sonra Putin dedi ki, artıq bu, arxada qaldı. Mən tələb edirdim ki, siz o silahları geri alın. Amma o dedi ki, artıq o silahları geriyə almaq mümkün deyildir, silahlar haradadır, heç biz də bilmirik.

**S u a l: Hörmətli Cümhur başqanı, Rusiyanın bugünkü lideri Putin Azərbaycana yaxınlıq göstərir. Təbii ki, bunun da Qafqaz, enerji, təbii qaz, neft boru xətləri ilə bağlı səbəbləri var. Eyni zamanda da Ermənistanın Xarici İşlər naziri Oskanyan demişdir ki, biz Rusiya ilə strateji ittifaq yaratmışıq. Rusiyanın bu mövqeyi Sizi təmin edirmi? Rusiya Ermənistanla Azərbaycan arasında bitərəf mövqe tutaraq məlum problemi, münaqişəni həll etməyə çalışırmı?**

**C a v a b:** Rusiyanın Ermənistanla hərbi ittifaq yaratmasına biz etiraz edirik. Mən bunu dəfələrlə söyləmişəm. Rusiyanın Ermənistanda hərbi bazalar, əsgəri hissələr saxlamasına biz etiraz edirik. Mən bunu Putindən öncə Yeltsinə də demişəm, Putinə də demişəm.

**S u a l: Bu etirazınızı söyləyəndə Putin nə dedi?**

**C a v a b:** Bilirsən, onların hamısı bir şey deyir. Deyirlər ki, bunlar Azərbaycana qarşı deyildir. Deyirəm, bəs kimə qarşıdır? Deyirlər ki, NATO-ya qarşıdır. Deyirəm, NATO haradadır? Deyirlər ki, NATO sizin Bakıda olan sərhədinizdədir. NATO Türkiyədədir. Bax, mən bu sözləri sizə açıq deyirəm. Çünki mən bunu dəfələrlə söyləmişəm.

**S u a l: Yeltsin və sonra Putin açıqca dedilər ki, Ermənistandakı rus əsgəri qüvvələri Türkiyədəki NATO-ya qarşıdır?**

**C a v a b:** Elədir.

**S u a l: Siz indi Ermənistanda həyata keçirilən siyasətin iki–üç il əvvəlki dövrlə müqayisədə gücləndiyini, yaxud zəiflədiyinimi görürsünüz?**

**C a v a b:** Ermənilər siyasətdə güclüdürlər. Çünki onların diasporu çox güclüdür. Onları dəstəkləyənlər güclüdür. İqtisadi cəhətdən Ermənistan çox pis bir haldadır. Oranın əhalisinin bir qismi Ermənistanı tərk edib gedibdir. Orada iqtisadi vəziyyət çox çətindir. Ona görə onlar da istəyir ki, bu problem çözülsün. Ermənistanı dəstəkləyən dövlətlər də istəyir çözülsün. Təkcə ona görə yox ki, Azərbaycanın işğal olunmuş torpaqları azad edilsin. Ona görə ki, Ermənistan boğulmasın. Ermənistan bir-iki ilə boğulacaqdır.

**S u a l: Həqiqətən, Ermənistan iqtisadi baxımdan çox pis vəziyyətdədir. Amma son vaxtlar bir təşəbbüs oldu. Ermənistan, İran və Yunanıstan arasında həm siyasi, həm də iqtisadi işbirliyi haqqında qərarlar var, onlar görüşdülər. Siz bunu necə qarşılayırsınız?**

**C a v a b:** Mən bunu necə qarşılaya bilərəm. Mən çox təəssüflənirəm ki, bizim yaxın qonşumuz İran Ermənistanla bu qədər geniş ticarət edir, geniş ilişkilər qurur.

**S u a l: Ermənistanın nəfəs borularından biri də İrandır...**

**C a v a b:** Bəli, Ermənistanın nəfəs borularından biri də İrandır. Keçmiş prezident Ter-Petrosyan bir dəfə demişdi ki,

əgər İran ilə ticarət əlaqələrimiz iki gün kəsilsə, biz boğulacağıq. O bunu demişdi. Tamamilə doğru deyirsən. Özü də ən böyük nəfəs borularından biridir. Ancaq onlar bunu edirlər.

İndi gördünüz, İranın prezidenti Moskvaya getdi. Bu, tarixdə birinci dəfə olan bir şeydir. Yəni 22 il bundan öncə ki, Xomeyni hakimiyyətə gəldi, indiyə qədər ilk dəfədir ki, İranın prezidenti Moskvaya getdi. Ondan öncə də şah bir dəfə getmişdi. Yəni İran ilə Rusiya arasında əlaqələr həmişə gərgin olmuşdur.

**S u a l: Cənab Prezident, anlayıram ki, İranın siyasəti, yəni həm Ermənistanı dəstəkləmək, həm də Rusiya ilə yaxın əlaqələr qurmaq siyasəti Sizi narahat edir. Elədirmi?**

**C a v a b:** Təbiidir ki, bu, narahat edir.

**S u a l: Bu il ərzində, yaxud önümüzdəki bir-iki il içərisində Qarabağ probleminin çözülməsinə, həll edilməsinə ümidiniz varmı?**

**C a v a b:** Bilirsiniz, mən həmişə ümidlə yaşayıram. Qaçqınlarla görüşürəm, mənim qəlbim ağrıyır. Təkcə görüşəndə yox, sizə səmimi deyirəm, gecələr yata bilmirəm. Çünki bir milyon insan çadırlarda, qarın, yağışın altında yaşayır. Ona görə də mən bu məsələni çözmək istəyirəm və bunun üçün də çalışıram. Mənim bütün çalışmalarımın, demək olar ki, 70 faizi bu məsələdən ötrüdür. Dünyada o təşkilat, o dövlət yoxdur ki, mən onlarla bu işləri müzakirə etməyim. İndi bir savaş yolu qalıbdır. Azərbaycanda bu savaş yolunu ortaya atanlar var. Amma hesab etmirəm ki, bu gün savaş məqbul bir şeydir. Yəni yenidən savaş etmək doğru yoldur.

**S u a l: Siz Məclisdəki nitqinizdə dediniz ki, Türkiyə ilə münasibətləriniz strateji tərəfdaşlıq xarakteri daşıyır.**

**C a v a b:** Biz belə bir şey imzalamışıq. 1997-ci ildə Türkiyə ilə Azərbaycan arasında anlaşma imzalanıbdır ki, Türkiyə–Azərbaycan əlaqələri strateji tərəfdaşlıq xarakteri daşıyır.

**S u a l: Bu sizi təmin edirmi? Türkiyənin Azərbaycana verdiyi dəstək sizi təmin edirmi?**

**C a v a b:** Siyasi tərəfdən, bəli.

**S u a l: Siyasi tərəfdən aydındır. Siyasətdən başqa, məsələn, iqtisadi, sosial sahələrdə necə, təmin edirmi?**

**C a v a b:** Bunu siz bilirsiniz.

**S u a l: Cənab Prezident, çox diplomatik cavab verdiniz. Bu, uzun illərin diplomatı Heydər Əliyevin cavabıdır. Mən Sizin fikrinizi bilmək istəyirəm. Bunu hörmətli Cümhur başqanına, Baş nazirə söyləmisiniz?**

**C a v a b:** Bu günlər hörmətli Cümhur Başqanı ilə də, hörmətli Baş nazirlə də, hörmətli Baş Qərargah rəisi ilə də əlaqələrimiz barədə çox geniş danışıqlarımız, müzakirələrimiz olubdur. Cümhur başqanı ilə təkbətək üç saat söhbət etmişik.

**S u a l: Siz bunu açıqlamaq istəmirsiniz?**

**C a v a b:** Yox.

**S u a l: Amma məmnunsunuzmu?**

**C a v a b:** Danışıqlardan məmnunam. Amma nəticəsi nə olacaqdır...

**S u a l: Növbəti dəfə Sizinlə müsahibə zamanı nəticə barədə soruşacağam.**

**C a v a b:** Onda soruşarsan.

**S u a l: Cənab Prezident, Azərbaycanın Türkiyəyə 2 milyard kubmetrdən 6 milyard kubmetrədək təbii qaz satması barədə anlaşma imzalandı. Siz bundan son dərəcə məmnunsunuz. Türkiyənin Rusiyadan qaz almasından narahat olmuşdunuz. İndi həmin narahatlığınız aradan qalxdımı?**

**C a v a b:** Bilirsiniz, mən Türkiyənin işinə qarışmaq istəmirəm. Amma Türkiyənin qaza böyük ehtiyacı vardır. Mən dünən axşam Türkiyə televiziyasında baxdım ki, Enerji naziri Cümhur Ərsümər Misirdən buraya qaz gətirmək istəyir. Rusiyadan alır, Misirdən alır, Azərbaycandan alır, bəlkə də bunlar Türkiyə üçün lazımdır. Mən bunu normal görürəm. Am-

ma hesab edirəm ki, hamısından öncə Türkiyəyə Azərbaycan qazı gəlməlidir. Təkcə iqtisadi nöqteyi-nəzərindən yox, həm də strateji tərəfdaşlıq nöqteyi-nəzərindən.

**S u a l: Cənab Prezident, Azərbaycan qazı Türkiyəyə ucuz qiymətəmi satılacaqdır?**

**C a v a b:** Mən ticarət işləri ilə məşğul olmuram. Təbii, dünya bazar qiymətləri ilə olacaqdır.

**S u a l: Azərbaycandan Türkiyəyə həm Bakı–Ceyhan boru kəməri ilə neft gəlməsi, həm də ayrı bir kəmərlə təbii qaz gəlməsi məsələsi artıq qətiləşdi?**

**C a v a b:** Bəli, artıq Bakı–Ceyhan məsələsində bir problem yoxdur. Yəni bütün anlaşmalar imzalanıbdır. İndi sadəcə, layihə-mühəndis işləri gedir. Bir də bunun inşası ilə məşğul olacaq şirkətlər para toplamaqla məşğuldurlar. Son vaxtlar Türkiyədə bu məsələdə bir az soyumuşdular. Mən ona görə Bakıda bir-iki dəfə bu barədə tənqid etdim, yəni narahatlığımı bildirdim. Amma burada bizim danışıqlarımızda hər şey çözüldü. İndi elə bir problem yoxdur.

Məsələn, burada qaz haqqında anlaşma imzaladığımıza görə, Gürcüstanın prezidenti mənə təbrik məktubu göndəribdir. Çünki bu, Gürcüstan üçün də çox önəmlidir. Təbii qaz barədə anlaşma imzaladıq. Həm hökumətlərarası anlaşma, həm də 6 milyard kubmetr qazın alqı-satqısı haqqında anlaşma imzaladıq. Mən demişəm, biz gələcəkdə Türkiyəyə 15–20 milyard kubmetr qaz verə bilərik.

**S u a l: Bilirsiniz ki, Bakı–Ceyhan neft boru xətti sahəsində konsorsium yaranmışdır. Burada Türkiyə və Azərbaycanın da payı vardır. Bu konsorsium tərəddüd edir. İndi həmin konsorsium Bakı–Ceyhan boru xətti ilə bağlı mövqelərini dəyişibdir. Bu məsələdə təbii qaz haqqında anlaşmanın rolu oldumu? Çünki onlar çıxarılacaq qazın satılmasını istəyirlər. Bu bölgədə də ən çox qaz ala biləcək ölkə Türkiyədir.**

**C a v a b:** Deyə bilmərəm ki, onun bir rolu oldu. Çünki biz bundan öncə Bakı–Ceyhanı həll etmişdik. Bilirsiniz, konsorsiumda bəzi şirkətlər var ki, Bakı–Ceyhanın olmasını istəmirlər. Amma ən böyük şirkətlər bunu istəyirlər. Ona görə də mən burada bir problem görmürəm. Bu, baş tutacaqdır. Təbiidir ki, çox ölkələr bunun olmasını istəmirlər. Amma siz deyirsiniz ki, bəzi şirkətlər kəmərin Rusiyadan keçməsini istəyirdilər. Rusiyadan o qədər yox, amma Bakı–Supsa borusu var, onlar istəyirdilər ki, o borunu bir az da genişləndirək. İndi biz onunla 5–6 milyon ton neft göndəririk. Deyirdilər ki, məsələn, 15–20 milyon ton da neft göndərilə bilər, 2-3 ildən sonra isə Bakı–Ceyhanı başlayarıq. Amma mən dedim ki, yox. Bakı–Ceyhan indi başlanmalıdır. Onların bəziləri dedilər ki, gəlin, İrandan çəkək, çünki İran yolu daha ucuzdur, İrandan körfəzə məsafə azdır, daha da ucuz başa gələr. Bunu həm Amerika qəbul etmədi, həm də hesab edirəm ki, biz 1994-cü ildə Bakı–Ceyhanın təməlini qoymuşuq. Mən altı ildir bu təməli inkişaf etdirirəm. Ona görə bu mənim əsərimdir.

**S u a l: Cənab Prezident, həqiqətən də Bakı–Ceyhan boru xəttinin ərsəyə gəlməsində Sizin çox böyük əməyiniz olmuşdur. Siz bu yolda çox təhlükələrlə qarşılaşdınız. Doğrudur ki, bu Sizin əsərinizdir. Mən Xəzərin statusu ilə bağlı soruşmaq istəyirəm. Bu məsələdə ciddi problemlər var. Xüsusilə İranla, Türkmənistanla sizin aranızda problemlər var. Xəzərin statusu məsələsi həm Azərbaycan üçün çox önəmli, həm də Qazaxıstan neftinin, Türkmənistan qazının Xəzərdən keçərək Türkiyəyə gəlməsi baxımından da önəmlidir. Bu məsələ həll olunurmu?**

**C a v a b:** Bilirsiniz, Xəzərin hüquqi statusunu müəyyən etmək üçün bir çox il lazımdır. Amma mən hesab edirəm ki – biz bu yol ilə gedirik – ilk öncə, Xəzərin dibindəki mineral ehtiyatlar, yəni təbii qaz, neft yataqlarının işlənilməsi ilə məşğul olmaq lazımdır. Çünki orada gəmiçilik də var, balıqçılıq da

var, ekoloji problemlər də var, başqaları da var. Bunlar hamısı var. Bunların hamısını birdən çözmək mümkün deyildir.

Bütün ölkələr buna etiraz etdiyi zaman, hələ 1994-cü ildə Azərbaycan Xəzər dənizində öz sektorunda – Sovetlər Birliyi zamanı Xəzər dənizi təkcə Sovetlər Birliyinə məxsus idi, ona görə də bunu respublikalar arasında sektorlara bölmüşdü – bu işləri başlayıbdır. 1994-cü ildə biz birinci müqaviləni imzaladıq. İndi 20 müqavilə imzalamışıq. Biz öz sərhədlərimizdən çıxmırıq. Nə yaxşı ki, Rusiya bu prinsipi qəbul etdi. Yəni o, Qazaxıstanla bir anlaşma imzaladı. Putin Azərbaycana, Bakıya gələndə bizimlə də bir anlaşma imzaladı. Düşünürəm ki, Türkmənistan da bu prinsipin tərəfində olacaqdır.

**S u a l: Yəni Türkmənistan təbii qazının Azərbaycandan Türkiyəyə gəlməsi mümkün olacaqdır?**

**C a v a b:** Onu deyə bilmərəm. O bundan fərqli bir şeydir. Yəni bir var ki, sektor prinsipini qəbul etmək...

Məsələn, biz Rusiya ilə Xəzər dənizindən istifadə olunmasının prinsipləri haqqında bir anlaşma imzaladıq. Bu prinsiplər də odur ki, hər ölkənin sektoru var – onun ərazisindən Xəzərin orta xəttinə qədər. Biz bu barədə Rusiya ilə anlaşma imzaladıq.

**S u a l: Bunu Qazaxıstan da qəbul edir?**

**C a v a b:** Qazaxıstan da imzalayıbdır.

**S u a l: Amma İran qəbul etmir?**

**C a v a b:** İran bunu qəbul etmir. İran deyir ki, Xəzəri beş bərabər hissəyə bölmək lazımdır. Bu da mümkün deyildir.

**S u a l: Cənab Prezident, demək, Xəzər dənizinin istifadəsi sahəsində Azərbaycan, Rusiya və Qazaxıstan eyni prinsipdə olduğuna görə Qazaxıstan neftinin Bakıya, oradan da Türkiyəyə gəlməsində bir problem olmayacaqdır?**

**C a v a b:** Bu, fərqli şeydir. Çünki Rusiya istəmir ki, Qazaxıstan nefti buraya gəlsin. Rusiya etiraz etmir ki, Qazaxıstan öz sektorunda neft çıxarsın. Amma onu necə ixrac etsin, bu,

digər problemdir. Onun buraya dəxli yoxdur. Məsələn, biz Rusiya ilə sektor prinsipi barədə anlaşmanı imzalayanda heç bir öhdəlik götürmədik ki, biz nefti haradan, hansı ölkədən, hansı marşrutla, hansı yolla ixrac edəcəyik.

**S u a l: Cənab Prezident, indi mənə bildirdilər ki, Rusiya hava yollarına məxsus bir təyyarə çeçen olduqları güman edilən iki kişi tərəfindən qaçırılmışdır. Təyyarə Səudiyyə Ərəbistanının Mədinə şəhərində yerə enmişdir. Orada nə olacağını görəcəyik. Siz Çeçenistan məsələsi haqqında nə deyə bilərsiniz?**

**C a v a b:** Bilirsiniz, ola bilər, bu, kiçik bir hadisədir, elə böyük bir hadisə deyildir. Dünyada belə hadisələr çox olub. Amma Çeçenistan problemi, təbiidir ki, böyük bir problemdir. Burada yenə iki prinsip bir-biri ilə zidd gəlir. Yəni bir tərəfdən, beynəlxalq hüquq var, hər dövlətin torpaq bütövlüyü təmin olunmalıdır. Rusiya öz torpaq bütövlüyünü təmin edir. Ona görə o, çeçenlərə müstəqillik vermək istəmir. Çeçenlər də deyir ki, biz müstəqil olmaq istəyirik. Ona görə 5-6 ildir savaş gedir. Görürsünüz, savaş hələ nə vəziyyətdədir.

**S u a l: Cənab Prezident, Sizinlə müsahibə aparacığımızı televiziyada elan etdikdən sonra mənə çox sayda telefon zəngi oldu. İnsanlar Sizə sevgilərini, hörmət və ehtiramlarını ifadə edirlər. Bunu izləyicilərimiz adından Sizə çatdırmaq istəyirəm.**

**İrandan keçməklə Azərbaycana gedən türk sürücülərindən Azərbaycana daxil olduqda ayaqbasdı, keçid pulu və s. çox para alırlar. Mənə bu barədə o qədər telefon zəngi oldu ki, Sizə sual vermək məcburiyyətində qaldım. Azərbaycan ilə Türkiyə arasında bu işləri daha asan etmək mümkündürmü?**

**C a v a b:** Bizim Türkiyə ilə əlaqələrimiz çox yüksək səviyyədədir. Sürücünün gedib-gəlməsi elə bir şey deyildir. Birincisi, bu, problem deyildir. İkincisi, bu məsələ Cümhur başqanı səviyyəsində olan problem deyildir. Mən Baş nazirə əmr vermişəm, o bu işlərlə məşğul olur.

**J u r n a l i s t: Aydındır, əmr verdinizsə, məsələ həll olunacaqdır. Sizin bu təşəbbüsünüzü alqışlayırıq.**

**Cənab Prezident, son olaraq, Azərbaycan haqqında soruşmaq istəyirəm. Azərbaycan Cümhur başqanının yardımçısı vəzifəsi yaratmaq istəyiniz söylənilir...**

**C a v a b:** Bu, yanlış şeydir, belə bir şey yoxdur. Bunu kimsə uydurub. Kimsə yanlış bir şey ortaya atır. Bilirəm, bizdə müxalifətdə olanlar bəzən belə uydurma şeylər deyirlər. Siz onlara inanmayın.

**T a h a  A k y o l:** Cənab Prezident, bizi qəbul etdiyiniz üçün, dəyərli açıqlamalar verdiyiniz üçün Sizə çox təşəkkür edirəm. Həqiqətən də çox önəmli açıqlamalar verdiniz. «Si-En-En Türk» televiziyası vasitəsilə türk xalqına söyləyəcəyiniz nəsə varsa, buyurun.

**H e y d ə r  Ə l i y e v:** Mən təşəkkür edirəm. Bu fürsətdən istifadə edib, qardaş türk xalqına, Türkiyənin vətəndaşlarına öz hörmət-ehtiramımı, sevgi-məhəbbətimi bildirirəm. Türkiyəyə sülh, əmin-amanlıq və rifah arzulayıram.

**T a h a  A k y o l:** Cənab Prezident, Sizə bir daha təşəkkür edirik.

# TÜRKİYƏNİN TRT TELEVİZİYASININ XƏBƏRLƏR DEPARTAMENTİNİN MÜDİRİ HALUK KOÇA VERDİYİ MÜSAHİBƏ

*Ankara,*
*Azərbaycan prezidentinin iqamətgahı –*
*Camlı köşk*

*15 mart 2001-ci il*

**H a l u k  K o ç:** Bu gün bizim çox önəmli bir qonağımız var – dost və qardaş ölkə Azərbaycanın Cümhur başqanı hörmətli Heydər Əliyev. Cənab Əliyevdən bazar ertəsi günündən bu yana keçirdiyi görüşlər, imzalanmış anlaşmalar və son hadisələr barədə soruşacağıq.

Çox hörmətli Heydər Əliyev, bizə vaxt ayırdığınız üçün çox-çox təşəkkür edirik. Sizi görməkdən çox məmnunuq. İndi suallarıma keçmək istəyirəm.

**H e y d ə r  Ə l i y e v:** Sağ olun.

**S u a l: Biz bilirik ki, Siz Azərbaycandan Türkiyəyə gəlməmişdən öncə bir çox fikirlər söyləmisiniz. Xüsusilə Türkiyənin Bakı–Ceyhan boru xətti və təbii qaz anlaşması sahəsində bir az yavaş davrandığını söyləmişdiniz.**

**C a v a b:** Söyləmişdim.

**S u a l: İndi düşüncələrinizi dəyişdirdinizmi? Yəni görüşlər keçirdiniz və anlaşmalar imzalandı. Bundan sonra müəyyən dəyişiklik varmı?**

**C a v a b:** Mən o sözləri demişdim ki, dəyişiklik olsun. Ona görə də dəyişiklik oldu.

**S u a l: Cənab Prezident, nələr oldu, bunu bilmək istərdik?**

**C a v a b:** Birincisi, biz Azərbaycanın təbii qazının Türkiyəyə nəqli və satılması haqqında anlaşmalar imzaladıq. Həm hökumətlərarası anlaşma, həm də alqı-satqı haqqında anlaşma imzaladıq. Bu çox önəmlidir. Çünki Azərbaycan gələcəkdə böyük qaz ehtiyatlarına malik bir ölkə olacaqdır. Bu qazı ixrac etməlidir. Biz bunu keçmişdən də bilirdik. Çünki bu, yeni bir şey deyildir.

Biz «Şahdəniz» yatağından qaz alacağıq, hətta orada konsorsiumu yaradanda – mən o konsorsiumu 1996-cı ildə yaratmışam – Türkiyənin «Türk petrolları» şirkətini də oraya qatdım. 10 faiz «Türk petrolları» şirkətinin idi. Ona görə də hesab edirdim ki, qaz ilk öncə Türkiyəyə getməlidir. Əvvəllər də bu barədə görüşlərimiz var idi. Sonra bu işi kimsə bir az əngəlləmək istəyirdi. Amma onların qarşısı alındı. Artıq hər şey həll olundu. İndi biz çalışacağıq ki, o boru xətləri, platformalar, filanlar olsun və qaz Türkiyəyə gələcəkdir, ilkin miqdar 6 milyard kubmetrdir. Amma gələcəkdə ildə 15–20 milyard kubmetr qaz verə bilərik. Mənə deyiblər ki, Türkiyənin 50 milyard kubmetr qaza ehtiyacı var. Beş-altı ildən sonra bəlkə onun yarısını biz verə bilərik.

**S u a l: Cənab Prezident, «Şahdəniz»dəki ehtiyatlar vermək istədiyiniz miqdara yetərlidirmi?**

**C a v a b:** Çox... Bizim indi qazdığımız quyuların nəticələrinə görə orada 1 trilyon kubmetrdən artıq qaz var. Amma bizim neftçilər, o işləri bilən adamlar deyirlər ki, ondan da artıq olacaqdır. Yəni bu işlə məşğul olan adamlar həmişə minimum deyirlər, maksimum demirlər. Çünki sonra onları suçlamasınlar ki, sən niyə belə dedin, amma belə olmadı.

**S u a l: Neçə illərdir Bakı–Ceyhan boru kəməri barəsində çox danışılır və indiyədək bir çox sənədlər imzalanmışdır. Amma hələlik həyata keçməmiş kimi görünür. Bu barədə danışıqlar oldumu?**

**C a v a b:** Bu, asan bir şey deyildir. Bunu bilməlisiniz. Biz 1994-cü ildə ilk müqavilə imzalayanda orada Bakı–Ceyhan haqqında yazılıbdır. Amma Bakı–Ceyhan üçün mənim başıma nə işlər gəldiyini bilirsiniz, çevriliş etmək istədilər, terror etmək istədilər, filan etmək istədilər ki, Bakı–Ceyhan baş tutmasın, ümumiyyətlə, müqaviləni pozsunlar. Çünki o müqavilə Azərbaycanın bütün qaz və neft yataqlarının gələcəkdə işlənilməsinə yol açırdı. Biz 1994-cü ildə 11 şirkətlə bir müqavilə imzaladıq, indi isə 16 dövlətin 32 neft şirkəti ilə 20 müqavilə imzalamışıq. Bütün bu layihələrin həyata keçirilməsinə 60 milyard dollar sərmayə qoyulacaqdır. Ona görə heç də hər ölkə bunu istəmir. Bakı–Ceyhanın birbaşa əleyhinə çıxanlar var idi. Çünki biz nefti çıxarırıq, amma hansı ölkənin ərazisindən ixrac olunsa, o, fayda götürəcək, qazanc götürəcəkdir. Ona görə də bizim seçdiyimiz bu yola qarşı çıxanlar var idi.

**S u a l: Kimlər qarşı çıxdı?**

**C a v a b:** Başqa ölkələr.

**S u a l: Cənab Prezident, Rusiyanın bölgədə izlədiyi siyasət var. Xüsusilə Cənubi Qafqazda hazırda bir az fərqli siyasət aparır. Bakı–Ceyhan boru xətti sahəsində Qazaxıstana Rusiyanın bir təzyiqi oldu. Bu barədə xəbərlər eşidildi. Amma bu, xoş qarşılanmadı. Ümumiyyətlə, Rusiyanın bu sahədəki siyasətini necə qiymətləndirirsiniz?**

**C a v a b:** Bilirsiniz, təbiidir, hər bir ölkə istəyir ki, – indi neft dünyada ən önəmli bir şeydir – öz ölkəsinin milli mənafelərini həyata keçirsin. Ona görə də Rusiyanı bu barədə suçlamaq olmaz.

İndi Qazaxıstan çıxardığı nefti bir boru xətti ilə Rusiya ərazisi ilə Qara dənizdəki Novorossiysk limanına göndərir. Amma yenə də o tankerlər sizin ərazidə olan boğazdan keçir. Ona görə də, əlbəttə, Rusiyanın bu cür mövqeyi tamamilə məntiqlidir. Yəni buna bir şey demək olmaz. Hərə özü üçün çalışır.

**S u a l: Siz Ankaraya gəldiyiniz günlərdə İranın prezidenti Moskvada idi. Oradakı görüşlərin birində də Xəzərin statusu məsələsi müzakirə olundu. Xəzərin dibi ilə bağlı məsələ çox önəmlidir. Rusiya, Türkmənistan, Azərbaycan, İran, Qazaxıstan bu məsələni necə həll edəcəksiniz? Ümumiyyətlə, bu necə olacaqdır?**

**C a v a b:** Biz artıq bunu işləyirik. 1997-ci ildən biz həmin o ilk müqavilədən neft alırıq, ixrac edirik. Bakı–Supsa kəməri ilə Gürcüstanın Qara dənizdəki limanına ixrac edirik. Biz bu işdə öndəyik. Bu prinsip ki var, Xəzər dənizinin dibindən onun mineral ehtiyatlarını çıxarmaq üçün hər bir sahilyanı ölkənin öz sektoru olsun, bunu ilk öncə biz irəli sürmüşük. Biz ancaq öz sərhədlərimiz içində çalışırıq. Başqa yerə çıxmırıq. Sərhəd prinsipi də keçmiş zamanlardan müəyyən olunubdur. Amma bunu digərləri qəbul etmirdilər. Heç Qazaxıstan da qəbul etmirdi. İran da qəbul etmirdi, Rusiya da qəbul etmirdi. Amma bizim 1994-cü ildən apardığımız işlər artıq bu məsələni o yerə çıxardı ki, Rusiya bunu qəbul etdi. Qazaxıstan da qəbul etdi. Qazaxıstanla Rusiya arasında bir anlaşma imzalandı.

Yanvarın 9-da Rusiyanın prezidenti Putin Azərbaycana gəlmişdi. Orada da bir anlaşma imzaladıq ki, Xəzər dənizinin mineral ehtiyatlarının işlənilməsi üçün prinsiplər olsun.

Sizə dedim, biz öz sektorumuzla bağlı 20 müqavilə imzalamışıq. Onlar hamısı öz sektorumuzdadır. Artıq bu prinsipi Rusiya da tanıdı, bunu qəbul etdi və bizimlə anlaşma imzaladı. Qazaxıstan da imzaladı. Güman edirəm, Türkmənistan da bu yola gələcəkdir. Amma İran bununla razı deyildir. Çünki İran hesab edir ki, Xəzər dənizinin ətrafındakı beş ölkənin hər birinə iyirmi faiz çatmalıdır. Amma coğrafi nöqteyi-nəzərdən bu, mümkün deyildir.

Sektor nə deməkdir? Sektor o deməkdir ki, Xəzər dənizi boyunca, hər ölkənin sərhədinin güneyi və qüzeyindən xətt çəkilir. Bir də ki, Xəzər dənizinin orta xətti var. Həmin üç

xəttin içində olan hissə bizim sektorumuzdur. Amma İran Xəzər dənizinin güney tərəfində kiçik bir yerə malikdir. Xəzər dənizindən hərəyə iyirmi faiz vermək – bunu necə etmək olar? Bu, mümkün deyildir.

**S u a l: Son görüşmələrdən sonra İran bu prinsiplərlə razılaşacaqmı?**

**C a v a b:** Onu bilmirəm. Mənim Moskvadakı görüşlərdən o qədər məlumatım yoxdur. Çünki mən buradaydım.

**S u a l: Hörmətli Prezident, Türkiyədəki təmaslarınız içərisində ən önəmli məsələlərdən biri də Dağlıq Qarabağ problemidir. Bununla bağlı Türkiyənin rəhbərləri ilə görüşdünüz. Bu arada çox maraqlı bir məlumat gəldi. Amerika Birləşmiş Ştatları həm Ermənistan tərəfi, həm də sizi Floridaya dəvət edir. Aprelin 3-də, Paris görüşlərinin davamı kimi, bir görüş planlaşdırılır. Bu Sizə məlumdurmu?**

**C a v a b:** Məlumdur, mən bunu bilirəm.

**S u a l: Siz Amerikaya getməyi qəbul etdinizmi?**

**C a v a b:** Mən bunu qəbul etmişəm. Buraya gəlməzdən əvvəl mənə söyləmişdilər. Mən bunu qəbul etmişdim.

**S u a l: Martın əvvəlindəki görüşlər nə ilə başa çatdı? Çünki bu barədə müəyyən narahatlıq var. Siz müəyyən açıqlama verə bilərsinizmi?**

**C a v a b:** Martın əvvəlindəki görüşlərdə biz bir nəticəyə gələ bilmədik. Yəni məsələni Ermənistanla çözməyimizdə. İndi Minsk qrupunun həmsədrləri Rusiya, Amerika, Fransa belə bir mövqe tutublar ki, indiyə qədər görülən işlər bir nəticə verməyibdir. İki Cümhur başqanı – Ermənistan və Azərbaycan Cümhur başqanları danışsınlar, hansı razılığa gəlsələr biz də onu dəstəkləyəcəyik və ona yardım edəcəyik. Amma razılığa gəlmək mümkün olmur. Çünki Ermənistan Azərbaycanın torpaqlarının 20 faizini işğal edibdir və artıq 12 ildir ki, işğal altında saxlayır. Bir milyon azərbaycanlı işğal olunmuş torpaqlardan zorla çıxarılıbdır, çadırlarda yaşayır. Ona görə də

Ermənistan əlində olan bu imkandan istifadə edərək, daha da çox güzəşt almaq istəyir.

Biz öncə də Ermənistanın cümhur başqanı ilə danışanda belə qərara gəldik ki, qarşılıqlı kompromislər, yəni güzəştlər olmalıdır. Azərbaycan da müəyyən kompromisə getməlidir, Ermənistan da. Ancaq onlar hesab edirlər ki, Azərbaycan daha çox kompromisə getməlidir, nəinki Ermənistan.

Biz 1999-cu ildə bir razılığa gəlmişdik. Bu da Azərbaycan üçün o qədər məqbul deyildi, yəni əlverişli deyildi. Amma onun üzərində işləyib daha da irəliyə getmək olardı. Ancaq Ermənistan bunu pozdu. Ermənistan pozmasaydı, əgər biz onun üzərində işləyib irəliyə getsəydik, bəlkə də bu gün məsələni çözmüş olardıq. Ermənistan onu pozdu. Ondan sonra danışıqlar yenidən başlandı. Parisdə başlandı, sonra həm Köçəryan, həm də mən bu barədə Putinlə Moskvada görüşmüşdük.

İndi də Amerika belə bir təşəbbüs edir. Yəni həmsədrlərin üçü də bu barədə danışıblar. Yəni bu, üçünün birlikdə planıdır.

**S u a l: Erməni lobbisi və Ermənistandakı bəzi adamlar deyir ki, Dağlıq Qarabağla bağlı görüşlərdə, danışıqlarda Türkiyə olmasın, əgər olarsa, heç bir nəticə olmayacaqdır. Siz Bu məsələnin çözümündə Türkiyədən nə gözləyirsiniz?**

**C a v a b:** 1992-ci ildə ATƏT tərəfindən Minsk qrupu yaranıbdır. Məhz Ermənistan–Azərbaycan münaqişəsinin çözülməsi üçün. Ona daxil olan 12 dövlətdən biri də Türkiyədir. Ona görə 1992-ci ildən indiyə qədər, təxminən doqquz ildir ki, Türkiyə bu işin içindədir. Amma işlərin çoxunu həmsədrlər aparır. İndi Türkiyənin bu işin içində olmasına etiraz etmək yalnış bir şeydir.

**S u a l: Amerikadakı görüşlərdən nə gözləyirsiniz?**

**C a v a b:** Mən hər bir görüşdən, toplantıdan gözləyirəm ki, Ermənistan–Azərbaycan münaqişəsi sona çatsın, Azərbayca-

nın işğal olunmuş torpaqları işğaldan azad edilsin, bir milyon qaçqın öz yerinə dönsün. Amma siz bilməlisiniz ki, işğal olunmuş həmin o 20 faiz torpaqlarımızda hər şey ermənilər tərəfindən dağıdılıbdır. Yaşayış evləri, xəstəxanalar, kitabxanalar, yollar, nə bilim, filanlar, filanlar. Yəni oralara qayıdan insanlar dağılmış yerlərdə olacaqlar. Amma yenə də onların arzusu odur ki, çadırlarda yaşamaqdırsa, gedim doğma torpağımda çadırda yaşayım. Sonra da orada həyatımı qurum.

Amma eyni zamanda da həmsədrlər, xüsusən Amerika bizə belə bir vəd verir, söz verir ki, əgər bu məsələ çözülsə, onda onlar dünyanın maliyyə mərkəzlərindən – Dünya Bankından, Beynəlxalq Valyuta Fondundan, habelə Avropa Birliyindən, digər yerlərdən pullar toplayacaqlar və bərpa işlərini aparmaq üçün, yəni orada insanların yaşayışını təmin etmək üçün işlər görəcəklər. Təbiidir, bu da bir ilə ola bilməz. Bu, bir neçə il çəkəcəkdir. Amma əsas odur ki, biz bu işi başlayaq. Mən bunu gözləyirəm.

**S u a l: Fransada Köçəryanla həll edilməyən məsələləri Amerikada çözə biləcəyinizi düşünürsünüzmü? Çünki bildiyimizə görə, Fransadakı görüşlərdə bəzi məsələləri Köçəryan qəbul etmək istəmədi və görüş nəticəsiz oldu. Amerika Birləşmiş Ştatlarındakı görüş də buna bənzər olacaq, yoxsa nəsə dəyişiklik olacaqdır?**

**C a v a b:** Bilirsiniz, Fransadan sonra Amerika Birləşmiş Ştatlarının bu işi davam etməsi onu göstərir ki, onlar məsələnin çözülməsinə müəyyən təsir etməlidirlər.

**S u a l: Cənab Prezident, indi isə Türkiyə–Azərbaycan əlaqələri barədə sual vermək istəyirəm. Bu əlaqələr Sizin gəlişinizdən sonra hansı səviyyəyə qalxacaqdır, bundan sonra nələr olacaqdır?**

**C a v a b:** Azərbaycan müstəqilliyini elan edəndən Türkiyəni yaxın dost, qardaş bir ölkə hesab edibdir. Mən bunu Böyük Millət Məclisindəki nitqimdə dedim. Biz bu fikirlərlə yaşayırıq, Bu fikirlərlə də əlaqələrimiz qurulubdur və

qurulur. Amma lazımdır ki, bunu daha da yüksəklərə qaldıraq. Yəni bunun dərəcəsi yoxdur. Nə qədər yüksəyə qaldırsaq, həm Türkiyə üçün, həm də Azərbaycan üçün o qədər əhəmiyyətli olacaqdır. Ona görə də mənim Türkiyəyə bu dəfəki rəsmi səfərim, hesab edirəm ki, Türkiyə–Azərbaycan əlaqələrinin daha da inkişaf etməsi üçün böyük bir təməl yaradır. Çünki mən burada həm cümhur başqanı ilə, həm Baş bakan ilə, Baş bakan yardımçıları ilə, Baş qərargah rəisi ilə, digərləri ilə danışıqlar apardım, Böyük Millət Məclisində öz fikirlərimi söylədim. Təbiidir ki, bu, irəliyə doğru yeni bir addımdır.

**S u a l: Cənab Prezident, Sizin səhhətinizi çox yaxşı görürük. Bunu indi bütün türk xalqı da görür. Sağlamlığınız barədə bir probleminiz varmı?**

**C a v a b:** Sən ki bunu görürsən.

**H a l u k K o ç:** Biz Sizi çox sağlam görürük. Bu gün müayinədən keçdiyinizi də bilirik.

**H e y d ə r Ə l i y e v:** Mən bu gün müayinədən keçmirdim. Sadəcə, bu gün dişlərimə baxırdılar. Sizin dişləriniz necədir, həkim yanına gedirsiniz, yoxsa yox?

**H a l u k K o ç:** Əlbəttə, gedirik.

**H e y d ə r Ə l i y e v:** Mən də.

**S u a l: Cənab Prezident, sabah Türkiyədən ayrılırsınız. Son mesajınız varmı?**

**C a v a b:** Mən Türkiyədə olmağımdan çox məmnunam, çox bəxtiyaram və Türkiyəni dost, qardaş ölkə kimi sevirəm və sevəcəyəm. Türkiyənin indi bəzi problemləri var – iqtisadi problemlər, filanlar, bu problemlərin tezliklə çözülməsini arzu edirəm. Türkiyə xalqına daha da gözəl həyat və Türkiyə dövlətinə daha da çox güc, daha da çox inkişaf arzulayıram.

**H a l u k K o ç:** Cənab Prezident, proqramımızda iştirak etdiyinizə görə Sizə təşəkkür edirik. Sizi yaxşı niyyətlərlə Azərbaycana yola salırıq.

Beləliklə, bugünkü qonağımız Azərbaycanın Cümhur başqanı Heydər Əliyev idi. Cənab Heydər Əliyev ilə görüşdük, müəyyən məsələlər barəsində ondan bilgilər aldıq. Heydər Əliyev türk–azəri dostluğunun inkişafı yolunda bundan sonra önəmli məsafələr qət edəcəyimizi söylədi. Hörmətli Əliyev aprelin 3-də Amerika Birləşmiş Ştatlarına gedir. Paris görüşlərinin davamı kimi, orada görüşlərdə nələr olacaq, bu barədə hələ bir şey bilinmir. Ancaq Qarabağ probleminin çözümü üçün önəmli ola biləcək bir görüş ərəfəsində Türkiyədən ayrılır.

# TÜRKİYƏNİN NTV TELEVİZİYA KANALININ ƏMƏKDAŞLARI İRFAN SAPMAZ VƏ DİDƏM TUNCAYA VERDİYİ MÜSAHİBƏ

*Ankara,*
*Azərbaycan prezidentinin iqamətgahı –*
*Camlı köşk*

*15 mart 2001-ci il*

**S u a l: Hörmətli Cümhur başqanım, əvvəlcə Sizə çox təşəkkür edirik ki, qiymətli vaxtınızdan bizə də ayırdınız.**

**Siz dörd gündür, bazar ertəsindən indiyədək Türkiyədə görüşlər keçirirsiniz. Doqquzuncu Cümhur başqanı Süleyman Dəmirəl ilə çox yaxın bir əlaqəniz vardı. Amma Ankarada Cümhur başqanı Sezərin ilk dəfə qonağı oldunuz. Qısaca olaraq Sizin Türkiyəyə səfərinizə münasibətinizi bildirməyi rica edirik. Süleyman Dəmirəlin Cümhur başqanlığından ayrılması Türkiyə–Azərbaycan əlaqələrinə təsir etdimi? Bu barədə fikirlərinizi bilmək istərdik.**

**C a v a b:** Təşəkkür edirəm. Birincisi, mən çox böyük məmnuniyyətlə bildirmək istəyirəm ki, Türkiyənin 10-cu Cümhur başqanı hörmətli Əhməd Necdət Sezər bu vəzifəyə seçiləndən sonra xarici ölkəyə ilk səfərini Azərbaycana etdi. Bu təbiidir. Çünki Türkiyə üçün Azərbaycan çox yaxın dost, qardaş ölkədir. Azərbaycan üçün də belədir. Bunu da həm mən, eyni zamanda bizim xalqımız, millətimiz çox yüksək qiymətləndirdi. O məni Türkiyəyə dəvət etdi. Mən də bu dəvəti qəbul etdim və artıq indi, ayın 12-dən buradayam.

Türkiyənin Cümhur başqanı ilə mənim çox maraqlı, çox əhəmiyyətli, iki ölkə üçün, təkcə iki ölkə üçün yox, ümumiyyətlə, Qafqazdakı məsələlərimiz, o cümlədən Dağlıq Qarabağ, Ermənistan–Azərbaycan münaqişəsinin həll olunması yolları barədə çox danışıqlarımız, çox əhəmiyyətli söhbətlərimiz oldu. Mən bundan çox məmnunam.

Bilirsiniz ki, başqa görüşlərim də oldu. Ancaq mən əziz dostum, qardaşım Süleyman Dəmirəl ilə də görüşdüm. Dünən axşam onunla görüşdüm, söhbət etdik. Mən heç vaxt dostu unutmaram. Süleyman Dəmirəl ilə mənim dostluğumun 30 ildən artıq bir tarixi var. Yəni bu keçmişdəndir.

**S u a l: Hörmətli Süleyman Dəmirəlin Cümhur başqanlığından ayrılması Türkiyə–Azərbaycan əlaqələrinə təsir etdimi?**

**C a v a b:** Bilirsiniz, əlbəttə, mən dostum Süleyman Dəmirəlin ayrılmasını istəmirdim. Mən həmişə səmimi insanam. İstəmirdim, ancaq sizin Konstitusiyanız vardır. Heç kəs Konstitusiyanın əleyhinə çıxa bilməz. Ona görə də mən hesab edirəm ki, Türkiyə dövləti öz Konstitusiyasına həmişə sadiq olmalıdır. Amma Süleyman Dəmirəl də bunu tamamilə real qəbul edir, yəni onun da bu barədə bir problemi yoxdur və kefi də çox yaxşıdır. Onu çox sağlam gördüm.

O indi Cümhur başqanlığından ayrılıbdır. Ancaq dünya problemləri ilə, Azərbaycanın problemləri ilə çox məşğul olur. Yəni hər şeyi öyrənir, bilir, o cümlədən bizim Türkiyə–Azərbaycan əlaqələrinin daha da yaxın olmasını, daha da yaxşı olmasını istəyir. O deyir ki, bu əlaqələr mənim vaxtımdakından daha da yaxşı olsun. O bunu istəyir. Bir də təbiidir ki, biz onunla 7-8 il birlikdə Ermənistan–Azərbaycan münaqişəsinin çözülməsi məsələləri barəsində çalışmışıq, bir yerdə məsləhətləşmişik. Biz bu problem haqqında danışdıq, söhbət etdik.

**S u a l: Cənab Prezident, Türkiyə ilə Azərbaycan arasında hərbi sahədə əməkdaşlığı yetərli hesab edirsinizmi və bu əlaqələr hansı səviyyəyə qədər inkişaf etdirilə bilər?**

**C a v a b:** Mən o qədər yetərli görmürəm. Mənim arzum, istəyim daha çoxdur. Ancaq indi nə mümkündür, odur.

**S u a l: Hörmətli Cümhur başqanım, ziyarətiniz zamanı bu sahədə irəliyə doğru addımlar atılması üçün söhbətləriniz oldumu?**

**C a v a b:** Bilirsiniz, Türkiyə təhsil sahəsində Azərbaycan ordusuna çox yaxşı yardımlar edir. Mən buna görə minnətdaram.

Məsələn, Rusiya ilə Ermənistan arasında hərbi müttəfiqlik, ittifaq yaranıbdır ki, əgər Rusiyaya hansı bir dövlət hücum etsə, Ermənistan ona yardım edəcəkdir, Ermənistana etsə, Rusiya ona yardım edəcəkdir. Amma iş bir bunda deyildir. İş ondadır ki, Rusiya Ermənistanda böyük hərbi bazalar saxlayır, silahlar saxlayır. Son vaxtlarda hətta Gürcüstandan çıxarılan 70 tankı da Ermənistana yerləşdirdi. Təxminən 29-a qədər ən modern hərbi təyyarəni, MİQ–29-ları aparıb orada yerləşdiribdir. S–300 raketləri yerləşdiribdir. Ona görə də burada vəziyyət fərqlidir.

**S u a l: Cənab Prezident, Türkiyə ilə Azərbaycan arasında hərbi anlaşma olmasını söyləmək istəyirsiniz?**

**C a v a b:** Əlbəttə, yaxşı olardı.

**S u a l: Türkiyədə Bakı–Ceyhan neft kəməri layihəsinə marağın azaldığını düşünmürsünüz ki?**

**C a v a b:** Bilirsiniz, mən son vaxtlar bir az buna diqqətin azaldığını hiss etdim. Ona görə də bu barədə bəyanatlar verdim. Eyni zamanda biz hələ əvvəllərdə də danışmışdıq ki, Azərbaycanda böyük təbii qaz ehtiyatları olacaqdır. İlk öncə onun Türkiyəyə satılması lazımdır. Bizim məmurlarımızın bu barədə danışıqlarından gördüm ki, Türkiyədə buna əngəl etmək istəyən bəzi bürokratlar vardır. Ona görə də mən bu barədə bir-iki açıqlama verdim. Amma hər şeyi çözdük, anlaşma imzaladıq. Həm hökumətlərarası anlaşma, həm də alqı-satqı haqqında anlaşma ki, ilkin olaraq Azərbaycanın 6

milyard kubmetr təbii qazı Türkiyəyə satılacaqdır. Ondan sonra bu artıb ildə 15–20 milyard kubmetrə çatacaqdır.

**S u a l: Hörmətli Prezident, Bakı–Ceyhan boru xətti layihəsinin həyata keçib-keçməməsi 2002-ci ilin iyun ayında mühəndis-layihə işlərinin tamamlanması ilə ortaya çıxacaqdır. Sizcə, bu layihənin gerçəkləşməmək ehtimalı varmı?**

**C a v a b:** Güman edirəm, gerçəkləşəcəkdir.

**S u a l: Hörmətli Cümhur başqanım, cənab Pauell həm Sizi, həm də Ermənistanın dövlət başçısını Dağlıq Qarabağ problemi ilə əlaqədar aprelin 3-də Amerika Birləşmiş Ştatlarına dəvət etmişdir. Oraya gedəcəksinizmi?**

**C a v a b:** Əlbəttə, gedəcəyəm.

**S u a l: Məsələnin çözülməsinə ümidiniz varmı?**

**C a v a b:** Bilirsiniz, biz 1994-cü ildə Ermənistanla Azərbaycan arasında müharibəni dayandırdıq. Atəşkəs haqqında saziş imzaladıq. O vaxtdan bu işi sülh yolu ilə həll etmək istəyirik. Bunun üçün də ATƏT-in Minsk qrupu var. Orada 12 dövlət, onun içində Türkiyə də vardır. Minsk qrupunun həmsədrləri – Rusiya, Amerika, Fransa var. Onlar da çalışdılar. Amma onların verdikləri təkliflərin çoxunu Ermənistan qəbul etmədi. Son olaraq, birini də biz qəbul etmədik. Ona görə sonra iki cümhur başqanının təkbətək danışması problemi meydana çıxdı. Biz də 15 dəfə görüşüb danışmışıq. Son dəfə də Parisdə görüşdük. Siz bilirsiniz. Sonra bu görüşə Şirak da qatıldı.

İndi mən hiss edirəm ki, Minsk qrupunun həmsədrləri – həm Amerika, həm Rusiya, həm də Fransa bir-biri ilə daha da yaxınlaşıblar və bu məsələnin çözülməsi üçün çalışırlar. Ancaq onlar belə deyirlər: Ermənistan və Azərbaycan prezidentləri hansı qərara gəlsələr, biz o qərarı dəstəkləyəcəyik və onun həyata keçirilməsinə yardım edəcəyik.

Amma qərara gəlmək də çox çətindir. Çünki Ermənistan Azərbaycan torpaqlarının iyirmi faizini işğal edibdir. Orada silahlı qüvvələrini saxlayır. İşğal olunmuş torpaqlardan 1 mil-

yon azərbaycanlı zorla çıxarılıb, çadırlarda yaşayırlar. Ona görə də Ermənistan şərtlərini daha da sərtləşdirir. Biz öncədən belə danışmışdıq ki, hər iki tərəfdən kompromis olmalıdır. Amma onlar istəyirlər ki, Azərbaycan tərəfdən daha çox kompromis olsun, nəinki Ermənistan tərəfindən. Ona görə də əgər doğrudan da bu iş ədalətli getsəydi, dünyada ədalət olsaydı və beynəlxalq hüquq normaları hər bir yerdə qorunsaydı, belə bir şey olmazdı.

**S u a l: Sizcə, Amerikanın bu məsələ ilə bağlı araya girməsi, bu problemin çözümü yolunda çalışmaları nəticə verə bilərmi?**

**C a v a b:** Amerika indi yox, çoxdan araya giribdir. Bu, tamamilə normal bir şeydir.

**S u a l: Hörmətli Prezident, Siz Fransaya getməzdən əvvəl parlamentdə aparılan müzakirələrdə bəzi müxalifət dairələri bu məsələnin ancaq müharibə yolu ilə həll edilə biləcəyini söylədilər.**

**C a v a b:** Sən neçə illərdir Azərbaycanda yaşayırsan. Azərbaycanda müharibəni görmüsən. Mənim yaddaşım yaxşıdır. Sən Şuşanın işğal olunmasını gözünlə görmüşdün və mənə söylədin. Xatırlayırsanmı?

**İ r f a n  S a p m a z:** Bəli, yaxşı xatırlayıram. Siz onda Naxçıvandaydınız.

**H e y d ə r  Ə l i y e v:** Bəli, 1992-ci ildə Naxçıvanda sən bunu mənə söylədin.

Müharibəni həmişə etmək olar. Ancaq indi dünyada heç kəs müharibəni dəstəkləmir. Bu, birincisi. İkincisi, müharibə harada olacaqdır? Müharibə Azərbaycan torpağında olacaqdır, Ermənistan torpağında yox. Müharibə Azərbaycan torpaqlarını işğaldan azad etmək üçün olacaqdır. Ermənistan gəlib Azərbaycan torpaqlarında oturubdur. Ona görə də müharibə heç vaxt proqramdan çıxmır. Ancaq nə vaxt lazımdır, lazım deyil... Sən Azərbaycanda yaşayırsan, müharibənin nə olduğunu bilməyən bəzi adamlar bunu deyəndə mən anlayı-

ram. Amma vaxtilə, müharibə zamanı Azərbaycanın daxilində sabitliyi pozub hakimiyyət uğrunda, iqtidara gəlmək uğrunda mübarizə aparan adamlar deyəndə... Surət Hüseynov tankların, topların bir qismini cəbhədən çıxarıb Bakıya hücum etdi ki, cümhur başqanı olsun. Xalq Cəbhəsinin rəhbərləri də özlərini qorumaq üçün cəbhə bölgəsindən qüvvələrin bir qismini çıxartdı və bundan Ermənistan faydalandı, Azərbaycanın torpaqlarını işğal etdi. Yəni müharibə edib, müharibədə uduzan, Azərbaycanda vətəndaş müharibəsini başlayan, yaradan, ondan sonra qaçıb 4-5 il gizlənən adamlar indi yenə «müharibə, müharibə» deyirlər.

**S u a l: Siz Cümhur başqanı olduğunuz üçün müharibənin ağırlığı birinci növbədə Sizin üzərinizə düşəcək...**

**C a v a b:** Bəli, onlar müharibə deyirlər. Amma onlar müharibə edən deyillər. Əgər müharibə olsa, bu müharibəni mən etməliyəm. Müharibəni onlar etməyəcək. Doğrudur, deyirlər hamımız müharibəyə gedəcəyik. Amma mən də demişəm ki, bir-iki avtobus tutacağam, onların hamısını avtobusa birinci qoyacağam. Hərəsinə də bir avtomat verəcəyəm. Getsinlər irəliyə. Ondan sonra da başqaları getsin.

**S u a l: Hörmətli Cümhur başqanım, Fransadakı görüşləriniz zamanı Dağlıq Qarabağa xüsusi status verilməsini qəbul etməyiniz barədə bəzi iddialar vardır. Bunlar doğrudurmu?**

**C a v a b:** Ermənistan bunu qəbul etmir.

**S u a l: Azərbaycan qəbul edir?**

**C a v a b:** Biz veririk, onlar qəbul etmir.

**S u a l: Cənab Prezident, Kipr məsələsi barədə soruşmaq istəyirəm. Türkiyə ilə Azərbaycanın hər zaman dost və qardaş ölkə olduqlarını Siz hər dəfə ifadə edirsiniz. Şimali Kipr Türk Cümhuriyyətini nəyə görə tanımırsınız?**

**C a v a b:** Bilirsiniz, hər bir türk mənim üçün əzizdir. Ya Türkiyədədir, ya Kiprdədir, ya digər yerdədir. Çünki biz bir kökdən əmələ gəlmiş qardaş millətlərik, dostlarıq. Ona görə

də mənim başım öz işlərimlə məşğuldur. Kipr işləri ilə siz məşğul olun.

**S u a l: Gələcəkdə bunu tanımağı planlaşdırırsınızmı?**

**C a v a b:** Sağlıq olsun, əgər biz Ermənistan–Azərbaycan müharibəsini bitirsək, ölkəmizin torpaq bütövlüyünü təmin edə bilsək, ondan sonra hər şey ola bilər.

**S u a l: Cənab Prezident, Siz bu gün müayinədən keçdinizmi və hazırda sağlamlığınız necədir?**

**C a v a b:** Bununla çox maraqlanırlar. Mənim sağlamlığımı siz necə görürsünüz?

**İ r f a n  S a p m a z:** Çox yaxşı görürük.

**H e y d ə r  Ə l i y e v:** Sən məni tez-tez görürsən. Bu gözəl xanım ilk dəfə görür. Sən necə görürsən?

**D i d ə m  T u n c a y:** Cənab Prezident, çox sağlam görünürsünüz.

**H e y d ə r  Ə l i y e v:** Deməк, mən sağlamam. Dişlərimdə problemlər var. Ondan ötrü Gülhanəyə getdim. Bilirsiniz ki, mənim həkimlərim türklərdir, onlar Gülhanənin həkimləridir.

**D i d ə m  T u n c a y:** Cənab Prezident, müsahibə üçün çox sağ olun. Təşəkkür edirik.

## TÜRKİYƏNİN «SAMAN YOLU» TELEVİZİYA KANALININ MÜXBİRİ MƏLİH MERİÇƏ VERDİYİ MÜSAHİBƏ

*Ankara,*
*Azərbaycan prezidentinin iqamətgahı –*
*Camlı köşk*

*15 mart 2001-ci il*

**J u r n a l i s t: Hörmətli Cümhur başqanım, əvvəlcə həm Türkiyəni, həm də Azərbaycanı narahat edən bir məsələ barədə soruşmaq istəyirəm. Ermənilər öncə Azərbaycanın mühüm torpaqlarını işğal etmişlər, sonra soyqırımı haqqında uydurma iddiaları ilə dünyanı ayağa qaldırdılar, indi də Qars anlaşmasını ittiham edən sözlər söyləməyə başladılar. Bu həm Türkiyədə, həm də Azərbaycanda çox ciddi narahatlıq doğurur. Sizcə, ermənilər nə etmək istəyirlər, bütün bunların arxasındakı niyyət nədən ibarətdir?**

**C a v a b:** Ermənilər uzun illər, əsrlər «böyük Ermənistan» iddiası ilə yaşayırlar. Onlar həmişə təcavüzkar olublar, indi də təcavüzkardırlar. XX əsrin sonunda onların ən böyük təcavüzü Azərbaycan torpaqlarına olubdur. Azərbaycanın qədim və ayrılmaz bir hissəsi olan Dağlıq Qarabağı Ermənistana bağlamaq iddiasındadırlar. Bunun da nəticəsində, bilirsiniz ki, böyük münaqişə başlayıbdır və 12 ildir davam edir. Baxmayaraq ki, bu illərdə Azərbaycan öz səsini hər yerdə – Birləşmiş Millətlər Təşkilatında, ATƏT-in zirvə görüşlərində, İslam Konfransı Təşkilatında, böyük dövlətlər ilə danışıqlarda qaldırıb, amma ermənilər buna tabe olmurlar.

Birləşmiş Millətlər Təşkilatı Təhlükəsizlik Şurasının dörd qətnaməsi var ki, Ermənistan işğal olunmuş torpaqlardan öz silahlı qüvvələrini qeyd-şərtsiz çıxarmalıdır. Amma Ermənistan bunu etmir. Eyni zamanda dünyada beynəlxalq hüquq normaları var. Bu hüquq normaları 1975-ci ildə Finlandiyada ATƏT yaranarkən onun sənədində bir daha öz əksini tapıbdır. Bu ondan ibarətdir ki, heç bir ölkənin torpaq bütövlüyü pozula bilməz, onun sərhədləri pozula bilməz. Bunların pozulması, təbiidir ki, beynəlxalq hüquq normalarının pozulması deməkdir.

Bütün dövlətlərin, həm Birləşmiş Millətlər Təşkilatına daxil olan dövlətlərin, həm də ATƏT-ə daxil olan dövlətlərin gözü qarşısında Ermənistan beynəlxalq hüquq normalarını pozur. Heç kəs də Ermənistanı qınamır. Əksinə, bizi dəvət edirlər ki, siz çalışın Ermənistanla bir dil tapın, məsələləri həll edin. Biz də məsələləri həll etmək istəyirik. Ona görə də 1994-cü ilin may ayında biz atəşkəs haqqında saziş imzaladıq. O vaxtdan döyüşlər yoxdur. Amma eyni zamanda sülh də yoxdur. Azərbaycanın torpaqlarının iyirmi faizi Ermənistanın işğalı altındadır. Bu torpaqlardan bir milyondan artıq azərbaycanlı zorla çıxarılıbdır. Bilirsiniz ki, indi çadırlarda yaşayırlar. Sizin televiziya bir neçə dəfə həmin o çadır şəhərciklərində olubdur, oradakı vəziyyəti bilirsiniz. Bunu həm Türkiyəyə, həm də digər ölkələrə, hansılara ki, sizin televiziyanın verilişləri yayımlanır, göstərmisiniz.

Ermənistan özü gücsüz bir dövlətdir. İqtisadi cəhətdən çətin bir dövr yaşayır. Onun iqtisadiyyatı inkişaf etmir. Əksinə, geriyə gedir. İnsanların çoxu Ermənistanı buraxıb Rusiyaya, Amerikaya, Fransaya, başqa ölkələrə gedirlər. Ermənistanın əhalisi hər ay azalır. Amma buna baxmayaraq, ermənilərin dünyada böyük diasporu vardır. Məsələn, Amerikada, Fransada, bütün ölkələrdə var.

**S u a l: Hörmətli Prezident, bu barədə Türkiyədə də çox danışılır. Bu diaspor Ermənistandakı ermənilərin xeyrinədir, yoxsa zərərinədir?**

**C a v a b:** Onlar hesab edirlər ki, faydasınadır. Ermənistan da hesab edir ki, faydasınadır. Onlar böyük dövlətlərə təsir edirlər. Məsələn, Fransaya təsir etdilər, Fransanın parlamenti «soyqırımı» haqqında qərar çıxardı. İndi bu işi Amerikada aparırlar. Keçmişdən də aparırdılar, indi də aparırlar. Belə bir qərar Rusiya parlamentinə də çıxarıldı, amma Rusiya bunu qəbul etmədi.

Bu diaspor indi «böyük Ermənistan haqqında düşünür. Ermənistanın bu diaspor ilə birlikdə «soyqırımı» məsələsini qaldırması nə deməkdir? Birincisi, o deməkdir ki, onlar Türkiyənin doğu hissəsində olan torpaqlara iddia edirlər ki, bunlar Ermənistanındır. İkincisi, guya 1915-ci ildə türklər erməniləri qırıblar. İndi onlara pul, təzminat vermək lazımdır. Yəni bunlardan ötrü edirlər.

Mən Böyük Millət Məclisində dedim. Bu qərarların heç biri Türkiyə üçün problem yarada bilməz. Türkiyə böyük dövlətdir, müstəqil dövlətdir, Türkiyənin daxili işinə heç kim qarışa bilməz. Tarixdə nə olubdur, nə olmayıbdır, qoy onu tarixçilər araşdırsınlar.

**S u a l: Hörmətli Cümhur başqanım, bu problemin həlli üçün beynəlxalq prinsiplər var. Erməni diasporu deyir ki, onlar sülh istəyirlər. Amma Ermənistan, bir tərəfdən, Azərbaycanın tarixi torpağını işğal etmişdir, digər tərəfdən isə, Qars anlaşmasına qarşı çıxaraq başqa bir torpağa gözünü dikmişdir. Görünür, onların beynəlxalq dəstəyi vardır. Ermənilərin Azərbaycan və Türkiyə torpaqlarında gözü vardır. Yaxın gələcəkdə sülhə olan ümid doğrulacaqmı?**

**C a v a b:** Ermənilər bu işləri edirlər. Düşünmürəm ki, onlar bu işlərə nail ola bilərlər. Ermənilər heç vaxt Türkiyənin torpaqlarının bir metrini də özlərinə ala bilməzlər.

Mən Qars anlaşması haqqında Böyük Millət Məclisində söylədim. Orada bu məsələni daşnaklar qaldırırlar. Bu gün oxudum ki, Ermənistanın prezidenti bəyanat verib ki, bu, Ermənistan dövlətinin mövqeyi deyildir. Ancaq Qars anlaşması var və bunu heç kəs poza bilməz. Bunu Rusiya imzalayıbdır, Türkiyə imzalayıbdır, Azərbaycan imzalayıbdır... Bunu heç kəs poza bilməz.

**S u a l: Cənab Prezident, Amerika Qarabağ probleminin həllinə dair səylərini artırır. Bu, səmərəli olacaqmı?**

**C a v a b:** Mən 7 ildən artıqdır ki, Azərbaycanın Cümhur başqanıyam. Bu müddətdə Amerika ilə daim müzakirə aparıram. Amerikanın keçmiş prezidenti Klinton ilə bir çox görüşlər keçirmişəm. Xanım Olbrayt ilə görüşlər keçirmişəm.

Amerika Rusiya ilə, Fransa ilə bərabər ATƏT-in Minsk qrupunun həmsədridir. Onların nümayəndələri Ermənistana, Azərbaycana gəliblər. Bilirsiniz, onlar bizim haqlı olduğumuzu etiraf edirlər. Amma eyni zamanda deyirlər ki, biz Ermənistanı məcbur edə bilmirik. Amma məcbur etməyə imkanları var. Çünki Amerika Azərbaycana yardım üçün embarqo qoyubdur, Ermənistana yardım edir. Hələ Ermənistana başqa kanallardan da yardım olunur. Ermənistana Rusiya yardım edir. Orada Rusiyanın böyük əsgəri bazası, qoşunu var. Onlar orada otururlar və ermənilər də orada özlərinə iş alırlar, işləyirlər. Belədir.

**S u a l**: **Hörmətli Prezident, Ermənistandan kənarda yaşayan insanlar çalışırlar, güclüdürlər. Amma ən mühüm olan Türkiyənin və Azərbaycanın güclü və qüdrətli olmasıdır. Hazırda Türkiyə iqtisadi sıxıntılar keçirir. Bunun Azərbaycana təsiri oldumu?**

**C a v a b:** Biz bunu hiss etmədik. Yəni bunun bizə mənfi təsirini görmədik. Amma bilirəm ki, bu, Türkiyədə problemlər yaradıbdır. Ancaq düşünürəm ki, Türkiyə elə bir ölkədir,

elə bir dövlətdir, hökumətdir ki, bunların hamısının öhdəsindən gələcəkdir. Bu böhran keçib gedəcəkdir.

Mən dünən dinləyirdim. Dövlət naziri televiziyada danışırdı. O dedi ki, bu məsələni 2-3 aya çözəcəyik. Güman edirəm, çözəcəklər.

**S u a l: Cənab Prezident, 9-cu Cümhur başqanı Süleyman Dəmirəl ilə çox yaxşı münasibətləriniz var idi. Hər zaman söylənilirdi ki, əgər Süleyman Dəmirəl Cümhur başqanlığından gedərsə, bu münasibətlər necə olacaq. İndi həmin dövr keçdi, yəni cümhur başqanı Əhməd Necdət Sezərdir və sizin onunla müzakirələriniz oldu. Əlaqələrinizdə hər hansı bir problem varmı və Türkiyə–Azərbaycan əlaqələri irəliyə doğru gedirmi?**

**C a v a b:** Hesab edirəm ki, Türkiyə–Azərbaycan əlaqələri yolundadır. Bu, şəxslərdən o qədər də asılı deyildir. Təbiidir ki, Süleyman Dəmirəl Azərbaycan öz müstəqilliyini elan edəndən Türkiyənin başında olan bir şəxsdir. O zaman, Azərbaycanın ağır dövrlərində o həm Türkiyənin Baş naziri kimi, həm də sonra Türkiyənin Cümhur başqanı kimi, Azərbaycan ilə çox əlaqəli, bağlı olubdur. Bu təkcə mənə görə deyildir.

Mənimlə Süleyman Dəmirəlin dostluğunun 30 ildən çox tarixi vardır. Ona görə də Süleyman Dəmirəl Türkiyənin Cümhur başqanı kimi, Azərbaycana daim qayğı göstərdiyinə görə, diqqət göstərdiyinə görə Azərbaycanda sevilibdir, bu gün də sevilir. Mənimlə şəxsi dostluğu təbiidir ki, bu əlaqələri daha da yüksəklərə qaldırıbdır. Amma Türkiyənin Konstitusiyası var. Konstitusiyaya görə 7 ildən sonra Cümhur başqanı dəyişir. Yeni Cümhur başqanı seçildi. Hörmətli Əhməd Necdət Sezər çox yaxşı bir insandır. Mən və xalqımız çox yüksək qiymətləndiririk ki, o, Cümhur başqanı seçiləndən sonra xarici ölkəyə ilk səfərini Azərbaycana etdi. Yəni Azərbaycanın Türkiyə üçün nə qədər önəmli olduğunu dünyaya göstərdi və məni Türkiyəyə dəvət etdi. Mən gəldim, burada çox gözəl görüşlər keçirdik, bütün məsələlər haqqında

çox səmimi danışdıq. Yəni mən hiss etmirəm ki, Cümhur başqanı dəyişəndən sonra Azərbaycan–Türkiyə münasibətlərində bir dəyişiklik olsun.

Mən dünən axşam hörmətli Süleyman Dəmirəl ilə görüşdüm. Oturduq, çox söhbət etdik. Onun da arzusudur, deyir ki, gərək Türkiyə ilə Azərbaycan arasında əlaqələr bundan sonra daha da isti olsun, daha da yaxın olsun, ölkələrimiz daha da dost olsun. Onun arzusu belədir. Çünki o, 40 ildən çoxdur Türkiyənin siyasi həyatında böyük rol oynamış adamdır. Cümhur başqanıdır, yaxud Cümhur başqanı deyil – onun üçün Türkiyənin mənfəəti və Azərbaycanın mənfəəti çox önəmlidir. Amma məni sevindirən odur ki, bəzən insanlar qısqanır, filan edir. Yox, Süleyman Dəmirəl bu barədə yüksəkdə duran insandır.

**S u a l: Hörmətli Cümhur başqanım, iki xalq olaraq bizim tarixi birliyimiz vardır. Hər şeyimiz birdir. Amma bunlar yetmir. Dövlətlərin bir-biri ilə səmimi əlaqələr qurması üçün xalqların strateji əməkdaşlıq qurmaları lazımdır. Siz Türkiyə–Azərbaycan münasibətlərini sağlam strateji dostluğa çevirmək üçün və bu yolda irəliyə aparmaq üçün Türkiyə hökumətinin hansı addımlar atmasını gözləyirsiniz?**

**C a v a b:** Bilirsiniz, biz 1997-ci ildə böyük bir anlaşma imzalamışıq. Orada yazılıbdır ki, Türkiyə–Azərbaycan əlaqələri dostluq, qardaşlıq və strateji tərəfdaşlıq əlaqələridir. Bu, çox yüksək bir şeydir. Biz Azərbaycanda çalışırıq ki, əlaqələr belə olsun. Türkiyə də bunu edir. Ancaq indi sənə söyləyim ki, mən Türkiyədən daha nələri istəyirəm. Mən bunu Türkiyənin cümhur başqanına da deyirəm.

**S u a l: Cənab Prezident, türk xalqına, türkiyəli iş adamlarına nə söyləmək, arzulamaq istərdiniz?**

**C a v a b:** Türk xalqına söyləmək istəyirəm ki, Türkiyənin hər bir vətəndaşını Azərbaycanda qardaş kimi sevirlər. Mən də Türkiyəni sevirəm. Ona görə də Türkiyənin daha da güclü

olmasını, iqtisadi cəhətdən daha da inkişaf etməsini hər birimiz arzu edirik. Çünki Türkiyə nə qədər güclü olsa, Türkiyənin iqtisadiyyatı nə qədər yüksək olsa, bu, Azərbaycan üçün də önəmlidir. Mən bu fürsətdən istifadə edib, türk xalqına bu arzularımı bildirmək istəyirəm və hesab edirəm ki, bu arzuları həm türk xalqı istəyir, həm də Azərbaycan xalqı istəyir.

İstəyirəm ki, Türkiyənin iş adamları Azərbaycana sərmayə gətirsinlər. Bilirsiniz, Azərbaycan müstəqillik əldə edəndən sonra ilk dövrlər bizim əlaqələrimizdə ticarət əlaqələri çox önəmli idi. Bu gün də önəmlidir. Buradan bunu gətirdin, oradan onu gətirdin, satdın – belə şeylər. Amma indi Azərbaycanda islahatlar həyata keçirilir. Ticarət özəlləşibdir, torpaq özəlləşib, inşaat özəlləşib – hər şey özəlləşibdir. Ancaq hələ Azərbaycanda özəlləşdirilmək üçün böyük fabriklər, zavodlar var. Kiçik iş adamları öz işlərini görürlər. Gərək böyük iş adamları gətirib Azərbaycana sərmayə qoysunlar. Həm özləri mənfəət götürsünlər, həm də Azərbaycanda istehsalı qaldırsınlar. Yəni indi bizim qarşımızda duran məsələ Azərbaycanda istehsalı qaldırmaqdır ki, istehsal artsın və məhsulu ixrac etsin.

Məsələn, keçən il bizim ixracımız idxalımızdan çox olubdur. Bu, ilk dəfədir.

**S u a l: Bu çox ciddi məsələdir.**

**C a v a b:** Bəli, bu belədir. «Türk petrolları» şirkətini Azərbaycana cəlb etdik. Bizim birinci müqavilədə onların 1,75 faiz payları var idi. Sonra qardaş olaraq Azərbaycanın payından onlara 5 faiz verdim, 6,75 faiz oldu. İndi həmin o paydan 160 milyon dollar gəlir götürüblər. Amma sonrakı müqavilələrə də mən Türkiyəni qatdım. Məsələn, «Şahdəniz» müqaviləsinə. Azərbaycanın neft müqavilələrində Türkiyənin 35 faiz payı var. Təxminən 430 və ya 450 milyon dollara qədər sərmayə

gətiriblər. Amma lazımdır ki, başqa sahələrə də sərmayə gətirsinlər. Mən türkiyəli iş adamlarına bunları arzu edirəm.

**S u a l: Hörmətli Prezident, Siz təbii qaz məsələsi barədə, sanki, bir az da şikayət etdiniz, fərqli danışdınız. Türkiyə təbii qaz sahəsində digər alternativ layihələr həyata keçirməklə əsas etibarilə nəyi itirir?**

**C a v a b:** Onu itirir ki, Türkiyədə bəzi bürokratlar qazı dost, qardaş ölkədən almağı əngəlləyirdilər. Amma başqa ölkədən alır. Türkiyənin qaza ehtiyacı çoxdur. Türkiyə hər yerdən qaz ala bilər. Ancaq birinci növbədə Azərbaycandan qaz almalıdır. Ona görə də şikayətlər etdim. Ancaq bu şikayətlər lazım imiş. Artıq biz qazın Türkiyəyə satılması üçün hökumətlərarası anlaşma imzaladıq.

**S u a l: Hörmətli Cümhur başqanım, son sualımı verməmişdən öncə bildirirəm ki, Sizin də dediyiniz kimi, Süleyman Dəmirəl Azərbaycanda necə sevilirsə, Türkiyədə də insanlar, xalq Sizə çox böyük hörmətlə yanaşır. Mən çox məmnunam ki, Sizinlə müsahibə aparıram.**

**Siz Türkiyədə müayinədən keçdiniz. Sizin sağlamlığınız necədir?**

**C a v a b:** Sağlamlığım yaxşıdır.

**S u a l: Həkimləriniz nə deyirlər?**

**C a v a b:** Həkimim türk həkimidir. Sağlamlığım yaxşıdır. Hər şey də yaxşıdır.

Mən martın 4-5-6-da Parisdə oldum. Martın 12-dən buradayam. Aprelin 1-də də Amerikaya gedirəm. Baxın, bir ay içərisində bu işləri kim görə bilər?

**J u r n a l i s t:** Hörmətli Cümhur başqanım, çox sağ olun. Bizə vaxt ayırdığınız üçün təşəkkür edirəm.

# AZƏRBAYCAN PREZİDENTİNƏ ANKARA UNİVERSİTETİNİN FƏXRİ DOKTORU ADI VERİLMƏSİ MƏRASİMİNDƏ NİTQ

*Ankara Universiteti*

*16 mart 2001-ci il*

*Azərbaycan Respublikasının prezidenti Heydər Əliyev və Türkiyə Cümhuriyyətinin prezidenti Əhməd Necdət Sezər Ankara Universitetinə gəldilər. Universitetin rektoru, professor Nüsrət Aras, Ankara valisi Yəhya Gur, təhsil ocağının professor və müəllimləri ali qonaqları hərarətlə, mehribanlıqla qarşıladılar.*

*Prezident Heydər Əliyev və prezident Əhməd Necdət Sezərin Ankara Universitetinin rektoru Nüsrət Aras ilə görüşü oldu. İki qardaş ölkənin dövlət başçısını salamlamaqdan böyük şərəf duyduğunu bildirən rektor Türkiyənin bu məşhur ali təhsil ocağı haqqında məlumat verdi.*

*Sonra Azərbaycan prezidenti Heydər Əliyevə Ankara Universitetinin fəxri doktoru adı verilməsi münasibətilə təntənəli mərasim keçirildi. Mərasimdə Türkiyənin Dövlət naziri Əbdülxalıq Çay, Təhsil naziri Mətin Bostançıoğlu, millət vəkilləri, professor-müəllim heyəti, ölkənin çoxsaylı kütləvi informasiya vasitələrinin nümayəndələri iştirak edirdilər.*

**Heydər Əliyev:** Türkiyə Cümhuriyyətinin prezidenti zati-aliləri, əziz dostum, qardaşım Əhməd Necdət Sezər!

Ankara Universitetinin hörmətli rektoru!

Hörmətli senatorlar!

Hörmətli xanımlar və cənablar!

Hörmətli dostlar!

Mən, Türkiyə Cümhuriyyətinin prezidenti, əziz dostum, qardaşım Əhməd Necdət Sezərin dəvəti ilə mart ayının 12-də Türkiyə Cümhuriyyətinə rəsmi səfərə gəlmişəm. Bu mənim Türkiyəyə ilk səfərim deyildir. 1992-ci ildən etibarən mən dəfələrlə Türkiyəyə gəlmişəm. Rəsmi səfərlər də, işgüzar səfərlər də olmuşdur. Sadəcə, görüşmək arzusunda olduğuma görə də gəlmişəm. Bunların hamısı mənim üçün qiymətlidir. Amma həyat inkişaf etdiyi kimi, insanların dünyaya baxışı da inkişaf edir və hər yeni atılan addım, təbiidir ki, əvvəlkindən daha önəmli olur. Ona görə də mən bu səfəri çox yüksək qiymətləndirirəm. Birincisi, ona görə ki, burada biz hörmətli prezident, əziz dostumla bərabər çox ətraflı, dərin məzmunlu görüşlər keçirdik, danışıqlar apardıq. Türkiyə–Azərbaycan əlaqələrinin bugünkü vəziyyəti və gələcəyi haqqında fikirlərimizi paylaşdıq və bir daha hər ikimiz eyni fikri ifadə etdik ki, Türkiyə–Azərbaycan əlaqələri gündən-günə inkişaf edir. Bunlar dostluq, qardaşlıq əlaqələridir. Bunlar dərin tarixi köklərimizlə, milli-mənəvi dəyərlərimizlə bağlı əlaqələrdir. Bir dilə, bir dinə, bir mədəniyyətə mənsub olmağımızla bağlı əlaqələrdir. Bir millət, iki dövlət əlaqələridir. Əgər beynəlxalq, uluslararası dildə danışsaq, strateji tərəfdaşlıq əlaqələridir. Bu həm Türkiyə, həm də Azərbaycan üçün çox önəmlidir. Çünki dünya ağır bir dövr yaşayır. Dünyada çox mürəkkəb proseslər gedir. Bu proseslərin bir qismi də, bəlkə də ən ağırı, Türkiyə də daxil olmaqla, bizim bölgəmizdə – Qafqazda gedir. Burada həm savaş, həm münaqişələr, həm də çox həll ediləsi məsələlər vardır. Bütün bu proseslərdə, təbiidir ki, Türkiyə və Azərbaycan həmişə yan-yana, bərabər olmuş, bir yolla getmişlər. Mən məmnuniyyətlə deyə bilərəm ki, bu gün biz bu

yolumuzun nə qədər doğru, düzgün olduğunu bir daha təsdiq etdik.

Bütün başqa görüşlər də mənim üçün əhəmiyyətli idi. Xüsusilə Türkiyənin çox hörmətli, mötəbər Böyük Millət Məclisində millət vəkillərinə, yəni xalqın təmsilçilərinə müraciətim və orada fikirlərimi izah etməyim mənim üçün çox əhəmiyyətli idi.

Türkiyədə olduğum bu günlər mənim üçün də, Azərbaycan xalqı üçün də əzizdir. Bizim buradakı görüşlərimiz, danışıqlarımız televiziya vasitəsilə hər gün Azərbaycana çatdırılır. Oradan mənə daim məlumat verirlər ki, xalqımız, millətimiz bunları böyük ruh yüksəkliyi ilə, heyranlıqla, həvəslə izləyirlər. Hamı da bundan məmnundur. Çünki biz dövlət adamları ilə bərabər, xalqımız da bu qardaşlığın nə qədər əhəmiyyətli olduğunu bilir, anlayır və istəyir.

Buradakı danışıqlarımızın əsas mövzularından biri Qafqazda sülh, əmin-amanlıq, təhlükəsizlik yaratmaqdan ibarətdir. Bu barədə Türkiyənin də, Azərbaycanın da təşəbbüsü olmuşdur. Bu, xalqlarımız üçün, Qafqaz üçün, bəlkə də bütün dünya üçün çox önəmlidir. Ancaq bizim üçün, yəni Azərbaycan üçün bunun daha böyük əhəmiyyəti vardır. Çünki bilirsiniz ki, 1988-ci ildən Ermənistan–Azərbaycan münaqişəsi başlayıbdır. 1988-ci ildə Ermənistan Azərbaycanın qədim torpağı, ayrılmaz hissəsi olan Dağlıq Qarabağı öz əlinə keçirmək üçün iddialarla çıxış etmişdir. O vaxtlar Azərbaycan da, Ermənistan da Sovetlər Birliyinin tərkibində olmuşlar. Ancaq, təəssüflər olsun ki, Sovetlər Birliyinin hökuməti, onun rəhbərləri o vaxt ədalət yolu ilə getmirdilər. Ermənistana daha da çox dəstək verirdilər, Azərbaycana isə yox.

Sonra Azərbaycanın daxilində sabitliyin olmaması, xalqın birləşmək iradəsinin çatmaması, ölkənin belə ağır vəziyyətdə olduğu vaxtda ayrı-ayrı insanların hakimiyyət mübarizəsi ilə məşğul olması və silahlı dəstələrdən istifadə etməsi, təbiidir

ki, o zaman bizim xalqımızı müəyyən qədər parçalamışdı. Bundan məharətlə istifadə edən ermənilər, əksinə, daxildəki bütün ziddiyyətlərin, ixtilafların hamısını kənara qoyaraq birləşmiş, Dağlıq Qarabağı ələ keçirmək üçün çalışmışlar. Məhz bu səbəblərdən Azərbaycan torpaqlarının iyirmi faizi Ermənistan tərəfindən işğal olunmuş, bu torpaqlardan bir milyondan artıq azərbaycanlı – sizin qardaşlarınız, bacılarınız yerindən-yurdundan zorla çıxarılmış, didərgin düşmüşdür və artıq 7-8 ildən çoxdur ki, çadırlarda yaşayırlar.

Biz 1994-cü ildə müharibəni dayandırdıq, atəşkəs haqqında saziş imzaladıq. Məsələni sülh, barış yolu ilə həll etməyə çalışdıq. Bunun özü, hesab edirəm ki, böyük hadisə idi. Çünki müharibə nəticəsində həm qan tökülür, həm şəhidlər verilirdi, həm də ki, təəssüflər olsun, Azərbaycanın torpaqları əlindən çıxmışdı.

Artıq 1994-cü ildən sülh danışıqları gedir. Bu danışıqları da ATƏT-in yaratdığı Minsk qrupu aparır. Minsk qrupu 12 dövlətdən ibarətdir. Onlardan biri də Türkiyədir. Minsk qrupunun həmsədrləri var. Bunlar Rusiya, Amerika Birləşmiş Ştatları və Fransadır. Onların vasitəsilə, Türkiyənin bu işdə çox fəal iştirakı ilə biz sülh danışıqlarını aparırıq.

Ancaq çox təəssüflər olsun ki, hələ indiyə qədər müsbət nəticə əldə edə bilməmişik. Yəni, əsas nəticə də ondan ibarət olmalıdır ki, sülh yaransın, Azərbaycanın ərazi bütövlüyü təmin edilsin, yerindən-yurdundan zorla çıxarılmış insanlar öz yerlərinə qayıtsınlar, Azərbaycanın suverenliyi, sərhədlərinin toxunulmazlığı beynəlxalq hüquq əsasında təmin olunsun. Əsas məqsədimiz bundan ibarətdir.

Ermənilər isə həmişə torpaq iddiası ilə yaşayırlar, siz bunu bilirsiniz. Osmanlı imperatorluğu dövründə guya ermənilərə qarşı soyqırımı edilməsi haqqında son vaxtlar bəzi ölkələrdə çıxarılan qərarlar tamamilə əsassız, uydurma, yanlış şeylərdir.

Mən bunu Böyük Millət Məclisində də demişəm, bu gün də deyirəm – bu olmayıbdır, bunu sadəcə, uydurublar.

Əgər o dövr, yaxud ondan sonrakı vaxt barədə danışsaq, əksinə, ermənilər azərbaycanlılara, türklərə qarşı soyqırımı ediblər. Məsələn, Dağlıq Qarabağ savaşında Ermənistanın silahlı qüvvələri Rusiyanın 366-cı alayının iştirakı ilə – bu alay onda Dağlıq Qarabağda yerləşirdi – Xocalı şəhərinin əhalisini bir gecənin içərisində qırdılar. Budur soyqırımı. Əgər onlar 85 il bundan əvvəlki «soyqırımı» haqqında danışırlarsa, bu isə indi, XX əsrin sonunda ermənilər tərəfindən azərbaycanlılara, türklərə qarşı edilən soyqırımıdır. Ona görə də soyqırımı haqqında danışmağa onların haqqı yoxdur. Soyqırımı haqqında danışmağa bizim haqqımız var.

Bununla onu demək istəyirəm ki, təəssüflər olsun, ermənilər Amerika Birləşmiş Ştatlarındakı, Fransadakı, Avropanın başqa ölkələrindəki diasporundan istifadə edərək, bax, bu cür qərarlar da çıxarda bilirlər. Onlar bizim sülh danışıqlarımızda da ədalət mövqeyində durmurlar. Torpaqlarımızı işğal etdiklərinə görə, bizim üçün uyğun olmayan şərtlər irəli sürürlər. Təbiidir ki, bu şərtləri də biz qəbul edə bilmirik. Ona görə də sülh danışıqları uzanır.

Bilirsiniz ki, yanvar ayında mən Parisdə olarkən Ermənistan prezidenti Köçəryanla iki dəfə görüşdüm. Sonra Fransa prezidenti Jak Şirak vasitəsilə, onunla bərabər, üçümüz bir yerdə görüşdük. Ancaq bu görüşlər də o qədər böyük nəticə vermədi. İndi – düşünürəm ki, televiziyadan siz artıq bilirsiniz – Amerika Birləşmiş Ştatlarının hökuməti Azərbaycan prezidentini və Ermənistan prezidentini ABŞ-a dəvət edibdir. Aprelin 3-də Floridada bizim aramızda danışıqlar olacaqdır. Kolin Pauell bu təşəbbüsdədir. Ancaq prezident Buş da bu işlə məşğuldur. Onların tərəfindən bizə verilən məlumata görə, bu görüş təkcə ABŞ-ın yox, həm də Minsk qrupunun həmsədrləri olan Rusiyanın, Fransanın təmsilçilərinin iştirakı ilə

keçiriləcəkdir. İndi mən oraya getməliyəm. Arzu edirəm ki, biz orada irəliyə doğru hansısa addım ata bilək. Ermənistanla–Azərbaycan arasında sülh yarada bilək. Əsas da ondan ibarətdir ki, işğal edilmiş torpaqlarımız azad olunsun.

Bunları mən sizə, sadəcə, məlumat kimi deyirəm. Ancaq eyni zamanda demək istəyirəm ki, bu mövzu bizim hörmətli cümhur başqanı ilə danışıqlarımızın əsas hissəsini təşkil edibdir. Çünki biz həmişə Türkiyə ilə bərabər olmuşuq. İndi də məsələnin həllinin bu mərhələsində yenə də Türkiyə ilə məsləhətləşmək, dövlət başçısı ilə, hökumət başçıları ilə fikir mübadiləsi aparmaq bizim üçün çox lazımdır.

Mən bütün səfər haqqında danışmaq istəmirəm. Ancaq bu mövzunu sizə çatdırıram ki, görün, bizim bu görüşlərimizin, Türkiyəyə mənim rəsmi səfərimin Azərbaycan üçün nə qədər böyük əhəmiyyəti var.

Başqa məsələlər barədə də danışdıq. Məsələn, Bakı–Ceyhan neft boru xətti – bilirəm ki, Türkiyədə bu hamını maraqlandıran məsələdir – haqqında da hər şeyin hazır olduğunu müəyyən etdik. Proqram tərtib olunubdur. Həmin proqram üzrə iş gedir. Bakı–Ceyhan boru xətti çəkiləcək, başa çatacaqdır. Azərbaycan nefti Türkiyəyə gələcək və buradan Ağ dənizə – Aralıq dənizinə çatdırılacaqdır.

Bilirsiniz ki, Azərbaycanda böyük qaz ehtiyatları vardır. Son vaxtlar biz onun Türkiyəyə satılması haqqında danışıqlar aparırdıq. Bu görüşlər, danışıqlar nəticəsində Azərbaycanın təbii qazının Türkiyəyə satılması haqqında burada anlaşmalar imzalandı. Başqa çox əhəmiyyətli məsələlər də oldu. Ona görə də mən bu səfərimdən çox məmnunam.

Bu səfərimin daha bir, özü də çox önəmli nöqtəsi mənim Ankara Universitetinə gəlməyim, bu universitetin mənə böyük hörmət göstərməsi, məni universitetin fəxri doktoru adına layiq görməsidir. Mən bundan qürur hissi duyuram. Çox fəxr edirəm və Ankara Universitetinin senatorlarına,

rektoruna, bu qərarı çıxaranların hamısına səmimi-qəlbdən təşəkkürümü bildirirəm. Çox sağ olun.

Ankara Universiteti Türkiyənin ən hörmətli, ən böyük universitetlərindən biridir. Mən əvvəlcə də bilirdim, ancaq məlumat gələndə ki, mənə fəxri doktor adı verilibdir, təbiidir, Ankara Universitetinin tarixi ilə bir də tanış oldum. Bu məni çox sevindirdi. Çünki bütün başqa nailiyyətləri, uğurları ilə yanaşı, Ankara Universitetinin ən böyük iftixar mənbəyi ondan ibarətdir ki, o, böyük Mustafa Kamal Atatürkün qəbul etdiyi qərarla Türkiyədə yaradılmış ilk universitetlərdən biridir.

İkincisi, ondan ibarətdir ki, Ankara Universiteti böyük Atatürkün vəsiyyətlərini yerinə yetirir. Çünki mən orada oxuyuram... «Həyatda ən həqiqi mürşid elmdir». Mustafa Kamal Atatürkün bu sözləri Türkiyədəki bütün universitetlər, elm adamları, o cümlədən Ankara Universiteti üçün vəsiyyətdir. Yəni bu o yoldur ki, həmin yolla getmək lazımdır. Ankara Universiteti də bu yolla gedir.

Ankara Universiteti ilə Azərbaycan arasındakı əlaqələr də məni çox sevindirir. Çünki rektor artıq söylədi ki, Azərbaycandan burada 150 tələbə təhsil alır, 7 müəllim dərs deyir. Bu da çox önəmlidir.

Ankara Universiteti Azərbaycanın universitetləri ilə elm və təhsil sahəsində əlaqələr yaradıbdır. Bakı Dövlət Universiteti – bu universitetin 81 yaşı vardır – 1919-cu ildə yaranıbdır və çox böyük təhsil ocağıdır. Ondan sonra, dediniz ki, Naxçıvan Universiteti və Lənkəran Universiteti, Elmlər Akademiyası ilə əlaqələr yaradıbdır.

Azərbaycan Elmlər Akademiyası çox böyük bir elm mərkəzidir. Bilirsinizmi, bu, vaxtilə Sovetlər Birliyinin yaratdığı bir qurumdur. Yəni, Türkiyə kimi dövlətlərdə keçmişdə də, indi də belə bir mərkəz–elm mərkəzi, Elmlər Akademiyası olmayıbdır. Bu, keçmiş rus imperatorluğundan qalmış ənənə-

dir. Amma Sovetlər Birliyində Elmlər Akademiyası ən yüksək elm mərkəzi idi. Sovetlər Birliyinin müsbət və mənfi cəhətlərinin hamısını biz bilirik, mənfi cəhəti daha çoxdur, nəinki müsbət cəhəti. Ancaq elm sahəsində çox işlər görübdür. Məsələn, hələ keçmişdən mövcud olan Elmlər Akademiyasının sonralar inkişaf etməsi, Sovetlər Birliyinə daxil olan 15 müttəfiq respublikanın hər birində – onlardan biri də Azərbaycan idi – akademiyanın yaradılması. Azərbaycanda Elmlər Akademiyası 1945-ci ildə yaranıbdır və o çox işlər görübdür. Doğrudur, indi, keçid dövründə onun problemləri vardır. Amma biz bu problemlərin də hamısını çözəcəyik. Mən çox məmnunam ki, Ankara Universiteti Azərbaycanın Elmlər Akademiyası ilə bağlıdır. Çünki Azərbaycanda Elmlər Akademiyası təhsillə məşğul deyildir.

Onlar elmi tədqiqatlarla məşğuldur. Buna görə də bu əlaqələr çox əhəmiyyətli və önəmlidir.

Azərbaycanda elm adamları, elm mərkəzləri, universitetlər Türkiyə ilə, türk dünyası ilə bağlı olan bir çox məsələlər barədə araşdırmalar, tədqiqatlar aparırlar. Bunlar öz yerində. Mənim təşəbbüsümlə Azərbaycanda böyük Atatürkün irsinin öyrənilməsi, araşdırılması mərkəzi yaradılıbdır. Bu mərkəz müstəqil bir təşkilat olacaqdır. Həm Elmlər Akademiyasının, həm də ölkəmizin bütün universitetlərinin bu sahədə ən bilikli adamları buraya toplaşacaqdır. Mən də – Azərbaycan prezidenti də, bu mərkəzin fəxri başqanıyam. Güman edirəm ki, bu mərkəz Azərbaycan ilə Türkiyə arasında tarixi əlaqələrin nə qədər sıx olduğunu bir daha elmi nöqteyi-nəzərdən araşdıracaq və meydana çıxaracaqdır. Bu, geniş işbirliyi yaratmaq üçün bir daha imkanlar verəcəkdir.

Mən çox məmnunam ki, sizin universitet Azərbaycan Elmlər Akademiyası ilə birbaşa bağlıdır. Ona görə də mən arzu edirəm ki, Ankara Universiteti mənim başqanlıq etdiyim

mərkəzlə Atatürk irsinin araşdırılması, türk xalqlarının tarixinin və tarixi birliyinin tədqiq olunması sahəsində də iş görsün.

Bilirsinizmi, əziz dostlar, mən həyatımda çox mükafatlar almışam. Burada həyatım haqqında qısa məlumatlar verildi, hər halda, həyatımda çox işlər də görmüşəm, çox problemlərlə də rastlaşmışam. Ancaq mükafatlar çox almışam, həm Sovetlər Birliyinin, həm də bir çox ölkələrin mükafatlarını almışam. Bu mükafatlar içərisində mənim üçün ən yüksək mükafat 1999-cu ildə Türkiyə tərəfindən verilmiş Atatürk Beynəlxalq Sülh mükafatıdır. Mən bunu özüm üçün böyük şərəf hesab edirəm və bu adı həyatımın sonuna qədər böyük fəxrlə daşıyacağam.

Universitetlər də mənə çoxlu belə fəxri adlar veriblər. Məsələn, 250 illik tarixi olan Moskva Dövlət Universiteti üç ay bundan öncə – heç mənim bundan xəbərim olmayıbdır – mənə oranın fəxri doktoru adını veribdir. Məni Moskvaya dəvət ediblər ki, gedib onu alım. Əgər gedə bilməsəm, onlar özləri Azərbaycana gələcəklər.

Mən vaxtilə Moskvada SSRİ Nazirlər Soveti sədrinin birinci müavini olarkən, bütün Sovetlər Birliyinin elm və təhsil işlərinə başçılıq edirdim. O vaxt Sovetlər Birliyində 800-dən artıq universitet, Elmlər Akademiyası və sair var idi. Mən onlarla çox yaxın təmaslarda olmuşam. Amma o vaxtlar onlar bu adı verməyiblər. Çünki Sovetlər Birliyi zamanı belə şeylər bir qədər qadağan idi. Amma neçə illərdir ki, mən oradan ayrılmışam – indi mən Azərbaycan kimi müstəqil bir dövlətin başçısıyam – amma 250 illik tarixi olan Moskva Dövlət Universiteti mənə fəxri doktor adı veribdir.

Mən Türkiyədə də bəzi universitetlərdən bu adı almışam. Ancaq Ankara Universitetinin, böyük Atatürkün qərarı ilə yaradılmış universitetin və bu qədər inkişaf etmiş bir təhsil ocağının, bu qədər çoxlu kadrlar hazırlamış universitetin fəxri doktoru adı mənim üçün çox yüksəkdir. Bir də ona görə

ki, Türkiyənin bir çox dövlət adamları sizin universitetin məzunudur – millət vəkilləri, nazirlər. Amma Türkiyənin bugünkü 13-cü Cümhur başqanı, mənim əziz dostum və qardaşım Əhməd Necdət Sezər də sizin universitetdə təhsil alıbdır. Buradan həyata atılıbdır və siz ona o qədər yaxşı bilik vermisiniz və burada o qədər yaxşı təhsil alıbdır ki, artıq bu gün gəlib Türkiyənin Cümhur başqanı səviyyəsinə çatıbdır.

Ona görə də mən bu gün burada hörmətli cümhurbaşqanı ilə bir yerdə olmağımdan çox məmnunam. Əziz dostum, mən sizi də təbrik edirəm ki, Sizin təhsil aldığınız bir universitet indi bu qədər yüksək səviyyədədir. Düşünürəm ki, Cümhur başqanı kimi, Siz təhsil aldığınız bu universitetə daha çox yardım edəcəksiniz.

Əziz dostlar, mən sizə bir daha təşəkkür edirəm. Əmin ola bilərsiniz ki, Ankara Universitetinin fəxri doktoru adını şərəflə daşıyacağam. Bu mənim üzərimə böyük vəzifələr qoyur. O da ondan ibarətdir ki, Türkiyə və Azərbaycan arasında elm, təhsil sahəsində əlaqələrin inkişaf etməsində daha çox işlər görək. Əmin ola bilərsiniz ki, mən bunu da edəcəyəm. Sizin hər birinizi Azərbaycanda görməkdən məmnun olacağam.

Sizə təşəkkür edirəm. Universitetə, hamınıza – universitetin həm müəllimlərinə, həm də tələbələrinə cansağlığı, səadət və yeni-yeni uğurlar arzulayıram. Sağ olun.

* * *

**H e y d ə r  Ə l i y e v:** Bilirsiniz ki, Azərbaycan rəssamları çox gözəl sənətkarlardır. Onların bir qismi indi burada, Türkiyədə çalışır. Burada həm dərs deyirlər, həm də gözəl əsərlər yaradırlar. Belə böyük rəssamlardan biri də Bakının bir mənzərəsini təsvir edibdir. Mən bu tablonu universitetə hədiyyə edirəm. Güman edirəm ki, o özünün mötəbər yerini

tutacaqdır və siz Azərbaycanı, Bakını bu rəsm əsəri ilə daha da yaxından tanıyacaqsınız.

**N ü s r ə t   A r a s:** Çox təşəkkür edirəm, sayın Cümhur başqanım. Təqdim etdiyiniz tablo bu gündən sonra senator salonumuzda qalacaqdır.

**H e y d ə r   Ə l i y e v:** Bu onun pasportudur, pasportsuz olmaz. Bu da ki, son iki-üç ildə, xüsusən Atatürk Sülh mükafatının mənə verilməsi zamanı mənim buradakı təmaslarım, Türkiyə–Azərbaycan əlaqələri haqqında kitabdır. Bunu da sizə təqdim edirəm. Sağ olun.

**N ü s r ə t   A r a s:** Sağ olun, çox təşəkkür edirəm.

# TÜRKİYƏNİN BÖYÜK MİLLƏT MƏCLİSİNİN DEPUTATLARI ƏLİ GÜNƏR, ASLAN HAYDAR VƏ OSMAN GƏZƏGƏRLƏ GÖRÜŞDƏ SÖHBƏT

*Ankara,*
*Azərbaycan prezidentinin iqamətgahı –*
*Camlı köşk*

*16 mart 2001-ci il*

**H e y d ə r Ə l i y e v:** Sizi, hörmətli millət vəkillərini səmimi-qəlbdən salamlayıram.

**Ə l i G ü n ə r:** Hörmətli Cümhur başqanım, Sizi görməkdən hədsiz məmnunuq və çox şadıq. Biz bu görüşdən böyük şərəf duyur, daha da sevinirik. Allah Sizi başımızın üstündən əskik etməsin.

Mən bir neçə dəfə Bakıya gəlmişəm. Siz Naxçıvanda olan zaman da bizim əlaqələrimiz var idi. Mən Böyük Millət Məclisində İğdırdan seçilmiş millət vəkiliyəm. Aslan bəy də Qarsdan seçilmiş millət vəkilidir.

**H e y d ə r Ə l i y e v:** Sən Qars millət vəkilisən?

**A s l a n H a y d a r:** Bəli.

**Ə l i G ü n ə r:** Cənab Prezident, İldırım Turan bizim bələdiyyə başqanımız idi. Həsən İpək də işləyir.

**H e y d ə r Ə l i y e v:** Həsən İpək kaymakam idi.

**Ə l i G ü n ə r:** Bəli, onda kaymakam idi. Sonra İzmirdə vali müavini oldu. Osman bəy də buradadır.

**H e y d ə r Ə l i y e v:** Osman bəy Qarsda əmniyyət müdiri idi.

**Ə l i G ü n ə r:** Bəli. Sonralar o, Bakıda oldu.

**A s l a n H a y d a r:** Hörmətli Cümhur başqanım, mənim atam Borçalıdandır. Görüşümüzdən çox məmnun oldum. Siz həmişə fəxr etdiyimiz, iftixar duyduğumuz insansınız. Azərbaycanın ayaq üstə möhkəm durması millət vəkili kimi, bizləri və Türkiyə Cümhuriyyətini məmnun edəcəkdir. Biz hər yerdə söyləyirik ki, əgər sizin barmağınız qanasa, bizim ürəyimiz qanayar. Onun üçün də bizlər sizin əmrinizi gözləyirik, canla-başla hazırıq. İğdırla Qars bir-biri ilə bağlıdır, İğdır Qarsdan ayrılmışdır.

**Ə l i G ü n ə r:** Atamız Qarsdır.

**A s l a n H a y d a r**: Bəli. Oradakı problemimiz, Şərq qapısının problemi Azərbaycanın da problemi olduğu üçün biz qapının açılmasına yol verə bilmərik. Həqiqətən Azərbaycanın, bizim soydaşlarımızın torpaqları işğaldan azad edilməyincə, o qapının açılmaması üçün əlimizdən gələn hər şeyi edəcəyik. Bunun üçün çalışırıq. Bu fikirləri Sizin Ankara Universitetindəki məzmunlu nitqinizdə də duyduq. Amma şəxsi fikrim kimi söyləyirəm. Türk dənizi içində ada olan bir ovuc erməni, hesab edirəm ki, bir gün daşan dənizin içində boğulacaqdır. Mən proqramı pozub çıxışımı uzatmaq istəmirəm. Biz ancaq söhbət etmək vəsiləsi ilə buraya gəldik. İnşallah, gələcək günlərdə yenidən görüşəcəyik. Bizə əmirləriniz olsa, hazırıq. Bütün soydaşlarımıza, qardaşlarımıza sizin şəxsinizdə hörmət və məhəbbətimizi bildiririk. Çox təşəkkür edirəm.

**H e y d ə r Ə l i y e v:** Sağ olun, təşəkkür edirəm.

Türkiyə Azərbaycanın qardaşıdır. Azərbaycan da Türkiyənin qardaşıdır. Siz Böyük Millət Məclisində var idiniz. Mən orada bütün bu sözləri demişəm. Təkrar etməyə ehtiyac yoxdur. Amma Türkiyənin doğu hissəsində – Qars, İğdır, Ərzurum və başqa şəhərlərdə – Azərbaycandan köçmüş adamlar çoxdur. Orada yerli adamlar da elə azəri soyköklüdürlər. Mən bunlara təkcə Qarsda, İğdırda rast gəlmirəm. Onlar

İstanbulda da, Ankarada da, başqa yerlərdə də çoxdur. Hətta Avropada da var. Məsələn, mən Brüsselə getmişdim. Orada məni qarşılamağa çox azərbaycanlılar gəldi. Onların 90 faizi İğdırdan idi. Yaxud İsveçrədə, Avropanın başqa yerlərində də var.

Sizin bölgə Türkiyənin çox önəmli bir bölgəsidir. Çünki indi erməni problemi haqqında danışanda ermənilər hesab edirlər ki, guya o torpaqlar onlarınkıdır, vaxtilə guya soyqırımı edəndə erməniləri orada qırıblar, oradan qovublar. Bunları siz bilirsiniz. Bilmirəm, indi Qarsa, İğdıra necə, amma bilirəm ki, keçmişdə Fransadan, filandan Ərzuruma çoxlu turist gələrdi. Onlar qayıdanda oradakı qəbirlərin guya erməni qəbirləri olduğunu deyərdilər. Sonra Qarsda Ani adlı yer var. Bilirsiniz, ermənilər hesab edirlər ki, guya ora onların qədim paytaxtıdır. Ona görə siz bu barədə cəbhənin önündəsiniz. Təbiidir ki, öz vəzifələrinizi yerinə yetirməlisiniz.

Mən bunu bir neçə dəfə açıq demişəm, son vaxtlar Avropa ölkələrində «soyqırımı» haqqında qəbul olunan qərarlara görə hiss etdik ki, burada, Türkiyədə ermənilərə qarşı bir az yumşalma əmələ gəlibdir. Ancaq mən Bakıda da dedim, buradakı görüşlərimdə də dedim. Qars qapısının açılması, o biri qapının açılması məsələsi yeni bir şey deyildir. Bunu hələ bir-iki-üç il bundan öncə hörmətli dostum Süleyman Dəmirəl mənə söyləmişdi. Deyir ki, mən Qarsa getmişdim. Orada gəlib mənə deyirlər ki, siz bu qapını açın, biz ticarət edək. Özü də mənə dedi ki, bunların hamısı azərilərdir. Mən də dedim ki, siz qəpik-quruşdan ötrü bizim böyük bir siyasətimizi pozmaq istəyirsiniz. Süleyman Dəmirəl də, digərləri də dəfələrlə demişdilər.

Bu dəfə mən yenə görüşdüm – Cümhur başqanı Əhməd Necdət Sezər, Baş nazir Bülənd Ecevit, başqaları, hamısı deyir ki, Ermənistan silahlı qüvvələri Azərbaycanın işğal edilmiş torpaqlarından çıxmayınca, Türkiyə ilə Ermənistan arasında

heç bir əlaqə ola bilməz. Yəni nə ticarət ola bilər, nə diplomatik əlaqələr ola bilər, nə də sərhədlər açıla bilər. Ona görə də siz sərhəddəsiniz, bu məsələdə çox bərk durun. Çünki orada bəzi adamlar anlamırlar. Bilirsiniz, onların başını pul daha da qatır. Onlar dövlət adamlarına deyirlər ki, qapını açın, nə üçün qapını açmaq istəmirsiniz? Bilirsiniz ki, İğdırda da bir qapı var. Bəziləri orada demişdilər ki, qapını açın. Ancaq belə ola bilməz. Mən bilirəm ki, bu ola bilməz.

Ziyarətim zamanı apardığım bütün danışıqlarda biz bir daha eyni fikirdə olduq ki, bu ola bilməz. Biz – Türkiyə və Azərbaycan gərək birlikdə Ermənistan silahlı qüvvələrinin Azərbaycanın işğal olunmuş torpaqlarından çıxmasını təmin edək. Azərbaycanın torpaq bütövlüyünü təmin edək. Öz torpaqlarından zorla çıxarılmış bir milyondan artıq azərbaycanlı doğma yerlərinə qayıtmalıdır. Ondan sonra, təbiidir, başqa məsələlər də ola bilər. Türkiyə ilə Ermənistan arasında qapı da açıla bilər, sərhəd də açıla bilər.

Türkiyənin Ermənistanla böyük sərhədi var. Əgər bu sərhəd açıq olsaydı, ermənilər həm Türkiyə ilə, həm də başqa yerlərlə ticarət edə bilsəydilər, onlar belə çətin iqtisadi vəziyyətdə olmazdılar. İndi onların Mehri bölgəsində İranla kiçik, 42 kilometrlik sərhədləri var. Oradan böyük ticarət edirlər.

Mənim xatirimdədir, Ermənistanın keçmiş prezidenti Ter-Petrosyan bir neçə dəfə demişdi ki, əgər İran ilə Ermənistan arasındakı o qapı iki gün bağlansa, Ermənistan boğulacaqdır. İndi görün, bunun nə qədər böyük əhəmiyyəti var. Ermənistanda iqtisadiyyat çox pisdir, vəziyyətləri ağırdır. İnsanların çoxu oradan çıxıb gedir. Özlərinə başqa ölkələrdə – Rusiyada, Avropada, Amerikada yer axtarırlar. Heç vəhclə, heç vaxt imkan vermək olmaz ki, burada Türkiyə onlarla hansısa bir əlaqədə olsun. Yenə deyirəm, siz orada cəbhənin önündəsiniz və millət vəkilisiniz, sizin səsiniz var. Siz bu səsinizdən istifadə etməlisiniz.

**A s l a n  H a y d a r:** Hörmətli Cümhur başqanım, vaxtımız keçir, amma bir şey söyləmək istəyirəm. Səlcuq sultanı Alp Arslanın dövründən ermənilər türkün gücünü bilirlər. Sizin dediyiniz kimi, biz Qarsdayıq. İğdır, Qars, Ərdahan, Ərzurum Ermənistan ilə sərhəddə yerləşir.

Ümumiyyətlə, Azərbaycanda, Qarabağda, Xocalıda daim soyqırıma məruz qalan türklər olmuşlar. Biz bunların araşdırılması üçün Böyük Millət Məclisinə təkliflər verdik, müzakirələr apardıq. İndi vaxtın azlığından tam söyləyə bilmirik. Amma biz Böyük Millət Məclisində bunu təfərrüatı, tarixi faktlarla hazırladıq, sübut etdik və Allah nəsib edərsə, bütün dünyaya çatdıracağıq. Bir ovuc erməni türk millətinin tayı deyildir. Amma bir atalar misalı var: Oğru elə bağırdı ki, doğrunun bağrı yarıldı. Onlar tarix boyu belə olublar. Fürsət düşən kimi, dünyaya car çəkirlər. Ona görə də, buyurduğunuz kimi, biz bunları bilən insanlarıq.

Sizin siyasi təcrübənizə də bələdik. Allah Sizi üstümüzdən əskik etməsin. Türkiyə Cümhuriyyəti ilə Azərbaycan – bu, Sizin sözünüzdür, həmişə söyləyirik – bir millətin iki dövlətidir. İnşallah, hər şey yaxşı olacaqdır. Bizim də könlümüz, Sizin də könlünüz rahatdır. Biz buna əminik. Sizə çox təşəkkür edirik.

**H e y d ə r  Ə l i y e v:** İndi Gəncə ilə Qars qardaşlaşmış şəhər oldu. Biz anlaşma imzaladıq. Ona görə də Gəncə və Qars bir-birinə çox yaxın olmalıdır. Bu da bizim əlaqələrimizi artırmalıdır. Mən də Qarsa gələcəyəm. O vaxt Naxçıvanda yaşayanda Qarsda bir neçə dəfə oldum. Qarsda Qafqaz Universiteti var. Onlar mənə fəxri doktor adı veriblər. Mən həmin universitetdə olmalıyam, Qarsı görməliyəm. 1992-93-cü illərdən sonra Qarsı görməmişəm. Deyirlər, İğdır da çox gözəlləşib, dəyişibdir. Mən 1992-ci ildə İğdırda olanda, ora bir kənd idi. Amma biz orada Naxçıvan ilə dostluq qapısını açdıq. İndi orada ticarət gedir. Həm naxçıvanlılar gəlir götürür,

həm də iğdırlılar. İndi İğdır böyük şəhər olubdur. Mən keçmişdə xəritədə baxırdım, kitablardan oxuyurdum. Mənim fikrimdə İğdır böyük bir şəhər idi. Amma 1992-ci ildə Naxçıvandan ilk dəfə İğdıra gələndə bir kənd gördüm. Amma indi inkişaf edibdir. Qars da çox dəyişilibdir. Mən sizə uğurlar arzulayıram.

**Ə l i  G ü n ə r:** Hörmətli Cümhur başqanım, təbii, bizim boynumuza çox iş düşür, yəni boynumuzda böyük yük var. Azərbaycanın Dağlıq Qarabağ torpağını ermənilər işğal etmişlər, indi torpaqlar işğal altındadır. Türkiyə bunu bilir. Ermənilər o torpaqları işğal edib, indi də deyir ki, Ağrıdağ da, Qars da mənimdir. Əgər biz desək bura bizimdir, ora bizimdir, onda dünya ayağa qalxar. Onların istəklərini gözündə qoymaq lazımdır.

Azərbaycanlı qardaşlarımızla, Naxçıvanla əlaqələrimiz həqiqətən, çox yaxşıdır. Bilirsiniz ki, Qars üç yerə – Qars, Ərdahan, bir də İğdıra bölündü. Sizin və cənab Süleyman Dəmirəlin vasitəsi və iştirakı ilə İğdırda qardaşlıq körpüsü açıldı.

**H e y d ə r  Ə l i y e v:** Həm körpünü açdıq, həm də İğdırın yaxşı olması üçün mən çox səylər göstərdim. Hörmətli Süleyman Dəmirələ dəfələrlə dedim ki, İğdır ayrılmalıdır. Çünki Qarsla İğdır arasında 200 kilometrdən çox məsafə var. Çox böyük ərazidir. Qarsda keçirilən təntənələrdə gəlib iştirak etdim. Xatirinizdədir.

**Ə l i  G ü n ə r:** Bəli. Həqiqətən, bu körpü açıldıqdan sonra qardaşlarımız, vətəndaşlarımız 70 illik həsrətə son qoydular.

Cənab Prezident, Qarabağ məsələsi bizim içərimizdə bir yaradır. Mən Bakıya çox gəlib gedirəm. Qaçqınların vəziyyətini görürəm. Əzab çəkirik. Görün, bir ovuc erməni bizim başımıza nə oyunlar açır. Amma inşallah, zaman gələcək, həqiqət bizim olacaqdır. Biz əl-ələ verərək, bir-birimizə səmimi olaraq, niyyətimizə çatacağıq.

Hazırda İğdırdakı körpü vasitəsilə faydalı ticarət həyata keçirilir. Mən iki gündən bir Naxçıvanda oluram. Elə bil öz kəndimə gedirəm. Naxçıvanda hər kəs bizimlə dostdur. Naxçıvanın rəhbəri də buradadır. Biz onunla bu gün görüşdük.

Cənab Prezident, mazut gətirilməsi daha da azalıbdır. Cəmi 15 min ton gəlir. Biz bunu tam yarıya bölürük. Yəni yarısını sizinkilərə, yarısını da bizimkilərə veririk.

**H e y d ə r  Ə l i y e v:** Mən Baş nazir Bülənd Ecevitlə bu barədə danışdım. Naxçıvanın başçısı Vasif Talıbov da həmin bunu Baş nazirə söylədi, oradakı, sərhəddəki işin vəziyyəti barədə ona məlumat verdi ki, indi sən dediyin məsələlər çözülsün. Çünki bunlar sizin üçün də lazımdır, Naxçıvan üçün də lazımdır. Biz bunları etdik.

**Ə l i  G ü n ə r:** Hörmətli Cümhur başqanım, çox gözəl. Millət vəkili kimi, bizim bir təklifimiz də var. Xüsusi bir sənəd olsa, yaxşı olar. Yəni şəxsiyyəti təsdiq edən sənədlə vətəndaşlar Naxçıvana getsin, Naxçıvandan da bizə gəlsinlər. Naxçıvanda çoxlu meyvə var.

**H e y d ə r  Ə l i y e v:** Naxçıvanda meyvələr tökülüb qalır. Amma sizin gömrük imkan vermir ki, onlar gətirib burada satsınlar. Mən bunları bilirəm. Qarsda meyvə yox, Ərzurumda meyvə yox. Meyvə bircə İğdırdadır. Türkiyədə hər yerdə deyirlər ki, İğdırın əriyi ən ləzzətli ərikdir. Amma Ordubad əriyi, Naxçıvan əriyi o qədərdir ki, Qarsı da, Ərzurumu da, İğdırı da – hamısını təmin edə bilər. Amma orada sizin tərəf bir az problemlər yaradıbdır. Mən onu Baş nazir Bülənd Ecevitə dedim.

**Ə l i  G ü n ə r:** Hörmətli Cümhur başqanım. Çox təşəkkür edirik. Sizə hörmət və ehtiramımızı bir daha bildiririk. Biz Sizin çörəyinizi çox yemişik. Siz də gəlin, bizə qonaq olun. Sizi İğdırda gözləyirik.

**H e y d ə r  Ə l i y e v:** Gələcəyəm. İğdırda olacağam.

**Ə l i  G ü n ə r:** Siz bizim böyük babamızsınız. Allah Sizə uzun ömür, cansağlığı versin. İnşallah, Qarabağ məsələsi də həll olunacaqdır. Ondan sonra hər kəs böyük fərəhlə öz evində oturub Sizə dualar edəcəkdir.

**A s l a n  H a y d a r:** Hörmətli Cümhur başqanım, Sizi Qarsda görməkdən şərəf duyacağıq.

**H e y d ə r Ə l i y e v:** Çox sağ olun. İğdırlılara, qarslılara salam söyləyin.

**O s m a n  G ə z ə g ə r:** Möhtərəm Cümhur başqanım, Allah Sizə cansağlığı, uzun ömür versin. İnanırıq ki, Azərbaycanın ən əsas problemi tezliklə həll olunacaqdır. Sizə dərin minnətdarlığımızı bildiririk.

**H e y d ə r  Ə l i y e v:** İnşallah. Çox sağ olun. Təşəkkür edirəm.

# TÜRKİYƏNİN «SABAH» QƏZETİNİN SİYASİ ŞƏRHÇİSİ FÜSUN MUTLUYA VERDİYİ MÜSAHİBƏ

*Ankara,*
*Azərbaycan prezidentinin iqamətgahı –*
*Camlı köşk*

*16 mart 2001-ci il*

**S u a l: Cənab Prezident, Sizi görməkdən çox məmnunam. Vaxtınızı çox almaq istəmirəm. Bilirəm ki, işiniz çoxdur. Bir zaman Türkiyə Azərbaycanı qardaş hesab edirdi. Sizin parlamentdəki nitqinizi eşitdim, indi Türkiyənin qardaşı siz olmusunuz. Bu barədə nə deyə bilərsiniz?**

**C a v a b:** Yox, mən bunu qəbul edə bilmərəm. Türkiyə bizim üçün qardaşdır. Mən Böyük Millət Məclisində qəlbimdən gələn sözləri dedim.

**J u r n a l i s t: Çox gözəl çıxış etdiniz.**

**H e y d ə r  Ə l i y e v:** Xoşunuza gəldimi?

**J u r n a l i s t: Çox xoşumuza gəldi, ürəkdən bəyəndik.**

**Sizdən bir məsələni də soruşmaq istəyirəm. Siz bir neçə il Dəmirəl ilə işbirliyi qurdunuz, Bakı–Ceyhan yolunda xeyli işlər görməyə səy göstərdiniz. İndi isə hörmətli Sezər ilə birlikdəsiniz. Dəmirəl ilə Sezər arasında hansı fərqlər var və bu barədə nə deyə bilərsiniz?**

**C a v a b:** Sən bu sualı mənə nə üçün verirsən? İnsanları heç vaxt müqayisə etmək olmaz. Mən bu barədə bir fikir söyləmək istəmirəm. Mən Dəmirəl ilə 30 il bundan öncə tanış olmuşam. Azərbaycan Dövlət müstəqilliyini əldə edən zaman

Dəmirəl Türkiyədə Baş nazir idi. Sonra da Cümhur başqanı oldu. Bu il Azərbaycanın müstəqilliyinin 10 ili tamam olacaqdır, bu dövr ərzində Türkiyənin başında Dəmirəl durubdur. Müəyyən bir vaxt rəhmətlik Özal da olub, amma o, 1993-cü ildə vəfat etdi.

Türkiyə–Azərbaycan dostluğu, qardaşlığında eyni zamanda insanlar arasında olan münasibətlərin də əhəmiyyəti var. Mən Süleyman Dəmirəl ilə keçmişdən yaxın dost olmuşam. Mən Naxçıvanda çalışanda, Naxçıvan blokadada olanda Süleyman Dəmirəl və rəhmətlik Turqut Özal oraya çox diqqət göstərirdilər. Ancaq Süleyman Dəmirəl Baş nazir olduğu üçün o, Naxçıvana daha da çox diqqət göstərirdi.

Məsələn, sizə məlum olan «Həsrət körpüsü»nü o vaxtlar yaratdıq. Bu, Naxçıvanın xilası demək idi. Naxçıvan qaranlıqda idi, elektrik enerjisi, filanı yox idi. Qısa bir zamanda Türkiyədən Naxçıvana ilk dəfə elektrik xətti çəkildi. Hələ mən Naxçıvanda olarkən rəhmətlik Turqut Özal məni buraya dəvət etdi. Mən Naxçıvanın rəhbəri olanda Süleyman Dəmirəl ilə Naxçıvanı yaşatmaq üçün çalışdıq. Onlar bu işdə bizə çox yardım etdilər. Ona görə də bizim bu dostluğumuzun, işbirliyimizin, əməkdaşlığımızın tarixi böyükdür.

Mən 1993-cü ildə Azərbaycanın Cümhur başqanı olanda biz daim əlaqədə olmuşuq, dostuq. Mənim bu dostluğum əbədidir. Mən gəlib burada Süleyman Dəmirəllə görüşdüm, çox məmnun oldum. Ancaq dövlətlərin başında heç kəs daim durmur. Konstitusiya var. Konstitusiyaya görə hörmətli Süleyman Dəmirəlin müddəti tamam oldu, yeni adam seçildi. Böyük Millət Məclisi hörmətli Əhməd Necdət Sezəri Cümhur başqanı seçdi. Mən onu öncə, Konstitusiya Məhkəməsində olduğu zaman bir dəfə görmüşdüm, ancaq qısa. Mən çox məmnunam ki, o, xarici ölkələrə ilk rəsmi səfərini Azərbaycana etdi. Yəni Türkiyənin yeni seçilmiş 10-cu prezidenti də 9-cu prezidenti və Türkiyənin başında olan başqa insanlar

kimi, Azərbaycana çox önəm verir. Mən də bunu çox yüksək qiymətləndirdim, bizim xalqımız da çox yüksək qiymətləndirdi.

Biz orada çox gözəl danışıqlar apardıq və anlaşmalar imzaladıq. O məni Türkiyəyə dəvət etdi. İndi də mən Türkiyəyə gəldim. Buradakı görüşlərimdən çox məmnunam. Hörmətli Cümhur başqanı ilə çox gözəl danışıqlarımız oldu. Bilirsiniz ki, Baş nazir ilə də təkbətək danışdım. Baş nazirin müavinləri ilə, Baş qərargah rəisi ilə danışdım. Bu gün də Ankara Universitetinə getmişdik. Hörmətli cümhurbaşqanı Sezər yenə də mənimlə idi, bərabər idik. Ona görə də, demək, bizim dostluq əlaqələrimiz davam edir.

**S u a l: Cənab Prezident, Sizcə Türkiyə bölgənin sabitliyi üçün önəmli oyunçudurmu?**

**C a v a b:** Bəli, bu gün də, gələcəkdə də Türkiyə Qafqazda sabitlik üçün, sülh üçün önəmli bir yer tutur.

**S u a l: Yəni Dəmirəldən sonra heç bir azalma yoxdur?**

**C a v a b:** Yox, yox. Mən buna inanmıram.

**S u a l: Siz bir ara Bakı–Ceyhana Türkiyənin soyuq yanaşdığını söylədiniz. İndi vəziyyət necədir?**

**C a v a b:** İndi yaxşıdır.

**S u a l: Siz müsahibələrinizin birində demişdiniz ki, mən Türkiyənin daxili işinə qarışmıram. Türkiyə Misirdən də, Rusiyadan da təbii qaz alır. Türkiyə Azərbaycandan əvvəlcə 2 milyard kubmetr qaz alacaqdır?**

**C a v a b:** Sonra 6 milyard kubmetr olacaqdır. Ondan sonra isə 15–20 milyard kubmetrə çıxacaqdır. Bu olacaqdır.

**S u a l: Bu nə vaxt ola bilər?**

**C a v a b:** Ola bilər bu, 2008-ci ildə olsun.

**S u a l: «Abşeron»dan da qaz alacaqsınız?**

**C a v a b:** Bəli, «Abşeron»dan da. Amma «Şahdəniz» yatağı yetərlidir. Yəni biz oradan 50 il, ildə 30 milyard kubmetr qaz ixrac etsək, o yenə də tükənməyəcəkdir.

**S u a l: Cənab Prezident, biz təbii qazı sizdən ucuz alacağımız təqdirdə Misirə, Rusiyaya ehtiyacımız qalmayacaqdır. Yəni sizdən 15–20 milyard kubmetr təbii qaz alsaq, demək, onda onlara ehtiyac yoxdur. Çünki bizə yaxşı qiymətə verəcəksiniz.**

**C a v a b:** Mən bunu bilmirəm.

**S u a l: Qiyməti açıqlamaq istəmirsiniz?**

**C a v a b:** Bunu açıqlamağın nə əhəmiyyəti var? Qiymət Türkiyə üçün də, bizim üçün də uyğundur.

**S u a l: Azərbaycan qazının Türkiyə üzərindən Avropaya ixrac olunmasında yolunuz nədir və Avropa ölkələri Sizdən təbii qaz istəməyə başlayıblarmı?**

**C a v a b:** Hələ başlamayıblar, amma başlayacaqlar. Çünki Avropanın çoxu təbii qazı Rusiyadan, İngiltərədən, Norveçdən alır. Rusiyada da, orada da qaz azalır. Yəni 5-6-7 ildən sonra onlar indi aldıqları qədər qaz ala bilməyəcəklər. Ona görə yeni ehtiyatlar araşdırılır. Bu da Xəzər dənizində, Azərbaycandadır. Ona görə də Türkiyə üzərindən Avropaya da təbii qaz vermək imkanımız olacaqdır.

**S u a l: Yəni Siz Fransa kimi bəzi ölkələrə qaz verə bilərsiniz?**

**C a v a b:** Hələ bu barədə heç bir danışıqlarımız yoxdur. Amma biz hesab edirik ki, bu olacaqdır.

**S u a l: Cənab Prezident, Rusiya prezidenti Putin ilk dəfə Azərbaycana gəldi. Siz təkbətək görüşdünüz. Biz zənn edirdik ki, o, öncə Ermənistana gedəcəkdir. Amma Putin ilk öncə Azərbaycana getdi. Təkbətək görüşünüzdən sonra Putinin bölgəyə qarşı bir ılıq münasibəti yaranıbdır. Bunun nə kimi səbəbləri vardır?**

**C a v a b:** Bilirsiniz, Putin ağıllı bir insandır. Rusiya kimi böyük dövlətin başında Putin kimi şəxsin olması, birincisi, Rusiya üçün önəmlidir. İkincisi də, təbiidir, hər bir dövlətin

başında ağıllı adam olanda onunla iş görmək daha da yaxşı olur.

Məsələn, vaxtilə Yeltsin önəmli işlər görmüşdü. Amma son illərdə xəstə idi, onunla danışmaq, bir şey etmək mümkün deyildi. Cənab Putin çox enerjili bir adamdır. Rusiya üçün çox işlər görmək istəyir və Rusiya üçün hansı ölkənin, hansı bölgənin daha da önəmli olmasını yaxşı bilir. Ona görə də Azərbaycana gəldi. Çünki Azərbaycan həm coğrafi-strateji vəziyyətinə görə, həm də təbii sərvətlərinə görə Qafqazda xüsusi yer tutur. Ermənistanın heç bir şeyi yoxdur, dağdaşdır. Gürcüstanda iqtisadi vəziyyət çox ağırdır. Çünki onların da təbii sərvətləri yoxdur. Amma Azərbaycanın var. Azərbaycan Cənubi Qafqazda ən böyük ölkədir. Hesab edirəm, o bunları nəzərə alaraq Azərbaycana gəldi. Təbiidir ki, mən onu dəvət etmişdim. O mənim dəvətimlə gəldi, çox yaxşı görüşlərimiz, danışıqlarımız oldu.

Biz qonşularımız ilə düşmənçilik etmək istəmirik. Biz qonşularımızla dost olmaq istəyirik, mehriban olmaq istəyirik, iqtisadi əlaqələri inkişaf etdirmək istəyirik. İndi keçmiş zaman deyildir. Dünya bu yol ilə gedir. Biz də bu yol ilə getmək istəyirik.

Rusiya böyük ölkədir. Azərbaycan Rusiya ilə 200 il bir yerdə olubdur. Ona görə çox əlaqələr var.

**S u a l: Cənab Prezident, Rusiyanın Bakı–Ceyhana birmənalı baxmadığını bilirik. Sizcə, Rusiya şirkətləri bu xəttə qatılacaqlarmı?**

**C a v a b:** Orada Rusiyanın bir şirkəti var. O hələ qatılmayıbdır. Amma mən bu gün məlumat aldım ki, cənab Putinin Xəzər dənizi üzrə xüsusi nümayəndəsi Kalyujnı bəyan edibdir ki, Rusiya Bakı–Ceyhanın əleyhinə deyildir. Yəni Xəzər dənizindən neft bir çox marşrutlarla gedə bilər. Yəni bunun əleyhinə çıxmırlar.

**S u a l: Deyirsiniz ki, Rusiya şirkətləri Bakı–Ceyhana qatıla bilər?**

**C a v a b:** Rusiya şirkəti var. İlkin neft «Azəri», «Çıraq», «Günəşli» yatağından alınır. Konsorsium yaranıbdır. Biz 1994-cü ildə bir anlaşma, «Əsrin müqaviləsi»ni imzalamışıq. Orada Rusiyanın «LUKoyl» şirkəti də var.

**S u a l: Bu neft boru xəttinə onlar girəcəklərmi?**

**C a v a b:** Güman edirəm, girəcək.

**S u a l: Aprelin əvvəlində Floridaya gedəcəksiniz. Sizi ABŞ-ın Xarici İşlər naziri dəvət etmişdir. Amerika kimi, Fransa da, Rusiya da Minsk qrupunun həmsədrləridir. Mən amerikalılar ilə görüşəndə bildirirlər ki, Rusiya Dağlıq Qarabağ məsələsinin həllini istəmir, ruslar deyirlər ki, ən yaxşı çözüm çözümsüzlükdür.**

**H e y d ə r Ə l i y e v:** Bunu kim deyir?

**J u r n a l i s t: Mən bu bilgiləri Amerikanın Xarici İşlər Nazirliyindən almışam.**

**H e y d ə r Ə l i y e v:** Yəni Rusiya istəmir?

**J u r n a l i s t: Bəli, onlar deyirlər. Floridada keçiriləcək görüş ərəfəsində bu işlər qarışa bilərmi?**

**C a v a b:** Hər halda, baxarıq. Rusiya, Amerika Birləşmiş Ştatları və Fransa bu problemin çözülməsi üçün Minsk qrupunun həmsədrləridirlər. Floridada üç dövlətin təmsilçiləri də olacaqdır. Belə düşünürəm ki, onlar – Buş, Şirak, Putin artıq bu barədə telefon danışıqları aparıblar. İndi gedək, görək. Biz çox görüşlər keçirmişik. Amma bir nəticə almamışıq. Görək, bu dəfə nə olur.

**S u a l: Siz Fransadakı görüşlərdən sonra parlamentdə açıqladınız. Sizcə, ATƏT-in və ya başqa hökumətin hazırladığı plan ortaya çıxsa, qəbul oluna bilərmi?**

**C a v a b:** Başqa bir şey yoxdur. Ancaq ATƏT-dir.

**S u a l: Türkiyə də ATƏT-in Minsk qrupunun üzvüdür. Floridaya Türkiyənin nümayəndələri dəvət oluna bilərdimi?**

**C a v a b:** Bilirsiniz, Minsk qrupunda 12 dövlət var. 12 dövlətin hamısının nümayəndəsini oraya dəvət etmək mümkün deyildir. Amma Türkiyəni dəvət etmək – bu, real bir şey deyildir. Çünki birincisi, ermənilər buna razı olmaz. İkincisi də, orada ancaq həmsədrlərin təmsilçiləri olacaqlar. Başqaları olsa, orada bir iş də görmək olmaz.

**S u a l: Bilirsiniz ki, İsmayıl Cəmin bir təklifi var idi. Hər halda o, qəbul oluna bilməz?**

**C a v a b:** Bilirəm. Ermənilər ona etiraz etdilər.

**S u a l: Cənab Prezident, Qarabağ məsələsi ilə bağlı Türkiyədən nə gözləyirsiniz? Hörmətli Cümhur başqanımız bu barədə gözəl çıxış etdi. Amma Siz son olaraq iqtisadi, siyasi cəhətdən Türkiyədən hansı dəstəyi gözləyirsiniz?**

**C a v a b:** Çox şeylər gözləyirəm. Hamısını da demişəm. Çünki Türkiyə bizim ən yaxın dostumuz, ən yaxın qardaşımızdır.

**S u a l: Türkiyənin nə etməsini gözləyirsiniz?**

**C a v a b:** Mən onların hamısını demişəm. Cümhur başqanına da demişəm, Baş Qərargah rəisinə də demişəm.

**S u a l: Bizə demirsiniz?**

**C a v a b:** Sizə deməyə ehtiyac yoxdur.

**S u a l: Sizin oğlunuz Olimpiya komitəsində çalışır?**

**C a v a b:** O, Azərbaycan Milli Olimpiya komitəsinin prezidentidir.

**S u a l: O, gələcəkdə olimpiadanın Türkiyədə keçirilməsi üçün bizə yardımçı olacaqmı?**

**C a v a b:** Əlbəttə, olacaqdır. Bəs necə. O, birinci səs verəcəkdir. Olimpiada 2008-ci ildə keçiriləcəkdir.

**S u a l**: Gündəlikdə Türkiyə, Pekin, Paris və başqaları var.

**C a v a b:** Yox, biz Türkiyəyə səs verəcəyik.

**S u a l: Yəni oğlunuz bizə yardım edəcəkdir?**

**C a v a b:** Bəli.

**S u a l: Cənab Prezident, Sizin Amerikada çoxlu dostlarınız var. Bildiyimə görə, başqan yardımçısı Dik Çeyni Sizin dostunuzdur. Riçard Armitac Sizin dostunuzdur. Hətta Buşun özünün də Sizə yaxınlığı var. Əgər gələcəkdə Azərbaycanda problemlər olarsa, Rusiya Azərbaycanda qarışıqlıq salarsa, oğlunuzun başqanlığı ilə bağlı problemlər olarsa, onlar, yəni Amerikadakı dostlarınız Sizə yardımçı olacaqlarmı?**

**C a v a b:** Bunlar gələcəyin işidir.

**S u a l: Amma onlar dostunuzdur...**

**C a v a b:** Onlarla əlaqələrimiz yaxşıdır.

**S u a l: Azərbaycanda korrupsiyaya qarşı mübarizə aparacağınızı eşitmişəm. Belədirmi?**

**C a v a b:** Biz bunu edirik.

**S u a l: Bununla nə etmək istəyirsiniz? Ümumiyyətlə, korrupsiya olanda dövlətlər zəifləyirlər, yoxsa..?**

**C a v a b:** Bilirsiniz, korrupsiya dünyanın hər yerini əhatə edibdir. Türkiyədə də var, hər yerdə var, hətta Amerikada da var. Ona görə də sadəcə, bu məsələ ilə mübarizə aparmaq lazımdır. Amma kimsə düşünür ki, bunu yox etmək mümkün olar, bu yanlışdır. Mücadilə edib bunu azaltmaq olar.

**S u a l: Azərbaycanda neft var, təbii qaz var, hər şey var, amma zənginləşə bilmir. Yəni zəiflik davam edir, bizdəki kimi, işsizlik var, islama dönüş var. Mən orada olarkən bəziləri söylədilər. Allah Sizə uzun ömür versin. Mən çox dua edirəm, Siz yaşayın. Çünki Siz çox önəmli bir insansınız. Bütün bölgənin sabitliyi üçün çox önəmlisiniz. Amma Sizdən sonra orada xaos, savaş olmasın deyə, nə kimi tədbirlər görməyi düşünürsünüz?**

**C a v a b:** Birincisi, Allah sənin dualarını eşidəcəkdir. Ona görə məni çox yaşadacaqdır. Bu gün gedib dişlərimi də müayinə etdim. Dişlərim xoşuna gəlirmi?

**J u r n a l i s t: Dişlərinizin hamısı yerindədir.**

**H e y d ə r Ə l i y e v:** Bəli, mənim özümündür, amma müayinə etmək lazım idi. Müayinə etdilər, daha da gözəl oldu.

**J u r n a l i s t: Maşallah, maşallah. Hər halda, tədbirlər görəcəksinizmi, yəni gələcəkdə oğlunuz hakimiyyətə gələ bilər?**

**C a v a b:** Bilirsiniz, hər bir vətəndaş məmləkətində hakimiyyətə gələ bilər. Heç kəsin hüququnu əlindən almaq olmaz.

**S u a l: Demək istəyirəm ki, gələcəkdə bir problem çıxmasın deyə, işlər görürsünüzmü?**

**C a v a b:** Çalışıram.

**S u a l: Nə edəcəksiniz?**

**C a v a b:** Gələcək göstərəcəkdir.

**S u a l: Sizin söyləmək istədiyiniz başqa bir şey varmı?**

**C a v a b:** Sizə təşəkkür edirəm. Siz gözəl bir qadınsınız. Sizinlə hər dəfə görüşəndə çox xoşuma gəlir.

**J u r n a l i s t: Sağ olun. Mən də Sizi ürəkdən sevirəm. Siz dünyanın ən böyük siyasətçilərindən birisiniz. Sizin kimi adamlar hər kəs üçün tarix kitabı kimidir.**

**H e y d ə r  Ə l i y e v:** Çox sağ olun. Sizin mənə səmimi dostluq münasibətinizi çox yüksək qiymətləndirirəm. İnanın ki, mən də sizə bu qədər dost, bu qədər səmimi münasibətlər bəsləyirəm.

**J u r n a l i s t: Türkiyə xalqı üçün söyləmək istədiyiniz varsa, buyurun.**

**H e y d ə r  Ə l i y e v:** Türkiyə xalqına arzularımı bu günlər hər yerdə dedim. Birincisi, Türkiyə xalqına bu böhrandan çıxmağı arzu edirəm. İkincisi, Türkiyənin daha da inkişaf etməsini arzu edirəm. Türkiyənin daha da güclənməsini arzu edirəm və türk xalqına firavanlıq, səadət, xoşbəxtlik arzulayıram.

**J u r n a l i s t: Son olaraq soruşacağam. Bakı–Ceyhan layihəsinə qatılan şirkətlərin sayı çoxalır. «Şevron» da qatıldı. Amma «Eksson/Mobil» hələ gözləyir.**

**C a v a b:** Bir az tərəddüd edir.

**S u a l: Bu sahədə onları cəzalandırmaq lazımdırmı?**

**C a v a b:** Yox, cəzalandırmaq lazım deyil. O da öz yoluna gələcəkdir.

**S u a l: Türkiyə hökumətinin indiki vəziyyətini necə qiymətləndirirsiniz?**

**C a v a b:** Normal. Bu iqtisadi böhran keçmişlərdə də olubdur. Türkiyə belə dövrləri yaşayıbdır. Amma ondan çox uğurla da çıxıbdır. Ona görə də Türkiyənin vəziyyətini çox gözəl qiymətləndirirəm.

**J u r n a l i s t: Cənab Prezident, çox-çox təşəkkür edirəm. Sağ olun, var olun.**

**H e y d ə r Ə l i y e v:** Sağ olun.

# TÜRKİYƏYƏ RƏSMİ SƏFƏR BAŞA ÇATDIQDAN SONRA BAKIYA QAYIDARKƏN BİNƏ HAVA LİMANINDA JURNALİSTLƏRİN SUALLARINA CAVAB

*17 mart 2001-ci il*

**H e y d ə r Ə l i y e v:** Axşamınız xeyir olsun. Hər halda, mənim səfərim barədə sizin xəbəriniz var. Çünki Türkiyənin bütün televiziya kanalları mənim oradakı görüşlərimi, söhbətlərimi, çıxışlarımı verirdi. Həm də, deyəsən, bizim televiziya da bunları oradan alaraq veribdir. Ona görə bu barədə mənim bir bəyanat verməyimə ehtiyac yoxdur.

Ancaq, sadəcə, onu demək istəyirəm ki, bu çox uğurlu bir səfərdir. Çox lazımlı idi, çox vacib idi. Bu səfər bir neçə ay idi ki, düşünülürdü və vaxtı gəlib çatanda da bunu mən həyata keçirdim. Həm Türkiyə üçün, həm də Azərbaycan üçün vacib bir səfər idi. Hesab edirəm ki, bu, Türkiyə–Azərbaycan əlaqələrinin, dostluq-qardaşlıq, strateji tərəfdaşlıq əlaqələrinin bundan sonra inkişaf etməsi üçün yeni bir mərhələ oldu. Ona görə mən bu səfərimdən çox məmnunam. Hesab edirəm ki, Türkiyənin prezidenti, Baş naziri və başqaları da mənim səfərimdən razıdır. Ümumiyyətlə, mənim Türkiyədə olmağım, nitqlərim, görüşlərim böyük maraq doğurmuşdu və orada hamı Azərbaycana çox böyük məhəbbət hissi ilə danışırdı. Mənə məlumat verirdilər.

**S u a l: Cənab Prezident, Siz Türkiyə Silahlı Qüvvələrinin Baş Qərargah rəisi ilə görüşdünüz. Yaxın vaxtlarda Türkiyə ilə Azərbaycan arasında hərbi əməkdaşlıq, hərbi müttəfiqlik barədə saziş və ya hər hansı bir pakt imzalana bilərmi?**

**C a v a b:** Bilirsinizmi, mən orada görüşlərin çoxunu təkbətək, məxfi keçirmişəm. Ona görə də siz anlamalısınız ki, mən bu barədə sizə heç bir şey deyə bilmərəm.

**S u a l: Türkiyədə olarkən «Nərgiz TV» kanalına müsahibənizdə Siz dediniz ki, yaxşı olardı Türkiyənin hərbi bazaları Azərbaycanda yerləşdirilsin. Sizcə, bu nə zaman reallaşdırıla bilər?**

**C a v a b:** Mən demişəm bunu?

**S u a l: Sizə sual verildi, dediniz ki, əlbəttə, yaxşı olar.**

**C a v a b:** Yaxşı olar da...

**S u a l: Cənab Prezident, aprelin 3-də Amerika Birləşmiş Ştatlarında Ermənistan prezidenti ilə görüşünüz gözlənilir. Sizin Türkiyəyə səfərinizdən sonra Ermənistanda böyük narahatlıq var ki, Azərbaycanda hərbi əhval-ruhiyyə yüksəlib, Azərbaycan prezidenti Türkiyədə sərt çıxış edibdir. Bütün bunlardan sonra Amerika Birləşmiş Ştatlarında Ermənistan prezidenti ilə danışıqlardan Dağlıq Qarabağ münaqişəsi ilə bağlı ciddi dönüş gözləyirsinizmi?**

**C a v a b:** Mən dəfələrlə sizə demişəm ki, bu məsələnin həll olunması üçün hər bir görüşdən nəsə gözləyirəm. Bizim bu yaramız, hər halda, bağlanmalıdır, belə vəziyyətdə qala bilməz. Kimsə daxildə maraqlıdır ki, bu, daim belə qalsın, bundan öz məqsədləri üçün istifadə etsinlər, yaxud da bəzi dövlətlər var, hansılar ki, elə istəyirlər burada nə sülh olsun, nə də müharibə, bundan öz məqsədləri üçün istifadə etsinlər. Ona görə də belə görüşlərdən mən heç vaxt qaçmıram və belə görüşləri həmişə, lap kiçik bir irəliləyiş də olsa, lap irəliləyiş olmasa da, əhəmiyyətli hesab edirəm. Bu barədə sizin məlumatınız var. Hər halda, ABŞ-ın Dövlət Departamenti bəyanat veribdir, sonra Kolin Pauell mənə məktub göndəribdir. Orada ilk dəfə olaraq, bütün bu dövrdə ilk dəfə olaraq, Minsk qrupu həmsədrlərinin üçü bir yerdə iki prezidentlə danışacaq. Çünki indiyə qədər, adətən, daim həmsədrlərin

nümayəndələri gəlirdilər Ermənistana, ondan sonra Azərbaycana, yaxud Azərbaycana, sonra Ermənistana.

Orada nə danışırdılar, biz bilmirdik, burada nə danışırdılar, onlar bilmirdi. Yaxud nə isə deyirdilər, nə isə demirdilər... Amma indi bütün üç ölkənin, yəni ABŞ, Rusiya, Fransanın yüksək səviyyəli nümayəndələri orada olacaqlar. Bilirsiniz ki, görüşü Kolin Pauell açacaqdır. Ona görə hesab edirəm ki, bu çox böyük bir hadisədir. Hər halda, Ermənistan–Azərbaycan münaqişəsinin sülh yolu ilə həll olunması dövründə indiyə qədər belə hadisə olmayıbdır.

**S u a l: Cənab Prezident, bildirilir ki, Robert Köçəryan Paris danışıqlarında hansısa güzəştlərə meylli olub və son anda mövqelərini bir az qətiləşdiribdir. ABŞ-dakı görüşlər Paris görüşlərinin davamımı olacaqdır? Yəni həmin variantların müzakirəsi olacaq, yoxsa hansısa yeni təkliflər müzakirə edilə bilər?**

**C a v a b:** İndi hər şey olacaqdır. Məsələ təkcə onda deyil ki, görüşlərin quyruğundan tutub getmək lazımdır.

**S u a l: Cənab Prezident, bu müddətdə Türkiyə mətbuatı yeni variantın olduğu barədə məlumatlar yayırdı. Bu cür məlumatlar doğrudurmu?**

**C a v a b:** Bilmirəm, mən oxumamışam.

**S u a l: Cənab Prezident, belə fikirlər də yayılır ki, həmsədr ölkələrin birində, Fransada danışıqlar oldu, Amerika Birləşmiş Ştatlarından sonra bu, Rusiyaya qayıdacaqdır. Yəni problemin əsas həlli Rusiyadakı danışıqlardan gözlənilə bilər, Rusiyanın vasitəçiliyi böyük rol oynayacaqdır. Sizin fikriniz?**

**C a v a b:** Bilirsiniz, vallah, bizim bu qəzetçilər, müxbirlər – mən demişəm də, bir şeylə məşğul olmalıdırlar, təbiidir – biri bir şey uydurur, o birisi başqa şey uydurur. Bu uydurma şeylərə mən nə cavab verim? Siz hamınız bilməlisiniz – bir halda ki, burada bizim televiziyamız var, siz varsınız, hər yerə yayacaqsınız – mən yeddi ildən artıqdır ki, gecə-gündüz bu məsələ

ilə məşğul oluram. Mən məsələni həll etmək istəyirəm. Harada həll olunacaq, neçə həll olunacaqdır? Əgər Amerikada həll olunacaqsa – yaxşı, Fransada həll olunacaqsa – yaxşı, Rusiyada həll olunacaqsa – yaxşı, fərq onda deyil ki, harada həll olunacaqdır. Əsas odur ki, həll olunsun. İndiki mərhələnin əhəmiyyətli cəhəti ondan ibarətdir ki, belə düşünürəm, artıq üç ölkənin prezidenti bu barədə özləri bir-biri ilə danışıblar. Yəni əvvəllər, məsələn, Minsk qrupunun həmsədrlərini təmsil edənlər gəlirdilər, ən yuxarıda dururdu, məsələn, xarici işlər nazirləri. Amma indi bilirəm – Şirak, Buş, Putin bir-biri ilə danışıblar və qarşıdakı görüş onların üçünün danışıqlarının, məsləhətləşmələrinin nəticəsində meydana gəlibdir.

**S u a l: Cənab Prezident, İran prezidenti Xatəmi Rusiyaya səfər etdi və orada iki ölkə arasında Xəzərin statusu məsələsi müzakirə olundu, müəyyən razılıq da əldə edildi. Bir çox müşahidəçilər yazırlar ki, bu razılaşmadakı məqamlar Rusiya ilə Azərbaycan arasındakı razılaşmaya nisbətən başqa-başqadır. Siz buna necə baxırsınız?**

**C a v a b:** Onu mən oxumamışam, eşitmişəm. Ancaq burada narahatedici bir şey yoxdur. İran prezidenti ilk dəfə Rusiyaya səfər etdi. Zaman keçdikcə görürəm ki, biz 1994-cü ildə nə qədər cəsarətli, uzaqgörən və dövlətimizin mənafeyinə xidmət edən addım atmışıq. Deyə bilərəm ki, özümüzü odun içinə atmışdıq. Onda heç kəs bunları qəbul etmirdi. Əksinə, bizə dalbadal bəyanatlar verirdilər ki, işi dayandırmaq lazımdır və sair. Amma biz iş gördük, sübut etdik ki, bundan başqa yol yoxdur. Bu baxımdan da Rusiya prezidenti Vladimir Putin Azərbaycanda səfərdə olduğu zaman bizim ikimizin – prezident Putinin və mənim imzaladığımız sənəd çox böyük əhəmiyyət kəsb edir.

**S u a l**: **Cənab Prezident, İran prezidentinin Moskvaya səfəri zamanı belə bir fikir də səslənib ki, Xəzərin dibi ilə hər hansı bir**

**kəmərin keçirilməsi mümkün deyildir. Ekspertlər də belə bir fikir söyləyirlər ki, bütün bunlar Qazaxıstanın Bakı–Ceyhan kəmərinə qoşulmasının qarşısını almaq üçündür. Belə bir qərar Bakı–Ceyhan kəmərinin rentabelliyinə təsir göstərə bilərmi?**

**C a v a b:** Bilirsinizmi, mən bunu əvvəllər də demişəm, Türkiyədə də demişəm – Bakı–Ceyhan kəmərinin rentabelliyinə heç bir şey təsir göstərə bilməz. Nə üçün? Çünki biz 1994-cü ildə «Əsrin müqaviləsi»ni imzalayanda bilirdik ki, Xəzərdəki sektorumuzun başqa yerlərində neft, qaz yataqları var. Amma heç bilmirdik ki, məsələn, ehtiyatlar əldə edəcəyik. Amma buna baxmayaraq, biz məhz «Azəri», «Çıraq», «Günəşli» yataqlarından hasil olunacaq neft üçün Bakı–Ceyhan neft kəmərini həmin o müqaviləyə salmışıq, başa düşürsünüzmü? Ona görə də həmin bizim bu üç yataq ki var, ilk müqavilədə əksini tapıbdır, Bakı–Ceyhan kəməri üçün tamamilə yetərlidir. Oradan 50–60 milyon ton neft çıxarılacaq və bu, Bakı–Ceyhan kəmərini tam rentabelli edir.

İndi məsələn, «Şevron» şirkəti özü gəldi, müraciət etdi və kəmərin tikintisinə qoşuldu. Orada on faiz pay götürdü. Nə üçün? Çünki «Şevron» bizim «Abşeron» yatağından çox böyük hasilat gözləyir. Həm neft, həm də qaz hasilatı. Bunu biz də gözləyirik.

Məsələn, «Abşeron» yatağı... Mən hər dəfə deyirəm, bizim alimlər, geoloqlar indiyə qədər 50 ildə ki, Xəzəri tədqiq ediblər, onlara hamımız minnətdar olmalıyıq. Çünki çox böyük işlər görüblər. Amma bu işləri o vaxtlar həyata keçirmək mümkün olmayıbdır və buna o vaxt, sovetlər vaxtında ehtiyac olmayıbdır. İndi, Azərbaycanın müstəqilliyi zamanı bu yataqlar ölkəmizin ən böyük sərvətidir. Məsələn, biz bilirdik ki, «Abşeron» yatağında həqiqətən çox neft ehtiyatı var. «Şahdəniz»i bilirdik. Bizim adamlar proqnoz vermişdilər ki, orada 400 milyard kubmetr qaz olacaqdır.

1996-cı ildə biz müqaviləni hazırladıq, o vaxt burada neft sərgisi keçirilirdi. Mən bunu bir dəfə demişəm, bəlkə bir dəfə də deməyə ehtiyac var. Bəziləriniz portretini qəzetlərdə sevə-sevə verirsiniz, yaxud da telefon bağlantısı edirsiniz ki, Rəsul müəllim, bu məsələ necədir, onun da şəklini vurursunuz ekrana, əgər o, doğrudan da neftçidirsə, nefti biləndirsə – sonra getdi kitab yazdı – və Azərbaycanın mənafeyini yüksək tutursa, nə üçün hər şey hazır olanda gəlib dedi ki, mən bu müqavilənin imzalanmasının əleyhinəyəm. Nə üçün? Sən mənə de, sübut edə bilmədi. Yox, qardaş, burada geoloqlar, mühəndislər, alimlər var... Biz bunu bir neçə dəfə müzakirə etmişik, o özü də bu müzakirədə iştirak edibdir. Demək, bu nə idi? Təxribat idi. Sadəcə, Azərbaycanda bu işi ləngitmək idi.

Mən bir dəfə demişəm. Dövlət Neft Şirkətinin bütün rəhbərlərini topladım, bəziləri də onun keçmiş dostları idi. Hamısı durdular onun üzünə, dedilər ki, sən bir şey bilmirsən. Xoşbəxt Yusifzadə açıq-aydın dedi ki, sən bilmədiyin sözü niyə danışırsan. Burada 400 milyard kubmetr qaz var. Bizim «Bi-Pi» şirkəti ilə, başqaları ilə də gördüyümüz iş həmin 400 milyard kubmetr üçün idi. 400 milyard kubmetr bizim üçün böyük bir rəqəm idi. Amma indi qazılan quyulardan alınan nəticələr göstərir ki, həmin yataqda bir trilyon kubmetrdən artıq qaz ehtiyatı vardır. O da hələ son hədd deyildir. Başa düşürsünüzmü?

Ona görə də Bakı–Ceyhan kəməri barəsində heç bir narahatlıq yoxdur. Doğrudur, siz bilirsiniz ki, axır zamanlar bunu bir balaca əngəlləmək istəyirdilər. Mən də bir neçə dəfə bu barədə bəyanatlar verdim. Sizin kimi müxbirlər orada məndən soruşurdular ki, nə üçün belə bəyanatlar verdiniz? Dedim ki, mən bəyanatlar verməsəydim, bu gün bu məsələləri həll etməyəcəkdik. Orada da hər şeyi həll etdik. Bakı–Ceyhanı da həll etdik, Azərbaycan qazının Türkiyəyə satılmasını da. Bunu da orada, Türkiyədə bürokratlar, təbiidir ki, aşağı səviy-

yədə əngəlləmişdilər, bir neçə ay ləngitmişdilər. Ancaq mən getməmişdən qabaq danışdım, adamları oraya göndərdik. İndi biz sənəd imzaladıq – oraya 6 milyard kubmetr ilkin qaz verəcəyik. Ondan sonra – mən orada dedim – 15 milyard, 20 milyard kubmetr də qaz verə bilərik. Bunlar böyük işlərdir. Bu təkcə iqtisadi məsələ deyildir. Bu, təhlükəsizlik məsələsidir, strateji məsələdir. Ona görə də Qazaxıstan neftinin o boru xətti ilə gəlməsi yaxşı olar. Amma gəlməməsi barədə qoy Qazaxıstan düşünsün. Yəni Xatəmi ilə Putin arasındakı anlaşma bizi narahat etmir. Qoy Qazaxıstan fikirləşsin, görsün nə edəcək.

**S u a l: Cənab Prezident, GUÖAM dövlətləri arasında müstəqilliyi ən möhkəm olan ölkə Azərbaycan hesab olunur. Çünki Moldovada sovet hakimiyyətini istəyən kommunistlər hakimiyyətə gəliblər, Ukraynada Kuçmanın istefası tələb edilir, eyni zamanda şüarlar sovet hakimiyyətinin bərpa olunması ilə bağlıdır. Gürcüstanda vəziyyət gərginləşdirilir. Bundan sonra Siz bu qurumun perspektivini necə görürsünüz?**

**C a v a b:** Bilirsinizmi, qurum bu gün biri olar, sabah digəri. Biz bu qurumu yaratmışıq və hesab edirəm ki, bu qurum da yaşayacaqdır. Ancaq indi siz görürsünüz, Moldovada kommunistlər hakimiyyətə gəldilər, Ukraynada vəziyyət ağırdır. Gürcüstan, gürcü xalqı bizim çox gözəl dostumuzdur. Gürcüstan prezidenti mənim şəxsi dostumdur. Mən orada olan vəziyyəti ürək ağrısı ilə izləyirəm və lazım olan köməyi edirəm – orada vəziyyət belədir. Amma Azərbaycan müstəqilliyini gözləyir, qoruyur.

Bunu anlayın. Başa düşürsünüz... Mən sənə demirəm, sənin televiziyaya gətirib çıxartdığın adamlara deyirəm. Bunu anlayın. Mən bunu Türkiyənin Böyük Millət Məclisində də dedim. Dedim ki, Sovetlər İttifaqı dağılan zaman müstəqilliyi əldə etmək, bu heç bir problem deyildi. Çünki Sovetlər İttifaqı dağılırdı, 1922-ci ildə Sovetlər İttifaqını biz yaratmışıq,

onun yaradıcılarından biri də Azərbaycan olubdur. Düzdür, onda 15 respublika deyildi, cəmisi 6 respublika idi. Ondan sonra o birilər də gəlib, 15 respublika olmuşdu. Sovetlər İttifaqı dağılırdı, ondan sonra deyəcəksən ki, yox, mən müstəqil olmuram, nə edəcəksən?

Mən bunu dəfələrlə demişəm, çünki bəziləri döşünə döyür ki, biz müstəqillik uğrunda mübarizə aparmışıq, nə bilim, xalq azadlıq hərəkatı aparmışıq, müstəqillik əldə etmişik. Bu cür yalan danışmaq olmaz. Azərbaycanda xalq hərəkatı olubdur. Azərbaycan xalqı qalxıbdır, Dağlıq Qarabağ məsələsində o vaxt SSRİ rəhbərliyinin Azərbaycana qarşı ədalətsizliyinə görə. Ancaq deyirlər ki, nə bilim, biz buranın müstəqilliyini əldə etdik. Bunların hamısı yalan şeylərdir. Tamamilə yalan şeylərdir. Ona görə də mən bunu Türkiyədə Böyük Millət Məclisində dedim, o vaxt, məsələn, Qazaxıstanda bir hərəkat olmuşdu, müstəqillik əldə etdi? Özbəkistanda, yaxud da Türkmənistanda, hamısında. Yaxud, elə həmin kommunistləri seçən Moldovada?

O vaxt SSRİ dağıldı, hamı müstəqilliyini elan etdi. Amma müstəqilliyi qoruyub saxlamaq bu müstəqilliyi əldə etməkdən minqat çətindir. Çünki onu, sadəcə, tarixi vəziyyət ortaya çıxarmışdı. Amma sonra bizim başımıza nə işlər gəldi? 1991-ci ildə, 1992-ci ildə, 1995-ci ilin həmin mart hadisələri – 17-si martda idi də, onlar hücum etmişdilər – ondan qabaq, 1994-cü ildə oktyabr hadisələri. Ondan da qabaq, 1993-cü ildə vətəndaş müharibəsi, o vaxt da məni buraya gətirdilər. Bizim müstəqilliyimiz möhkəmdir.

Bir qurum ola bilər, o birisi ola bilməz – bunun o qədər əhəmiyyəti yoxdur. Biz öz ölkəmizin müstəqilliyi, öz xalqımızın mənafeyi üçün düşünürük. Bunun üçün hansı ölkə ilə bizim əlaqələrimiz faydalıdırsa, biz o ölkələrlə əlaqə saxlayırıq. Hansı qurumda olmaq bizim üçün faydalıdırsa, biz onlarla əlaqə saxlayırıq.

**S u a l: Cənab Prezident, Xatəmi Moskvada olarkən Putinlə razılığa gəlibdir ki, Moskva İrana silah ixracına başlayacaqdır. Sizcə, bu, regionda hərbi balans üçün nə qədər təhlükəlidir?**

**C a v a b:** Bilirsən, bu nə səndən asılıdır, nə məndən. Bu onların özlərinin işidir.

**S u a l: Cənab Prezident, Türkiyə prezidenti Əhməd Necdət Sezər bildirdi ki, Sizinlə danışıqlarda Naxçıvanla bağlı məsələlər də müzakirə olunacaqdır. Nə məsələlərdir, yəni Naxçıvanla bağlı belə bir ciddi problem varmı?**

**C a v a b:** Bilirsiniz, Naxçıvanla bağlı problemin biri odur ki, – təəssüflər olsun, hamınız Naxçıvanı unutmusunuz – 1991-ci ildən Naxçıvan blokada şəraitindədir. Düşünməyin ki, mən naxçıvanlı olduğuma görə bunu deyirəm. Nə qədər mərd insanlardır ki, orada ağır şəraitdə yaşayırlar. Mən üç il orada yaşadım, gördüm. Burada, Şəkidə bir gün elektrik enerjisi olmadı, hamınız tökülüb getdiniz oraya. Sən də deyirsən telefon bağlantısında danışan Xatirədir, de görüm... Xaçmazda nə olubsa… Nə bilim, onun adı yadımdan çıxıbdır.

Bilirsiniz, biz Naxçıvanda elektrik enerjisi olmadan yaşadıq. O xalq yaşadı, səsini də çıxarmadı. Doğrudur, mən o vaxtlar Naxçıvanı vəziyyətdən müəyyən qədər çıxardım. Çünki mənim Türkiyə ilə əlaqələrim var idi. Türkiyədən elektrik xətti çəkdik. Ondan sonra mən bir neçə dəfə Tehrana getdim. Onlarla da mənim keçmiş əlaqələrim vardı. Onlar da Naxçıvana hörmət etdilər və indiyə qədər də edirlər. Düzdür, axır zamanlar bizim borcumuza görə Naxçıvanın elektrik enerjisini kəsmişdilər. O barədə danışıqlar apardıq, hər şeyi yerinə qoyduq.

Bilirsiniz, Naxçıvan Azərbaycanın böyük bir hissəsidir. Orada 400 min nəfərə qədər adam yaşayır. Özü də vaxtilə həmin Mehri rayonu ilə Naxçıvanı Azərbaycanın əsas hissəsindən ayıranlar bunu məqsədlə ediblər. İndi Naxçıvanla

Azərbaycan arasında təyyarə əlaqəsindən savayı, başqa bir şey yoxdur. Bir də İran ərazisindən bir az avtomobillər işləyir. Təbiidir ki, məsələn, əgər o vaxt, 1992-ci ildə, o ağır vəziyyətdə Naxçıvanda körpünü tikməsəydik – əlbəttə ki, Türkiyə tikirdi, amma bizimlə bir yerdə – insanlara oradan çıxış verməsəydik, onlar orada boğulardı. Amma biz bu işləri gördük.

Buna baxmayaraq, Naxçıvanın yenə də çox problemləri vardır. Məsələn, Naxçıvanın başçısı Vasif Talıbov da orada idi, onun bir neçə təklifi, xahişi vardı. Mən yazılı şəkildə Bülənd Ecevitə verdirdim, sonra başqalarına çatdırdım. Türkiyə də Naxçıvanın bu vəziyyətdə olmasını bilir və Türkiyə ən ağır vəziyyətdə olan Naxçıvanın problemləri ilə, təbiidir ki, məşğul olur və bundan sonra da məşğul olacaqdır.

**S u a l: Türkiyənin Naxçıvana verəcəyi elektrik enerjisinin həcminin artırılması barədə razılıq əldə olundumu?**

**C a v a b:** Bu barədə biz danışmamışıq. Bu elə bir şey deyildir. «Azərenerji» və başqaları danışırlar. Prinsip etibarilə əvvəldən, 1992-ci ildən mən buna nail oldum. İndi onların özlərinin də o bölgədə bəzən elektrik enerjisi az olur. Naxçıvana verilən elektrik enerjisini bəzən artırırlar, bəzən azaldırlar. Bu, problem deyildir. Naxçıvanlılar elektrik enerjisi cəhətdən yenə də ağır şəraitdə yaşayırlar. Enerjini fasilələrlə alırlar. Amma biri də səsini çıxarmır. Çünki bilir ki, bundan artıq bir şey yoxdur.

**S u a l: Cənab Prezident, qarşıdakı ABŞ görüşləri neçə gün davam edəcək? Xarici mətbuatda Kemp Devid danışıqlarını paralel gətirərək proqnozlaşdırırlar ki, Robert Köçəryanla Sizin görüşünüz çox uzun çəkəcəkdir, yəni uzunmüddətli danışıqlar olacaqdır.**

**C a v a b:** İndi bunu demək olarmı? O xaricilər də, sizin kimi, gərək bir şey yazsınlar. Yazırlar, deyirlər. Oraya gedib baxacağıq. Bir gün lazım olacaqsa, bir gün, iki gün lazım olacaqsa, iki gün.

**S u a l: Cənab Prezident, Siz Türkiyə Böyük Millət Məclisindəki nitqinizdə ermənilər haqqında çox sərt ifadələr işlədirdiniz. Hətta belə bir ifadə də işlətdiniz ki, ermənilər qudurubdur. Bütün bunlar Sizin qarşıdakı danışıqlarınıza müəyyən təsir göstərə bilərmi?**

**C a v a b:** Siz bilirsiniz də, ermənilər buna möhkəm reaksiya veriblər. Düz demişəm də. Siz onu bilməlisiniz ki, bu sözləri demək üçün insanda cəsarət, hünər lazımdır. Onu bilməlisiniz. Mən havadan demirəm, bu sözü deyəndə bilirəm ki, onun arxasında nə var. Bilirəm, nə reaksiya olacaqdır. Amma mən o sözü ki, deyirəm, onu deməliyəm. Özü də bir var ki, məsələn, heç bir vəzifə tutmayan adam, yaxud qəzet işçisi, müxbir, yaxud da müxalifətdən gündə bir bəyanat verən adamlar desinlər, onlar heç bir məsuliyyət daşımır axı. Amma mən dövlət başçısıyam, prezidentəm. Mən məsuliyyət daşıyıram. Amma bu məsuliyyətimi daşıyaraq və bilərək ki, belə ifadənin işlədilməsi bəlkə o qədər də yaxşı deyil, amma mən bunu etdim. Çünki bilirsiniz də, onlar hansı yollara gediblər. Ona görə.

**S u a l: Cənab Prezident, Ter-Petrosyana yaxın qüvvələr deyirlər ki, Dağlıq Qarabağ barəsində ermənilər o şərtlə razılaşa bilər ki, Azərbaycanın ərazi bütövlüyü çərçivəsində Dağlıq Qarabağın öz himni, gerbi, bayrağı olmalıdır və ona yüksək özünüidarəetmə statusu verilməlidir. Bu, indiki halda problemin həllinə təsir göstərə bilər. Sizin fikrinizcə, Robert Köçəryan bu güzəştə razılıq verə bilərmi, bunu gözləmək olarmı?**

**C a v a b:** Bilirsiniz, mən indi bir şey deyə bilmərəm. Elə münaqişənin mərhələli həlli barədə ikinci təklifdə – hansını ki, Ter-Petrosyan qəbul etmişdi – bunların hamısı vardı.

**S u a l: Cənab Prezident, müharibə olacağı təqdirdə Türkiyə Azərbaycana yardım edəcəkmi?**

**C a v a b:** Baxarıq.

**H e y d ə r  Ə l i y e v:** Sualınız, sözünüz yoxdur ki? Bəs niyə soruşmursunuz ki, «Gülhanə»yə getdiniz, yoxsa yox?

**S u a l: Cənab Prezident, sağlamlığınız indi necədir? Türkiyə televiziyasında dediniz ki, özünüzü çox yaxşı hiss edirsiniz. Müayinədən keçdinizmi?**

**C a v a b:** Bilirsiniz, normal şəraitdə yaşayan hər bir insan gərək ildə iki dəfə özünü yoxlatdırsın ki, birdən, qəflətən bir xəstəlik çıxmasın.

Mən 1990-cı ildə Moskvadan gəlib Naxçıvana gedəndən 1999-cu ilə qədər nə bir həkimə müraciət etdim, nə də özümü yoxlatdım. Bilirsiniz ki, 1999-cu ilin yanvar ayında məndə əvvəlcə bronxit əmələ gəldi və gecə böyük çətinlik yaratdı. Getdim «Gülhanə»yə, orada iki həftə məni müalicə etdilər. Ondan sonra başa düşdüm ki, yox, mən səhv edirəm. Mən əvvəllər Moskvada işləyəndə – Baş nazirin birinci müavini kimi, Səhiyyə Nazirliyi mənə bağlı idi. Mən onlardan tələb edirdim, o vaxt bütün əhalini hər il dispanserizasiyadan keçirmək barədə proqram var idi, onu biz ortaya atmışdıq və həyata keçirmək istəyirdik. Çünki bu, insanların sağlamlığını qoruyur. Düzdür, bunu axıra çatdıra bilmədik, mümkün olmadı.

Mən bu işlərlə məşğul olmuşam, amma öz səhhətimə fikir verməmişəm. O da 1999-cu ildəki hadisəyə gətirib çıxardı. Orada məni müalicə etdilər. Onlar xahiş etdilər ki, Türkiyədə olan vaxtlarda gəlin. Çünki biz Sizi müalicə etmişik, burada hər şey var, nə bilim, rentgendir, filandır. Gəlin baxaq. Mən də getdim, yoxladılar və mənə dedilər ki, Azərbaycanda Sizi qarşılayan bütün müxbirlərə deyin ki, hər şey yaxşıdır. Amma mənim dişlərimin bir az müalicəyə ehtiyacı vardı, onları da müalicə etdirdim. İndi hər şey yaxşıdır.

**S u a l: Cənab Prezident, bir sual da vermək istəyirik. Siz Dünya Bankının nümayəndəsi ilə görüşünüzdə...**

**C a v a b:** Bunu keçən dəfə məndən soruşdun. Bu, bilirsən nəyə oxşayır? «Məşədi İbad»da hambalın bir abbasını istəməyinə oxşayır. Buradan gedəndə sən bu sualı mənə ver-

misən. İndi beş gündən sonra gəlmişəm, o hambal kimi deyirsən... Aldın cavabını.

**S u a l: Cənab Prezident, bugünkü «Exo» qəzetində Maqsud İbrahimbəyov belə bir məqalə ilə çıxış edibdir ki, əgər Azərbaycan hərb yolu ilə öz torpaqlarını azad etməyə cəhd göstərsə, ermənilər əks-hücumla Bakıya girə bilər. Bu barədə nə düşünürsünüz?**

**C a v a b:** A kişi, hər adam nə istəyir, deyə bilər. İndi mən o barədə nə düşünüm? Sağ olun.

# TÜRKİYƏ İLƏ AZƏRBAYCAN ARASINDA STRATEJİ ƏMƏKDAŞLIĞA ƏSASLANAN İKİTƏRƏFLİ MÜNASİBƏTLƏRİN DAHA DA İNKİŞAF ETDİRİLMƏSİ HAQQINDA BİRGƏ BƏYANAT

Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyev Türkiyə Respublikasının prezidenti Əhməd Necdət Sezərin dəvəti ilə 2001-ci il martın 12–16-da Türkiyədə rəsmi səfərdə olmuşdur. Səfər zamanı cənab Heydər Əliyevi Xarici İşlər naziri V.Quliyev, Baş nazirin müavini A.Şərifov və digər rəsmi şəxslər müşayiət etmişlər.

Səfər əsnasında iki prezident arasında təkbətək danışıqlar aparılmış, ayrıca olaraq iki ölkənin heyətləri arasında danışıqlar keçirilmişdir. Səmimilik şəraitində keçən danışıqlarda Türkiyə ilə Azərbaycan arasında mövcud olan ikitərəfli münasibətlərin bütün sahələrdə inkişaf perspektivləri müzakirə olunmuş və hər iki ölkə üçün maraq kəsb edən regional və beynəlxalq məsələlərlə bağlı ətraflı fikir mübadiləsi həyata keçirilmişdir.

Tərəflər dost və qardaş olan iki dövlət arasında strateji əməkdaşlığa əsaslanan ikitərəfli münasibətlərin yüksək səviyyədə olduğunu məmnuniyyətlə qeyd etmiş, mövcud olan yaxın münasibətlərin regionun digər ölkələri üçün də nümunə ola bilməsi arzusunu bir daha ifadə etmişlər.

Tərəflər region dövlətlərinin beynəlxalq birlik tərəfindən tanınmış sərhədlərinin zor işlətməklə dəyişdirilməsinə qarşı yönəldilmiş və dövlətlərin təhlükəsizliyini, ərazi bütövlüyünü təhlükə altına alan insan hüquqları və azadlığının əsaslarının, demokratik prinsipləri və ictimai dəyərlərin pozulmasına

yönəldilmiş təcavüzü, separatist hərəkətləri və terrorizmin bütün forma və təzahürlərini pislədiklərini və bu təhlükəyə qarşı mübarizədə birgə fəaliyyətlərini inkişaf etdirmək əzmində olduqlarını bir daha təsdiq etmişlər.

Tərəflər Ermənistan Respublikasının Azərbaycan torpaqlarını işğal altında saxlamasının qəbuledilməz olduğunu vurğulayaraq, Dağlıq Qarabağın Azərbaycanın ayrılmaz bir hissəsi olduğunu qeyd etmiş və Ermənistan silahlı qüvvələrinin Azərbaycan torpaqlarını tezliklə və qeyd-şərtsiz tərk etməsinin, qaçqınların və məcburi köçkünlərin öz doğma torpaqlarına geri qayıtmalarının təmin edilməsini bir daha qeyd etmişlər.

Tərəflər Qafqaz regionunda sülh və sabitliyin bərqərar olmasının regionun bütün ölkələrinin maraqlarına xidmət edəcəyini və bu istiqamətdə məneə təşkil edən Ermənistan–Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin dövlətlərin suverenliyi, ərazi bütövlüyü və sərhədlərin toxunulmazlığı kimi beynəlxalq hüququn imperativ prinsipləri əsasında ən qısa zamanda sülh yolu ilə həll edilməsinə nail olunmasının vacibliyini vurğulamışlar.

Tərəflər regionda mövcud olan vacib problemlərin həll olunması üçün konstruktiv təkliflərin irəli sürülməsi əvəzinə, region ölkələrinin bir-birinə münasibətdə yeni gərginlik yarada biləcək, mehriban qonşuluq prinsiplərinə uyğun olmayan siyasət aparmasının doğru olmadığını, Qafqazda həqiqi sülhün və əməkdaşlıq şəraitinin təmin olunması baxımından belə siyasətə son qoyulmasının vacib əhəmiyyət kəsb etdiyini vurğulamışlar.

Tərəflər Qafqazda sülhün və sabitliyin bərqərar olmasına yönəldilmiş səyləri dəstəklədiklərini bir daha qeyd edərək bu çərçivədə Qafqazda sabitlik paktı təşəbbüsünün irəliyə aparılması ilə bağlı əməkdaşlıq etmək qərarlarını ifadə etmişlər.

Türkiyə tərəfi dost və qardaş Azərbaycanın Avropa Şurasına üzv qəbul olunması ilə əlaqədar məmnuniyyət hissi keçirdiyini bir daha qeyd etmiş, Azərbaycan tərəfi isə bu müddət ərzində göstərdiyi həmrəyliyə və əməkdaşlığa görə Türkiyəyə öz təşəkkürünü bildirmişdir.

Tərəflər BMT, ATƏT, NATO, Avro-Atlantik Əməkdaşlıq Şurası və buna bənzər digər beynəlxalq təşkilatlar çərçivəsində olduğu kimi, Avropa Şurası tərkibində də əməkdaşlıq etməyi və qarşılıqlı fəaliyyətlərini gücləndirmək istiqamətində niyyətlərini bir daha qeyd etmişlər.

Tərəflər 2001-ci il aprelin 26-27-də İstanbulda keçiriləcək türkdilli dövlət başçılarının zirvə görüşünün üzv ölkələr arasındakı ortaq tarix, mədəniyyət və dil birliyinə, dostluq, bərabərlik və qarşılıqlı mənafelərə əsaslanan yüksək səviyyəli münasibətlərin və əməkdaşlığın gücləndirilməsi baxımından böyük əhəmiyyət daşıdığını bildirmişlər.

Tərəflər Bakı–Tbilisi–Ceyhan neft kəməri layihəsi ilə bağlı görülən işlərin səviyyəsindən, bu səpkidə boru xəttinə kapital qoyuluşunu həyata keçirəcək sponsorlar qrupunun yaradılmasından, əsaslı mühəndis işlərinin ümidverici vəziyyətindən və ümumi mühəndis işlərinin 2001-ci ilin may ayı ərzində başlanmasının nəzərdə tutulmasından məmnun qaldıqlarını ifadə etmişlər. Tərəflər, həmçinin Xəzər dənizi hövzəsindəki neftin Bakı–Tbilisi–Ceyhan neft boru kəməri vasitəsilə ixrac edilməsinin region ölkələrinə yeni iqtisadi imkanlar yaratmaqla yanaşı, bölgədəki sabitliyin möhkəmlənməsinə xidmət edəcəyini, Avropa başda olmaqla, Qərb bazarlarının enerji nəqli təhlükəsizliyinə müsbət təsir göstərəcəyini vurğulamışlar.

Tərəflər Qazaxıstan neftinin nəqli ilə əlaqədar həyata keçirilən işlərin müsbət inkişafını məmnuniyyətlə qeyd etmiş, Qazaxıstan neftinin Aktay–Bakı–Tbilisi–Ceyhan marşrutu ilə nəqlinin təmin edilməsi məqsədi ilə Qazaxıstan və Gürcüstan

hökumətləri ilə birlikdə çalışaraq, müvafiq hüquqi zəminin tezliklə başa çatdırılması niyyətlərində olduqlarını təsdiq etmişlər.

Tərəflər, həmçinin Azərbaycanın təbii qazının Türkiyəyə ixracı ilə əlaqədar aparılan danışıqların konstruktiv şəkildə irəliləməsindən və bu istiqamətdə hökumətlərarası müqavilənin layihəsinə və alqı-satqı müqaviləsinə dair əsasən razılıq əldə olunmasından məmnunluq ifadə etmiş və bu işlərin qısa bir zamanda tamamlanmasına inandıqlarını bir daha vurğulamışlar.

Tərəflər «Avropa–Qafqaz–Asiya» nəqliyyat dəhlizi ilə beynəlxalq daşımaların inkişafı haqqında çoxtərəfli əsas saziş» çərçivəsində həyata keçirilən fəaliyyətlərin və Qara dəniz – Rinq koridoru layihəsinin reallaşmasının sürətlənməsi məqsədi ilə əlaqələndirilmənin xüsusi əhəmiyyət kəsb etdiyini qeyd etmişlər.

Prezidentlər 2001-ci il mayın 1-dən etibarən Qara Dəniz İqtisadi Əməkdaşlıq Təşkilatına sədrliyin Türkiyəyə həvalə edilməsi ilə bağlı, təşkilatın fəaliyyətinə təkan vermək üçün iki ölkə arasında sıx əməkdaşlığa dair razılıq əldə etmişlər.

Tərəflər iki ölkə arasındakı ticarət və iqtisadi əlaqələrin uzunmüddətli olmasını nəzərə alaraq, bu əlaqələrin qarşılıqlı faydalı və sıx əməkdaşlıq əsasında qurulması üçün zəruri tədbirlərin həyata keçirilməsinin vacibliyini vurğulamışlar.

Tərəflər bu çərçivədə ikitərəfli iqtisadi və ticarət əlaqələrində mövcud olan problemlərin müzakirə edilməsi üçün müştərək iqtisadi komissiyanın iclasının 2001-ci il martın 29-30-da Bakıda keçirilməsi haqqında razılıq əldə etmişlər.

Tərəflər iki ölkə arasındakı ticarətdə avtomobil nəqliyyatı ilə daşımaların vacibliyini qeyd edərək, bir-birinin avtonəqliyyat daşıyıcılarına yardım göstərməsinə dair razılığa gəlmişlər.

Türkiyə tərəfi Azərbaycanın siyasi, iqtisadi və ictimai sahələrdə əldə etdiyi inkişafı məmnuniyyətlə qarşıladığını qeyd etmiş, 5 noyabr 2000-ci il parlament seçkilərinin və 2001-ci il yanvarın 7-də bəzi rayonlarda təkrar keçirilmiş parlament seçkilərinin Azərbaycanda demokratik proseslərin dərinləşməsi və gücləndirilməsi istiqamətində mühüm bir mərhələ olduğunu qeyd etmişdir.

Tərəflər demokratiya, insan hüquqları və açıq cəmiyyət prinsipinin yeni əsrin ən vacib dəyərlərini təşkil etdiyini bildirərək, iki ölkənin ictimai birlikləri və qeyri-hökumət təşkilatları arasında əlaqələrin inkişafının əhəmiyyətini qeyd etmişlər.

Tərəflər iki ölkə arasında bu günə qədər imzalanmış 70-dən artıq sənədin mövcud əlaqələrin hüquqi bazasını təşkil etdiyini xatırladaraq, münasibətlərin gücləndirilməsi üçün böyük əhəmiyyət kəsb edən bu sənədlərin icrasının təmin olunması istiqamətində tədbirlər görülməsinin vacibliyini qeyd etmişlər.

Tərəflər xüsusilə iqtisadiyyat və mədəniyyət sahələrində konkret əməkdaşlıq layihələrindən ibarət olan yeni müqavilələrin hazırlanması prosesinin davam etdiyini qeyd edərək, bunun ən qısa zamanda başa çatması üçün hər iki ölkənin məsul şəxşləri arasında təmasların intensivləşdirilməsi arzusunda olduqlarını ifadə etmişlər.

Tərəflər əmək, sosial müdafiə, təhsil, elm və mədəniyyət sahələri ilə əlaqədar əməkdaşlığın inkişafı və dərinləşdirilməsi məqsədi ilə göstərilən səyləri dəstəklədiklərini bildirmişlər.

Tərəflər iki ölkə arasındakı müştərək mədəni dəyərlərin və tarixi qardaşlıq əlaqələrinin mədəniyyət sahəsindəki səviyyəsinin daha da gücləndirilməsinə təkan verəcəyinə inanaraq, Bakıda və Ankarada mədəniyyət mərkəzlərinin açılmasına dair razılıq əldə etmişlər.

Tərəflər, həmçinin TRT-1 verilişlərinin Azərbaycanın bütün ərazilərində sərbəst olaraq yayımlanması və müvafiq şəraitin yaradılması üçün iki ölkənin məsul şəxsləri arasındakı əməkdaşlığın davam etdirilməsinə dair razılıq əldə etmişlər.

Tərəflər həyata keçirilən qarşılıqlı səfərlərin iki ölkə arasında əlaqələrin daha da gücləndirilməsi istiqamətində mühüm imkanlar yaratdığını vurğulayaraq, cənab Heydər Əliyevin bu səfəri zamanı da danışıqların faydalı keçdiyini qeyd etmiş, Azərbaycan və Türkiyə arasındakı əməkdaşlığın dostluq, qardaşlıq, həmrəylik və qarşılıqlı yardım ruhu əsasında davam etdirilməsi və inkişafı üçün səylər göstərəcəklərini ifadə etmişlər.

Azərbaycan Respublikasının prezidenti Heydər Əliyev ona və nümayəndə heyətinə göstərilən səmimi münasibət və qonaqpərvərliyə görə təşəkkürünü bildirmiş, Türkiyə Respublikasının prezidenti Əhməd Necdət Sezəri Azərbaycana dəvət etmişdir. Prezident Əhməd Necdət Sezər bu dəvəti məmnuniyyətlə qəbul etmişdir.

Birgə bəyanat 2001-ci il martın 12-də Ankarada Azərbaycan və türk dillərində iki nüsxədə imzalanmışdır, hər iki mətn eyni qüvvəyə malikdir.

**Heydər Əliyev**

**Azərbaycan Respublikasının Prezidenti**

**Əhməd Necdət Sezər**

**Türkiyə Respublikasının Prezidenti**

**BANQLADEŞ XALQ RESPUBLİKASININ PREZİDENTİ ZATİ-ALİLƏRİ CƏNAB ŞAHABUDDİN ƏHMƏDƏ**

Hörmətli cənab Prezident!

Banqladeş Xalq Respublikasının milli bayramı – Müstəqillik günü münasibətilə Sizi və dost Banqladeş xalqını səmimi-qəlbdən təbrik edirəm.

Azərbaycan Respublikası ilə Banqladeş Xalq Respublikası arasında təşəkkül tapmış dostluq və əməkdaşlıq münasibətlərini yüksək qiymətləndirirəm. Ümidvaram ki, xalqlarımızın mənafeyinə xidmət edən qarşılıqlı əlaqələrimiz daim genişlənəcək və inkişaf edəcəkdir.

Sizə möhkəm cansağlığı, işlərinizdə uğurlar, ölkənizə sülh, əmin-amanlıq və firavanlıq arzulayıram.

*Hörmətlə,*

**HEYDƏR ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı şəhəri, *18 mart 2001-ci il*

## NOVRUZ BAYRAMI MÜNASİBƏTİLƏ AZƏRBAYCAN XALQINA TƏBRİK

Hörmətli həmvətənlər!

Əziz və müqəddəs Novruz bayramı münasibətilə sizi ürəkdən təbrik edir, hamınıza xoş bayram əhval-ruhiyyəsi arzulayıram.

Dünyanın yaranışını tarixən ilk yaz günü ilə bağlayan xalqımız əsrlər boyunca bahar bayramını əziz tutmuşdur. Təbiətin oyanışını, varlığın yenidən canlanmasını müjdələyən Novruz bayramı sadəcə, şadlıq, sevinc, səadət bayramı olmamış, tariximizin ən çətin anlarında insanlarımızın ürəyində özünə yer eləmiş, həyatına daxil olmuş, işıqlı sabaha, xoşbəxt gələcəyə inam duyğusunu yaşatmışdır.

Təbiətlə bağlı olan bu gözəl bayramda ulu əcdadlarımızın xatirəsinə dərin ehtiram ifadə olunur. Xalqımızın tarixi yaddaşından süzülüb gələn ənənələr keçmişimizi və gələcəyimizi bir-biri ilə bağlayan bu bahar bayramında bütöv bir şəkildə yaşayır.

Bu Novruz bayramı həm də onunla əlamətdardır ki, yeni yüzillikdə və yeni minillikdə keçirilən ilk yaz bayramımızdır. İnanıram ki, təbiətin təzələnməsi ilə birlikdə insanlarımızın ovqatının da yeniləşdiyi bu bayramın gəlişi ilə Azərbaycanın taleyüklü məsələləri xalqımızın qüdrəti sayəsində öz ədalətli həllini tapacaq, doğma yurd-yuvalarından didərgin düşmüş bacı-qardaşlarımızın köçkünlük və qaçqınlıq həyatına son qoyulacaq, xalqımız layiq olduğu xoşbəxt həyata qovuşacaqdır.

Dünyanın dörd bir yanında yaşayan bütün yurddaşlarımız bu ulu və mübarək bayramı böyük təntənə ilə qeyd edirlər. Qoy bu bayram Yer kürəsinin müxtəlif guşələrinə səpələnmiş,

ayrı-ayrı bölgələrdə məskunlaşmış soydaşlarımız arasında birlik, həmrəylik rəmzinə çevrilsin və onları Azərbaycanın müstəqilliyi ilə fəxr etməyə ruhlandırsın. Mən bu gün ölkəmizin hüdudlarından kənarda yaşayan bütün azərbaycanlıları da ürəkdən salamlayır, bayram münasibətilə hər birinə ən səmimi duyğularımı yetirirəm.

Bu bayram günlərində dünyanın Azərbaycan adlı həqiqətinin sonsuzluğa qədər var ola bilməsi yolunda şəhid olmuş övladlarımızı böyük ehtiramla yad edirik. İnanıram ki, uğrunda onların baş qoyduqları ideallar ən yaxın bir zamanda gerçəkliyə çevriləcək, Azərbaycanın müstəqilliyi və ərazi bütövlüyünün möhkəmləndirilməsi yolunda atdığımız hər bir addım şəhidlərimizin ruhlarını şad edəcəkdir.

İlin bu əziz bahar bayramında, bu yaz ətirli bayramda vətənin çiçəklənməsi naminə gedəcəyiniz yolda hər birinizə uğurlar diləyirəm.

Bayramınız mübarək olsun!

**HEYDƏR ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı şəhəri, *18 mart 2001-ci il*

# AMERİKA BİRLƏŞMİŞ ŞTATLARININ BAKIDAKI SƏFİRİ ROSS UİLSON İLƏ GÖRÜŞDƏ SÖHBƏT

*Prezident sarayı*

*20 mart 2001-ci il*

**H e y d ə r Ə l i y e v:** Xoş gördük sizi, cənab səfir.

**R o s s U i l s o n:** Cənab Prezident, salam. Sizi səmimiqəlbdən salamlayır və Novruz bayramı münasibətilə təbrik edirəm.

**H e y d ə r Ə l i y e v:** Mən də sizi təbrik edirəm. Bir halda ki, buradasınız, bu sizin də bayramınızdır.

Necəsiniz, ölkənizə getmişdiniz, oralarda nə var, nə yox?

**R o s s U i l s o n:** Cənab Prezident, çox yaxşıyam. Bu gün məni qəbul etdiyinizə görə Sizə təşəkkürümü bildirirəm.

Bildiyiniz kimi, mən Vaşinqtondan dünən gecə qayıtmışam. Çox məmnunam ki, vaxtında geri dönmüşəm və sizi Novruz bayramı münasibətilə təbrik etmək imkanı əldə etmişəm.

Mən prezident cənab Buşdan və Dövlət katibi cənab Pauelldən Sizə salam gətirmişəm. Həm dövlət departamentində, həm Ağ evdə, həm də Konqresdə çox yüksək rütbəli məmurlarla faydalı danışıqlar aparmışam. Sizin ölkənizdə baş verən hadisələri, xüsusilə Dağlıq Qarabağ münaqişəsinin sülh yolu ilə nizamlanmasını və ölkələrimiz arasında qarşılıqlı fayda və maraq doğuran məsələləri Vaşinqtonda çox dərindən izləməkdə davam edirlər.

Prezident Buşa Sizin göndərdiyiniz məktub böyük maraqla qarşılanıbdır. Bu gün mən Dövlət katibi Pauellin Dağlıq Qarabağ münaqişəsi ilə əlaqədar Sizə göndərdiyi məktubu rəsmi surətdə təqdim etməkdən böyük məmnunluq duyuram.

Yəqin xatırlayırsınız, hələ prezident Buş özü Sizə göndərdiyi məktubunda yazmışdı ki, Dağlıq Qarabağ münaqişəsinin dinc yolla nizamlanması onun hökumətinin ən çox əhəmiyyət verdiyi öncül məsələlərdən biridir. Həm o məktubun işığında, yəni prezident Buşun Sizə məktubunun davamı olaraq, həm də prezident Köçəryanla Parisdə apardığınız danışıqların davamı olaraq Dövlət katibi Pauell məmnuniyyətlə Sizi və prezident Köçəryanı rəsmi surətdə Amerika Birləşmiş Ştatlarına dəvət edir ki, Dağlıq Qarabağ münaqişəsinin nizamlanmasına dair danışıqların növbəti mərhələsi burada aparılsın. Biz təklif etmişik ki, bu danışıqlar aprel ayının əvvəlindən başlamaqla Florida ştatında keçirilsin. Ümidvarıq ki, həmin danışıqlarda sülhə nail olunması yolunda irəliləyiş əldə ediləcəkdir. Paris danışıqlarından fərqli olaraq, ABŞ-da keçiriləcək bu danışıqlarda Minsk qrupunun üç həmsədri də iştirak edəcəkdir.

Bir daha təkrar edirəm, ümidvarıq ki, bu danışıqlar münaqişənin dinc yolla nizamlanması istiqamətində irəliyə atılmış növbəti mühüm addım olacaqdır.

Mənim Vaşinqtondakı həmkarlarım həm Sizin bu danışıqlarınızı, həm də özünüzlə görüşüb söhbət etməyi səbirsizliklə gözləyirlər.

**H e y d ə r Ə l i y e v:** Sağ olun, cənab səfir. Birincisi, bu gün bizim bayramımızdır, Novruz bayramıdır. Bu bayram günündə görüş, gərək həmişə yaxşı nəticələr versin.

Novruz bayramı xüsusi bayramdır. Çünki bu bayramın qədim tarixi, astronomik əsasları var. Bu gün saat 5 radələrində gecə ilə gündüz bərabərləşəcəkdir. Məhz bu gün də, sabah da bayramdır. Bakının icra hakimiyyətinin başçısı mə-

nə dedi ki, həmin o dəqiqə şəhərdə bütün fəvvarələr işə düşəcəkdir.

Məni bayram münasibətilə təbrik etdiyinizə görə təşəkkür edirəm. Sizə də, Amerika xalqına da ən xoş arzularımı bildirirəm.

Amerika Birləşmiş Ştatlarında olduğunuz zaman apardığınız danışıqlar, görüşlər və indi verdiyiniz məlumatlar, təbiidir ki, mənim üçün çox maraqlıdır və məni məmnun edir. Çox məmnunam ki, prezident cənab Buşun mənə göndərdiyi məktuba cavab olaraq ona göndərdiyim geniş məktub orada müəyyən iz buraxıbdır və siz də bu barədə öz fikirlərinizi dediniz. Çünki mənim o məktubumun, siz bilirsiniz, əsas məzmunu, məqsədi, həm ABŞ–Azərbaycan ikitərəfli əlaqələrinin inkişaf etdirilməsi, Xəzər dənizi regionunda bizim gördüyümüz işlərin bundan sonra daha da sürətlə həyata keçirilməsi, həm də xüsusən bizim üçün ən əsas məsələ olan Ermənistan–Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin həll olunması məsələsidir.

Mən şübhə etmirəm ki, Amerika Birləşmiş Ştatlarının yeni hökuməti ilə – prezident cənab Buş ilə və başqa dövlət şəxsləri ilə bizim dialoqumuz artıq başlayıbdır. Cənab Buşun mənə göndərdiyi həmin məktub və mənim göndərdiyim cavab onu göstərir ki, biz artıq bilavasitə əlaqələrə başlamışıq və bu əlaqələri də davam etdirməyə hazırıq. Təbiidir ki, bu əməkdaşlıqda bizi maraqlandıran məsələlər çoxdur. Ancaq ən əsas məsələ, siz bilirsiniz ki, Ermənistan–Azərbaycan münaqişəsinin həll olunması məsələsidir. Çünki, baxmayaraq, biz iki ildən çoxdur ki, prezident Köçəryanla danışıqlar aparırıq, bu danışıqların da sayı gündən-günə artır, amma Ermənistan tərəfinin qeyri-konstruktiv mövqelərinə görə bir nəticə əldə edə bilmirik.

Siz bilirsiniz ki, son vaxtlar bizim cəmiyyətdə də, xalqımızda da bir gərginlik yaranıbdır. Xüsusən, bu məsələ Milli Məclisdə

müzakirə olunandan sonra, Minsk qrupunun indiyədək verdiyi təkliflərin xalqa açıqlanması ilə əlaqədar böyük bir gərginlik yaranıbdır. Müxtəlif fikirlər söylənilir. İnsanların çoxu müharibə əhval-ruhiyyəsi ilə yaşayır. Belə bir zamanda, təbiidir ki, biz gərək səylərimizi artıraq, məsələni həll edək və münaqişəni sülh yolu ilə aradan qaldıraq. Ona görə də mən Amerika Birləşmiş Ştatları hökumətinin bu təşəbbüsünü məmnuniyyətlə qəbul edirəm. Təbiidir ki, belə bir görüşün ABŞ-da, Florida ştatında keçirilməsinə razılıq verirəm və orada iştirak edəcəyəm.

Mən Dövlət katibinin dəvət məktubunu da çox məmnuniyyətlə qəbul edirəm. Güman edirəm ki, məktubda bizim danışıqlarımızın məzmunu, formatı və sair məsələlər də öz əksini tapmış olacaqdır.

Bir də onu qeyd etmək istəyirəm ki, Minsk qrupunun həmsədrləri bölgəyə gəliblər. Heç vaxt hamısı bir yerə yığışmayıblar. Yəni Ermənistana gəliblər, sonra Azərbaycana, yaxud başqa bir vaxt əvvəl Azərbaycana gəliblər, sonra Ermənistana gediblər. Onlar nə deyiblərsə, gəlib bizə çatdırıblar, biz nə demişiksə, onlara yetiriblər. Bunlar da öz nəticəsini verməyibdir. Ona görə də indi Minsk qrupu həmsədrlərinin hamısının iki prezidentlə bərabər bir yerdə görüşü, ABŞ hökumətinin xüsusi nümayəndəsinin – mən belə eşitdim ki, Dövlət katibi cənab Pauell bu işə başçılıq edəcəkdir – iştirakı ilə keçiriləcək belə bir görüş, hesab edirəm ki, indiyə qədər olmayıbdır. Bu görüş çox əhəmiyyətli ola bilər.

Bizim müxbirlər belə sual verdilər ki, mən yeni bir görüşə gedəcəyəm, yoxsa yox. Dedim ki, hər bir görüşdən mən hansısa bir müsbət nəticə gözləyirəm. Bunun üçün nə qədər görüş lazım olsa, bu görüşlərdə o qədər də iştirak edəcəyəm. Amma indi ABŞ-a bu qədər uzun yolu getmək, orada, Amerika Birləşmiş Ştatlarının ən cənubunda – mənə elə gəlir ki, Kubanın yaxınlığındadır – Florida ştatında görüş keçirmək, təbiidir ki, böyük ümidlər doğurur. Bu uzaq yolu gedib

gələsən, yenə də bir nəticə əldə etməyəsən– bu daha da ağır ola bilər. Ona görə də mən belə arzularla yaşayıram ki, biz gərək məsələnin həll olunması üçün irəliləyək.

Minsk qrupu həmsədrlərinin bu görüşü birlikdə keçirməsi məndə belə bir fikir yaradır ki, indi onlar öz səylərini daha da birləşdirirlər. Bu, yaxşı haldır və ola bilər ki, müsbət nəticə versin. Bir sözlə, mən bu dəvəti qəbul edirəm. Təyin olunan vaxtda Floridada olacağam. Qalan şeylər sizdən asılıdır.

**R o s s U i l s o n:** Cənab Prezident, çox sağ olun. Hesab edirəm ki, bu danışıqların Amerika Birləşmiş Ştatlarının təşəbbüsü ilə bizim ölkəmizdə keçirilməsi həm prezidentimizin, həm də Dövlət katibimizin münaqişənin dinc yolla nizamlanmasına şəxsi marağının və sadiqliyinin göstəricisidir.

Hesab edirəm ki, bu danışıqlarda Minsk qrupunun həmsədri olan üç ölkənin təkcə həmsədrlərinin deyil, daha yüksək səviyyədə təmsil olunması onu göstərir ki, bu üç ölkə həm Azərbaycanın, həm də Ermənistanın gələcəyi üçün çox mühüm rol oynaya biləcək proseslərdə iştirakçı olacaqlar və münaqişənin dinc yolla nizamlanmasına böyük töhfə vermiş olacaqlar.

Düzdür, Florida Azərbaycandan və Ermənistandan uzaqda yerləşsə də, Sizi əmin etmək istəyirəm ki, ora çox isti və həm də çox qonaqpərvər bir məkandır. Sülhə doğru tərəqqi əldə etmək üçün Amerikada Floridadan daha münasib və daha hərarətli bir yer təsəvvür etmək mənim üçün çətindir.

Biz Sizin bu səfərinizi, orada keçirəcəyiniz danışıqları səbirsizliklə gözləyirik.

**H e y d ə r Ə l i y e v:** İnşaallah.

## AZƏRBAYCAN RESPUBLİKASININ DÖVLƏT MÜSTƏQİLLİYİNİN ONUNCU İLDÖNÜMÜ HAQQINDA FƏRMAN

Bu il Azərbaycan xalqının həyatında əlamətdar tarixi hadisənin – Azərbaycanın dövlət müstəqilliyinin bərpa edilməsinin 10 ili tamam olur. 1991-ci il oktyabrın 18-də «Azərbaycan dövlət müstəqilliyi haqqında» Konstitusiya aktının qəbul edilməsi ilə Azərbaycan tarixinin yeni bir dövrü – müstəqil inkişaf dövrü başlandı.

Azərbaycan Respublikasının öz dövlət müstəqilliyini əldə etməsi keçmiş SSRİ-də və bütün dünyada 80-cı illərin ortalarından başlayaraq gedən ictimai-siyasi proseslərin labüd nəticəsi idi. Bu obyektiv tarixi gerçəklik SSRİ-nin dağılmasına, Kommunist Partiyasının tarix səhnəsindən çəkilməsinə və nəticə etibarilə müttəfiq respublikaların hər birinin müstəqil dövlətə çevrilməsinə gətirib çıxartdı. Bunun ardınca yeni müstəqil dövlətlərin, eləcə də Azərbaycan Respublikasının dünya ölkələri, müxtəlif beynəlxalq təşkilatlar, o cümlədən Birləşmiş Millətlər Təşkilatı tərəfindən tanınması beynəlxalq hüquq normalarının qanuni təzahürü oldu.

Tarix dəfələrlə sübut etmişdir ki, xalqın əvəzsiz milli sərvəti olan müstəqilliyin qorunması onun əldə edilməsindən qat-qat ağır və mürəkkəb vəzifədir. Müstəqillik yoluna qədəm qoymuş Azərbaycan Respublikasının da qarşısında yeni tarixi inkişaf mərhələsində dövlət müstəqilliyinin möhkəmləndirilməsi, demokratik, hüquqi dünyəvi dövlət qurulması, ölkənin ərazi bütövlüyünün bərpa edilməsi, Dağlıq Qarabağ probleminin milli maraqlara uyğun həlli, əhalinin təhlükəsizliyinin və rifahının təmin edilməsi kimi taleyüklü, mühüm tarixi

vəzifələr dururdu. Bütün bunlar ardıcıl, məqsədyönlü, düşünülmüş daxili və xarici siyasət kursunun hazırlanıb həyata keçirilməsini və bu məqsədlə ölkənin intellektual və sosial-iqtisadi potensialından, ictimai-siyasi qüvvələrindən səmərəli istifadə olunmasını tələb edirdi.

Təəssüf ki, 1991–1993-cü illərdə bu istiqamətdə heç bir iş aparılmadı. Müstəqil Azərbaycan dövlətinin keçdiyi yeni mərhələdə ölkənin iqtisadi, siyasi maraqları, təhlükəsizliyi, ərazi bütövlüyünün təmin olunması ilə bir araya sığmayan daxili və xarici siyasəti müstəqil dövlətçiliyə, onun sonrakı taleyinə ağır zərbələr vurdu. Azərbaycanda Ermənistanın təcavüzü ilə yanaşı, daxili ictimai sabitlik də pozulmuş, müxtəlif qanunsuz silahlı dəstələr yaradılmış və ölkənin daxilində qızğın hakimiyyət çəkişməsi başlanmışdı. Bu dövrdə hökumətin daxili və xarici siyasətini xarakterizə edən əsas cəhət aydın, ardıcıl və prinsipial bir kursun olmaması idi. Dövlət müstəqilliyi vahid bir konsepsiya və sistem əsasında deyil, məsul vəzifə sahiblərinin qrup maraqlarını ifadə edən təsadüfi bəyanatlar, əksər hallarda bir-birini inkar edən, ziddiyyətli və emosional çıxışlar üzərində qurulurdu. XX əsrdə xalqımızın gərgin əməyi ilə yaradılmış qüdrətli iqtisadi potensial amansızcasına dağıdıldı, milli sərvətlər talan edildi. İctimai-siyasi həyatda, iqtisadiyyatda hərc-mərclik, bir qarışıqlıq, «dövlət reketi» hökm sürürdü. Belə düşünülməmiş və səriştəsiz siyasət milli və vətəndaş qarşıdurmasının kəskinləşməsinə, hakimiyyətin ölkə daxilində öz nüfuzunu itirməsinə gətirib çıxartdı. Nəticədə, 1993-cü ilin yayında Azərbaycan dövlətçiliyi böhran və məhvolma təhlükəsi qarşısında qaldı, ölkə vətəndaş müharibəsi və parçalanma həddinə çatdı. 1991-ci ildə əlverişli tarixi şəraitin və taleyin xalqımıza bəxş etdiyi imkanlardan yaranmış müstəqil dövlətimiz səriştəsiz siyasət nəticəsində süquta uğramaq təhlükəsi ilə üz-üzə qaldı. Beləliklə, 1991–1993-cü illər Azərbaycanın müstəqillik tari-

xində nəinki itirilmiş illər, hətta müstəqilliyimiz üçün təhlükə törədən bir çox təzahürlərin əmələ gəldiyi bir dövr kimi səciyyələndirilə bilər.

1993-cü ilin iyununda xalqın təkidli tələbi ilə ölkədə hakimiyyət dəyişikliyi baş verdi. Hakimiyyət vakuumu aradan götürüldü, baş qaldırmış separatçı qüvvələr, Azərbaycan dövlətçiliyinə, müstəqilliyinə, ərazi bütövlüyünə qəsdlər törədən cinayətkar ünsürlər zərərsizləşdirildi, dövlətlə xalqın birliyi, yekdilliyi təmin edildi.

Azərbaycanın müstəqilliyini, ərazi bütövlüyünü qorumaq, ölkədə ictimai-siyasi sabitliyə nail olmaq üçün təxirəsalınmaz vəzifələrdən biri davam etməkdə olan Ermənistan – Azərbaycan müharibəsi ilə bağlı qəti addımlar atılmasından ibarət idi. Milli ordumuzun formalaşdırılması, onun döyüş qabiliyyətinin yüksəldilməsi, torpaqlarımızın müdafiə olunması üçün genişmiqyaslı tədbirlərin həyata keçirilməsi nəticəsində hərbi qarşıdurmada tarazlıq yarandı. Cəbhə bölgələrindəki yeni vəziyyət erməni tərəfini atəşin dayandırılması barədə ciddi düşünməyə vadar etdi. 1994-cü ilin mayında atəşkəs haqqında razılaşma əldə olundu, beş ildən artıq bir müddət ərzində davam etmiş hərbi əməliyyatlar dayandırıldı, münaqişənin dinc yolla aradan qaldırılması üçün ilkin şərait yarandı.

Müharibənin dayandırılması, ölkədaxili vəziyyətin nizamlanması, ictimai-siyasi sabitliyin bərqərar edilməsi, regionda qonşu dövlətlərlə yaranmış gərginliyin aradan qaldırılması Azərbaycanın müstəqil dövlət kimi yaşamasını və sonrakı inkişafını şərtləndirən amillərdən oldu.

Azərbaycan daxilində yaranmış nisbi sabitlikdən və beynəlxalq aləmdə ona münasibətdə artan inam və maraqdan istifadə edərək, 1994-cü ilin sentyabrında dünyanın iri neft şirkətləri ilə «Əsrin müqaviləsi» adlandırılan ilk neft kontraktlarını imzaladı. Ölkənin çoxsaylı sosial-iqtisadi problemlərinin həlli istiqamətində məqsədyönlü tədbirlər həyata keçirilməyə başlandı.

Azərbaycanda başlanmış bu işlər dövlətçiliyimizin əleyhinə olan daxili və xarici qüvvələrin ciddi müqaviməti ilə üzləşdi. 1994-cü ilin oktyabrında və 1995-ci ilin martında dövlət çevrilişinə silahlı cəhdlər göstərildi. Azərbaycan dövlətinin qətiyyəti, bütün xalqın qızğın dəstəyi ilə bu təhlükəli cəhdlərin qarşısı alındı. Görülmüş tədbirlər nəticəsində Azərbaycanda zor gücünə, silahlı dəstələrdən istifadə etməklə hakimiyyətə gəlmək ənənəsinə son qoyuldu. Azərbaycan dövləti keyfiyyətcə yeni bir mərhələyə daxil oldu, dövlət quruculuğunda, iqtisadi, sosial və mədəni həyatda böyük işlərə başlamaq üçün ictimai-siyasi sabitliyin və qanunçuluğun bərqərar edildiyi ölkəyə çevrildi. 1995-ci ilə qədər bəzi sahələrdə bir sıra müsbət dəyişikliklər əldə edilsə də, ölkədə bütün istiqamətlərdə genişmiqyaslı islahatların ardıcıl şəkildə həyata keçirilməsi məhz tam ictimai-siyasi sabitliyin təmin edilməsindən sonra mümkün oldu.

1995-ci il noyabrın 12-də müstəqil respublikamızın ilk Konstitusiyası qəbul olundu və müstəqillik tariximizdə ilk parlament seçkiləri keçirildi. Müstəqil Azərbaycanın Konstitusiyası ölkəmizdə yeni dövlət quruculuğu üçün, dövlət fəaliyyətinin və cəmiyyətin inkişafının gələcək modeli üçün hüquqi əsas yaratdı. Azərbaycanın müstəqilliyinin möhkəmləndirilməsi, onun əbədi, dönməz xarakter alması baxımından tariximizin ən məhsuldar dövrünün təməli qoyuldu.

Ölkədə demokratik islahatlar kursu müəyyən edildi və bu istiqamətdə ardıcıl iş həyata keçirilməyə başlandı. Azərbaycanda demokratik dövlət yaradılması üçün yeni iqtisadi sistemin formalaşması, iqtisadiyyat sahəsində demokratik islahatların həyata keçirilməsi zərurəti ön plana çəkildi. Bazar iqtisadiyyatının formalaşması üçün müvafiq hüquqi bazanın yaradılması yolunda böyük iş aparıldı. Torpaq və aqrar islahatlar haqqında, özəlləşdirmə, sahibkarlığın inkişafı, vergi, maliyyə-bank sisteminin yenidən qurulması, ticarətin liberallaşdırılması, inhisarçılığın aradan qaldırılması və rəqabətin inki-

şafı barədə əhalinin sosial müdafiəsini təmin edən mühüm qanunvericilik aktları qəbul edildi. İqtisadi islahatların dərinləşməsində həlledici rol oynayan özəlləşdirmə prosesi sürətləndirildi. Bu sahədə görülmüş ardıcıl iş sayəsində kiçik özəlləşdirmə başa çatdırıldı, ölkədə ticarət, ictimai iaşə və bütün xidmət obyektləri, demək olar ki, artıq sahibkarların əlində cəmləşdi. Orta və iri sənaye müəssisələrinin özəlləşdirilməsi başlandı.

İstehsalda yaranmış geriləmə hallarının qarşısı bazar iqtisadiyyatına keçid istiqamətində görülən məqsədyönlü tədbirlər sayəsində alındı, ölkədə makroiqtisadi sabitlik təmin olundu. Həyata keçirilən tədbirlər nəticəsində sənaye istehsalında artım meylləri yarandı. Sənayenin, demək olar ki, bütün sahələrində, o cümlədən neft və qaz, neft və neft kimyası, metallurgiya, maşınqayırma, tikinti materialları, yüngül və yeyinti sənayesi sahələrində, habelə sənayenin qeyri-dövlət sektorunda ciddi irəliləyiş əldə edildi.

Ölkədə torpaq islahatının həyata keçirilməsi, torpağın xüsusi mülkiyyətə verilməsi, kolxoz və sovxozların əmlakının özəlləşdirilməsi digər sahələrlə müqayisədə kənd təsərrüfatında islahatların daha sürətlə aparılmasına imkan yaratdı. Bu sahədə əldə edilmiş müsbət dəyişiklikləri dəstəkləmək, meydana çıxan problemləri aradan qaldırmaq məqsədi ilə xüsusi qanun və fərmanlar qəbul edildi. Aqrar sektorun, torpaq vergisi istisna olmaqla, digər vergilərdən beş il müddətinə azad edilməsi, büdcəyə olan vergi borclarının silinməsi, yanacağın güzəştli satışı və digər tədbirlər kənd təsərrüfatı istehsalına əhəmiyyətli təsir göstərdi.

Gənc müstəqil dövlət, xüsusən Azərbaycan kimi xarici təcavüzə, böyük dağıntılara və itkilərə məruz qalmış ölkə müstəqilliyə nail olduqdan sonra iqtisadiyyatını öz daxili imkanları hesabına vaxtında inkişaf etdirə bilməzdi. Bu baxımdan Azərbaycana xarici investisiyanın cəlb olunması əsas məqsədlərdən biri idi. İqtisadi yüksəlişin həlledici şərti

hesab olunan investisiya qoyuluşu sahəsində mühüm nailiyyətlər əldə olundu. Kapital qoyuluşunun artmasında ölkəmizə xarici kapital axını həlledici rol oynayır. Ölkə iqtisadiyyatına böyük həcmdə xarici investisiya yönəldilmişdir. Xarici investisiya qoyuluşunda «Əsrin müqaviləsi» və ondan sonrakı neft kontraktları mühüm rol oynayır. Azərbaycanda yalnız neft sektoruna deyil, iqtisadiyyatın digər sahələrinə də xarici investisiya qoyuluşu xeyli artmışdır. Hazırda Azərbaycanda adambaşına düşən xarici investisiyanın həcmi Müstəqil Dövlətlər Birliyi məkanında ən yüksək göstərici hesab olunur.

Azərbaycan dövlətinin neft strategiyasının işlənib hazırlanması və ardıcıl surətdə həyata keçirilməsi ölkəmizin əldə etdiyi nailiyyətlərin ən əsasıdır. Bu sahədə bir çox faydalı sazişlər imzalanıb, işlər görülmüşdür. Müstəqil neft strategiyasının həyata keçirilməsi vasitəsilə Azərbaycan dünyanın bir çox ölkələrinin diqqətini, marağını özünə cəlb etmişdir. Azərbaycanın neft strategiyası ölkəyə həm iqtisadi inkişaf üçün əlverişli şərait yaradıb, həm də dünyanın bir çox dövlətləri ilə qarşılıqlı surətdə faydalı əlaqələr qurmağa imkan veribdir. Ümumiyyətlə, Azərbaycanın neft strategiyası və bu sahədə həyata keçirilən məqsədyönlü tədbirlər nəinki mühüm sosial-iqtisadi, həm də böyük siyasi əhəmiyyət kəsb edir. Bu da Azərbaycan dövlətinin beynəlxalq nüfuzunun artmasına və dövlət müstəqilliyinin möhkəmlənməsi işinə xidmət edir.

Aparılan islahatların sosial yönümü və əhalinin sosial müdafiəsi tədbirləri dövlətin iqtisadi siyasətində mühüm yer tutur. Əməkhaqqının artırılması barədə dövlət tədbirlərinin həyata keçirilməsi nəticəsində işçilərin orta aylıq nominal əməkhaqqı xeyli artmışdır. Əhalinin sosial müdafiəsinin yaxşılaşdılması hər vaxt dövlətin diqqət mərkəzində olmuşdur. Ölkənin sosial-iqtisadi imkanları yaxşılaşdıqca və büdcənin mədaxili artdıqca, müvafiq olaraq bu istiqamətdə tədbirlər həyata keçiriləcəkdir.

Bu gün Azərbaycanın sosial-iqtisadi inkişafında yeni mərhələnin təməli qoyulmuş və yüksək iqtisadi artım üçün əsaslı zəmin yaradılmışdır. Bu, iqtisadiyyatın daha yüksək templə inkişafının təmin edilməsi, ölkədə işsizliyin azaldılması, əhalinin rifahının yaxşılaşdırılması, Azərbaycanın dünya iqtisadiyyatına inteqrasiya edilməsi yolunda mühüm mərhələ olacaqdır.

Azərbaycan Respublikası demokratik inkişaf yolu ilə inamla irəliləyir. Ölkəmizdə bunun üçün zəruri olan təsisatlar və hüquqi baza artıq formalaşdırılmışdır. Dövlət quruculuğu sahəsində aparılan islahatlar dövlət hakimiyyətlərinin bölünməsi prinsipi əsasında gerçəkləşməsini təmin etdi. Respublikada müxtəlifyönlü siyasi partiyaların, ictimai təşkilatların azad fəaliyyət göstərməsi, çoxsaylı mətbuat orqanlarının sərbəst çıxmasısı, özəl televiziya və radio kanallarının öz verilişlərini efirə çıxarması və sairə kimi hallar Azərbaycanda siyasi plüralizm, fikir azadlığı, demokratiya ab-havasının hökm sürməsinin konkret əyani nəticəsidir. Vicdan və söz azadlıqları, şəxsiyyətin toxunulmazlığı, əsas insan və vətəndaş hüquq və azadlıqlarının təmin edilməsi, tolerantlıq mühitinin bərqərar olması əsl vətəndaş cəmiyyətini formalaşdırmaq üçün atılmış mühüm addımlardır. Məhkəmə-hüquq sisteminin beynəlxalq standartlara, o cümlədən İnsan Hüquqları üzrə Avropa Konvensiyasının tələblərinə uyğun yenidən qurulması məqsədi ilə aparılan islahatlar hüquqi dövlət quruculuğunun uğurla həyata keçirilməsi, ölkəmizdə insan hüquqlarının təmin edilməsi və qorunması üçün böyük əhəmiyyət kəsb edir.

Sosial-iqtisadi sahələrdə, dövlət quruculuğunda, insan hüquqları və azadlıqlarının təmin edilməsi yolunda qazanılmış uğurlarla yanaşı, Azərbaycan dövlətinin yeritdiyi məqsədyönlü siyasət sayəsində digər istiqamətlərdə də əldə edilmiş mühüm nailiyyətlər ölkəmizin müstəqilliyinin möhkəmləndirilməsinə xidmət edir. Azərbaycanın silahlı qüvvələri qüdrətli bir orduya çevrilib və ölkəni hərbi təcavüzlərdən qoruyacaq qədər güclənib, inkişaf edibdir. Müstəqil respublikamızın

nüfuzlu beynəlxalq təşkilatlara, o cümlədən Avropa Şurasına tamhüquqlu üzv qəbul edilməsi onun beynəlxalq mövqeyinin möhkəmləndirilməsinə, dünya ölkələri içərisində öz layiqli yerini tuta bilməsinə əlverişli şərait yaratmışdır. Azərbaycanın dövlət müstəqilliyinin möhkəmləndirilməsi işinə xidmət edən xarici siyasət dünyanın bütün dövlətləri ilə bərabərhüquqlu əsaslar üzərində faydalı əlaqələr qurmaq və inkişaf etdirmək istiqamətində ardıcıl şəkildə aparılır. Azərbaycan dövlətçiliyi möhkəmlənib, günü-gündən güclənməkdədir.

On il tarixi baxımdan böyük müddət deyildir. Azərbaycanda bu qısa müddət ərzində demokratik, hüquqi, dünyəvi dövlət qurulmuş, onun təsisatları yaradılmışdır. Azərbaycan iqtisadi islahatlar apararaq bazar iqtisadiyyatını inkişaf etdirir. Ölkəmiz artıq intensiv inkişaf dövrünü yaşayır.

Azərbaycanın dövlət müstəqilliyinin onillik yubileyinin ölkəmizin ictimai-siyasi həyatında böyük, əlamətdar hadisə olduğunu nəzərə alaraq və eləcə də Azərbaycan Respublikasının on il ərzində keçdiyi müstəqil inkişaf yolunda əldə etdiyi nailiyyətlərin təhlili və təbliğini gücləndirmək məqsədi ilə **qərara alıram:**

1. Azərbaycan Respublikasının dövlət müstəqilliyinin onillik yubileyi ölkəmizdə geniş qeyd olunsun.
2. Azərbaycan Respublikasının dövlət müstəqilliyinin onillik yubileyi ilə bağlı tədbirlər planı təsdiq edilsin (əlavə olunur).
3. Azərbaycan Respublikasının Nazirlər Kabineti nəzərdə tutulmuş tədbirlərin maliyyələşdirilməsini təmin etsin və bu fərmandan irəli gələn digər məsələləri həll etsin.

**HEYDƏR ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

*Bakı şəhəri, 20 mart 2001-ci il*

## ÜMUMXALQ NOVRUZ BAYRAMI ŞƏNLİYİNDƏ NİTQ

*Bakı, İçərişəhər*

*21 mart 2001-ci il*

Əziz həmvətənlər!
Bacılar, qardaşlar!
Azərbaycan Respublikasının vətəndaşları!

Mən sizi, Azərbaycanın bütün vətəndaşlarını xalqımızın bu əziz və müqəddəs Novruz bayramı münasibətilə ürəkdən təbrik edirəm və hamınıza, hər bir insana, hər bir ailəyə səadət, xoşbəxtlik və gözəl gələcək arzulayıram.

Novruz bayramı qədimlərdən, ulu əcdadlarımızdan bizə yadigar qalmış bir bayramdır. Bu bayram əsrlər, minilliklər boyu yaşayıb və xalqımıza həmişə xoş əhval-ruhiyyə, ruh yüksəkliyi, səadət gətirmiş, həmişə iradə vermişdir. Bu bayram bütün bayramlardan ona görə seçilir ki, o, xalqın içindən gələn bayramdır. Hər bir insanın qəlbindən gələn, hər bir azərbaycanlının qəlbini sevindirən bayramdır. Ona görə təsadüfi deyil ki, bu bayram ərəfəsində insanlar Novruza hazırlıq görür, onu yaxşı keçirmək üçün lazımi işlər görürlər. Nəhayət, bayram günü bütün bu işlərin zirvəsinə çevrilir.

Bu bayram bizim xalqımızın ən gözəl milli dəyərlərindən, ənənələrindən, adətlərindən biridir. Dünyada hər xalqın özünəməxsus adət-ənənələri, milli dəyərləri var. Bizim xalqımızın da saysız-hesabsız milli-mənəvi dəyərləri var və biz bunlarla tarix boyu fəxr etmişik. Amma bütün bu adət-ənənələrin içərisində,

bütün bu milli-mənəvi dəyərlərin içərisində ən yüksəkdə, zirvədə duranı Novruz bayramıdır.

Novruz bayramı haqqında keçmişdə də, indi də çox böyük əsərlər yazılıb, onun mənşəyi, insanlara gətirdiyi səadət, insanların həyatına verdiyi mənəvi saflıq bütün bu əsərlərdə əks olunubdur. Ancaq biz nə qədər çox yaşayırıqsa, Novruz bayramının Azərbaycan xalqı üçün, hər bir azərbaycanlı üçün nə qədər gərəkli və nə qədər sevimli olduğunu bir o qədər də hiss edirik.

Bir müddət xalqımız bu bayramı kütləvi surətdə, ümumxalq bayramı kimi keçirməkdən məhrum olubdur. Ancaq bu, insanları heç vaxt həmin bayramdan ayıra bilməyibdir. Əgər belə kütləvi bayram tədbirləri olmayıbsa da, hər kəsin evində səməni olub, hər kəsin evində paxlava, şirni, lap belə imkansız adamın evində də bayram axşamı bizim əziz xörəyimiz olub – plov olubdur. Yəni insanlar bu bayramdan heç vaxt ayrılmayıblar. Bu gün Azərbaycan müstəqil bir dövlət olduğu halda və bizim müstəqilliyimizin böyük gələcəyini duyaraq tam əminliklə demək olar ki, bu bayram bu gün də, gələcəkdə də bütün Azərbaycan xalqının nəsillərinin əziz və istəkli bayramı olacaqdır.

Bu gün keçirdiyimiz bayramın xüsusiyyəti bir də ondan ibarətdir ki, bu, XXI əsrin, üçüncü minilliyin birinci Novruz bayramıdır.

Bu il biz Azərbaycanın dövlət müstəqilliyinin onuncu ilini yaşayırıq. İlin sonunda Azərbaycanın dövlət müstəqilliyinin, istiqlaliyyətinin onuncu ildönümünü böyük təntənə ilə, böyük bayram kimi qeyd edəcəyik. Bu barədə mən fərman imzalamışam. O, xalqa elan olunubdur. İndi artıq xalqımız, bütün ölkəmiz Azərbaycanın dövlət müstəqilliyinin onuncu ildönümünü qeyd etmək üçün hazırlaşmağa başlayıbdır. 1991-ci ilin sonunda Azərbaycanın Dövlət müstəqilliyinin bərpa edilməsi tarixi hadisə olmuşdur. Ancaq Azərbaycan xalqının müstəqil

dövlət içərisində yaşaması, Azərbaycanın müstəqil dövlət kimi dünyada öz yerini tutması ən böyük tarixi hadisədir. Bəlkə də Azərbaycan dövlət müstəqilliyini əldə edəndə bizim on il müstəqillik şəraitində yaşamağımızı təsəvvür etməyənlər, buna inanmayanlar da vardı. Bu da əsassız deyildi. Çünki ağır bir dövr yaşayırdıq. Ancaq Azərbaycan xalqı bütün bəşəriyyət qarşısında, dünya qarşısında sübut etdi ki, bütün çətinliklərə, əzab-əziyyətlərə baxmayaraq müstəqil yaşaya bilər, öz taleyinin sahibidir. Bu gün tam əsasla demək olar ki, Azərbaycanın dövlət müstəqilliyi əbədidir, sarsılmazdır və dönməzdir.

On il tarixi nöqteyi-nəzərdən az bir zamandır. Xalqımızın tarixi əsrlərlə, minilliklərlə ölçülür. Ona nisbətən on il, əlbəttə ki, az bir zamandır. Ancaq bu on ildə Azərbaycanın müstəqil dövlət kimi yaşaması və müstəqilliyini qorumağa qadir olması, onu qoruması və müstəqil dövlət kimi qarşısında qoyulmuş vəzifələri yerinə yetirməsi və Dünya Birliyində müstəqil dövlət kimi yaşaması, təbiidir ki, böyük bir hadisədir.

Bütün keçmiş dövrlərə nisbətən bu hadisənin qiyməti ən yüksəkdədir.

Bu on ildə bizim keçdiyimiz yol ağır, ancaq şərəfli yol olubdur. Ağır yol olub, ona görə ki, biz müstəqilliyimizi əldə edərkən Ermənistan tərəfindən hərbi təcavüzə məruz qalmışdıq və torpaqlarımızın bir qismi erməni silahlı qüvvələri tərəfindən işğal olunmuşdu. Ağır dövr idi. Ona görə ki, Azərbaycan dövlət müstəqilliyini əldə edəndə ölkəmizin daxilində ictimai-siyasi sabitlik olmayıb və təəssüflər olsun ki, biz o ağır dövrü yaşamışıq. O illər Azərbaycanda Ermənistanın təcavüzünə cavab vermək, torpaqlarımızı qorumaq əvəzinə, respublikamızın daxilindəki hərc-mərclik, qarmaqarışıqlıq, ayrı-ayrı silahlı dəstələrə malik olan insanların hakimiyyət uğrunda mübarizəsi ölkəmizin daxili vəziyyətini həddindən çox gərginləşdirmişdi. Ona görə də məhz belə bir

şəraitdə Azərbaycan xalqının öz müstəqilliyini saxlaması, yaşaması, müxtəlif silahlı dövlət çevrilişi cəhdlərinin, vətəndaş müharibəsinin qarşısını alması, ölkəmizin parçalanmaqdan xilas edilməsi və nəhayət, 1995-ci ildən başlayaraq respublikamızda daxili ictimai-siyasi sabitliyin təmin olunması, bunların əsasında isə Azərbaycanın dövlət müstəqilliyinin möhkəmlənməsi və gündən-günə inkişaf etməsi Azərbaycan xalqının nəyə qadir olduğunu dünyaya bir daha sübut etdi.

Son beş ildir ki, Azərbaycanda daxili ictimai-siyasi sabitlik təmin olunubdur. İnsanlarımız rahat yaşayırlar. Cinayətkar dəstələr, qruplar zərərsizləşdiriliblər. İqtisadiyyat inkişaf edir. Xalqın güzəranı gündən-günə yaxşılaşır. Son illərin bu bayram əhval-ruhiyyəsi, təkcə əhval-ruhiyyə yox, burada toplaşan, təkcə burada yox, Azərbaycanın hər guşəsində toplaşan insanların üzündə olan sevinc, təbəssüm, onların xarici görünüşü həmin bu ötən illərdə ölkəmizin əldə etdiyi nailiyyətləri əyani olaraq, hər şeydən artıq sübut edir.

Biz inkişaf yolu ilə gedirik. Ölkəmiz gündən-günə inkişaf edir və inkişaf edəcəkdir. Əmin ola bilərsiniz ki, Azərbaycan dövləti xalqımızı bundan sonra da müstəqillik yolu ilə aparacaq və Azərbaycan xalqının milli mənafelərini daim müdafiə edəcəkdir.

Əmin ola bilərsiniz ki, Azərbaycan dövləti apardığı iqtisadi-sosial siyasət nəticəsində xalqın rifah halını ilbəil yaxşılaşdıracaqdır. Bizim indiyə qədər gördüyümüz işlər, iqtisadiyyatda yaratdığımız əsaslar, Azərbaycanın zəngin təbii sərvətlərinin artıq əməli surətdə xalqın mənafeyi üçün istifadə edilməsi – bunların hamısı onu göstərir və deməyə əsas verir ki, Azərbaycan xalqının, müstəqil Azərbaycanın çox xoşbəxt gələcəyi var. Mən bu gələcəyə inanıram və bu inamla da sizin etimadınızı doğrultmağa çalışıram. Azərbaycan xalqının rifah halını yaxşılaşdırmağa çalışıram. İnanıram ki, bunların hamısına nail olacağıq.

Bizim daxili vəziyyətimiz yaxşıdır. Azərbaycan Dünya Birliyində özünə layiq yer tutubdur. Ən önəmli cəhət ondan ibarətdir ki, dünyada, Dünya Birliyində bütün dövlətlərlə münasibətlərdə Azərbaycan müstəqil xarici siyasət aparır. Bu, müstəqil xarici siyasətin əsas ana xətti, əsas mənası Azərbaycanı yüksəltmək, ölkəmizi dünya miqyasında tanıtmaq və Azərbaycan xalqının, müstəqil Azərbaycanın mənafelərini dünya miqyasında daim qorumaqdan, müdafiə etməkdən ibarətdir.

Mən əminəm ki, Azərbaycan dövlətinin heç bir dövlətdən asılı olmayan, heç bir tərəfə əyilməyən müstəqil xarici siyasəti ölkəmizi bundan sonra da dünyada daim irəli aparacaqdır.

Bizim hamımızın ən böyük problemi və deyə bilərəm ki, Azərbaycanın böyük potensialının inkişaf etdirilməsində, istifadə olunmasında bizə böyük əngəl törədən, maneçilik edən Ermənistan–Azərbaycan münaqişəsidir, Ermənistanın Azərbaycan torpaqlarının beşdə bir hissəsini işğal etməsidir, işğal olunmuş torpaqlardan bizim soydaşlarımızın zorla çıxarılması və onların ağır şəraitdə yaşaması, böyük bir hissəsinin isə 7-8 ildir ki, çox ağır şəraitdə çadırlarda yaşamasıdır.

Görürsünüz, bilirsiniz ki, biz bu məsələni həll etməyə çalışırıq. Nə qədər səylər göstəririk – bunu siz, təbiidir ki, bilə bilməzsiniz. Çünki bizim apardığımız tədbirlərin tam əksəriyyəti məxfi xarakter daşıyır. Ona görə ki, o tədbirlərin nəticəsi əldə olunandan sonra bunu biz xalqa aça bilərik. Ancaq son zamanlar Azərbaycanın Milli Məclisində biz indiyə qədər gördüyümüz işlər haqqında hesabat verdik. Yaranmış vəziyyəti xalqımıza açdıq, bildirdik. Məsələnin nə qədər ağır, nə qədər çətin olduğunu insanlar artıq dərk edə bilirlər. Ancaq biz bu addımı ataraq, eyni zamanda münaqişəni sülh yolu ilə həll etmək üçün yeni cəhdlər göstərmək məqsədi daşıyırıq.

Bilirsiniz ki, son vaxtlar, qısa müddətdə mən Ermənistan–Azərbaycan münaqişəsinin həll olunması ilə əlaqədar yaran-

mış Minsk qrupunun həmsədrlərindən biri olan Fransaya iki dəfə səfər etdim. Orada həm Fransa prezidenti cənab Jak Şirakla, həm də Ermənistan prezidenti ilə çox gərgin danışıqlar apardım. Ondan sonra Minsk qrupunun üzvü olan və Azərbaycan xalqının yaxın dostu, qardaşı olan Türkiyəyə səfər etdim. Orada bir həftə müddətində həm Türkiyə–Azərbaycan əlaqələrinin inkişaf etdirilməsi üçün müştərək işlər gördük, həm də Ermənistan–Azərbaycan münaqişəsinin həll olunması yollarını müzakirə və təhlil etdik.

Aprel ayının əvvəlində mən Amerika Birləşmiş Ştatlarına dəvət olunmuşam. Minsk qrupunun həmsədrlərindən biri kimi, Amerika Birləşmiş Ştatlarının hökuməti təkcə özü yox, Minsk qrupunun başqa həmsədrləri ilə – yəni Rusiya, Fransa ilə birlikdə məsələnin həll olunması üçün yeni tədbirlər həyata keçirmək fikrindədir. Biz bunların hamısına ümidlə baxırıq. Amma bilin, bütün bu danışıqlarda, hansı beynəlxalq təşkilatda olursa-olsun, hansı böyük dövlətlə danışırıqsa, danışaq, biz heç vaxt Azərbaycanın milli mənafeyinə zərər gətirən bir şeyə yol verməmişik və bundan sonra da verməyəcəyik.

Bizim xalqımızın, millətimizin, Azərbaycan dövlətinin qarşısında duran əsas vəzifə Azərbaycanın ərazi bütövlüyünü bərpa etmək, Ermənistan silahlı qüvvələrini işğal etdikləri torpaqlardan çıxarmaq, yerindən-yurdundan didərgin düşmüş bir milyona qədər vətəndaşımızı, azərbaycanlıları öz yerinə, yurduna qaytarmaqdan ibarətdir.

Ancaq təəssüflər olsun ki, keçmiş zamanlarda buraxılmış səhvlər və Ermənistan silahlı qüvvələrinin Azərbaycan ərazisinin bir qismini işğal etməsi bu məsələnin həllini çətinləşdiribdir. Nə qədər çətin olsa da, biz bu məsələni həll etməyə çalışırıq, çalışacağıq və inanıram ki, buna nail olacağıq.

Biz sülh yolu ilə gedirik. Yenidən müharibənin başlanmasını biz istəmirik. Ümid edirəm ki, məsələnin sülh yolu ilə həll edilməsinə nail olacağıq. Amma xalqımız bilir və xalqı-

mızın əhval-ruhiyyəsi də mənə məlumdur: əgər Azərbaycanın işğal olunmuş torpaqları sülh yolu ilə azad olmasa, biz nəyin bahasına olursa-olsun Azərbaycan xalqının iradəsini, öz gücümüzü göstərəcəyik. İşğal olunmuş torpaqlarımızın hamısını öz gücümüzlə, öz ordumuzla azad edəcəyik.

Əziz dostlar, indi Azərbaycanın hər bir guşəsində Novruz bayramı böyük vüsət alıbdır. Bakıda, başqa şəhərlərdə, qəsəbələrdə, kəndlərdə böyük şənliklər keçirilir. Ancaq məni incidən, güman edirəm ki, sizi də ağrıdan odur ki, bizim bacı-qardaşlarımızın bir qismi bu bayramı çadırlarda ağır şəraitdə keçirirlər. Amma mən bilirəm, o şəraitdə də onlar sarsılmırlar, bu bayramı keçirir və inanırlar ki, qısa bir zamandan sonra bunu öz doğma torpaqlarında keçirəcəklər.

Bu gün sizin hamınızı təbrik edərək, qəlbimdən gələn ən səmimi təbrikləri çadır şəhərciklərində, ümumiyyətlə, ağır şəraitdə yaşayan, yerindən-yurdundan didərgin düşmüş soydaşlarımıza göndərirəm. Şəhid ailələrini bu bayram münasibətilə təbrik edirəm və onları əmin edirəm ki, Azərbaycan xalqı, dövləti bundan sonra da onlara daim qayğı göstərəcəkdir. Torpaqlarımızın müdafiəsi yolunda şikəst, əlil olmuş insanlar da bizim cəmiyyətimizin hörmətli vətəndaşlarıdır. Onlara qayğı, diqqət bundan sonra da daim artacaqdır.

Bu bayram bizim hamımızı bir daha birləşdirir, yekdil edir. Kimsə bu milli birlik, həmrəylik, həqiqi milli dostluq məqsədlərimizə mane olmaq istəyirsə, onlar buna nail olmayacaqlar. Bizim bu illərdə əldə etdiyimiz ən böyük nailiyyət ondan ibarətdir ki, Azərbaycan xalqı birləşib, ölkəmizdə milli birlik yaranıb, insanlarımız bir-birinə dayaqdır. Bu birlik, həmrəylik, Azərbaycan xalqının müstəqil Azərbaycan dövlətinə olan inamı, Azərbaycan dövlətinin isə xalqın, millətin mənafelərinə, dövlət müstəqilliyinə olan sədaqəti bizi bundan sonra da irəli aparacaq, bizi yüksəldəcək, xalqımız daha da firavan yaşayacaqdır. Hər adamın qarşısında duran vəzifəni yerinə

yetirmək üçün şərait yaradılacaqdır. Amma ən əsası ondan ibarətdir ki, ölkəmizi qoruyub saxlayaq, müstəqilliyimizi qoruyaq saxlayaq, hər bir Azərbaycan vətəndaşı müstəqil Azərbaycanda azad, sərbəst yaşasın və öz arzularına çatsın.

Mən sizin hamınıza bu arzularınıza çatmaqda uğurlar diləyirəm. Novruz bayramı münasibətilə hər birinizi bir daha təbrik edirəm. Hər birinizə səadət, xoşbəxtlik arzulayıram. Sağ olun.

# MİSİR ƏRƏB RESPUBLİKASININ XARİCİ İŞLƏR NAZİRİNİN MÜAVİNİ MEHDİ FƏTHULLAHIN BAŞÇILIQ ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİ İLƏ GÖRÜŞDƏ SÖHBƏT

*Prezident sarayı*

*24 mart 2001-ci il*

**H e y d ə r  Ə l i y e v:** Hörmətli qonaqlar, Azərbaycana xoş gəlmisiniz.

Misir Ərəb Respublikası ilə Azərbaycan arasında dostluq və qardaşlıq əlaqələri mövcuddur. Ancaq bu əlaqələrin səviyyəsi yəqin ki, sizi də, bizi də hələ ki, təmin etmir. Çünki ölkələrimizin tarixi keçmişi, tarixi kökləri və başqa əlamətlər onu tələb edir ki, bütün sahələrdə, o cümlədən iqtisadi sahədə əməkdaşlığımız çox geniş və daha yüksək səviyyədə olsun. Mən düşünürəm ki, yəqin siz də bu fikirdəsiniz və ona görə də Azərbaycana səfər etmisiniz. Doğrudur, sizin səfəriniz Cənubi Qafqazın bütün respublikalarını – Gürcüstanı, Ermənistanı və Azərbaycanı əhatə edir. Olsun, buna bizim etirazımız yoxdur. Amma hesab edirik ki, Cənubi Qafqaz respublikalarında Azərbaycan Misir Ərəb Respublikası üçün bir nömrəli tərəfdaş olmalıdır.

Mən bilirəm ki, siz burada bir çox görüşlər keçirmisiniz. Düşünürəm ki, həmin görüşlər zamanı lazım olan məsələləri müzakirə etmisiniz. Ancaq bir daha bəyan etmək istəyirəm ki, Azərbaycan dövlətinin Misir Ərəb Respublikası ilə əlaqələrində strateji xətti ondan ibarətdir ki, bizim ölkələrimiz daha da yaxın olmalıdır, dost olmalıdır, bir-birinə dəstək verməli-

dir və bütün sahələrdə geniş əməkdaşlıq etməlidir. Buyurun, indi mən sizi dinləyirəm.

**M e h d i  F ə t h u l l a h**: Zati-aliləri, cənab Prezident, çox sağ olun. Sizinlə görüşmək şərəfinə nail olduğum üçün böyük sevinc hissi duyduğumu bildirmək istəyirəm. Zati-aliləri, Sizinlə, dost və qardaş Azərbaycan Respublikasının prezidenti ilə görüşmək mənim üçün və məni müşayiət edən Misir nümayəndə heyəti üçün böyük şərəfdir. Mən qardaşınız və dostunuz, Misir Ərəb Respublikasının prezidenti Məhəmməd Hüsnü Mübarəkin səmimi salamlarını Sizə çatdırmaq istəyirəm. Sizi əmin etmək istəyirəm ki, Misir hökuməti və xalqı Azərbaycandakı müsbət dəyişiklikləri diqqətlə izləyir və xalqınızın rifah halının yaxşılaşmasına doğru yönəlmiş bütün səylərinizi dəstəkləyir.

Mən 1995–1999-cu illərdə Türkiyə Cümhuriyyətində Misirin Fövqəladə və Səlahiyyətli səfiri işləyərkən nəinki Azərbaycan, eyni zamanda Qafqaz və Orta Asiya regionu üçün Sizin çox faydalı fəaliyyətinizi diqqətlə izləmişəm. Zati-aliləri, Siz qeyd etdiyiniz kimi, Azərbaycan–Misir əlaqələrini daha da inkişaf etdirmək üçün bütün imkanlardan tam istifadə olunmamış, bu əlaqələr tarixi əlaqələr səviyyəsinə gəlib çatmamışdır.

Biz Azərbaycanın malik olduğu və çox böyük ümidlər verən imkanlarını yaxşı bilirik və onun dünya dövlətləri və birliyi ilə münasibətlərinin inkişafına böyük inam bəsləyirik.

Biz Azərbaycanın bu regiondakı rolunu çox yaxşı bilirik və inanırıq ki, ölkəniz gələcəkdə də bu bölgədə yaranacaq mühüm regional qurumlarda ən fəal surətdə iştirak edəcəkdir.

Tarixi İpək Yolunun bərpa edilməsi istiqamətində Azərbaycanın göstərdiyi səyləri və son vaxtlar Bakıda TRASEKA proqramı çərçivəsində Avropa İttifaqı nümayəndəliyinin açılmasını, ümumiyyətlə, Qərb–Şərq dəhlizində yerləşən Azərbaycanın Avropa və Asiya ölkələri arasında əlaqələrin inkişafında mühüm rol oynamasını yüksək dəyərləndiririk.

Zati-aliləri, biz Azərbaycanla xüsusi əlaqələr yaratmaq istəyirik. Ölkəmizin prezidenti hələ keçən il mənə Qafqaz regionu dövlətlərinə, xüsusilə Azərbaycana səfər etmək tapşırığı vermişdi. Mən bu səfərə xüsusi olaraq hazırlaşmışdım. Amma çox təəssüflər olsun ki, Fələstin ərazilərində başlanan üsyan buna mane oldu. Çünki bu üsyan Misir cəmiyyətinə, adətən, çox mənfi təsir edir. Mən bu səfəri yalnız indi həyata keçirməyə nail oldum. Bu imkandan istifadə edərək mən iş adamlarından ibarət nümayəndə heyətini Azərbaycana gətirmişəm, bu heyətin tərkibində Misir Neft Şirkətinin vitse-prezidenti də vardır. Əsas məqsədimiz odur ki, region dövlətlərini, xüsusən Azərbaycanı ziyarət edərkən iqtisadi əməkdaşlıq imkanlarını da nəzərdən keçirək və bu sahədə səylərimizi artıraq.

Zati-aliləri, mən Azərbaycanda olduğumuz çox qısa bir vaxt ərzində ölkənizin məsul vəzifəli şəxsləri ilə görüşdük, ikitərəfli əlaqələrimizin inkişafına dair bir çox məsələləri müzakirə etdik. Biz dərman preparatlarının satışı və istehsalı, tikinti və neft sahəsində əməkdaşlığa dair danışıqlar apardıq, ticarət məsələləri haqqında müzakirələr keçirdik.

Zati-aliləri, sabah Azərbaycanı tərk etmək məcburiyyətindəyəm. Lakin məni müşayiət edən nümayəndə heyəti ölkənizdə qalacaq və müvafiq dövlət strukturlarında olacaq, daha geniş, ətraflı müzakirələr aparacaqlar. Ümid edirəm ki, bu danışıqlar müsbət nəticələr verəcəkdir.

Mən Azərbaycana səfərimi zati-alilərinizlə görüş ilə başa çatdırıram. Öz ölkəmə çox böyük təəssüratlarla qayıdıram. Bu təəssüratlar əsasında da biz Azərbaycan və Misirin əlaqələrini daha da möhkəmləndirmək əzmindəyik.

Mən Azərbaycana, ümumiyyətlə, Qafqaz regionuna, eyni zamanda Yaxın Şərq regionuna sülh və əmin-amanlıq, rifah arzulayıram. İsrailin həyata keçirdiyi sərt, kəskin siyasət Yaxın Şərqdə vəziyyətin gərginləşməsinə, kəskinləşməsinə səbəb

olmuşdur. Təbiidir ki, bu da region dövlətləri qarşısında mühüm maneələr yaradır.

Misir Ərəb Respublikasının prezidenti cənab Hüsnü Mübarək aprel ayının əvvəllərində Vaşinqtona səfər etməyə hazırlaşır. Bu səfərin əsas məqsədi Yaxın Şərqdə sülh danışıqlarının bərpası istiqamətində yeni səylərin göstərilməsinə yönəldilmişdir.

Siz də eyni vaxtda Amerika Birləşmiş Ştatlarında, Florida ştatında olacaqsınız, Ermənistan–Azərbaycan münaqişəsinin nizama salınması ilə bağlı danışıqlar aparacaqsınız.

Zati-aliləri, mən hər iki regionda sülhün bərqərar olunması sahəsində göstərilən səylərin müsbət nəticələr verməsini, yəni müvəffəqiyyət əldə edilməsini arzulayıram. Hər iki regionda sülhün və təhlükəsizliyin təmin olunması region xalqları üçün çox mühümdür.

Zati-aliləri, çox sağ olun.

**H e y d ə r  Ə l i y e v:** Azərbaycan haqqında, ölkəmizdə son illər gedən proseslər və əldə olunan müsbət dəyişikliklər haqqında söylədiyiniz xoş sözlərə görə Sizə təşəkkür edirəm.

Siz bildirdiniz ki, son bir neçə il Misir Ərəb Respublikasının Türkiyədə Fövqəladə və Səlahiyyətli səfiri olmusunuz. Ona görə də hesab edirəm ki, siz bizim regionda və xüsusən Azərbaycanda prosesləri daha da yaxından izləmək imkanına malik olmusunuz.

Bizim ölkəmiz bu il öz dövlət müstəqilliyinin onuncu ilini qeyd edəcəkdir. Bu on il müddətində Azərbaycanın hansı problemlərlə, çətinliklərlə üzləşdiyi sizə məlumdur. Amma bunlara baxmayaraq, Azərbaycan öz tutduğu yolla gedibdir, müstəqil dövlət kimi yaşayıbdır, yaşayır və ölkəmizin iqtisadiyyatı inkişaf edir.

Mənim dostum, qardaşım, hörmətli prezident Məhəmməd Hüsnü Mübarəkdən mənə gətirdiyiniz salama görə təşəkkür edirəm. Xahiş edirəm mənim qardaşlıq salamımı, ən xoş arzularımı cənab Hüsnü Mübarəkə çatdırasınız. Mən onu

Azərbaycana rəsmi səfərə dəvət etmişdim. Ancaq bu, indiyə qədər mümkün olmayıbdır. Eyni zamanda xatirimdədir ki, o da məni Misir Ərəb Respublikasına rəsmi səfərə dəvət etmişdi. Güman edirəm ki, bu səfərlər həyata keçirilməlidir. Mən bilirəm ki, onun da çox işləri var. Xüsusən Yaxın Şərq, Fələstin–İsrail münasibətləri həmişə onun vaxtının çox hissəsini alır. Məmnunam ki, o bu məsələlərdə çox müsbət rol oynayır. Ancaq siz bilirsiniz ki, bizim regionda da buna bənzər, bəlkə də ondan da ağır bir münaqişə var. Ermənistan Azərbaycana təcavüz etmiş, Azərbaycan torpaqlarının beşdə birini işğal etmiş və bir milyon azərbaycanlı – müsəlman yerindən-yurdundan didərgin düşüb qaçqın vəziyyətində yaşayır.

Biz 1994-cü ildə atəşi dayandırdıq. Hesab edirəm ki, bu, yaxşı nəticədir ki, indiyə qədər atəşin meydana çıxmasına yol verilməmişdir. Biz məsələni sülh yolu ilə həll etmək istəyirik. Ancaq bu hələ mümkün olmayıbdır. Sizə məlumdur ki, münaqişəni aradan qaldırmaq Ermənistanın qeyri-konstruktiv və beynəlxalq hüquq normalarına zidd mövqeyinə görə mümkün olmayıbdır.

Siz qeyd etdiniz ki, hörmətli Hüsnü Mübarək aprel ayında Amerika Birləşmiş Ştatlarına gedəcəkdir. Həmin vaxt yəqin ki, mən də ABŞ-ın Florida ştatında olacağam. Yəni hər iki səfər Fələstin–İsrail münaqişəsi və Ermənistan–Azərbaycan münaqişəsinin həll olunması ilə əlaqədardır. Ancaq fərq ondan ibarətdir ki, Fələstin–İsrail münaqişəsinə bütün dünya çox böyük maraq göstərir. Dünyanın böyük ölkələri, xüsusən Amerika Birləşmiş Ştatları, başqa dövlətlər bu münaqişənin həllində fəal iştirak edir. Ərəb ölkələri Fələstinə çox dəstək verirlər.

Ancaq təəssüflər olsun ki, Ermənistanın bu təcavüzü ilə əlaqədar biz dünya miqyasında Fələstinin aldığı qədər dəstək ala bilmirik. Təəssüflər olsun ki, bizim dost, qardaş ərəb ölkələri də bu məsələdən müəyyən qədər uzaqda dururlar. Mən Qahirədə, sonra isə Kasablankada görüşlərimizdə hör-

mətli Hüsnü Mübarəklə bu barədə ətraflı danışmışdım. Sizin ölkənin Xarici İşlər naziri Əmr Musa ilə tez-tez görüşürəm. Bu görüşlərimiz də həmişə beynəlxalq təşkilatlar çərçivəsində olur. Biz bu məsələləri hər dəfə müzakirə edirik. Ona görə də mən bir daha sizə bildirmək istəyirəm və xahiş edirəm, hörmətli prezident Hüsnü Mübarəkə və hörmətli Xarici İşlər naziri Əmr Musaya çatdırasınız ki, bu münaqişənin həll olunmasında dünyanın böyük ölkələrindən, ərəb dünyasının ən aparıcı dövlətlərindən biri olan Misir Ərəb Respublikasının da dəstəyinə ehtiyacımız vardır.

Mən çox məmnunam ki, siz burada iqtisadi əlaqələrə çox böyük maraq göstərirsiniz. Azərbaycana nümayəndə heyəti ilə gəlmisiniz. Hətta sizinlə gələn adamların bir qismi burada qalıb işlərini davam etdirəcəklər. Siz qeyd etdiyiniz sahələrdə və başqa sahələrdə də biz Misir Ərəb Respublikası ilə daha da sıx, daha da səmərəli əməkdaşlıq etməyə hazırıq. Zənnimcə, siz burada bizim dövlətimizin və şəxsən mənim – Azərbaycan prezidentinin dəstəyinə həmişə arxayın ola bilərsiniz.

Doğru dediniz ki, həm Yaxın Şərqdə, həm də Qafqaz bölgəsində sülh, əmin-amanlıq bütün xalqlar üçün lazımdır. Təbiidir ki, buna nail olmaq lazımdır. Siz qeyd etdiniz ki, Azərbaycan böyük potensiala malikdir. İqtisadi inkişaf üçün, xalqın rifah halını yüksəltmək üçün Azərbaycanın böyük imkanları vardır.

İpək Yolunun bərpası, TRASEKA kimi böyük, dünya miqyaslı proqramlarda da Azərbaycanın iştirak etməsi, təbiidir ki, ölkəmizin gələcəyi üçün çox əhəmiyyətlidir. Bütün bunlar üçün sülh, əmin-amanlıq lazımdır. Bu barədə siz də, mən də eyni fikirdəyik.

Xahiş edirəm mənim qardaşlıq salamımı, ən xoş arzularımı hörmətli prezident Məhəmməd Hüsnü Mübarəkə çatdırasınız. Sizin xalqınıza sülh, əmin-amanlıq və rifah arzulayıram. Bizi də çox narahat edən Yaxın Şərq, Fələstin–İsrail münaqişəsinin tezliklə ədalətli həll olunmasını arzu edirəm. Sağ olun.

## 31 MART – AZƏRBAYCANLILARIN SOYQIRIMI GÜNÜ MÜNASİBƏTİLƏ AZƏRBAYCAN XALQINA MÜRACİƏT

Əziz həmvətənlər!

1998-ci ildən bəri Azərbaycan Respublikasında 31 mart hər il azərbaycanlıların soyqırımı günü kimi dövlət səviyyəsində qeyd edilir.

Azərbaycanlılara qarşı müntəzəm olaraq yeridilən bədnam soyqırımı siyasətinin yüz illərlə ölçülən uzun tarixi vardır. XIX əsrin əvvəllərindən başlayaraq, ardıcıl olaraq tarixi Azərbaycan torpaqlarında ermənilər kütləvi şəkildə məskunlaşdırılmağa başlanmış, Qafqazın cənubunda Ermənistan dövlətinin yaradılması, azərbaycanlıların öz qədim torpaqlarından, ata-baba yurdlarından qovulması, onların deportasiyası prosesi məqsədyönlü şəkildə həyata keçirilmişdir.

Soyqırımı və deportasiya prosesi mərhələlərlə, müxtəlif tarixi şəraitdə, düşünülmüş plan əsasında həyata keçirilmişdir. Sərsəm «böyük Ermənistan» ideyasını gerçəkləşdirmək üçün saxta ideoloji tezislər formalaşdırılmış, terrorçu təşkilatlar qurulmuşdur. Erməni əhalisi türk və Azərbaycan xalqına qarşı daim millətçilik, şovinizm ruhunda tərbiyə olunmuşdur.

1905–1907-ci illərdə çar Rusiyasının hakim dairələri tərəfindən himayə olunan və istiqamətləndirilən erməni millətçiləri azərbaycanlılara qarşı genişmiqyaslı qətllər və vəhşiliklər törətdilər. Yüzlərlə yaşayış məntəqəsi dağıdıldı, minlərlə azərbaycanlı erməni terrorunun qurbanı oldu. 1918-ci ilin martında Bakı kommunası rəhbərlərinin himayəsi ilə milli qırğın törədildi, Bakı quberniyasını azərbaycanlılardan təmizləmək və erməniləşdirmək məqsədi güdən mənfur plan həyata keçi-

rilməyə başlandı. Bakıda və qəzalarda on minlərlə dinc əhali məhv edildi, məscidlər, məktəblər, memarlıq abidələri dağıdıldı.

Ermənilərin azərbaycanlılara qarşı soyqırımı və deportasiya siyasəti sovet hakimiyyəti illərində daha incə və məkrli bir şəkildə davam etdirilmişdir. Tarixi Azərbaycan torpaqları olan Göyçə, Zəngəzur və digər ərazilər o zamankı sovet hökuməti rəhbərlərinin köməyi ilə Ermənistana verilmiş, Dağlıq Qarabağ erməniləri muxtariyyət qazanmış və onların gələcəkdə qanunsuz ərazi iddiaları üçün zəmin yaradılmışdır. 1948–1953-cü illərdə ermənilər SSRİ rəhbərliyinin qərarı ilə dövlət səviyyəsində azərbaycanlıların öz tarixi torpaqları olan Qərbi Azərbaycandan kütləvi şəkildə deportasiyasına nail oldular.

80-ci illərin ortalarından SSRİ rəhbərliyinin xüsusi himayəsi sayəsində erməni ekstremizmi və separatizmi yeni və daha təhlükəli şəkildə tüğyan etməyə başladı. Sonradan genişmiqyaslı müharibəyə çevrilmiş bu avantürist separatizmin nəticəsində on minlərlə dinc insan faciəli şəkildə məhv edilmiş, yüz minlərlə soydaşımız qaçqın və məcburi köçkün kimi qeyri-insani şəraitdə yaşamağa məhkum edilmişdir. 1990-cı ilin yanvarında SSRİ-nin o zamankı rəhbərliyi erməni separatçılarının yedəyində gedərək, xalqımıza qarşı qanlı qırğın törətdi. 1992-ci ilin fevralında erməni hərbi birləşmələri sovet qoşunlarının köməyi və birbaşa iştirakı ilə Xocalını yerlə-yeksan etdi. Heç bir hərbi zərurət olmadan minlərlə dinc sakin qəddarcasına öldürüldü, işgəncələrə məruz qaldı, əsir alındı.

Soyqırımı Azərbaycan xalqına böyük siyasi, maddi və mənəvi zərbələr vurmuşdur. Bütövlükdə XX əsr ərzində 2 milyona yaxın azərbaycanlı deportasiya və soyqırımı siyasətinin ağır nəticələrini öz üzərində hiss etmişdir.

Erməni millətçiləri və şovinistləri «böyük Ermənistan» xülyalarını həyata keçirmək üçün lap əvvəldən xalqımıza və ölkəmizə qarşı ustalıqla və davamlı surətdə informasiya və təbliğat müharibəsi aparmışlar. Total qarayaxma kampani-

yası, çirkin təbliğat müharibəsi bu gün də davam edir. Ən müxtəlif üsul və vasitələrdən istifadə edən erməni şovinistləri dünya ictimai fikrini çaşdırır, Azərbaycanın və bütün Qafqazın tarixini saxtalaşdırır, azərbaycanlılara qarşı kəskin mənəvi təcavüz kampaniyası aparır, dünya ictimaiyyətinin nəzərində «əzabkeş, məzlum erməni xalqı» obrazı yaradırlar. Erməni icmaları, erməni lobbisi bu istiqamətdə onilliklər boyu ardıcıl iş aparır. Nəticədə ermənilərin Azərbaycan xalqına qarşı bu gün törətdiyi işğal və soyqırımı faktlarına biganə qalan dünya dövlətlərinin parlamentləri guya yüz il əvvəl baş verdiyi iddia edilən hadisələr barədə yanlış, siyasi konyunkturaya uyğunlaşdırılmış qərarlar qəbul edir və faktiki olaraq, öz hərəkətləri ilə təcavüzkarı şirnikləndirirlər. Öz müvəqqəti və aldadıcı uğurlarından vəcdə gəlmiş erməni siyasətçiləri və ideoloqları, bütöv xalqlara nifrət ideologiyasının açıq və maskalanmış daşıyıcıları beynəlxalq hüquq normalarına meydan oxuyur, planetimizdə bərqərar olmuş sivil birgəyaşayış normalarını kobudcasına pozurlar.

Öz müstəqilliyinin onuncu ilinə qədəm qoyan Azərbaycan xalqı bütün dünyada qəbul edilmiş qayda-qanunlarla, sülh və əmin-amanlıq şəraitində yaşamaq, yaradıcı fəaliyyətlə məşğul olmaq istəyir.

Bu gün dövlətimiz və xalqımız qarşısında azərbaycanlılara qarşı əsrlər boyu aparılan soyqırımı siyasəti haqqında həqiqətləri bütün dünyaya yaymaq, beynəlxalq ictimai fikirdə ədalətin bərqərar olmasına nail olmaq, soyqırımı siyasətinin ağır nəticələrini aradan qaldırmaq və bir daha təkrar olunmaması üçün ciddi tədbirlər görmək vəzifəsi durur.

Öz ağırlığına, miqyasına və nəticələrinə görə xalqımızın başına gətirilən müsibətlər həm də bəşəriyyətə qarşı cinayətlər kimi xarakterizə olunmalı, beynəlxalq hüquqi-siyasi qiymətini almalı, onun ideoloqları və təşkilatçıları layiqincə cəzalandırılmalıdırlar. Hamı əmin olmalıdır ki, müasir dünyada

«günəş altında daha geniş yer» axtaranlar, «böyük Ermənistan» xülyası ilə başqa xalqlara nifrət və total müharibə ideologiyasını təbliğ edənlər, qonşularına qarşı təcavüzkar siyasət yeridənlər nə zamansa tarix və bəşəriyyət qarşısında cavab verməli olacaqlar.

Bu hadisələri, onların dərslərini unutmağa bizim haqqımız yoxdur. Tarixi yaddaşsızlıq və unutqanlıq xalqımıza baha başa gələ bilər. Azərbaycanlılara qarşı zaman-zaman törədilən bu ağır cinayətləri unutmamaq, böyüyən nəsli bədxah qüvvələrə və onların məkrli niyyətlərinə qarşı ayıq-sayıqlıq ruhunda tərbiyə etmək mühüm vəzifədir.

Bir daha soyqırımı qurbanlarının əziz xatirəsini dərin hüznlə yad edir, onların ruhu qarşısında baş əyir, xalqımıza səbr və dəyanət arzulayıram.

**HEYDƏR ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı şəhəri, *27 mart 2001-ci il*

## YUNANISTAN RESPUBLİKASININ PREZİDENTİ ZATİ-ALİLƏRİ CƏNAB KONSTANTİNOS STEFANOPULOSA

Hörmətli cənab Prezident!

Yunanıstan Respublikasının milli bayramı – Müstəqillik günü münasibətilə Sizi və dost Yunanıstan xalqını səmimiqəlbdən təbrik edirəm.

Azərbaycan – Yunanıstan əlaqələrinə böyük əhəmiyyət verirəm. Əminəm ki, ölkələrimiz arasındakı dostluq və əməkdaşlıq münasibətləri daim xalqlarımızın rifahına xidmət edəcəkdir.

Sizə möhkəm cansağlığı, işlərinizdə uğurlar, ölkənizə sülh, əmin-amanlıq və firavanlıq arzulayıram.

*Hörmətlə,*

**HEYDƏR ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı şəhəri, *27 mart 2001-ci il*

## TATARISTAN RESPUBLİKASININ PREZİDENTİ CƏNAB MİNTİMER ŞAYMİYEVƏ

Hörmətli Mintimer Şaripoviç!

Tataristan Respublikasının prezidenti vəzifəsinə yenidən seçilməyiniz münasibətilə Sizi ürəkdən təbrik edirəm.

Prezident seçkilərində inamlı qələbəniz Sizə yüksək etimad və hörmət bəslənildiyinə sübutdur.

Əminəm ki, Azərbaycan və Tataristan xalqları arasında dərin tarixi kökləri olan ənənəvi dostluq münasibətləri bundan sonra da inkişaf edəcək və möhkəmlənəcəkdir.

Sizə möhkəm cansağlığı, xoşbəxtlik və böyük uğurlar arzulayıram.

*Hörmətlə,*

**HEYDƏR ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı şəhəri, *27 mart 2001-ci il*

## AZƏRBAYCAN MİLLİ OLİMPİYA KOMİTƏSİNİN (MOK) YENİ İNZİBATİ BİNASININ İSTİFADƏYƏ VERİLMƏSİNƏ HƏSR OLUNMUŞ TƏNTƏNƏLİ MƏRASİMDƏ NİTQ

*Bakı*

*27 mart 2001-ci il*

Əziz idmançılar, olimpiyaçılar!
Hörmətli xanımlar və cənablar!

Bu günlərdə Azərbaycan Milli Olimpiya Komitəsi Baş Məclisinin hesabat-seçki yığıncağı keçirildi və siz ötən dörd il ərzində Azərbaycan Milli Olimpiya Komitəsinin keçdiyi yol, əldə etdiyi nailiyyətlər haqqında geniş müzakirə apardınız. Milli Olimpiya Komitəsinin yeni icraiyyə komitəsi seçilibdir. Deməк, Azərbaycan Milli Olimpiya Komitəsinin işinin ikinci mərhələsi başlayıbdır. Mən ikinci mərhələni ona görə deyirəm ki, üç-dörd il bundan öncəki vaxtı xatırlasaq, onda Azərbaycanda Milli Olimpiya Komitəsinin varlığını, yoxluğunu çox az adam bilirdi.

Məsələn, mən, Azərbaycanın prezidenti kimi, bunu heç bilmirdim və məlumatım da yox idi. Təbiidir ki, müstəqil, gənc Azərbaycanda ilk illərdə bu sahəyə lazımi diqqət göstərilməməsinin səbəbi olmuşdur, nəticəsi olmuşdur. Bəlkə də bunu qüsur hesab etməmək olar. Ancaq son illərdə Azərbaycan Milli Olimpiya Komitəsi geniş fəaliyyət göstərir. Həm ölkənin daxilində, həm də dünya miqyasında Azərbaycan idmançılarının, olimpiyaçılarının müxtəlif yarışlarda iştirak etməsi və yaxşı nəticələr əldə etməsi – bunlar Azərbaycanda Milli Olim-

piya Komitəsinin varlığını nümayiş etdirdi. Nəinki varlığını, eyni zamanda bu sahənin bizim müstəqil Azərbaycan üçün nə qədər böyük əhəmiyyətə malik olduğunu göstərdi.

Biz böyük məmnuniyyət hissi ilə deyə bilərik ki, Azərbaycanda, müstəqil dövlətdə özünün Milli Olimpiya Komitəsi var. Azərbaycan Milli Olimpiya Komitəsi Beynəlxalq Olimpiya Komitəsində, Avropa Olimpiya Komitəsində və başqa beynəlxalq idman təşkilatlarında təmsil olunubdur, öz yerini tutubdur. Hətta cəsarətlə demək olar ki, gözlənildiyindən də çox nailiyyətlər əldə edibdir.

Mən sizi bu münasibətlə təbrik edirəm. Sizə, xüsusilə Milli Olimpiya Komitəsinin yeni seçilmiş rəhbər orqanlarına yeni-yeni uğurlar arzulayıram. Biz son illər, xüsusən Sidney yay olimpiadasına hazırlıq dövründə və olimpiadanın keçirildiyi zaman Azərbaycan idmançılarının orada fəal iştirakı və vətənə gözəl qələbələrlə qayıtmaları ilə əlaqədar müstəqil dövlətimizdə böyük hadisələrin baş verdiyinin şahidi olduq. İndi idman, bədən tərbiyəsi və xüsusən olimpiya hərəkatının dünyada, hər bir ölkədə nə qədər böyük əhəmiyyətə malik olması haqqında geniş danışmağa ehtiyac yoxdur. Biz bu barədə keçmiş görüşlərimizdə, müzakirələrimizdə öz fikirlərimizi bildirmişik.

Mən fürsətdən istifadə edərək, bir də onu bildirmək istəyirəm ki, Azərbaycan dövləti, hökuməti ölkəmizdə idmanın, bədən tərbiyəsinin kütləviliyinin təmin olunmasını və birinci növbədə, Azərbaycanda gənclərin, təkcə gənclərin yox, yuxarı yaşlı insanların da həm bədən tərbiyəsi ilə, həm də idmanla məşğul olmasını əsas məsələlərdən biri hesab edir.

Bizim dövlətimizi təşkil edən bizim xalqımızdır, bizim millətimizdir. İnsanlar, xalq, millət fiziki cəhətdən nə qədər sağlam olsa, bizim ölkəmiz bir o qədər sağlam olacaq, inkişaf edəcək və gələcəyə böyük-böyük uğurlarla gedəcəkdir. İdma-

nın, bədən tərbiyəsinin xüsusən gənclər üçün nə qədər əhəmiyyətli olması da yaxşı məlumdur.

Amma mən bunu bir daha və bir daha qeyd etmək istəyirəm ki, son onilliklərdə dünyada, demək olar ki, bütün ölkələrdə, təəssüflər olsun, müxtəlif mənfi vərdişlərin, insanların sağlamlığına, təkcə fiziki yox, əqli sağlamlığına böyük zərbələr vuran vərdişlərin və adətə çevrilmiş halların geniş yayıldığı bir vaxtda gərək hər ölkə, hər dövlət, hər xalq öz insanlarının bütün bu mənfi yollara düşməsinin qarşısını alsın. Bu, birincisi, dünyada narkomaniyanın yeni yayılmasıdır. İnsanlar arasında, xüsusən gənclər arasında müxtəlif narkotik maddələrə meyl göstərilməsi, spirtli içkilərin istifadəsinin geniş yayılması, müxtəlif əxlaq pozğunluqlarının yayılması – bunlar hamısı hər bir insana, hər bir cəmiyyətə, hər bir millətə böyük zərbə vuran amillərdir. Ona görə də məhz indiki zamanda, yəni XXI əsrin əvvəlində, təəssüflə bir də deyirəm ki, bu mənfi meyllərin get-gedə genişləndiyi və dünya ictimaiyyətinin, dünya təşkilatının bundan böyük narahatçılıq keçirdiyi, bunların qarşısını almaq üçün tədbirlər gördüyü – ancaq əfsuslar olsun ki, təsirli tədbirlər görülə bilmir – belə bir vaxtda biz gərək öz xalqımızın, öz millətimizin sağlamlığı haqqında daim düşünək.

Bizim xalqımız, millətimiz öz tarixi adət-ənənələrinə görə, öz mentalitetinə görə, başqa xalqlara nisbətən belə mənfi hallara o qədər meylli olmayıbdır. Ancaq indi dünya getdikcə bir-birinə yaxınlaşdığı bir zamanda, qloballaşma istiqamətinin meydana çıxdığı bir zamanda və bəzi ölkələrdə mövcud olan əxlaq pozğunluqlarına, narkomaniyaya və başqa bu cür hallara azadlıq verildiyi, hətta bəzi hallarda onların qanuniləşdirildiyi bir vaxtda biz nə qədər diqqətli olmalıyıq, nə qədər sayıq olmalıyıq. Millətimizi keçmişdən indiyə qədər olduğundan da çox qorumalıyıq və bu istiqamətdə bədən tərbiyəsinin, idmanın çox böyük rolu vardır.

Birincisi, biz idmanı, bədən tərbiyəsini kütləvi etməliyik. Gənclərin tam əksəriyyətini buna cəlb etməliyik, bu, Azərbaycan vətəndaşının hərtərəfli gələcəyi üçün təməldir. Buna nail olmaq üçün, təbiidir ki, lazımi imkanlar da yaratmalıyıq, lazımi şərait də yaratmalıyıq. Bu barədə dövlət, hökumət öz imkanları çərçivəsində lazımi işlər görür. Ancaq sərbəst iqtisadiyyat, bazar iqtisadiyyatı dövründə, özəlləşdirmə prosesi dövründə – onun gələcəyini nəzərə alsaq – dövlətin imkanları məhdudlaşır. Amma sərbəst fəaliyyət göstərən həm kommersiya təşkilatlarının, həm ictimai təşkilatların, həm də müxtəlif başqa təşkilatların imkanları genişlənir. Ona görə də biz bu şəraitə uyğunlaşmalıyıq və uyğunlaşaraq hər bir sahədə təşəbbüskarlıq nümayiş etdirməliyik.

İndi Azərbaycanda idmanı, bədən tərbiyəsini kütləvi etmək üçün və ən yüksək istedada malik olan idmançılarımızın olimpiya oyunlarında, yaxud da müxtəlif beynəlxalq yarışlarda iştirakını təmin etmək üçün imkanlarımız daha da çoxdur. Ona görə də mən bu fürsətdən istifadə edərək, bütün təşkilatları – həm dövlət, həm də qeyri-dövlət təşkilatlarını, biznes aləmini, hamını Azərbaycanın gələcəyi üçün vacib olan bu böyük işə dəvət edirəm, çağırıram. Güman edirəm ki, mənim bu səsim eşidiləcək və biz gələcək illərdə bunların nəticəsini görəcəyik. Artıq nümunə vardır. Nümunə ondan ibarətdir ki, Milli Olimpiya Komitəsi son illərdə olimpiya hərəkatının inkişaf etdirilməsi üçün müxtəlif təşkilati tədbirlər, təbliğati tədbirlər həyata keçirib Azərbaycanın Milli Olimpiya Komitəsini lazımi səviyyəyə qaldırıbdır. Ancaq bu, məsələnin bir hissəsidir. Eyni zamanda Milli Olimpiya Komitəsi qısa bir müddətdə öz daxili imkanlarından istifadə edərək, idman, bədən tərbiyəsi işinin maddi-texniki bazasını yaratmaqla da məşğul olubdur. Bu çox sevindirici haldır.

Biz bir müddət əvvəl Milli Olimpiya Komitəsinin burada qısa müddətdə inşa etdiyi və gənclərin, idmançıların istifadə-

sinə verdiyi gözəl müasir olimpiya idman kompleksinin açılışında iştirak etdik. Mən sonra maraqlanıram. Deyirlər ki, gənclər o qədər həvəslə gəlib oradan istifadə edirlər ki, indi o, azlıq edir. Milli Olimpiya Komitəsinin prezidenti İlham Əliyev bəyan edibdir ki, Gəncədə də, Naxçıvanda da belə olimpiya kompleksləri tikilir. Amma güman edirəm ki, bu da son hədd deyildir. Bir halda ki, bu işi başlamısınız, bunu genişləndirmək lazımdır. Bir, iki, üçlə iş qurtara bilməz. Ya gərək başlamayaydınız, ya da başlayıb insanları həvəsləndirmisinizsə, gərək onların hamısı üçün şərait yaradasınız. Yəni olmasın ki, təkcə Bakının, Gəncənin, yaxud Naxçıvanın gəncləri bu cür imkanlardan istifadə edə bilsin, amma başqaları yox. Təbiidir ki, hər yerdə eyni həcmdə ola bilməz. Ancaq hər yerin öz xüsusiyyətinə uyğun olan belə komplekslər yaratmaq lazımdır.

Mən bu işlərdə Milli Olimpiya Komitəsinin aparıcı bir təşkilat olmasını nəzərə alıram. Ancaq eyni zamanda bütün bu işləri yalnız Milli Olimpiya Komitəsinin üzərinə qoymaq fikrində deyiləm. Görürəm, burada bir çox nazirlər, başqa sanballı adamlar oturublar. Azərbaycanca bir söz var: imkanlı adamlardır. Ona görə hərə öz təşkilatının imkanlarından istifadə etməlidir. İndi bazar iqtisadiyyatı dövründə bəzi insanlar şəxsən çox zənginləşirlər. Onun bir hissəsini bu şeylərə ayırsınlar. Bu daha da böyük xeyirxahlıq olar. Hər bir yerə vəsait qoymaq yaxşı nəticə verər. Amma gənclərimizin sağlam böyüməsi üçün, onların sağlam gələcəyi üçün qoyulan vəsait hər bir şeydən qiymətlidir.

Ona görə də mən sizi dəvət edirəm ki, Milli Olimpiya Komitəsinin bu təşəbbüsünə qoşulasınız. Təbiidir ki, təkcə burada oturanlar yox – bizim televiziya mənim bu çıxışımı respublikaya çatdıracaqdır – hamını dəvət edirəm, hamını çağırıram.

Milli Olimpiya Komitəsi də artıq bu sahədə – həm işi təşkil etmək, həm də müasir tələblərə cavab verən bu cür obyektləri

qısa zamanda yaratmaq sahəsində yaxşı təcrübə əldə edibdir. Məsələn, biz Milli Olimpiya Komitəsinin idman mərkəzini açarkən mən baxdım, çox gözəldir və dünya standartlarına uyğundur. Orada bizim gənclərimizin idmanla məşğul olması üçün bütün imkanlar var və bunlardan səmərəli istifadə edilir.

Biz bu gün buraya Milli Olimpiya Komitəsinin inzibati binasının açılışına gəlmişik. Əgər düzünü desək, mən heç təsəvvür edə bilməzdim ki, belə gözəl, müasir tipli və Milli Olimpiya Komitəsinin işinin daha da səmərəli aparılması üçün lazımi imkanlara malik olan belə binanı Milli Olimpiya Komitəsi öz daxili vəsaitindən istifadə edərək bir il müddətində tikib, yaradıbdır. Bu çox təqdirəlayiq hadisədir. Mən bu münasibətlə Milli Olimpiya Komitəsini, bütün Azərbaycanın idmançılarını ürəkdən təbrik edirəm. Ümidvaram ki, belə bir inzibati binanın yaranması Milli Olimpiya Komitəsinin gələcəkdə görəcəyi təşkilati işlərin daha da yüksək səviyyəyə qalxmasına kömək edəcəkdir.

Mən burada nə görürəm? Birincisi, Milli Olimpiya Komitəsinin çox gözəl təşəbbüsünü. İkincisi, burada görülən işlərin – həm memarlıq işlərinin, həm layihə işlərinin, həm də inşaat işlərinin yüksək keyfiyyətini. Üçüncüsü, bu da çox əsasdır. Azərbaycanda müəyyən məqsədlərə xidmət edəcək yeni bir gözəl bina yaranıbdır.

Heç kəs dünyada əbədi deyildir. Ancaq bu dünyaya gəlib, həyatını sürüb gedən insan əgər iz qoyursa, demək, o daha da qiymətlidir. Bu bəzilərinə nəsib olmur. Bəziləri bunu edə bilərlər, amma onların dərrakəsi çatmır. Amma kim ki, edə bilir və bunu qiymətləndirir, özünün şəxsi imici naminə yox, sadəcə, şəhərimizin, ölkəmizin, xalqımızın inkişafı naminə edirsə, bu, təbiidir ki, əsl vətəndaşlıqdır, əsl yüksək insani keyfiyyətdir.

Mən baxdım, artıq burada böyük, geniş idman kompleksi yaranıbdır. Gənclər və İdman Nazirliyinin binası, yeni açdığı-

mız olimpiya kompleksi, futbol stadionu, bütün olimpiya işlərinin təşkili ilə məşğul olmaq üçün, bu işə cəlb olunmuş insanlara yaxşı iş şəraiti yaratmaq üçün tikilmiş bu inzibati bina. Bir də ki, bu gözəl memarlıq abidəsidir, şəhərimizi gözəlləşdirir. Hər yaranan şey xalqa qalır, millətə qalır,. insanlara qalır. Heç kəs yaratdığını özü ilə o dünyaya aparmır. Ona görə də mən bu gün çox sevinirəm.

Eyni zamanda hesab edirəm ki, bayaq dediyim kimi, Milli Olimpiya Komitəsi başladığı bu xeyirxah işi davam etdirəcəkdir. Həm ölkəmizin paytaxtı Bakıda, həm də Azərbaycanın başqa şəhərlərində Azərbaycanın müvafiq təşkilatları Milli Olimpiya Komitəsinə yardımlar edəcəkdir.

Artıq qeyd etdim ki, Milli Olimpiya Komitəsi həm Beynəlxalq Olimpiya Komitəsində, həm Avropa Olimpiya Komitəsində, həm də müxtəlif beynəlxalq idman təşkilatlarında tanınıb, sayılır. Təsadüfi deyil ki, Azərbaycanda indiyə qədər heç vaxt olmamış bir neçə beynəlxalq, dünya yarışları keçirilir və bundan sonra da keçiriləcəkdir. Bu, işin başlanğıcıdır və onu göstərir ki, Azərbaycanın bu sahədə böyük potensialı var. Sadəcə, bu potensialı indiyə qədər hərəkətə gətirənlər olmamışdır. Bu gün məmnuniyyətlə qeyd etmək olar ki, Olimpiya Komitəsinin yeni rəhbərliyi və onun rəhbər orqanları Azərbaycanın bu güclü potensialını inkişaf etdirmək üçün artıq düz yoldadır. Ümid edirəm ki, düz yolda da olacaqdır.

Gənclər və İdman Nazirliyinin qarşısında, Milli Olimpiya Komitəsinin qarşısında böyük vəzifələr durur. Dediyim kimi, birincisi, bütün bu imkanlardan istifadə edib gənclərimizi idmana, bədən tərbiyəsinə daha da çox cəlb etməkdir. İkincisi də, görülən işlərin ən son nəticəsi beynəlxalq yarışlarda öz əksini tapmasıdır. Ola bilər, sənin burada çox gözəl idmançın olsun. Beynəlxalq yarışlarda birinci yeri qazanan, qızıl medal alan idmançıdan daha yüksək qabiliyyətə malik olsun. Ancaq əgər sən onu üzə çıxarmasan, hazırlamasan, ona imkan yarat-

masan, o, təbiidir ki, elə öz qabının içində, Azərbaycanda bir söz var, öz çölməyinin içində qalacaqdır. Ona görə də indiki vəziyyət Azərbaycan Milli Olimpiya Komitəsinə imkanlar verir ki, işini bundan sonra da gücləndirsin.

Qarşıda Afina olimpiya oyunları var. Artıq ona ciddi hazırlıq işləri aparmaq lazımdır və mənə İlham Əliyevin verdiyi məlumata görə, bu işlər aparılır. Amma bir o deyildir. Gərək Azərbaycan nümayəndələri bütün başqa beynəlxalq yarışlarda iştirak etsinlər. Ola bilər, bir dəfə qalib olsun, bir dəfə məğlub olsunlar. Bu, narahat etməməlidir. Azərbaycan gəncləri, Azərbaycan nümayəndələri beynəlxalq yarışlarda nə qədər çox iştirak etsələr, o qədər çox təcrübə toplayacaqlar. Onlar o yarışların bütün incəliklərini öyrənəcəklər. O qədər həvəslənəcəklər ki, bu yarışlarda yenidən iştirak edib, yeni nailiyyətlər qazanmağa çalışacaqlar ki, nəhayət, istədikləri zirvəyə qalxa bilsinlər. Bu bizim Milli Olimpiya Komitəsinin qarşısında duran vəzifədir. Gənclər və İdman Nazirliyinin qarşısında duran vəzifədir. Mən ümidvar olduğumu bildirmək istəyirəm ki, Milli Olimpiya Komitəsi və nazirlik bu vəzifələri uğurla yerinə yetirəcəklər.

Mən bu gün sizinlə, idmançılarla yenidən görüşümdən çox məmnunam. Bilirsiniz ki, mən keçmiş zamanlarda həm Azərbaycanda, həm də Moskvada çox rəhbər işlərdə olmuşam. Ancaq mənim idmançılarla son zamanlardakı belə tez-tez görüşüm keçmiş zamanlarda olmayıbdır. Bu nəyi göstərir? Mənim buna həvəsim həmişə olubdur. Ancaq bunun üçün şərait lazımdır. İndi siz, idmançılar bu şəraiti yaradırsınız, müxtəlif belə tədbirlər keçirirsiniz. Bizim xalqımızı, vətəndaşlarımızı öz nailiyyətlərinizlə sevindirirsiniz. Bu məni də sevindirir. Ona görə də mən daha da tez-tez sizinlə görüşür, sizə öz sözlərimi deyir, tövsiyələrimi verirəm.

Sizi bir daha təbrik edirəm. Sizin hamınıza cansağlığı, Azərbaycan idmanına, olimpiya hərəkatına, Azərbaycan Milli Olimpiya Komitəsinə yeni-yeni uğurlar arzulayıram.

* * *

*MOK-un vitse-prezidenti Çingiz Hüseynzadə dərin məzmunlu nitqinə və verdiyi dəyərli tövsiyələrə görə prezident Heydər Əliyevə dərin minnətdarlığını bildirərək dedi:*

Möhtərəm cənab Prezident, icazə verin, Azərbaycan Milli Olimpiya Komitəsinin maketini xatirə olaraq Sizə bağışlayaq. Biz əminik ki, Siz bundan sonra həmişə ona baxdıqca Azərbaycan idmançılarının, olimpiyaçılarının qələbələri, Azərbaycanın milli olimpiya hərəkatı, Azərbaycanın uğurları Sizdə çox böyük təəssürat oyadacaqdır. Biz də hiss edəcəyik ki, həmişə diqqət və nəzarət altındayıq və məsuliyyətimizi artıracağıq.

**H e y d ə r Ə l i y e v:** Sağ olun, təşəkkür edirəm. Bu binanın kiçik maketini sizdən alaraq, həm bu binanın memarına, həm inşaatçılara, həm də bu binanı belə gözəl səviyyədə inşa etmiş insanların hamısına təşəkkür edirəm.

## RUSİYANIN «LUKoyl» NEFT ŞİRKƏTİNİN PREZİDENTİ VAHİD ƏLƏKBƏROV BAŞDA OLMAQLA ŞİRKƏTİN NÜMAYƏNDƏ HEYƏTİ İLƏ GÖRÜŞDƏ SÖHBƏT

*Prezident sarayı*

*27 mart 2001-ci il*

**H e y d ə r  Ə l i y e v**: Hörmətli qonaqlar, mən sizi salamlayıram. Rusiya Federasiyasının «LUKoyl»un özünün direktorlar şurasının növbəti iclasını burada – Azərbaycanda, Bakıda keçirməyi qərara alması ağıllı qərardır. Mən bunu «LUKoyl» şirkəti ilə Azərbaycan arasında əməkdaşlığı daha da genişləndirmək arzusunun təzahürü kimi qiymətləndirirəm. Ona görə də bu təşəbbüsü alqışlayıram. Vahid Ələkbərov mənə belə bir qərar olduğunu deyəndə, mən onu dərhal dəstəklədim, çünki Azərbaycan qədim neft məmləkətidir. İndi Rusiya bu baxımdan olduqca böyük imkanlara malikdir. Tarixə nəzər salsaq görərik ki, Rusiya Federasiyasının ərazisində yerləşən bir çox yataqlar vaxtilə Azərbaycan mütəxəssislərinin iştirakı ilə kəşf edilmişdir, çünki ötən əsrin əvvəllərində Rusiyanın tərkibində yalnız Azərbaycanda neft çıxarılırdı və buna görə də sonrakı rayonlar yaddaşımızda beləcə də qalmışdır – ikinci Bakı, üçüncü Bakı, dördüncü Bakı.

Bax, hətta «LUKoyl» şirkətinin prezidenti də burada institutu bitirdikdən sonra Tümenə göndərilmiş və ya özü oraya getmək istəmişdi, orada görkəmli rəhbər işçi, «LUKoyl» şirkətinin prezidenti kimi böyümüşdür. Zənnimcə, sizin qərarınızı məqsədəuyğun edən digər hal isə bundan ibarətdir

ki, artıq Rusiyanın və Azərbaycanın müstəqilliyi şəraitində, Azərbaycan özünün müstəqil neft strategiyasını həyata keçirməyə başladığı ilk günlərdən «LUKoyl» Xəzər dənizinə maraq göstərdi, «Azəri–Çıraq–Günəşli» yataqlarına dair ilk iri müqaviləmizin hazırlanmasında fəal iştirak etdi və dünyanın digər ən böyük neft şirkətləri ilə birlikdə müqaviləni imzaladı və bu müqavilə tarixə «Əsrin müqaviləsi» kimi daxil oldu. Sonra o, Azərbaycanda, Xəzər dənizinin Azərbaycan sektorunda öz fəaliyyət imkanlarını daha da genişləndirdi.

Şadam ki, «LUKoyl» artıq Rusiyanın belə çox iri, dünya əhəmiyyətli neft şirkətinə çevrilmişdir. Eyni zamanda şadam ki, «LUKoyl» öz strategiyasını düzgün müəyyənləşdirir. Mən bunu təkcə Azərbaycanın mənafeləri – hərçənd, bu da var – baxımından deyil, bizə dost olan Rusiyanın da mənafeləri baxımından deyirəm.

Ümumiyyətlə, mən Rusiyada «LUKoyl»dan başqa bir şirkət tanımıram, heç bir ad eşitməmişəm. Bəlkə də siz haradasa belələrinin olduğunu bilirsiniz, dünyanın ən iri neft şirkətləri arasında isə «LUKoyl» əsas şirkətlərdən biridir.

Beləliklə, bu müddət ərzində «LUKoyl» Xəzər hövzəsinə, neft və qaz hasilatı sahəsində onun perspektivlərinə Rusiyanın hər hansı başqa şirkətinə nisbətən daha yaxşı bələd ola bilmişdir.

Ona görə də biz «LUKoyl» ilə də başqa sazişlər bağladıq və «LUKoyl» burada fəal iştirak edir. Deyə bilərəm ki, biz bütün Xəzəryanı ölkələrə Xəzər dənizi hövzəsində fəal işləmək nümunəsi göstərmişik. Bilmirəm, Rusiya Xəzər dənizindəki öz sektorunda qazma işləri aparmağa başlamaq qərarına nə vaxt gəlmişdir. Onu nəzərdə tuturam ki, biz Xəzər dənizinin Azərbaycan sektorunda bizə məxsus olan ehtiyatlarımızdan istifadə etmək məsələsini qaldıranda, Rusiyada bir çoxları belə hesab edirdi ki, ümumiyyətlə, sektor haqqında nə söhbət gedə bilər. Lakin tədricən, yavaş-yavaş başa düşdülər ki,

sektorlar var. Rusiya da öz sektorunu müəyyənləşdirdi və Ələkbərovun mənə söylədiyi kimi, siz artıq orada quyu qazırsınız, böyük perspektivə maliksiniz. Odur ki, bu, birgə fəaliyyətimizin mühüm və hesab edirəm, müsbət nəticələrindən biridir, «LUKoyl»un uzaqgörən olduğunu göstərir.

Müstəqil dövlət olaraq Azərbaycan Xəzər dənizində öz fəaliyyətini gücləndirməyə başlayan kimi, «LUKoyl» dərhal özünü buraya yetirmişdir, halbuki o vaxtlar fəaliyyətimizi Rusiyada az-az adam dəstəkləyirdi. Ünvanımıza çoxlu məzəmmətlər söyləyib deyirdilər ki, biz nə üçün Qərbin, Avropanın, Amerika Birləşmiş Ştatlarının şirkətlərini buraya dəvət etmişik. Artıq bu gün, demək olar ki, bunlar çox geri qalmış, bəsit fikirlərdir. İndi dünya böyük inteqrasiyaya doğru gedir və ona görə də düşünmək ki, Sovetlər İttifaqında, onun sərhədləri daxilində nəyi bacarırdıqsa, onu da edirdik və belə də davam etməlidir – indi bu, mümkün deyildir.

Buna görə də mən «LUKoyl» barədə bəzi müşahidələrimi, belə bir fikri bir daha təsdiqləmək üçün söylədim ki, «LUKoyl»un direktorlar şurasının növbəti iclasının Azərbaycanda keçirilməsi, görünür, «LUKoyl»un bütün strukturlarına əlavə təkan verəcək və «LUKoyl» ilə Azərbaycanın Dövlət Neft Şirkəti arasında əməkdaşlıq daha da inkişaf edəcəkdir.

Mən sizi salamlayıram. Ümidvaram ki, siz burada çox yaxşı işləmisiniz, işinizin nəticələrindən razısınız və şadam ki, indi sizinlə görüşmək imkanına malikəm.

**V a h i d  Ə l ə k b ə r o v:** Çox hörmətli Heydər Əliyeviç, icazə verin, bizi qəbul etdiyinizə görə, «LUKoyl» şirkətinin direktorlar şurası adından Sizə təşəkkürümü bildirim. İndicə şirkətimizin ünvanına söylədiyiniz sözlərə görə Sizə təşəkkür edirik, əməyimi belə yüksək qiymətləndirdiyinizə görə şəxsən mən Sizə minnətdaram.

Direktorlar şurasının səyyar iclaslarını keçirmək bizdə artıq ənənəyə çevrilmişdir, lakin biz bu iclası Rusiya Federasiyasının hüdudlarından kənarda ilk dəfə keçiririk. Hamı yekdilliklə belə qərara gəldi ki, ilk səyyar iclas Bakı şəhərində, nəinki Sovet İttifaqının, Rusiyanın neft sənayesinin bünövrəsinin qoyulduğu, həm də dünya neft sənayesinin beşiyi olan tarixi yerdə keçirilməlidir.

Direktorlar şurasında üç məsələ müzakirə edildi. Birinci məsələ Xəzər dənizindəki təşəbbüslərimizin inkişaf etdirilməsi, ikinci məsələ «LUKoyl» neft şirkətinin neft məhsullarının emalı və satışı sahəsində beynəlxalq istiqamətdə perspektivləri barədə idi. Üçüncü məsələ o idi ki, direktorlar şurası 1998-99-cu illərdə fəaliyyətimizin auditor yolu ilə öyrənilməsini bəyənmişdir, özü də bu araşdırma mühasibat uçotunun beynəlxalq sistemi üzrə aparılmışdır. Həmin üç mühüm məsələ müzakirə olunmuş və qərarlar qəbul edilmişdir. Direktorlar şurası «LUKoyl» şirkəti idarə heyətinin Xəzər dənizində fəaliyyəti genişləndirmək səylərini dəstəkləmişdir. Siz bilirsiniz ki, indi biz neft hasilatına dair dörd layihə həyata keçiririk. Hazırda Xəzərin Azərbaycan sektorunda investisiyalarımız kifayət qədər böyükdür, təxminən yarım milyard dollardır və əminik ki, investisiyalarımız həm Azərbaycan sənayesinin dirçəldilməsinə, həm də şirkətimizin mənfəət götürməsinə yönəldilmişdir. Biz pərakəndə ticarəti fəal inkişaf etdiririk, yanacaqdoldurma məntəqələrimiz respublikanın avtomobil həvəskarlarının üzünə açıqdır.

Bu gün direktorlar şurasının üzvlərinə sizinlə görüşmək imkanı yarandı. Biz fəaliyyətimiz barədə sizin əməkdaşlardan çoxlu xoş sözlər eşitdik, çünki direktorlar şurasında Azərbaycan Dövlət Neft Şirkətinin rəhbəri Natiq Əliyev də, onun müavini İlham Əliyev də iştirak edirdilər. Onlar fəaliyyətimizə qiymət verdilər, eyni zamanda «LUKoyl» şirkətinin zəif cəhətlərini də göstərdilər. Son illər biz Azərbaycan sektorundakı neft

yataqlarının işlənilməsi üzrə iri konsorsiumlarda iştirak etməkdə o qədər də təşəbbüskar deyilik. Odur ki, biz bunların hamısını nəzərə alacağıq. Ümidvaram ki, bizim buradakı fəaliyyətimiz Azərbaycan xalqının rifahının yüksəlməsinə yönəldiləcəkdir.

Əminəm ki, indi direktorlar şurasının üzvləri öz fikirlərini söyləyəcəklər. Mən Rusiya neft sənayesinin ən görkəmli və layiqli xadimlərindən biri olan Valeri İsaakoviç Qrayferə söz vermək istəyirəm. O, «Qlavtümenneftqaz»a başçılıq etmişdir. Biz hamımız neft işini ondan öyrənmişik və indi o, dünyada ən iri şirkətlərdən birinin direktorlar şurasına haqlı olaraq başçılıq edir.

**V a l e r i Q r a y f e r** *(«LUKoyl» şirkəti direktorlar şurasının sədri)***:** Heydər Əliyeviç, mən Sizin hər həftə keçirdiyiniz operativ selektor müşavirələri əla xatırlayıram. Bu müşavirələrdən dərhal sonra qatarlar daha sürətlə hərəkət edir, yüklər daha tez boşaldılırdı. Bunların hamısının necə olduğunu əla xatırlayıram və bu gün Sizi salamlamağıma, sağlam görməyimə çox şadam.

Bu yaxınlarda biz Nikolay Konstantinoviç Baybakovun 90 illiyini qeyd etdik.

**H e y d ə r Ə l i y e v:** Mən ona təbrik göndərdim.

**V a l e r i Q r a y f e r:** Siz onu mükafatla təltif etdiniz və bu böyük hadisə bir qədər keçmişə qayıtmaq üçün bir növ əsas oldu, çünki Baybakovun tərcümeyi-halı, əgər belə demək mümkündürsə, neft sənayesinin salnaməsidir.

Biz hamımız Azərbaycan xalqının nümayəndəsi, nurlu, çox gözəl insan olan Sabit Atayeviç Orucovu xatırladıq. O bizim müəllimimiz, qayğıkeş adam və parlaq şəxsiyyət idi. Biz hamımız Valentin Dmitriyeviç Şarşini xatırladıq. Bilirəm, ona Siz də böyük rəğbətlə yanaşırdınız.

**H e y d ə r Ə l i y e v:** Bəli, biz birlikdə işləmişdik.

**V a l e r i  Q r a y f e r:** 1974-cü ildə biz Sizin qəbulunuzda olmuşduq. Görkəmli alimləri – çoxpilləli qazma turbinin müəllifi Tağıyevi, Ələkbər Bağıroviç Süleymanovu, Mansur Bilaloviç Əhmədovu xatırladıq. Onların hamısı bizim dostlarımız idi. Bu gün biz qəlbimizin hökmü ilə Fəxri xiyabanda olduq, bu insanların məzarlarını ziyarət etdik, ona görə ki, bizi səmimi dostluq telləri bağlayırdı.

Sizə demək istəyirəm ki, Vladimir Vladimiroviç Putinlə görüşünüzə Rusiyada hamı sevindi. Bu bizim hamımız üçün bayram idi. Lakin neftçilər xüsusilə sevinirdilər. Çünki bu bizim üçün, həqiqətən, bayram idi, çünki biz heç vaxt hesab etməmişik ki, müxtəlif tərəflərdəyik. Bakı bizim üçün həmişə Bakı olmuşdur, Siz düz deyirsiniz, ikinci Bakı, üçüncü Bakı. Mən Veteranlar Şurasına başçılıq edirəm və biz hamımız müharibə dövründə Bakının nə kimi rol oynadığını xatırlayacağıq. Ona görə də Sizin görüşünüz bizim üçün, həqiqətən bayram olmuşdur və hesab edirəm ki, bu gün «LUKoyl» tarixi yaddaşın daşıyıcısıdır. Bizim buraya gəlməyimiz və bizi qəbul etməyə razılıq verməyiniz keçmişimiz qarşısında borcun yerinə yetirilməsi demək idi. Üzr istəyirəm, mən bir qədər çox danışdım, amma nə etmək olar, ürək belə hökm edir.

Sözsüz ki, biz əlaqələri inkişaf etdirəcəyik, nəinki yeni layihələrin, bütün təsərrüfatımızın inkişaf nailiyyətlərinin mübadiləsini aparacağıq, həm də qabaqcıl texnologiyaların mübadiləsini aparacağıq. Biz buraya yeni texnologiyalar gətirmək niyyətindəyik, çünki bu texnologiyalar işlənilmiş yataqlar – çoxlu su olan, ehtiyatların hələ çox böyük olduğu və hələ çox şey hasil edilə biləcək yataqlar üçün yararlıdır. Biz belə texnologiyalara malikik, bu məsələlərlə yaxından məşğul oluruq.

İcazə verin, direktorlar şurasının üzvləri adından Sizə təşəkkür edim, respublikaya uzun illər başçılıq etməyinizi arzulayım. Biz isə həmişə burada Sizinlə birlikdə olacağıq.

**H e y d ə r Ə l i y e v:** Sağ olun. Xatirələrə görə, o vaxtları, yaxşı vaxtları xatırladığınıza görə sağ olun. O vaxtlar biz çox işlər görmüşdük. Əgər o vaxtlar Sovetlər İttifaqının, o cümlədən də Rusiyanın və Azərbaycanın neft sənayesinin bünövrəsini qoya bilməsəydik, indi yaşamaq çox çətin olardı. Heç bir durğunluq olmamışdır, bunların hamısını kimlərisə qınamaq istəyənlər uydurmuşdular.

**V a h i d Ə l ə k b ə r o v:** Hörmətli Heydər Əliyeviç, Rusiya Federasiyasının prezidenti Vladimir Vladimiroviç Putinin yanvarda Azərbaycana tarixi səfəri nəinki siyasi, həm də iqtisadi münasibətlərin daha da inkişaf etdirilməsinin bünövrəsini qoydu. Biz çox şadıq ki, yanvarda burada qəbul olunmuş bütün qərarlara nəzarət etmək tapşırılan idarənin rəhbərinin – Xarici İşlər nazirinin göstərişi ilə bu gün direktorlar şurasının işində Viktor İvanoviç Kalyujnı da iştirak edir. O, Xəzərin statusunun nizama salınması üzrə olduqca böyük, nadir bir vəzifəni yerinə yetirir.

**H e y d ə r Ə l i y e v:** Bəli, o da bizim bakılıdır.

**V i k t o r K a l y u j n ı:** Mən artıq bunu hər yerdə deyirəm. Burada, Bakıda olmaq çox xoşdur. Mən bunu buraya hər gəlişimdə deyirəm. Biz buraya öz evimizə gəldiyimiz kimi gəlirik, nə kimi problemlərimiz olduğundan, nə ilə yaşadığımızdan danışmaq üçün, hansı istiqamətdə irəliləmək barədə məsləhət almaq üçün gəlirik. Demək istəyirəm ki, mən həmişə Azərbaycanı müdrik, ardıcıl siyasət nümunəsi kimi göstərirəm. Haradasa başqa fikirlər olduqda, sonradan bunları müzakirə edir və ümumi birlik üzrə düzgün addımlar atırıq. Türkmənistanda zirvə görüşü ilə bağlı bütün sənədləri nəzərdən keçirmək üçün işçi qrupunun rəsmi səfəri aprelin 5-6-da olacaqdır. Xatəminin səfərindən dərhal sonra mən Qazaxıstana getdim və ertəsi gün biz buraya gəlməli idik. Lakin XİN işçiləri sizin Türkiyəyə səfərinizə hazırlıqla məşğul olduqlarına görə – indi bizimkilər Mahaçqalada gözləyirlər – görüşü bu

vaxta keçirməyi xahiş etdilər. Ona görə də burada direktorlar şurasında iştirak etməyə imkan oldu və təbii ki, biz Artur Rasizadə ilə görüşdük, Xatəminin səfərindən sonra meydana çıxan bir sıra məsələləri və bəyanatla əlaqədar yaranmış incə mətləbləri müzakirə etdik. Bu bir çox suallar doğurdu. Lakin mən həmişə demişəm ki, bu, kütləvi informasiya vasitələrinin məsələni başa düşməməsi ilə bağlıdır. Tutduğumuz mövqelərdə də dövlətlərimiz arasında fikir ayrılıqları yoxdur. Biz Bakı və Qazaxıstan bəyannamələrində yazılmış razılaşmalara tərəfdarıq. Orada nəyinsə gücləndirilməsini müxtəlif cür yozmaq olar, başlıcası budur ki, biz əvvəllər əldə edilmiş mövqelərdən geri çəkilmirik. Bakı bəyannaməsinə görə məni tənqid etmişdilər ki, heç də hamının xoşuna gəlməyən iki bənd yazmışıq. Mən isə deyirəm, əksinə, biz burada, Bakıda irəliyə doğru addım atdıq, hətta Qazaxıstan barəsində mövqeyi gücləndirdik. Xatəminin səfəri oldu və mən də səfərimi İranda başa çatdırıram. Zirvə görüşü barədə bir qərara gəlmək üçün biz ayın 7-8-də ləngimədən oraya gedəcəyik. Xatəminin gəlişi hər hansı bir ümumi anlaşma üçün qapı açmadı, amma işıq yeri göründü.

Onlar başa düşdülər ki, ən mümkün variant kimi, orta xətt haqqında qərar qəbul etmək lazımdır. Lakin onlar yenə də 20 faizlik zonadan danışmağa başladılar, halbuki Xərrazi ilə söhbət zamanı mən ona demişdim ki, orta xətt 20 faizlik zona vermir. O bunda təkid etmədi və bunu şərh də etmədi, onlar bu işi qəbul etdilər. Bu onu göstərir ki, işi ikitərəfli formatda davam etdirmək lazımdır. Düşünürəm ki, irəliləyiş üçün imkanlar var. Üstəlik, yaxınlaşma yolunda Türkmənistanla da mövqelər daha aydın olmağa başlamışdır.

Mən sabah Türkmənistana gedirəm. Düşünürəm ki, Xəzərin problemini istənilən halda həll etmək lazımdır. Bu gün direktorlar şurasında çıxışımda dedim ki, biz bölgü problemini nə qədər tez həll etsək, «Xəzər sülh dənizidir» çağırışını bir o qədər tez həyata keçirərik.

«LUKoyl» kəşfiyyat işlərində yaxşı nəticələr alır, neft tapılır, ehtiyatlar aşkara çıxarılır. Təbii ki, maraq artır və bölgü məsələləri həll edilməsə, çoxlu problem olacaqdır.

Biz «LUKoyl» şirkətinin direktorlar şurasının iclasında nə üçün iştirak edirdik? Mənə orada olmaq tapşırılmışdı, çünki Xəzərin statusunu müəyyənləşdirmək lazımdır. Bu, Xəzərin ikinci həyatıdır. Siz haqlısınız, heyf ki, indi burada neft hasilatı ilə təkcə «LUKoyl» məşğul olur. Mən bu gün ilk dəfə dedim ki, Rusiya konsorsiumu yaradılmışdır. Bax, burada «LUKoyl» gah «Eksson»la, gah «Britiş petroleum»la, gah da «Şevron»la iştirak edir, burada Rusiya şirkətləri yoxdur. Budur, indi «LUKoyl», «Qazprom» və «Yukas» konsorsiumu yaradılmışdır. Biz istərdik ki, bu, Xəzərdə Rusiyanın sıx birləşməsinin başlanğıcı olsun. Biz onlara hər cür kömək göstərəcəyik ki, inkişaf etsinlər və səmərəli işləsinlər. «LUKoyl»un bu strukturda olduğunu nəzərə alaraq, geriyə addım atılmayacaqdır. Ona görə ki, «LUKoyl» ancaq irəliyə gedir. Onların hamısı «LUKoyl»un ardınca getməlidir.

Bu, bütövlükdə Rusiya yanacaq-energetika kompleksinin vəzifəsidir. Bu, XİN-in vəzifəsidir, ona görə ki, bu, müsbət haldır. İndi «Rosneft» Dağıstan şelfinə çıxmışdır. Bizə xoşdur ki, onlar Dağıstan şelfində səmərəli və kifayət qədər yaxşı işləməyə başlamışlar. Vahid Yusufoviçin şirkətlə birlikdə işlədiyi sektorda olduğu kimi, oranın da öz imkanları var. Ona görə də Azərbaycan sektorunda əldə edilmiş təcrübənin şimala doğru irəliləməsini istərdik ki, Rusiya şirkətləri Xəzərdə özlərini var qüvvə ilə göstərə bilsinlər. Bu bizim vəzifəmizdir. Amma birinci dərəcəli vəzifə, əlbəttə, Xəzərin bölgüsüdür. Düşünürəm ki, aprelin 5-6-da işlədikdən sonra gəlib vəziyyət barədə Sizə məlumat verəcəyik. Mənə elə gəlir ki, zirvə görüşünün hazırlanmasında bizim Azərbaycanla bağlı xüsusi problemlərimiz yoxdur.

**H e y d ə r Ə l i y e v:** Mən razılıq vermişəm, lakin sənədlərə baxmaq lazımdır.

**V i k t o r K a l y u j n ı:** İranda çoxlu orta mötərizələr qoymuşlar, biz onları burada açacağıq. Ona görə ki, bunu beştərəfli görüşdə etmək çətindir. Bir daha görüşmək və indiki mərhələdə işlərimizin necə getdiyindən, nə kimi planlarımız olduğundan danışmaq imkanına görə sağ olun. Öz qarşımda belə bir vəzifə qoyuram ki, 2001-ci ildə Xəzərin statusu barədə müəyyən bir qərara gəlmək və onu həll etmək lazımdır. Ona görə ki, bu bizim hamımıza, təkcə Rusiyaya deyil, eləcə də hamımıza gərəkdir. Düşünürəm ki, Sizin köməyinizlə – Allah canınızı sağ eləsin – biz onlara qalib gələcəyik.

**H e y d ə r Ə l i y e v:** Mən də belə düşünürəm.

**V a h i d Ə l ə k b ə r o v:** Heydər Əliyeviç, Rusiya Federasiyasının hökuməti «LUKoyl» şirkətinin ən böyük səhmdarıdır. Səhmlərin 15 faizi Rusiya Federasiyasına məxsusdur. Ona görə də Rusiya Federasiyasının hökuməti öz qərarı ilə Rusiya naziri, Federal Əmlak Fondunun sədri Vladimir Vladimiroviç Malini «LUKoyl» şirkəti direktorlar şurasının üzvü təyin etmişdir. O, direktorlar şurasında fəaliyyətimizi müşahidə edir, dövlətin mənafelərini qoruyur. «LUKoyl» dövlətin mənafelərini hər şeydən üstün tutur, çünki bu bizim ən mühüm mövqeyimizdir. Rusiya Federasiyasının mənafeləri ən böyük səhmdarımızın mənafeləridir. Ona görə də icazənizlə, Rusiya Federasiyası hökumətinin üzvü Vladimir Vladimiroviç Malinə söz vermək istəyirəm.

**V l a d i m i r M a l i n:** Hörmətli Heydər Əliyeviç, çıxış etmək imkanına görə çox sağ olun. Mən Bakıya ilk dəfə gəlmişəm və mehribancasına qəbula görə, işləmək imkanına görə, səmimi sözlərə və bütün xalqlarımız kimi, neftçiləri də həmişə birləşdirmiş dostluq tellərinə görə Sizə və bütün əməkdaşlarınıza, respublikanın neft kompleksinin rəhbərlərinə təşəkkür edirəm.

Bu gün iclasda üçüncü məsələ kimi, çox adi səslənən bir məsələyə – beynəlxalq standartlar, Amerika standartları sistemi üzrə mühasibat hesabatına keçilərkən auditorların hesabatının təsdiq edilməsinə baxılmışdır. Xəzərdə fəaliyyətə dair birinci məsələnin müzakirəsi kifayət qədər emosional keçdi. Ona görə də üçüncü məsələ sönük, adi görünürdü, amma bu, «LUKoyl» şirkəti üçün də, ölkə üçün də müstəsna əhəmiyyətli hadisədir. Biz olduqca çox işləyirik – Rusiya Federal Əmlak Fondu şirkətlə birlikdə işləyərək, onu dünya kapital bazarlarına çıxarmağa çalışır. Auditorların işi iki il davam etmişdir – çox böyük auditor firması işləyirdi, iki il ərzində 100 mütəxəssis Rusiyada və bir o qədər mütəxəssis də xaricdə işləmişdir. Bu olduqca böyük, çox zəhmətli işdir. Kifayət qədər əsəbi işdir. Çünki auditorlarla iş heç də həmişə xoşa gələn deyildir, üstəlik, cəsarət tapıb əvvəlki hesabatı göstərmək lazım idi. Qərbdə çoxları inanmırdılar ki, bu iş axıra çatdırılacaqdır. İndi, budur, Rusiya şirkəti ilk dəfə belə bir hesabat almışdır. Bu hesabata, necə deyərlər, ixtisas rəyi olmadan qiymət verilmişdir, yəni auditorlar şirkətin tam açıq olduğunu təsdiqləmişlər. «LUKoyl» bir çox məsələlərdə birinci idi – Rusiyanın neft şirkətləri arasında ilk səhmdar cəmiyyəti olmuşdur, özəlləşdirməyə birinci başlamışdır, korporativ vasitələrə birinci yiyələnmişdir. Budur, indi Rusiyanın ən iri neft şirkəti nəinki Rusiyanın birinci neft şirkətinə, həm də, ümumiyyətlə, xarici sərmayəçilər üçün tamamilə açıq şirkətə çevrilmişdir. Bu, sərmayəçilərin tamamilə yeni-yeni təbəqələrini şirkətin üzünə açır. Elə iri sərmayəçiləri ki, onlar mühasibat hesabatına diqqətlə yanaşır, bu və ya digər vəsaiti haraya sərf etdiklərini bilirlər. Bu, həqiqətən, əlamətdar hadisədir, zənnimizcə, Rusiyada korporativ idarəetmə dövrünü açır. Yəni bu, şirkətin menecerlərin mənafeyi naminə işləməkdən səhmdarların mənafeyi naminə işləməyə keçməsi deməkdir. Bu gün şirkətin direktorlar şurasının xaricdə, Azərbaycanda keçirilmiş ilk iclasında həmin iş ümumən yerinə yetirilmişdir.

Bu isə korporativ quruculuq işində şirkət üçün, həqiqətən, tarixi hadisədir.

**H e y d ə r   Ə l i y e v:** Sağ olun. Mən görüşümüzə şadam və deməliyəm ki, bizim «LUKoyl» ilə lap əvvəldən çox xoş və yaxşı münasibətlərimiz yaranmışdır. Bayaq dedim ki, «LUKoyl» Azərbaycanın yeni neft strategiyasının mənbəyində durmuşdur və durur. Bizim bu yeni strategiyamız isə Xəzəryanı ölkələrin hamısına fayda gətirmişdir. Ümumiyyətlə, bilirsiniz ki, keçmişdə Sovetlər İttifaqında Xəzərdə neft-qaz kəşfiyyatı və hasilatı məsələləri ilə təkcə Azərbaycan məşğul olurdu. Buna baxmayaraq, 70-ci illərdə biz müttəfiq respublikaların maraqlarını nəzərə alaraq, Xəzəri sektorlara böldük. Azərbaycan alimlərinin malik olduqları biliklər, yəni Xəzər dənizinin tədqiqinə dair toplanmış materiallar heç yerdə yoxdur. Aydındır ki, bu işlərlə məşğul olan ittifaq təşkilatı idi və bu materiallar da Moskvadadır. Amma bünövrə buradadır. Ona görə də biz bu işə başladıqda və digər Xəzəryanı ölkələr də bu işin perspektivli olduğunu hiss etdikdə, böyük maraq göstərməyə başladılar. «LUKoyl» isə bu məsələnin perspektivli olduğunu hamıdan çox hiss etdi və lap əvvəldən bizimlə birlikdədir.

Şadam ki, indi digər Xəzəryanı ölkələr – Qazaxıstan, şimalda Rusiya neft yataqları aşkara çıxarırlar. Mən buna şadam. Xəzər dənizində neft və qaz ehtiyatlarını az göstərməyə çalışan bütün yazılara rəğmən – siz neftçisiniz, mən isə neftçi deyiləm, amma artıq 40 ildir neft sənayesi ilə bağlıyam – əminəm ki, bu ehtiyatlar güman etdiyimizdən xeyli çoxdur. Vahid, sən deyirdin ki, qazma işləri apardığınız yerdə bu qədər neft olacağını heç ağlınıza da gətirmirdiniz. Məsələn, bizim geoloqlar deyirdilər ki, «Şahdəniz» yatağında 400 milyard kubmetr qaz var, lakin orada bir trilyon kubmetrdən də çox qaz olduğu aşkara çıxarılmışdır. Yeri gəlmişkən, bu layihədə payın 10 faizi «LUKoyl»a məxsusdur. Ona görə də

şadam ki, indi Xəzər dənizi belə böyük əhəmiyyətə malikdir, dünyanın bir çox ölkələrinin marağını cəlb edir.

Ancaq bu da xoşdur ki, bu məsələlərin həlli üçün konstruktiv dialoqun zəruri olduğunu indi Xəzəryanı ölkələrin özləri dərk etmişlər. Viktor İvanoviçin Rusiya prezidentinin Xəzər üzrə xüsusi nümayəndəsi təyin olunması çox düzgün və əsaslandırılmış qərardır. Rusiya prezidenti Vladimir Vladimiroviç Putin burada rəsmi səfərdə olarkən biz bu məsələni ətraflı müzakirə etdik. Yeri gəlmişkən, bu səfərin olduqca böyük tarixi əhəmiyyəti var. Çünki biz müstəqillik qazandıqdan, Rusiya özünü suveren ölkə elan etdiyi vaxtdan bəri Rusiya prezidentinin Azərbaycana səfəri olmamışdı, halbuki biz burada çoxlu prezident, Baş nazir qəbul edirdik.

Şadam ki, mənim dəvətim qəbul edildi, o buraya gəldi, səfər çox uğurlu keçdi, Azərbaycanda gözəl təsir bağışladı. Deməliyəm ki, səfər dünyada böyük maraq doğurdu və hətta indi də azalmayıbdır. Bir sözlə, Rusiya prezidenti Putin Azərbaycanda oldu. Düzdür, o, MDB-nin digər ölkələrində də olmuşdur, amma onun Azərbaycana səfərinə marağı xüsusi xarakter daşıyır. Xəzər dənizində əməkdaşlıq prinsipləri haqqında imzaladığımız Birgə Bəyanat çox yaxşı sənəddir. Bəlkə də hələlik hər şeyi əhatə etmir, lakin, hər halda, bu məsələni irəlilətmək üçün Qazaxıstanla imzalanmış sənəddən sonra yaxşı sənəddir.

Viktor İvanoviç, düşünürəm ki, Türkmənistana səfəriniz uğurlu olacaqdır. Çünki eşitmişəm ki, orada daha realist mövqe tutmağa başlayıblar. Sonra, siz orada, cənubda nə kimi işlər görüldüyünü də bilirsiniz. Biz bu işlərə qarışmırıq. Biz özümüz hər şeyi doğru-düzgün edəcəyik. Biz öz prinsiplərimizi müdafiə edirik və edəcəyik. Üstəlik, ötən 6 il bizim prinsiplərimizin doğru olduğunu göstərdi. Əvvəl-axır hamı bu prinsiplərlə razılaşır.

Direktorlar şurasının iclasını burada keçirməyinizdən məmnun qaldığımı bir daha bildirmək istəyirəm. Xüsusən də ona görə ki, bu, direktorlar şurasının Rusiyanın hüdudlarından kənarda keçirilmiş ilk iclasıdır. Siz çox uğurla işlədiniz, amma «LUKoyl» da, əlbəttə, yaxşı səviyyədədir. Yaratmaq istədiyiniz konsorsiuma gəldikdə, hesab edirəm ki, bu, yaxşı işdir, əlbəttə, əgər bunu həyata keçirə bilsəniz. Öz ölkənizin şirkətlərindənsə, digər ölkələrin şirkətləri ilə konsorsium yaratmaq asandır. «LUKoyl»un nə qədər tərəfdaşı var. Burada o bəzi layihələrdə iştirak edir. Bu layihələrdə Bi-Pi də, «AMOKO» da, «Statoyl» da, «Acip» də var. Başqa yerlərdə də – Qazaxıstanda da belədir və s. İndi o gedib fars körfəzinə çıxmışdır, orada nə isə edir. Ona görə də neçə-neçə belə müstəqil neft şirkətindən ibarət konsorsiuma malik olmaq, əlbəttə, ölkənin xeyrinədir. Mən sizə uğurlar arzulayıram. Amma siz burada, görünür, ilk növbədə «LUKoyl»un təcrübəsini öyrənəcəksiniz. Əgər «LUKoyl» bu konsorsiumu öz ətrafında toplaya bilsə, onda bu, baş tutar. Məsələn, Rusiyanın dostu olaraq mən istəyirəm ki, baş tutsun. Mən sizə bir daha uğurlar arzulayıram və Azərbaycan sizin üçün həmişə açıqdır, siz istənilən vaxt əziz qonağımız ola bilərsiniz.

**Vahid Ələkbərov:** Heydər Əliyeviç, sağ olun, görüşə görə sağ olun.

# İRAN İSLAM RESPUBLİKASININ ENERGETİKA NAZİRİ HƏBİBULLAH BİTƏRƏFİN RƏHBƏRLİK ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİ İLƏ GÖRÜŞDƏ SÖHBƏT

*Prezident sarayı*

*28 mart 2001-ci il*

**H e y d ə r  Ə l i y e v:** Azərbaycana xoş gəlmisiniz. Bilirəm ki, siz burada çox işlər görmüsünüz. Birinci növbədə, nəhayət, Parsabad elektrik xəttini açmısınız. Bu çox uzun çəkdi. Sonra görüşlər keçirmisiniz. Sizin danışıqlarınız haqqında Baş nazir mənə məlumat verdi. Mən çox məmnunam.

**H ə b i b u l l a h  B i t ə r ə f :** Mən də çox şadam ki, Azərbaycana səfər etdim və nəhayət, Sizinlə görüşmək mənə müyəssər oldu.

Zati-aliləri, mən İran İslam Respublikasının prezidenti cənab Xatəminin hərarətli, səmimi, dost və qardaş salamlarını Sizə çatdırıram və Sizin İrana səfərinizi səbirsizliklə gözləyirlər.

Dünən həm Azərbaycan, həm də İran üçün yaddaqalan və əhəmiyyətli bir gün oldu. Ona görə ki, dünən İmişli – Parsabad elektrik xəttinin istismarının rəsmi açılış mərasimini keçirdik. Beləliklə, keçmiş müqavilə, yəni İrandan Naxçıvana satılan elektrik enerjisi barədə müqavilə başa çatmışdır və indi yeni müqavilə əsasında Naxçıvana elektrik enerjisi çatdırılır. İndi İrandan Naxçıvana elektrik enerjisinin çatdırılması mübadilə və tranzit üsulu ilə həyata keçiriləcəkdir. Beləliklə, iki ölkə arasında elektrik enerjisi mübadiləsi tərəflər üçün

faydalı və əlverişlidir. Biz vaxt fərqini də nəzərə alıb, bundan faydalı istifadə edə bilərik.

Biz tranzit dedikdə bunu nəzərdə tuturuq ki, Azərbaycanın öz elektrik enerjisi İran vasitəsilə Naxçıvana çatdırılır. Başqa təbirlə desək, bu xəttin istifadəyə verilməsi, eyni zamanda İranla Azərbaycan arasında əlaqə yaradıbdır. Digər tərəfdən isə, Azərbaycan və Azərbaycanın ayrılmaz hissəsi olan Naxçıvan arasında əlaqə yaradıbdır.

Sevindirici hal ondan ibarətdir ki, cənab Abid Şərifovun böyük zəhməti nəticəsində «Azərenerji» Səhmdar Cəmiyyəti və «Təvanir» şirkəti çalışıblar və bu layihəni həyata keçiriblər. Deməliyəm ki, İran prezidenti Xatəmi bu layihənin tezliklə həyata keçirilməsinə böyük diqqət yetirirdi və bilavasitə göstəriş vermişdi ki, işlər mümkün qədər qısa müddətdə başa çatdırılsın. Bununla da biz, demək olar ki, energetika sahəsində gözəl bir əməkdaşlığa başladıq. Ancaq bu sahədə digər əməkdaşlıq formaları üzərində də işləyirik. Biz bu məsələlər barədə Abid Şərifovla ilkin danışıqlara başlamışıq.

Astarada iki ölkə arasında elektrik xətlərinin birləşdirilməsində də əməkdaşlıq edə bilərik və artıq danışıqlara başlamışıq. Digər tərəfdən, iki ölkə arasında yüksək gərginlikli xətlərin birləşməsi çox vacibdir. Beləliklə, Xəzər ətrafında yerləşən ölkələrin elektrik xətlərinin birləşdirilməsi, şəbəkə yaradılması üçün görülən və görüləcək işlər çox əhəmiyyətli ola bilər. Elektrik enerjisinin ötürülməsi üçün müştərək müəssisələrin yaradılması və sair sahələrdə birgə şirkətlər yaradıb müxtəlif işlərin həyata keçirilməsində uğurlu tədbirlər görə bilərik.

Ölkələrimiz arasında əməkdaşlığın böyük üfüqləri və imkanları vardır. Odur ki, hər iki ölkənin rəhbərlərinin istəyini həyata keçirmək üçün məsul olan şəxslər daha çox çalışmalı, vaxtı itirməməlidirlər.

**H e y d ə r  Ə l i y e v:** Təşəkkür edirəm. Əvvəlcə, İran İslam Cümhuriyyətinin prezidenti, mənim dostum, qardaşım

cənab Xatəmidən çatdırdığınız salama görə təşəkkür edirəm və rica edirəm, mənim salamımı, səmimi dostluq münasibətimi və ən xoş arzularımı ona yetirəsiniz.

Mən səbirsizliklə gözləyirəm ki, İrana səfərim nə vaxt mümkün olacaqdır. Ümid edirəm ki, bu səfər həm İran – Azərbaycan əlaqələrinin inkişafı üçün, həm də bizim başqa məsələlərin həlli üçün çox əhəmiyyətli olacaqdır.

Dünən sizin açdığınız İmişli–Parsabad elektrik xətti təbiidir ki, ölkələrimiz arasındakı iqtisadi əlaqələrin inkişafında böyük bir addımdır. Bu, Naxçıvanın elektrik enerjisi ilə təchizatı sahəsində indiyə qədər olan vəziyyəti tamamilə dəyişdirir və yaxşılaşdırır. Vaxtilə Naxçıvana elektrik enerjisinin verilməsi, elektrik xəttinin çəkilməsi – bunlar hamısı mənim xatirimdədir. Mən onlara görə bu gün də öz təşəkkürümü bildirirəm. Ancaq eyni zamanda İmişli – Parsabad xətti haqqında uzun illər həm danışıqlar gedirdi, həm də əməli işlər aparılırdı. Bu məsələ bir az gecikirdi. Biz istəyirdik ki, bu, tez olsun. Hər halda, geciksə də, nəhayət, indi qurtarıbdır, həyata keçirilibdir. Dünən siz onu rəsmi olaraq açmısınız. Mən bu münasibətlə sizi təbrik edirəm.

Mən sizin fikrinizlə tamamilə razıyam ki, bu, İran ilə Azərbaycan arasında elektrik enerjisi mübadiləsidir və çox vacibdir, əhəmiyyətlidir. Siz indiyə qədər Naxçıvana elektrik enerjisi verirdiniz. Biz də onun haqqını verirdik. Haqqı da bir az gecikdirəndə, elektrik enerjisini kəsirdiniz. Amma indi bizim elektrik xətləri bir-birinə qoşuldu. Biz buradan elektrik enerjisini sizin ölkəyə veririk, siz də oradan Naxçıvana verirsiniz. Güman edirəm ki, bundan sonra işlər gərək yaxşı getsin.

Siz buyurdunuz ki, bu məsələ prezident cənab Xatəminin daim nəzarəti altında olmuşdur. O bu barədə qayğı göstərmişdir. Mən bunu çox yüksək qiymətləndirirəm. Xahiş edirəm, bu münasibətlə ona təşəkkürümü çatdırasınız.

Mən sizin fikrinizlə razıyam ki, ümumiyyətlə, Astaradan o tərəfə Xəzər ətrafında elektrik şəbəkələrinin birləşməsi fikri doğrudan da çox diqqətəlayiqdir. Biz bundan imtina etmirik. Bunu çox məqsədəmüvafiq hesab edirik. Amma bu barədə işləmək lazımdır. Güman edirəm, bizim Nazirlər Kabineti, Baş nazirimiz, Baş nazirin müavini Şərifov bu məsələlər barəsində sizinlə işləyəcəklər. Bizim ölkələrimiz arasında energetika sahəsində əməkdaşlığı inkişaf etdirmək üçün bundan sonra da müştərək işlər görməyə imkanlarımız var.

Bilirsiniz ki, vaxtilə biz sizinlə Xudafərin Su Anbarı və Su Elektrik Stansiyası tikilməsi haqqında birgə sənədlər imzalamışdıq və bu işə başlamaq istəyirdik. Ancaq Ermənistan silahlı qüvvələri bizim torpaqlarımızı və həmin o sahəni də işğal etdiyinə görə, bu məsələ dayanıbdır. Ancaq güman edirəm ki, Ermənistan silahlı qüvvələri bu ərazidən çəkiləndən sonra, biz bu məsələyə yenidən qayıda bilərik. Amma indi mövcud olan imkanlar da var. Onlardan istifadə etmək lazımdır.

Məsələn, bir çox il bundan öncə biz sizinlə razılaşmışdıq, yəni Azərbaycan hökuməti İran hökuməti ilə razılaşmışdı ki, Ordubadda su elektrik stansiyası tikilsin və su anbarı yaransın, ondan həm İran, həm də Naxçıvanın bir hissəsi bəhrələnsin. Burada heç bir maneçilik yoxdur. Hesab edirəm, əgər siz də bizim kimi, bu məsələyə müsbət münasibət göstərsəniz, bu işi başlaya bilərik.

Xatırlayıram, hələ 1994-cü ildə mən Tehranda olarkən biz bu barədə gərək ki, hətta saziş də imzalamışdıq. Elədirmi?

**Abid Şərifov** (*Baş nazirin müavini*): Bəli.

**Heydər Əliyev:** Ona görə fikirləşirəm ki, siz bunu unutmayacaqsınız. İran ilə Azərbaycan arasında bütün sahələrdə əməkdaşlıq bizim üçün çox əhəmiyyətlidir. Əmin ola bilərsiniz ki, Azərbaycan dövləti, şəxsən Azərbaycanın prezidenti İran–Azərbaycan əlaqələrinə xüsusi əhəmiyyət verir. Bu

bizim üçün öncül sahədir və bundan sonra da biz bu əlaqələri inkişaf etdirəcəyik.

İndi ola bilər, mənim səfərimin bir az gecikməsi bu məsələni bir az ləngidir. Cənab Bikdeli hələ burada olan zamanlardan bu iş gedir. Ancaq bunun müəyyən obyektiv səbəbləri var. O sizə məlumdur. Bu heç də İran–Azərbaycan münasibətləri ilə əlaqədar deyildir. Sadəcə, bilirsiniz ki, Ermənistan–Azərbaycan münaqişəsinin sülh yolu ilə həll olunması üçün bir çox tədbirlər keçirilir. Mən bu tədbirlərdə iştirak etməliyəm. Biz indi istəyirik ki, torpaqlarımız sülh yolu ilə işğaldan azad olsun. Ermənilər isə müqavimət göstərirlər. Çalışırıq. Bu yaxın zamanlarda biz yenə də görüşlər keçirəcəyik. Doğrudur, siz onlarla dostluq edirsiniz, yaxşı ticarət aparırsınız. Amma biz də bu işğaldan xilas olmaq istəyirik.

Ermənistan–Azərbaycan münaqişəsinə son qoymaq üçün, Azərbaycanın işğal olunmuş torpaqlarını azad etmək üçün bizim gördüyümüz işlərdə, təbiidir ki, İran İslam Cümhuriyyətinə də çox böyük ehtiyacımız var. Ona görə də mən xahiş edirəm, prezident cənab Xatəmiyə mənim bu fikirlərimi çatdırasınız. Xahiş edirəm, İran bu barədə öz imkanlarından istifadə etsin ki, Ermənistan düzgün yola gəlsin və nəhayət, bu münaqişəyə son qoyaq. Ermənistanla Azərbaycan arasında sülh yaradaq. O şərtlə ki, Azərbaycanın işğal olunmuş torpaqları azad edilsin. Bunlar da, ümumiyyətlə, bizim bu bölgədə əməkdaşlığımıza çox böyük imkanlar yaradacaqdır.

**Həbibullah Bitərəf:** Zati-aliləri, buyurduğunuz, söylədiyiniz fikirlərə görə dərin təşəkkürümü bildirirəm. İranda su bəndlərinin tikintisi, o cümlədən Xudafərinin tikintisinə dair fikirlərimi Sizə çatdırmaq istəyirəm.

Zati-aliləri, yəqin eşitmisiniz. Bilirsiniz ki, İranda inqilabdan əvvəl yalnız 13 su bəndi tikilmişdir. Lakin son 22 il ərzində ölkədə 74 su bəndi tikilmiş və hazırda 87 su bəndindən istifadə olunur. Biz ölkəmizdə suya böyük əhəmiyyət veririk

və ona görə də sudan geniş istifadə etmək üçün müxtəlif layihələrin həyata keçirilməsinə həm dövlət, həm də parlament həmişə çox diqqətlə yanaşır. Hazırda ölkəmizdə su bəndlərinə aid 65 layihə hazırlanmaqdadır. Bu iş belə planlaşdırılır ki, hər bir regionda ən azı bir-iki su bəndi tikilsin. Beləliklə, su anbarlarından istər kənd təsərrüfatı, istərsə də sənayenin müxtəlif sahələri üçün çox səmərəli istifadə olunur.

Ərdəbil ostanının ərazisində yerləşən Xudafərin və Qızqalası layihələrinin həyata keçirilməsinə dövlət söz veribdir. Odur ki, ölkənin iqtisadi inkişaf proqramında müəyyən işlər nəzərdə tutulubdur. Həmin ostanın əhalisi və parlamentdə olan deputatları həm hökumətdən, həm də Energetika Nazirliyindən soruşurlar ki, layihələrin həyata keçirilməsinə nə vaxt başlanılacaqdır? Bildiyiniz kimi, cənab Qəzai keçmişdə Ərdəbil ostanından parlamentə deputat seçilmişdi. Onlar həmişə bizdən soruşurdular ki, buna nə vaxt başlanılacaqdır. İstər həmin su bəndlərinin tikilməsi, istərsə də suvarma işləri üçün müəyyən vəsait ayrılıbdır. Hazırda biz üçüncü beşilliyin ikinci ilini yaşayırıq. Hətta üçüncü beşillik proqramda da həmin layihələr üçün müəyyən vəsait nəzərdə tutulubdur.

Məni narahat edən məsələdən biri ondan ibarətdir ki, əgər bizdən yuxarıda, yəni Türkiyə ərazisində, yaxud haradasa, başqa bir yerdə Araz çayından su götürülsə, su bəndi tikilsə, onda biz aşağılarda belə qurğuların tikilməsinə imkan tapa bilməyəcəyik. Bu layihələr çox əhəmiyyətlidir. Əvvəla, kənd təsərrüfatı, yəni suvarma işləri üçün çox faydalıdır. Digər tərəfdən, bu qurğularda hər biri 140 meqavat gücündə iki elektrik stansiyası tikilə bilər.

Zati-aliləri, dövlətimiz bizim nazirliyə həmişə göstəriş verir ki, ölkənin daxilində tikilən su bəndlərindən əlavə, sərhəd çayları üzərində də qurğular tikilsin. Misal üçün deyə bilərik ki, keçən ay prezident Niyazovla bu barədə danışıqlar sona çatdı. Türkmənistanla İran arasında «Dostluq» su bəndi tikil-

məsi məsələsi artıq yekunlaşıbdır. Hesab edirik və inanırıq ki, zati-aliləri, Sizin göstərişiniz nəticəsində Araz çayının üzərində də belə bir qurğunun tikilməsinə yəqin, yaxın vaxtlarda başlamaq olar.

Zati-aliləri, bir neçə il bundan əvvəl İran prezidentinin birinci müavini cənab doktor Həbibi ilə Sizin görüşünüz olubdur. Həmin görüş zamanı bu məsələ müzakirə edilibdir. İran onda da öz öhdəliyini bəyan etmişdi ki, bu layihə üçün lazım olan kreditin təminatını öz üzərinə götürür. İndi əlavə olaraq deyirik ki, bu qurğunun tikilməsində 50 faiz işləri Azərbaycan mütəxəssisləri görəcəklər. Bu isə Azərbaycanda əhalinin işlə təmin olunmasına müsbət təsirini göstərəcəkdir.

**H e y d ə r  Ə l i y e v:** Mən başa düşürəm. Amma indi Xudafərin mümkün deyildir. Ermənilər oranı, o torpaqları işğal ediblər. Mən məmnunam ki, bu sizin planınızda var, bunu edəcəksiniz. Ancaq indi, təbiidir ki, bizim işğal olunmuş torpaqlar erməni silahlı qüvvələrindən azad edilməyibdir. Orada hansısa bir tikinti aparmaq mümkün deyildir. Biz bununla razı ola bilmərik. Ancaq Ordubadda heç bir maneçilik yoxdur. Bunu etmək olar.

**H ə b i b u l l a h  B i t ə r ə f:** Cənab Prezident, mən Ordubad Su Elektrik Stansiyasının tikilməsi məsələsinə bir qədər sonra toxunacağam. İndi onu demək istəyirəm ki, bəli, Araz çayının üzərində iki su elektrik stansiyasının tikilməsi nəzərdə tutulur. Biri Ordubaddır, digəri isə başqası olacaqdır.

**H e y d ə r  Ə l i y e v:** Hansı başqası, Xudafərin?

**H ə b i b u l l a h  B i t ə r ə f:** Cənab Prezident, deməli, Ordubad Su Elektrik Stansiyası Azərbaycan tərəfdə tikilir. Onun müqabilində İran tərəfi ərazisində özü tikir.

**H e y d ə r  Ə l i y e v:** Bəs sudan istifadə olunmur?

**H ə b i b u l l a h  B i t ə r ə f:** Sudan istifadə olunur. Amma Azərbaycan öz vəsaiti hesabına özü tikir və elektrikin sahibi olur. İran tərəfi də...

**Heydər Əliyev:** Bəs bəndi kim tikir?

**Həbibullah Bitərəf:** Orada bənd yox, ancaq elektrik stansiyası olacaq, suvarma üçün yox.

**Heydər Əliyev:** Su elektrik stansiyası. Axı su elektrik stansiyası üçün su lazımdır.

**Həbibullah Bitərəf:** Əkin, səpin üçün deyildir.

**Heydər Əliyev:** Onu başa düşürəm.

**Həbibullah Bitərəf:** Xudafərin həm suvarma, həm də enerji almaq üçündür.

**Heydər Əliyev:** Bu aydındır. Bizə əkin-səpindən çox, elektrik enerjisi lazımdır.

**Həbibullah Bitərəf:** Cənab Prezident, Sizin tərəfdə Ordubad Su Elektrik Stansiyasının tikilməsi üçün layihələrin hazırlanması artıq başa çatıbdır. Amma biz isə bunu müzakirə edirik. Biz hələ birincini qurtarmamışıq. O qurtarandan sonra ikincisi başlanmalıdır, yəni onun layihəsi hazırlanır, tender keçirilir və bu, tikinti şirkətinə həvalə olunur. Biz hələ o mərhələyə gəlib çatmamışıq.

**Heydər Əliyev:** Aydındır.

**Həbibullah Bitərəf:** Cənab Prezident, məlumat üçün bildirmək istəyirəm ki, İranın və Ermənistanın siyasi rəhbərliyi arasında «Xudafərin» su bəndinin tikilməsi üçün lazımi danışıqlar aparılmışdır. Ermənistan tərəfi təhlükəsizlik üçün təminata, öhdəlik götürməyə söz veribdir. Odur ki, biz bu üsulla yəqin, başlaya bilərik. Sözsüz ki, münaqişə nə vaxtsa qurtaracaq, sona çatacaqdır. Amma biz bilmirik, bu nə qədər çəkəcəkdir. Təbii, Sizin sülh danışıqlarınız nə vaxtsa bir nəticəyə gəlib çatacaqdır. Amma eyni zamanda bir şeyi nəzərə almalıyıq ki, əgər bu torpaqlar bir ildən sonra azad olunacaqsa, biz bir il gözləyə bilərik. Əgər daha çox, məsələn, bu, 10–15–20 il davam edəcəksə, onda biz vaxt itiririk.

**Heydər Əliyev:** Bilirsiniz, mən deyə bilmərəm ki, bir ildə nə olacaq, iki ildə nə olacaqdır. Biz altı ildən çoxdur ki,

atəşkəs rejimi yaratmışıq və sülh danışıqları aparırıq. Amma əgər o torpaqlar azad olunmasa, siz bunu kiminlə tikəcəksiniz? Ermənistanlamı? O torpaqlar Ermənistanınmı ixtiyarındadır? Bu, qətiyyən mümkün deyildir. Ona görə mən bunu sizə bildirmək istəyirəm və xəbərdar edirəm ki, Ermənistanla sülh müqaviləsi əldə olunmayana qədər, o torpaqların azad olunması həll edilməyənə qədər orada «Xudafərin»in tikilməsi haqqında söhbət gedə bilməz. Biz buna qətiyyən yol verə bilmərik. Bu, Azərbaycanın torpağıdır. Ermənistanın işğalı altındadır. Biz o vaxt sizinlə razılaşmışdıq ki, bunu müştərək tikək, sudan həm İran istifadə etsin, həm Azərbaycan istifadə etsin, həm də elektrik enerjisindən İran və Azərbaycan istifadə etsinlər. İndi o torpaqlar işğal altından qurtarmayıbsa, onda belə çıxır ki, bizim Azərbaycan torpaqlarında siz Ermənistanla əməkdaşlıq edəcəksiniz? Bu, mümkün deyildir.

Yaxşı, sağ olun. Təşəkkür edirəm. Məndən bütün dostlarımıza, qardaşlarımıza bir daha salamlar. Ümid edirəm ki, tezliklə Tehranda görüşəcəyik. Sağ olun.

**Həbibullah Bitərəf:** Cənab Prezident, çox sağ olun.

# TÜRKİYƏNİN DÖVLƏT NAZİRİ ƏBDÜLXALIQ ÇAYIN RƏHBƏRLİK ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİ İLƏ GÖRÜŞDƏ SÖHBƏT

*Prezident sarayı*

*30 mart 2001-ci il*

**H e y d ə r  Ə l i y e v:** Hörmətli Dövlət naziri!

Hörmətli qonaqlar!

Mən sizi səmimi-qəlbdən salamlayıram və çox məmnunam ki, mənim Türkiyəyə rəsmi səfərimdən sonra Türkiyə–Azərbaycan Müştərək İqtisadi Komissiyasının toplantısı Azərbaycanda keçirildi. Mənə dedilər ki, bu, neçə ildir keçirilmir. Elədir, yoxsa yox?

**A b i d  Ş ə r i f o v** (*Baş nazirin müavini)*: Cənab Prezident, üç ildən çoxdur.

**H e y d ə r  Ə l i y e v:** Üç ildən çoxdur. Sən günahkarsan.

**A b i d  Ş ə r i f o v:** Bəli.

**H e y d ə r  Ə l i y e v:** Çünki bizim tərəfdən sənsən.

**Q ə d r i  E c v e t  T e z c a n** (*Türkiyənin Azərbaycandakı səfiri*): Cənab Prezident, bizdən də mən günahkar oldum.

**H e y d ə r  Ə l i y e v:** Sən günahkarsan. Gəlin belə danışaq ki, bundan sonra daha heç kəs günahkar olmasın. Bu işi bir plana salaq. Bir ildə, çox da olmaz, heç olmasa, iki dəfə – bir dəfə Azərbaycanda, bir dəfə də Türkiyədə keçirək.

Mən bundan çox məmnunam. Xüsusilə ona görə məmnunam ki, mənim Türkiyəyə rəsmi səfərimdən sonra bu iş daha da sürətlə getməyə başladı.

Mən bu fürsətdən istifadə edib, bir də bildirmək istəyirəm ki, Türkiyəyə rəsmi səfərim Azərbaycanda, xalqımızda, millətimizdə çox böyük maraq, çox böyük ruh yüksəkliyi oyatmışdır. Yəni biz Türkiyə–Azərbaycan dostluğunun, qardaşlığının sarsılmaz, əbədi olduğunu bir daha nümayiş etdirdik. Türkiyədəki bütün görüşlər, danışıqlar, mənim Böyük Millət Məclisindəki görüşüm, sonra Ankara Universitetindəki görüşüm, başqa görüşlər – hamısı Azərbaycanda çox diqqətlə izlənibdir. Televiziyada bir neçə dəfə verilib və xalqımız da bundan çox böyük məmnuniyyət hissi duyur, çox sevinir. Çünki mən orada, Böyük Millət Məclisində dedim ki, Türkiyə Azərbaycanın ən yaxın dostu – qardaşıdır, bir nömrəli dostu – qardaşıdır. Ona görə də bu təkcə mənim əhval-ruhiyyəm deyil, bizim xalqımızın fikridir. Mən bunu orada xalqımızın fikrini ifadə edərək demişəm. Hesab edirəm, bu – orada da dedim – bizim dostluq–qardaşlıq əlaqələrimizin gələcəyi üçün yeni bir mərhələ kimi qəbul oluna bilər.

Hörmətli Dövlət naziri, mən sizə xüsusi təşəkkür edirəm. Çünki mən orada olanda siz həmişə mənimlə birlikdə olmusunuz. Yəni sizin üzərinizə daha da çox əziyyət düşübdür. Çox təşəkkür edirəm. Ancaq eyni zamanda siz Dövlət naziri kimi, bütün türk dövlətləri işi üzərində çox çalışmısınız.

Amma bu da çox böyük vəzifədir. Yəni böyük işdir. Çünki keçmiş Sovetlər İttifaqına daxil olan və hazırda müstəqillik əldə etmiş türkdilli respublikaların işbirliyi, onların birlikdə olması çox əhəmiyyətlidir.

Mən hörmətli prezident cənab Əhməd Necdət Sezərin dəvətini məmnuniyyətlə qəbul etmişəm. Gərək ki, aprel ayının 25-də, ya 26-da İstanbulda türkdilli dövlət başçılarının görüşü olacaqdır. Onu da keçirəcəyik. Mən çox məmnunam ki, bu, təxirə salınmır. Çünki biz burada son görüşü, «Dədə Qorqud»un yubileyini də keçirdik, qərara gəldik ki, gələn görüş

İstanbulda olsun. Bu da artıq müəyyən olubdur və çox gözəl bir haldır.

Mənə Baş nazir məlumat verdi, siz burada iqtisadi əlaqələr haqqında çox işləmisiniz, çalışmısınız, olan nailiyyətləri də, qüsurları da qeyd etmisiniz. Bu təbiidir. Çünki heç bir iş qüsursuz olmur. Amma biz həmişə arzu edirik ki, işlərimizdə uğurlar daha çox olsun, nəinki qüsurlar. Güman edirəm ki, bu işbirliyi davam etdikcə, uğurlar daha çox, qüsurlar daha az olacaqdır. Mən sizə bir daha təşəkkür edirəm ki, Azərbaycana gəlmisiniz və Müştərək komissiyanın iclasını burada keçirmisiniz.

**Ə b d ü l x a l ı q Ç a y:** Hörmətli Cümhur başqanım, hər şeydən əvvəl, nümayəndə heyətimizi qəbul etdiyinizə görə Sizə çox təşəkkür edirik.

Hörmətli Cümhur başqanımız cənab Əhməd Necdət Sezərin və hörmətli Baş nazir Bülənd Ecevitin, Baş nazir müavini Dövlət Baxçalının salamlarını Sizə çatdırmaqdan böyük şərəf duyuram.

Müştərək İqtisadi Komissiyanın 1997-ci ildən bəri keçirilməyən toplantısını təşkil etmək üçün biz Bakıya gəldik. Zatialiniz Ankarada olarkən komissiyanın toplantıları ilə bağlı məlumat vermişdim. Burada xeyli böyük, on illik dövrün işlərini gördük. On il ərzində qardaş cümhuriyyətlərə nə verə bilmişik, nə işlər görə bilərik, nələrin görülməsi lazımdır, hansı işlərdə qüsurlar olmuşdur – bunlar barədə geniş müzakirələr apardıq.

Cənab Prezident, Müştərək İqtisadi Komissiyanı toplayaraq gələcək illərdə, 5–10–20 il sonra əlaqələrimizin hansı istiqamətdə aparılması barədə proqram hazırlamaq sahəsində fikir mübadiləsi etdik. Müştərək komissiyanın Bakıdakı toplantısı türkdilli cümhuriyyətlər arasında birinci oldu. Bu ilin aprel ayında həm Qırğızıstanda, həm Özbəkistanda, həm də Türkmənistanda, may ayında Qazaxıstanda, iyun ayında da

Gürcüstanda toplantılar keçirəcəyik. Biz bu çərçivədə ölkələrimiz arasındakı əlaqələri sağlam, hüquqa uyğun saziş halına gətirmək istəyirik.

Cənab Prezident, biz Türkiyə ilə Azərbaycan arasında iqtisadi sahədə əməkdaşlıqla bağlı cənab Abid Şərifovla, hörmətli Baş nazir Artur Rasizadə ilə, Səhiyyə naziri Əli İnsanovla görüşdük. Mətbuat nümayəndələri çıxdıqdan sonra bəzi məsələlər barədə zati-alinizə məlumat verməyə çalışacağam.

Biz Türkiyə olaraq Azərbaycanı ana vətənimiz, yurdumuz, dövlətimiz, ölkəmiz kimi görürük, bu şəkildə qiymətləndiririk. Zati-alinizi öz Cümhur başqanımız kimi görürük və bundan da şərəf duyuruq. Bunu açıqlamağa ehtiyac da yoxdur. Bu əlaqələrin daha sağlam təməllər əsasında qurulması üçün qarşılıqlı, şəxsi dostluqlardan çox, hökumətlərarası, dövlətlərarası hüquqi anlaşmaların olmasının zəruriliyi baxımından biz bu Müştərək İqtisadi Komissiyanın toplantısını əhəmiyyətli sayırıq. Hörmətli Cümhur başqanımız Sezər Orta Asiya cümhuriyyətlərinə etdiyi səfərlər zamanı türkdilli ölkələrin dövlət başçılarından Müştərək İqtisadi Komissiyaların toplantısının keçirilməsini xahiş etmişdi. Ona görə də bu işə böyük önəm veririk.

Mən bir məsələni dəyərləndirərək çıxışımı bitirmək istəyirəm. Buraya 32 nəfərlik nümayəndə heyəti ilə gəlmişik. Nümayəndə heyətinə Türkiyə ilə Azərbaycan arasındakı əlaqələri istiqamətləndirən Xarici İşlər Nazirliyinin, Xarici Ticarət Müstəşarlığının, Türkiyə İnkişaf Agentliyinin (TİKA), Enerji və Təbii Ehtiyatlar Nazirliyinin və s. nümayəndələri daxildir. Biz azəri qardaşlarımızla birlikdə bu məsələləri müzakirə edərək, bəzi problemlərin həllinə çalışmışıq. Lazım olarsa, bu problemlər barədə gələcəkdə də söhbətlər aparacağıq, görüşlər keçirəcək, önəmli olan məsələləri müzakirə edəcəyik və gələcəyə problemli

məsələ qoymayacağıq. Cənab Prezident, məqsədimiz bundan ibarətdir.

Zati-alinizin Türkiyəyə rəsmi səfəri zamanı təbii qaz barədə imzalanmış anlaşmaya görə, Türkiyə olaraq Sizə təşəkkürümüzü bildiririk. Bunun istər Azərbaycan üçün, istərsə də Türkiyə üçün xeyirli və uğurlu olmasını diləyirəm.

Azərbaycanın ağır dərdi olan Dağlıq Qarabağ problemi ilə əlaqədar Azərbaycan xalqının qəbul edə biləcəyi çözümün Türkiyənin də qəbul edəcəyini burada açıq ifadə etmək istəyirəm. Çünki düşünürük ki, Qarabağ problemi Azərbaycan qədər Türkiyənin də məsələsidir. Keçiriləcək görüşlərdə çözümün sülh yolu ilə həll olunmasını arzu edirik. Müharibə ən son çarədir. Azərbaycanın sabitliyini pozmayan, gələcək nəsillərin önündə, tarix önündə üzüağ olacaq bir şərəfli anlaşma ilə bu işin sona çatması ən böyük arzumuzdur. Türkiyə olaraq bu sahədə azərbaycanlı qardaşlarımızın və zati-alinizin sona qədər dəstəkçisi olduğumuzu burada bir daha söyləmək istəyirəm.

Hörmətli Cümhur başqanım, Naxçıvan məsələsi barədə də bir-iki kəlmə demək istəyirəm. Novruz bayramı ilə əlaqədar Qars, İğdır, Ağrı bölgəsinə getmişdim. «Dilucu» sərhəd qapısına qədər getdik. Naxçıvan ilə bağlı məsələlərin əlaqələndirilməsi də mənim nazirliyimə tapşırılıbdır. Zati-alinizin hörmətli Baş nazir Ecevitə göndərdiyi məktubu da naxçıvanlı qardaşlarımızla dəyərləndirdik. Bu çərçivədə yollar arayırıq. Mən bu sahədə lazım olan bilgiləri cənab Abid Şərifova verdim. Çünki biz Naxçıvanın problemini öz problemimiz kimi görürük. İnşallah, bu toplantıdan sonra, Türkiyəyə qayıtdıqdan sonra muxtar respublikanın rəhbərləri ilə Naxçıvanla bağlı müzakirələr aparacağıq və məsələləri həll edəcəyik. Mən bunları bildirmək istəyirdim. Bir çox məsələlər var. Hörmətli mətbuat nümayəndələri gedəndən sonra onları zati-alinizə bildirmək istəyirəm.

**H e y d ə r Ə l i y e v:** Sağ olun. Təşəkkür edirəm.

Ermənistan–Azərbaycan münaqişəsi barədə biz Türkiyədə də çox danışdıq. Mən Böyük Millət Məclisində də öz fikirlərimi söylədim. Təbiidir ki, bu həm Azərbaycanın problemidir, həm də Türkiyənin problemidir. Sizin fikirləriniz, burada söylədiyiniz fikirlər bizim fikirlərimizlə eynidir, üst-üstə düşür.

Bilirsiniz ki, mən aprel ayının 1-də, yəni bir gündən sonra Amerikaya, özü də çox uzaq bir yerə, Amerikanın ən güneyində olan Floridaya gedirəm. Orada Minsk qrupunun həmsədrləri, ATƏT-in Baş katibi, Amerika Birləşmiş Ştatlarının Dövlət katibi, başqaları – hamımız bir yerdə bu məsələyə baxacağıq. Ancaq təbiidir ki, çox ağır və çox da çətin bir məsələdir. Çünki ermənilər öz tələblərindən geriyə çəkilmirlər. Biz də öz tələblərimizdən geriyə çəkilə bilmərik. Azərbaycanın torpaq bütövlüyü bizim üçün əsas şərtlərdən biridir. Biz hansısa bir başqa məsələdə, ola bilər, nə iləsə razı ola bilək. Amma təbiidir, biz Azərbaycanın torpaq bütövlüyünün pozulması ilə razı ola bilmərik.

Doğrudur, indi onlar Dağlıq Qarabağı işğal ediblər. Onun ətrafında bizim yeddi inzibati rayonumuzu da işğal ediblər. Ərazimizin, torpağımızın beşdə bir hissəsi ermənilərin işğalı altındadır. Bir milyondan artıq insanın çoxu köçkün vəziyyətində çadırlarda yaşayır. Biz bu dərdləri neçə ildir, 7-8 ildir ki, çəkirik və bu dərdlərdə təkcə Türkiyə bizim yanımızdadır. Bu dərdi bir yerdə çəkirik. Ancaq biz də o fikirdəyik ki, məsələnin sülh yolu ilə həll edilməsinə nail olmaq lazımdır. Doğrudur, indi Azərbaycanda müharibə əhval-ruhiyyəsi, yəni ordunun gücü ilə, silah gücü ilə torpaqların azad edilməsi əhval-ruhiyyəsi daha çoxdur, nəinki, sülh yolu ilə. Ancaq mən hesab edirəm, hələ ki, məsələnin sülh yolu ilə həll edilməsi imkanları tükənməyibdir. Biz bu barədə işləməliyik, çalışmalıyıq və qarşımızda duran görüşlərdə də mən bunu edəcəyəm.

Mən bu gün xarici məlumatları oxuyurdum. Sizin ölkənin Xarici İşlər naziri hörmətli İsmayıl Cəm Vaşinqtonda həm Xarici İşlər naziri ilə, həm də vitse-prezident Dik Çeyni ilə görüşüb, danışıqlar aparıbdır. Təbiidir ki, Türkiyə–Amerika əlaqələri haqqında. Eyni zamanda o, Ermənistan–Azərbaycan, Dağlıq Qarabağ problemi haqqında da danışıqlar aparıbdır. Mən çox məmnunam. Eyni zamanda şübhə etmirdim, çünki bu belə də olmalı idi. Mən bu gün bu məlumatı alanda çox məmnun oldum. Hər halda, mənim Amerikaya indiki ziyarətim çox vacib bir məsələdir. Görək sonu necə olacaqdır. Ancaq biz öz prinsiplərimizdən heç vaxt çəkilməmişik və çəkilməyəcəyik.

Keçirdiyiniz işlərə görə bir daha təşəkkür edirəm. Xahiş edirəm, mənim salamlarımı və hörmət-ehtiramımı hörmətli prezident cənab Əhməd Necdət Sezərə çatdırasınız, hörmətli Baş nazir cənab Bülənd Ecevitə çatdırasınız, hörmətli Baş nazir müavini cənab Dövlət Baxçalıya və başqa dostlarıma, qardaşlarıma çatdırasınız.

# TÜRKİYƏ SILAHLI QÜVVƏLƏRİ BAŞ QƏRARGAHININ MADDİ-TEXNİKİ TƏMİNAT RƏİSİ, KORPUS GENERALI HURŞİT TOLON İLƏ GÖRÜŞDƏ SÖHBƏT

*Prezident sarayı*

*30 mart 2001-ci il*

**H e y d ə r Ə l i y e v:** Azərbaycana xoş gəlmisiniz. Mən iki gün bundan öncə Türkiyədə idim. Bilirsinz ki, orada türkdilli ölkələrin dövlət başçılarının VII zirvə görüşü keçirilirdi. Mən bunu artıq dəfələrlə demişəm, bir də bildirmək istəyirəm ki, görüş çox yüksək səviyyədə keçdi, çox faydalı oldu. Türkiyə Cümhuriyyəti, Türkiyə Cümhur başqanı, Türkiyə hökuməti və bütün dövlət adamları bu görüşün hazırlanmasında və çox yaxşı keçirilməsində böyük işlər görmüşlər. Mən onlara təşəkkürlərimi bildirdim. Təbiidir ki, bu görüşlər hər dəfə türkdilli dövlətlərin bir-birinə inamını daha da artırır.

Biz uzun illər, əsrlər boyu bir-birimizdən ayrı düşmüşük. Indi yaxınlaşırıq. Türkdilli dövlətlər birliyinin əsası 1992-ci ildə Ankarada qoyulubdur, doqquz il keçibdir. Bəzən düşünmək olar ki, doqquz il keçib, nə üçün bu yaxınlaşma tam baş verməyibdir? Ancaq əgər əsrlər boyu bir-birlərindən ayrı düşürlərsə, doqquz il o qədər də böyük zaman deyildir. Amma başlıcası ondan ibarətdir ki, biz yaxınlaşırıq, bir-birimizlə daha da çox işbirliyi yaratmaq istəyirik. Biz biri-birimizin mədəniyyətini, tarixi köklərini, adət-ənənələrini, milli-mənəvi dəyərlərini daha çox öyrənirik və onların nə qədər oxşar ol-

duğunu, hamısının bir kökdən gəldiyini bir daha görürük. Yəni bu bizim üçün də lazımdır, amma gələcək nəsillər üçün daha çox lazımdır. Ona görə mən hesab edirəm ki, İstanbul zirvə görüşü çox uğurlu oldu.

**H u r ş i t  T o l o n:** Məni qəbul etdiyinizə görə Sizə dərin minnətdarlığımı bildirirəm. Hörmətli Cümhur başqanım, bütün türk dünyasında əzbərlənmiş, çox yaxşı bilinən və çox sevilən bir sözünüzü qarşınızda ərz etmək istəyirəm. Siz hər zaman «bir millət, iki dövlətik» deyirsiniz.

**H e y d ə r  Ə l i y e v:** Elədir.

**H u r ş i t  T o l o n:** Bu, uzun əsrlərdir bir-biri ilə görüşməyi gözləyən, bunu arzulayan toplumların vahid millət halına gəlməsi üçün çox önəmli müdrik kəlamdır. Biz bunu yüksək dəyərləndiririk və bu sözü söylədiyiniz üçün çox sağ olun.

**H e y d ə r  Ə l i y e v:** Sağ olun. Mən çox məmnunam ki, siz Azərbaycana gəlmisiniz. Mənə Müdafiə naziri məlumat veribdir ki, bir yerdə işləmisiniz və güman edirəm, bu işlər öz nəticəsini verəcəkdir.

**H u r ş i t  T o l o n:** Cənab Prezident, hörmətli nazirin zati-alinizə ərz etdiyi kimi, illərdən bəri gəlməyi, görməyi gözlədiyim bu çox gözəl ölkənizdə olmağımdan duyduğum məmnunluq sonsuzdur. Bunu hüzurunuzda ərz etmək istəyirəm. Xüsusilə vacib dövlət işlərindən vaxt ayıraraq məni və dostlarımı qəbul etdiyinizə görə Sizə dərin təşəkkürümü bildirirəm.

Baş Qərargah rəisimiz, ordu generalı Hüseyn Kıvrıqoğlu zati-alinizə öz dərin hörmət və ehtiramını çatdırmağı məndən xahiş etmişdir. Bunu söyləməkdən, ifadə etməkdən məmnunam.

Mən buraya səfərimin səbəbi barədə məlumat vermək istəyirəm. Neçə illərdən bəri silahlı qüvvələrimiz arasında davam edən hərbi təhsil və işbirliyi proqramı vardır. Hökumətimiz tərəfindən həmin proqramın gerçəkləşməsi üçün bu il də müəyyən ehtiyat ayrılmışdır. Türkiyə və Azərbaycan silahlı

qüvvələrinin həmin ehtiyatdan müştərək şəkildə istifadə etməsi barədə hörmətli nazirinizlə birlikdə şənbə günü burada protokol tərtib etdik. Tezliklə bunun həyata keçirilməsinə başlayacağıq.

Mən dördüncü gündür ki, Azərbaycandayam və buraya ilk dəfədir gəlirəm.

**H e y d ə r  Ə l i y e v:** İlk dəfə?

**H u r ş i t  T o l o n:** Hörmətli Cümhur başqanım, bəli, ilk dəfədir. Burada gördüklərimi hüzurunuzda səmimiyyətlə ərz etmək istəyirəm. Təbii ki, gəlmədən, getmədən, görmədən, yaşamadan, xəyalən insanın təsəvvür etdiyi ilə əsl gerçəyin fərqini bilmək çətindir. Mən burada əsl reallığı bir daha canlı şəkildə gördüm. Xüsusilə Azərbaycan Silahlı Qüvvələrinin son 4-5 il ərzində qazandığı uğurları – bunu təqdir etmək zati-dövlətinizə aiddir – yüksək qiymətləndirirəm. Üç gün içərisində korpus qərargahına getdim, orada bilgi aldım. Onun tərkib hissəsi olan diviziyanı gördüm, oradakı çalışmaları izlədim və məlumat aldım. Bir də yeni təşkil edilən sinifləri ziyarət etdim. Qarşıdan gələn il son dərəcə mühüm olan müxtəlif ixtisaslar üzrə zabitlər oradan məzun olacaqdır. Bu il məzun olacaq hərbi məktəbin müdavimləri, hərbçilər orduya gedəcəklər və təbii, bu da çox böyük əhəmiyyət daşıyacaqdır.

Hörmətli Cümhur başqanı, mən bu gün hərbi məktəbdə oldum. Sonra Hərbi Akademiyaya gedəcəyəm. Inanıram ki, möhkəm təməl üzərində hərbi məktəbin yaradılması, üstəlik, yeni siniflərin təhsilə başlaması Azərbaycan Silahlı Qüvvələrinin gələcəyi üçün çox önəmli olacaqdır. Bu, bir, beş, on diviziya yaratmaqdan daha önəmli bir məsələdir. Gənc müdavimləri gördüm, təhsillərini izlədim, çalışmaları haqqında məlumat aldım. Mən bir türk övladı kimi, qürur duydum.

**H e y d ə r  Ə l i y e v:** Çox sağ olun. Təşəkkür edirəm. Əvvəlcə hörmətli Baş qərargah rəisi Hüseyn Kıvrıqoğluna məndən salamlar, sayqılar. Onun mənə çatdırdığınız salamına görə təşəkkür edirəm.

Mən son dəfə, mart ayında Türkiyədə rəsmi səfərdə olarkən hörmətli Hüseyn Kıvrıqoğlu ilə bizim çox ətraflı söhbətimiz, danışıqlarımız oldu. Ümumiyyətlə, mənim Türkiyənin dövlət başçıları ilə, hökumət başçıları ilə – hamısı ilə çox sıx əlaqəm var. O cümlədən Baş Qərargah rəisi ilə dostluq əlaqələrim xüsusi xarakter daşıyır. Ona görə də mənim salamlarımı ona çatdırarsınız. Hörmət, ehtiramımı çatdırarsınız. Sizin ordunuza uğurlar arzumu çatdırarsınız.

**H u r ş i t T o l o n:** Baş üstə.

**H e y d ə r Ə l i y e v:** Mən hər dəfə demişəm. Türkiyənin ən böyük sərvəti onun silahlı qüvvələridir, ordusudur. Dəfələrlə demişəm ki, Atatürk gedəndən sonra xalqa iki böyük irs qoyubdur. Birincisi, yaratdığı Türkiyə Cümhuriyyəti, ikincisi, yaratdığı silahlı qüvvələr. Təbiidir, çox irslər qoyubdur. Amma bu ikisi Türkiyəni yaşadan, Türkiyəni inkişaf etdirən və Türkiyənin bu gün dünyanın bütün dövlətləri içərisində böyük yer tutmasına səbəb olan amilləridir.

Bizim silahlı qüvvələrimiz gəncdir və siz də ilk dəfə Azərbaycandasınız. Ona görə də sizin aldığınız təəssüratlar, dediyiniz fikirlər mənim üçün çox əhəmiyyətlidir. Çünki mən daim düşünürəm ki, bizim silahlı qüvvələrimiz daha da güclənsin. Ancaq qəlbimdə bəzən belə duyğular yaşayır ki, hələ bəlkə istədiyim qədər güclənməyibdir. Ona görə hər bir addım, təbiidir ki, məni sevindirir.

Təbiidir, bu barədə danışarkən Azərbaycanda olan zabitlərinizin, sizi təmsil edən insanların burada təhsil işini aparmasının çox əhəmiyyətli olduğunu bilirəm. Çox yüksək səviyyədədirlər. Elə bunun özü bizim silahlı qüvvələrin indiki səviyyəyə gəlməsində xüsusi rol oynayır.

Sizin nümayəndələriniz – indi Zəki paşadır, ondan öncə Əngin paşa idi – hamısı burada, qardaş ölkədə hesab edirəm ki, səmimi çalışırlar. Bəlkə də buranı öz ölkələri kimi qəbul edirlər,

səmimi çalışırlar. Mənim də onlarla bilavasitə təmaslarım var. Ona görə də mən bu işləri izləyirəm, bilirəm. Ancaq siz ilk dəfə gəlmisiniz. Sizin təəssüratlarınız, təbiidir ki, mənim üçün çox əhəmiyyətlidir və olan fikirləri daha da çox təsdiq edir.

**Hurşit Tolon:** Hörmətli Cümhur başqanı, sağ olun. Əvvəlcə, türk silahlı qüvvələrinin burada çalışan təmsilçiləri barədə lütf etdiyiniz xoş sözlər üçün onların adından Sizə təşəkkürümü bildirirəm.

Mən bu gözəl, dost və qardaş ölkəyə ilk dəfə gəldim. Əslində, üzgünəm, çünki çox gecikmişəm. Amma proqramlar belə idi. Mən 1990-cı ildən indiyə qədər Türkiyə Silahlı Qüvvələrinin Baş Qərargahında müxtəlif vəzifələrdə çalışaraq Azərbaycan Silahlı Qüvvələrinin modernləşməsi, güclənməsi, yenidən qurulması sahəsində atılan addımları yaxından izləyənlərdənəm. Bir az öncə hüzurunuzda ərz etdiyim kimi, yerində görmədən, yerində tam izləmədən inkişafın dərinliyini və düzgünlüyünü anlamaq asan olmur. Amma hüzurunuzda bir daha ərz edə bilərəm ki, 1996–2001-ci illər arasındakı vaxtda yeni bir sistem əsasında çox işlər görülmüş, çox önəmli bir məsafə qət edilmişdir. Bunu təqdir etmək zati-dövlətinizə aiddir. Bu, sadəcə, bir məktəb qurmaq deyil, bir sistem yaratmaq baxımdan çox önəmlidir. Çünki bu sistem əski sistemi bütünlüklə dəyişir. NATO-ya inteqrasiya olunmaq üçün bu sistem faydalıdır. Bütün bunlar müəyyən zaman içərisində edilmişdir. Mən burada bunu izlədim.

Inşallah, bu ilin avqustunda gənc müdavimlər hər yerdə zati-dövlətinizin sözlərinə hazır olan hərbçilər, zabit olacaq, onlar topçu, tankçı və s. kimi ixtisaslara yiyələnəcəklər və gələcəkdə çox güclü, dinamik ordu formalaşacaqdır. Mən bunu yüksək dəyərləndirirəm. Bunların hamısı zati-dövlətinizin sayəsində olacaqdır.

**Heydər Əliyev:** Sağ olun, təşəkkür edirəm.

## AMERİKA BİRLƏŞMİŞ ŞTATLARINA İŞGÜZAR SƏFƏRƏ YOLA DÜŞMƏZDƏN ƏVVƏL BAKININ BİNƏ BEYNƏLXALQ HAVA LİMANINDA JURNALİSTLƏRİN SUALLARINA CAVAB

*1 aprel 2001-ci il*

**H e y d ə r  Ə l i y e v:** Yəqin sizi maraqlandırır kı, Amerika Birləşmiş Ştatlarına, Floridaya nə üçün gedirəm. Eyni zamanda bilirəm ki, siz bundan xəbərdarsınız. Birincisi, bizim özümüzün məlumat verməyimizdən xeyli öncə bu barədə məlumat bütün dünyada yayılıbdır. Ona görə əlavə məlumat verməyə ehtiyac yoxdur.

Bu görüş, hesab edirəm ki, çox əhəmiyyətli görüşdür. İndiyə qədər keçirilən görüşlərdən fərqi ondan ibarətdir ki, Amerika Birləşmiş Ştatlarının təşəbbüsü ilə orada Minsk qrupu həmsədrlərinin hamısı, yəni həm ABŞ, həm Rusiya, həm də Fransadan olan həmsədrlər iştirak edəcəklər. İki–Ermənistan və Azərbaycan prezidentləri, cəlb edilən bəzi ekspertlər olacaqdır. Orada bu məsələ üçün bir neçə gün ayrılıbdır ki, ətraflı söhbətlər aparılsın, prezidentlər həm Minsk qrupunun həmsədrləri ilə, yaxud da ki, sonra ayrılıqda görüşsünlər. Orada məlum olacaqdır, hər halda, əvvəlcədən bir şey demək olmaz. Proqram təxminən bundan ibarətdir. Buna görə gedirəm, uzaq yoldur. Ancaq mən sizə dəfələrlə demişəm, məsələnin həll edilməsi üçün haraya lazım olsa, əgər desəydilər ki, bu, Antraktidada olacaq, oraya da gedəcəyik.

**S u a l: Cənab Prezident, Siz səfərdən bir az əvvəl Rusiyanın prezidenti Vladimir Putinlə danışmısınız. Bu söhbətdə Qa-**

**rabağ məsələsi, yəqin ki, müzakirə olunubdur. Əvvəlki illərə nisbətən indi Rusiyanın mövqeyində ciddi dəyişikliklər varmı?**

**C a v a b:** Qarabağ məsələsi ki, müzakirə olunub, mən bunu məlumatda vermişəm. Bunu da təsdiq edirəm. Ancaq harada nə dəyişikliklər olacaq, siz bilin ki, mən bu barədə heç bir şey deyə bilmərəm. Hər halda, Dağlıq Qarabağ məsələsinin həll edilməsi barəsində Rusiya ilə Azərbaycan arasında son aylar – həm mənim Moskvada görüşlərim zamanı, həm də prezidentləri Putin Azərbaycanda olarkən çox səmərəli danışıqlar olubdur.

**S u a l: Cənab Prezident, Ki-Uest danışıqlarından sonra Sizin növbəti görüşünüzün Moskvada olacağı bildirilir. Bu, həqiqətə uyğundurmu?**

**C a v a b:** Mənim bu barədə məlumatım yoxdur.

**S u a l**: **Cənab Prezident, Rusiya mətbuatı yazır ki, Floridada «Konç Respublikası» variantı da təklif oluna bilər. Yəqin Ki-Uest sakinləri neçə illərdir özlərini həm «Konç Respublikası»nın, həm də Amerikanın vətəndaşları sayırlar. Bu variant müzakirə olunacaqmı?**

**C a v a b:** Bilirsinizmi, dünyada belə variantlar çoxdur. Yadınızdadır ki, vaxtilə ATƏT-ə İsveç həmsədrlik edəndə bizi Aland adalarına dəvət edirdilər. Hətta bizim nümayəndə heyətini də mən oraya göndərdim, baxdılar. Hər yerin öz xüsusiyyəti var. Hər münaqişənin öz xüsusiyyəti var. Ona görə biz çalışırıq ki, dünyada olan bütün bu təcrübəni bilək, bundan istifadə edək. Amma kim bizə nə təklif edəcəkdir. Ola bilər təklif etsinlər. Əsas o təklif deyil, əsas bizim buna münasibətimizdir.

**S u a l: Cənab Prezident, ümumiyyətlə, üç həmsədrin mövqeləri üst-üstə düşürmü? Onlar eyni mövqedən çıxış edirlər, yoxsa hərəsinin ayrı-ayrı mövqeyi var?**

**C a v a b:** Mənə belə gəlir ki, onların mövqeləri üst-üstə düşür.

**S u a l: Cənab Prezident, Amerika Birləşmiş Ştatlarının Dövlət Departamentinə istinadən belə bir xəbər yayılıb ki, Dağlıq Qarabağın rəhbərliyinin də danışıqlarda iştirakı variantı müzakirə oluna bilər. Biz dünən Respublikaçılar Partiyası ilə əlaqə saxladıq. Onlar deyirlər ki, əgər belə bir məsələ gündəliyə ciddi şəkildə çıxarılarsa, onda Dağlıq Qarabağın azərbaycanlı icması rəhbərliyinin də danışıqlarda iştirakı tələb olunacaqdır. Buna münasibətiniz necədir, bu mümkündürmü?**

**C a v a b:** Birincisi, bu barədə mənim məlumatım yoxdur. Çox danışıqlar gedir. Ona görə şərh vermək istəmirəm. Ancaq keçmiş zamanlarda da danışıqlarda – bizim səviyyəmizdə, prezidentlər səviyyəsində bu olmayıbdır, amma aşağı ekspertlər səviyyəsində olubdur – təkid edəndə ki, Dağlıq Qarabağın nümayəndəsi iştirak etsin, həmişə Azərbaycan icmasının nümayəndəsi Nizami Bəhmənov da iştirak edibdir. Mən indi Nizami Bəhmənovu oraya aparmıram. Çünki mən istəmirəm ki, əvvəlcədən şərait yaradam ki, bəli, siz də gətirin. Amma orada, mənə belə gəlir ki, onların iştirakı mümkün deyildir.

**S u a l: Cənab Prezident, həmsədrlər bu yaxınlarda bəyan ediblər ki, tərəflər danışıqlar zamanı heç vaxt sülhə indiki qədər yaxın olmayıblar. Sizcə, belə nikbin bəyanatlar üçün əsas varmı?**

**C a v a b:** Var.

**S u a l: Türkiyənin Xarici İşlər naziri İsmayıl Cəm Amerika Birləşmiş Ştatlarında danışıqlar aparıb, danışıqlarda Qarabağ məsələsi də müzakirə olunubdur. İsmayıl Cəmin ABŞ-a səfəri Sizin Türkiyəyə səfərinizlə bağlıdırmı? Onun ABŞ-da apardığı müzakirələrin bu məsələyə ciddi təsiri ola bilərmi?**

**C a v a b:** Bilirsinizmi, bu, tamamilə təbiidir. Çünki birincisi, Türkiyə Dağlıq Qarabağ problemində həmişə bizim mövqeyimizdə olubdur. Nəinki bizim mövqeyimizdə olub, Minsk qrupunun üzvü kimi, öz səylərini göstəribdir. Bilirsiniz ki, bir

çox il bundan öncə Türkiyə şərt qoyubdur ki, əgər Ermənistan silahlı qüvvələri Azərbaycanın işğal olunmuş torpaqlarından çıxmasalar, Türkiyə ilə Ermənistan arasında heç bir əlaqə qurula bilməz. Bu onların daimi mövqeyidir. Mən Türkiyədə səfərdə olanda, siz yəqin eşitdiniz, gördünüz, görüşlərim zamanı, xüsusilə Böyük Millət Məclisində bu məsələni kəskin qoydum. Çünki son zamanlar Türkiyənin «soyqırımı» etməsi haqqında bəzi ölkələrin, xüsusən Fransanın qərarından sonra, mən gördüm ki, bəli, Türkiyədə bəzi dairələrdə müxalif fikirlər əmələ gəlir ki, bəlkə münasibəti yumşaltmaq lazımdır. Ona görə Türkiyənin dövlət, hökumət rəhbərləri ilə görüşlərdə, həm də ki, Böyük Millət Məclisində bizim mövqeyimizi bildirdik.

Yəni bunların hamısı, təbii olaraq, Türkiyənin Xarici İşlər naziri İsmayıl Cəmin Vaşinqtonda görüşlərində də öz əksini tapıbdır. Bu həmişə belə olur. Yəni onlar indiyə qədər olan başqa görüşlərdə də həmişə Ermənistan–Azərbaycan münaqişəsinin həll olunmasını əsas məsələ kimi qoyurlar. Mən orada, Türkiyədə olanda bilirdim ki, İsmayıl Cəm Amerika Birləşmiş Ştatlarına gedəcəkdir. Mən onunla ayrıca görüşdüm, danışdıq. Bu təkcə onun mövqeyi deyil, dövlətin, hökumətin mövqeyidir.

**S u a l: Cənab Prezident, Türkmənistan «Kəpəz» yatağının işlənilməsinə dair xarici şirkətlərlə müqavilə imzalamaq niyyətindədir və bu barədə artıq müraciət edibdir. Siz buna necə münasibət bəsləyirsiniz?**

**C a v a b:** Belə şeylər çox olar. Bu neçə ildir ki, davam edir.

**S u a l: Cənab Prezident, Gürcüstan Marneuli hava limanını, belə deyək ki, türklərin hərbi təyyarələri üçün açıq elan etdi. Orada Türkiyənin hərbi təyyarələri də enə biləcəklər, orada ciddi işlər aparacaqlar.**

**C a v a b:** Aparsınlar. Siz çalışırsınız ki, çox şey biləsiniz. Amma siz də bilin ki, dövlətin siyasətini hər gün sizin qarşınızda açmaq olmaz. Onu da nəzərə alsaq ki, bəziləriniz bir xırda şeyi eşidib onun üzərində on beş versiya yaradırsınız. Hər bir versiyanı da camaata sırımaq istəyirsiniz. Siz məni tanıyırsınız, məndən belə suallara cavab almaq olmaz. Gedib bizim bəzi adamları tutursunuz, onlar təcrübəsizlikdən bilmədiklərini danışırlar. Amma mənimlə siz bu barədə bir az ehtiyatlı olun.

**S u a l**: **İndi NATO-ya münasibətdə Azərbaycan dövlətinin mövqeyi necədir?**

**C a v a b:** Əvvəlki kimi. Bilirsinizmi, bu da bir az, belə, boş söhbətdir. NATO-ya daxil olmaq asan məsələ deyil ki. Mən, məsələn, Robertson burada olanda onunla söhbət edirdik, xəbər yayılmışdı ki, Gürcüstan 2005-ci ildə NATO-ya üzv olacaqdır. Onunla söhbət etdikdə dedi ki, yəqin prezident Şevardnadze bunu nəzərdə tutur ki, 2005-ci ildə NATO-nun qapısını döyəcəkdir.

**S u a l: Cənab Prezident, İranın Energetika naziri Həbibullah Bitərəf gəlmişdi, Siz onunla görüşdə Xudafərində su bəndinin tikilməsi ilə bağlı çox sərt cavab verdiniz. Bundan sonra İranla Azərbaycan arasında su bəndlərinin tikilməsi sahəsində əməkdaşlıq olacaqmı?**

**C a v a b:** Mən nə cür cavab verməli idim? Xudafərin məsələsi köhnə məsələdir. Bilirsiniz ki, torpaqlarımız hələ işğal olunmamışdan əvvəl danışıqlar gedirdi. Mən 1994-cü ildə Tehranda rəsmi səfərdə olarkən bu barədə biz geniş danışıqlar apardıq. Bəyan etdik ki, o torpaqlarımız işğaldan azad olunmayana qədər orada heç bir tikinti aparıla bilməz. Ona görə mən bu fikrimi bir daha təsdiq etdim. Güman edirəm ki, onlar etməzlər.

**S u a l: Cənab Prezident, Ermənistan prezidentinin bildirdiyinə görə, onlar partiyaların, ictimaiyyətin təkliflərinə baxacaqlar ki,**

**Ermənistan hansı güzəştlərlə razılaşa bilməz. Siz neçə, yəni Azərbaycan ictimaiyyətinin təkliflərini özünüzlə aparırsınızmı?**

**C a v a b:** Bilirsinizmi, Azərbaycan ictimaiyyətinin təkliflərini yox, bunlarda mənim üçün naməlum olan elə bir təklif yoxdur. Bunların hamısı mənə məlumdur. Bəzi adamlar bunu indiyə qədər bilmirlər. İndi nəsə beyinlərinə gəlir, elə bilirlər ki, onlar Amerika kəşf ediblər. Bunların hamısı məlumdur. Amma Azərbaycan Respublikası xalqının, vətəndaşlarının bu barədə əhval-ruhiyyəsi mənə məlumdur. Bunları da mən nəzərə alacağam.

**S u a l: Orada keyfiyyətli dönüş yarana bilərmi?**

**C a v a b:** Bilirsinizmi, neçə belə görüş keçirmişik. Bir ümidlə gedirik, başqa vəziyyətdə qayıdırıq. İndi nə olacaq, mən bunu bilmirəm. Hər halda, mən oraya ümidlə gedirəm.

**S u a l: Cənab Prezident, Siz dediniz ki, Azərbaycan ictimaiyyətinin əhval-ruhiyyəsini bilirsiniz. Əbdülxalıq Çay ilə görüşünüzdə Siz bildirdiniz ki, mən sülh danışıqlarının hələ tükənmədiyinə əminəm. Amma xalqın əhval-ruhiyyəsi belədir ki, əgər bu yol uğursuz olarsa, çoxluq hərbi yolla torpaqları azad etməyin tərəfdarıdır. Siz bu fikri orada konkret olaraq çatdıracaqsınızmı?**

**C a v a b:** Bəli, burada demişəm, yəqin ki, orada da deyəcəyəm.

**S u a l: Cənab Prezident, Ermənistan ilə Rusiya arasında bağlanmış hərbi sazişdə belə bir bənd var ki, əgər tərəflərdən biri hərbi münaqişəyə cəlb olunarsa, o biri tərəf ona kömək edəcəkdir. Bu nə deməkdir? Bizim Xarici İşlər Nazirliyi də bununla əlaqədar sərt bəyanat vermişdi. Əgər Ermənistanla Azərbaycan arasında hərbi əməliyyatlar başlayarsa, Rusiya buna qoşulacaqmı?**

**C a v a b:** Onun nə demək olduğunu siz bilirsiniz. Buna izah verməyə ehtiyac yoxdur. Amma konkret nə ola bilər, bunu indidən demək olmaz.

**S u a l: Cənab Prezident, məlumat yayılıb ki, səhhətinizlə bağlı Siz orada müayinədən keçəcəksiniz. Bununla bağlı nə deyə bilərdiniz?**

**C a v a b:** Mənim səhhətimlə niyə belə çox maraqlanırsan?

**J u r n a l i s t: Ötən dəfə Siz dediniz ki, səhhətimlə maraqlanmırsınız.**

**H e y d ə r Ə l i y e v:** Birincisi, mənim səhhətim yaxşıdır, narahat olmayın. Mənim səhhətimin yaxşı olmaması barədə düşünənlərin hamısı qoy bilsin ki, Allah məni saxlayıbdır, indiyə qədər bu sağlamlığı veribdir, bundan sonra da verəcəkdir.

Mənim xatirimdədir, 1990-cı ildə Moskvadan Naxçıvana gələndə, özümü, demək olar ki, okeana atdım – həkimsiz, filansız… vaxtilə infarkt keçirmiş adam, həkim nəzarəti altında olan adam idim. Atdım və dedim ki, nə olar – çıxaram, çıxa bilmərəm, bataram. Mən belə adamam. Naxçıvanda mən iki il ağır vəziyyətdə yaşadığım dövrdə səhhətim çox yaxşı idi. Ancaq mən ötən dəfə, deyəsən bunu sizə dedim, sizin özünüzə də məsləhət görürəm ki, 6 aydan bir müayinədən keçin. Xüsusən qadınlar. Ancaq, vaxtım olsa, əlbəttə ki, istərdim cərrahiyyə əməliyyatı aparan adamlar iki-üç saatlıq mənə baxsınlar. Bu, təbii bir şeydir. Bunu bir problemə çevirmək və bu barədə versiyalar söyləmək lazım deyildir.

Yaxşı, siz bilin və bütün Azərbaycan cəmiyyəti də bilsin, xalq da bilsin. Mən bütün danışıqları aparıram, bütün bu zəhməti, əziyyəti öz üzərimə götürmüşəm və bütün səyləri göstərirəm ki, Azərbaycanı Ermənistanın işğalından xilas edək, ölkəmizin torpaqlarını təmizləyək. Buna görə müxtəlif vaxtlarda müxtəlif variantlar ola bilər. O variantı da istifadə etmək olar, bu variantı da. Bu, ümumiyyətlə, tarixən diplomatiyanın xüsusiyyətləridir. Əgər insanın beynində bir şey varsa və ona gedirsə, o gedib dəyəcək divara, kəlləsi də partlayacaq, heç bir nəticə də olmayacaqdır.

Mənim təcrübəm nə qədərdir, mən bilmirəm siz nə dərəcədə bilirsiniz, özünüz bilərsiniz. Amma bəziləri, küçədə gəzənlər hesab edirlər ki, onların təcrübəsi mənimkindən çoxdur. Mənim həm təcrübəm var, həm də dünya görmüşəm. Ola bilər, dünyanın elə bir dövləti tapılmaz ki, onun rəhbəri ilə görüşüb – sadəcə, salaməleyküm, görüşüb çay içmək məsələsi deyil – ciddi söhbətlər aparmayım. Mən bütün bu imkanlardan istifadə edirəm, bütün bu görüşləri keçirirəm. Haraya lazım olsa, gedirəm və gedəcəyəm.

Amma bilin – bunu Milli Məclisin iclasında da dedim – mən Azərbaycanın mənafeyinə zərər verən heç nəyə razı ola bilmərəm. Bu, birincisi. İkincisi, ötən dəfə mən Parisə gedəndə siz hay-küy saldınız – ANS əsasən, müxalifətin televiziyasıdır, gündə bir adamı «Nəzər nöqtəsi»nə çıxardırsınız, hansı ki, heç bilmir «nəzər nöqtə»si nədir – nə bilim şərəfsiz sülh, filan, peşməkan... onlar bilmirlər axı, ona görə də gəlirlər, sizi aldadırlar. Siz də başlayırsınız bu barədə suallar verirsiniz, öz fikirlərinizi izah edirsiniz, genişləndirirsiniz.

Danışıqlarda hansısa bir razılığa gəlmək, bu, birinci mərhələdir. Ondan sonra sülh məsələlərini həll etmək, o, böyük bir kompleksdir. O kompleksi həyata keçirəndən sonra, ancaq biz sülhə nail ola bilsək, o saziş imzalana bilər. Amma indi burada bu ağılsız adamlar camaatda çaşqınlıq yaratmaq üçün mən təyyarəyə minən kimi deyirlər ki, Heydər Əliyev gedib orada şərəfsiz sülh imzalamağa. Mən sülh sazişi imzalamaq istəsəm də, bu, mümkün deyildir. Sülh elə bir şey deyil ki, gedib mağazadan alasan, cibinə qoyasan. Bu, böyük bir prosesdir. 12 il davam edən və bu qədər gərgin vəziyyətdə olan bir münaqişəni həll etmək üçün bir neçə mərhələdən keçmək lazımdır. Birinci mərhələ hansısa razılığa gəlməkdir. Əgər bu mümkün olarsa, ondan sonra bir neçə mərhələ olacaqdır, ekspertlər işləyəcəkdir və sair. Ondan sonra saziş ola bilər. Bir də, sazişə təkcə Heydər Əliyev imza atmayacaqdır.

Əgər biz buna nail olsaq, ona bütün böyük dövlətlər, Minsk qrupunun həmsədrləri, Birləşmiş Millətlər Təşkilatı imza atmalıdır. Bu belə deyil ki, mən getdim, Parisin küçəsində imzamı atdım, gəldim. Siz də burada yazdınız ki, Heydər Əliyev şərəfsiz sülh imzaladı. Bundan narahat olmayın.

**S u a l: Cənab Prezident, 907-ci düzəlişlə bağlı bildirirlər ki, onun ləğv edilməsi ilə Ermənistana təzyiq ola bilər. Siz danışıqlarınızda bu məsələni ciddi qaldıracaqsınızmı?**

**C a v a b:** Mütləq, mütləq. Sağ olun.

* * *

*Amerika Birləşmiş Ştatlarına işgüzar səfərə gedən Azərbaycan Respublikasının prezidenti Heydər Əliyev aprelin 1-də yolüstü İslandiyanın Keflavik şəhərinə gəldi.*

*Hərbi təyyarə meydanında – buradakı fəxri qonaqlar salonunda Azərbaycan prezidenti Heydər Əliyevin Keflavikdəki hərbi qüvvələrin rəhbəri admiral Deyvid Arçison, onun müavini Duqlas Qobl, hərbi təyyarə meydanının rəisi Mark Antoni ilə görüşü oldu. Onlar respublikamızın rəhbərini səmimiyyətlə salamladılar, dünyada görkəmli dövlət xadimi kimi tanınan prezident Heydər Əliyev ilə görüşmək fürsətindən çox məmnun qaldıqlarını bildirdilər.*

*Dövlətimizin başçısının təyyarəsi Floridaya istiqamət götürdü. Azərbaycan prezidenti Heydər Əliyev həmin gün axşam ABŞ-ın Florida ştatının Ki-Uest şəhərinə gəldi.*

*Azərbaycan prezidenti Heydər Əliyev hərbi dəniz bazasından Ki-Uestdə onun üçün ayrılmış iqamətgaha yola düşdü.*

# HARRİ TRUMEN ADINA KİÇİK AĞ EVDƏ AMERİKA BİRLƏŞMİŞ ŞTATLARININ DÖVLƏT KATİBİ KOLİN PAUELL İLƏ GÖRÜŞ

*Ki-Uest*

*3 aprel 2001-ci il*

*Azərbaycan prezidentini kiçik Ağ evin qarşısında səmimiyyətlə və mehribanlıqla qarşılayan cənab Kolin Pauell onun dəvətini qəbul edib Amerika Birləşmiş Ştatlarına işgüzar səfərə gəlməyinə görə dövlətimizin başçısına təşəkkürünü bildirdi.*

*Dünyada tanınmış görkəmli siyasi xadim Heydər Əliyev ilə yenidən görüşmək imkanını yüksək qiymətləndirən cənab Pauell 1997-ci ilin iyulunda Vaşinqton şəhərində dövlətimizin başçısı ilə keçirdiyi görüşü və apardığı söhbətləri böyük məmnunluqla xatırladı.*

*Prezident Corc Buşun səmimi salamlarını və xoş arzularını prezident Heydər Əliyevə çatdıran Kolin Pauell qeyd etdi ki, Amerika Birləşmiş Ştatlarının prezidenti Ki-Uest şəhərində aparılan danışıqları çox diqqətlə izləyir və Ermənistan–Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin sühl yolu ilə həlli prosesinə böyük əhəmiyyət verir. Dövlət katibi dedi ki, bu münaqişənin həll olunmasının bütün Qafqaz regionunda təhlükəsizlik və sabitliyin bərqərar edilməsi üçün böyük əhəmiyyəti var. Minsk qrupunun həmsədri olan Amerika Birləşmiş Ştatları həmişə münaqişənin sülh yolu ilə tənzimlənməsinə çalışır və bu yolda öz səylərini artırmağa hazırdır.*

*Azərbaycan prezidenti Heydər Əliyev işgüzar səfərə dəvətə və səmimi sözlərə görə təşəkkürünü bildirdi, ABŞ prezidenti Corc Buşu və Dövlət katibi Kolin Pauelli seçkilərdə qazandıqları qələbə münasibətilə bir daha təbrik etdi.*

*Ölkələrimizin əlaqələrindən danışan dövlətimizin başçısı dedi ki, Azərbaycan ABŞ ilə strateji tərəfdaşlıq münasibətlərinə böyük əhəmiyyət verir və ikitərəfli əməkdaşlığın daha da inkişaf etdirilməsinə, genişləndirilməsinə həmişə hazırdır.*

*Azərbaycan prezidenti Heydər Əliyev Amerika Birləşmiş Ştatlarının iri şirkətlərinin Xəzərin karbohidrogen ehtiyatlarının işlənilməsi və dünya bazarına nəqli sahəsində fəal iştirakından böyük məmnunluqla söhbət açdı.*

*Respublikamızın rəhbəri xalqımız üçün ən ağrılı problem olan Ermənistan–Azərbaycan, Dağlıq Qarabağ münaqişəsindən ətraflı bəhs edərək bildirdi ki, Ermənistan silahlı qüvvələrinin təcavüzü nəticəsində Azərbaycan torpaqlarının 20 faizi işğal olunmuş, həmin ərazidə hər şey, o cümlədən maddi-mədəniyyət abidələri tamamilə məhv edilmiş, bir milyondan artıq soydaşımız doğma yurd-yuvalarından zorla qovulmuşdur. Onlar 8 ildir ki, çadırlarda ağır şəraitdə yaşayırlar.*

*Bu münaqişənin aradan qaldırılması üçün 1992-ci ildən Minsk qrupunun fəaliyyətə başladığını, 1994-cü ildə müharibədə atəşkəs əldə olunduğunu, ATƏT-in Lissabon sammitindən sonra Minsk qrupuna Rusiyanın, ABŞ-ın, Fransanın həmsədrlik etdiyini bildirən dövlətimizin başçısı Ermənistan və Azərbaycan prezidentləri arasında 1999-cu ildən bəri ardıcıl olaraq aparılan birbaşa danışıqlardan ətraflı söhbət açdı.*

*Minsk qrupu həmsədrlərinin vasitəçiliyi və Dövlət katibi Kolin Pauellin iştirakı ilə Ki-Uest şəhərində keçirilən görüşləri yüksək qiymətləndirən prezident Heydər Əliyev əmin olduğunu bildirdi ki, yeni formatda təşkil edilmiş bu danışıqlar həmsədrlərin fəallığını artıracaqdır.*

*Dövlət katibi Kolin Pauell ətraflı məlumata görə prezident Heydər Əliyevə minnətdarlıq etdi və respublikamızın rəhbərinin sülh təşəbbüslərini, münaqişənin dincliklə həlli sahəsindəki səylərini yüksək qiymətləndirdi. Tərəflər onları maraqlandıran bir sıra digər məsələlər barədə də geniş fikir mübadiləsi apardılar.*

*Görüş səmimilik və qarşılıqlı anlaşma şəraitində keçdi.*

## AMERİKA BİRLƏŞMİŞ ŞTATLARININ DÖVLƏT KATİBİ KOLİN PAUELLİN AZƏRBAYCAN VƏ ERMƏNİSTAN RESPUBLİKALARININ PREZİDENTLƏRİ, ATƏT-in MİNSK QRUPUNUN HƏMSƏDRLƏRİ İLƏ GÖRÜŞDƏ AZƏRBAYCAN RESPUBLİKASININ PREZİDENTİ HEYDƏR ƏLİYEVİN BƏYANATI

*Ki-Uest şəhəri*

*3 aprel 2001-ci il*

Amerika Birləşmiş Ştatlarının Dövlət katibi hörmətli cənab Pauell!

Hörmətli Minsk konfransının həmsədrləri!

Hörmətli görüş iştirakçıları!

Hörmətli kütləvi informasiya vasitələrinin nümayəndələri!

Xanımlar və cənablar!

Hər şeydən əvvəl, məni Amerika Birləşmiş Ştatlarına səfərə dəvət etdiyiniz üçün, cənab Dövlət katibi, sizə minnətdarlığımı bildirmək istəyirəm. Qonaqpərvərliyə və işimiz üçün çox gözəl şərait yaradıldığına görə Amerika Birləşmiş Ştatlarının hökumətinə, Ki-Uest şəhərinin hakimiyyət orqanlarına və bu görüşün bütün təşkilatçılarına təşəkkür edirəm.

Bu görüşün xüsusi xarakteri ondan ibarətdir ki, ilk dəfə olaraq ATƏT-in Minsk qrupu elə bir formatda toplaşmışdır ki, ATƏT-in Minsk konfransının həmsədrləri Ermənistan və Azərbaycan prezidentləri, digər görüş iştirakçıları ilə birlikdə

Ermənistan–Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin sülh yolu ilə nizamlanması məsələsini bu formatda müzakirə edirlər.

Təəssüf ki, əvvəllər belə formatda görüşlər keçirilməmişdir. İndiyədək uğur qazana bilməməyimizin səbəblərindən biri də bəlkə elə budur. Ümidvaram ki, bu görüş 12 ildən artıq davam edən münaqişənin həllində müsbət rol oynayacaqdır.

Ermənistan – Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin tarixi Dünya Birliyinə kifayət qədər yaxşı məlumdur. Mübaliğəsiz deyərdim ki, bu münaqişə dünyada uzun müddət öz həllini tapmayan münaqişələrdən biridir.

Buna görə də fürsətdən istifadə edərək, münaqişənin tənzimlənməsinə mane olan əsas səbəblər barəsində qısaca danışmaq və bəzi mülahizələrimi bildirmək istəyirəm.

Məlumdur ki, bu münaqişə əzəli Azərbaycan torpağı olan Dağlıq Qarabağı qoparıb özünə birləşdirməyə çalışan Ermənistanın Azərbaycana ərazi iddiaları ilə əlaqədar yaranmışdır. 1988-ci ildə bu münaqişə başlananda Ermənistan və Azərbaycan müttəfiq respublikalar kimi, Sovet İttifaqının tərkibinə daxil idilər. Lakin Sovet İttifaqı rəhbərliyinin Azərbaycana qarşı ədalətsiz mövqeyi, bəlkə də münaqişənin qarşısını almaq istəməməsi nəticəsində münaqişə inkişaf edərək müharibəyə çevrildi.

Qeyd etmək istəyirəm ki, Azərbaycanın Dağlıq Qarabağ regionuna 1923-cü ildə Azərbaycan hökuməti tərəfindən muxtar vilayət statusu verilmişdi və vilayət özünün muxtariyyət hüquqlarından bütünlüklə istifadə edirdi. Buna görə də münaqişənin yaranması üçün heç bir obyektiv səbəb yox idi. Münaqişə başlananda Dağlıq Qarabağda 185 min əhali yaşayırdı. Onların 74 faizini ermənilər, 25,5 faizini isə azərbaycanlılar təşkil edirdi.

Ermənistan qonşu ölkəyə qarşı ərazi iddialarını həyata keçirməyə cəhd göstərərək, əvvəlcə Dağlıq Qarabağdakı separatçı, terrorçu qüvvələri silahlı qarşıdurmaya təhrik etdi, sonra isə özü Azərbaycana qarşı hərbi təcavüzə başladı.

Dağlıq Qarabağ separatçıların və Ermənistan silahlı qüvvələrinin tam hərbi nəzarəti altına düşdü. Onlar burdan bütün azərbaycanlıları – təxminən 50 min adamı qovaraq, etnik təmizləmə həyata keçirdilər. Bütün bunlar qətllər və zorakılıq ilə müşayiət olunurdu. Xocalı şəhərinin sakinləri – azərbaycanlılar isə soyqırıma məruz qaldılar.

Ermənistan silahlı qüvvələri Dağlıq Qarabağı işğal edərək, Dağlıq Qarabağ vilayətinin hüdudlarından kənarda hərbi əməliyyatlar apardılar və Azərbaycanın daha yeddi iri inzibati rayonunu da ələ keçirdilər.

Beləliklə, 1993-cü ilədək Azərbaycan ərazisinin 20 faizi zəbt olundu və həmin ərazilər indiyədək Ermənistan silahlı qüvvələrinin işğalı altındadır. Bu ərazidə hər şey dağıdılıb, talan edilib, yerlə-yeksan olubdur. 900-dən çox irili-xırdalı yaşayış məntəqəsi, 600-dək məktəb, 250 tibb müəssisəsi, bütün muzeylər, tarix və mədəniyyət abidələri məhv edilibdir.

Münaqişənin gedişində 30 min Azərbaycan vətəndaşı həlak olubdur, 200 mindən çox adam yaralanıb və əlil olub, minlərlə adam əsir düşüb, girov götürülüb, itkin düşübdür. Bir milyona yaxın azərbaycanlı, yəni ölkənin hər səkkiz vətəndaşından biri öz torpağından məhrum olubdur və artıq doqquzuncu ildir ki, çadırlarda dözülməz dərəcədə ağır şəraitdə yaşayır. Bu çadırlarda tam bir yeni nəsil doğulub boya-başa çatmışdır.

Bu gün dünyada bir dövlətin başqa bir dövlətin ərazisini işğal etməsi, orada etnik təmizləmə aparması kimi ikinci bir hala rast gəlmək mümkün deyildir. Təəssüf ki, Dünya Birliyi bu faciəni sükutla seyr edir, Azərbaycanın təcavüzkarı cilovlamaq barədə qanuni tələbləri isə dəstəklənmir.

Doqquz il bundan əvvəl, 1992-ci il martın 24-də ATƏM-in Nazirlər Şurası özünün Helsinkidə çağırılmış fövqəladə iclasında Ermənistan–Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin hərtərəfli tənzimlənməsinə nail olmaq üçün Minsk

konfransının keçirilməsi barədə qərar qəbul etmişdir. Bununla da münaqişənin tənzimlənməsinə dair beynəlxalq təsisat yaradılmışdır. Konfransın mandatını və danışıqlar prosesinin strukturunu müəyyənləşdirən bu qərar çox böyük əhəmiyyət daşıyır.

1993-cü ildə BMT-nin Təhlükəsizlik Şurası Ermənistan silahlı qüvvələri tərəfindən Azərbaycan ərazilərinin işğalı məsələsini bir neçə dəfə müzakirə etmişdir. Dörd qətnamə – 30 aprel tarixli 822 nömrəli, 29 iyul tarixli 853 nömrəli, 14 oktyabr tarixli 874 nömrəli və 11 noyabr tarixli 884 nömrəli qətnamələr qəbul edilmişdir.

Bu qətnamələrdə BMT-nin Təhlükəsizlik Şurası Azərbaycanın işğal olunmuş ərazilərindən Ermənistan silahlı qüvvələrinin dərhal və qeyd-şərtsiz çıxmasını, habelə qaçqınların və məcburi köçkünlərin daimi yaşayış yerlərinə, öz doğma torpaqlarına qayıtması üçün şərait yaradılmasını qətiyyətlə tələb etmişdir. BMT Azərbaycan Respublikasının suverenliyini və ərazi bütövlüyünü birmənalı şəkildə dəstəkləmiş, Dağlıq Qarabağ regionunun Azərbaycana mənsubiyyətini təsdiq etmişdir. Təhlükəsizlik Şurası həmçinin ATƏM-in Minsk qrupunun vasitəçilik fəaliyyətini də dəstəkləmişdir.

Lakin bütün bu qətnamələr yerinə yetirilməmişdir və BMT-nin Təhlükəsizlik Şurası indiyədək öz qərarlarının yerinə yetirilməsinin qayğısına qalmamışdır.

1994-cü ilin dekabrında ATƏM-in Budapeştdə keçirilən zirvə görüşündə Ermənistan–Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi ilə əlaqədar ATƏM-in fəaliyyətinin intensivləşdirilməsi barədə qərar qəbul olunmuşdur. ATƏM-in üzvü olan dövlətlərin başçıları imzalanmanın mərhələli xarakterini müəyyən etmiş və ATƏM-in Minsk konfransının həmsədrlərinə silahlı münaqişənin dayandırılması barədə saziş hazırlamağı tapşırmışdılar. Saziş bütün tərəflər üçün münaqişənin əsas nəticələrinin aradan qaldırılmasını özündə əks etdirməli

və Minsk konfransının çağırılması üçün əsas olması idi. Münaqişə zonasında sülhün təmin edilməsi üçün ATƏM-in çoxmillətli qüvvələrinin yerləşdirilməsi barəsində də qərar qəbul olunmuşdu.

1996-cı ilin dekabrında ATƏT-in Lissabon zirvə görüşündə münaqişənin nizama salınmasının baza formulu müəyyən edilmişdi. ATƏT-in üzvü olan bütün ölkələr, Ermənistan Respublikasından başqa, nizamlanmanın üç əsas prinsipini dəstəkləmişdir. Bu prinsiplər Azərbaycan Respublikasının ərazi bütövlüyünün təmin edilməsini, Dağlıq Qarabağın bütün əhalisinin təhlükəsizliyinə təminat verməklə Azərbaycanın tərkibində Dağlıq Qarabağa ən yüksək dərəcəli özünüidarə statusu verilməsini nəzərdə tuturdu.

Beləliklə, beynəlxalq birlik nizamlanmanın hüquqi bazasını müəyyən etmiş, danışıqlar təsisatını yaratmış vasitəçilərin vəzifələrini müəyyən etmişdir.

ATƏT-in Lissabon zirvə görüşündən sonra Minsk qrupunun həmsədrləri dünyanın üç ən böyük dövləti – Rusiya, ABŞ, Fransadır. Biz bu ölkələrə böyük ümidlər bəsləyirik və güman edirik ki, onların səyləri ilə münaqişə tənzimlənəcək, Azərbaycanın ərazi bütövlüyü bərpa olunacaq və qaçqınlar özlərinin daimi yaşayış yerlərinə qayıdacaqlar. Lakin, təəssüf ki, hələlik bu tam həyata keçməmişdir. BMT-nin və ATƏT-in qəbul etdikləri qərarların heç birini Ermənistan yerinə yetirmir.

Minsk qrupunun həmsədrləri Ermənistan – Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin tənzimlənməsinə dair üç təklif vermişlər. Onların 1997-ci ilin iyununda təqdim etdikləri ilk təklif münaqişənin paket həllini, 1997-ci ilin oktyabrında verdikləri ikinci təklif isə münaqişənin mərhələli həllini nəzərdə tuturdu. 1998-ci ilin noyabrında həmsədrlər yeni, üçüncü təklif – «ümumi dövlət» təklifini vermişlər.

Azərbaycan həmsədrlərin birinci və ikinci təkliflərini danışıqlar prosesinin aparılması üçün əsas kimi qəbul etmişdir,

baxmayaraq ki, bu təkliflərin bəzi müddəaları beynəlxalq hüququn norma və prinsiplərinə zidd idi, Azərbaycan ərazi bütövlüyü prinsipini tam təmin etmirdi. Hətta belə bir vəziyyətdə də Ermənistan bu təklifləri qəbul etməkdən imtina etdi və açıq-aşkar qeyri-konstruktiv mövqe tutdu.

Həmsədrlərin «ümumi dövlət» təklifini biz qəbul etmədik. Heç bir beynəlxalq-hüquqi bazası olmayan «ümumi dövlət» məfhumu Dağlıq Qarabağı müstəqil dövlət və ərazi qurumu kimi nəzərdə tutur, ona Azərbaycan ilə bərabərhüquqlu «ümumi dövlət» subyekti statusu verir. Bu təklif beynəlxalq hüququn prinsip və normalarına tamamilə ziddir, Azərbaycanı öz ərazisinin bir hissəsindən məhrum edir və faktiki olaraq Azərbaycan torpaqlarının Ermənistan tərəfindən işğalını qanuniləşdirir.

Biz hesab edirik ki, ATƏT-in Minsk qrupunun həmsədrləri beynəlxalq hüquq prinsiplərini rəhbər tutaraq, danışıqlar prosesinə daha səmərəli təsir göstərməli, münaqişənin tezliklə tənzimlənməsinə, Azərbaycan ərazi bütövlüyünün bərpa olunmasına, qaçqınların daimi yaşayış yerlərinə qaytarılmasına səy göstərməli idilər. Azərbaycanın ayrılmaz tərkib hissəsi olan Dağlıq Qarabağa Azərbaycanın tərkibində ən yüksək dərəcəli özünüidarə statusu verilə bilər.

Təəssüf ki, həmsədrlər əsasən vasitəçilik fəaliyyəti ilə məşğul olaraq, danışıqlar prosesinə beynəlxalq hüquq normalarına müvafiq sürətdə lazımi təsir göstərməmişdir. Rusiyanın, ABŞ-ın, Fransanın simasında ATƏT-in Minsk qrupunun rəhbərlərinə bəslədiyimiz ümidlər hələlik gözlənilən nəticələri vermir.

1999-cu ilin aprelindən Vaşinqtonda ABŞ hökumətinin təşəbbüsü ilə Ermənistan və Azərbaycan prezidentləri arasında birbaşa görüşlər başlanıbdır. Ötən dövr ərzində biz prezident Köçəryan ilə Cenevrədə, Moskvada, İstanbulda, Parisdə, Minskdə, Davosda, Yaltada, habelə respublikalarımızın sərhədində çoxsaylı görüşlər keçirmişik.

Ermənistan prezidenti ilə dialoqumuz zamanı biz əsasən münaqişənin tezliklə sülh yolu ilə tənzimlənməsi və Ermənistan ilə Azərbaycan arasında uzunmüddətli möhkəm sülh yaradılması üçün qarşılıqlı surətdə məqbul kompromislərin axtarışı ilə məşğul olmuşuq. Qeyd etmək istəyirəm ki, 1999-cu ilin axırlarında biz kompromis əldə edilməsinə yaxın idik. Lakin tezliklə Ermənistan əldə olunmuş razılaşmalardan geri çəkildi.

Çətin danışıqlar gedişində Ermənistan tərəfi həmişə sərt qeyri-konstruktiv mövqe tutmuşdur və bu gün də bu mövqedə qalır. Ermənistanın Azərbaycanın ərazisinin 20 faizini işğal etdiyinə və danışıqlarda bu üstünlükdən istifadə etdiyinə görə, biz Ermənistanla razılığa gələ bilmirik. Ermənistan hər vəchlə Azərbaycanın ərazisinin bir hissəsini qoparmağa, özünə birləşdirməyə və ya Dağlıq Qarabağ üçün müstəqillik statusuna nail olmağa çalışır.

Təəssüf ki, bizim görüşlərimizdən arxayınlaşaraq, ATƏT-in Minsk qrupunun həmsədrləri passiv gözləmə mövqeyi tutmuşlar və onlar öz fəaliyyətini «prezidentlər nə barədə razılığa gəlsələr, bu, ATƏT üçün məqbul olacaqdır prinsipi ilə məhdudlaşdırmışlar.

Biz isə hesab edirik ki, prezidentlərin görüşü ATƏT-in Minsk qrupu həmsədrlərinin fəaliyyətini əvəz etmir. Əksinə, bunlar bir-birini qarşılıqlı surətdə tamamlayaraq, münaqişənin qəti həlli üçün danışıqlar prosesinin irəliləyişini təmin etməlidir.

Beynəlxalq hüququn prinsip və normalarına, BMT-nin nizamnaməsinə uyğun olaraq, BMT-yə daxil olan hər bir müstəqil dövlətin ərazi bütövlüyünə, onun sərhədlərinin pozulmazlığına hamı tərəfindən və xüsusən bu münaqişənin həllinə görə məsuliyyəti öz üzərinə götürmüş ATƏT tərəfindən əməl olunmalıdır. ATƏT və onun Minsk qrupu bu prin-

sipə möhkəm əməl etməli, onun ciddi şəkildə yerinə yetirilməsinə hər cür kömək göstərməlidirlər.

Bu gün danışıqlar prosesində yaranmış vəziyyət isə beynəlxalq münasibətlərdə təhlükəli presedent yaradır.

Beynəlxalq birlik beynəlxalq hüququn norma və prinsiplərinə ciddi əməl olunması, bunların möhkəmləndirilməsini təmin etmək əvəzinə, qətiyyətsizlik nümayiş etdirir. Beynəlxalq hüququn ərazi bütövlüyünün toxunulmazlığı, sərhədlərin pozulmazlığı kimi fundamental norma və prinsipləri şübhə altına alınır və bununla da Azərbaycan Respublikasının Dağlıq Qarabağ regionunda yaşayan 100 min erməniyə görə beynəlxalq praktikanın, beynəlxalq hüququn on illər boyu formalaşmış dayaqları sarsıdılır. Hərbi təcavüzün tanınması nəticəsində əldə edilmiş sülh, sabitlik və təhlükəsizlik isə möhkəm və əbədi ola bilməz.

Mən Ermənistan – Azərbaycan, Dağlıq Qarabağ münaqişəsində yaranmış vəziyyətin tarixini şərh edərək bəyan edirəm ki, Azərbaycan sülhə, 1994-cü ilin mayında əldə olunmuş atəşkəs rejiminə əməl edilməsinə sadiqdir. Biz bundan sonra da münaqişənin sülh yolu ilə tam tənzimlənməsinə nail olmaq üçün səylər göstərəcəyik.

Bununla yanaşı, güman edirəm ki, dediklərim bizim nə qədər çətin vəziyyətdə olduğumuzu təsəvvür etməyə sizə imkan verir. Buna görə də mən ATƏT-in Minsk qrupunun həmsədrlərinə – Rusiyaya, ABŞ-a, Fransaya müraciət edərək, onları silahlı münaqişənin aradan qaldırılması, möhkəm sülh yaradılması üçün öz səylərini fəallaşdırmağa çağırıram.

Sübut etməyə ehtiyac yoxdur ki, ərazisinin 20 faizinin işğal altında olduğu, yüz minlərlə vətəndaşının çadırlarda yaşadığı Azərbaycan münaqişənin aradan qaldırılmasında, sülh əldə edilməsində hamıdan çox maraqlıdır. Aydındır ki, Ermənistan ilə Azərbaycan arasında sülh yaradılması bütün Cənubi

Qafqazda həm sabitlik üçün, həm də təhlükəsizlik üçün müstəsna əhəmiyyət daşıyacaqdır.

Biz bu görüşə böyük ümidlərlə gəlmişik və ATƏT-in Minsk qrupu həmsədrlərinin – Rusiyanın, ABŞ-ın, Fransanın fəal səylər göstərəcəyini, habelə Ermənistan Respublikasının konstruktiv mövqe tutacağını gözləyirik.

Diqqətinizə görə təşəkkür edirəm.

* * *

*Azərbaycan Respublikasının prezidenti Heydər Əliyev aprelin 3-də Ki-Uestdə, onun üçün ayrılmış iqamətgahda Rusiya Federasiyası Xarici İşlər nazinin birinci müavini Vyaçeslav Trubnikovu qəbul etmişdir.*

*Səmimilik və mehribanlıq şəraitində keçən söhbət zamanı Ermənistan – Azərbaycan münaqişəsinin sülh yolu ilə nizama salınması barədə Ki-Uestdə başlanmış danışıqların gedişi və hər iki ölkəni maraqlandıran bir sıra digər məsələlər barədə fikir mübadiləsi aparıldı.*

* * *

*Azərbaycan Respublikasının prezidenti Heydər Əliyev aprelin 4-də kiçik Ağ evdə ATƏT-in Minsk qrupunun həmsədrləri, habelə Rusiya Federasiyası Xarici İşlər nazirinin birinci müavini Vyaçeslav Trubnikov ilə daha bir görüş keçirmiş, münaqişənin sülh yolu ilə həlli barədə geniş müzakirələr aparılmışdır.*

*ATƏT-in Minsk qrupunun həmsədrləri Kerri Kavano, Jan Jak Qayyard və Rusiya Federasiyası Xarici İşlər nazirinin birinci müavini Vyaçeslav Trubnikov görüşdən sonra «Pyer hauz» mehmanxanasında birgə mətbuat konfransı keçirdilər.*

*Həmsədrlərin Azərbaycan və Ermənistan prezidentləri ilə ayrı-ayrılıqda apardıqları danışıqlardan söhbət açan Kerri Kavano prezident Heydər Əliyev ilə prezident Robert Köçəryan arasında təkbətək görüş keçiriləcəyini də istisna etmədi. O, Azərbaycan prezidentinin münaqişənin sülh yolu ilə nizam-*

*lanması istiqamətindəki səylərini yüksək dəyərləndirdi və danışıqların ümidverici ruhda davam etdiyini vurğuladı.*

*Danışıqların səmimilik və qarşılıqlı anlaşma şəraitində keçməsindən məmnun qaldıqlarını söyləyən Vyaçeslav Trubnikovun və Jan Jak Qayyardın fikrincə, Ki-Uest görüşü münaqişənin həlli prosesində irəliyə doğru mühüm bir addım olacaqdır.*

* * *

*Azərbaycan Respublikasının prezidenti Heydər Əliyev aprelin 5-də Ki-Uestdə, onun üçün ayrılmış iqamətgahda ATƏT-in Minsk qrupunun ABŞ tərəfindən həmsədri Kerri Kavano ilə görüşdü. Söhbət zamanı Ermənistan – Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin sülh yolu ilə həll edilməsi və danışıqların gedişi barədə geniş müzakirələr aparıldı.*

* * *

*Azərbaycan prezidenti Heydər Əliyev həmin gün ATƏT-in Baş katibi Jan Kubiş ilə görüşdü.*

*Səmimilik və mehribanlıq şəraitində keçən söhbət zamanı Ki-Uestdə aparılan danışıqların gedişi ətraflı müzakirə olundu.*

*Ermənistan – Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin sülh yolu ilə həll olunması üçün ATƏT-in Minsk qrupunun və onun həmsədrlərinin səylərinin artırılmasının vacibliyini təsdiqləyən tərəflərin fikrincə, ATƏT üzv ölkələrin ərazi bütövlüyünün qorunmasına, beynəlxalq hüquq normalarına, Helsinki yekun aktının prinsiplərinə riayət edilməsinə xüsusi diqqət yetirməlidir.*

*Tərəflər əmin olduqlarını bildirirlər ki, ATƏT və onun Minsk qrupu münaqişənin nizama salınması prosesində bundan sonra da fəal iştirak edəcəkdir.*

*Azərbaycan prezidenti Heydər Əliyev və Ermənistan prezidenti Robert Köçəryan aprelin 5-də ATƏT-in vasitəçiliyi ilə «Amerika» gəmisində Meksika körfəzinə gəzintiyə çıxdılar. Gəzintidə ATƏT-in Baş katibi Jan Kubiş, Minsk qrupunun həmsədrləri və digər rəsmi şəxslər iştirak edirdi.*

* * *

*Azərbaycan Respublikasının prezidenti Heydər Əliyev aprelin 6-da ATƏT-in həmsədrləri Kerri Kavano, Jan Jak Qayyard, Nikolay Qribkov və danışıqlarda Rusiya Federasiyası nümayəndə heyətinin rəhbəri, Xarici İşlər nazirinin birinci müavini Vyaçeslav Trubnikov ilə daha bir görüş keçirdi.*

*İki saata qədər davam edən görüşdə münaqişənin sülh yolu ilə həllinin mümkün yolları bir daha geniş müzakirə olundu.*

* * *

*Azərbaycan prezidenti Heydər Əliyev elə həmin gün axşamüstü Ki-Uestdə, onun üçün ayrılmış iqamətgahda Minsk qrupunun ABŞ tərəfindən həmsədri Kerri Kavanonu, Rusiya Federasiyasının nümayəndə heyətinin rəhbəri Vyaçeslav Trubnikovu və Fransa nümayəndə heyətinin üzvü Filip de Suermanı qəbul etdi.*

*Görüşdə Ermənistan – Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin sülh yolu ilə həllinə dair danışıqlar davam etdirildi.*

* * *

*Ermənistan–Azərbaycan münaqişəsinin sülh yolu ilə aradan qaldırılması üçün Ki-Uestdə keçirilən danışıqlar aprelin 6-da başa çatdı. ATƏT-in Minsk qrupunun həmsədrləri həmin gün axşam danışıqların yekunlarına dair brifinq keçirdilər.*

*Həmsədrlər danışıqların nəticəsi barədə qəbul etdikləri rəsmi məlumat haqqında jurnalistlərə ətraflı məlumat verdilər. Bildirildi ki, həmsədrlər yeni təklif üzərində işləyirlər. Onlar iyun*

*ayında Cenevrədə keçiriləcək görüşdə həmin təklifi Azərbaycan və Ermənistan prezidentlərinə təqdim edəcəklər.*

*Həmsədrlərin fikrincə, Ermənistan – Azərbaycan münaqişəsinin sülh yolu ilə aradan qaldırılması üçün Ki-Uestdə aparılan danışıqlarda gözlənildiyindən daha çox irəliləyiş əldə olunubdur.*

* * *

*Azərbaycan prezidenti Heydər Əliyev aprelin 7-də səhər Ki-Uestdən Vaşinqtona yola düşdü. Dövlətimizin başçısını ABŞ Hərbi Dəniz Qüvvələrinin hərbi təyyarə meydanında şəhərin yüksək vəzifəli şəxsləri yola saldılar.*

*Prezident Heydər Əliyev elə həmin gün Vaşinqtona gəldi. Respublikamızın rəhbərini «Endryus» hərbi təyyarə meydanında ABŞ hökumətinin yüksək vəzifəli şəxsləri qarşıladılar.*

## AZƏRBAYCAN DÖVLƏT BƏDƏN TƏRBİYƏSİ VƏ İDMAN AKADEMİYASINA

Hörmətli müəllimlər!

Əziz tələbələr!

Respublikamızın mötəbər ali təhsil ocaqlarından biri olan Azərbaycan Dövlət Bədən Tərbiyəsi və İdman Akademiyasının 70 illiyi münasibətilə sizi, ölkəmizin bədən tərbiyəsi işçilərini, bütün idman ictimaiyyətini səmimi-qəlbdən təbrik edirəm.

Bədən tərbiyəsi və idman kadrlarına olan ehtiyacı ödəmək məqsədi ilə Bakı şəhərində Zaqafqaziya Dövlət Bədən Tərbiyəsi İnstitutunun yaradılması zamanın ehtiyaclarından doğan bir zərurət idi. 1936-cı ildə Azərbaycan Dövlət Bədən Tərbiyəsi İnstitutuna, 1999-cu ildə isə Azərbaycan Dövlət Bədən Tərbiyəsi və İdman Akademiyasına çevrilmiş bu ali təhsil müəssisəsi ölkəmizdə idmanın inkişaf etdirilməsinə böyük xidmətlər göstərmişdir.

Keçən illər ərzində ölkəmizi ixtisaslı kadrlarla təmin edən bu təhsil mərkəzi öz vəzifəsini şərəflə yerinə yetirə bilmiş və gənc nəslin fiziki cəhətdən sağlam böyüməsi üçün peşəkar məşqçi-müəllimlər ordusu hazırlamışdır. Sevindirici haldır ki, ölkəmizin bütün təhsil müəssisələrində, idman məktəbi və təşkilatlarında çalışan yüksək ixtisaslı kadrlar – bədən tərbiyəsi müəllimləri və məşqçi-müəllimlər məhz sizin məzunlarınızdır. Bu təhsil ocağını bitirmiş 15 min nəfərlik mütəxəssislər ordusu ölkəmizdə bədən tərbiyəsinin geniş təbliğ olunmasında, əhalinin kütləvi şəkildə idmana cəlb edilməsində, yüksək səviyyəli idmançıların yetişdirilməsində var qüvvəsini sərf etmiş və bu yolda böyük uğurlar qazanmışdır.

Xalqımız öz dövlət müstəqilliyini bərpa etdikdən sonra Azərbaycan idmanının qarşısında da geniş imkanlar açılmışdır. Görülmüş məqsədyönlü tədbirlər nəticəsində idmançılarımız Avropa, dünya və olimpiya yarışlarında müstəqil Azərbaycanın bayrağını yüksəklərə qaldıraraq, onun beynəlxalq nüfuzunun möhkəmləndirilməsinə layiqli töhfələrini vermiş və öz uğurlarını artırmaqdadır. Bu nailiyyətlərin əldə edilməsində akademiyanın yetirmələrinin xidmətləri danılmazdır.

Yubiley günlərində nüfuzlu təhsil ocağımızın bünövrəsini qoymuş, onun yaradılmasında və inkişaf etməsində xidmətlər göstərmiş professor və müəllim heyətinin əməyini yüksək qiymətləndirirəm. Əmin oluğumu bildirirəm ki, siz akademiyanın 70 illik fəaliyyət dövrü ərzində yaranmış gözəl ənənələrə sadiq qalaraq onun adını həmişə uca tutacaq, müstəqil Azərbaycanın tərəqqisi naminə ölkəmizdə bədən tərbiyəsi və idmanın daha da inkişafı üçün milli peşəkar kadrların yetişdirilməsində əlinizdən gələni bundan sonra da əsirgəməyəcəksiniz.

Sizə – akademiyanın müəllim və tələbələrinə, məzunlarına, respublikamızın bütün bədən tərbiyəsi işçilərinə və idmançılarına böyük uğurlar diləyir, hər birinizə cansağlığı və xoşbəxtlik arzulayıram.

**HEYDƏR ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

*6 aprel 2001-ci il*

**MOLDOVA RESPUBLİKASININ PREZİDENTİ ZATİ-ALİLƏRİ CƏNAB VLADİMİR VORONİNƏ**

Hörmətli cənab Prezident!

Moldova Respublikasının prezidenti vəzifəsinə seçilməyiniz münasibətilə Sizi ürəkdən təbrik edirəm.

Əminəm ki, ölkələrimiz arasındakı ənənəvi dostluq, tərəfdaşlıq münasibətləri xalqımızın mənafeyi, regionda sülh, sabitlik və tərəqqi naminə bundan sonra da inkişaf edəcək və möhkəmlənəcəkdir.

Sizə möhkəm cansağlığı, xoşbəxtlik və dövlət fəaliyyətinizdə uğurlar arzulayıram.

*Hörmətlə,*

**HEYDƏR ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

*8 aprel 2001-ci il*

# AZƏRBAYCAN PREZİDENTİ HEYDƏR ƏLİYEVİN AMERİKA BİRLƏŞMİŞ ŞTATLARININ PREZİDENTİ CORC BUŞ İLƏ GÖRÜŞÜ

*Vaşinqton, Ağ ev*

*9 aprel 2001-ci il*

*Azərbaycan prezidenti Heydər Əliyevi səmimiyyətlə salamlayan ABŞ prezidenti Corc Buş bu görüşdən məmnunluq duyduğunu bildirdi və prezident Heydər Əliyevin dostu, ABŞ-ın 41-ci prezidenti ata Corc Buşun salamlarını və xoş arzularını dövlətimizin başçısına çatdırdı, dünyada tanınmış görkəmli dövlət xadimi Heydər Əliyevin şəksiz liderliyinə, cəsarətinə, geniş dünya görüşünə və nadir natiqlik istedadına valeh olduğunu söylədi.*

*Azərbaycan prezidenti Heydər Əliyev Amerika Birləşmiş Ştatlarına səfərə dəvət olunduğuna və burada ona göstərilən yüksək qonaqpərvərliyə, Ermənistan–Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin həlli üçün Amerika hökumətinin göstərdiyi səylərə, Ki-Uest danışıqlarının yüksək səviyyədə təşkilinə görə cənab Corc Buşa minnətdarlığını bildirdi, prezident seçilməsi münasibətilə onu bir daha təbrik etdi.*

*Ata Corc Buşun səmimi salamlarına görə təşəkkürünü bildirən dövlətimizin başçısı özünün də salamlarını və ən xoş arzularını ABŞ-ın 41-ci prezidentinə yetirməyi xahiş etdi.*

*ABŞ-ın Azərbaycan ilə əməkdaşlığına böyük əhəmiyyət verdiyini vurğulayan prezident Corc Buş ölkəmizlə hərtərəfli əla-*

*qələrin inkişaf etdirilməsini Amerikanın xarici siyasətinin mühüm istiqamətlərindən biri olduğunu nəzərə çatdırdı.*

*Xəzərin karbohidrogen ehtiyatlarının işlənməsi və dünya bazarına nəqlində Amerikanın iri neft şirkətlərinin yaxından iştirakını yüksək qiymətləndirən prezident Corc Buş öz ölkəsini təmsil edən şirkətlərin işi üçün Azərbaycanda yaradılmış əlverişli şəraitə görə prezident Heydər Əliyevə təşəkkürünü bildirdi, başçılıq etdiyi hökumətin ABŞ–Azərbaycan strateji tərəfdaşlıq münasibətlərini bütün istiqamətlərdə genişləndirməyə hazır olduğunu vurğuladı.*

*Azərbaycan prezidenti Heydər Əliyev dünyanın böyük dövlətlərindən biri olan ABŞ-ın ölkəmizlə bütün sahələrdə əməkdaşlığa maraq göstərməsindən məmnunluq duyduğunu söyləyərək, Xəzərin zəngin enerji ehtiyatlarının işlənməsi sahəsində ABŞ şirkətləri ilə əməkdaşlığı yüksək qiymətləndirdiyini nəzərə çatdırdı.*

*Bakı–Tbilisi–Ceyhan əsas ixrac boru kəməri layihəsinin gerçəkləşdirilməsi haqqında danışan prezident Heydər Əliyev bu layihənin xüsusi əhəmiyyətini qeyd etdi.*

*Amerika Konqesinin 1992-ci ildə qəbul etdiyi «Azadlığı dəstəkləmə aktı»na ədalətsiz 907-ci düzəlişin ölkələrimiz arasında münasibətlərin inkişafına mane olduğunu bildirən prezident Heydər Əliyev bu düzəlişin aradan qaldırılmasının zəruriliyini bir daha vurğuladı.*

*Amerika prezidenti Corc Buş başçılıq etdiyi hökumətin 907-ci düzəlişin ləğvi üçün yollar axtarılmasına hazır olduğunu nəzərə çatdırdı.*

*Prezidentlər Azərbaycanın ən ağrılı problemi olan Ermənistan–Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin sülh yolu ilə aradan qaldırılması məsələsi ətrafında geniş fikir mübadiləsi apardılar. Azərbaycanın ayrılmaz tərkib hissəsi olan Dağlıq Qarabağa ərazi iddiaları irəli sürən Ermənistanın 1988-ci ildən başladığı hərbi təcavüz nəticəsində ölkəmizin ərazisinin 20*

*faizinin işğal olunduğu, bir milyondan çox vətəndaşımızın uzun müddət çadırlarda dözülməz şəraitdə yaşadığını xüsusi vurğulayan prezident Heydər Əliyev Ermənistan silahlı qüvvələri tərəfindən zəbt olunmuş torpaqlarda artıq hər şeyin dağıdıldığını, talan edildiyini, yerlə-yeksan olunduğunu söylədi.*

*Münaqişənin sühl yolu ilə aradan qaldırılması üçün 1992-ci ildə ATƏT-in Minsk qrupunun yaradıldığını, 1994-cü ildə atəşkəs rejiminin əldə olunduğunu xatırladan prezident Heydər Əliyev 1996-cı ildə ATƏT-in Lissabon zirvə görüşündə münaqişənin nizama salınmasının baza formulunun müəyyən edilməsini, nizamlanmasının 3 əsas prinsipinin – Azərbaycan Respublikasının ərazi bütövlüyünün təmin olunması, Dağlıq Qarabağın bütün əhalisinin təhlükəsizliyinə təminat, Dağlıq Qarabağa Azərbaycanın tərkibində ən yüksək dərəcəli özünüidarə statusunun verilməsi prinsiplərinin Ermənistan Respublikasından başqa, ATƏT-in üzvü olan bütün ölkələr tərəfindən müdafiə edilməsini, həmin sammitdən sonra dünyanın 3 böyük dövlətinin – Rusiya, ABŞ və Fransanın Minsk qrupunun həmsədrləri olduğunu bildirdi.*

*Prezident Heydər Əliyev həmsədrlərin fəaliyyətindən, son dövrlərdə Ermənistan və Azərbaycan prezidentlərinin birbaşa görüşlərindən söhbət açaraq, Ermənistanın qeyri-konstruktiv mövqe tutduğuna görə münaqişənin sülh yolu ilə həllinin hələlik mümkün olmadığını vurğuladı.*

*Dövlətimizin başçısı Ki-Uest görüşlərinin münaqişənin sülh yolu ilə həllində mühüm addım olduğunu qeyd etdi və bu görüşlərin yeni formatda keçirilməsinin danışıqlara xüsusi xarakter verdiyini nəzərə çatdırdı.*

*Ermənistan–Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin tezliklə sülh ilə aradan qaldırılmasında ABŞ-ın marağı olduğunu vurğulayan prezident Corc Buş başçılıq etdiyi hökumətin bu istiqamətdə səylərini artıracağını bildirdi. Cənab Buş dedi ki, zəngin siyasi həyat yolu keçmiş prezident Heydər Əliyevin*

*qətiyyətli mövqeyi və ardıcıl siyasəti sayəsində regionun mühüm ölkəsi olan, zəngin təbii sərvətlərə, əlverişli coğrafi-siyasi mövqeyə malik Azərbaycan inkişaf və tərəqqi yolundadır.*

*Söhbət zamanı ABŞ ilə Azərbaycan arasında qarşılıqlı maraq doğuran bir sıra digər məsələlər də müzakirə olundu.*

*Azərbaycan prezidenti Heydər Əliyev ABŞ prezidenti Corc Buşu, vitse-prezident Riçard Çeynini, Dövlət katibi Kolin Pauelli və milli təhlükəsizlik üzrə müşavir xanım Kondoliza Raysı Azərbaycana dəvət etdi. Dəvətə görə minnətdarlıq bildirildi.*

* * *

Azərbaycan prezidenti Heydər Əliyev Ağ evdə fəxri qonaqlar kitabına xatirə sözləri yazdı:

*«Yenidən Ağ evdə olmağımdan çox məmnunam. Yeni prezident Corc Buşa böyük uğurlar arzulayıram.*

***HEYDƏR ƏLİYEV***
***Azərbaycan Respublikasının Prezidenti***

*9 aprel 2001-ci il»*

# AMERİKA BİRLƏŞMİŞ ŞTATLARININ PREZİDENTİ CORC BUŞ İLƏ GÖRÜŞDƏN SONRA AĞ EVİN QARŞISINDA JURNALİSTLƏRİN SUALLARINA VERDİYİ CAVAB

*Vaşinqton*

*9 aprel 2001-ci il*

**S u a l: Cənab Prezident, Corc Buşla görüşünüz necə keçdi?**

**C a v a b:** Görüş çox yaxşı keçdi. Mən çox razıyam. Biz ilk öncə Amerika Birləşmiş Ştatları ilə Azərbaycan arasında ikitərəfli münasibətlərlə bağlı məsələlər barəsində fikir mübadiləsi apardıq. Bir daha təsdiq etdik ki, münasibətlərimiz strateji tərəfdaşlıq xarakteri daşıyır və əməkdaşlığımızı bu ruhda da davam etdirəcəyik. Biz Xəzər hövzəsinin enerji ehtiyatlarından istifadə məsələlərini də müzakirə etdik. Əlbəttə, keçmiş Sovetlər İttifaqına daxil olan indiki müstəqil dövlətlərə Amerika Birləşmiş Ştatlarının göstərdiyi yardımın Azərbaycana da göstərilməsinə mane olan ədalətsiz 907-ci maddəyə, Konqresin qərarına da toxunduq. Lakin başlıca məsələ, şübhəsiz, Ermənistan–Azərbaycan, Dağlıq Qarabağ hərbi münaqişəsidir və biz bu məsələ barəsində ətraflı fikir mübadiləsi apardıq.

ATƏT-in Minsk qrupunun həmsədri kimi, Amerika Birləşmiş Ştatları bu məsələnin dincliklə nizama salınması üçün məsuliyyət daşıyır. Biz Amerika Birləşmiş Ştatlarının, eləcə də digər həmsədrlərin bu istiqamətdə fəaliyyətinin gücləndirildiyinə ümid bəsləyirik.

**S u a l: Cənab Prezident, Ki-Uest danışıqlarından və Corc Buşla görüşünüzdən sonra Azərbaycanla Ermənistan nə qədər sülhə yaxın oldular?**

**C a v a b:** Onu ölçməyə mənim hələ vaxtım olmayıbdır.

## ABŞ PREZİDENTİ CORC BUŞUN VAŞİNQTONDA AZƏRBAYCAN VƏ ERMƏNİSTAN PREZİDENTLƏRİ İLƏ GÖRÜŞLƏRİ HAQQINDA BRİFİNQ

*Vaşinqton*

*9 aprel 2001-ci il*

*ABŞ hökumətinin yüksək vəzifəli nümayəndələri jurnalistlərə həmin gün Ağ evdə prezident Corc Buşun Azərbaycan prezidenti Heydər Əliyev və Ermənistan prezidenti Robert Köçəryan ilə keçirdiyi görüşlər barədə məlumat vermiş və bildirmişlər ki, Ermənistanla Azərbaycan arasında Dağlıq Qarabağa dair ötən həftə Ki-Uestdə aparılmış sülh danışıqları çox uğurlu olmuşdur.*

*Hökumət nümayəndələri bildirmişlər ki, Corc Buş prezidentlər Heydər Əliyev və Robert Köçəryan ilə ayrı-ayrılıqda görüşlər keçirmişdir. Görüşlərdə vitse-prezident Dik Çeyni, Dövlət katibi Kolin Pauell, milli təhlükəsizlik üzrə müşavir Kondoliza Rays və Minsk qrupunun üç həmsədrindən biri olan səfir Keri Kavano da iştirak etmişlər.*

*Brifinqin iştirakçılarından biri demişdir: «Hər iki görüş öz ruhuna görə son dərəcə səmimi olmuşdur. Prezident Buş hər iki görüşdə bildirmişdir ki, Amerika tərəfi bu ölkələrin sülh naminə göstərdikləri səyləri dəstəkləyir, əldə edilmiş tərəqqini yüksək qiymətləndirir və hələ çox iş görülməsinin zəruriliyini başa düşür».*

*Onun sözlərinə görə, iyunda Heydər Əliyevin və Robert Köçəryanın İsveçrədə daha bir görüş keçirəcəyi planlaşdırılır.*

*«İsveçdə artıq bəyan etmişdir ki, ötən həftə Floridada mühüm irəliləyiş əldə olunması bu prosesə kömək göstərəcəkdir».*

*İsveçrədə danışıqlar Ki-Uest danışıqlarındakı kimi, eyni formatda, Minsk qrupunun üç həmsədrinin – ABŞ-ın, Fransanın və Rusiyanın birgə rəhbərliyi ilə aparılacaqdır. Minsk qrupuna Avropada Təhlükəsizlik və Əməkdaşlıq Təşkilatının üzvü olan 11ölkə, habelə Dağlıq Qarabağ üstündə münaqişənin həlli yolunu tapmağa çalışan Azərbaycan və Ermənistan daxildirlər.*

*Brifinqin iştirakçısı izah etmişdir ki, üç həmsədr «köməkedici» rolu oynayır. «Bu rol möhkəm nizamasalmaya gətirib çıxara biləcək kompromis işləyib hazırlamağa çalışan hər iki liderə kömək etməkdən ibarətdir».*

*ABŞ hökumətinin nümayəndəsi aprelin 3–6-da Floridada aparılmış danışıqlara yekun vuraraq demişdir: «Hər iki prezident bu danışıqlara başlayarkən bildirdi ki, möhkəm sülhü ancaq kompromis vasitəsilə təmin etmək olar. Onların səylərinin fərqləndirici xüsusiyyəti belədir. Düşünürəm ki, bu, istər danışıqlar masası arxasında, istərsə də vətənə döndükdən sonra geniş ictimai dəstək qazanması baxımından onların qarşısında duran çox mürəkkəb vəzifədir. Amma prezidentlər bildirdilər ki, bu öz ölkələri üçün, xalqlarının layiq olduğu gələcəyi qurmaq üçün yeganə üsuldur».*

*Hökumətin nümayəndəsi vurğulamışdı ki, Florida danışıqları məxfi xarakter daşıyırdı.*

*O, əlavə edərək demişdir: «Biz dəfələrlə bildirmişik ki, möhkəm nizamasalınmanı təmin edən hər hansı bir qərar regionun əhalisi üçün məqbul olmalıdır».*

## AZƏRBAYCAN PREZİDENTİ HEYDƏR ƏLİYEVİN TÜRKİYƏNİN ABŞ-dakı SƏFİRİ BAKİ İLKİN İLƏ GÖRÜŞÜ

*Vaşinqton*

*9 aprel 2001-ci il*

*Prezident Heydər Əliyevi Vaşinqtonda yenidən salamlamaqdan məmnun olduğunu bildirən səfir İlkin Azərbaycan rəhbərinin Amerikaya səfərini maraqla izlədiklərini söylədi. O bildirdi ki, Floridanın Ki-Uest şəhərində aparılan sülh danışıqları Amerika mətbuatı tərəfindən geniş işıqlandırılmışdır. Son dövrdə Azərbaycan və ümumən Cənubi Qafqaz regionuna marağın artdığını vurğulayan diplomat ümidvar olduğunu bildirdi ki, aparılan danışıqların nəticəsində tezliklə sülh əldə etmək mümkün olacaqdır.*

*Ölkəmizin böyük perspektivləri olduğunu söyləyən Türkiyənin səfiri qəti inamla dedi ki, yaxın beş il ərzində Azərbaycan regionun ən inkişaf etmiş qüdrətli dövlətinə çevriləcəkdir.*

*Daha sonra cənab İlkin Türkiyənin və Azərbaycanın Vaşinqtondakı səfirlikləri arasında olan əməkdaşlıqdan söhbət açdı. O, erməni millətçilərinin Amerikada bədnam niyyətlərini həyata keçirmək cəhdlərinin qarşısının alınmasında Azərbaycan səfirliyinin verdiyi dəstəkdən razılıqla danışdı. Prezident Heydər Əliyevin bu istiqamətdə tövsiyələrindən həmişə faydalandığını vurğulayan səfir İlkin Türkiyəyə göstərdiyi diqqətə və yardıma görə dövlətimizin başçısına xüsusi təşəkkürünü bildirdi.*

*Mart ayının sonunda Türkiyənin Xarici İşlər naziri İsmayıl Cəmin Vaşinqtona etdiyi səfər barədə Azərbaycan prezidentinə*

*ətraflı məlumat verən diplomat keçirilən görüşlər zamanı Azərbaycanın qarşılaşdığı çətinliklərin, habelə ölkəmizdən Türkiyəyə çəkiləcək boru xətlərinə dair məsələlərin də geniş müzakirə olunduğunu söylədi.*

*Səfir onu qəbul etdiyinə görə prezident Heydər Əliyevə bir daha təşəkkür etdi və Azərbaycan səfirliyi ilə sıx əməkdaşlığı bundan sonra daha da genişləndirəcəklərini vurğuladı.*

*Prezident Heydər Əliyev səfir İlkin ilə yenidən görüşməyindən şad olduğunu bildirdi, verdiyi geniş və maraqlı məlumata görə ona təşəkkür etdi.*

*Azərbaycanın gələcəyi barədə söylədiyi xoş sözlərə görə səfirə minnətdarlıq edən prezident Heydər Əliyev Azərbaycanın və Türkiyənin dost, qardaş ölkə olduğunu vurğulayaraq bildirdi ki, dövlətlərimizin qarşılaşdıqları çətinliklərin aradan qaldırılmasında biz əl-ələ verməli, bir-birimizə dayaq durmalıyıq. Amerika Birləşmiş Ştatlarında erməni diasporunun çox fəal olduğunu xatırladan Azərbaycan prezidenti ölkələrimizin səfirliklərinin səylərini əlaqələndirməyə, birgə fəaliyyət göstərməyə böyük ehtiyac olduğunu bildirdi, Amerikada yaşayan soydaşlarımızı bu işə daha fəal cəlb etmək barədə tövsiyələrini verdi.*

*Prezident Heydər Əliyev Türkiyənin Xarici İşlər naziri İsmayıl Cəmin Vaşinqtona son səfəri zamanı Azərbaycanı maraqlandıran məsələlər barədə də müzakirələr aparılmasını yüksək qiymətləndirdi, martın 12-də Türkiyəyə rəsmi səfəri zamanı dövlət və hökumət rəhbərləri ilə müzakirələr və danışıqlar aparıldığını söylədi.*

*Azərbaycan prezidenti Amerika Birləşmiş Ştatlarına bu dəfəki səfərinin də uğurlu olduğunu və bundan razı qaldığını bildirdi. Respublikamızın rəhbəri ABŞ prezidenti Buş, vitse-prezident Çeyni, Dövlət katibi Pauell, prezidentin milli təhlükəsizlik məsələləri üzrə müşaviri xanım Rays, ABŞ-ın Minsk qrupundakı həmsədri Kavano ilə Ağ evdə keçirdiyi görüşün böyük əhəmiyyətindən danışaraq dedi ki, söhbət zamanı Azərbaycan, Türkiyə və bütün re-*

*gion üçün vacib olan bir sıra məsələlər müzakirə olundu. Dövlətimizin başçısı ölkəmizin haqq işinin müdafiə olunmasında Türkiyənin Vaşinqtondakı səfirliyinin göstərdiyi köməyə görə cənab Baki İlkinə təşəkkür etdi və ümidvar olduğunu bildirdi ki, ölkələrimizin Vaşinqtondakı səfirlikləri bundan sonra da səylərini birləşdirərək, dövlətimizin mənafeyinin qorunması üçün fəallıqlarını artıracaqlar.*

*Görüş səmimi dostluq şəraitində keçdi.*

* * *

*Aprelin 10-da Azərbaycan prezidenti Heydər Əliyev Vaşinqton yaxınlığındakı Aleksandriya şəhərinə gəldi. Amerikalıların fəxrlə gəzdikləri və gözəlliyi ilə qürurlandıqları Virciniya ştatının Aleksandriya şəhəri Potomak çayının qərb sahilində yerləşir. Dövlətimizin başçısı sahildə gəzdi, şəhərdəki memarlıq abidələrinə tamaşa etdi.*

*Aleksandriya şəhəri dəbdəbəli restoranları, otelləri və digər istirahət yerləri ilə diqqəti cəlb edir. Bu tarixi şəhərə hər il xarici ölkələrdən minlərlə turist gəlir. Qədim abidələrlə zəngin olan Aleksandirya şəhəri ilə tanışlıq respublikamızın rəhbərində xoş təəssürat yaratdı.*

* * *

*Azərbaycan Respublikasının prezidenti Heydər Əliyev aprelin 13-də Amerika Birləşmiş Ştatlarından Londona gəlmişdir.*

*Dövlətimizin başçısını Hitrou beynəlxalq hava limanında Böyük Britaniya hökumətinin yüksək vəzifəli şəxsləri, respublikamızın Londondakı səfiri Mahmud Məmmədquliyev qarşıladılar.*

# AMERİKA BİRLƏŞMİŞ ŞTATLARINA İŞGÜZAR SƏFƏRDƏN BAKIYA QAYIDARKƏN BİNƏ BEYNƏLXALQ HAVA LİMANINDA JURNALİSTLƏRƏ VERDİYİ MÜSAHİBƏ

*14 aprel 2001-ci il*

**H e y d ə r  Ə l i y e v:** Sizi maraqlandıran bu səfərdir, səfərin yekunlarıdır. Əlbəttə, bu barədə çox danışmaq olar. Ancaq qısaca onu deyə bilərəm ki, hər şey yaxşıdır. Səfər çox vacib bir səfər idi. Səfər zamanı çox iş görə bilmişik və bundan çox məmnunam. İndi də vətənə gəlmişəm. Sualınız varmı?

**S u a l: Cənab Prezident, Siz Ki-Uestdə danışıqlara başlayarkən ATƏT-in Minsk qrupunun həmsədrlərini ciddi tənqid etdiniz. Həmsədrlər bundan nəticə çıxardılarmı?**

**C a v a b:** Bəli, yəqin ki, mənim bəyanatımı oxumusunuz. Görüşün açılışı günü, düzdür, orada böyük bir salon, filan yox idi ki, bəyanat verəsən. Əgər televiziyada görmüsünüzsə, biz dəyirmi stol arxasında oturmuşuq. Ancaq həmsədrlər hiss etmişdilər ki, mən onları tənqid edəcəyəm. Çünki bu, birinci dəfə deyildi. Mənə xəbər göndərmişdilər ki, tənqid etmək lazım deyildir. Ancaq mən həqiqəti demişəm. Mən deyəndən sonra heç kəs bir şey edə bilməyibdir. Amma nəticə çıxarıblar, yoxsa yox, bu, gələcəyin işidir.

**S u a l: Cənab Prezident, Azərbaycanın güzəşt limitləri nədən ibarət idi və Ermənistan hansı güzəştlərə getməyə hazır idi?**

**C a v a b:** Bilirsiniz, burada limit yoxdur. Siz bilməlisiniz ki, Azərbaycanın bu barədə mövqeyi Azərbaycandan ən uzaq bir yerdə, Floridadan da xeyli uzaq bir adada, kiçik adada açıq-aydın göstərilibdir və bütün dünyaya elan olunubdur.

Bilirəm ki, dünyanın ən böyük informasiya orqanları da, qəzetləri də bəziləri mənim bəyanatımın hamısını verib, bəziləri lazım bildikləri yeri veriblər. Hər halda, bəyanat yayılıbdır. Ona görə də bizim mövqeyimiz – bilirəm, mən gedəndə də, mən orada olanda da burada, Azərbaycanda müxtəlif sözlər danışıblar – Azərbaycan dövlətinin, Azərbaycan prezidentinin mövqeyi həmin o bəyanatda öz əksini tapıbdır. Bəyanat həqiqəti əks etdirən bir bəyanatdır. Həm münaqişənin başlanması və sonrakı prosesin tarixi haqqında, həm də 1992-ci ildən ATƏT-in bu işə qarışması, həmsədrlərin gördüyü işlər və indiyə qədər ATƏT tərəfindən onlara tapşırılan bu böyük missiyanın axıra çatdırılması barədə. Ona görə də hər şey orada var.

**S u a l: Cənab Prezident, ümumiyyətlə, görüşün nəticələri ilə razısınızmı?**

**C a v a b:** Bilirsiniz, mən deyə bilmərəm ki, hansısa görüşün nəticələrindən narazı olmuşam. Görüşsək yaxşıdır, yoxsa görüşməsək? Əlbəttə ki, görüşsək. Hər səfər, hər görüş, təbiidir ki, əhəmiyyətlidir. Ermənistan–Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin Azərbaycan üçün nə qədər ağır və çətin olması məlumdur. Mən bunların hamısını orada verdiyim bəyanatda bildirmişəm.

Ola bilər görüşməyim, oturum, heç bir nəticə də olmasın. Amma hər bir görüş yeni bir irəliləmə əmələ gətirir, yeni bir təsəvvür yaradır. Məsələn, bəzən mən fikirləşirəm – bəzən yox, elə həmişə – bu münaqişə get-gedə unudulur. Ümumiyyətlə, münaqişələr həmişə onlar gedən vaxtı dünya ictimaiyyətinin diqqət mərkəzində olur. Yəqin, vuruşmalar gedən vaxtı, döyüşlər gedən vaxtı, qan tökülən vaxtı. Ancaq atəşkəs yaranıb, münaqişə həll olunmamış get-gedə unudulur. Elə Yaxın Şərq münaqişəsini götürün. Məsələn, İsrail ilə fələstinlilər vuruşanda, bir-birinə güllə atanda, nə bilim, bir-birinə bomba atanda, filan edəndə bütün dünya ictimaiyyəti qaynayır.

Amma münaqişə həll olunmayıbdır. Bu məsələlər yatanda münaqişə də çox yerlərdə yavaş-yavaş gündəmdən çəkilir.

1994-cü ildən ki, biz ataşkəs haqqında qərar qəbul etmişik, Ermənistan–Azərbaycan münaqişəsi get-gedə unudulur. Elə bu görüşün özü – deyə bilərəm ki, o, bütün dünya dövlətlərinin nəzər-diqqətini cəlb edib və bu görüş zamanı Azərbaycan prezidenti bütün dünyaya bəyan edibdir ki, təcavüzü kim başlayıbdır, münaqişəni kim başlayıbdır, günahkar kimdir, Azərbaycanın bugünkü vəziyyəti necədir, Azərbaycanın nə qədər qaçqını var, nə qədər torpağı işğal olunubdur – bu bütün dünyanın siyasi ictimaiyyətində, siyasi mətbuatında, dövlət orqanlarında, təbiidir ki, münaqişəni hamının yadına salır. Yoxsa ki, məsələn, hansısa qəzetdə yazmışdılar, heç bilmir ki, Dağlıq Qarabağ haradadır, yaxud da nəsə bir şey yazmışdılar. Mən o qədər oxumuşam ki, bunun hansı qəzetdə yazıldığını unutmuşam.

Amma bunun ən böyük əhəmiyyəti ondan ibarət oldu ki, biz həm bu münaqişənin mövcudluğunu, həm də ki, münaqişənin günahkarının Ermənistan olmasını, Azərbaycan torpaqlarının Ermənistan tərəfindən işğal edilməsini və bir milyondan artıq azərbaycanlının yerindən-yurdundan çıxarılmasını bəyan etdik. Məsələn, mən təyyarədə oxuyurdum. «Nyu-York tayms» qəzetində məqalə var. Orada açıq-aydın yazılır ki, münaqişəni ermənilər başlayıbdır. Orada 800 min qaçqın deyirlər, ola bilər. Çünki biz həmişə Ermənistandan gələn qaçqınları da sayırıq, ona görə bir milyondan artıqdır. Azərbaycan torpaqları işğal olunubdur. İşğal olunmuş torpaqlardan azərbaycanlılar çıxarılıbdır. Belə məlumatı, məqalələri televiziyalarda, mətbuat orqanlarında yaymaq adi vaxtda mümkün olmur. Elə bunun özü-özlüyündə nəticədir, Azərbaycanın ağır vəziyyətini göstərməkdir. Çünki biz etiraf etməliyik ki, erməni diasporu dünyada çox güclü olduğuna görə, aparıcı dövlətlərdə onun təsiri olduğuna görə, onlar elə bu

münaqişə başlanandan belə bir fikir yaradıblar ki, güya bunun günahkarı azərbaycanlılardır, Azərbaycandır. Çünki azərbaycanlılar Dağlıq Qarabağda «yazıq ermənilәri» əziblər, nə bilim, incidiblər, pis hala salıblar və sair. İndi biz həqiqəti açıb ortaya qoyuruq. Özü də elə bir səviyyədə ki, bütün dünya görür – mən orada da, təyyarədə olanda da qəzetlərə baxırdım – nə qədər məqalələr, dövlət orqanlarında, televiziya, radio vasitələri ilə nə qədər məlumatlar, internetdə nə qədər məlumatlar. Bunlar hamısı Azərbaycanın xeyrinə olandır. Bu bunun birinci tərəfi.

İkinci tərəfi də, əlbəttə ki, danışıqlarda məsələnin həll olunması yolları araşdırılır. Ona görə də hesab edirəm ki, bu görüş çox əhəmiyyətli idi.

**S u a l**: **Cənab Prezident, Ermənistan prezidenti Robert Köçəryan bəyan edibdir ki, danışıqlarda bir sıra razılaşmalar əldə olunubdur. Sirr deyilsə, bu razılaşmalar nədən ibarətdir? O deyib ki, bu münaqişə paket şəklində həll olunacaqdır və Cenevrədə hansısa bir sənəd imzalanacaqdır.**

**C a v a b:** Bilirsiniz, hərə öz sözünə cavabdehdir. Mən bir şey deyəndə, görürsən, Köçəryan da onu demir. Köçəryan deyəndə, mən də demirəm. Demirəm ona görə ki, məsələn, bir şey yoxdur. Mən çox vaxtlar demirəm. Çünki mənim, ümumiyyətlə, xüsusiyyətim bundan ibarətdir ki, məsələ tamamilə həll edilməyənə qədər mən bunları açmağı məsləhət görmürəm.

**S u a l: Cənab Prezident, Minsk qrupunun amerikalı həmsədri Kavano bildirdi ki, həmsədrlər Dağlıq Qarabağın erməni icmasının nümayəndələrinin bu prosesə qoşulması istiqamətində işlər aparırlar. Danışıqlarda bu barədə hər hansı təkliflər irəli sürüldümü?**

**C a v a b:** Heç bir təklif irəli sürülməyibdir. Son görüşlərdə də Dağlıq Qarabağ icmasının bu işdə iştirak etməsi haqqında heç bir söz olmayıbdır.

**S u a l**: **Cənab Prezident, ABŞ prezidenti Corc Buşla görüşünüzü necə qiymətləndirirsiniz?**

**C a v a b:** Çox yaxşı, çox yaxşı. Biz Klinton hökuməti ilə əməkdaşlıq edirdik. Hər halda, mən onlarla yeddi ildən artıq çox ciddi əməkdaşlıq etmişdim, dəfələrlə hamısı ilə görüşmüşdük. İndi yeni prezident seçilib, yeni hökumətdir. Təbiidir ki, bunlar bu problemləri bilirlər, amma onun içində o qədər də olmayıblar. Ona görə də bu görüşün çox böyük əhəmiyyəti var. Həm də nəzərə alsaq ki, bu görüşdə təkcə prezident Buşun özü deyil, onun bütün komandası iştirak edirdi – vitse-prezident Çeyni, Dövlət katibi general Kolin Pauell, prezidentin milli təhlükəsizlik üzrə köməkçisi Kondoliza Rays və orada bu işlərlə məşğul olan başqa adamlar. Yəqin bu, prezidentin əsas komandasıdır. Onların hamısı bu görüşdə iştirak edirdi. Demək, bu onu göstərir ki, onlar tərəfindən bu məsələyə nə qədər böyük diqqət var, maraq var. Görüş də çox yaxşı keçdi.

**S u a l: Cənab Prezident, Siz Cenevrədən əvvəl Moskvada görüşəcəksinizmi?**

**C a v a b:** Belə bir şey planlaşdırılmayıbdır.

**S u a l: Cənab Prezident, Sizin verdiyiniz gözlənilməz bəyanat danışıqlara necə təsir göstərdi?**

**C a v a b:** Hesab edirəm, müsbət təsir göstərdi.

**S u a l: Cənab Prezident, Sizin Amerikaya bu səfəriniz erməni lobbisinin 200 ildə gördüyü işi heçə endirdi. Ancaq Azərbaycanda fəaliyyət göstərən pozucu müxalifət qüvvələri ağa qara deməkdən usanmırlar. Ağsaqqal kimi, Siz onlara nə tövsiyə edərdiniz?**

**C a v a b:** Mən onlara nə tövsiyə edəcəyəm. Bu bizim üçün yeni bir şey deyil ki? Əgər bu, yeni olsaydı, mən deyərdim, bu haradandır, niyə belədir, filandır. Artıq biz buna öyrəşmişik ki, onlar ağa qara deyirlər. Desinlər.

**S u a l: Cənab Prezident, danışıqlardan əvvəl dövlət departamenti bəyanat verdi və bəyanatda Ermənistan faktiki olaraq ilk dəfə işğalçı kimi təqdim edildi. Bu, danışıqlarda Ermənistanın mövqeyinə təsir göstərdimi?**

**C a v a b:** Göstərdi. Bax, dediyin bu sözə əməl edəcəksən, yoxsa yox, düzü düz, əyrini əyri yazacaqsan, yoxsa yox? Bax, budur. Sən özün bunu deyirsən, amma bunu sən nə təbliğ edirsən, nə də… Kiçik bir yerdən nəsə çıxarırsınız ki, filankəs filan şeyi belə dedi, onu şişirdirsiniz. Bax, bu kişi sözü tamamilə düz deyir. Elə sənin mənə verdiyin sualın əvvəl hissəsi onu təsdid edir ki, görürsən, bu görüşün əhəmiyyəti də var və Ermənistan dövlət departamenti tərəfindən təcavüz kimi göstərilibdir. Siz bunu göstərin. Onu da göstərin, bunu da göstərin. Demokratiyanın tələbi birtərəflilik deyil. Tələbi ondan ibarətdir ki, pisə pis de, yaxşıya yaxşı de, düzə düz de, əyriyə əyri de. Tənqid elə, səhvləri, nöqsanları, qüsurları de, amma olan şeyləri də gizlətmə. Nəinki gizlətmə, olan şeyə qara yaxma. Bir məsəl var, deyirlər ki, qozbeli qəbir düzəldər.

**S u a l: Cənab Prezident, İran bu prosesə qoşula bilərmi?**

**C a v a b:** Bunu gələcək göstərəcəkdir.

**S u a l: Cənab Prezident, Ki-Uest danışıqlarından sonra münaqişənin müharibə yolu ilə həll olunmasını istisna edirsinizmi?**

**C a v a b:** Bilirsiniz, müharibə elə bir şeydir ki, bu heç vaxt istisna olunmur. Amma mən belə müharibəyə ehtiyacı hiss etmirəm.

**S u a l: Cənab Prezident, sülh uzaqdadır, yoxsa yaxında?**

**C a v a b:** Bilirsən, bəzən baxırsan ki, sülh yaxındadır. Bəzən də baxırsan, uzaqdadır. Hər halda, mən yeddi ildən artıqdır ki, bu işlə gecə-gündüz məşğul oluram və bilirəm ki, bu nə qədər çətindir, nə qədər ağırdır. Bunu orada bəyanatımda açıq göstərdim. Danışıqlar aparıb məsələnin sülh yolu ilə həll edilməsi bizim üçün çətindir. Çünki Ermənistan Azərbaycan

torpaqlarının 20 faizini işğal edibdir. Ona görə öz üstünlüyündən istifadə edir. Amma təəssüf ki, bunu Azərbaycanda çoxları anlaya bilmir. Bəziləri də anlayırlar, bunu tərsinə deyirlər.

İndi təssəvvür edin, biz gedib Ermənistanın bir qismini işğal etmiş olsaydıq, bu bizim üçün asanmı olardı? Yox, asan olmayacaqdı. İndi onlar gəlib işğal ediblər. Bu reallıqdır. Ona görə də burda hər şey çətindir.

**S u a l: Cənab Prezident, Siz gəzinti zamanı Robert Köçəryanla balıq tutmusunuz. Robert Köçəryan üç balıq tutdu. Bu o deməkdirmi ki, artıq onların dəlilləri tükənib, enerjilərini balıq tutmağa sərf edirlər?**

**C a v a b:** Sən zarafat edirsən. Amma doğrudan, deyirdilər Köçəryan orada balıq tutubdur. O, balığı mənimlə tutmayıbdır. Ümumiyyətlə, mən balıq ovu ilə məşğul olan adam deyiləm. Əgər şəhəryanı gəzinti, gəmidəki gəzintini deyirsinizsə, o, sadəcə, Amerika hökuməti tərəfindən istirahət üçün təşkil olunmuşdur. Orada hamımız bir gəmidə idik. Orada söhbət edirdik, kimsə kofe içirdi, kimsə dondurma yeyirdi.

**S u a l: Qeyri-rəsmi görüş danışıqlara müsbət kömək etdimi?**

**C a v a b:** Qeyri-rəsmi şərait hər yerdə olur. Bilirsiniz, əgər belə çətin danışıqlar üçün qeyri-rəsmi şəraitlər çox kömək etsəydi, onda 10 dənəsini qurardılar ki, kömək etsin.

**S u a l: Cənab Prezident, problemin ədalətli həlli Azərbaycan üçün nə deməkdir?**

**C a v a b:** Ədalətli həll üçün izahat verməyə ehtiyac yoxdur.

**S u a l: Cənab Prezident, «ümumi dövlət» prinsipi gündəmdən çıxıb, yoxsa onun elementlərindən istifadə olunacaqdır?**

**C a v a b:** Yox. Biz onu müzakirə etmədik.

**S u a l: Cənab Prezident, Köçəryanla rəsmi təkbətək görüşünüzün olmaması nə ilə əlaqədardır?**

**C a v a b:** Ona görə ki, ehtiyac yox idi. Çünki biz orada bir yerdə idik, görüşürdük. Ehtiyac yox idi ki, mən onunla

təkbətək görüşüm. Hesab edirəm, bu dəfəki görüşün ən üstünlüyü ondan ibarətdir ki, – mən bunu öz bəyanatımda da xüsusi deyd etdim – burada format çox uyğun idi. Çünki həmsədrlərin hamısı bir yerdə iştirak edir və iki ölkənin prezidentləri, nümayəndə heyətləri iştirak edirdilər.

Məsələn, müxtəlif yerlərdə biz Köçəryanla görüşdük. Amma bu dəfəki görüşü özümüz yox, Amerika Birləşmiş Ştatlarının Xarici İşlər naziri Kolin Pauell açdı. Münaqişənin sülh yolu ilə həll olunması prosesində bu, ilk dəfə idi. Bu özü-özlüyündə göstərir ki, artıq yeni bir mərhələ başlanır.

**S u a l: Cənab Prezident, Cenevrədə hər hansı bir sazişin imzalanması ehtimalı varmı?**

**C a v a b:** Mən düşünürəm ki, orada bir müqavilə imzalana bilər.

**S u a l: Cənab Prezident, Ermənistan mətbuatı Rusiya diplomatik qaynaqlarına istinadən belə məlumat yayır ki, guya Laçın rayonu Dağlıq Qarabağla birlikdə gələcəkdə yaranacaq dövlət ərazi qurumuna qatılacaqdır. Bunun müqabilində Azərbaycanın əsas hissəsindən Naxçıvana Mehri dəhlizi açılacaq və ora beynəlxalq sülhyaratma qoşunlarının nəzarəti altında olacaqdır.**

**C a v a b:** Bilirsən, Azərbaycanda olduğu kimi, Ermənistanda da adamlar var ki, öz fikrini qəzetə yazır, yaxud da uydururlar. Ona görə hər bir uydurmaya mən cavab verməyəcəyəm ki? Mən bilirəm nə var, nə yox.

**S u a l: Cənab Prezident, danışıqlar zamanı Ermənistan silahlı qüvvələri işğal olunmuş Azərbaycan ərazilərində də hərbi təlim keçirdilər. Bu nə ilə izah oluna bilər? Bu, Azərbaycana təzyiq kimi qiymətləndirilə bilərmi?**

**C a v a b:** Bəs görmürsünüz ki, Azərbaycanda da hərbi təlim keçirirdi, bunu eşitməmisiniz? Hətta mənə dedilər ki, orada vertolyotlar uçanda sərhəd rayonlarında bəziləri şey-şüylərini yığışdırıb ki, tezliklə çıxa bilsinlər.

**S u a l: Cənab Prezident, Siz vaxtilə bildirmişdiniz ki, «miatsum» sözü erməni xalqını birləşdirdi. Azərbaycanda elə bir söz varmı ki, Azərbaycan xalqını birləşdirsin?**

**C a v a b:** Var, var, var. Azərbaycan xalqının birliyi və Azərbaycan xalqının hamısının düz yol ilə bir-birinə kömək edərək, torpaqlarını işğaldan azad etməsi və ərazi bütövlüyünü bərpa etməsi. Onlar bir sözlə deyirlər, amma mən bir neçə sözlə dedim. Var, amma bu, Azərbaycanda təmin olunmayıbdır. Bu gün də olunmur. Çünki mən bu gün də görürəm ki, bu hadisədən hərə özü üçün, öz şəxsi məqsədləri üçün, – siyasi qüvvələri deyirəm – istifadə etməyə çalışırlar. Qurtardı getdi. İndi bəziləri deyirlər ki, gəlin müharibə edək. Yaxşı, get müharibə et. Gedib heç müharibənin yanına çıxmayacaqsan. Hamısı yalan şeylərdir.

**S u a l: Cənab Prezident, Köçəryan Ki-Uestdən qayıdanda Zvartnos hava limanında deyib ki, münaqişənin «paket həlli» müzakirə olunur, ola bilsin, iyunda Cenevrədə sənəd imzalanacaqdır. Sizcə, onun tərəfindən məxfiliyə əməl edilməməsi Ter-Petrosyanın başına gələndən qorxaraq, danışıqları pozmaq cəhdi deyilmi?**

**C a v a b:** Mən onun məxfiliyi pozub-pozmadığını bilmirəm. Hər halda, onun bəyanatı gələcək danışıqlara heç bir zərər vurmayacaqdır.

Sanballı bir sualınız var, yoxsa yox?

**J u r n a l i s t: Cənab Prezident, «Saman yolu» televiziyasındakı yanğından sonra büromuz yenidən fəaliyyətə başlayıbdır. Xahiş edirəm, bizə öz arzularınızı bildirəsiniz.**

**H e y d ə r Ə l i y e v:** Mən sizə uğurlar arzulayıram. Sağ olun.

# AZƏRBAYCANIN PRAVOSLAV XRİSTİANLARINA

Əziz həmvətənlər!

Sizi xristianların müqəddəs Pasxa bayramı münasibətilə ürəkdən təbrik edir, hamınıza ən səmimi arzularımı yetirirəm.

Cəmiyyətdə əxlaqi dəyərlərin, əmin-amanlığın, dostluq və humanizm prinsiplərinin bərqərar olunmasında dinin rolu danılmazdır. Bu xeyirxah niyyətin gerçəkləşməsi işində Azərbaycanda tarixən mövcud olmuş başqa konfessiyalarla yanaşı, rus pravoslav kilsəsi də yaxından iştirak edir, insanların ilahi kəlama tapınması və mənən saflaşması yolunda layiqli xidmətlər göstərir.

Vicdan və dini etiqad azadlığı cəmiyyətimizin mənəvi sərvətidir. Dilindən, dinindən, etnik mənsubiyyətindən asılı olmayaraq, bütün Azərbaycan vətəndaşları bu əzəli haqdan yararlanaraq öz milli adət-ənənələrini, dini bayram və mərasimlərini sərbəst şəkildə icra edirlər. Belə mərasimlərdən biri də hər il Azərbaycanda təntənə ilə keçirilən, insanlara mənəvi rahatlıq, həmrəylik, şəfqət duyğuları bəxş edən Pasxa bayramıdır.

Bu əziz gündə hər birinizə xoşbəxtlik, ailələrinizə əmin-amanlıq arzulayıram.

Bayramınız mübarək olsun!

**HEYDƏR ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı şəhəri, *14 aprel 2001-ci il*

**SURİYA ƏRƏB RESPUBLİKASININ PREZİDENTİ
ZATİ-ALİLƏRİ
CƏNAB BƏŞŞAR ƏSƏDƏ**

Hörmətli cənab Prezident!

Suriya Ərəb Respublikasının milli bayramı münasibətilə Sizi və qardaş Suriya xalqını ürəkdən təbrik edirəm.

Azərbaycan Respublikası ilə Suriya Ərəb Respublikası arasında təşəkkül tapmış münasibətləri yüksək qiymətləndirirəm. Ümidvaram ki, qarşılıqlı səylərimiz xalqlarımızın və ölkələrimizin rifahına mühüm töhfələr verəcəkdir.

Sizə möhkəm cansağlığı, işlərinizdə uğurlar, dost Suriya xalqına əmin-amanlıq və firavanlıq arzulayıram.

*Hörmətlə,*

**HEYDƏR ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı şəhəri, *15 aprel 2001-ci il*

## DANİMARKANIN KRALİÇASI ÜLYAHƏZRƏT II MARQRETEYƏ

Ülyahəzrət!

Danimarka krallığının milli bayramı – Kraliçanın anadan olduğu gün münasibətilə Sizi və dost Danimarka xalqını ürəkdən təbrik edirəm.

Azərbaycan ilə Danimarka arasındakı münasibətlərin hərtərəfli inkişafına böyük əhəmiyyət verirəm. Əminəm ki, dostluq və əməkdaşlıq əlaqələrimiz bundan sonra da ölkələrimizin və xalqlarımızın mənafeyinə xidmət edəcəkdir.

Sizə möhkəm cansağlığı, xoşbəxtlik, ölkənizə sülh və əmin-amanlıq arzulayıram.

*Hörmətlə,*

**HEYDƏR ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı şəhəri, *15 aprel 2001-ci il*

# AMERİKA BİRLƏŞMİŞ ŞTATLARI SENATININ ÜZVÜ RİÇARD ŞELBİNİN* BAŞÇILIQ ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİ İLƏ GÖRÜŞDƏ SÖHBƏT

*Prezident sarayı*

*16 aprel 2001-ci il*

**R i ç a r d  Ş e l b i:** Cənab Prezident, xoş gördük Sizi. Sizinlə yenidən, üçüncü dəfə görüşməyimdən çox məmnunam. Mən buraya, Azərbaycana dostum senator Bill Nelson və onun xanımı ilə gəlmişəm.

**H e y d ə r  Ə l i y e v:** Azərbaycana xoş gəlmisiniz. Mən sizinlə yenidən görüşməyimə çox məmnunam. Sizin dostunuzun ilk dəfə Azərbaycana gəlməsi də mənim üçün çox əhəmiyyətlidir. Ancaq təəssüf edirəm ki, siz Azərbaycanda olmaga çox az vaxt ayırmısınız. Axşam gəlmisiniz, səhər də gedirsiniz. Təbiidir, bu, imkan vermir ki, siz bizim ölkəmizlə daha yaxşı tanış olasınız, biz sizinlə daha çox görüşək. Görünür, vaxtınız imkan vermir. Mən başa düşürəm.

Cənab senator, mən sizinlə hər dəfə görüşəndə çox məmnun oluram. Mən hiss edirəm ki, siz Azərbaycanın problemlərini və Amerika–Azərbaycan əlaqələrini həm yaxşı bilirsiniz, həm də bunlara diqqət yetirirsiniz.

Mən iki gündür ki, sizin ölkənizdən qayıtmışam. Bilirsiniz ki, bizi sizin ölkənin ən cənubunda olan Florida ştatında bir adaya

---

* Senator Riçard Şelbi Amerika ştatını təmsil edir. Respublikaçılar Partiyasının üzvüdür.

apardılar. Cənab senator Nelson özü Ki-Uest adasında olub, yoxsa yox?

**Bill Nelson** (*Florida ştatını təmsil edir, Demokratlar Partiyasının üzvüdür)*: Cənab Prezident, çox olmuşam.

**Heydər Əliyev:** Çox gözəl bir yerdir. Gözəldir, mənzərəsi də gözəldir, havası da gözəldir.

**Bill Nelson:** Danışıqlar aparmaq üçün çox yaxşı yerdir.

**Heydər Əliyev:** Bəli, sakit yerdir, mane olmurlar. Bir neçə gün orada danışıqlar apardıq. Keçmiş prezident Trumenin yay iqamətgahını gördük. Düzü, mən elə təsəvvür edirdim ki, o iqamətgah daha təmtəraqlıdır. Amma elə deyildi. Ətrafında yaşayış binaları tikiblər. Bilmirəm, siz ona niyə icazə vermisiniz. Gərək prezidentin cənubdakı Ağ evinin ətrafı açıq olaydı.

**Bill Nelson:** Cənab Prezident, onun ətrafında olan binaları satmaq yolu ilə həmin o Ağ evi qoruyub saxlamaq, xərclərini ödəmək mümkün olmuşdur. Biz də o binalarda yaşamışıq.

**Heydər Əliyev:** Siz kasıbsınız? Dünyada hamı hesab edir ki, Amerika zəngin dövlətdir. Amma siz deyirsiniz ki, o Ağ evi saxlamaq üçün ətrafdakı binaların yerini satıb onun xərcini ödəmisiniz. Hər halda, çox gözəl yerdir. Mən çox məmnunam. Siz çox doğru buyurdunuz ki, danışıqlar üçün çox münasib yerdir.

Başa düşdüm ki, siz buraya Koreyadan gəlmisiniz.

**Riçard Şelbi:** Doğrudur.

**Heydər Əliyev:** Səfəriniz uzun olubdur.

**Riçard Şelbi:** Cənab Prezident, əvvəlcə biz Çinə getməyi planlaşdırdıq. Sonra Çində baş verən və Sizə məlum olan hadisələr bizi bu səfərdən imtina etməyə məcbur etdi. Biz Yaponiyaya, oradan da Koreyaya getdik. Sonra isə biz Çinin üzərindən uçub Azərbaycana gəlmək istəyirdik. Ona da

imkan vermədilər. Ona görə də biz məcbur olub Rusiyanın üzərindən uçaraq buraya gəlmişik.

**Heydər Əliyev:** Şimali Koreyaya da getdiniz?

**Riçard Şelbi:** Cənab Prezident, mən Şimali Koreyaya getmək istəyirdim. Amma Siz bilirsiniz ki, mən hazırda Amerika Birləşmiş Ştatları Senatında kəşfiyyat komitəsinin sədriyəm. Şimali koreyalılar bunu bildiklərinə görə, belə düşündülər ki, yəqin mən oranı ziyarət etsəm, nəyəsə baxacağam, nəsə axtaracağam. Amma əslində mən, sadəcə olaraq, oranı ziyarət etmək istəyirdim. Hər halda, icazə vermədilər. Yəqin hesab etdilər ki, biz də Mərkəzi Kəşfiyyat İdarəsinin tərkib hissəsiyik. Biz isə, sadəcə, senatorlarıq və işimiz bilavasitə Mərkəzi Kəşfiyyat İdarəsi ilədir. Bu iki iş bir-birindən fərqlidir.

Bilirsiniz, bəzən biz bu cür ölkələri ziyarət etmək barədə məlumat verərkən, xüsusilə mənim ünvanıma deyirlər ki, senator Şelbi buraya Mərkəzi Kəşfiyyat İdarəsinin pərdəsi altında gəlir, kəşfiyyat xarakterli səfər edir. Ona görə də dərhal bizim müraciətimizə sərt cavab verirlər.

**Heydər Əliyev:** Biz heç vaxt belə hesab etmirik.

**Riçard Şelbi:** Çünki Siz bu fərqi yaxşı bilirsiniz.

**Heydər Əliyev:** Siz bizim, Azərbaycanın dostusunuz. Əgər gəlib burada kəşfiyyat etsəniz də, etiraz etmərəm. Onda Azərbaycanın vəziyyətini daha yaxşı biləcəksiniz.

**Riçard Şelbi:** Cənab Prezident, Sizin keçmiş tərcümeyi-halınızda təhlükəsizlik orqanları ilə sıx təmaslarınız, bağlılığınız olduğu üçün bu fərqin nə demək olduğunu yaxşı biləcəksiniz.

**Heydər Əliyev:** Bəli, biz bu barədə sizinlə müəyyən qədər qohumuq.

Siz özünüz də dediniz ki, üçüncü dəfədir Azərbaycana gəlirsiniz və Azərbaycanın vəziyyətini artıq bilirsiniz. Məmnunam ki, siz öz dostunuzu, Floridadan olan senatoru Azərbaycana gətirmisiniz

ki, Azərbaycanı tanısın, bilsin və bizim problemlərlə daha yaxşı məşğul olsun.

Bizim sizinlə əməkdaşlığımızın çox geniş spektri var. Bunu bilirsiniz. Mən təhlükəsizlik məsələlərini nəzərdə tuturam. Amma eyni zamanda bu əməkdaşlığı uğurla həyata keçirmək üçün, təbiidir, ki, Azərbaycanın ən əsas problemi həll olunmalıdır.

Son illər Azərbaycan Ermənistanla münaqişə vəziyyətində olduğu halda, Azərbaycan torpaqlarının 20 faizi Ermənistan silahlı qüvvələrinin işğalı altında olduğu halda, ölkəmizin bir milyon qaçqını olduğu halda Amerika Birləşmiş Ştatları ilə Azərbaycan arasında təhlükəsizlik haqqında xeyli iş görülübdür. İndi təsəvvür edin ki, əgər bu problem həll olunsa, bizim əməkdaşlığımız daha da yüksək səviyyəyə qalxa bilər. Biz Floridada əsas bu məsələ ilə məşğul olduq. Mən hesab edirəm ki, Senat, Konqres və Amerika Birləşmiş Ştatları ilə Azərbaycan arasında təhlükəsizlik haqqında xeyli iş görülübdür. İndi təsəvvür edin ki, əgər bu problem həll olunsa, bizim əməkdaşlığımız daha da yüksək səviyyəyə qalxa bilər. Biz Floridada əsas bu məsələ ilə məşğul olduq. Mən hesab edirəm ki, Senat, Konqres və Amerika Birləşmiş Ştatlarının yeni hökuməti, prezident cənab Buş və onun həmkarları bu məsələnin həll olunmasına çox güclü təsir etməlidirlər.

Mən bu barədə prezident cənab Buş ilə çox ətraflı danışdım. Çox məmnunam ki, bizim bu görüşdə həm vitse-prezident Dik Çeyni, həm Dövlət katibi Kolin Pauell, həm də prezidentin təhlükəsizlik üzrə köməkçisi Kondoliza Rays iştirak edirdi. Mən bu görüşdən çox razıyam. Ancaq onun müsbət nəticələrini gözləyirəm.

**R i ç a r d Ş e l b i:** Cənab Prezident, yaxşı, sağlam görünürsünüz. Biz istəyirik ki, Siz sağlam olasınız, uzun ömür yaşayasınız, Vaşinqtona tez-tez gələsiniz. Lazımınız olanda Klivlend klinikasına da gedəsiniz.

Cənab Prezident, mən bunu əvvəl də demişəm, indi bir daha bəyan edirəm. Hesab edirəm, zaman artıq yetişibdir ki, Azərbaycan–Amerika münasibətlərində ciddi maneə olan 907-ci maddə aradan qaldırılsın. Hesab edirəm ki, bu maddə heç bir məntiqi məna daşımır. Bu, Amerikadakı etnik azlığın, erməni lobbisinin səyləri nəticəsində qəbul olunmuş bir maddədir. Bir daha təkrar edirəm ki, bu, Amerika Birləşmiş Ştatlarının Azərbaycana, Azərbaycan xalqı üçün daha yaxşı işlər görməsinə mane olan bir maddə kimi, dərhal aradan qaldırılmalıdır. Sizin dövlətiniz, Azərbaycan dövləti həm keçmişdə, həm indi, həm də gələcəkdə bu regionda zəngin karbohidrogen yataqlarının – neft və qaz ehtiyatlarının istismar olunması və eləcə də dünyaya ixrac olunmasında mərkəzi rol oynamaqda davam edəcəkdir. Hesab edirəm ki, boru kəmərlərini mümkün qədər tez tikib çatdırmaq lazımdır. Bu fürsətdən istifadə edib, sizi yeni, zəngin bir qaz yatağı tapmağınız münasibətilə təbrik etmək istəyirəm. Hesab edirəm ki, təklif olunmuş və bizim tərəfimizdən gözəl işlənmiş layihə – qeyd edirəm ki, biz gələcəkdə də bu dəstəyi verəcəyik – Azərbaycandan Türkiyəyə çəkiləcək boru kəməri Azərbaycanın və regionun digər dövlətlərinin müstəqilliyinin gücləndirilməsinə yardımçı olacaqdır.

Hesab edirəm, Siz və digərləri bilirsiniz ki, əgər bu əsas ixrac boru kəməri Rusiyadan keçərsə, onda siz taleyinizi onların mərhəmətinə və yaxud ümidinə buraxmış olacaqsınız. Siz və sizin xalqlarınız Rusiyanın ümidinə, mərhəmətinə möhtac qalmağın tarixən nə demək olduğunu yaxşı bilirsiniz.

Cənab Prezident, Siz yeni hökumətin adını çəkdiniz. Həqiqətən də cənab Buş, vitse-prezident Çeyni, Dövlət katibi Pauell, Milli Təhlükəsizlik üzrə müşavir Rays – bunlar Azərbaycanın və regionun nə qədər mühüm əhəmiyyət daşıdığını yaxşı anlayan insanlardır. Onlar boru kəmərlərinə və Sizin kimi dövlətlərin azadlıqlarının qorunub saxlanılmasına bütün

dünyadakı təhlükəsizliyin təmin olunmasının vacib elementi kimi baxırlar.

Mən Sizinlə görüşərkən söylədim, amma xanımımın Sizə bir daha xoş salamlar söylədiyini bildirirəm. Xanımım may ayında 24 günlüyə İrana səfər edəcəkdir. Ola bilər, İrandan sonra 24 günlük də buraya, Azərbaycana gəlsin. O Sizə ən xoş arzularını çatdırır.

**H e y d ə r Ə l i y e v:** Bu çox gözəl olar. Mən onu dəvət edirəm. Bir məsələ də var. Əgər 24 gün İrana gedəcəksə, Azərbaycana gəlməsə, bu bir az anlaşılmaz olar.

**R i ç a r d Ş e l b i:** Bunu ona çatdıraram.

**H e y d ə r Ə l i y e v:** Əgər 24 gün orda olsa, gərək 48 gün də burda olsun.

**R i ç a r d Ş e l b i:** Bəlkə də çox. Sağ olun.

**H e y d ə r Ə l i y e v:** Hörmətli cənab senator, mən sizin dediklərinizlə tamamilə razıyam.

**B i l l N e l s o n:** Cənab Prezident, Siz Sovetlər İttifaqının Siyasi Bürosunun üzvü olduğunuz zamanlar mən Amerika Birləşmiş Ştatlarının Konqresində bir nümayəndə heyətinə rəhbərlik edərək, o nümayəndə heyətini Moskvaya gətirmişdim. Biz orada kosmosla bağlı məsələləri müzakirə edirdik. O vaxt bizi kosmonavtlar Leonov və Kubasov qonaq etdilər. Hələ soyuq müharibə vaxtı onların uçduğu «Soyuz» kosmik gəmisi bizim astronavtların «Apollon» kosmik gəmisi ilə birləşmiş və birgə uçuş keçirmişdilər. Biz o vaxt Sovet İttifaqının rəhbərlərindən olan Andrey Qromıko ilə görüşdük, əməkdaşlıq məsələlərini müzakirə etdik. Bu gün bizim Rusiya ilə kosmosdakı əməkdaşlığımızın müsbət, böyük nəticələri göz önündədir. Mən Andrey Qromıko ilə görüşü heç zaman unutmayacağam. Xatırlayıram ki, o, 20 dəqiqə çıxış etdi. Ondan sonra tərcüməçi imkan tapdı ki, çıxışı tərcümə etsin.

**H e y d ə r Ə l i y e v:** Siz kosmonavtları xatirimizə saldınız. Sovet və Amerika kosmonavtlarının əməkdaşlığının ilk

dövründə mən onlarla görüşmüşəm. Sizin kosmonavt Stafford birinci dəfə Aya uçmuş adamdır. Siz onu xatırlayırsınız. O, Sovetlər Birliyinə gəlmişdi. Sovetlər Birliyindən Leonov, Şatalov, Kubasov da Staffordla bir yerdə 1973-cü ildə buraya gəlmişdilər. Biz o vaxt yaxşı axşam yeməyi yedik. Çox yaxşı səmimi söhbətlər etdik.

Mən kosmonavt Stafforda – onda ən məşhur olan adam idi – Azərbaycan konyakları bağışlamışdım. O qədər xoşuna gəlmişdi ki, onu aparıb evində saxlamışdı və Sovetlər İttifaqından gələn qonaqlara göstərirmiş ki, bunu mənə Heydər Əliyev bağışlayıbdır. Çox yaxşı bir insan idi. Hər halda, kosmonavtlar, həqiqətən, çox uğurlu əməkdaşlıq etmək istəyirdilər. Kosmosa birinci uçan Qaqarin oldusa, Aya da birinci uçan Amerikadan Stafford oldu.

**Bill Nelson:** İki-üç gün bundan öncə Qaqarinin kosmosa uçmağının 40-cı ildönümü qeyd edildi. Qaqarinin kosmosa uçmasının 30-cu ildönümü münasibətilə on il bundan öncə mən və xanımım Baykonura, Qazaxıstana getdik.

**Heydər Əliyev:** Onda sizin çox əlaqələriniz var idi.

Cənab senator, siz bir neçə mühüm məsələ haqqında öz fikirlərinizi bildirdiniz. Bir də qeyd edirəm ki, mən onlarla tam razıyam və bildirmək istəyirəm ki, son 6 il içərisində bizim apardığımız işlər indi çox gözəl nəticələr verir.

Biz ilk dəfə 1994-cü ilin sentyabr ayında Xəzər dənizindəki «Azəri», «Çıraq», «Günəşli» yataqları ilə bağlı Qərbin şirkətləri ilə, o cümlədən Amerika Birləşmiş Ştatlarının şirkətləri ilə böyük müqavilə imzalayarkən – sonra buna «Əsrin müqaviləsi» dedilər – bizə qarşı müxtəlif istiqamətlərdən çox mənfi münasibətlər gördük. Ancaq bunlar bizi qorxutmadı və çəkindirmədi. Əsas da dedilər ki, Xəzər dənizinin statusu müəyyən olunmadan bu işləri görmək olmaz. Biz isə çox cəsarətli addımlar atdıq. İşlərimizi davam etdirdik. Artıq 20 müqavi-

lədə Qərbin 32 şirkəti iştirak edir. Amma Xəzərin statusu hələ müəyyən olunmayıbdır.

Biz əvvəlcədən Xəzərin sektorlar prinsipi əsasında bölünməsinə görə öz işimizi gördük. Bizim gördüyümüz işlər artıq indi öz təsdiqini tapır. Artıq Rusiya ilə bizim aramızda Xəzərin sektorlara bölünməsi haqqında birgə bəyanat vardır. Qazaxıstan ilə Rusiya arasında da var. Bu bizim qoyduğumuz həmin o nəticədir.

Təbiidir ki, biz bir neçə il Bakı–Ceyhan ixrac kəmərinin həyata keçirilməsinə çalışdıq. Bu da çox çətin idi. Amma buna da nail olduq. 1999-cu ilin noyabr ayında İstanbulda son sənədlər imzalandı. O sənədə prezident Klinton da imzasını atdı. Ondan sonra çox intensiv işlər görülübdür. Hesab edirəm ki, Bakı–Ceyhan neft ixrac kəməri artıq real bir şeydir. Artıq bizim bu barədə konkret proqramımız vardır. Mühəndis işləri aparılır. Maliyyə mənbələri müəyyən olunur və əməli işə başlanacaqdır. Ancaq biz qısa bir zamanda Bakı–Tbilisi–Türkiyə qaz kəmərinin çəkilməsi haqqında da saziş əldə etdik. Ona görə siz tamamilə doğru deyirsiniz ki, bunların hamısının həm iqtisadi əhəmiyyəti, həm siyasi, həm də strateji əhəmiyyəti çox böyükdür.

Biz sizinlə təhlükəsizlik sahələrində əməkdaşlıq edərkən boru xətlərinin qorunması məsələsində də çox ciddi əməkdaşlıq etməliyik. Bunda bizim sizə böyük ehtiyacımız var. Ona görə ki, bir neçə il bundan qabaq fərziyyə hesab olunan bir şey bu gün reallığa çevrilibdir. Bundan sonra belə olacaqdır və bizim bu sahədə əməkdaşlığımız çox geniş olmalıdır. Amma bunların hamısının əsas şərti Ermənistan–Azərbaycan münaqişəsinə son qoymaq, Azərbaycanın işğal olunmuş torpaqlarını azad etmək, bir milyon Azərbaycan vətəndaşını öz yerinə-yurduna qaytarmaqdır.

Siz 907-ci maddənin nə qədər ədalətsiz olduğunu etiraf etdiniz. Bunu sizin kimi, çoxları etiraf edir. Prezident Klinton

da etiraf edirdi. Mən prezident Buş ilə bu barədə də danışdım. Ona görə, gərək Amerika kimi bir ədalətli dövlətdə, Amerika Konqresi kimi ədalətli bir təşkilatda bundan sonra ədalətsizliyə yol verilməsin. Mən bu barədə sizin səylərinizi qiymətləndirirəm. Amma arzu edirəm ki, onlar sona çatsınlar.

**R i ç a r d  Ş e l b i:** Cənab Prezident, Sizi əmin edirəm, əlimdən gələni edəcəyəm ki, 907-ci maddənin ləğvinə nail olum. Mən buradan qayıtdıqdan sonra Nelsonla birlikdə həm prezident Buş, həm vitse-prezident Çeyni, həm Dövlət katibi Pauell, həm də təhlükəsizlik məsələləri üzrə müşavir Rays ilə söhbət etməyi planlaşdırıram. Onlarla görüşdə bu məsələnin, yəni 907-ci maddənin dərhal aradan qaldırılmasının vacibliyini bir daha bildirəcəyəm. Hesab edirəm, hətta belə bir dəlil də gətirmək olar ki, 907-ci maddə sülh prosesinə də mane olur. Şübhəsiz ki, bir dövlət başqa dövlətin torpağını işğal edəndə, hər iki dövlət arasında yaxşı münasibət olmur. Hesab edirəm ki, sülhün bərqərar edilməsinin nə qədər vacib olduğunu erməni xalqına da anlatmaq gərəkdir. Bilirsiniz ki, biz ermənilərlə uzun müddətdir dostuq. Amma bu mübarizəni davam etdirmək erməni xalqının nə yaxın, nə də uzaq zaman üçün hesablanmış məqsədlərinə xidmət etmir.

Siz mənə Azərbaycanda bir milyona yaxın vətəndaşınızın didərgin düşdüyünü, qaçqın olduğunu dəfələrlə söyləmisiniz. O insanlar çətinliklər yaradırlar. Onlar Azərbaycanın başqa hissələri üzərində iqtisadi yük olurlar. Lakin evindən-eşiyindən didərgin salınanda onların getməyə başqa yerləri olmur, sadəcə, ölkənin bişqa bir hissəsinə köçürlər.

Mən boru kəmərləri məsələsinə bir daha qayıtmaq istərdim. Hesab edirəm ki, sizə iki boru kəməri lazım olacaqdır. Biri neft üçün, biri də qaz üçün. Türkiyəyə gedəcək boru kəməri kürdlərin sıx yaşadığı ərazilərdən keçəcəkdir. Zənnimcə, bu, Türkiyənin şərq hissəsində yaşayan kürdlərin iqtisadi cəhətdən vəziyyətlərinin yaxşılaşdırılmasına kömək edə bilər.

Yəqin onları bu kəmərlərdən faydalanmağa cəlb etməklə, onun qorunmasına daha çox meyilləndirmək, sövq etmək mümkündür. Hər bir məsuliyyətli adam fayda götürdüyü işi də, layihəni də qoruyur.

Şübhəsiz ki, biz Sizinlə boru kəmərlərinin təhlükəsizliyi məsələləri barədə əlavə işlər görəcəyik. Amma onların təhlükəsizliyinin ən yaxşı təmin olunması boru kəmərlərini yerin altı ilə çəkməkdir, qazıb yerə basdırmaqdır.

**Heydər Əliyev:** Ancaq, ancaq. Üstü ilə çəkmək olmaz.

**Bill Nelson:** Cənab Prezident, fürsətdən istifadə edib, terrorizmə qarşı mübarizə aparılması işində bizim ölkəmizə göstərdiyiniz yardıma görə, nüvə silahlarının yayılmasının qarşısını almaq üçün bəzi məsələlərdə yardım göstərdiyinizə görə Sizə təşəkkürümü bildirmək istəyirəm.

**Heydər Əliyev:** Sağ olun. Mən də təşəkkür edirəm.

## ZİMBABVE RESPUBLİKASININ PREZİDENTİ ZATİ-ALİLƏRİ CƏNAB ROBERT QABRİEL MUQABEYƏ

Hörmətli cənab Prezident!

Zimbabve Respublikasının milli bayramı – Müstəqilliyin elan edilməsi günü münasibətilə Sizi və dost Zimbabve xalqını səmimi-qəlbdən təbrik edirəm.

Ümidvaram ki, Azərbaycan – Zimbabve əlaqələri ölkələrimizin və xalqlarımızın mənafeyi naminə daim genişlənəcək və inkişaf edəcəkdir.

Sizə  möhkəm cansağlığı, uğurlar, ölkənizə sülh və firavanlıq arzulayıram.

*Hörmətlə,*

**HEYDƏR ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı şəhəri, *18 aprel 2001-ci il*

## RUSİYANIN İTAR-TASS İNFORMASİYA TELEQRAF AGENTLİYİNİN BAŞ DİREKTORU CƏNAB VİTALİ İQNATENKOYA

Hörmətli Vitali Nikitiç, Sizi – Rusiyanın tanınmış jurnalisti, publisisti və ictimai xadimini əlamətdar yubiley – anadan olmağınızın 60 illiyi münasibətilə ürəkdən təbrik edirəm.

Dünyanın ən qocaman informasiya agentliklərindən biri olan İTAR-TASS-ın uzun müddət ərzində rəhbəri olaraq, Siz bütün MDB məkanında vahid informasiya xidmətinin inkişafına kömək edirsiniz.

Siz Azərbaycan–Rusiya dövlətlərarası münasibətlərin genişlənməsinə, ölkələrimiz və xalqlarımız arasında dostluğun, əməkdaşlığın və qarşılıqlı anlaşmanın möhkəmlənməsinə sanballı töhfə vermisiniz.

Sizə möhkəm cansağlığı, xoşbəxtlik və böyük yaradıcılıq uğurları arzulayıram.

*Hörmətlə,*

**HEYDƏR ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı şəhəri, *18 aprel 2001-ci il*

## «QAFQAZIN DAĞ YƏHUDİLƏRİ» BEYNƏLXALQ ELMİ SİMPOZİUMUNA

Hörmətli simpozium iştirakçıları!

Sizi Azərbaycan Respublikasının paytaxtı Bakı şəhərində ürəkdən salamlayır, hamınıza ən səmimi arzu və diləklərimi yetirirəm.

Qafqaz öz füsunkar təbiəti, qədim və zəngin tarixi, etnik-milli rəngarəngliyi, maddi və mədəni sərvətləri ilə dünyanın nadir regionlarından biridir. Bu qədim diyarın ən qiymətli tarixi sərvəti isə onun məğrur insanları, burada minilliklər boyu vahid ailə kimi yaşayan çoxsaylı xalqlarıdır. Zaman-zaman Qafqazın irili-xırdalı bütün xalqları etnik mənşəyindən və dini etiqadından asılı olmayaraq, vahid Ümumqafqaz mədəniyyətinin formalaşmasında iştirak etmiş, bu bənzərsiz regionun etno-mədəni dəyərlər xəzinəsini zənginləşdirmişlər. Qafqaz bu xalqların ümumi evidir və onlar haqlı olaraq bununla fəxr edirlər.

Bu gün milli-mənəvi dəyərlərinin işığına yığışdığınız dağ yəhudiləri də bölgəmizin tarixi-mədəni həyatında mühüm rol oynayan xalqlardan biridir.

Qədim və keşməkeşli tarixi keçmişə malik dağ yəhudiləri yüz illərdir ki, Azərbaycanın digər xalqları ilə birgə çiyin-çiyinə, dostluq, mehribanlıq və əmin-amanlıq şəraitində yaşayırlar. Məmnuniyyət hissi ilə qeyd etmək istəyirəm ki, yüksək tolerantlıq, milli dözümlülük və humanizm ilə səciyyələnən azərbaycanlı mentalitetinə yad olan irqi, milli, dini ayrı-seçkilik, o cümlədən antisemitizm halları tarixən Azərbaycanda mövcud olmamış, burada məskunlaşan hər bir xalq etnik özünəməxsusluğunu, milli adət-ənənələrini qoruyub saxlamışdır.

İndi Azərbaycanın dağ yəhudiləri müstəqil respublikamızın tam və bərabərhüquqlu vətəndaşlarıdır. Onların şəxsiyyət azadlığı, milli və insan hüquqları Azərbaycan Respublikasının Konstitusiyası və dövlət qanunları ilə qorunur. Ölkəmizdə yaşayan bütün milli azlıqların, o cümlədən dağ yəhudilərinin dil və mədəniyyətinin inkişafı, etnik-dini adət-ənənələrinin qorunub saxlanılması üçün hərtərəfli hüquqi-siyasi şərait təmin edilmişdir. Dağ yəhudiləri Azərbaycanın ictimai-siyasi, elmi-mədəni həyatında, müstəqil dövlət quruculuğu prosesində yaxından iştirak edir, vətən qarşısında layiqli övladlıq borcunu yerinə yetirirlər.

Əziz dostlar!

Qafqaz fenomeninin nadir xüsusiyyəti onun etnik baxımdan rəngarəngliyi ilə yanaşı, həm də pozulmaz bütövlüyündədir. Buna görə də bölgədə yaşayan xalqların tarixi, mədəniyyəti, dili, etnik özünəməxsusluğu, adət-ənənələri Ümumqafqaz dəyərlərinin tərkib hissəsi kimi öyrənilməli və bu sahədə atılan hər bir addım Ümumqafqaz evinin qorunub saxlanılmasına, regionda sülhə, xalqlar arasında əmin-amanlığa xidmət etməlidir. Bu baxımdan Bakıda dağ yəhudilərinə həsr olunmuş beynəlxalq elmi toplantını Qafqazın, eləcə də Azərbaycanın elmi-ictimai həyatında mühüm hadisə kimi qiymətləndirirəm. Əminəm ki, keçirəcəyiniz elmi müzakirə və diskusiyalar xalqlarımızın bir-birinə daha da yaxınlaşması işinə layiqli töhfəsini verəcək və belə xoşməramlı tədbirlər bir ənənə halını alacaqdır.

Bu yolda sizə cansağlığı, xoşbəxtlik, gərəkli fəaliyyətinizdə hər birinizə uğurlar arzulayıram.

**HEYDƏR ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı şəhəri, *22 aprel 2001-ci il*

**PORTUQALİYA RESPUBLİKASININ PREZİDENTİ ZATİ-ALİLƏRİ CƏNAB JORJ SAMPAYYUYA**

Hörmətli cənab Prezident!

Portuqaliya Respublikasının milli bayramı – Azadlıq günü münasibətilə Sizi və dost Portuqaliya xalqını ürəkdən təbrik edirəm.

Ölkələrimiz arasındakı dostluq və əməkdaşlıq münasibətlərini yüksək qiymətləndirirəm. Əminəm ki, qarşılıqlı əlaqələrimiz xalqlarımızın rifahı naminə daim genişlənəcəkdir.

Sizə möhkəm cansağlığı, uğurlar, xalqınıza əmin-amanlıq və firavanlıq arzulayıram.

*Hörmətlə,*

**HEYDƏR ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı şəhəri, *22 aprel 2001-ci il*

# MÜSTƏQİL DÖVLƏTLƏR BİRLİYİ İCRAİYYƏ KOMİTƏSİNİN SƏDRİ, MDB-nin İCRAÇI KATİBİ YURİ YAROV İLƏ GÖRÜŞDƏ SÖHBƏT

*Prezident sarayı*

*24 aprel 2001-ci il*

**Heydər Əliyev:** Şadam ki, gəlmisiniz. Hiss olunur ki, siz MDB-nin İcraiyyə Komitəsinə başçılıq edəndən o çox fəal işləyir və müntəzəm olaraq müxtəlif tədbirlər keçirir. Dövlət başçılarının da görüşləri müntəzəm xarakter almışdır. Mən hələ onu demirəm ki, digər səviyyələrdə olduqca çox görüşlər keçirirlər. Bir sözlə, mən bunu alqışlayıram.

**Yuri Yarov:** Heydər Əliyeviç, sağ olun. Demək lazımdır ki, bütün bunlar Sizin dəstəyiniz sayəsindədir. Dövlət başçılarının axırıncı iclasında söylənmiş sözlər yadımdadır. Odur ki, bunu nəzakət xatirinə demirəm. Bu dəstəyinizə görə əslində Sizə minnətdaram, təşəkkür edirəm. Çünki Siz bizi dəstəkləyəndə nəticə də olur. Heydər Əliyeviç, dövlətdaxili prosedurlarla bağlı məsələlərdə bizi dəstəklədiyinizə görə indi, əslində elə bir gün olmur ki, ayrı-ayrı dövlətlərdə, ayrı-ayrı işlərdə irəliləməmiş olaq. İndi bir cədvəl təqdim edəcəyik. Burada biz Sizə aydın şəkildə göstərəcəyik ki, artıq bu il təkcə dövlətdaxili strukturlarda deyil, hətta ratifikasiya tələb olunan çox mürəkkəb sənədlərdə də irəliləyiş var. Əgər ötən görüşün nəticəsindən danışsaq, onda başlıca iqtisadi məsələ – azad ticarət zonası məsələsi barədə danışmaq olar. 2000-ci ildə birlik ölkələrində əmtəə dövriyyəsinin ötən ildəkinə nisbə-

tən artımı 33 faiz olmuşdur. Demək lazımdır ki, dövlətdaxili prosedur tələb edilən sənədlərin 82 faizi üzrə prosedur Sizin dəstəyiniz və digər prezidentlərin dəstəyi sayəsində başa çatmış, tamamlanmışdır. Beləliklə, qalan sənədlər üzrə dövlətdaxili proseduru tam həcmdə yerinə yetirməyə və blokda nəzərdə tutulanların hamısını başa çatdırmağa qadir olduğumuz barədə birliyin 10 illiyinədək məlumat verə bilməyiniz üçün o qədər də iş qalmır. Onda biz əmtəə dövriyyəsinin 33 faizi deyil, xeyli çox artdığını görəcəyik.

**Heydər Əliyev:** Yəqin ki, belədir. Ancaq burada bizimlə bağlı problemlər yoxdur. Siz özünüz bilirsiniz ki, biz buna artıq çoxdan razılıq vermişik. Hesab edirəm ki, bu problemlər həll olunacaqdır.

**Yuri Yarov:** İlk öncə məlumat vermək istərdim ki, bütün dövlət başçıları iyunun 1-də Minskdə dövlət başçılarının iclasının keçirilməsinə öz razılığını təsdiqləmişlər. Onun formatı həmişəki kimidir, iclas saat 12-də başlanacaq, saat yarımlıq – iki saatlıq qapalı iclasınız olacaqdır.

Sonra açıq iclasın gündəliyinə keçəcəksiniz. İclasınızdan əvvəl, mayın 31-də Minskdə saat 11-də Xarici İşlər Nazirləri Şurasının iclası başlanacaqdır. Onlar öz gündəliyi ilə yanaşı, sizin gündəliyinizi və Hökumət Başçıları Şurasının gündəliyini də nəzərdən keçirəcəklər. Dövlət Başçıları Şurasının iclasına 10 məsələ çıxarırlar və daha bir mühüm məsələ də ola bilər. Siz bilirsiniz ki, Abxaziyadakı – Gürcüstandakı sülhyaratma qüvvələrinin mandatı iyunun 30-da bitir. Sabah biz Eduard Amvrosiyeviçin qəbulunda olacağıq, əgər Gürcüstan bu məsələni gündəliyə çıxarsa, onda təbii olaraq Siz, dövlət başçıları mandat verilməsini həll edəcəksiniz. Ümumiyyətlə isə Sizin 10 məsələniz, hökumət başçılarının və xarici işlər nazirlərinin hərəsinin 23 məsələsi vardır.

Təşkilat səpkili məsələlər bloku haqqında. Əgər Dövlət Başçıları Şurasının iclası iyunun 1-də keçirilsə, biz təklif edi-

rik ki, əgər razılaşsanız – növbəti iclas noyabrın 30-da, cümə günü Moskvada olsun. Çünki Sizinlə birlikdə hazırladığımız və nazirlərin baxdıqları üçillik planda oktyabr, Moskva göstərilmişdir. Ona görə də biz iclasın noyabrın axırında Moskvada keçirilməsini təklif edəcəyik. Müvafiq olaraq, bir gün əvvəl, ayın 29-da Hökumət Başçılarının Şurasının, Xarici İşlər Nazirləri Şurasının iclasları olacaqdır. Lakin Sizin qərarınız Dövlət Başçıları Şurasının iki iclası, Xarici İşlər Nazirləri Şurasının və Hökumət Başçıları Şurasının dörd iclası haqqında olduğundan, biz Xarici İşlər Nazirləri Şurasının iclasını hələ noyabrın 30-dək, Sizin iclasınızdan əvvəl, sentyabrın 5-də Moskvada, Hökumət Başçıları Şurasının iclasını isə sentyabrın 14-də Aşqabadda keçirməyi təklif edirik. Bu təklifi Belarusun Baş naziri, Hökumət Başçıları Şurasının hazırkı sədri Yermoşin irəli sürmüşdür. Biz Aşqabadda prezident Türkmənbaşı ilə görüşərkən bu təklif bəyənildi. Biz onun razılığını aldıq.

**H e y d ə r  Ə l i y e v:** Bizim etirazımız yoxdur.

**Y u r i  Y a r o v:** Sağ olun. Məsələlərin birinci blokuna aid bütün gündəliklər açıqlanmış, materiallar nəzərdən keçirilmişdir. Məsələlərin sonrakı blokunda annotasiya təklif edirik. Birinci olaraq gündəliklərin planları – Dövlət Başçıları Şurası iclasının gündəliyi, sonra Hökumət Başçıları Şurası iclasının gündəliyi, bunun ardınca isə Xarici İşlər Nazirləri Şurası iclasının gündəliyi gəlir. Sonrakı qovluqdakı annotasiya məsələnin tarixinə aiddir: sənədi kim təqdim etmiş, o hansı mərhələlərdən keçmişdir, hazırda hansı vəziyyətdədir. Çünki yadınızdadır, sənədlərin əksəriyyəti əvvəl dövlətlərin ekspertləri, sonra xarici işlər nazirləri, yaxud İqtisadi Şurası tərəfindən mütləq nəzərdən keçirilir, bundan sonra dövlət başçılarına təqdim edilir. Beləliklə, hər şey – nəyin harada, nə vaxt ediləcəyi və dövlət başçıları, hökumət başçıları, Xarici İşlər Nazirləri Şuraları iclaslarının gündəliklərindəki hər bir mə-

sələnin hansı vəziyyətdə olduğu annotasiyada göstərilmişdir. Yəni hər bir bölmə üzrə üç yardımçı sənəd var.

Bu təklif etdiklərimizdən başqa, ötən dəfə Sizin bizə dediyiniz kimi, qeydlərin təhlili olan qovluğu da veririk. Hərəyə öz dövlətinin mövqeyi yaxşı məlumdur və müxtəlif sənədlərdə digər dövlətlərin mövqelərini də öyrənmək olar.

Asan olmaq üçün biz bütün bu metodiki işi görmüşük və gündəliyin hər bir məsələsi barədə qısa annotasiya veririk, yəni, dövlət başçılarına məruzə edirik. Gündəliyə cəmi 10 məsələ daxildir. Onlardan 4 məsələ müzakirə üçün hazırdır və onların barəsində qeydlər yoxdur. Bir məsələni – fəxri döş nişanı haqqında məsələni və iclasın keçirilməsi müddəti və yeri barədə məsələni Sizinlə razılaşdırmaq lazımdır. Bir məsələyə 4 yazılı informasiya daxildir, yəni, onlara baxılmışdır. Biz əvvəlki qərarların yerinə yetirilməsinə aid bütün məsələlər barəsində Sizin qarşınızda hesabat veririk, bundan sonra birliyin 2005-ci ilədək inkişaf etdirilməsinə dair planın yerinə yetirilməsi barədə yazılı məlumat verilir, onun ardınca cinayətkarlıqla mübarizəyə dair 2003-cü ilədək plan gəlir və Antiterror Mərkəzi haqqında qərarın necə yerinə yetirildiyi barədə məlumat olacaqdır. Bu təhlildən və cədvəldən göründüyü kimi, əgər dövlətlər indiki mərhələdə hər hansı təkliflər irəli sürmüşsə, onlar cədvəlin birinci sütununda qeyd edilir. İkinci sütunda dövlətin təklifi verilir. Üçüncü sütunda sənəddə necə əks oluna biləcəyi göstərilir. Nəhayət, biz Hüquq Departamentinin mövqeyini əks etdirmişik. Bu mövqenin birliyin qəbul edilmiş sənədlərinə və ya beynəlxalq sənədlərə zidd olub-olmadığı bizim üçün vacibdir. Beləliklə, biz burada bütün gündəliyi, annotasiyanı – məsələnin harada olduğu və keçirildiyini, onunla bağlı işin gedişində nə kimi təkliflər verildiyini görürük. Dövlət rəhbərinin mövqeyini axtarmaması üçün prezidentin mövqeyini, Azərbaycanın nə kimi fikir söylədiyini və nə təklif etdiyini görür.

Beləliklə, siz dövlətlərin bütün 10 məsələ üzrə mövqeyinə aid nə varsa, hamısını görürsünüz. Sonda Sizin üçün qeyd veririk ki, 5 məsələ barəsində iradlar yoxdur, ikinci məsələ barəsində irad var, bir məsələ ilə əlaqədar, görünür, ekspert müşavirəsi keçiriləcək, bir məsələ barəsində yazılı informasiya təqdim edilir və bir məsələ əlavə olaraq razılaşdırılmalıdır – bu, növbəti iclasın tarixi ilə bağlı olan məsələdir. Əgər başqa dövlətlərin mövqeləri maraqlandırırsa, biz bunu cədvəllərdə tapa bilərik.

Beləliklə, biz Sizinlə bu materiallar əsasında gündəliyə və nəinki öz dövlətinin, eləcə də hər hansı digər dövlətin mövqelərinə aid istənilən suala cavab verə bilərik.

Bundan sonra Sizin qərarınızın necə yerinə yetirildiyi barədə yazılı şəkildə məlumat verilir. Ötən gündəliyin hər bir bəndi ilə əlaqədar nə kimi işlər görüldüyü və hər hansı vəziyyətdə olduğu barədə Sizə məruzə edirik. Daha bir qovluq var. Buradakı sənədlərdə biz hökumətinizin başçısına onların qərarlarının necə yerinə yetirildiyi və Xarici İşlər nazirinə Xarici İşlər Nazirləri Şurasının sonuncu iclasının qərarlarının necə yerinə yetirildiyi barədə məlumat veririk.

Bilirik ki, Müstəqil Dövlətlər Birliyinin 10 ili tamam olmuşdur. Ona görə də bu mövqeləri əsas tuturuq ki, indi Dövlət Başçıları Şurasının ilkin gündəliyini hazırlamaq lazım deyildir. Bizim hələ yarım il vaxtımız var, həyat özü göstərəcəkdir.

**H e y d ə r Ə l i y e v:** On il 1992-ci ildən hesablanır?

**Y u r i Y a r o v:** 1991-ci ildən.

**H e y d ə r Ə l i y e v:** 1991-ci ildən Sovet İttifaqı süqut etdi.

**Y u r i Y a r o v:** Biz dekabrın 21-də Almatıda sənəd imzaladıq.

**H e y d ə r Ə l i y e v:** O vaxt mən orada deyildim.

**Y u r i Y a r o v:** Mən də orada deyildim, lakin 11 dövlət sənəd imzaladı, sonra isə Gürcüstan da onlara qoşuldu.

**H e y d ə r  Ə l i y e v:** Onda Azərbaycan imzalamadı. Azərbaycan MDB-yə 1994-cü ildə qəbul olundu. Əvvəl Azərbaycan iştirak etmirdi.

**Y u r i  Y a r o v:** Hər halda, MDB-nin yaranma tarixi sənədin imzalandığı gündən hesablanır. Biz hesab edirdik ki, bu, başlıca məsələ olaraq qalacaqdır, digər məsələlər isə hələ olacaqdır. Biz onları bilirik. Prezidentlərin gündəliyini tərtib etməyi bu dəfə etikadan kənar bildik. Biz hazırlıq prosesində Sizinlə məsləhətləşəcəyik. Hökumət başçılarına və xarici işlər nazirlərinə gəldikdə isə, onların öz problemləri və vəzifələri var. Həm də onların gündəlikləri çox gərgin olduğundan, bir iclasları keçirilməyəcəkdir. Biz bunu təklif etdik, onlar da razılaşdılar. Biz bundan əvvəl 10 məsələni qəti qərar qəbul edilməsi üçün İqtisadi Şuraya vermişdik və hökumət başçılarının gündəliyindəki daha iki məsələnin də İqtisadi Şuraya verməyi təklif edirik. Yəqin, gündəliyi yüngülləşdirmək, öz üzərimizə daha böyük məsuliyyət götürmək və dövlət başçılarının müzakirəsinə yalnız ən mühüm məsələləri vermək istəyirik.

Sizə məlumat vermək istərdim ki, Belarus prezidenti Aleksandr Lukaşenko təklif irəli sürmüşdür. O, Müstəqil Dövlətlər Birliyinin 10 illiyi ilə əlaqədar Minskdə elmi-praktiki konfrans keçirməyi təklif etmişdir. Yadınızdadırsa, qapalı iclaslardan birində Moldovanın sabiq prezidenti Petru Luçinski də bu təklifi irəli sürmüşdür. Lukaşenko bu konfransı avqust–setyabrda Minskdə keçirməyi təklif etmişdir. Təklifi iki dövlət – Rusiya və Tacikistan dəstəkləmişdir. Qazaxıstan bildirib ki, bəli, keçirmək lazımdır, amma Almatıda. Özbəkistan demişdi ki, bu tarix onlara əl vermir. Qazaxıstan demişdi ki, çox güman, Almatını dəstəkləyəcəkdir. Qalan dövlətlər cavab vermədilər və indi biz deyə bilmərik ki, ən çox hansı qərara meyl edirik. Təəssüf ki, bu məsələ barəsində Sizə məlumat verə bilmirik.

Biz Sizin arzunuzu yadda saxlayaraq, «Azad ticarət zonası yaradılmasının gedişi haqqında» bütöv bir qovluq vermişik.

Qovluqda azad ticarət rejimi barədə arayış, iqtisadi icmal və iqtisadi zonanın necə fəaliyyət göstərdiyi barədə məlumat var. Biz bu blokda Statistika Komitələrinin 2001-ci il haqqında məlumatlarını vermişik, sosial-iqtisadi inkişafı, dəyişikliklərin dinamikasını göstərmişik. Burada ümumi xarakteristika və ayrıca Azərbaycan haqqında məlumat var. Məmnunluqla demək olar ki, Azərbaycan dövlətdaxili proseduru 21 saziş üzrə başa çatdırmış, o cümlədən axırıncı görüşümüzdən sonra daha iki sənəd üzrə prosedur yerinə yetirilmişdir.

Yəqin bu gün mövcud olan irəliləyiş burada göstərilmişdir. Biz növbəti blokda Sizə 10 ildə sənədlərin ratifikasiyasının necə keçdiyini göstərdik. Biz bunu cədvəldə göstərmişik, dövlətdaxili proseduranın yerinə yetirilməsi yaşıl, cari ildə həyata keçirilmiş proseduralar göy, yerinə yetirilməmiş prosedura sarı, qərarın qəbul olunmasında dövlətin iştirak etməməsi isə qırmızı rənglə göstərilmişdir. Burada hər bir dövlət barəsində məlumat verilmişdir. Bu, ratifikasiya barəsindədir. Bütün bunlar isə 10 il ərzindəki iqtisadi xarakterli sənədlərdir. Onlar ratifikasiya olunmağı deyil, dövlətdaxili proseduraları tələb edən sənədlərdir. Axırıncı vərəq də eynilə bu cür təhlili xarakter daşıyır. Biz daha bir cədvəl hazırlamışıq, o, təfsilata varmadan hər bir dövlət üzrə vəziyyəti görməyə imkan verir. Qırmızı rəng o deməkdir ki, dövlət iştirak etmir, yaşıl rəng yerinə yetirilməni, göy rəng isə bu il görülmüş işləri göstərir. Buradan görmək olar ki, bu il cəmi iki dövlət hələ irəliləməyibdir. Bunlar Türkmənistan və Özbəkistandır. Qalan bütün dövlətlər imzaladıqları sənədlər üzərində kifayət qədər ciddi işləyirlər. Sənəd imzalanıbsa, səmərəliliyi yüksəltmək üçün o, işləməyə başlamalıdır. Bu halda daha nə etmək lazımdır sualları verməzlər.

Bu, MDB üzrə inkişaf proqramının həyata keçirilməsinə dair yazılı hesabatdır. Biz mətn materialını və hər bir dövlət üzrə ümumi daxili məhsulun artımının təhlilini vermişik.

Məmnunluqla deyə bilərik ki, ötən il birliyin bütün dövlətlərində tam artım olmuşdur. Xatirinizdədirsə, biz ötən il Sizinlə danışmışdıq, bilirdik ki, Moldovada heç də hər şey yaxşı deyildir. İndi dəyişikliklərin necə baş verdiyi dinamikadan görünür və cari dövrdə qeydə alınmış tədbirlərə dair dəqiq cədvəl verilmişdir. Bütün dövlətlərdə o vaxt təsdiq etdiyimiz planlar üzrə nəyin necə hərəkət etdiyi barədə tam aydınlıq var.

Sonrakı blokda cinayətkarlıqla mübarizəyə dair bütün materiallar, 2003-cü ilədək təsdiqlənmiş proqram toplanmışdır. Bunun hər bir dövlət üzrə necə yerinə yetirildiyinə dair burada hesabat təqdim edilmişdir. Burada da yazılı məruzə, sonra isə hər bənd üzrə cədvəl gəlir. Məmnunluq hissilə demək lazımdır ki, qərarların böyük əksəriyyəti yüksək səviyyədə və vaxtında yerinə yetirilir.

Siz bizə bəzi məsələləri – İqtisadi Şura üzrə və müddətləri dəyişdirmək hüququ vermişdiniz. Ona görə də biz axırıncı iclasda bir məsələni gündəlikdən çıxarmaq və digər məsələnin müddətini başqa vaxta keçirmək üçün onlara qabaqcadan müraciət etmişdik. Biz icazə aldıq, amma bu arayışda onu qeyd edəcəyik. Hansı məsələlərin başqa vaxta keçirilməsini, hansı məsələnin gündəlikdən çıxarılmasını xahiş etmişdik – məruzədə bunların hamısı əksini tapmışdır.

Bundan sonra biz materiallar blokunu nəzərdən keçiririk. Burada onillik haqqında kitab üzərində işin necə getdiyi, neçə dövlətin nə qədər sifariş verdiyi, bu kitab üzərində dövlətlərdən kimlərin işlədiyi barədə məlumat verilmişdir. Biz Müstəqil Dövlətlər Birliyinin 10 illiyi ilə əlaqədar təklif edilən suveniri göstərmişik. Bu materiallar axırıncı iclasda İqtisadi Şura tərəfindən nəzərdən keçirilmiş və bəyənilmişdir.

Bundan sonra biz həmin suveniri sifariş etdik. Gördüyünüz kimi, bu, prezidentlər, hökumət başçıları, xarici işlər nazirləri üçün stolüstü nişandır. Görünür, sayını artırmaq lazım gələcəkdir. Çünki prezidentlərin tərkibində dəyişiklik ola-

cağını bilmirdik. Güman ki, Moldovanın keçmiş prezidentinə də, yeni prezidentinə də təqdim etmək lazımdır.

Biz maliyyələşdirmə vəzifələrinin yerinə yetirilməsinin vəziyyəti haqqında danışdıq və bir daha təkrar edirəm ki, cari aylarda MDB ölkələrində dinamikanın necə getdiyini göstərən bu yeni planı vermişik. Doğrudur, biz burada hələlik yanvar, fevral aylarını qeyd etmişik.

**H e y d ə r Ə l i y e v:** Bəs maliyyələşdirmə məsələsi nə yerdədir?

**Y u r i Y a r o v:** Prezidentlərə bu sualları vermirik, bu, bizə aid olan məsələlərdir. Biz Baş nazirlə razılığa gəldik, onun dəstəyini aldım. Təşəkkür edirəm.

**H e y d ə r Ə l i y e v:** Yuri Fyodoroviç, sağ olun. Əvvəldə dedim ki, ötən görüşlərdən məndə elə təsəvvür yaranmışdır ki, hazırda İcraiyyə Komitəsi keçən vaxtlara nisbətən xeyli yaxşı işləyir. Mən 1994-cü ildən MDB-nin iclaslarında iştirak etmişəm. Müxtəlif adamlar olubdur. Gəlin keçmişdən danışmayaq. Hər halda, indiyədək heç vaxt belə dəqiqlik, belə dürüstlük, belə təhlil olmayıbdır, sənədlər belə hazırlanmayıbdır. Bu gün təqdim etdiyimiz material çox maraqlı materialdır. O, təkcə hər hansı məsələlərin qarşıdakı zirvə görüşündə həlli üçün deyil, eləcə də MDB-də baş verən bütün hadisələrlə tanış olmaq, öz işini başqalarının işi ilə tutuşdurmaq və təbii ki, müvafiq nəticələr çıxarmaq üçün gərəkdir. Odur ki, sənədlərə görə və çox müfəssəl məlumata görə sizə olduqca minnətdaram. Mən bütün müddətlərlə razıyam, bizim heç bir problemimiz yoxdur. İclasın harada – Aşqabadda, yoxsa Almatıda olacağını isə özünüz həll edin.

**Y u r i Y a r o v:** Bunu hökumət başçıları etməlidirlər.

**H e y d ə r Ə l i y e v:** Əgər onlar razılığa gəlməsələr, onda biz həll edərik.

**İSRAİL DÖVLƏTİNİN PREZİDENTİ**
**ZATİ-ALİLƏRİ**
**CƏNAB MOŞE KATSAVA**

Hörmətli cənab Prezident!

İsrail dövlətinin milli bayramı – Müstəqillik günü münasibətilə Sizi və dost İsrail xalqını ürəkdən təbrik edirəm.

Azərbaycan–İsrail əlaqələrinin gündən-günə genişlənməsi məni sevindirir. Ümidvaram ki, ölkələrimiz arasındakı münasibətlər bundan sonra da xalqlarımızın rifahına xidmət edəcəkdir.

Sizə möhkəm cansağlığı, uğurlar, ölkənizə əmin-amanlıq və firavanlıq arzulayıram.

*Hörmətlə,*

**HEYDƏR ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı şəhəri, *24 aprel 2001-ci il*

**İSRAİL DÖVLƏTİNİN BAŞ NAZİRİ
ZATİ-ALİLƏRİ
CƏNAB ARİEL ŞARONA**

Hörmətli cənab Baş nazir!

İsrail dövlətinin milli bayramı – Müstəqillik günü münasibətilə Sizi və dost İsrail xalqını səmimi-qəlbdən təbrik edirəm.

Azərbaycan Respublikası ilə İsrail dövləti arasındakı dostluq və əməkdaşlıq münasibətlərinin inkişafına xüsusi əhəmiyyət verirəm. Əminəm ki, qarşılıqlı əlaqələrimiz bundan sonra da genişlənəcək və möhkəmlənəcəkdir.

Sizə möhkəm cansağlığı, işlərinizdə uğurlar, ölkənizə sülh və əmin-amanlıq arzulayıram.

*Hörmətlə,*

**HEYDƏR ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı şəhəri, *24 aprel 2001-ci il*

## TANZANİYA BİRLƏŞMİŞ RESPUBLİKASININ PREZİDENTİ ZATİ-ALİLƏRİ CƏNAB BENCAMİN UİLYAM MKAPAYA

Hörmətli cənab Prezident!

Tanzaniya Birləşmiş Respublikasının milli bayramı – İttifaq günü münasibətilə Sizi və dost Tanzaniya xalqını səmimi-qəlbdən təbrik edirəm.

Əminəm ki, ölkələrimiz arasında təşəkkül tapmaqda olan münasibətlər daim xalqlarımızın rifahına xidmət edəcəkdir.

Sizə möhkəm cansağlığı, işlərinizdə uğurlar, ölkənizə sülh və tərəqqi arzulayıram.

*Hörmətlə,*

**HEYDƏR ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı şəhəri, *24 aprel 2001-ci il*

# YUQOSLAVİYA İTTİFAQ RESPUBLİKASININ PREZİDENTİ ZATİ-ALİLƏRİ CƏNAB VOLİSLAV KOŞTUNİTSAYA

Hörmətli cənab Prezident!

Yuqoslaviya İttifaq Respublikasının milli bayramı – Konstitusiya günü münasibətilə Sizi və dost Yuqoslaviya xalqını səmimi-qəlbdən təbrik edirəm.

Azərbaycan Respublikası ilə Yuqoslaviya İttifaq Respublikası arasında təşəkkül tapmaqda olan dostluq və əməkdaşlıq münasibətlərini yüksək qiymətləndirirəm. Ümidvaram ki, ikitərəfli əlaqələrimiz ölkələrimizin və xalqlarımızın mənafeyi naminə daim genişlənəcək və inkişaf edəcəkdir.

Sizə möhkəm cansağlığı, uğurlar, ölkənizə sülh və əmin-amanlıq arzulayıram.

*Hörmətlə,*

**HEYDƏR ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı şəhəri, *24 aprel 2001-ci il*

## CƏNUBİ AFRİKA RESPUBLİKASININ PREZİDENTİ ZATİ-ALİLƏRİ CƏNAB TABO MBEKİYƏ

Hörmətli cənab Prezident!

Cənubi Afrika Respublikasının milli bayramı – Azadlıq günü münasibətilə Sizi və dost Cənubi Afrika Respublikası xalqını səmimi-qəlbdən təbrik edirəm.

Əminəm ki, xalqlarımızın mənafeyinə xidmət edən qarşılıqlı əlaqələrimiz daim genişlənəcək və inkişaf edəcəkdir.

Sizə möhkəm cansağlığı, uğurlar, ölkənizə əmin-amanlıq və firavanlıq arzulayıram.

*Hörmətlə,*

**HEYDƏR ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı şəhəri, *24 aprel 2001-ci il*

**SYERRA LEONE RESPUBLİKASININ PREZİDENTİ ZATİ-ALİLƏRİ CƏNAB ƏHMƏD TECAN KABBAYA**

Hörmətli cənab Prezident!

Syerra Leone Respublikasının milli bayramı – Müstəqillik günü münasibətilə Sizi və dost Syerra Leone xalqını ürəkdən təbrik edirəm.

Şübhəsiz ki, Azərbaycan Respublikası ilə Syerra Leone Respublikası arasındakı münasibətlərin inkişafı ölkələrimizin və xalqlarımızın rifahına öz töhfəsini verəcəkdir.

Sizə möhkəm cansağlığı, uğurlar, ölkənizə tərəqqi və firavanlıq arzulayıram.

*Hörmətlə,*

**HEYDƏR ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı şəhəri, *24 aprel 2001-ci il*

**TOQO RESPUBLİKASININ PREZİDENTİ ZATİ-ALİLƏRİ CƏNAB QNASİNQBE EYADEMAYA**

Hörmətli cənab Prezident!

Toqo Respublikasının milli bayramı – Müstəqillik günü münasibətilə Sizi və dost Toqo xalqını ürəkdən təbrik edirəm.

Ümidvaram ki, Azərbaycan Respublikası ilə Toqo Respublikası arasında təşəkkül tapan dostluq münasibətləri daim xalqlarımızın rifahına xidmət edəcəkdir.

Sizə möhkəm cansağlığı, uğurlar, xalqınıza sülh və firavanlıq arzulayıram.

*Hörmətlə,*

**HEYDƏR ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı şəhəri, *24 aprel 2001-ci il*

# TÜRKDİLLİ DÖVLƏTLƏRİN BAŞÇILARININ İSTANBUL ŞƏHƏRİNDƏ KEÇİRİLƏCƏK VII ZİRVƏ GÖRÜŞÜNDƏ İŞTİRAK ETMƏK ÜÇÜN TÜRKİYƏ RESPUBLİKASINA YOLA DÜŞMƏZDƏN ƏVVƏL BAKININ BİNƏ BEYNƏLXALQ HAVA LİMANINDA JURNALİSTLƏRİN SUALLARINA VERDİYİ CAVAB

*25 aprel 2001-ci il*

**S u a l: Cənab Prezident, İstanbulda keçiriləcək zirvə görüşündə hansı məsələlərin müzakirəsi nəzərdə tutulur?**

**C a v a b:** Bu, türkdilli dövlətlərin başçılarının VII zirvə görüşüdür. Hər bir zirvə görüşündə biz çox məsələlərə baxırıq. İndi bəyannamə hazırlanıb, razılaşdırılıbdır. Türkdilli dövlətlərin elm, mədəniyyət sahəsindəki işbirliyi, bizim tarixi köklərimiz, ədəbiyyat, mədəniyyət sahəsindəki şəxsiyyətlərimiz və bunların əsasında indi bizim türkdilli dövlətlər arasında çox yaxşı işbirliyinin yaranması, iqtisadi əlaqələr, təbiidir ki, bu, əsas yer tutur. O mənada ki, türkdilli dövlətlər bir coğrafi məkanda olduqlarına görə, bir-biri ilə daha da çox iqtisadi əlaqələr yaratmalıdır, dünyada gedən proseslərə baxış, türkdilli dövlətlər tərəfindən onlara verilən qiymət – bunların hamısı hazırlanmış bəyannamə layihəsində vardır. Əvvəlcədən müəyyən edilməsə də, bilirəm ki, zirvə görüşlərində, adətən, söhbətlər, danışıqlar və çıxışlar belə mövzular ətrafında olur. Yəqin ki, bu dəfə də belə olacaqdır.

**S u a l: Cənab Prezident, Dağlıq Qarabağ münaqişəsi ilə bağlı türkdilli dövlətlərin başçıları tərəfindən hər hansı bir bəyanatın veriləcəyi gözlənilirmi?**

**C a v a b:** Bəyannamədə belə bir bənd var. Ancaq mən sizə bildirmək istəyirəm ki, əvvəlki zirvə görüşlərində də Dağlıq Qarabağ məsələsi barədə müzakirə keçirilməyibdir. Çünki bəzi türkdilli dövlətlərin başçıları deyirlər ki, bu birlik siyasətləşdirilməməlidir. Ancaq biz həmişə bu imkandan istifadə edib Dağlıq Qarabağ, yəni Ermənistan–Azərbaycan münaqişəsi haqqında öz sözümüzü deyirik. Təbiidir ki, mən bu dəfə də deyəcəyəm. Yəqin ki, başqa bir etiraz olmasa, o, İstanbul bəyannaməsində öz əksini tapacaqdır.

**S u a l: Cənab Prezident, İran prezidenti İslam Konfransı Təşkilatı çərçivəsində bütün müsəlman ölkələrini Fələstini müdafiə etməyə, İsrail əleyhinə müharibəyə çağırıbdır. Bununla bağlı nə deyərdiniz?**

**C a v a b:** Çağırıb-çağırıbdır.

**S u a l: Cənab Prezident, ötən həftə biz, beş nəfər Azərbaycan jurnalisti Misir Ərəb Respublikasında olduq. Orada bizi parlamentin spikeri, prezident Hüsnü Mübarəkin siyasi məsələlər üzrə müşaviri qəbul etdi. Onlar bizdən xahiş etdilər Sizə çatdıraq ki, bütün Misir rəsmiləri, Misir dövləti Dağlıq Qarabağ münaqişəsinin sülh yolu ilə həll edilməsi istiqamətində Azərbaycan prezidenti Heydər Əliyevin göstərdiyi səyləri dəstəkləyir və Sizin ABŞ-da keçirdiyiniz görüşlər onların diqqət mərkəzindədir. Misir–Azərbaycan əməkdaşlığına gəlincə, dedilər ki, Azərbaycan prezidentinin Misirə rəsmi səfərini səbirsizliklə gözləyirlər. Bu istiqamətdə işlər gedir, lakin səfərin baş tutması daha çox Sizdən asılıdır. Bu barədə nə deyərdiniz?**

**C a v a b:** Çox sağ ol, bu məlumata görə təşəkkür edirəm.

Misir Ərəb Respublikası ilə Azərbaycan arasında, həqiqətən, çox səmimi dostluq, qardaşlıq əlaqələri var. Bundan əlavə, prezident Hüsnü Mübarəklə mənim şəxsi əlaqələrim də

var. Bu, keçmişdən olan əlaqələrdir. Amma mən Azərbaycan prezidenti olandan sonra Misirə getmişdim. Orada çox səmimi söhbətlər etdik. Sonra Mərakeşdə, Kasablankada İslam Konfransı Təşkilatının zirvə görüşündə də biz bir çox məsələləri müzakirə etdik. Bu əlaqələri həm Misir, həm də Azərbaycan tərəfi inkişaf etdirməyə çalışır. Mən hesab edirəm ki, bu bizim üçün çox əhəmiyyətlidir. Çünki Misir həm ərəb dünyasında, həm də İslam Konfransında çox mötəbər bir ölkə sayılır.

O ki qaldı mənim Misirə dəvət olunmağıma, bu doğrudur. Onlar məni çoxdan dəvət ediblər. Mən də prezident Hüsni Mübarəki Azərbaycana dəvət etmişəm. O mənə deyir ki, sən gəl, sonra mən gəlim. Mən də deyirəm ki, sən gəl, sonra mən gəlim. Amma iş bunda deyil, sadəcə, vaxt tapa bilmirəm. Vaxt tapıb mütləq ora gedəcəyəm. Bu mənim borcumdur.

**S u a l: Cənab Prezident, İstanbula səfərinizin gedişində Türkiyə prezidenti ilə təkbətək görüşünüz planlaşdırılıbmı?**

**C a v a b:** Bəli, görüş olacaqdır. Mənə elə gəlir ki, orada bütün prezidentlər təkbətək görüşəcəklər.

**S u a l: Cənab Prezident, hərbi əməkdaşlıqla bağlı hər hansı bir məsələ müzakirə olunacaqmı?**

**C a v a b:** Axı mən sizə dedim ki, orada müzakirə edilən məsələlər siyasiləşdirilmir.

**S u a l: Cənab Prezident, Sizin səfəriniz ərəfəsində Şəhidlər xiyabanında camenin qarşısındakı bulaq kompleksinin sökülməsi Türkiyə mətbuatı tərəfindən qabardılır, bunun iki ölkə arasındakı münasibətlərə mənfi təsiri barədə yazılar dərc edilir. Sizin bu məsələdə mövqeyiniz necədir?**

**C a v a b:** Bilirsinizmi, Türkiyədə də sizin kimi qəzetçilər var. Bəhanə axtarırlar ki, özlərini göstərsinlər, yaxud da Türkiyə – Azərbaycan əlaqələrinə hansısa bir ləkə yaxsınlar. Bunların hamısı əhəmiyyətsiz, xırda şeylərdir. Türkiyə ilə Azərbaycan arasında dostluğun, qardaşlığın, strateji əmək-

daşlıq münasibətlərinin çox dərin kökləri var və bu möhkəmdir.

Mart ayında mənim Türkiyəyə rəsmi səfərim oldu. Demək olar ki, mən bir həftə müddətində Türkiyədə oldum, Böyük Millət Məclisinin iclasında bir saat yarım nitq söylədim. Bunların hamısı onu göstərir ki, bizim əlaqələrimizə heç kəs bir şey edə bilməz. Ancaq mən sizə də, onlara da məsləhət görürəm ki, belə xırda şeyləri şişirtməyin.

**S u a l: Cənab Prezident, İran bir tərəfdən, müsəlman Fələstini müdafiə edir, digər tərəfdən, Azərbaycanın işğal olunmuş torpaqlarında Ermənistanla əməkdaşlıq edir. Siz buna kəskin münasibətinizi də bildirmişdiniz. Bu məsələ nə yerdə qaldı?**

**C a v a b:** Bildirmişdim də.

**S u a l: Yəni onlar belə əməkdaşlığı yenə davam etdirəcəklərmi?**

**C a v a b:** Bilirsinizmi, hər bir dövlət müstəqildir. Bir dövlət o biri dövlətə öz fikrini deyə bilər, narazılığını bildirə bilər. Ancaq o biri dövlət bunu nə dərəcədə həyata keçirərsə, bu bizdən asılı deyildir.

**S u a l: Cənab Prezident, Türkiyə prezidenti ilə görüşünüzdə Azərbaycanla Türkiyə arasında hərbi əməkdaşlıq məsələsi müzakirə ediləcəkmi?**

**C a v a b:** Mən bu suala cavab verdim.

**S u a l: Cənab Prezident, Avropa Şurası Parlament Assambleyasında İlham Əliyevin çıxışına peşəkar siyasətçi kimi, Sizin münasibətinizi bilmək istərdik?**

**C a v a b:** Bilirsiniz ki, dünən axşam bizim televiziya ilə oranın birbaşa bağlantısı var idi. Mən onu diqqətlə seyr etdim. Bəlkə bu barədə mənim söz deməyim yaxşı deyil, çünki İlham Əliyev mənim oğlumdur. Ancaq hesab edirəm ki, Azərbaycanı orada çox layiqli təmsil edibdir. Bundan əlavə, mən axşam onunla telefon əlaqəsi də saxladım. Mənə dedi ki, orada, Parlament Assambleyasının əsas böyük iclasında çıxış

edibdir və Ermənistanı işğalçı kimi çox kəskin tənqid edibdir və başqa işlər görübdür. Komitədə, Avropa Şurasında İngiltərədən olan bir deputat var, Atçison – bizim Avropa Şurasına daxil olmağımıza da mane olurdu – onun və bir neçəsinin təşəbbüsü ilə İstanbulda bir konfrans keçirmək və oraya həm Dağlıq Qarabağın, həm də Abxaziyanın nümayəndələrini dəvət etmək istəyirdilər. Ancaq bunun da qarşısını alıblar.

Dünən o özü televiziyada çıxışında dedi ki, Azərbaycan nümayəndə heyəti orada, hər halda, yüksək səviyyədədir. Ən sevindirici hal odur ki, nümayəndə heyətinin tərkibində müxtəlif tərəfləri təmsil edən adamlar var. Hamısı birdir, mütəşəkkildirlər. Bu məni sevindirir.

**S u a l: Cənab Prezident, ABŞ-ın 17-ci ştatı artıq «erməni soyqırımını» tanıdı. Bu, gələcəkdə ABŞ – Azərbaycan münasibətlərinə necə təsir edə bilər?**

**C a v a b:** Siz bu sualları mənə niyə verirsiniz? Siz gedin, oxuyun, ABŞ-ın prezidenti Corc Buş bu gün böyük bir bəyanat veribdir. Eyni zamanda Amerika Birləşmiş Ştatları Türkiyə ilə çox sıx dostluq əlaqəsindədir. Türkiyə NATO-nun üzvüdür. Bu bölgədə də NATO-nun ən böyük dayaq yeri Türkiyədir. Bu da var, o da var.

**S u a l: Cənab Prezident, bu yaxınlarda Avropa Şurasında Ukraynanın bu beynəlxalq təşkilatdan çıxarılması məsələsi müzakirə ediləcəkdir. Ukrayna ilə Azərbaycan əlaqələrini nəzərə alsaq, ölkəmizin buna münasibəti necə olacaqdır?**

**C a v a b:** Mənfi olacaqdır. Biz istəmirik ki, onları Avropa Şurasından çıxarsınlar.

**S u a l: Cənab Prezident, Siz struktur islahatlarına artıq başlamısınız. Bu proses dayanıb, yoxsa davam edəcək?**

**C a v a b:** Mən sənin adını «struktur islahatı» qoymuşam (gülür). Bilirsiniz, siz elə məxluqsunuz ki, necə deyərlər, heç vaxt mümkün deyildir ki, görülən işləri qiymətləndirə biləsiniz. İslahatlar gecikirdi, siz bunu tənqid edirdiniz. Sənin

özün də mənə dəfələrlə sual vermisən, ona görə də adın belə qalıbdır. İndi islahatlar gedir, biri oradan deyir ki, islahatlar gedir, amma gecikibdir. Biri deyir ki, bu islahatlar keçiriləndə filan qədər adam işsiz qalacaqdır. Bəs onda nə edək? İslahatları keçirməsək, onda heç kim işsiz qalmayacaqdır! Ancaq keçirsək, təbiidir ki, kimlərsə işsiz qalacaqdır. Ancaq biz onların həyatına biganə deyilik. Biz lazımi tədbirlər görürük və görəcəyik. O, dəyərli işçilər ki, həmin nazirliklərdə işləyibər və fəaliyyət göstəriblər, onlar işləyəcəklər. Ancaq onlar ki, məsələn, bəlkə də zəif olublar – struktur islahatları idarəetmə sisteminin ixtisarı ilə əlaqədardır. Yəni, idarəetmə sistemi, birincisi, indiyə qədərki kimi şişirdilmiş olmasın, ikincisi də, daha da yaxşı idarə edə bilsin – biz çalışacağıq ki, onların haqqında da lazımi tədbirlər görək. Biz bu islahatları keçirmişik və keçiririk. Ancaq islahatları keçirməyəndə də bizi tənqid edirdiniz, indi keçirəndə də tənqid edirsiniz. İndi bilmirəm nə edək ki, tənqid etməyəsiniz?

**S u a l: Zirvə toplantısında Transxəzər boru kəməri ilə bağlı hər hansı müzakirələr aparılacaqmı?**

**C a v a b:** Türkmənistanı deyirsən… Bilmirəm, bu, Türkmənistanla Türkiyənin işidir. Vaxtilə hətta Ankara bəyannaməsində, 1999-cu ildə biz onu dəstəkləmişdik. Mən də ona imza atmışdım. Amma sonra Türkmənistan bundan imtina etdi. Ona görə biz bu işə qarışmırıq.

**S u a l: Cənab Prezident, Hacıbala Abutalıbovun Bakıda apardığı işlərdən bəzən narazılıq müşahidə olunur. Hər dəfə də deyilir ki, cənab prezidentin bundan xəbəri var. Siz Hacıbala Abutalıbovun bu istiqamətdə fəaliyyətini dəstəkləyirsinizmi? Doğrudanmı prezidentin hər şeydən xəbəri var?**

**C a v a b:** Bilirsinizmi, yenə də deyirəm, belə bir söz var ki, sizi heç cür razı salmaq mümkün deyildir. Vaxtilə deyirdilər ki, Bakı zibillidir, şəhərdə qanunsuz işlər görülür və sair. Bəs prezident haraya baxır, nə üçün prezident ölçü götürmür? İndi

yeni icra hakimiyyəti başçısı qoymuşuq. O, lazımi tədbirlər görür, bunun əleyhinə çıxış edirsiniz. Biz nə edək?

Əlbəttə ki, Hacıbala Abutalıbovun gördüyü hər iş üçün – məsələn, hansısa bir köşkü götürməsi və s. üçün prezidentin razılığı lazım deyildir. İcra hakimiyyətinin başçısı kimi, sadəcə, ona səlahiyyət vermişəm ki, paytaxtımızda təmizlik işləri aparsın, qayda-qanun yaratsın, insanların rahat istirahət etməsi, yaşaması üçün daha yaxşı imkanlar yaratsın. Bunlar son günlər yaradılır. Hər halda, siz bu küçələrdə iki ay bundan qabaq da gedirdiniz və indi də gedirsiniz. Mən çox yeri gəzə bilmirəm. Amma getdiyim yollara baxıram. Baxmayaraq, bilirdim ki, mən getdiyim yolları çalışırlar yaxşı saxlasınlar və məndə elə təəssürat yaransın ki, hər yer belədir. Ona görə mən, əlbəttə ki, onu dəstəkləyirəm.

**S u a l: Cənab Prezident, bu yaxınlarda Azərbaycan daha bir nüfuzlu təşkilatda – Amerika dövlətləri təşkilatında müşahidəçi statusu qazandı. Sizcə, bu təşkilat Azərbaycana hansı iqtisadi və siyasi fayda verə bilər?**

**C a v a b:** Baxarıq.

**S u a l: Cənab Prezident, mətbuat haqqında Sizin fərmanınız olmalı idi…**

**C a v a b:** Bilirsinizmi, bir var mətbuat, bir də var Mətbuat Nazirliyi. Bunlar bir-birindən fərqlidir. Mətbuat haqqında mənim böyük fərmanım olubdur. Mətbuat azadlığı, söz azadlığı… bunların hamısı var. Amma nazirlik struktur dəyişikliklərin nəticəsində ləğv edilibdir. O, artıq öz funksiyasını itiribdir.

**S u a l: Cənab Prezident, sammitdə hansı türkdilli dövlətlərin başçıları ilə görüşməyi nəzərdə tutursunuz?**

**C a v a b:** Hamısı ilə. Sağ olun.

## *AZƏRBAYCAN PREZİDENTİ HEYDƏR ƏLİYEVİN TÜRKİYƏYƏ İŞGÜZAR SƏFƏRİ*

*25 aprel 2001-ci il*

*Azərbaycan Respublikasının prezidenti Heydər Əliyev türkdilli ölkələrin dövlət başçılarının VII zirvə görüşündə iştirak etmək üçün İstanbula gəldi.*

*Atatürk hava limanında dövlətimizin başçısının şərəfinə fəxri qarovul dəstəsi düzülmüşdü.*

*Azərbaycan prezidenti Heydər Əliyevi Dövlət naziri Əbdülxalıq Çay, Türkiyə hökumətinin yüksək vəzifəli digər rəsmi şəxsləri ehtiramla qarşıladılar.*

*Fəxri qarovul dəstəsinin rəisi respublikamızın rəhbərinə raport verdi. Prezident Heydər Əliyev fəxri qarovul dəstəsinin qarşısından keçdi, türk əsgərini salamladı.*

*Azərbaycan prezidenti Heydər Əliyev Atatürk hava limanının fəxri qonaqlar salonunda Türkiyənin Dövlət naziri Əbdülxalıq Çay və qardaş ölkənin yüksək vəzifəli digər rəsmi şəxsləri ilə görüş keçirdi.*

* * *

*Azərbaycan prezidenti Heydər Əliyev hava limanında maşın karvanının müşayiəti ilə onun üçün ayrılmış iqamətgaha – «Çırağan» hotelinə gəldi. Dövlətimizin başçısını burada zirvə görüşünün əlaqələndiricisi Ümüd Apaydın səmimiyyətlə qarşıladı.*

* **

*Prezident Heydər Əliyev onun üçün ayrılmış iqamətgahda Türkiyənin Xarici İşlər naziri İsmayıl Cəmi qəbul etdi.*

*Respublikamızın rəhbərini hərarətlə salamlayan nazir görkəmli dövlət xadimi Heydər Əliyevin İstanbul zirvə görüşündə iştirakını yüksək qiymətləndirdi.*

*Azərbaycan prezidenti Heydər Əliyev türkdilli dövlətlərin belə bir birliyinin olmasından məmnun qaldığını söyləyərək bildirdi ki, ölkəmiz bu birliyi həmişə dəstəkləyəcəkdir. Dövlətimizin başçısı vurğuladı ki, bu birlik türkdilli dövlətləri daha da yaxınlaşdıracaq, onların tərəqqisinə xidmət edəcəkdir.*

* * *

*Azərbaycan prezidenti Heydər Əliyev onun üçün ayrılmış iqamətgahda Türkiyə Baş nazirinin müavini Dövlət Baxçalı ilə görüşmüşdür.*

*Türkdilli ölkələrin VII zirvə görüşündə iştirak etmək üçün İstanbula gəldiyinə görə respublikamızın rəhbərinə minnətdarlığını bildirən Dövlət Baxçalı prezident Heydər Əliyev ilə hər bir görüşdən şərəf duyduğunu söylədi.*

*Söhbət zamanı Ermənistan – Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin sülh yolu ilə aradan qaldırılması üçün Ki-Uest şəhərində ABŞ-ın Dövlət katibi Kolin Pauellin iştirakı və ATƏT-in Minsk qrupu həmsədrlərinin vasitəçiliyi ilə keçirilmiş görüşlərin, aparılmış danışıqların nəticələri, Azərbaycan – Türkiyə əməkdaşlığının perspektivləri, bölgədə vəziyyət və hər iki ölkəni maraqlandıran bir sıra məsələlər haqqında fikir mübadiləsi edildi.*

# TÜRKDİLLİ ÖLKƏLƏRİN DÖVLƏT BAŞÇILARININ VII ZİRVƏ GÖRÜŞÜNÜN AÇILIŞ MƏRASİMİNDƏ ÇIXIŞ

*İstanbul,*
*Çırağan sarayı*

*26 aprel 2001-ci il*

Hörmətli cənab sədr!
Hörmətli dövlət başçıları!
Xanımlar və cənablar!

2000-ci ilin aprel ayında, düz bir il əvvəl Azərbaycanın paytaxtı Bakı şəhərində keçirilmiş VI zirvə görüşünün təşkilatçısı və ev sahibi kimi, sizi dünyanın ən gözəl şəhərlərindən biri olan İstanbulda, qonaqpərvər Türkiyə torpağında türkdilli dövlətlərin başçılarının VII zirvə görüşünün işə başlaması münasibətilə səmimi-qəlbdən salamlayıram.

Məmnuniyyətlə qeyd etmək istəyirəm ki, əsası 1992-ci ildə Ankarada qoyulmuş bu zirvə görüşümüz artıq gözəl bir ənənəyə çevrilmişdir.

Mən belə görüşlərin daimi xarakter almasını ürəkdən alqışlayıram və əmin olduğumu bildirmək istəyirəm ki, indiki zirvə görüşünün bizim çoxtərəfli əməkdaşlığımızın inkişafı, regionumuzda sülhün, sabitliyin, təhlükəsizliyin və etimadın möhkəmləndirilməsi istiqamətində mühüm əhəmiyyəti olacaqdır.

VII zirvə görüşünün hazırlanması və təşkilində Türkiyə Respublikasının prezidenti hörmətli Əhməd Necdət Sezərin böyük zəhmətini yüksək qiymətləndirirəm.

Ümumiyyətlə, 1992-ci ildən başlayaraq harada keçirilməsindən asılı olmayaraq, Türkiyə Cümhuriyyəti zirvə görüşlərimizin təşkilində mühüm rol oynayır və türkdilli dövlətləri yaxınlaşdırmaq baxımından öz üzərinə düşən tarixi missiyanı şərəflə yerinə yetirir. Bunun üçün Türkiyə dövlətinə və xalqına səmimi təşəkkürümü bildirirəm.

Ölkələrimiz və xalqlarımız arasında dostluq və əməkdaşlığın inkişafına göstərdikləri diqqət və qayğıya görə Qazaxıstan Respublikasının prezidenti hörmətli Nursultan Nazarbayevə, Qırğızıstan Respublikasının prezidenti hörmətli Əsgər Akayevə, Özbəkistan Respublikasının prezidenti hörmətli İslam Kərimova, Türkmənistan Respublikasının prezidenti hörmətli Saparmurad Niyazova minnətdarlığımı bildirirəm.

Məlumdur ki, görüşlərimizin əsas məqsədi xalqlarımızın sülh və əmin-amanlıq şəraitində yaşamaq istəyini həyata keçirməkdədir. Eyni coğrafi regionda yaşamağımız, eyni köklərə malik olmağımız bizi bir-birimizə daha da yaxınlaşdırır, strateji əməkdaşlığımızı zərurətə çevirir.

2001-ci il türkdilli dövlətlərin başçılarının zirvə görüşünün üzvü olan ölkələrdən beşi üçün xüsusi əhəmiyyət kəsb edir. Qazaxıstan, Qırğızıstan, Özbəkistan, Türkmənistan və Azərbaycan dövlət müstəqilliklərinin 10 illik yubileyini qeyd edirlər. Mən bu böyük tarixi hadisə münasibətilə qardaş ölkələrin başçılarını və xalqlarını ürəkdən təbrik edir, onlara daim sülh, sabitlik, tərəqqi və çiçəklənmə arzulayıram.

Müstəqilliyimizin əldə edilməsindən sonra Türkiyə və Azərbaycan arasında əlaqələr genişlənməkdə davam edir. Biz artıq Türkiyə – Azərbaycan strateji tərəfdaşlıq münasibətlərini möhkəmləndiririk.

Ancaq xalqlarımız arasında əlaqələrin tarixi çox qədimdir və onlar bizim üçün dəyərlidir. Çünki biz eyni kökə mənsub xalqlarıq, eyni milli-mənəvi dəyərləri, eyni dini paylaşırıq.

Keçmişimiz bir olduğu kimi, gələcəyə aparan yollarımız da eynidir. Bütün bunlar bizi yaxınlaşdırır, doğmalaşdırır.

Biz Türkiyənin nail olduğu inkişafdan və onun Dünya Birliyindəki nüfuzundan böyük məmnunluq duyuruq və inanırıq ki, Türkiyə bundan sonra da Atatürk yolu ilə, demokratiya, insan haqlarının qorunması, hüquqi dövlət quruculuğu və bazar iqtisadiyyatı yolu ilə uğurla irəliləyəcəkdir.

Biz XX əsrin son yetmiş ilini bir dövlət tərkibində yaşadığımız qardaş Qazaxıstan, Qırğızıstan, Özbəkistan və Türkmənistanla ikitərəfli və çoxtərəfli əlaqələrimizi daha da genişləndirmək, müstəqilliyin yaratdığı imkanlardan faydalanmaq, daha böyük işbirliyi qurmaq əzmindəyik.

VII zirvə görüşü bir daha təsdiq edir ki, tarixi mənşəyimiz, qarşımızda duran məqsəd və problemlərin oxşarlığı, milli mənafelərimizin birliyi bizim strateji əməkdaşlığımızın etibarlı təməlidir və gələcəyimizə nikbin baxmağa əsas verir.

Mən zirvə görüşünün işinə bir daha uğurlar arzu edirəm.

Diqqətinizə görə təşəkkür edirəm.

## TÜRKDİLLİ ÖLKƏLƏRİN DÖVLƏT BAŞÇILARININ VII ZİRVƏ GÖRÜŞÜNDƏ NİTQ

*İstanbul,*
*Çırağan sarayı*

*26 aprel 2001-ci il*

Hörmətli cənab sədr!
Hörmətli dövlət başçıları!
Xanımlar və cənablar!

Qardaş türkdilli dövlətlərin başçılarına, nümayəndə heyətlərinin üzvlərinə, bütün qonaqlara İstanbul şəhərində öz işinə başlayan VII zirvə görüşü münasibətilə Azərbaycan xalqı adından bir daha ən səmimi salamlarımı və xoş arzularımı çatdırıram.

Görüşümüzün uğurla keçəcəyinə və qarşıya qoyulmuş məqsədlərə çatacağına, ölkələrimizin və xalqlarımızın əməkdaşlığı, işbirliyi yolunda mühüm addıma çevriləcəyinə ümidvar olduğumu bildirirəm.

Türkiyə Cümhuriyyətinin prezidenti, dostum və qardaşım Əhməd Necdət Sezərə, Türkiyə hökumətinə və xalqına bu mühüm görüşün ev sahibliyini öz üzərinə götürdükləri üçün ürəkdən minnətdarlığımı bildirirəm.

Böyük məmnuniyyət hissi ilə qeyd edirəm ki, türkdilli dövlətlərin başçılarının 1992-ci ildə keçirilmiş ilk, Ankara görüşündən ötən illər ərzində qarşılaşdığımız bütün çətinliklərə baxmayaraq birliyimiz  inkişaf edib, möhkəmləndirilib.

Keçən illər ərzində ölkələrimiz, dövlətlərimiz və xalqlarımız arasında bir çox sahələrdə əlaqələr genişlənib, əməkdaşlığımız artıq öz səmərəsini göstərməyə başlayıbdır.

Əminəm ki, yeni əsr dövlətlərimiz üçün sabitlik, dinamik inkişaf, konstruktiv siyasi dialoq, qarşılıqlı sürətdə faydalı əməkdaşlıq, xalqlarımız üçün isə ictimai tərəqqi və rifah əsri olacaqdır. Bütün bunlara biz, əldə etdiyimiz tarixi nailiyyətlərin – milli azadlığımız, dövlət müstəqilliyimiz və müştərək işbirliyimizin daha da möhkəmlənməsi nəticəsində nail olacağıq.

Bu gün toplaşdığımız VII zirvə görüşü bir daha təsdiq edir ki, müstəqillik qazandıqdan sonra xalqlarımız və ölkələrimiz arasında çoxtərəfli əməkdaşlıq birinci növbədə ortaq mədəniyyətimizin, adət-ənənələrimizin, tariximizin, milli-mənəvi dəyərlərimizin bərpası baxımından bir sıra müsbət nəticələr vermiş və gələcək üçün aydın perspektivlər açmışdır.

Türkdilli dövlətlər dünyanın çox mühüm coğrafi-strateji bir regionunda yerləşirlər. Onlar əlverişli mövqeyə, zəngin təbii ehtiyatlara, yüksək intellektual potensialı olan insan resurslarına malikdirlər. Xalqlarımızın çoxəsrlik dövlətçilik ənənələri, zəngin mədəniyyəti, yüksək humanist keyfiyyətləri vardır.

Hələ keçən əsrin əvvəllərində türk xalqlarını yaxınlaşdırmaq, onları vahid siyasi, iqtisadi və mədəni güçə çevirmək istəyən görkəmli şəxsiyyətlərimiz «Dildə, fikirdə və əməldə birlik» şüarı ilə çıxış edirdilər. Biz uzun və çətin mübarizələrdən sonra yalnız XX əsrin sonunda bu istiqamətdə böyük irəliləyişlərə nail olduq. Şübhəsiz, indiki şəraitdə türkdilli dövlətlərin başçılarının qarşılıqlı əməkdaşlığı və ardıcıl təması bu sahədəki uğurlarımızı daha da artıracaqdır.

Bizim zirvə görüşlərimizin nəticəsində bir sıra nəcib ənənələrin əsası qoyulmuşdur. Onların sırasında dahi şəxsiyyətlərimizin, milli mədəniyyətlərimizin korifeylərinin, bəşər sivilizasiyasının inciləri sayılan möhtəşəm eposlarımızın əlamətdar

ildönümlərini, xalqlarımızın həyatındakı mühüm və tarixi hadisələri birlikdə bayram etməyimiz əhəmiyyətli yer tutur.

«Manas» eposunun 1000, Əmir Teymurun 660, Məhəmməd Füzulinin 500, Abay Kunanbayevin 150, «Kitabi-Dədə Qorqud» dastanının 1300 illiyinin, əsasən, türkdilli dövlətlərin başçılarının zirvə görüşü çərçivəsində bayram edilməsi, bu görüşlərin əhatə dairəsini daha da genişləndirmişdir.

Belə yubiley tədbirlərinin birlikdə qeyd olunmasında əsas məqsəd xalqlarımızın əsrlər boyu yaratdığı zəngin mənəvi irsi indiki nəsillərə qaytarmaq, eyni kökə, eyni tarixə malik olduğumuzu bütün dünyaya bir daha nümayiş etdirməkdir.

Digər tərəfdən, belə yubiley tədbirlərini keçirməklə, biz inandırıcı şəkildə göstəririk ki, İbn-Sinanın, Nizaminin, Nəvainin, Yunis İmrənin, Füzulinin, Məxtumqulunun, Mahmud Kaşqarinin, Abayın və bir çox başqa dahilərimizin yaradıcılığı, «Kitabi-Dədə Qorqud», «Manas», «Alpamış» kimi ölməz dastanlar təkcə bizim xalqlarımıza məxsus deyil, onlar həm də bütün bəşəriyyətin mədəni sərvətidir.

Sarsılmaz tarixi tellərlə bağlılığımızla bərabər, məqsəd və vəzifələrimizin, qarşılaşdığımız problemlərin oxşarlığı ölkələrimizi və xalqlarımızı birləşdirən güclü amildir.

Dərin razılıq hissi ilə qeyd etmək istəyirəm ki, 1992-ci ildən başlayaraq, sıra ilə qardaş dövlətlərimizin paytaxtlarında keçirilən zirvə görüşləri nəticəsində keçən müddət ərzində türkdilli dövlətlərin ikitərəfli münasibətləri daha da inkişaf etmiş, aramızda yüksək səviyyəli çoxlu görüşlər keçirilmiş, danışıqlar aparılmış, dost ölkələrimizə qarşılıqlı səfərlər olmuş, bir sıra mühüm dövlətlərarası sazişlər imzalanmışdır.

Bu sazişlər dövlətlərimizin müstəqilliyinin möhkəmlənməsinə, xalqlarımızın rifahının yüksəlməsinə xidmət edir.

Türkdilli dövlətlərin başçıları arasında sıx şəxsi ünsiyyət, mehriban dostluq və qardaşlıq münasibətləri yaranmışdır. Bu isə bir çox çətin və mürəkkəb məsələlərin birgə səylərlə həll

olunmasına kömək edir. Bunun nəticəsidir ki, ölkələrimiz bir sıra iri beynəlxalq layihələr çərçivəsində uğurla əməkdaşlıq edirlər.

Bu gün hamımızı birləşdirən belə nəhəng layihələrdən biri də Xəzər hövzəsindəki enerji daşıyıcılarının hasil edilməsi və onları dünya bazarına çıxaracaq infrastrukturların yaradılmasıdır.

1994-cü ildən başlayaraq, Azərbaycanın ardıcıl surətdə həyata keçirdiyi enerji strategiyası nəticəsində dünyanın iri neft şirkətlərinin təmsil olunduğu konsorsium ilə məşhur «Əsrin müqaviləsi» imzalanmış və Xəzər hövzəsi enerji ehtiyatlarının işlənməsi üzrə uzunmüddətli beynəlxalq əməkdaşlıq bölgələrindən birinə çevrilmişdir. Məhz bundan sonra karbohidrogen ehtiyatlarının aşkara çıxarılması üçün göstərilən səylər Qazaxıstanda və Türkmənistanda da zəngin yataqların olduğunu təsdiq etmişdir.

Beləliklə, Azərbaycanın bu siyasəti nəticəsində Xəzər hövzəsi bu gün bütün dünyanın diqqətini özünə cəlb edən ən cazibədar və perspektivli enerji mənbələrindən biri olan coğrafi-siyasi regiona çevrilmişdir.

Xəzəryanı dövlətlərin hər birinin enerji ehtiyatları ilə zəngin olan öz sektoru və buradan irəli gələn bütün hüquq və imkanları vardır. Biz bu imkanlardan istifadə edərək, birgə çoxtərəfli layihələrin həyata keçirilməsində iştirak etməklə Xəzər hövzəsini iqtisadi tərəqqi zonasına çevirər, dünya iqtisadi sistemində öz layiqli yerimizi tutarıq. Ümidvaram ki, İstanbul görüşü bu əməkdaşlığa yeni güclü təkan verəcəkdir.

Şübhə yoxdur ki, ölkələrimizin malik olduğu zəngin təbii sərvətlər və əlverişli coğrafi mövqe iqtisadi fayda ilə yanaşı, dövlətlərimizə həm də böyük siyasi üstünlüklər qazandırır.

Enerji resurslarının birgə hasilatı, dünya bazarlarına çıxmaq üçün neft və qaz kəmərlərinin çəkilişi dövlətlərimizin mənafeyini dünyanın inkişaf etmiş ölkələrinin mənafeyi ilə

birləşdirəcək və regionun təhlükəsizliyinin, sabitliyinin və tərəqqisinin təminatçısına çevirəcəkdir.

Diqqətəlayiq haldır ki, beynəlxalq əməkdaşlığımızın nümunəsi sayılan Bakı–Tbilisi–Ceyhan əsas ixrac boru kəmərinin çəkilməsi ilə bağlı möhtəşəm layihənin reallaşdırılması 1998-ci il oktyabrın 29-da, Türkiyə Cümhuriyyətinin 75 illik yubileyi zamanı imzalanmış Ankara bəyannaməsi ilə başlanmışdır.

1999-cu ilin noyabrında, ATƏT-in sammiti zamanı Bakı–Tbilisi–Ceyhan əsas ixrac boru kəməri ilə əlaqədar imzalanmış tarixi İstanbul sazişi ölkələrimizin gələcək inkişafı, regionumuzun təhlükəsizliyi və çiçəklənməsi yolunda böyük uğur sayılmalıdır.

Türkdilli dövlətlərin iqtisadiyyatının dirçəlməsində mühüm rolu olan TRASEKA və Böyük İpək Yolunun bərpası layihələrini xüsusi qeyd etmək lazımdır. TRASEKA proqramını yerinə yetirib Avropa–Qafqaz–Asiya nəqliyyat dəhlizini reallığa çevirməklə, biz həm iqtisadi inkişaf və yeni iş yerlərinin açılması üçün imkan yaradır, həm də regionumuzda sülh və sabitlik şəraitini möhkəmləndiririk.

Tarixi Böyük İpək Yolunun bərpasına dair 1998-ci il sentyabrın 7-8-də Avropa Birliyinin himayəsi altında Bakıda dünyanın 32 dövlətinin və 15 beynəlxalq təşkilatın nümayəndələrinin iştirakı ilə keçirilmiş beynəlxalq konfransın böyük əhəmiyyəti olmuşdur.

Böyük Ipək Yolunun bərpa edilməsi, TRASEKA proqramının həyata keçirilməsi nəticəsində Avropa İttifaqı məkanından başlayaraq, Qafqaz və Xəzər dənizi vasitəsilə Mərkəzi Asiyayadək uzanan nəqliyyat dəhlizi Şərqlə Qərbi, Avropa ilə Asiyanı birləşdirəcəkdir. Bu layihənin reallaşmasında türkdilli dövlətlər açar rolunu oynayır.

1999-cu ilin aprelində Amerika Birləşmiş Ştatlarının Senatında İpək Yolu ölkələrinin dövlət başçılarının, Amerika Birləşmiş Ştatları administrasiyasının yüksək səviyyəli nümayəndələrinin, konqresmenlərin iştirakı ilə keçirilən konfrans bizim məqsəd birliyimizi, Böyük İpək Yolunun bərpasında fəal iştirak etmək arzusunda olduğumuzu bir daha təsdiq etdi.

XX əsrin sonu dünyanın coğrafi-siyasi mənzərəsini dəyişdirmiş hadisələrlə əlamətdardır. Xalqlarımızın müstəqilliyini əldə etməsi, demokratik inkişaf yolunu seçərək irəliləməsi tariximizdə yeni səhifələr açır.

Qardaş Qazaxıstan, Qırğızıstan, Özbəkistan və Türkmənistanla bərabər, Azərbaycan da bu il müstəqilliyinin 10 illik yubileyini qeyd edir. Mən böyük iftixar hissi ilə bildirirəm ki, Azərbaycan Respublikası ötən illər ərzində müstəqilliyini və suverenliyini qorumuş, Dünya Birliyinə inteqrasiyasını müvəffəqiyyətlə davam etdirmişdir.

Bir sıra çətinliklərə baxmayaraq, Azərbaycan dünyanın mötəbər beynəlxalq təşkilatlarından biri olan Avropa Şurasına tamhüquqlu üzv qəbul olunmuş və bununla da Ümumavropa ailəsinə həqiqətən mənsubluğunu təsdiq etmişdir.

Lakin sadalanan uğurlarla yanaşı, yeni müstəqil dövlətlər həllini tapmamış, bu və ya digər şəkildə onların müstəqilliyi və suverenliyini təhlükə altına qoya biləcək problemlərlə də üzləşirlər.

Dünyada separatizm, terrorizm, dini ekstremizm təhlükəsi hələ də azalmamış, əksinə, artmışdır. Məhz qonşu Ermənistanın hərbi təcavüzü, Azərbaycana qarşı haqsiz ərazi ideyaları nəticəsində 1988-ci ildə Ermənistan–Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi yaranmışdır.

Əvvəlcə keçmiş sovet rəhbərliyinin, sonrakı dövrdə isə Dünya Birliyinin laqeydliyi üzündən artıq 10 ilə yaxındır ki, Azərbaycan ərazisinin 20 faizi Ermənistan silahlı qüvvələri-

nin işğalı altındadır. Doğma torpaqlarından qovulmuş bir milyondan artıq azərbaycanlı hələ də qaşqın kimi, çadır şəhərciklərində ağır və dözülməz şəraitdə yaşayır.

Birləşmiş Millətlər Təşkilatının Təhlükəsizlik Şurası hələ 1993-cü ildə münaqişə ilə əlaqədar dörd qətnamə qəbul etmişdir. Qətnamələrdə Ermənistan silahlı qüvvələrinin Azərbaycanın işğal edilmiş ərazilərindən qeyd-şərtsiz, dərhal çıxarılmasının tələb olunmasına baxmayaraq, Ermənistan bu günədək həmin qətnamələri yerinə yetirmir.

Azərbaycan tərəfi ardıcıl surətdə sülhsevər siyasət yeridərək, münaqişənin dövlətlərin ərazi bütövlüyü, beynəlxalq birlik tərəfindən tanınmış sərhədlərin toxunulmazlığı və beynəlxalq hüququn digər norma və prinsiplərinə uyğun şəkildə ədalətli həllinə, işğal olunmuş ərazilərin azad edilməsinə, qaçqınların və köçkünlərin doğma yurdlarına qayıtmasına çalışır.

1994-cü ilin may ayında Ermənistanla Azərbaycan arasında atəşkəs haqqında saziş imzalanıb və ona əməl olunur. ATƏT-in Minsk qrupu, onun həmsədrləri – Rusiya, Amerika Birləşmiş Ştatları və Fransa məsələnin sülh yolu ilə həlli istiqamətində çalışırlar. Lakin Ermənistanın beynəlxalq hüquq normalarına riayət etməməsi, danışıqlar prosesində qeyri-konstruktiv mövqe tutması münaqişənin aradan qaldırılmasına imkan vermir.

Münaqişənin həllində irəliləyiş əldə edilməsi məqsədi ilə son iki ildə Ermənistan prezidenti ilə Azərbaycan prezidenti arasında birbaşa görüşlər keçirilməsi zərurəti bildirilmişdir.

Son zamanlar Azərbaycan prezidenti ilə Ermənistan prezidenti arasında danışıqlar prosesi intensivləşmişdir. 2001-ci il yanvarın 25-26-da və martın 4-5-də Parisdə Fransa prezidenti Jak Şirakın vasitəçiliyi ilə Ermənistan – Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin sülh yolu ilə tənzimlənməsi məsələsi müzakirə edilmişdir.

2001-ci il aprelin 3–6-da Amerika Birləşmiş Ştatlarının Florida ştatının Ki-Uest şəhərində Dövlət katibi Kolin Pauellin təşəbbüsü və iştirakı, ATƏT-in Minsk qrupu həmsədrlərinin vasitəçiliyi ilə Azərbaycan və Ermənistan prezidentləri arasında müzakirələr davam etdirilmişdir. Danışıqlar sona çatdıqdan sonra Azərbaycan və Ermənistan prezidentləri Amerika Birləşmiş Ştatlarının prezidenti Corc Buş ilə Vaşinqton şəhərində görüşmüşlər, növbəti sülh danışıqları cari ilin iyun ayında İsveçrədə olacaqdır.

Ümid edirik ki, sülh danışıqları, nəhayət, öz bəhrəsini verəcək, biz məsələnin ədalətli həllinə, Azərbaycanın ərazi bütövlüyünün bərpasına, qaçqın və köçkünlərin öz yerlərinə qayıtmasına nail olacağıq.

Ermənistanın Azərbaycana hərbi təcavüzü xalqımıza böyük zərbələr vurmuşdur. Biz bu münaqaişəni aradan qaldırmaq üçün var qüvvəmizlə çalışırıq. Hesab edirəm, bizim düşdüyümüz vəziyyətdən hamı nəticə çıxarmalıdır. Hər bir hərbi təcavüzün qarşısı vaxtında alınmalıdır və Dünya Birliyi belə təhlükələri aradan qaldırmaq üçün qəti tədbirlər görməlidir.

Separatizmin, terrorizmin, dini ekstremizmin qarşısını almaq üçün Dünya Birliyi, eləcə də Türkdilli Dövlətlər Birliyi səmərəli birgə fəaliyyət göstərməlidirlər.

Bu təhlükələr isə yalnız Cənubi Qafqazda deyil, digər regionlarda da mövcuddur. Ötən ildən başlayaraq ayrı-ayrı dini ekstremist qruplaşmaların Mərkəzi Asiyada, ilk növbədə isə Özbəkistanda və Qırğızıstanda fəallaşmaları, onların separatçı və terrorçu fəaliyyətləri nəticəsində baş vermiş insan tələfatı və qarşıdurma Azərbaycanda da haqlı narahatlıqla qarşılanmışdır.

Bütün bunlar bir daha göstərir ki, biz terrorizmə, dövlətlərin ərazi bütövlüyünü və sərhəd toxunulmazlığını pozan barışmaz separatizmə, dini ekstremizmə qarşı bundan sonra

da birgə mübarizə aparmalı, bu sahədə səylərimizi birləşdirməliyik.

Diqqətinizə çatdırmaq istəyirəm ki, ATƏT-in İstanbul sammitində Azərbaycan Respublikası ilk dəfə olaraq Cənubi Qafqazda təhlükəsizlik və sabitlik Paktının qəbul edilməsi barədə təkliflə çıxış etmişdi. Bizim təşəbbüsümüz regionun xarici hərbi qüvvələrdən azad edilməsi, təcavüz və etnik təmizləmə siyasətinin aradan qaldırılması, separatizm və terrorizmin qarşısının alınmasına yönəlmişdir.

Biz regionda sabitliyin və sülhün bərqərar olunmasına gətirib çıxaracaq Qafqaz Paktının yaradılması haqqında Türkiyə Cümhuriyyətinin səylərini alqışlayırıq. Bu təkliflərin həyata keçirilməsi üçün imkan və səylərimizi birləşdirməliyik. Baş verə biləcək təhlükələrin qarşısını yalnız bu yolla ala bilərik.

Hörmətli dövlət başçıları!

Xanımlar və cənablar!

Görüş zamanı hazırlanmış İstanbul bəyannaməsinin bütün müddəalarını bütövlükdə dəstəkləyirik.

Biz türkdilli dövlətlərin başçılarının zirvə görüşlərinin daimi katibliyinin yaradılmasını və onun iqamətgahının Türkiyədə yerləşdirilməsi fikrini bəyənirik.

Əminəm ki, Türkdilli Dövlətlər Birliyinin VII İstanbul zirvə görüşü bizim dostluq və qardaşlığımızın möhkəmlənməsinə, türkdilli dövlətlər və xalqlar arasında çoxtərəfli əlaqələrin inkişaf etməsinə qiymətli töhfə verəcəkdir.

Diqqətinizə görə təşəkkür edirəm.

# TÜRKİYƏ CÜMHURİYYƏTİNİN PREZİDENTİ ƏHMƏD NECDƏT SEZƏRİN ADINDAN TÜRKDİLLİ ÖLKƏLƏRİN DÖVLƏT BAŞÇILARININ ŞƏRƏFİNƏ TƏŞKİL EDİLMİŞ RƏSMİ QƏBULDA ÇIXIŞ

*Istanbul,*
*Dolmabaxça sarayı*

*26 aprel, 2001-ci il*

Hörmətli Cümhur başqanı Əhməd Necdət Sezər!
Hörmətli Cümhur başqanları!
Hörmətli qonaqlar!
Xanımlar və cənablar!

Buraya, VII zirvə görüşünə toplaşmış Cümhur başqanları mənə təklif etdilər ki, onların adından və öz adımdan bir neçə kəlmə söz deyim. Mən bu səlahiyyəti çox məmnunluqla qəbul etdim. Çünki hər dəfə Türkiyə haqqında, Türkiyə Cümhuriyyəti, Türkiyə xalqı haqqında və Türkiyə cümhurbaşqani haqqında söz demək mənim qəlbimdən gəlir. Öncə bildirmək istəyirəm ki, türkdilli dövlətlərin başçılarının VII zirvə görüşü artıq sona çatmaqdadır və biz hamımız, yəni buraya toplaşmış Cümhur başqanları, məclis başqanı, nümayəndə heyətlərinin digər üzvləri bu zirvə görüşünün təşkilindən və aparılmasından çox məmnunuq.

Türkdilli ölkələrin dövlət başçılarının zirvə görüşünün əsası 1992-ci ildə Türkiyənin təşəbbüsü ilə Ankarada qoyulmuşdur. 9 il keçib və biz bu gün böyük məmnunluq hissi ilə deyə

bilərik ki, ötən illərdə nə qədər çətin və ağır proseslər olsa da, türkdilli dövlətlər inkişaf ediblər, öz dövlət müstəqilliklərini qoruyublar, suverenliyini qoruyublar və Türkdilli Dövlətlər Birliyi daha yüksək zirvələrə çatıbdır. Türkdilli Dövlətlər Birliyinin təməli Türkiyədə qoyulmuşdur və ötən 9 il ərzində bu birliyin yaşaması üçün, işbirliyimizin genişləndirilməsi üçün və xalqlarımızın bir-birinə yaxınlaşdırılması üçün Türkiyə Cümhuriyyətinin, türk xalqının, Türkiyənin böyük xidmətləri olmuşdur.

Türkdilli Dövlətlər Birliyinə qatılmış hər bir ölkə bərabərhüquqludur, ancaq Türkiyə bu birliyin daha da güclü olmasını, daha da inkişaf etməsini təmin edən ən qabaqcıl ölkədir. Biz hər dəfə Türkiyəyə gələndə böyük məmnunluq hissi duyuruq və türk qardaşlarımızla görüşərkən özümüzü çox bəxtiyar hiss edirik. Bizi sevindirən odur ki, Türkiyə Cümhuriyyəti 1923-cü ildən, cümhuriyyət yaranandan indiyə qədər çox sürətlə inkişaf edibdir və dünyanın ən böyük dövlətlərindən biri kimi, son illərdə həm iqtisadi, həm siyasi, həm də digər sahələrdə Dünya Birliyində öz yerini tutubdur. Bunun əsas səbəbi ondan ibarətdir ki, Türkiyə Cümhuriyyətinin banisi, böyük öndər Mustafa Kamal Atatürk elə bir cümhuriyyət yaradıbdır ki, o, daim yaşayacaq, daim inkişaf edəcəkdir. Bizi ən çox sevindirən də odur ki, türk xalqı, Türkiyə Cümhuriyyəti, Türkiyənin aparıcı qüvvələri Atatürkün vəsiyyətlərinə sadiqdirlər və Türkiyəni Atatürkün qoyduğu yolla irəliyə aparırlar.

Biz bu görüş zamanı – dünən Türkiyəyə gələndən indiyədək burada böyük qonaqpərvərlik, sevgi, məhəbbət və dostluq hissləri görürük. Bu da bizim hamımızı çox məmnun edir. Bütün bunların təşkilatçısı, yaradıcısı Türkiyənin Cümhur başqanı, bizim əziz dostumuz, qardaşımız Əhməd Necdət Sezərdir. Ona görə də biz hamımız əziz dostumuz, qardaşı-

mız, Cümhur başqanı Əhməd Necdət Sezərə qəlbimizdən gələn hissləri və ən xoş arzularımızı, təşəkkürümüzü bildiririk və ona gələn illərdə də – Cümhur başqanlığının birinci ildönümü sona çatıb – yeni-yeni uğurlar arzulayırıq. Bizim hamımız Türkiyə hökumətinə, Türkiyənin rəhbərlərinə, Türkiyə xalqına öz sevgi və məhəbbətimizi bildiririk və bizə göstərilən qonaqpərvərliyə görə dərin təşəkkürümüzü ifadə edirik. Türkiyə bizim üçün ikinci vətəndir. Ona görə də Türkiyədə olarkən hər birimiz özümüzü öz vətənimizdə hiss edirik.

Mən rica edirəm, bu badələri türk xalqının şərəfinə, Türkiyə Cümhuriyyətinin şərəfinə, Türkiyə hökumətinin şərəfinə və Türkiyənin hörmətli Cümhur başqanı, əziz dostumuz Əhməd Necdət Sezərin şərəfinə, əziz dostlar, sizin şərəfinizə qaldıraq.

* * *

*Aprelin 26-da Çırağan sarayında Azərbaycan Respublikasının prezidenti Heydər Əliyevin və Türkiyə Cümhuriyyətinin prezidenti Əhməd Necdət Sezərin görüşü olmuşdur.*

*Ali qonağı salamlamaqdan çox məmnun olduğunu bildirən prezident Əhməd Necdət Sezər onun dəvətini qəbul edərək türkdilli ölkələrin dövlət başçılarının VII zirvə görüşündə iştirak etmək üçün İstanbula gəldiyinə görə prezident Heydər Əliyevə dərin minnətdarlığını və təşəkkürünü bildirdi.*

*Sammitdə Azərbaycan prezidenti Heydər Əliyevin çıxışını və nitqini böyük diqqətlə dinlədiyini nəzərə çatdıran cənab Sezər dövlətimizin başçısının türkdilli ölkələrin birliyinin daha da möhkəmləndirilməsi üçün irəli sürdüyü təklifləri, verdiyi tövsiyələri yüksək dəyərləndirdi.*

*Böyük dövlətçilik təcrübəsinə malik prezident Heydər Əliyevin rəhbərliyi sayəsində son illər Azərbaycanda yaranmış müsbət dəyişiklikləri maraqla qarşıladığını söyləyən prezident*

*Əhməd Necdət Sezər dost və qardaş ölkələrimiz arasında qurulmuş əlaqələrin böyük sürətlə inkişaf etməsindən məmnun qaldığını bildirdi.*

*Istanbula səfərə dəvətə və dost ölkədə ona göstərilən yüksək qonaqpərvərliyə görə Türkiyə xalqına və prezident Əhməd Necdət Sezərə dərin minnətdarlığını ifadə edən dövlətimizin başçısı Heydər Əliyev türkdilli ölkələrin dövlət başçılarının VII zirvə görüşünün yüksək səviyyədə təşkil olunmasından razılıqla bəhs etdi.*

*Xalqlarımızın iradəsinə söykənən, strateji tərəfdaşlıq xarakteri daşıyan əlaqələrimizin ildən-ilə daha da inkişaf etməsinin çox vacib olduğunu vurğulayan respublikamızın rəhbəri ölkəmiz üçün ən ağrılı problem olan Ermənistan–Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin sülh yolu ilə aradan qaldırılmasına dair ABŞ-ın Florida ştatının Ki-Uest şəhərində ABŞ administrasiyasının vasitəçiliyi, ATƏT-in Minsk qrupu həmsədrlərinin, Azərbaycan və Ermənistan prezidentlərinin iştirakı ilə keçirilən görüşlərdən danışdı.*

*Ermənistan–Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin sülh yolu ilə həll olunması sahəsində prezident Heydər Əliyevin səylərini yüksək dəyərləndirən cənab Əhməd Necdət Sezər dedi ki, ATƏT-in Minsk qrupunun üzvü kimi, Türkiyə bu münaqişənin aradan qaldırılmasında fəallığını daha da artıracaqdır və Azərbaycanın haqlı mövqeyini dəstəkləyəcəkdir.*

*Görüşdə Xəzərin Azərbaycan sektorundakı zəngin neft və qaz ehtiyatlarının işlənməsi və dünya bazarlarına çıxarılması, Bakı–Tbilisi–Ceyhan əsas ixrac boru kəmərinin inşası məsələləri barədə müzakirələr aparıldı.*

*Mehribanlıq və səmimi dostluq şəraitində keçən görüşdə Azərbaycan–Türkiyə əlaqələrinin daha da inkişaf etdirilməsi, beynəlxalq aləmdə, bölgədə vəziyyət, hər iki ölkəni maraqlandıran bir sıra digər məsələlər barədə fikir mübadiləsi aparıldı.*

* * *

*Azərbaycan Respublikasının prezidenti Heydər Əliyev aprelin 26-da Çırağan sarayında Türkmənistan prezidenti Saparmurad Niyazov ilə görüşmüşdür.*

*Dövlətimizin başçısını mehribanlıqla salamlayan, onunla görüşdən çox məmnun qaldığını nəzərə çatdıran Saparmurad Niyazov VII zirvə görüşünün türkdilli ölkələrin qarşılıqlı surətdə faydalı əlaqələrin daha da möhkəmləndirilməsində mühüm rol oynayacağına əmin olduğunu bildirdi.*

*Səmimi sözlərə görə minnətdarlığını bildirən prezident Heydər Əliyev türkdilli ölkələr və xalqlar arasında dərin köklərə malik əlaqələrinin durmadan inkişaf etdirilməsində VII zirvə görüşünün böyük əhəmiyyət daşıdığını nəzərə çatdırdı.*

*Görüşdə Azərbaycan – Türkmənistan ikitərəfli əlaqələrindən söhbət açıldı, ölkələrimiz arasında bütün sahələrdə əməkdaşlığın perspektivlərindən danışıldı.*

# TÜRKDILLI ÖLKƏLƏRIN DÖVLƏT BAŞÇILARININ VII ZIRVƏ GÖRÜŞÜNÜN BAĞLANIŞ MƏRASIMINDƏ ÇIXIŞ

*İstanbul,*
*Çırağan sarayı*

*27 aprel 2001-ci il*

Hörmətli Cümhur başqanı Əhməd Necdət Sezər!
Hörmətli məclis başqanları!
Hörmətli məclis başqanı!

Mən hesab edirəm ki, bizim çox gərgin iş şətaitində keçirdiyimiz türkdilli dövlətlərin başçılarının VII zirvə görüşü çox böyük nailiyyət əldə edib və biz bu gün məmnunluq hissi ilə deyə bilərik ki, Türkdilli Dövlətlər Birliyi bundan sonra da öz fəaliyyətini genişləndirəcəkdir. Hörmətli Cümhur başqanı, Siz burada hər şeyi dediniz, ona görə də təkrar etməyə ehtiyac yoxdur. Mən, sadəcə, bildirmək istəyirəm ki, buradakı görüşümüz çox yüksək səviyyədə keçdi. Hörmətli Cümhur başqanı, Sizə, Türkiyənin bu toplantıda iştirak edən dövlət adamlarına, dövlət orqanlarına zirvə görüşünün çox yüksək səviyyədə hazırlanması və keçirilməsinə görə bir daha təşəkkürümü bildirirəm. Bizə çox gözəl qonaqpərvərlik göstərilibdir. Buna görə mən Türkiyənin daim qonaqpərvər ölkə olduğunu bir daha təsdiq edərək, Azərbaycan Respublikası adından təşəkkürümü bildirirəm. Bildirirəm ki, Türkdilli Dövlətlər Birliyinin üzvü olaraq Azərbaycan öz üzərinə düşən vəzifələri bundan sonra da daim yerinə yetirəcək və türkdilli ölkələrin işbirliyinin daha da genişlənməsi və qarşıda duran vəzifələrin həyata keçirilməsi üçün əlindən gələni edəcəkdir. Mən bir daha Sizə təşəkkür edirəm. Ümidvaram ki, VIII zirvə görüşünə, Aşqabada biz yeni-yeni nailiyyətlərlə gedəcəyik. Təşəkkür edirəm.

## TÜRKDİLLİ ÖLKƏLƏRİN DÖVLƏT BAŞÇILARI ADINDAN MƏTBUAT KONFRANSINDA ÇIXIŞ

*Istanbul,*
*Çırağan sarayı*

*27 aprel 2001-ci il*

Hörmətli cənab prezident Əhməd Necdət Sezər!
Hörmətli prezidentlər!
Hörmətli xanımlar və cənablar!
Hörmətli mətbuat nümayəndələri!

Türkdilli ölkələrin dövlət başçılarının VII zirvə görüşü başa çatdı və tam əsasla demək olar ki, VII zirvə görüşü bu birliyin zəruri olduğunu və gələcəkdə də inkişaf edəcəyini bir daha nümayiş etdirdi.

Türkdilli Dövlətlər Birliyi 1992-ci ildə Ankarada yaranan zamandan indiyə qədər Azərbaycan Respublikası bütün zirvə görüşlərində iştirak edib, bu zirvə görüşlərinin çox əhəmiyyətli olduğunu bildiribdir və Türkdilli Dövlətlər Birliyinə öz töhfələrini vermişdir.

Mən hesab edirəm ki, İstanbulda iki gün ərzində bizim keçirdiyimiz görüşlərin hamısı çox səmərəli, çox faydalı olmuşdur. Tam qətiyyətlə demək olar ki, VII zirvə görüşü uğurla başa çatmışdır. Mən Türkiyə Cümhuriyyətinin prezidenti, VII zirvə görüşünün ev sahibi, hörmətli Əhməd Necdət Sezərə və onunla bərabər bu toplantının hazırlanmasında və keçirilməsində xidmət göstərmiş bütün dövlət, hökumət adamlarına təşəkkürümü bildirirəm.

Biz Türkiyənin, türk xalqının, Türkiyə Cümhuriyyətinin nə qədər qonaqpərvər olduğunu və türkdilli dövlətlərin birləşməsi üçün nə qədər böyük səylər göstərdiyini bu günlər bir daha müşahidə etdik. Bu, şəxsən məndə, bütün Azərbaycan xalqında böyük qürur hissi doğurur. Türkiyə Cümhuriyyətində, qardaş türk torpağında, böyük Mustafa Kamal Atatürkün Cümhuriyyətində yenidən təmasda olmaq, burada türkdilli dövlətlərin gələcək problemləri haqqında müzakirələr aparmaq bizim üçün çox önəmlidir.

Bizə göstərilən qonaqpərvərliyi ifadə etmək üçün bu sözlər yetərli deyildir. Bu qonaqpərvərliyi həm dostumuz, qardaşımız Əhməd Necdət Sezər tərəfindən, həm bütün dövlət və hökumət nümayəndələri tərəfindən, həm də Türkiyə xalqı tərəfindən hiss edirik. Ona görə mən səmimi-qəlbdən, içimdən gələn duyğularla təşəkkür edirəm, Türkiyə xalqına, Türkiyə Cümhuriyyətinə, qardaş türk millətinə yeni-yeni uğurlar arzulayıram. Təşəkkür edirəm.

# TÜRKIYƏYƏ IŞGÜZAR SƏFƏRDƏN BAKIYA QAYIDARKƏN BINƏ BEYNƏLXALQ HAVA LIMANINDA JURNALISTLƏRİN SUALLARINA CAVAB

*27 aprel 2001-ci il*

**H e y d ə r   Ə l i y e v:** Türkiyəyə səfərim haqqında, yəni türkdilli dövlətlərin başçılarının VII zirvə görüşü və mənim orada iştirakım haqqında hesab edirəm ki, elə bir məlumat verməyə ehtiyac yoxdur. Çünki Türkiyə televiziyası bütün bunların hamısını veribdir və siz də burada dinləmisiniz. Açıq iclasları, başqa görüşləri və mənə dedilər ki, bugünkü mətbuat konfransını da veriblər, izləmisiniz. Ona görə bu barədə bir söz deməyə ehtiyac yoxdur.

Onu deyə bilərəm ki, mən çox məmnunam, türkdilli ölkələrin dövlət başçılarının VII zirvə görüşü baş tutdu və biz toplaşdıq. Orada türkdilli dövlətlərin əlaqələrinin inkişaf etdirilməsi haqqında fikir mübadiləsi apardıq, müzakirə etdik, bəyannamə qəbul olundu. Təbiidir ki, bunlar məni sevindirir.Çünki mən daim türkdilli dövlətlərin birliyinin möhkəmlənməsinin və inkişafının tərəfdarıyam. Baxmayaraq ki, müəyyən ölkələrdə bəzən buna müxtəlif baxışlar var. Ancaq indi hamımızın Türkiyədə toplaşmağımız çox gözəl haldır.

Ikincisi də, Türkiyə Cümhuriyyəti və onun prezidenti hörmətli Əhməd Necdət Sezər və onunla bərabər, hökumət üzvləri, hansılar ki, bu işin təşkilati məsələləri ilə məşğul idilər, bunu çox yaxşı, yüksək səviyyədə təşkil etmişdilər. Bəzən olur ki, belə

toplantılar bir gün içərisində keçir. Hətta bəzi dövlət başçıları belə bir təklif vermişdilər. Amma mən yox. Mən Türkiyənin verdiyi proqramı tamamilə qəbul etmişdim. Ancaq ona baxmayaraq, onları da inandırmışdılar və iki gün – dünən və bu gün çox sərbəst şəkildə bu toplantı keçdi. Hesab edirəm ki, Türkiyə Cümhuriyyəti, Türkiyənin prezidenti, Türkiyənin hökuməti, dövlət orqanları bu işi çox yüksək səviyyədə hazırlamışdılar və yüksək səviyyədə keçirdilər. Mən bütün bunların hamısından məmnunam.

**S u a l: Cənab Prezident, Türkmənistan prezidenti Saparmurad Niyazovla görüşünüz zamanı Transxəzər qaz kəməri və Xəzərin statusu məsələləri ilə bağlı hər hansı razılaşma əldə edildimi?**

**C a v a b:** Bilirsiniz, sizin sualınıza iki hissədə cavab verdim. Bu Transxəzər qaz kəməri sizə lazımdır? Niyə maraqlanırsınız? 1998-ci ildə Ankarada, Türkiyə Cümhuriyyətinin 75 illiyi zamanı Türkiyənin prezidenti və Türkmənistanın prezidenti saziş imzalamışdır. 1999-cu ildə ATƏT-in İstanbulda keçirilən sammitində bu sazişi biz də təsdiqlədik. Bunu Amerika prezidenti Klinton da etdi.

Biz tranzit ölkəyik. Fikrimizi deyə bilərik ki, bizim ölkəmizdən, ərazimizdən bu boru xəttini, qaz xəttini buraxırıq, ya buraxmırıq. Bizim başqa marağımız yoxdur. Ona görə biz o vaxt razılıq verdik. Çünki Türkiyə bizə dost ölkədir, bilirik ki, qaza ehtiyacları var. Təbiidir ki, Türkmənistan da dost ölkədir, türkdilli ölkədir. Ona görə biz buna razılıq verdik və müəyyən işlər aparıldı. Bilirəm ki, Amerika Birləşmiş Ştatlarının hökuməti də bu işlə çox ciddi məşğul olurdu. Amma müəyyən bir mərhələdə Türkmənistanın prezidenti bundan imtina etdi. Imtina etdi, etsin. Bunun bizə nə istisi var, nə soyuğu var. Ona görə sənə məsləhət görürəm ki, başını belə şeylərə qarışdırmayasan.

O ki qaldı Xəzərin statusuna, bilirsiniz ki, Xəzərin statusu neçə ildir müzakirə olunur. Indi nəzərdə tutulub ki, Xəzəryanı ölkələrin dövlət başçıları oktyabr ayında Aşqabadda görüşsünlər. Ancaq Niyazov mənimlə görüşdüyü zaman yenə də orta xətlə əlaqədar neçə ildir bizimlə davam edən danışıqlara toxundu. Onların bu barədə, necə deyərlər, fikri özləri istədiyi kimidir. Amma bizim fikrimiz beynəlxalq hüquq normalarına uyğun olan bir şeydir. Biz bunu dəfələrlə bildirmişik. Bizim nümayəndə heyətləri bir neçə dəfə oraya gedib, onlarınkı buraya gəlibdir və bu, sübut olunubdur. Ancaq buna baxmayaraq, onlar yenə bəzi yerlərdə bizimlə mübahisə aparırlar. Ona görə də o bu məsələni qaldırdı. Biz onunla belə qərara gəldik ki, may ayının 1-də Azərbaycanın ekspertləri Aşqabada gedəcəklər. Onlarla bu barədə bir də danışıqlar aparacaqlar.

**S u a l: Cənab Prezident, Azərbaycan – İran sərhədində baş verən hadisəyə Sizin münasibətiniz?**

**C a v a b:** Bilirsinizmi, düzü, bununla əlaqədar mənim o qədər məlumatım yoxdur. Özü də bu, böyük bir insident deyildir.

**S u a l: Cənab Prezident, mətbuatda belə çıxışlar var ki, Azərbaycan – Rusiya münasibətləri yaxınlaşdıqca, Azərbaycan – Türkiyə münasibətləri soyuyur. Siz orada belə bir soyuqluq hiss etdinizmi?**

**C a v a b:** Siz hiss elədiniz? Televiziya ilə görürdünüz. Mən bir ay bundan öncə Türkiyədə rəsmi səfərdə olmuşam. Bilirsiniz. Məni orada nə qədər mehriban, türkcə desək, nə qədər sıcaq, dostyana qarşıladılar. Bu sizin gözünüzün qarşısında idi. Indi bir ay keçibdir. Nə olubdur? Heç bir soyuqluq yoxdur. Əksinə, əgər siz bu gün həmin mətbuat konfransını dinlədinizsə, orada Azərbaycan dünyaya bir daha nümayiş etdirdi ki, Türkiyənin dərdi bizim dərdimizdir, bizim dərdimiz Türkiyənin dərdidir.

O ki qaldı ermənilərin iddiasına, «soyqırımı» haqqında – mən orada dedim. Biz bir neçə dəfə bəyanatlar vermişik. Bizim Milli Məclis bəyanat veribdir. Mən Fransanın prezidenti Şiraka etirazımı bildirmişəm. Hər yerdə bildirmişəm. Amma görürsünüz, o biri ölkələrin dövlət başçıları heç bir şey demədilər. Hətta dedilər ki, bizim bu barədə məlumatımız yoxdur. Bundan artıq nə qədər dostluq ola bilər? Bundan artıq nə qədər isti münasibət ola bilər?

Amma iş bundadır ki, sən kimi təmsil edirsən – sizin hərəniz bir şeyi uydurursunuz, götürüb yayırsınız və sonra da bunu suala çevirirsiniz. Indi təyyarə gələndə Dilarə Seyidzadə mənə bizim bir neçə qəzetdən məlumat oxuyurdu. Deyəsən, «Yeni Müsavat» qəzetində, haradasa yazıblar ki, Heydər Əliyevi soyuq qəbul ediblər və guya orada əsgərlər, yəni fəxri qarovul olmayıbdır. Televiziyada baxın, görün olub, olmayıbdır. Amma sən buna başqa şey deyəsən, belə yaramaz.

**S u a l: Cənab Prezident, bizim deputatlar Avropa Şurası Parlament Assambleyasının sessiyasında ermənilərin uzun illərdən bəri azərbaycanlılara qarşı soyqırımı etməsi haqqında bəyannamə yayıblar. Buna necə münasibət bəsləyirsiniz?**

**C a v a b:** Əlbəttə, yaxşı münasibət bəsləyirəm. Mən keçən dəfə gedəndə dedim ki, bizim Avropa Şurasındakı nümayəndə heyətimiz orada çox yaxşı işləyir, necə deyərlər, çox iradə ilə, güclü işləyir. Onlar orada hər şeyi açıq deyiblər, düzdür, indi Ermənistan qəzetlərində, başqa yerlərdə İlham Əliyevin üzərinə hücumlar etməyə başlayıblar. Ancaq biz bunlardan heç vaxt qorxmuruq.

**S u a l: Cənab Prezident, Dağlıq Qarabağda ermənilərin narkotik bitkilər becərməsi ilə bağlı İlham Əliyev Avropa Şurasının sessiyasında ciddi faktlarla çıxış etmişdir. Biz bu ciddi məsələdən necə bəhrələnə bilərik?**

**C a v a b:** Çıxış etmişik ki, bəhrələnək də. Biz Avropaya birinci dəfə bu cür çatdırmışıq ki, ermənilər Dağlıq Qarabağ ərazisində və Ermənistan tərəfindən işğal olunmuş digər torpaqlarımızda qaçaqmalçılıq və s. edirlər. Bu öz yerində. Narkotiklərin daşınması haqqında. Bunu ilk dəfə olaraq Azərbaycanın nümayəndə heyəti, onun başçısı İlham Əliyev Avropa Şurasının Parlament Assambleyasında deyibdir. Bu da böyük əks-səda yaradıbdır. Hesab edirəm ki, bu bizim çox uğurlu addımımızdır.

**S u a l: Cənab Prezident, Ermənistan parlamentindəki fraksiyalar bu gün birgə bəyanat yayıblar ki, onlar sülh yoluna tərəfdardırlar. Ancaq o şərtlərlə ki, ya Dağlıq Qarabağ müstəqil olmalıdır, ya da Ermənistana birləşdirilməlidir. Sizcə, bu, danışıqlar prosesini pozmağa yönəlməyib ki?**

**C a v a b:** Bilirsiniz, burada hərə bir söz deyir. Bu gün bir partiya durub deyir ki, bunu eləmək olmaz, ya bunu eləmək lazımdır. Bəziləri deyir ki, Qarabağa yürüş edək. Mən nə onlara fikir verirəm, nə də Ermənistandakı fraksiyalara fikir verirəm. Mən onlara cavab verməyəcəyəm ki?

**S u a l: Cənab Prezident, Bakı–Ceyhan layihəsi ilə bağlı işlər nə yerdədir?**

**C a v a b:** Bakı–Ceyhan layihəsi üzrə işlər çox normal gedir. Burada heç bir çatışmazlıq yoxdur.

**S u a l: Hörmətli Cümhur başqanım, əvvəlki toplantılarla müqayisədə indiki görüşün daha yaxşı getdiyini müşahidə etdik. Mən 1994-cü ildən bu yana keçirilən görüşlərdə iştirak edirəm. Indiki toplantı qapalı şəraitdə keçdi. Siz türkdilli ölkələrin dövlət başçılarının zirvə görüşünün gələcəyini necə görürsünüz? Çünki müxtəlif fikirlər var. Son üç ildən bu yana Özbəkistanın, bəzən də Türkmənistanın prezidentləri görüşlərdə iştirak etmirlər.**

**C a v a b:** Bilirsiniz, hər kəs özünə cavabdehdir. Mən Azərbaycanın prezidentiyəm və vaxtilə, 1992-ci ildə Türkiyə Cümhuriyyətinin təşəbbüsü ilə Ankarada əsası qoyulmuş Türkdilli Dövlətlər Birliyini dəstəkləmişəm və dəstəkləyirəm. Harada keçirilməsindən asılı olmayaraq, bütün zirvə görüşlərinin hamısında iştirak etmişəm. Bəzən başqa işlərimə görə imkanım olmadığı halda, yenə də o işləri kənara qoyub toplantılarda iştirak etmişəm. Bu mənim mövqeyimdir. Amma başqa dövlətlərin müxtəlif mövqeləri var. Bəli, məsələn, Türkmənistanın prezidenti son iki toplantıda iştirak etməyibdir. Bu onun öz işidir. Amma hesab edirəm ki, indiki toplantı çox yüksək səviyyədə keçdi və bir daha göstərdi ki, bəli, bu toplantı bizim ölkələrimiz, xalqlarımız üçün lazımdır, zəruridir. Mən Azərbaycanın prezidenti kimi, öz tərəfimdən bu birliyin bundan sonra genişlənməsi və inkişaf etməsi üçün çalışacağam.

**S u a l: Hörmətli Cümhur başqanım, Türkiyədən ayrıldığınız zaman Enerji naziri Cümhur Ərsümər istefaya getdi. Onun istefasına Türkmənistan Cümhur başqanının «Mavi axın» layihəsinə qarşı təkidlərinin önəmli rol oynadığı söylənildi. Görüşləriniz zamanı həmin layihə ilə bağlı söhbətləriniz oldumu?**

**C a v a b:** Bilirsiniz, mən bunu hava limanında eşitdim. Mən bilmirəm, nə üçün istefa etdi, «Mavi axın» nə oldu, filan oldu. Amma bilirəm ki, orada mətbuat konfransında siz gördünüz, Türkmənistanın prezidenti o suala cavab verdi ki, biri min dollara alma satır, o biri üç yüz dollara satır. Hansını alarsan – üç yüz dollara alaram. Ona görə də deyir ki, mənə harada gəlirlidir, oraya da satıram. Türkmənistanın prezidenti «Mavi axın»a da toxundu. Amma bu onların işidir. Bizim işimiz deyildir.

**S u a l: Cənab Prezident, Sirus Təbrizli bəyan edib ki, Mətbuat Şurası yaradılsa, o, Prezident Aparatından idarə olu-**

**nacaqdır. Bununla da mətbuat azadlığına təhlükə yaradacaqdır...**

**C a v a b:** İndi mən hər kəsin dediyi sözə və mənə məlum olmayan şeyə burada cavab verməliyəm?

Görürəm ki, bir lazımlı sualınız yoxdur. Deyir, bəzən aşığın sözü qurtaranda nanay-nanay deyir. Siz də nanay-nanay deyirsiniz.

**S u a l: Cənab Prezident, türkdilli dövlətlərin başçıları «erməni soyqırımı» məsələsinə nə üçün birmənalı münasibət bildirmirlər?**

**C a v a b**: Heç bildirmirlər. Necə yəni birmənalı? Əgər sən mətbuat konfransına baxdınsa, heç bildirmirlər. Deyirlər, bizim bundan xəbərimiz yoxdur.

**S u a l: Cənab Prezident, Azərbaycan Milli İstiqlal Partiyasının sədri Etibar Məmmədovu Amerikaya dəvət ediblər. Onların partiyası belə bir bəyanat yayıb ki, onu Ağ evdə də qəbul edəcəklər və o, Amerikanın yeni rəhbərliyi ilə görüşəcəkdir. Bundan əlavə, aprelin 21-də Bakıda ADP icazəsiz mitinq keçirmişdi və polis bu mitinqi dağıtmışdı. ABŞ-ın Dövlət Departamenti bununla bağlı narahatlığını bildiribdir. Ümumiyyətlə, ABŞ-ın bizim müxalifətə bu cür diqqətini necə qiymətləndirirsiniz?**

**C a v a b:** Amerika demokratik ölkədir. Əgər Etibar Məmmədovu lap yüksək səviyyədə qəbul edəcəklərsə, mənim buna nə etirazım var. Əksinə, bunu yaxşı hal hesab edirəm.

## NIDERLAND KRALIÇASI
## ÜLYAHƏZRƏT BEATRIKSƏ

Ülyahəzrət!

Niderland Krallığının milli bayramı – Kraliça günü münasibətilə Sizi və dost Niderland xalqını səmimi-qəlbdən təbrik edirəm.

Azərbaycan ilə Niderland arasındakı mövcud dostluq və əməkdaşlıq münasibətlərinə xüsusi əhəmiyyət verirəm. Əminəm ki, ölkələrimiz arasındakı əlaqələr bundan sonra da xalqlarımızın mənafeyi naminə inkişaf edəcək və möhkəmlənəcəkdir.

Sizə möhkəm cansağlığı, xoşbəxtlik, ölkənizə sülh, əmin-amanlıq və firavanlıq arzulayıram.

*Hörmətlə,*

**HEYDƏR ƏLIYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı şəhəri, *27 aprel 2001-ci il*

**YAPONIYANIN BAŞ NAZIRI**
**ZATI-ALILƏRI**
**CƏNAB DZÜNITIRO KOIDZUMIYƏ**

Hörmətli cənab Baş nazir!

Yaponiyanın Baş naziri seçilməyiniz münasibətilə Sizi səmimi-qəlbdən təbrik edirəm.

Azərbaycan ilə Yaponiya arasında təşəkkül tapmış dostluq və əməkdaşlıq münasibətlərini yüksək qiymətləndirirəm.

Ümidvaram ki, ölkələrimiz arasındakı əlaqələr xalqlarımızın rifahı naminə daim genişlənəcək və inkişaf edəcəkdir.

Sizə möhkəm cansağlığı, işlərinizdə uğurlar, dost Yaponiya xalqına sülh, əmin-amanlıq və firavanlıq arzulayıram.

*Hörmətlə,*

**HEYDƏR ƏLIYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı şəhər, *28 aprel 2001-ci il*

# Q E Y D L Ə R

**1. Nikolay Konstantinoviç Baybakov** (d.1911–2008) – Rusiya Federasiyasının dövlət xadimi. Bakı şəhərinin Sabunçu qəsəbəsində doğulmuşdur. Lenin mükafatı laureatı. 1965–1990-cı illərdə SSRİ Nazirlər Soveti sədrinin müavini və SSRİ Dövlət Plan Komitəsinin sədri olmuşdur. Azərbaycan Respublikasının «Şöhrət» ordeni ilə təltif edilmişdir. – 5–6,268.

**2. SSRİ,** S o v e t S o s i a l i s t R e s p u b l i k a l a r ı İ t t i f a q ı – 1922–1991-ci illərdə dünyanın ən böyük və qüdrətli dövlətlərindən biri. Tərkibində 15 müttəfiq respublika, 20 muxtar respublika, 8 muxtar vilayət olmuşdur. – 5,6,207,227,250.

**3. Ukrayna,** U k r a y n a R e s p u b l i k a s ı – Cənub–Şərqi Avropada dövlət. Ərazisi 603,7 min km$^2$, əhalisi 51,3 milyon nəfərdir. Ukraynanın tərkibinə 24 vilayət və Krım Respublikası daxildir. Dövlət başçısı prezident, qanunverici orqanı – Ali RADA-dır. Paytaxtı Kiyev şəhəridir. – 7–19,206,383.

**4. Ukrayna Ali RADA-sı** – Ukraynanın Ali qanunverici hakimiyyət (Sovet–Şura, Xalq Deputatları RADA-sı) orqanı. – 7–19.

**5. İvan Plyuşş** (d.1941) – Ukraynanı dövlət xadimi, iki dəfə Ukrayna Ali RADA-sına başçılıq etmişdir. Ukrayna Respublikası Qəhrəmanıdır. – 7–19.

**6. Leonid Daniloviç Kuçma** (d.1938) – Ukraynanın siyasi və dövlət xadimi. 1994–2005-ci illərdə Ukrayna Respublikasının prezidenti olmuşdur. Azərbaycan Respublikasının «İstiqlal» ordeni ilə təltif edilmişdir. – 7,9,14,16,17,18,206.

**7. Avropa Şurası** (AŞ) – Avropada hökumətlərarası təşkilat. 1949-cu ildə yaradılmışdır. Qərargahı Fransanın Strasburq şəhərində yerləşir. AŞ-nın əsas məqsədi Avropada sülhü və təhlükəsizliyi qorumaq, seçki sistemində çoxpartiyalılığa riayət etmək, demokratiyanı və insan hüquqlarını müdafiə etmək, möhkəmləndirmək, Avropa ölkələrinin mədəniyyətlərinin yaxınlaşmasına çalışmaq və s. ibarətdir. AŞ-nın ali orqanları Nazirlər Komitəsi, Məsləhət Assambleyası, Sahə Nazirliklərinin Müşavirəsi və Katiblikdir. Azərbaycan 2001-ci ildən AŞ-nın üzvüdür. – 8,59,64, 81,84,85,102,108,109,110,124,134,215,384,397,412.

**8. Yeni Azərbaycan Partiyası** (YAP) – Azərbaycanda ən kütləvi siyasi partiya. YAP 1992-ci il noyabrın 21-də Naxçıvan şəhərində təsis edilib. 81 rayon və 5 minə yaxın ilk partiya təşkilatında birləşən 180 min üzvü var. Partiyada Gənclər Birliyi və Qadınları Şurası fəaliyyət göstərir. Parlamentdə 73 deputatla təmsil olunur. YAP Azərbaycanın dövlət müstəqilliyinin daha da möhkəmləndirilməsində, ölkəmizdə demokratik, hüquqi və dünyəvi dövlət qurulmasında və iqtisadi-siyasi islahatların həyata keçirilməsində fəal iştirak edir. YAP-ın təsis konfransında (1992, Naxçıvan) Heydər Əliyev yekdilliklə partiyanın sədri seçilmişdir. 2005-ci ilin mart ayından YAP-ın sədri prezident İlham Əliyevdir. – 9,14,17,18.

**9. Murtuz Ələsgərov,** Murtuz Nəcəf oğlu (d.1928) – Azərbaycanın dövlət və ictimai-siyasi xadimi, hüquq elmləri doktoru, professor. Respublikanın əməkdar hüquqşünası. Yeni Azərbaycan Partiyasının sədr müavini və Siyasi Şurasının üzvüdür. 1993–1995-ci illərdə Bakı Dövlət Universitetinin rektoru olub. 1995-ci ildə Azərbaycan Respublikası Milli Məclisinin deputatı seçilib. 1996–2005-ci illərdə Azərbaycan Respublikası Milli Məclisinin sədri olmuşdur. Azərbaycan Respublikasının «İstiqlal» ordeni ilə təltif edilmişdir. – 10.

**10. Dağlıq Qarabağ Muxtar Vilayəti** – Azərbaycan Respublikası ərazisində muxtar vilayət. 1923-cü il iyulun 7-də təşkil edilmişdir. Dağlıq Qarabağda 1988-ci ilə qədər 170 min əhali yaşayırdı. Ərazisi 4 min $km^2$-dir. Mərkəzi Xankəndidir.

1988-ci ildən başlayaraq Qarabağ separatçıları və millətçiləri Ermənistan silahlı qüvvələri ilə birlikdə bu ərazidə yaşayan azərbaycanlıları doğma torpaqlarından çıxararaq Dağlıq Qarabağı işğal etdilər. BMT-nin 822, 853, 874, 884 saylı qətnamələrinə görə, erməni işğalçıları Azərbaycan torpaqlarını qeyd-şərtsiz tərk etməlidirlər. Ancaq Azərbaycan

torpaqları hələ də erməni tapdağı altındadır. – 12,21,24,25,34,37,38,39, 40,41,42,44,48,49,59,62,67,68,74,78,81,82,85,89,90,94,98,99,100,104,107, 109,110,115,116,118,131,134,135,151,152,155,157,159,161,163,173,174, 175,187,189,195,196,201,207,210,214,222,223,227,250,291,292,300,301, 308,309,312,313,315,316,317,318,326,327,328,330,332,333,338,339,340, 344,381,384,397,398,404,412,413.

**11. Qorbaçov,** M i x a i l S e r g e y e v i ç (d.1931) – 1985–1991-ci illərdə Sov.İKP MK-nın Baş katibi, 1990–91-ci illərdə SSRİ-nin ilk və son prezidenti. Qorbaçov «yenidənqurma» adı ilə «aşkarlıq və demokratiya» siyasi xəttini, «humanist, demokratik sosializm» şüarını meydana atdı. Sovet totalitar rejimi ilə uyuşmayan «yenidənqurma» ölkəni dərin siyasi və iqtisadi böhrana saldı. Qorbaçovun milli münaqişələrə səbəb olan siyasəti xüsusən Azərbaycana qarşı qərəzli, düşmənçilik mövqeyi ilə səciyyələnirdi. Ermənilərin Azərbaycana torpaq iddialarını dəstəkləyən Qorbaçov 1990-cı ilin yanvarında Bakıda baş verən Qanlı Yanvar faciəsinin təşkilatçısı və günahkarıdır. – 12.

**12. Naxçıvan** – Azərbaycan Respublikasında şəhər. Naxçıvan Muxtar Respublikasının paytaxtı. Ərazisi 0,013 min $km^2$, əhalisi 67 min nəfərdən çoxdur. Naxçıvan Azərbaycanın ən qədim şəhərlərindəndir. Müasir Naxçıvan qədim, antik və orta əsr şəhər yerinin xarabalıqları üzərində yerləşmişdir.

Naxçıvan e.ə. IX–VI əsrlərdə qədim Manna və Midiyanın, eramızın əvvəllərində isə Albaniyanın tərkibində, IV əsrdən Sasanilərin tərkibində olmuşdur. 654-cü ildə isə Naxçıvanı ərəblər işğal edirlər. 1828-ci il Türkmənçay müqaviləsinə qədər Naxçıvan müxtəlif dövlətlərin nüfuz dairəsində olur. Məhz bu ildən Naxçıvan Rusiya imperiyasına birləşdirildi və qəza mərkəzinə çevrildi. Naxçıvan 1924-cü il fevralın 9-da Naxçıvan MSSR təşkil edilərkən respublikanın paytaxtı oldu. – 13,59,60,108,125,182,259.

**13. Gəncə –** Azərbaycan Respublikasında şəhər. Sahəsi 107 $km^2$, əhalisinin sayına görə Bakıdan sonra ikinci şəhərdir. Gəncə Azərbaycanın qədim şəhərlərindəndir. Gəncənin salındığı tarix dəqiq məlum deyil. Bəzi müəlliflər Gəncənin Makedoniyalı İsgəndərin dövründə (e.ə.336–323) salındığını qeyd etmişlər. – 13,88,108,259.

**14. Rusiya,** R u s i y a F e d e r a s i y a s ı – Avropanın şərqində, Asiyanın şimalında dövlət. Ərazisi 17075,4 min km$^2$, əhalisi 146,3 milyon nəfərdir. Rusiya Federasiyasına 21 respublika, 6 diyar, 49 vilayət, federal əhəmiyyətli Moskva və Sankt-Peterburq şəhərləri, 10 muxtar vilayət və mahal daxildir.

Dövlət başçısı prezident, qanunverici orqanı ikipalatalı Dövlət Duması və Federasiya Şurasıdır. Paytaxtı Moskva şəhəridir. – 15,26,34,38, 40,42,43,46,51–65,86,99,100,117,118,119,124,136,137,138,140,141,143, 144,145,149,150,151,158,159,164,165,166,174,175,192,193,194,195,202, 203,240,264–277,299,300,304,309,315,316,318,319,328,333,353,356,360, 369,411.

**15. Brejnev Leonid İliç** (1906–1982) – SSRİ-nin partiya və dövlət xadimi. 1964–1982-ci illərdə Sov.İKP MK-nın Baş katibi, 1977-ci ildən, həmçinin SSRİ Ali Soveti Rəyasət Heyətinin sədri olmuşdur. – 15.

**16. Beynəlxalq Valyuta Fondu** – BMT-nin hökumətlərarası ixtisaslaşdırılmış idarəsi, beynəlxalq valyuta təşkilatı. 1945-ci ildə yaradılmış, 1947-ci ildən fəaliyyətə başlamışdır. İdarə heyəti Vaşinqtondadır. Dünyanın 130-a yaxın ölkəsi fondun üzvüdür. Nizamnaməsinə görə, məqsədi beynəlxalq valyuta əməkdaşlığına yardım etmək, ölkələr arasında valyuta-hesablaşma münasibətlərini nizama salmaq, fonda daxil olan ölkələrin ödəmə balanslarını tarazlaşdırmaq və valyuta məzənnəsini tənzimləməkdən ibarətdir. 1992-ci ildə Azərbaycan Respublikası Beynəlxalq Valyuta Fonduna qəbul olunmuşdur. – 16,63,153.

**17. Çernobıl hadisələri** – 1986-cı ilin aprel ayında Çernobıl AES-nin 4-cü enerji blokunda avariya baş verdi. Bunun nəticəsində Ukrayna ərazisinin xeyli hissəsi, həmçinin Belorusiya və Rusiya Federasiyasının Bryansk və Kaluqa əyalətləri radiaktiv çirklənməyə məruz qaldı. Bunun nəticəsində AES-nin 30 km-də yaşayan əhali bu zonadan köçürüldü. 1986-cı ilin noyabrında 4-cü blok ləğv edildi. – 16.

**18. Amerika Birləşmiş Ştatları** (ABŞ) – Şimali Amerikada dövlət. Şimaldan Kanada, cənubdan Meksika, şərqdən Atlantik okeanı və qərbdən Sakit okeanla əhatə olunur. Ərazisi 9,14 milyon km$^2$, əhalisi 280 milyon nəfərə yaxındır. İnzibati cəhətdən 50 ştata bölünür. Ali qanunvericilik orqanı ikipalatalı (Nümayəndələr palatası və Senat) ABŞ Konqresidir. Dövlət başçısı prezidentdir. Paytaxtı Vaşinqton şəhəridir. – 18,34,38,

40,43,46,47,72,86,99,100,117,118,123,136,137,151,153,155,159,160,164, 165,166,170,174,175,195,197,202,203,222–226,240,266,292,293,299–322, 326–345,349–358,381,384,386,388,397,398,399,404.

**19. Qurban bayramı** – müsəlman dünyasında ən əziz bayramlardan biri. Sosial-mənəvi həyatımızın tərkib hissəsinə çevrilmişdir. Qurban bayramı zülhiccə ayının 10-cu günü başlayır. Müsəlmanlar bu bayramı İslamın əsas şərtlərindən biri – Həcc mərasimlərinin yerinə yetirilməsi və böyük Allahın bəndələrinin günahının bağışlanması günü kimi qeyd edirlər. – 20.

**20. Fransa,** F r a n s a R e s p u b l i k a s ı – Qərbi Avropada dövlət. Sahəsi 551 min km$^2$, əhalisi 58,4 milyon nəfərdir. İnzibati cəhətdən 95 departamentə bölünür. Qanunverici hakimiyyəti iki palatadan (Milli Məclis və Senat) ibarət parlament həyata keçirir. İcra hakimiyyəti prezident və Nazirlər Şurasına məxsusdur. Paytaxtı Paris şəhəridir. – 21–50,86,99,100,117,118,124,125,136,137,151,153,159,160,164,165,174,175, 193,195,202,203,240,299,309,315,316,318,319,328,333,398,412.

**21. Birləşmiş Millətlər Təşkilatı** (BMT) – müasir dünyanın ən nüfuzlu beynəlxalq təşkilatı. Qərargahı Nyu-York şəhərindədir. Əsas vəzifəsi beynəlxalq sülhü və təhlükəsizliyi qorumaq və möhkəmlətmək, dövlətlər arasında əməkdaşlığı inkişaf etdirməkdir. BMT-nin Nizamnaməsi 1945-ci il iyulun 26-da San-Fransisko konfransında 50 dövlətin nümayəndəsi tərəfindən imzalandı və 1945-ci il oktyabrın 24-də qüvvəyə mindi. Hazırda BMT-yə 198 dövlət daxildir.

BMT-nin əsas orqanları Baş Məclis, Təhlükəsizlik Şurası, İqtisadi və İctimai Şura, Qəyyumluq Şurası, Beynəlxalq Məhkəmə və Katiblikdir.

Azərbaycan Respublikası 1992-ci ildən BMT-nin üzvüdür. – 23,47,136, 163,164,215,227,307,314,315,317.

**22. ATƏT** – Avropada Təhlükəsizlik və Əməkdaşlıq Təşkilatı. Əsası 1975-ci il iyulun 3–9-da Helsinkidə qoyulmuşdur. Burada Avropanın 33 dövlətinin, ABŞ və Kanadanın dövlət və hökumət rəhbərləri iştirak edirdi. ATƏT «soyuq müharibə»nin qurtarmasından sonra Ümumavropa təhlükəsizlik sistemini formalaşdıran, yeni Avropanın siyasi və iqtisadi həyatının sivil birgəyaşayış qaydalarını müəyyən edən, dövlətlərarası münasibətləri rəqiblik və münaqişə relsindən əməkdaşlıq və qarşılıqlı mənafe istiqamətlərinə yönəldən bir təşkilat funksiyasını icra edir.

Azərbaycan 1992-ci ildən ATƏT-in üzvüdür və 1993-cü ilin ikinci yarısından ATƏT-in zirvə görüşlərində Azərbaycanın nümayəndə heyəti fəal iştirak edir. – 23,34,45,60,99,117,152,163,164,174,195,215,300,315, 317,328,338,396,400.

**23. «ANS» televiziyası** – Azərbaycanda 1991-ci ildən fəaliyyət göstərən müstəqil televiziya kanallarından biri. – 26,306.

**24. Paris –** Fransanın paytaxtı. Ölkənin iqtisadi, siyasi və mədəniyyət mərkəzi, dünyanın ən böyük və gözəl şəhərlərindən biri. Parisin rəsmi şəhər dairəsində sahəsi 105 km$^2$, əhalisi 2,2 milyon nəfərdir. Versal, Arjantoj, Dransi Bulon-Bijankur, Sen-Deni, Montraj, Nanter, Kolomb şəhərlərilə birlikdə sahəsi 1700 km$^2$, əhalisi 9,1 milyon nəfərdir. 987-ci ildən Paris Fransa krallığının paytaxtına çevrilmişdir. Fransa krallığının mərkəzləşdirmə siyasəti Parisin inkişafına böyük təkan vermiş, XVII əsrin ortalarında, xüsusilə XVIII əsrdə Paris Avropanın mədəniyyət mərkəzinə çevrilmişdir. Bir sıra beynəlxalq təşkilatların (YUNESKO və s.) iqamətgahı Parisdədir.

Paris dünyanın ən orijinal və təkrarsız şəhərlərindəndir. Burada Renessans və klassisizm üslublarında çoxlu dəbdəbəli ansambllar, binalar, eləcə də orta əsrlərə aid parklar və heykəllər, təmtəraqlı meydanlar, bulvar və prospektlər var. – 27–43,46,100,123,134,150,152,159,170,175,196, 202,223,307,316,398.

**25. «NTV»** – Rusiya Federasiyasının müstəqil televiziya kanallarından biri. 1991-ci ildən fəaliyyət göstərir. – 26,62,64

**26. Eleonora Hüseynova,** E l e o n o r a M ə c i d q ı z ı (d.1947) – 1994–2008-ci illərdə Azərbaycanın Fransa Respublikasında Fövqəladə və Səlahiyyətli səfiri olmuşdur. 2008-ci ildən YUNESKO-da Azərbaycanın təmsilçisidir. – 27,28–33,43.

**27. Sorbonna** – Paris Universitetinin Fransadan xaricdə geniş yayılmış adı. 1253-cü ildə Parisdə keşiş R.de Sorbonun təşəbbüsü ilə yaradılmış və onun şərəfinə adlandırılmış ilahiyyat kolleci və tələbə yataqxanası. Fransa burjua inqilabı dövründə Sorbonna ilahiyyat məktəbi bağlanmış (1792), I Napoleon Sorbonnanın binasını Paris Universitetinin sərəncamına vermişdir (1808). Azərbaycanda türkçülük hərəkatı ideoloq-

larından biri, görkəmli ictimai-siyasi xadim Əhməd bəy Ağayev (Ağa oğlu; 1869–1939) Sorbonna Universitetini bitirmişdir. – 30,32.

**28. Şarl de Qoll** (1890–1970) – Fransanın görkəmli dövlət, hərbi və siyasi xadimi. İkinci dünya müharibəsinə qədər müxtəlif hərbi rəhbər vəzifələrdə olmuşdur. Alman faşist qoşunları Parisə daxil olduqdan (1940,14 iyun) sonra B.Britaniyaya getmiş, Londonda «Azad Fransa» hərəkatının əsasını qoymuşdur. 1943-cü ilin noyabrından Fransa Milli Azadlıq Komitəsinin, 1944-cü ilin iyunundan isə Fransa Respublikası Müvəqqəti hökumətinin sədri olmuşdur. Fransada prezidentlik rejimi yarada bilmədiyindən istefaya çıxmışdır. 1958-ci ildə Əlcəzairdəki hərbi qiyamla yaranan siyasi böhranla əlaqədar Fransa parlamenti (1958) Şarl de Qollu yenidən hakimiyyətə gətirdi. Şarl de Qoll iki dəfə (1958,1965) Fransa Respublikasının prezidenti seçilmişdir. – 33.

**29. Qrenobl** – Fransanın cənub–şərqində şəhər. İzer departamentinin inzibati mərkəzi. Əhalisi 400 min nəfərdir. Qrenoblda qədim memarlıq abidələri –Sen-Loran (VIII əsrin sonu), Notr-Dam (XI–XIII əsrlər, Sent-Andre (XIII əsr) kilsələri var. – 32.

**30. Yelisey sarayı** – Parisdə Fransa prezidentlərinin iqamətgahı. – 35,44.

**31. Jak Şirak** (d.1932) – Fransanın görkəmli siyasi və dövlət xadimi. 1974–76 və 1986–88-ci illərdə Fransanın Baş naziri, 1977–1999-cu illərdə Paris şəhərinin meri olmuşdur. 1974–76-cı illərdə qollistlərin Respublikanın Müdafiəsi naminə Demokratik İttifaq Partiyasının Baş katibi, 1976-cı ildən Respublikanın Müdafiəsi naminə Birlik partiyasının sədridir. 1995-ci ildən Fransa Respublikasının prezidentidir. «Heydər Əliyev» ordeni ilə təltif olunmuşdur. – 35–43,44,45,46,100,123,124,125,134,135, 136,175,195,240,398.

**32. ATƏT-in Minsk qrupu** – 1992-ci il martın 24-də yaradılmışdır. 1997-ci ildə Minsk qrupunun tərkibinə aşağıdakı dövlətlər daxil olmuşdur: Azərbaycan, Ermənistan, Belarus, Almaniya, İtaliya, Rusiya, ABŞ, Fransa, Türkiyə, Danimarka və İsveç. 1994-cü ilin dekabrından Minsk qrupuna iki sədr – Rusiya və İtaliya rəhbərlik edirdi. 1996-cı ilin dekabrından onun üç – Rusiya, ABŞ və Fransa həmsədrləri var. Qrupun əsas vəzifəsi Ermənistan–Azərbaycan münaqişəsinin sülh yolu ilə aradan qaldırılmasına və Dağlıq Qarabağ probleminin dinc vasitələrlə həll edilməsinə bilavasitə kömək

etməkdir. –37,38,39,40,50,60,68,73,82,86,87,99,104,109,117,123,136,137, 152,159,174,195,196,201,223,225,226,240,293,299,301,308,309,311–328, 330,332,333,340,388,398,399,404.

**33. Bosniya–Hersoqovina –** 1945–1992-ci illərdə Yuqoslaviya Sosialist Federativ Respublikası tərkibində olmuşdur. Yuqoslaviyanın tərkibindən çıxdıqdan sonra əhali arasında (müsəlman, serb və xorvat) milli-dini zəmində qarşıdurma yarandı və qanlı hərbi konfrantasiyaya səbəb oldu. 1993-cü ildə Deytonda (ABŞ) ümumi sülh haqqında şaziş imzalandı. 1995-ci ildə qüvvəyə minən Konstitusiyaya görə ölkədə Birləşmiş Bosniya–Hersoqovinadan ibarət Federativ Respublika yarandı. – 41.

**34. Kosovo problemi** – 1980-ci illərdən başlayaraq Yuqoslaviya (Yuqoslaviya Federativ Sosialist Respublikası) ciddi iqtisadi və siyasi çətinliklərlə qarşılaşdı. 1991-ci ildə millətlərarası qarşıdurma nəticəsində YFSR parçalandı. Federasiyanın tərkibindən Sloveniya, Xorvatiya, Bosniya və Hersoqovina, Makedoniya çıxdı və müstəqil dövlət oldular. 1992-ci ildə Serbiya və Çernoqoriya Yuqoslaviya Respublikası (SRY) yaradıldı. 1999-cu ildə serb hökuməti tərəfindən Kosovoda (Serbiyanın tərkibində) yaşayan albanlara qarşı zorakılıq başlandı və nəticədə etnik qarşıdurma yarandı. Buna görə də NATO aviasiyası tərəfindən bombardman edildi. Məhz bundan sonra Yuqoslaviya öz ordusunu Kosovodan çıxartdı və NATO-nun sülhməramlı ordusu albanları serblərdən qorumaq üçün Kosovoya girdi. 2002-ci ildə SRY Serbiya və Çernoqoriya adı ilə adlandırıldı. 2006-cı ildə keçirilən referendum nəticəsində Çernoqoriya Serbiyadan ayrıldı və müstəqil dövlət yaratdı. – 41.

**35. Kəşmir məsələsi** – Asiyada tarixi vilayət. Qədimdə və orta əsrlərdə Hindistan ərazisində yaranmış müxtəlif dövlət birləşmələrinin tərkibində olmuşdur. 1846-cı ildə ingilislər Kəşmiri işğal edib 7,5 milyon rupi ödənclə Sammi knyazlığına vermişlər. 1947-ci ilin avqustunda yaradılan müstəqil Hindistan dövləti Kəşmiri öz ərazisinə qatmağa çalışır. Hal-hazırda Kəşmirin şimal–qərbi Pakistanın, qalan hissəsi isə Hindistanın (1949) nəzarəti altındadır. 1956-cı ildə Kəşmir «Hindistan İttifaqının tərkib hissəsi» elan edildi. Hindistanla Pakistan arasında bir neçə dəfə hərbi münaqişə baş versə də, bu problem hələ də öz həllini tapmamışdır. – 42.

**36. Kipr qətnaməsi** – 1974-cü ildə Yunanıstanda hakimiyyətə gəlmiş hərbi xunta Kiprin yunan irticaçıları ilə birlikdə Kipri Yunanıstana

birləşdirmək məqsədilə ölkədə hərbi çevriliş etdilər və prezident Makariosu hakimiyyətdən uzaqlaşdırdılar. Bundan narahat olan Türkiyə Respublikası Kiprin türk icmasını müdafiə etmək məqsədilə oraya hərbi qüvvələr yeritdi və türk icması yaşayan ərazini yunan irticaçılarından təmizlədi. 1975-ci ildə Türkiyə–Kipr administrasıyası bu ərazidə federativ türk dövləti – Kipr Respublikasını elan etdilər. 1983-cü ildə bu dövlətin qanunverici orqanı Şimali Kipr Türk dövləti (ŞKTR) – Kıbrıs elan etdi. – 42,161,162.

**37. Putin,** V l a d i m i r V l a d i m i r o v i ç (d.1952) – 2000–2008-ci illərdə Rusiya Federasiyasının prezidenti. 1975–1997-ci illərdə bir sıra məsul vəzifələrdə çalışmışdır. 1998-ci ildə Rusiya Federasiyası prezidenti administrasiyasının rəhbəri, 1998–99-cu illərdə MTİ-in direktoru, 1999-cu ilin avqustundan Rusiya hökumətinin başçısı olmuşdur. Hazırda Rusiya Federasiyasının Baş naziridir. – 49,136,137,138,139,144,152,193,195,202, 206,208,269,270,276,299,300.

**38. Dünya Bankı** – BMT-nin hökumətlərarası ixtisaslaşdırılmış idarəsi. 1945-ci ildə ABŞ-da Bretton–Vuds çərçivəsi sistemində yaradılmışdır. İdarə heyəti Vaşinqtondadır. Məqsədi inkişaf etməkdə olan ölkələrin iqtisadi və sosial dirçəlişinə kömək etməkdir. Səhmdar cəmiyyəti formasındadır və iştirakçıları yalnız Beynəlxalq Valyuta Fondunun üzvləridir. Banka 130-dan artıq dövlət daxildir. 1992-ci ildən Azərbaycan Respublikası Dünya Bankının üzvüdür. – 50,153,211.

**39. Türkiyə Cümhuriyyəti** – Qərbi Asiyada və Avropanın cənub–şərq kənarında dövlət. Sahəsi 780,6 min km$^2$, əhalisi 78 mln. nəfərdir. İnzibati cəhətdən 67 ilə (vilayətə) bölünür. Paytaxtı Ankara şəhəridir. Dövlət başçısı prezident, Ali qanunvericilik orqanı Türkiyə Böyük Millət Məclisidir. – 51,65,66–218,244,246,270,283–293,294–298,301,302, 334–336,353,380–415.

**40. Vsevolod Boqdanov (d.1944) –** 1992-ci ildən Rusiya Jurnalistlər İttifaqının sədri, 1998-ci ildə isə Beynəlxalq Jurnalistlər İttifaqı Komitəsinin prezidenti seçilmişdir. – 51–65.

**41. 1993-cü il iyun hadisələri –** Azərbaycanı vətəndaş müharibəsi həddinə gətirmiş Gəncə hadisələri, Bakıda Ali Sovetin binası qarşısında

keçirilən çoxsaylı mitinqlə, xalqın tələbilə Heydər Əliyevin Naxçıvandan Bakıya gəlməsi, Ali Sovetin sədri seçilməsi, o zamankı respublika prezidenti Ə.Əliyevin (Elçibəyin) Kələki kəndinə getməsi, Ali Sovetin sədri Heydər Əliyevin respublika prezidentinin vəzifəsini icra etməyə başlaması nəzərdə tutulur. – 53,116,207,228,229.

**42. 1994-cü il oktyabr hadisələri** –oktyabrın 3-də Gəncə və Qazaxda, həmçinin Bakıda Azərbaycanın dövlətçiliyinə, müstəqilliyinə düşmən olan qüvvələr tərəfindən dövlət çevrilişi cəhdi nəzərdə tutulur. Həmin gün Bakıda fövqəladə vəziyyət elan edilmiş və Azərbaycan prezidenti Heydər Əliyev televiziya və radio ilə xalqa müraciət etmişdi. Gecə olmasına baxmayaraq Bakı və ona yaxın yerlərdən yüz minlərlə insan Prezident sarayı qarşısına toplaşaraq milli və vətəndaşlıq həmrəyliyi nümayiş etdirərək Heydər Əliyevin siyasətini dəstəkləmişlər. – 53,207.

**43. 1995-ci il mart hadisələri** – martın 12–13-də Qazax və Agstafa, martın 16–17-də isə Bakının 8-ci kilometr qəsəbəsində Xüsusi Təyinatlı Polis Dəstəsinin bir qrup üzvünün silahlı çıxışı nəzərdə tutulur. Respublika rəhbərliyinin qəti tədbirləri nəticəsində çevriliş cəhdinin qarşısı alındı və silahlı dəstə tərksilah olundu. – 53,116,117,207.

**44. Norveç,** N o r v e ç K r a l l ı ğ ı – Şimali Avropada dövlət. Sahəsi 387 min $km^2$, əhalisi 4,4 milyon nəfərdir. İnzibati ərazisi 19 fülkeyə (qraflığa) bölünür. Dövlət başçısı kral, qanunverici orqanı ikipalatalı (stortinq laqtinq və odelstinq) parlamentdir. Paytaxtı Oslodur. – 51–65,193.

**45. «Statoyl»** – Norveçin «Statoyl» şirkəti 1972-ci ildən fəaliyyət göstərir. Şirkət Şimal dənizinin Norveç sektorunda ən iri neft-qaz istehsalçısıdır. Hazırda dünyanın 19 ölkəsində neftin kəşfiyyatı, çıxarılması və emalı ilə məşğul olur. Şirkət 1994-cü ildən Azərbaycan neft layihələrində fəal iştirak edir. – 59,277.

**46. Azərbaycan Respublikası Dövlət Neft Şirkəti (ARDNŞ)** – respublikada neft və qazın kəşfiyyatına, çıxarılmasına və emal edilməsinə rəhbərlik edən qurum. 1991-ci ildə təşkil edilmişdir. Şirkət neft və qaz quyularının qazılması və istifadəyə verilməsi, nəql edilməsi və s. məqsədlə dünyanın bir sıra ölkələrinin iri neft şirkətləri ilə sazişlər, müqavilələr bağlamışdır. – 59,204,266,267.

**47. «Əsrin müqaviləsi»** – 1994-cü il sentyabrın 20-də Bakıda «Xəzər dənizinin Azərbaycan sektorunda «Azəri», «Çıraq» yataqlarının dərinlikdə yerləşən hissəsinin birgə işlənilməsi və hasil olunan neftin pay şəklində bölüşdürülməsi» haqqında dünyanın 11 ən iri neft şirkəti ilə bağlanmış müqavilə. – 59,119,195,204,226,232,265,355,395.

**48. Stavanger şəhəri** – Norveç Krallığının əsas dəniz limanlarından biri. 1996-cı ilin aprelində Azərbaycan prezidenti Heydər Əliyevin başçılığı ilə nümayəndə heyəti Norveçdə olmuş, burada ARDNŞ ilə Norveçin «Statoyl» şirkəti arasında «Xəzər dənizinin Azərbaycan sektorunun kəşfiyyatı və işlənməsi üzrə tərəflər arasında texnologiya və təcrübə mübadiləsinə dair əməkdaşlıq» haqqında saziş imzalanmışdır. – 60.

**49. Stoltenberq Yens** (d.1959) –Norveçin dövlət və siyasi xadimi. Əvvəllər Norveçin Energetika, Ticarət, Maliyyə nazirləri vəzifəsində çalışmışdır. 2000–2002-ci illər, 2005-ci ildən isə yenidən Norveçin Baş naziri olmuşdur. Onun hökuməti gender (10 kişi, 10 qadın nazir) bərabərliyində fəaliyyət göstərir. – 60.

**50. ORT,** Rusiya İctimai Televiziyası– Rusiyanın birinci telekanalı. MDB ölkələrinin 98 faizdən çox əhalisi üçün verilişlər aparır. Müxbir məntəqələri Rusiyada, MDB-də və dünyanın bir çox ölkələrində fəaliyyət göstərir. – 61,62,64.

**51. RTR, Ümumrusiya Dövlət Televiziya və Radio Verilişləri Kompaniyası** (ÜDTRVK) – 1990-cı ildə yaradılmışdır, Rusiya Federasiyası ərazisində televiziya və radio verilişləri təşkil edir. 1998-ci il bazasında yaradılmış ÜDTRVK dövlət media holdinqı federal «Rossiya» və «Kultura» telekanalları, «Radio Rossii», «Mayak», «Orfey», «Yunost», «Qolos Rossii» radiostansiyalarını və 92 regional dövlət teleradiokompaniyalarını, Ostankino televiziya və Rusiya informasiya texniki mərkəzini, «Vesti» agentliyini əhatə edir. – 62,64.

**52. Müstəqil Dövlətlər Birliyi** (MDB) – 1991-ci il dekabrın 8-də Belorusiya, Rusiya və Ukrayna dövlət başçılarının imzaladıqları saziş əsasında SSRİ dağıldıqdan sonra yeni dövlətlərarası birlik kimi yaradılmışdır. Azərbaycan 1993-cü ilin sentyabrında MDB-yə daxil olmuşdur. Tərkibinə keçmiş SSRİ-nin 12 müttəfiq respublikası – Azər-

baycan, Belarus, Ermənistan, Gürcüstan, Qazaxıstan, Qırğızıstan, Moldova, Özbəkistan, Rusiya, Tacikistan, Türkmənistan, Ukrayna daxildir. MDB-nin 1993-cü ildə qəbul edilmiş nizamnaməsində aşağıdakı birgə fəaliyyət sahələri nəzərdə tutulur: insan hüquq və azadlıqlarının təmin edilməsi; xarici siyasi fəaliyyətin əlaqələndirilməsi; ümumi iqtisadi məkanın formalaşdırılmasında, nəqliyyat sisteminin və rabitənin inkişafında əməkdaşlıq; əhalinin sağlamlığının və ətraf mühitin mühafizəsi; sosial və mühacirət məsələləri, mütəşəkkil cinayətkarlıqla mübarizə; müdafiə siyasətində və sərhədlərin qorunmasında əməkdaşlıq.

MDB-nin orqanları aşağıdakılardır: Dövlət başçıları Şurası; Hökumət başçıları Şurası; Xarici işlər nazirləri Şurası; Dövlətlərarası iqtisadi Şura; Mərkəzi Sankt–Peterburq şəhərində olan Parlamentlərarası Assambleya və s. MDB-nin daimi fəaliyyət göstərən orqanı Minsk şəhərində yerləşən Əlaqələndirmə Məsləhət Komitəsidir. – 63,360,364–372.

**53. «Röyter»** – İngiltərənin xarici informasiya agentliyi. 1851-ci ildə Londonda yaradılmışdır. Pöyter B.Britaniyanın rəsmi teleqraf agentliyidir. – 64.

**54. İlham Əliyev**, İlham Heydər oğlu (d.1961) – görkəmli ictimai-siyasi və dövlət xadimi, diplomat, siyasi elmlər doktoru, professor. 2003-cü ildən Azərbaycan Respublikasının Prezidenti. Xalqımızın Ümummilli lideri Heydər Əliyevin oğlu. 1994-cü ildən Azərbaycan Respublikası Dövlət Neft Şirkətinin vitse-prezidenti, 1997-ci ildən birinci vitse-prezidenti. Azərbaycan Respublikasının neft strategiyasının həyata keçirilməsində mühüm xidmətləri vardır.

2003-cü ildə Azərbaycan Respublikasının Baş naziri olmuşdur. Siyasi və dövlət xadimi kimi, İlham Əliyev beynəlxalq aləmdə böyük hörmət və nüfuz qazanmış, bir neçə ölkənin yüksək mükafatlarına layiq görülmüşdür.

Azərbaycan idmançılarının beynəlxalq yarışlarda uğurlar əldə etməsində də Azərbaycan Milli Olimpiya Komitəsinin prezidenti kimi, İlham Əliyevin böyük xidmətləri vardır. Onun şəxsi təşəbbüsü ilə Bakıda, Naxçıvanda, Gəncədə, Şəkidə və respublikanın digər rayonlarında dünya standartlarına cavab verən böyük olimpiya kompleksləri tikilib istifadəyə verilmiş, güclü maddi-texniki baza yaradılmışdır.

İlham Əliyevin doğma Azərbaycanımızın inkişafında müstəsna xidmətləri vardır. Onun dövründə ölkə iqtisadiyyatı, qeyri-neft sektoru sürətlə inkişaf etmiş, eyni zamanda ölkəyə qoyulan xarici investisiyalar xeyli artmışdır.

İlham Əliyev tərəfindən irəli sürülmüş «Regionların sosial-iqtisadi inkişafı haqqında dövlət proqramı»na əsasən respublikanın şəhər və rayonlarında onlarla sənaye müəssisəsi açılmış, yüz minlərlə iş yerləri yaradılmış və böyük abadlıq işləri görülmüşdür. Bu işi hazırda da uğurla davam etdirilir.

Ölkədə demokratik islahatlar aparılmasında, hüquqi dövlət quruculuğunda, Azərbaycan Respublikasının dövlət müstəqilliyinin möhkəmlənməsində uğurlu xidmətlər göstərən İlham Əliyev Yeni Azərbaycan Partiyasının I qurultayında partiya sədrinin müavini, II qurultayında sədrin birinci müavini seçilmişdir. 2005-ci ilin martından isə Yeni Azərbaycan Partiyasının sədridir. 1995-ci ildən Azərbaycan Respublikası Milli Məclisinin (1–2-ci çağırış) deputatı, Avropa Şurası Parlament Assambleyasında Azərbaycan Parlamenti daimi nümayəndə heyətinin başçısı olmuşdur. Azərbaycan haqqında, xüsusilə Ermənistanın ölkəmizə hərbi təcavüzü və onun nəticələri, erməni terrorizmi haqqında həqiqətlərin ən mötəbər beynəlxalq təşkilatlar vasitəsilə dünya ictimaiyyətinə çatdırılmasında müstəsna xidmətləri var. «Heydər Əliyev» və Fransanın «Fəxri legionun böyük xaç komandoru» ordenləri ilə təltif olunmuş, bir çox ölkənin və beynəlxalq təşkilatların fəxri ad və mükafatlarına layiq görülmüşdür. Bir neçə xarici akademiyaların və universitetlərin fəxri üzvüdür. – 64,259,262,267,383,412,413.

**55. Avropa Birliyi** (AB) – 1951–1957-ci illərdə yaranmış üç Qərbi Avropa inteqrasiya təşkilatının ümumi adı (Avropa İqtisadi Birliyi – AİB, Avropa Kömür və Polad Birliyi – AKPB, Avropada Atom Energetika Birliyi – AAEB). AB ümumi prinsiplərin müəyyən edilməsindən birgə fəaliyyətə qədər bir neçə mərhələ (Avropa İnvestisiya Bankının, Avropa Regional İnkişaf Fondunun – vahid valyuta qəbul etməsi – AVRO-ya) keçmişdir. Mühüm mərhələ Vahid Avropa Aktının (1986–87-ci ildən qüvvəyə minmişdir) qəbul edilməsi olmuşdur. 1967-ci ildə rəhbər orqanların birləşməsindən sonra – AİB, AKPB və AAEB – Avropa Birliyi – 1993-cü ildə isə Avropa Şurası yarandı. – 64,65,153.

**56. NATO** (Şimali Atlantika Müqaviləsi Təşkilatı) – hərbi-siyasi ittifaq. 1949-cu il aprelin 4-də Vaşinqtonda ABŞ, Böyük Britaniya, Fransa, Belçika, Niderland, Lüksemburq, Kanada, İtaliya, Portuqaliya, Norveç, Danimarka, İslandiyanın imzaladıqları Şimali Atlantika müqaviləsi əsasında yaradılmışdır. 1952-ci ildə Yunanıstan və Türkiyə, 1955-ci ildə Almaniya Federativ Respublikası, 1982-ci ildə İspaniya NATO-ya qoşul-

muşlar. Varşava Müqaviləsi Təşkilatı dağıldıqdan (1990) sonra əvvəllər sosialist ölkələri düşərgəsinə daxil olmuş ölkələrin bir qismi NATO-ya üzvlüyə qəbul edilmiş, digər qismi isə ilkin mərhələ kimi, NATO-nun «Sülh naminə tərəfdaşlıq» proqramına qoşulmuşlar. Ali orqanı NATO Şurasının sessiyasıdır. Mənzil-qərargahı Brüsseldədir. – 64,139,215,298, 303,384.

**57. Ankara** – Türkiyənin paytaxtı. Kiçik Asiyanın ən qədim şəhərlərindəndir. VII əsrdə Frigiya padşahı Midas tərəfindən salınmışdır. XIV əsrin 1-ci yarısından Osmanlı imperiyasında paşalıq, sancaq və vilayət mərkəzi olmuşdur. 1923-cü ildən Türkiyə Respublikasının paytaxtıdır. – 66–218,385,389,392,396,407,410,414.

**58. Əhməd Necdət Sezər** (d.1941) – 2000–2007-ci illərdə Türkiyə prezidenti. 1962–1983-cü illərdə bir sıra məsul vəzifələrdə çalışmışdır. 1993-cü ildə Türkiyə Kassasiya Məhkəməsinin, 1988-ci ildə isə Türkiyə Konstitusiya Məhkəməsinin üzvü seçilib. 1998–2000-ci illərdə Türkiyə Konstitusiya Məhkəməsinin sədri olmuşdur. – 66,75,76,77,78,81–83, 84–87,88,89–90,96–104,111,132–133,157,167,171–181,184,190,191,192, 213,218,288,289,290,293,389,392,401–405,406,407,408,409.

**59. Türkiyə Böyük Millət Məclisi (TBMM)** – Türkiyənin ali qanunverici orqanı. Parlament 1920-ci il aprelin 23-də yaradılmışdır. BMM-nin ilk sədri M.K.Atatürk olmuşdur. BMM iki palatadan ibarətdir: Senat (yuxarı palata) və Milli palata. – 66,75,98,102,110–127,128,129,130, 134,135,165,166,182–189,190,191,206,207,210,288,292,302,383.

**60. İsmayıl Cəm** – (1940–2007) – Türkiyənin siyasi və ictimai xadimi, 1997–2003-cü illərdə Türkiyə Respublikasının Xarici İşlər naziri vəzifəsində işləmişdir. Türkiyə–Yunanıstan münasibətlərinin yaxşılaşmasında mühüm rolu olmuşdur. – 67,108–109,111,196,293,301,302,334,335,387.

**61. «Şahdəniz»** – Azərbaycanın Xəzər dənizi sektorunda ən böyük və ən zəngin qaz yataqlarından biri. – 68,83,86,89,92,94,106,120,148, 192, 204.

**62. Bakı–Tbilisi–Ceyhan** – 1998-ci il oktyabrın 29-da Azərbaycan, Türkiyə, Gürcüstan, Qazaxıstan, Özbəkistan prezidentləri və ABŞ-ın Energetika naziri Bakı–Tbilisi–Ceyhan marşrutunu müdafiə edən «Ankara bə-

yannaməsini» imzalamışlar. Uzunluğu 1695 km olan Bakı–Tbilisi–Ceyhan neft kəməri 2006-cı ildə istifadəyə verilmişdir. – 68,77,83,85,86,89,91,94, 100,101,106,107,119,143,147,148,149,158,176,192,194,195,198,204,205, 215,356,396,404.

**63. Transxəzər qaz kəməri** – Xəzər dənizi vasitəsilə Azərbaycandan Gürcüstana və Türkiyəyə Orta Asiya qazının nəqli barədə saziş. Bu layihəyə görə qaz Türkiyədən Avropa bazarlarına çatdırılacaqdır. – 68, 285,410.

**64. «Space»** – Azərbaycanda müstəqil teleşirkət. 1997-ci ildə yaradılmışdır. Dünyanın bir sıra – MSM, Fashion TV, SNN, NTV telekanalları, İHLAS agentliyi ilə əməkdaşlıq edir. – 69.

**65. Eldar Namazov,** E l d a r S a q i f o ğ l u (d.1956) –1994–1999-cu illərdə Azərbaycan Respublikası Prezidentinin köməkçisi vəzifəsində çalışmışdır. – 69,70.

**66. Tofiq Zülfüqarov,** T o f i q N a d i r o ğ l u (d.1959) – diplomat, Fövqəladə və Səlahiyyətli səfir. 1998–99-cu illərdə Azərbaycan Respublikasının Xarici İşlər naziri vəzifəsində işləmişdir. 2006-cı ildən Latviya Respublikasında Azərbaycan Respublikasının Fövqəladə və Səlahiyyətli səfiridir. – 69,70.

**67. Cəlil Məmmədquluzadə,** M i r z ə C ə l i l H ü s e y n q u l u o ğ l u (ədəbi təxəllüsü Molla Nəsrəddin; 1866–1932) – böyük Azərbaycan yazıçısı, jurnalist, ictimai xadim. Mirzə Cəlilin ictimai-ədəbi fəaliyyəti XIX əsrin 80-ci illərinin axırından XX əsrin 30-cu illərinə qədərki böyük tarixi dövrü əhatə edir. 40 illik yaradıcılığı boyu müxtəlif janrlarda yazdığı əsərləri ilə Mirzə Cəlil Azərbaycan realist ədəbiyyatının yüksək pilləyə qalxmasında müstəsna rol oynamışdır. 1906-cı il aprelin 7-də çıxan «Molla Nəsrəddin» jurnalının nəşrinə başlamaqla Mirzə Cəlil Azərbaycanda, eləcə də Yaxın Şərqdə satirik jurnalistikanın əsasını qoymuşdur. – 72.

**68. İran,** İ r a n İ s l a m R e s p u b l i k a s ı – Cənub–Qərbi Asiyada dövlət. Sahəsi 1,65 milyon $km^2$, əhalisi 62,2 milyon nəfərdir. Paytaxtı Tehran şəhəridir. İnzibati cəhətdən 24 ostana bölünür. Ali qanunverici hakimiyyət orqanı 4 il müddətinə seçilən Xalq Şurası Məc-

lisidir. Hökuməti Baş nazir təşkil, prezident isə təsdiq edir. – 74,139,140, 143,150,185,203,208,209,273,278–286,303,354,383,411.

**69. Xatəmi,** S e y i d M ə h ə m m ə d X a t ə m i (d.1943) – İranın siyasi, ictimai və dövlət xadimi. 1989–92-ci illərdə İranın mədəniyyət və İslam Orijentasiyası naziri, 1997–2005-ci illərdə İran İslam Respublikasının prezidenti olmuşdur. – 74,203,206,208,270,271,278,279,280.

**70. Məmməd Əliyev,** M ə m m ə d N o v r u z o ğ l u (d.1942) – fövqəladə və səlahiyyətli səfir, fizika-riyaziyyat elmləri doktoru. 1992–2005-ci illərdə Türkiyə Respublikasında Azərbaycan Respublikasının Fövqəladə və Səlahiyyətli səfiri olmuşdur. – 75.

**71.Qədri Ecvet Tezcan** (d.1949) – Türkiyə diplomatı. 1998–2001-ci illərdə Türkiyə Cümhuriyyətinin Azərbaycanda Fövqəladə və Səlahiyyətli səfiri olmuşdur. – 75.

**72. Xeyrəddin Qoca,** Q o c a y e v X e y r ə d d i n S a y ə d d i n o ğ l u (d.1950) – Azərbaycan jurnalisti. 1995–2000-ci illərdə Milli Məclisin deputatı, 1997–2002-ci illərdə isə Türkiyə Respublikasının İstanbul şəhərində Azərbaycan Respublikasının Baş konsulu olmuşdur. – 75.

**73. Mustafa Kamal Atatürk,** Q a z i M u s t a f a K a m a l (1881–1938) –Türkiyənin dövlət, siyasi və hərbi xadimi, Türkiyə Respublikasının banisi və ilk prezidenti (1923–1938). Birinci dünya müharibəsi zamanı Dardanel boğazının müdafiəsində (1915) şücaət göstərmişdir.

Atatürk 1919-cu ildə «Kamalçılar hərəkatı»na – milli azadlıq hərəkatına başçılıq etmişdir. 1920-ci ildə Atatürk Ankarada yeni parlament – Türkiyə Böyük Millət Məclisini (TBMM) yaratdı, məclisin və təşkil edilən hökumətin sədri seçildi. Sakarya çayı yaxınlığında qələbəyə görə TBMM Atatürkə marşal rütbəsi və «Qazi» fəxri adını vermişdir. 1922-ci ildə Atatürkün komandanlığı ilə türk ordusu Türkiyəni xarici müdaxiləçilərdən tamamilə azad etdi.

Atatürk soyadı ona 1934-cü ildə TBMM tərəfindən verilmişdir. – 75, 76,87,97,113,114,115,126,127,177,179,391,402,408.

**74. Naxçıvan Muxtar Respublikası** (1920–23-cü illərdə Naxçıvan Sovet Sosialist Respublikası, 1923–24-cü illərdə Naxçıvan Muxtar Diyarı,

1924–1990-cı illərdə Naxçıvan Muxtar Sovet Sosialist Respublikası, 1990-cı ildən Naxçıvan Muxtar Respublikası) – Azərbaycan Respublikasının tərkibində muxtar dövlət.

Muxtar respublika ərazisinin sahəsi 5,5 min km$^2$, əhalisi 372,9 min nəfərdir. Hazırda 7 inzibati rayona (Babək, Culfa, Ordubad, Sədərək, Şahbuz, ŞəRur, Kəngərli) bölünmüşdür; 4 şəhəri (Naxçıvan, Ordubad, Culfa, Şərur), 9 qəsəbəsi, 160 kənd inzibati ərazi dairəsi var. – 78,83,188, 191,208,209,210,278,279,280,281,291,344.

**75. Qars** – Cənub–Şərqi Türkiyədə şəhər. Qars ilinin inzibati mərkəzi. 70 minə yaxın əhalisi var. – 88,108,182,183,184,186,187,188,189,291.

**76. Bülənd Ecevit** (1925–2006) – Türkiyənin siyasi və dövlət xadimi. 1974,1978–79 və 1997–2003-cü illərdə Türkiyə Respublikasının Baş naziri olmuşdur. 1972–80-ci illərdə Respublika Xalq Partiyasının, 1978–1988-ci illərdə Türkiyə Demokrat Sol Partiyasının Baş katibi idi. – 94–95,111,184,188,209,289,291,293.

**77. Osmanlı imperiyası,** O s m a n l ı i m p e r a t o r l u ğ u – Sultan Türkiyəsinin rəsmi adı (Osmanlılar sülaləsinin əsasını qoymuş I Osmanın adındandır). XV əsrin 2-ci yarısından Osmanlı dövləti imperiyaya çevrilməyə başlamış, XV–XVI əsrlərdə Asiya, Avropa və Afrikada türk işğalları nəticəsində dünyanın ən böyük dövlətlərindən biri olmuşdur. 1918-ci ildə Birinci dünya müharibəsindəki məğlubiyyətdən sonra tamamilə dağıldı, 1922-ci ildə Türkiyə sultanlığına da son qoyuldu. – 97,113, 114,174.

**78. Konqres,** A m e r i k a B i r l ə ş m i ş Ş t a t l a r ı K o n q r e s i – ali qanunverici hakimiyyət orqanı. İki palatadan – Senatdan və Nümayəndələr palatasından ibarətdir.

Senatın 100 nəfər üzvü var. Ölkənin hər ştatından Senata iki senator seçilir. Nümayəndələr palatasının 435 üzvü var. Bu palatanın üzvləri hər seçki dairəsində yaşayan əhalinin sayına görə seçilir. Qanun layihələri hər iki palatada müzakirə olunur. Konqres tərəfindən qəbul olunan qanunları ABŞ prezidenti təsdiq edir. – 99,100,125,222,327,330,352,354, 357.

**79. Hüseyn Kıvrıqoğlu** (d.1934) – Türkiyə hərbi xadimi, ordu generalı. Türkiyə Silahlı Qüvvələrinin Baş qərargah rəisi olmuşdur. – 104,111,295, 296,297.

**80. Dövlət Baxçalı** (1948) – Türkiyə siyasi xadimi, iqtisadçı. 1997-ci ildə Milliyyətçi Hərəkat Partiyasının sədri seçilmişdir. 1999-cu il seçkilərində qalib gələrək Demokratik Sol Partiya və Ana Vətən Partiyası ilə koalisiya hökumət yaratmışdır. Baş nazirin müavini olmuşdur. 2007-ci ildə keçirilən seçkilərdə yenidən millət vəkili seçilmişdir. – 105–106,111,289,293,388.

**81. Məsud Yılmaz (**d.1947) – Türkiyənin siyasi və dövlət xadimi. 1997-ci ildə Türkiyə Cümhuriyyətinin Baş naziri olmuşdur. Ana Vətən Partiyasının başqanı olmuşdur. – 106–108,111.

**82. Atəşkəs rejimi –** 1994-cü il mayın 12-də Ermənistan–Azərbaycan arasında atəşin müvəqqəti dayandırılması (atəşkəs) haqqında müqavilə imzalandı. Müqaviləyə görə müharibə aparan tərəflər sülh müqaviləsi bağlanana qədər atəşin dayandırılması haqqında razılığa gəldilər. – 117,174,229,318,328,339,398.

**83. Birləşmiş Millətlər Təşkilatının Təhlükəsizlik Şurası** (BMT TŞ) – BMT-nin daimi fəaliyyət göstərən mühüm orqanı. BMT-nin Nizamnaməsinə görə, beynəlxalq sülhün və təhlükəsizliyin qorunmasında əsas məsuliyyət daşıyır. 15 üzvü var: 5 daimi (Çin, Fransa, Rusiya, Böyük Britaniya, ABŞ), 10 üzvü isə 2 il müddətinə seçilir. Şuranın hər bir üzvü bir səsə malikdir. Prosedura məsələlərinə dair qərarlar Şuranın 9 üzvü səs verdikdə qəbul olunmuş sayılır. – 117,164,314,398.

**84. Bakı–Supsa neft kəməri** – 1994-cü ilin sentyabrında Azərbaycan hökumətinin xarici neft şirkətləri ilə imzaladığı «Əsrin müqaviləsi»nin həyata keçirilməsinin mühüm bir vasiləsi Bakı–Supsa neft kəməridir. Kəmərin uzunluğu 830 km, gündəlik maksimum ötürmə gücü 115 min barreldir. Supsada hər birinin tutumu 250 min barrel olan dörd terminal tikilmişdir.

1999-cu il aprelin 17-də Supsada ilkin Xəzər neftinin Qərb istiqamətində nəqli üçün Bakı–Supsa ixrac boru kəmərinin və Supsa yerüstü terminalının təntənəli rəsmi açılış mərasimi olmuşdur. – 119,143,150.

**85. Tansu Çillər** (d.1946) – Türkiyənin siyasi və dövlət xadimi. 1991-ci ildən TBMM-nin üzvü, 1993-cü ildən isə «Doğru yol» Partiyasının sədri, 1993–95-ci illərdə Türkiyə Cümhuriyyətinin Baş naziri olmuşdur. – 120.

**86. «Türk petrolları»,** T ü r k i y ə  p e t r o l l a r ı – 1954-cü ildə Türkiyənin neft və qaz sənayesinin inkişafı üçün yaradılmışdır. Karbohidrogen istehsalı və emalı sahəsində Türkiyənin ən böyük şirkətidir. TRAO hazırda MDB, Şimali Afrika və Orta Şərqdə fəaliyyət göstərir. Azərbaycana gələn ilk xarici neft şirkətlərindəndir. – 120,148,169.

**87. Klinton Bill,** U i l y a m  C e f e r s o n  B l a y d (d.1946) – ABŞ-ın görkəmli siyasi və dövlət xadimi. ABŞ-ın 41-ci prezidenti (1992–2000). Klinton xarici siyasətində SSRİ dağıldıqdan sonra müstəqillik qazanmış dövlətlərlə, o cümlədən Azərbaycan Respublikası ilə münasibətlərin yaxşılaşdırılmasına mühüm əhəmiyyət vermişdir. – 123,136,166,341,356, 410.

**88. Qars anlaşması**, bax: Qars müqaviləsi – .–

**89. Qars müqaviləsi** (1921) – Azərbaycan, Ermənistan və Gürcüstan Sovet Sosialist Respublikaları ilə, Türkiyə, RSFSR-in iştirakı ilə oktyabrın 13-də Qarsda bağlanmışdır. Qars müqaviləsinin 5-ci maddəsi və III əlavəsi Naxçıvanın ərazi mənsubiyyəti məsələsini bir daha təsdiqlədi, onun sərhədlərini qəti surətdə müəyyənləşdirdi. Qeyd olunan maddədə dürüst və konkret göstərilirdi: «Türkiyə hökuməti, Sovet Ermənistanı və Azərbaycan hökumətləri razıdırlar ki, indiki müqavilənin III əlavəsində göstərilən sənədlərdə Naxçıvan vilayəti Azəbaycanın himayəsi altında muxtar ərazi təşkil edir». Qars müqaviləsi beynəlxalq müqavilə kimi, Naxçıvanın Azərbaycanın tərkibində muxtar ərazi statusunu təsbit etmişdir. Təsadüfi deyildir ki, Naxçıvan MR-in təhlükəsizliyi hədələnəndə Qars müqaviləsi mühüm tarixi sənəd olmaqla onun taleyinin qarantı kimi gündəliyə gəlir. – 124,125,165,166.

**90. Kazım Qarabəkir Paşa** (1882–1948) – Türkiyənin görkəmli hərbi və dövlət xadimi. Ordu generalı. Atatürkün yaxın silahdaşlarından biri. Kazım Qarabəkir Paşa Azərbaycanın ərazi bütövlüyünün təmin olunmasında, onun ayrılmaz tərkib hissəsi olan Naxçıvan bölgəsinin erməni silahlı qüvvələrinin təcavüzündən müdafiəsində mühüm xidmətlər göstərmişdir. Kazım Qarabəkir Paşanın da imzaladığı Qars müqaviləsində (1921) Naxçıvan bölgəsinin Azərbaycanın himayəsi altında muxtar ərazi kimi təşkil edilməsi dövlətlərarası səviyyədə razılaşdırıldı. – 125.

**91. Süleyman Dəmirəl** (d.1924) – Türkiyənin görkəmli siyasi, ictimai və dövlət xadimi. Yeddi dəfə hökumətə başçılıq etmiş, 1993–2000-ci illərdə Türkiyə Respublikasının prezidenti olmuşdur. Süleyman Dəmirəlin siyasi fəaliyyətinin mənasını Türkiyəni iqtisadi cəhətdən dinamik inkişaf edən, demokratik dəyərlərə əsaslanan, Avropa ilə qovuşan bir dövlətə çevirmək əzmi təşkil etmişdir. Yeni türk dövlətləri ilə münasibətlərin, xüsusilə Azərbaycanla əlaqələrin genişlənməsi və möhkəmlənməsi Süleyman Dəmirəlin diqqət mərkəzində olmuşdur. Süleyman Dəmirəl: «Türkiyə həmişə Azərbaycanın yanındadır, Azərbaycanın müstəqilliyini tanıyan ilk ölkədir, onun inkişaf etməsi üçün əlindən gələn hər bir yardımı göstərmişdir və göstərməkdə də davam edəcəkdir» kəlamına əbədi sadiq dövlət xadimidir.

S.Dəmirəl Türkiyə–Azərbaycan, xalqlarımız və dövlətlərimiz arasında sarsılmaz dostluq münasibətlərinə xüsusi diqqət göstərdiyinə görə Azərbaycan Respublikasının «İstiqlal» ordeni ilə təltif edilmişdir. – 128–131,156,157,167,168,170,184,187,190,191.

**92. İstanbul** (1453-cü ilədək Konstantinopol) – Türkiyədə ən böyük şəhər. İstanbul ilinin inzibati mərkəzi. Sahəsi 285,4 km$^2$, əhalisi 7,6 milyon nəfərdir. Mərmərə dənizi yaxınlığında Bosfor boğazının hər iki sahilindədir. Şəhərin çox hissəsi Avropada, az hissəsi Asiyadadır. Əsası e.ə. 660-cı ildə Bizans kimi qoyulmuşdur. Eramızın 330-cu ilində Roma imperatoru Konstantinin şərəfinə Konstantinopol adlandırılmışdır. 395-ci ilə qədər Roma imperiyasının, 395–1453-cü illərdə fasilələrlə Bizansın paytaxtı olmuşdur. 1453-cü ildə Türkiyə Konstantinopolu tutmuş və İstanbul adlandırılmışdır. 1453–1918-cı illərdə Osmanlı imperiyasının, 1923-cü ilə kimi Türkiyə Respublikasının paytaxtı olmuşdur. – 132–133,316,380,382,383,387–408.

**93. Kolin Pauell** (d.1937) – Amerika generalı. Prezident böyük Corc Buş zamanında (1980–89,1989–92) Dövlət katibi olmuşdur. – 134,137, 201,202,222,223,308–310,311–318,329,332,335,341,344,352,353,357,388, 399.

**94. Yeltsin Boris Nikolayeviç** (1931–2007) – Rusiyanın siyasi və dövlət xadimi. 1991–2000-ci illərdə Rusiya Federasiyasının ilk prezidenti olmuşdur. – 136,138,139,194.

**95. Corc Buş** (d.1946) – ABŞ-ın 43-cü prezidenti (2000–2008-ci illər). ABŞ-ın 41-ci prezidenti Corc Herbert Buşun oğludur. 1968-ci ildə Yel Universitetini (incəsənət, tarix bakalavrı), 1975-ci ildə isə Harvard Universitetini (incəsənət magistri) bitirmişdir. «Speaktrum-7 Enerci Korporeyşn» firmasının yaradıcısıdır. 1994-cü ildən Texas ştatının qubernatoru olmuşdur. – 136,195,197,222,223,224,308,309,326–333,341,384,399.

**96. Olbrayt Madlen** (d.1937) – ABŞ-ın tanınmış diplomatı və dövlət xadimi. 1989-cu ildən ABŞ-ın Milli Siyasət Mərkəzinin prezidentidir. 1993-cü ildə ABŞ-ın BMT-də daimi nümayəndəsi təyin edilmişdir. 1997–2000-ci illərdə ABŞ-ın Dövlət katibi olmuşdur. – 136,166.

**97. İmam Xomeyni,** R u h u l l a M u s a v i (1903–1989) – 1979-cu ildən İran İslam Respublikasının başçısı, Ayətullah. 1964-cü ildə ölkədən qovulmuş, əvvəlcə İraqda, sonra isə Fransada mühacirətdə olmuşdur. 1979-cu ildə İrana qayıtmış, şah rejimini devirməyə və İslam Respublikasını qurmağa nail olmuş inqilaba başçılıq etmişdir. – 140.

**98. Misir Ərəb Respublikası** – Afrikanın şimal–şərqində və Asiyanın Sinay yarımadasında dövlət. Sahəsi 1001,4 min km$^2$, əhalisi 61 milyon nəfərdir. Dövlət başçısı prezident, qanunverici orqanı birpalatalı Xalq Məclisidir. Paytaxtı Qahirə şəhəridir. – 141,192,193,243–248,381,382.

**99. Səudiyyə Ərəbistanı,** S ə u d i y y ə Ə r ə b i s t a n ı K r a l l ı ğ ı – Cənub–Qərbi Asiyada dövlət. Sahəsi 2,15 milyon km$^2$, əhalisi 18,4 milyon nəfərdir. Paytaxtı ər-Piyaddır. İnzibati cəhətdən 4 əyalətə bölünür.

Səudiyyə Ərəbistanı mütləq teokratik monarxiyadır. Dövlət başçısı kraldır. Ölkədə bütün hakimiyyət krala məxsusdur. İcra orqanı Nazirlər Şurasıdır, Şuranı kral təyin edir və ona başçılıq edir. Hökumətin nəzdində Məşvərət Şurası var. Müsəlmanların iki müqəddəs şəhəri Məkkə və Mədinə Səudiyyə Ərəbistanındadır. – 145.

**100. Mədinə** – Səudiyyə Ərəbistanının şimal–qərbində şəhər. Qədim zamanlarda adi Yəsrib, erkən orta əsrlərdən Mədinədir. 622-ci ildə İslamın banisi Məhəmməd əleyhissəlam Məkkədən Mədinəyə hicrət etmiş və burada müsəlman icmasını yaratmışdı. Məhəmməd əleyhissəlamın qəbri Mədinədədir. VII əsrdən müsəlmanların iki müqəddəs şəhərlərindən biridir. – 145.

**101. Çeçenistan (İçkeriya)** – Rusiya Federasiyasında respublika. Paytaxtı Qroznı şəhəridir.

Orta əsrlərin əvvəllərində Çeçenistanın xeyli hissəsi Alan dövlətinin tərkibində idi. XIX əsrdə Rusiya Şimali Qafqazı işğal etməyə başladı. Çeçenlər öz torpaqlarından çıxarılır, onların yerinə burada kazaklar yerləşdirilirdi. Bu da Çeçenistanda milli-azadlıq hərəkatının başlanmasına səbəb oldu. Dağlıların bu hərəkatı (1817–1864) 1859-cu ildə Şeyx Şamil təslim olduqdan sonra yatırıldı və Çeçenistan tamamilə Rusiyaya birləşdirildi. 1991–92-ci illərdə Rusiya Federasiyası tərkibində müstəqil Çeçenistan Respublikası yaradıldı. – 145.

**102. Florida** – ABŞ-ın cənub–şərqində ştat. Sahəsi 152 min km$^2$, əhalisi 14,4 milyon nəfərdir. İnzibati mərkəzi Tallaxassi. – 151,195,223,225, 226,246,247,292,299,300,307–322,333,337,351,352,399,404.

**103. Surət Hüseynov,** Surət Davud oğlu (d.1959) – 1993–1994-cü illərdə Azərbaycan Respublikasının Baş naziri olmuşdur. 1994-cü ilin oktyabrında Azərbaycanın müstəqilliyinə, suverenliyinə qarşı yönəlmiş çevriliş cəhdinə rəhbərlik etmişdir. – 161.

**104. Azərbaycan Xalq Cəbhəsi** (AXC) – ictimai-siyasi təşkilat. 1989-cu ildə təsis konfransı keçirilmiş, Proqram və Nizamnaməsi qəbul olunmuşdur. 1999-cu il iyulun 25-də keçirilmiş qurultayın qərarı ilə Azərbaycan Xalq Cəbhəsi Partiyası adlandırılmışdır. – 161.

**105. İslam Konfransı Təşkilatı** (İKT) – 1969-cu ildə yaradılmışdır. Müsəlman ölkələrinin çoxunu birləşdirir. Nizamnaməsinə görə İslam Konfransı Təşkilatının fəaliyyəti müsəlmanların həmrəyliyinin möhkəmlənməsinə, üzv-dövlətlər arasında əməkdaşlığa yönəldilmişdir. İqamətgahı Ciddədədir (Səudiyyə Ərəbistanı). Azərbaycan 1991-ci ildən İKT-nın üzvüdür. – 162,381,382.

**106. Bakı Dövlət Universiteti** (BDU) – Azərbaycanda elmi-pedaqoji kadrlar hazırlayan ən böyük ali təhsil ocağı, elmi-tədqiqat müəssisəsi. 1919-cu ildə təsis olunmuşdur. İlk vaxtlar tibb və tarix-filologiya fakültələri fəaliyyət göstərmişdir. Hazırda BDU-nun 17 fakültəsi, onlarla kafedrası, elmi-tədqiqat laboratoriyaları və s. var. Universitetdə 43 ixtisas üzrə 13 minə yaxın tələbə təhsil alır. – 177.

**107. Naxçıvan Dövlət Universiteti**, Yusif Məmmədəliyev adına NDU – ali təhsil məktəbi. Naxçıvan MR-in mühüm təhsil, elm və mədəniyyət mərkəzi. Azərbaycan Respublikası Nazirlər Kabinetinin 29 dekabr 1990-cı il qərarı ilə Y.Məmmədəliyev adına Naxçıvan Dövlət Pedaqoji İnstitutu əsasında yaradılmışdır. 38 ixtisas üzrə mütəxəssislər hazırlayan 10 fakültəsi (tarix, filologiya, iqtisad, sosial-idarəetmə və hüquq, təbiətşünaslıq, tibb, fizika-riyaziyyat, pedaqoji, incəsənət, xarici tələbələr), hazırlıq şöbəsi fəaliyyət göstərir. NDU-da 3600-dən çox tələbə təhsil alır. – 177.

**108. Azərbaycan Milli Elmlər Akademiyası** – respublikanın ali elmi ocağı. 1945-ci ildə Bakıda təsis edilmişdir. 2001-ci ilin may ayından Azərbaycan Milli Elmlər Akademiyası adlanır. Azərbaycan Milli EA-nın aşağıdakı bölmələri var: fizika; texnika və riyaziyyat elmləri; kimya elmləri; yer elmləri; biologiya elmləri; humanitar və ictimai elmlər. Burada elmin müxtəlif sahələrinə dair aktual problemlər üzərində tədqiqat işləri aparılır. Hər il onlarca elmi işin nəticəsi istehsalatda tətbiq olunur. – 177,178,179.

**109. Moskva Dövlət Universiteti**, M. V. Lomonosov adına Moskva Dövlət Universiteti – dünya elminin ən böyük mərkəzlərindən biri. 1755-ci ildə M.V.Lomonosovun təşəbbüsü ilə yaradılmışdır. Universitetdə 200-dən çox kafedra, 430 elmi-tədqiqat laboratoriyası, 4 elmi-tədqiqat institutu, 4 observatoriya, 12 elmi-tədqiqat stansiyası, 3 muzey, Botanika bağı, elmi kitabxana, nəşriyyat var. Universitetdə 28 mindən çox tələbə təhsil alır. – 179.

**110. Beynəlxalq Atatürk Sülh Mükafatı** – Türkiyə Cümhuriyyətinin banisi Mustafa Kamal Atatürkün «Yurdda sülh, cahanda sülh» prinsiplərinə uyğun olaraq regionda, beynəlxalq aləmdə və ölkələrarası münasibətlərdə sülh, dostluq, anlaşma və xoşməramlı əməkdaşlıq yaradılmasına xidmət edən görkəmli şəxsiyyətlərə verilir. Mükafat 1986-cı ildə təsis edilmişdir. – 181.

**111. Mehri,** Megri, Mıqrı rayonu – Ermənistan ərazisində azərbaycanlılar yaşayan ərazi. Tarixi mənbələrdə bu ərazinin Azərbaycana məxsus olduğu göstərilir. – 185,344.

**112. Vasif Talıbov,** V a s i f  Y u s i f  o ğ l u (d.1960) – dövlət xadimi, 1995-ci ildən Azərbaycan Respublikası Milli Məclisinin və Naxçıvan Muxtar Respublikası Ali Məclisinin deputatı, Naxçıvan Muxtar Respublikası Ali Məclisinin sədridir. – 188,209.

**113. Turqut Özal,** Ö z a l  T u r q u t (1927–1993) –Türkiyənin görkəmli dövlət və siyasi xadimi. 1980–82-ci illərdə Dövlət naziri, 1983–1989-cu illərdə Türkiyənin Baş naziri, 1989–93-cü illərdə Türkiyənin prezidenti olmuşdur. – 191.

**114. Viktor Kalyujnı** (d.1947) – neftçi mühəndis, diplomat. 1999–2000-ci illərdə Rusiya Federasiyası Yanacaq və Energetika naziri, 2000-ci ilin avqustundan 2004-cü ilə qədər Xarici İşlər nazirinin birinci müavini və prezidentin Xəzər dənizi statusunun həlli üzrə xüsusi nümayəndəsi işləmişdir. 2004-cü ilin sentyabrından Rusiya Federasiyasının Latviyada Fövqəladə və Səlahiyyətli səfiridir. – 194,264–277.

**115. «LUKoyl»** – neft şirkəti. 1993-cü ildə Rusiya Federasiyası hökumətinin qərarı ilə yaradılmışdır. Nəhəng sənaye-maliyyə kompleksinə malik olan «LUKoyl» şirkəti Rusiya, MDB və dünyanın bir çox ölkələrində neft məhsullarının kəşfiyyatı, hasilatı, emalı və satışı ilə məşğul olur. Şirkət 1993-cü ildən Azərbaycanda fəaliyyət göstərir. – 195,264–277.

**116. Dik Çeyni** (d.1941) – Amerikanın  siyasi xadimi. 1989–1992-ci illərdə ABŞ-ın Müdafiə naziri olmuşdur. 1993-cü ildən Amerikada Sahibkarlıq İnstitutunun direktorudur. «Hallibörtn» korporasiyasının prezidenti, Amerika–Azərbaycan Ticarət Palatasının fəxri üzvüdür. Hal-hazırda ABŞ-ın vitse-prezidentidir. – 197,293,329,332,335,352,353,357.

**117. «Şevron» –** dünyanın ən iri beynəlxalq enerji və kimya şirkətlərindən biri. Baş ofisi Kaliforniyanın San-Fransisko şəhərində yerləşir. Neft və kimya sənayesinin bütün sahələrində iş görən «Şevron»un dünyanın 100-ə qədər ölkəsində 450 filialı və birgə müəssisəsi fəaliyyət göstərir. Dünyanın müxtəlif ölkələrində 41000 işçisi var. 1879-cu ildə «Pasifik Kost Oyl Kompani» adı ilə fəaliyyətə başlamışdır. – 198,204,272.

**118. «Eksson» korporasiyası** – dünyada ən iri və ən qocaman sənaye müəssisələrindən biri. Mənzil-qərargahı Texas ştatının Dallas şəhərində

yerləşir. 1882-ci ildə Con Rokfeller tərəfindən yaradılmışdır. Xaricdəki ilk filialı 100 il əvvəl təsis edilmişdir. Hazırda dünyanın 90-dan çox ölkəsində fəaliyyət göstərir. Korporasiyada 95 min adam işləyir. 18 ölkədə yerləşən 30 neftayırma müəssisəsinin tam və ya şərikli sahibidir. – 198, 272.

**119. «Mobil»** – dünyanın ən iri neft şirkətlərindən biri. 1986-cı ildə yaradılmışdır. Şirkət neft və qaz yataqlarının kəşfiyyatı, neft və qaz hasilatı, satışı, emalı və nəql olunması ilə, kimyəvi maddələr istehsalı və elmi-tədqiqat işləri ilə məşğul olur. – 198.

**120. Xoşbəxt Yusifzadə,** Xoşbəxt Bağı oğlu (d.1930) – neftçi-geoloq, geologiya-minerologiya elmləri doktoru. Azərbaycan Milli Elmlər Akademiyasının akademiki. 1994–2000-ci illərdə Azərbaycan Respublikası Dövlət Neft Şirkətinin vitse-prezidenti, 2004-cü ildən isə birinci vitse-prezidentdir. Azərbaycan Respublikasının «Şöhrət» və «İstiqlal» ordenləri ilə təltif olunmuşdur. – 205.

**121. *bp*,** «Britiş Petroleum» – dünyanın ən iri neft şirkətlərindən biri. 1909-cu ildən bir çox ölkələrdə neftin kəşfiyyatı, çıxarılması, emalı və satışı ilə məşğuldur. *bp* 1994-cü ildən Azərbaycanda fəaliyyət göstərir. Hazırda ABƏŞ-in əsas operatorudur. – 205,272,277.

**122. GUÖAM** – Avropada adi silahların azaldılması haqqında müqavilənin cinah sənədi müzakirə olunduqdan sonra həmin sənədi bəyənən ölkələrdən – Gürcüstan, Ukrayna, Azərbaycan və Moldovadan ibarət qeyri-rəsmi «dördlər qrupu» yaradıldı. Sonralar bu quruma Özbəkistan da qatıldı (10 oktyabr 1997). 2005-ci ildə Özbəkistan bu qurumu tərk etdi. – 206.

**123. «Exo»** – Azərbaycanda buraxılan gündəlik ictimai-siyasi qəzet. 2001-ci ildən Bakıda nəşr edilir. Gündəlik tirajı 6 min nüsxədir. – 212.

**124. Maqsud İbrahimbəyov,** Maqsud Məmmədibrahim oğlu (d.1935) – görkəmli nasir, dramaturq, ssenarist, ictimai və siyasi xadim, Azərbaycan xalq yazıçısı. Azərbaycan Respublikası Dövlət mükafatı laureatıdır. Respublikada və xaricdə nəşr edilən onlarla povest və hekayələrin müəllifidir. Onun pyesləri keçmiş SSRİ məkanında onlarla teatrlarda tamaşaya qoyulmuşdur. Onun ssenariləri əsasında bir çox film çəkilmişdir. Azərbaycan Respublikası Əsilzadələr Məclisinin sədri,

1995-ci ildən Milli Məclisin üzvüdür. Azərbaycan Respublikasının «Şöhrət» və «İstiqlal» ordenləri ilə təltif olunmuşdur. – 212.

**125. Vilayət Quliyev,** V i l a y ə t M u x t a r o ğ l u (d.1952) – filoloq, diplomat. Filologiya elmləri doktoru. 1996–2000-ci illərdə Milli Məclisin deputatı olmuşdur. 1999–2004-cü illərdə Azərbaycan Respublikası Xarici İşlər naziri vəzifəsində çalışmışdır. Hazırda Azərbaycan Respublikasının Macarıstan Respublikasında Fövqəladə və Səlahiyyətli səfiridir. – 213.

**126. Avropa–Atlantika Əməkdaşlıq Şurası –** 1997-ci ildə Şimali Atlantika Əməkdaşlıq Şurasının Portuqaliya sessiyasında yaradılmışdır. Tərkibinə 44 ölkə, o cümlədən Azərbaycan Respublikası daxildir. – 215.

**127. Avropa – Qafqaz – Asiya nəqliyyat dəhlizi** (TRASEKA) – Avropanı Asiya ilə birləşdirən yol. Bu nəqliyyat dəhlizini Şərqlə Qərbi birləşdirən orta materik xətti də adlandırmaq olar. Transqafqaz nəqliyyat dəhlizi Azərbaycanı, bütünlükdə Qafqazı Avropa ilə birləşdirir. – 216,244,396.

**128. Qara Dəniz Ölkələri İqtisadi Əməkdaşlıq Təşkilatı** – 1992-ci ildə İstanbul zirvə görüşündə yaradılmışdır. Buraya Albaniya, Azərbaycan, Bolqarıstan, Ermənistan, Gürcüstan, Moldova, Rumıniya, Rusiya, Serbiya, Xorvatiya, Türkiyə, Ukrayna və Yunanıstan daxildir. Bu təşkilat ancaq iqtisadi əməkdaşlıq maraqları əsasında qurulmuş təşkilatdır. İqamətgahı İstanbuldadır. – 216.

**129. Banqladeş,** B a n q l a d e ş X a l q R e s p u b l i k a s ı – Cənubi Asiyada dövlət. Sahəsi 144 min km$^2$, əhalisi 123 milyon nəfərdir. Millətlər Birliyinə daxildir. İnzibati ərazisi 4 vilayətə bölünür. Dövlət başçısı prezident, qanunverici orqanı birpalatalı parlamentdir. Paytaxtı Dakkadır. – 219.

**130. Novruz bayramı** – qədim xalq bayramı. Şimal yarımkürəsində astronomik yazın başlandığı gecə-gündüz bərabərliyi günündə (martın 21–22-də ) keçirilir. Qədim zamanlardan başlayaraq İran, Azərbaycan, Əfqanıstan, Tacikistan, Özbəkistan və bəzi Şərq ölkələri baharın – yeni ilin gəlişini şənliklərlə qarşılayırlar. Respublikamız müstəqillik qazanan-

dan sonra Novruz bayramı rəsmi ümumxalq bayramı və istirahət günü elan edilmişdir. – 220–221,222,223,235–242,291.

**131. Hüsnü Mübarək,** S e y i d M ə h ə m m ə d (d.1928) – Misir Ərəb Respublikasının görkəmli siyasi və dövlət xadimi. 1975–81-ci illərdə Misir Ərəb Respublikasının vitse-prezidenti, 1981-ci ilin oktyabrından prezidentidir. – 244,246,247,248,281,282.

**132.Avropa İttifaqı** – 1992-ci ildə 12 ölkəni (Belçika, Böyük Britaniya, Almaniya, Yunanıstan, Danimarka, İrlandiya, İspaniya, İtaliya, Lüksemburq, Niderlandiya, Portuqaliya, Fransa) birləşdirən Avropa Birliyi bazasında 1993-cü ildə Maastrixt müqaviləsinə əsasən yaradılmışdır.

Sonralar Avropa İttifaqına Avstriya, Finlandiya daxil olmuşdur. Müqavilə vahid siyasi, iqtisadi mühitin və valyutanın yaradılmasını, malın, kapitalın və adamların azad hərəkətinə bütün maneələrin aradan qaldırılmasını irəli sürmüşdür. Vahid Avropa vətəndaşlığı qəbul edilmişdir. Avropa Mərkəzi Bankında Avropa valyuta interneti fəaliyyət göstərir, 1999-cu ildə vahid valyuta–avro işlənir, vahid pul-kredit siyasəti aparılır. – 244,396.

**133. İsrail –** Yaxın Şərqdə dövlət. Sahəsi 20,8 min $km^2$, əhalisi 5,5 milyon nəfərdir. İsrail dövləti BMT-nin Baş Məclisinin 1947-ci il 29 noyabr tarixli qərarına əsasən yaradılmışdır. İsrail inzibati cəhətdən 6 mahala bölünür. Dövlət başçısı prezidentdir, onu birpalatalı parlament (knesset) seçir. Hökumətə geniş səlahiyyəti olan Baş nazir başçılıq edir. – 245,247,248,338,373,374,381.

**134. 31 mart azərbaycanlıların soyqırımı,** 1 9 0 5 – 1 9 1 8 - c i i l l ə r s o y q ı r ı m ı – çarizmin fəal köməyi ilə erməni-daşnak silahlı birləşmələrinin Azərbaycanın türk-müsəlman əhalisinə qarşı törətdiyi genişmiqyaslı qanlı aksiyalar. Ermənilərin 1905-ci ilin fevralında Bakıdan başlanan vəhşilikləri bütün Azərbaycanı və indi Ermənistan adlanan Qərbi Azərbaycan ərazisindəki yaşayış məntəqələrini əhatə etdi. Yüzlərlə Azərbaycan kəndi dağıdıldı, yüz minlərlə azərbaycanlı vəhşicəsinə qətlə yetirildi, xalqımıza məxsus çoxlu milli mədəniyyət abidələri məhv və talan olundu. Bütün bu vəhşiliklər ermənilərin vaxtilə yerləşdirildikləri, lakin əhalinin milli tərkibində azlıq təşkil etdikləri Azərbaycan torpaqlarını zorla erməniləşdirmək, bədnam «azərbaycanlılarsız

Ermənistan» kimi qeyri-insani planlarını azərbaycanlıların soyqırımı hesabına həyata keçirmək niyyətindən xəbər verir. – 249–252.

**135. 1990-cı ilin yanvarı** – 1990-cı ilin yanvarında Azərbaycanda faciə baş verdi. Yanvarın 19-dan 20-nə keçən gecə fövqəladə vəziyyət elan edilmədən sovet ordusunun xüsusi təyinatlı cəza dəstələri, dəniz donanmasının və daxili qoşunların bölmələri Bakı şəhərinə yeridildi. Sovet ordusunun bu kütləvi zorakılıq aktı nəticəsində 131 nəfər öldürülmüş, 744 nəfər yaralanmış, yüzlərlə adam qanunsuz həbs edilmiş və itkin düşmüş, dövlət əmlakına, ictimai və şəxsi əmlaka, şəhər təsərrüfatına və vətəndaşlara böyük maddi ziyan dəymişdi. 1990-cı ilin qanlı yanvarı Azərbaycanın ərazi bütövlüyü uğrunda aparılan mübarizə tariximizdə vətənin şəhid övladlarının qanı ilə yazılmış şərəfli səhifə oldu. – 250.

**136. Göyçə** – İrəvan xanlığının 15 mahalından biri. İndiki Ermənistan ərazisində qədimdən Azərbaycan turklərinin yaşadıqları bölgə. Göyçə adının ilk dəfə V əsrin sonlarında işlədildiyi güman edilir. Şah İsmayılın (1501–1524) 1510-cu ilə aid fərmanında «Göyçə mahalı» qeyd edilmişdir. Türkmənçay müqaviləsinə (1828) əsasən İrəvan xanlığının tərkibində çar Rusiyasının tərkibinə qatılmışdır. 1829–32-ci illərə aid məlumata görə, Göyçə mahalında 100-dən çox yaşayış məskəni, 14.354 nəfər əhali (əsasən azərbaycanlılar) qeydə alınmışdı. Ermənilərin kütləvi şəkildə Qərbi Azərbaycana köçürülməsi Göyçə mahalının etnik tərkibini əsaslı şəkildə dəyişdirdi və mahal erməniləşdirilməyə başlandı. Azərbaycan Xalq Cümhuriyyəti dövründə inzibati-ərazi vahidi idi (əhalisi özünü cümhuriyyətin tərkib hissəsi hesab edir və onun hakimiyyətinin möhkəmləndirilməsi uğrunda mübarizə aparırdı). Ermənilər bu torpaqlara iddialarını həyata keçirmək üçün azərbaycanlılara qarşı soyqırımı siyasəti yeridilər. Azərbaycanda və Ermənistanda sovet hakimiyyəti qurulduqdan sonra sovet-bolşevik rejiminin himayəsi ilə Göyçə, demək olar ki, bütünlüklə Ermənistana verildi. Mahalın Azərbaycan türklərinə məxsus yaşayış məskənlərinin adları kütləvi surətdə dəyişdirilərək erməniləşdirildi. Ermənilərin həyata keçirdikləri soyqırımları və zorakı köçürmələr nəticəsində tarixən azərbaycanlılara məxsus olan Göyçə mahalında hazırda bir nəfər də olsun azərbaycanlı qalmamışdır. – 250.

**137. Zəngəzur mahalı,** Z ə n g ə z u r q ə z a s ı – XIX əsrin 2-ci yarısında Azərbaycanda inzibati ərazi vahidi. 1861-ci ildə təşkil olunmuşdur. Çar

Rusiyası hökumətinin 1867-ci il dekabr tarixli fərmanına əsasən yaradılmış Yelizavetpol (Gəncə) quberniyasının tərkibinə daxil edilmişdi. – 250.

**138. Xocalı soyqırımı** – 1992-ci il fevralın 25-dən 26-na keçən gecə erməni silahlı qüvvələri və Xankəndində yerləşən Rusiyanın 366-cı alayının əsgər və zabitləri Xocalıya hər tərəfdən hücum etmiş, şəhəri tamamilə yandırmışlar; 1000 nəfərdən artıq azərbaycanlı öldürülmüş, yüzlərlə şəhər sakini yaralanmış, itkin düşmüşdür. – 250,313.

**139. Yunanıstan,** Yunanıstan Respublikası – Cənubi Avropada dövlət. Sahəsi 132 min km$^2$, əhalisi 10,5 milyon nəfərdir. İnzibati ərazisi 13 vilayətə bölünür. Dövlət başçısı prezident, ali qanunverici orqanı birpalatalı parlamentdir. Paytaxtı Afinadır. – 253.

**140. Konstantinos Stefanopulos** (d.1926) – 1995–2005-ci illərdə Yunanıstanın prezidenti olmuşdur. – 253.

**141. Tatarıstan,** Tatarıstan Respublikası – Rusiya Federasiyası tərkibində federal vilayət. Sahəsi 68 min km$^2$, əhalisi 3773,8 min nəfərdir. – 254.

**142. Beynəlxalq Olimpiya Komitəsi (BOK)** – muasir olimpiya hərəkatının daim fəaliyyət göstərən ali orqanı. Pyer de Kubertenin təşəbbüsü ilə yaradılmışdır. 1997-ci ildə BOK-un tərkibində 200 üzvü (70 ölkədən artıq) var idi. BOK-u 200-yə yaxın milli olimpiya komitəsi tanıyır. Mənzil-qərargahı Lozannadadır (İsveçrə). – 256,261.

**143. Çingiz Hüseynzadə,** Çingiz Muxtar oğlu (d.1951) – şərqşünas. Azərbaycan Atletika federasiyasının prezidenti. 1997-ci ildən Azərbaycan Milli Olimpiya Komitəsinin vitse-prezidenti. Azərbaycan Respublikasının «Şöhrət» ordeni ilə təltif olunmuşdur. – 263.

**144. Vahid Ələkbərov**, Ələkbərov Vahid Yusif oğlu (d.1950) – 1993-cü ildən Rusiyanın ən böyük neft şirkətlərindən olan «LUKoyl»un prezidentidir. – 264–277.

**145. Natiq Əliyev,** Natiq Agaəli oğlu (d.1947) – 1993–2006-cı illər Azərbaycan Respublikası Dövlət Neft Şirkətinin prezidenti olmuşdur. Hazırda Azərbaycan Respublikası Sənaye və Energetika na-

ziridir. Azərbaycan Respublikasının «Şöhrət» ordeni ilə təltif edilmişdir. – 267.

**146. Sabit Orucov,** S a b i t  A t a b a b a  o ğ l u (1912–1981) – dövlət xadimi, neft və qaz sənayesi sahəsində alim. Texnika elmləri doktoru, professor. AMEA-nın müxbir üzvü. Sosialist Əməyi Qəhrəmanı. O, SSRİ Neft Sənayesi nazirinin müavini (1947–1953; 1955–1957), SSRİ Kimya, Neft və Yanacaq Sənayesi Dövlət Komitəsinin sədr müavini (1962–1965), SSRİ Qaz Sənayesi (1972–1981) naziri olmuşdur. SSRİ-də qaz sənayesinin yeni texnika ilə təchiz olunmasında, qaz hasilatının sürətlə artmasında Sabit Oruçovun böyük xidməti olmuşdur. Sabit Orucov SSRİ Dövlət mükafatı (1950,1951) və Lenin mükafatı (1970) laureatıdır. – 268.

**147. Tağıyev Əyyub,** Ə y y u b  İ s m a y ı l  o ğ l u (1911–1966) – Neft-mədən işləri sahəsində alim. Texnika elmləri doktoru, professor. 1957–60-cı illərdə neftçıxarma idarələrində mühüm vəzifələrdə çalışmışdır. 1962–66-cı illərdə Qubkin adına Moskva Neft Kimyası və Qaz Sənayesi İnstitutunda elmi işlər üzrə prorektor olmuşdur. O, SSRİ-də qazma turbininin yaradıcılarından biri olmuşdur. Əyyub Tağıyev SSRİ Dövlət mükafatı (1942,1947,1952) laureatıdır. – 269.

**148. Ələkbər Süleymanov,** Ə l ə k b ə r  B a ğ ı r  o ğ l u (1916–1988) – neft və qaz yataqlarının işlənilməsi sahəsində alim. Texnika elmləri doktoru, professor. O, Azərbaycan Respublikası Neftçıxarma Sənayesi nazirinin birinci müavini (1965–68), «Azərneft» Birliyinin (1968–72) direktoru və s. məsul vəzifələrdə çalışmışdır. Ələkbər Süleymanov SSRİ Dövlət mükafatı (1950,1952,1969) laureatıdır. – 269.

**149. Artur Rasizadə,** A r t u r  T a h i r  o ğ l u (d.1935) – Azərbaycanın dövlət xadimi. SSRİ Dövlət mükafatı laureatı. 1986–1992-ci illərdə Azərbaycan Respublikası Baş nazirinin birinci müavini vəzifəsində işləyib. 1996-cı ildən Azərbaycan Respublikasının Baş naziridir. Azərbaycan Respublikasının «İstiqlal» ordeni ilə təltif olunmuşdur. – 271,290.

**150. «Qazprom»** – Rusiyanın qaz istehsal edən və qaz paylayan şirkəti. Dünyanın ən böyük qaz ixrac edən şirkətlərindən biri. Şirkətin hazırkı adı – Rusiya Aksioner «Qazprom» Cəmiyyətidir. Mənzil-qərargahı Moskvadadır. – 272.

**151. «Rosneft»** – Rusiya Federasiyasının iri neft şirkətlərindən biri. – 272.

**152. «AMOKO» –** dünyanın ən böyük neft və qaz istehsalçılarından biri. 1989-cu ildə yaradılmışdır. Müxtəlif ölkələrdə 42.000 işçisi var. Şirkət energetika, neft və qaz emalı, kimya və neft-kimya sahələrində də fəaliyyət göstərir. – 277.

**153. «Acip»** – dünyanın ən iri neft şirkətlərindən biri. İtaliyanın «Acip» şirkəti 1926-cı ildə yaradılmışdır. «Acip» 1995-ci ildən Azərbaycanın neft layihələrində fəal iştirak edir. Neftin kəşfiyyatı, çıxarılması və emalı ilə məşğul olur. – 277.

**154. Abid Şərifov,** A b i d Q o c a o ğ l u (d.1940) – inşaatçı. 1995-ci ildən Azərbaycan Respublikası Baş nazirinin müavini. – 279,281,287–293.

**155. Ki-Uest** – ABŞ-ın cənub-şərqində, Florida ştatında şəhər. Əhalisi 29,3 min nəfərdir. Qış dəniz kurortudur. – 300,307–322,326,328,331,332, 333,334,337,388,399,404.

**156. Dövlət Departamenti** – ABŞ-da 1789-cu ildən Xarici İşlər Nazirliyi funksiyasını həyata keçirən əsas xarici siyasət idarəsi. Dövlət katibi başçılıq edir, prezidentin və Konqresin hazırladığı xarici siyasi xətti həyata keçirir. – 301,415.

**157. Respublikaçılar Partiyası** – ABŞ-ın iki əsas partiyasından biri. 1854-cü ildə yaradılmışdır. 1861-ci ildən 2001-ci ilədək bir neçə dəfə hakimiyyətdə olmuşdur. – 301.

**158. Nizami Bəhmənov,** N i z a m i K e y k a v u ş o ğ l u (1948–2009) – Dağlıq Qarabağın azərbaycanlılar icmasının başçısı olmuşdur. – 301.

**159. Marneuli, bax: Borçalı.**

**160. Borçalı** – Gürcüstan Respublikasında Azərbaycan türklərinin elliklə yaşadığı qədim tarixi mahal. Borçalıya erkən orta əsrlərdə türkdilli tayfalar, XVI–XVII əsrlərdə isə azərbaycanlılar köçmüşdü.

Borçalı mahalı Azərbaycan, bəzən də gürcü feodallarının vassallığına çevrilsə də, çox zaman müstəqilliyini saxlaya bilmişdi. Borçalı mahalını 1736-cı ildə İran şahı Nadir Qazax mahalı ilə birlikdə Gəncə bəylərbəyliyindən alıb Kartli-Kaxeti çarının tabeliyinə verdi.

Azərbaycanlılar yaşayan ərazilər arasında Rusiya ilk dəfə Borçalı sultanlığını (1801) işğal etmişdir. XIX əsrin ortalarında Borçalı mahalı qəzaya çevrildi. Qəza isə 1929-cu ildə ləğv edilib üç rayona bölündü. Borçalı rayonu 1950-ci ildən Marneuli adlanır. Çar Rusiyası və Sovet Rusiyası dövründə yeridilmiş məqsədyönlü siyasət nəticəsində azərbaycanlıların qədim Borçalı mahalı etnik-ərazi vahidi kimi tarix səhnəsindən silindi və Azərbaycanın təsir dairəsindən çıxarıldı.– 302.

**161. Corc Robertson** (d.1946) – İngiltərənin siyasi və dövlət xadimi. Müxtəlif illərdə 6 dəfə parlamentə deputat seçilib. 1999–2004-cü illərdə NATO-nun Baş katibi olmuşdur. – 303.

**162. «907-ci maddə» –** ABŞ Konqresinin 1992-ci il oktyabrın 24-də erməni lobbisinin təzyiqi ilə qəbul etdiyi «Rusiyanın və yeni müstəqillik qazanmış dövlətlərin azadlığını müdafiə aktı»na 907-ci düzəliş nəzərdə tutulur. Düzəliş ABŞ hökumətinin Azərbaycan hökumətinə yardımını qadağan edir. Buna baxmayaraq, istər Bill Klinton, istərsə də ondan sonra ABŞ prezidenti seçilən Corc Buş administrasiyası bu düzəlişin reallığı nəzərə almadığını təsdiq edərək onun ləğv edilməsi təklifini müdafiə etmişlər. C.Buş hökuməti 2002-ci ildə bu düzəlişin fəaliyyətdən düşdüyünü qərara almışdır. – 307,327,330,357.

**163. Trumen Harri** (1884–1972) – ABŞ-ın 33-cü prezidenti (1945–1953). Xirosima və Naqasakiyə atom bombasının atılması haqqında sərəncam vermişdir. NATO təşkilatının yaradıcılarından biri. – 308–310,350.

**164. ATƏT-in Lissabon sammiti** – 1996-cı il dekabrın 2–4-də Portuqaliyanın paytaxtı Lissabon şəhərində ATƏT-in 54 üzvünün dövlət və hökumət başçılarının iştirakı ilə növbəti Zirvə toplantısı keçirildi. Lissabon Zirvə toplantısında müzakirə olunan məsələlər arasında Azərbaycan Respublikası nümayəndə heyətinin təkidi ilə Ermənistan–Azərbaycan münaqişəsi geniş diskussiyaya səbəb oldu. Azərbaycan Respublikası nümayəndə heyətinin başçısı Heydər Əliyevin qəti, prinsipial mövqeyi və gərgin səyi nəticəsində yekun sənədə əlavə kimi qəbul edilən ATƏT sədrinin bəyanatında ilk dəfə

olaraq ən yüksək səviyyədə münaqişənin həllinin əsası kimi, Azərbaycan Respublikasının ərazi bütövlüyü 53 dövlət tərəfindən dəstəkləndi və Dağlıq Qarabağın statusunun yalnız Azərbaycan Respublikasının tərkibində müəyyən olunması öz əksini tapdı. – 309,315,328.

**165. Trubnikov Vyaçeslav İvanoviç** (d.1944) – Rusiya dövlət xadimi, ordu generalı. 1996–2000-ci illərdə Rusiya Federasiyası Xarici Kəşfiyyat İdarəsinin direktoru, 2000–2004-cü illərdə Xarici İşlər nazirinin birinci müavini, 2004-cü ildən Hindistanda Fövqəladə və Səlahiyyətli səfirdir. – 319–320.

**166. Meksika korfəzi –** Şimali Amerika sahillərində, Florida və Yukatan yarımadaları və Kuba adaları arasında Atlantik okeanının yarımqapalı dənizi. Sahəsi 1543 km$^2$, suyunun həcmi 2332 km$^3$, maksimum dərinliyi 5203 metrdir. Okean sularının passat küləkləri ilə Meksika körfəzinə qovulması nəticəsində körfəzdə səviyyənin qalxmasından Qolfstrum yaranır. Körfəzin şimal–qərbi şelf zonası neftlə zəngindir. – 321.

**167. Moldova,** M o l d o v a  R e s p u b l i k a s ı – Cənub–Şərqi Avropada dövlət. Sahəsi 33,7 min km$^2$, əhalisi 4,36 milyon nəfərdir. İnzibati ərazisi 40 rayona bölünür. Dövlət başçısı prezident, qanunverici orqanı birpalatalı parlamentdir. Paytaxtı Kişinyov şəhəridir. – 325,369, 371,372.

**168. Vladimir Voronin** (d.1941) – Moldova dövlət xadimi. 2001 və 2005-ci illərdə Moldova prezidenti. – 325.

**169. Ağ ev** – Vaşinqtonda ABŞ prezidentinin iqamətgahı və dəftərxanası (1800-cü ildən).1792–1829-cu illərdə inşa edilmişdir. ABŞ hökumətinə çox zaman Ağ ev deyilir. – 326–333.

**170. Virciniya** – ABŞ-ın şərqində ştat. Sahəsi 105,2 min km$^2$, əhalisi 6,7 milyon nəfərdir. İnzibati mərkəzi – Riçmond. – 336.

**171. Mahmud Məmmədquliyev**, M a h m u d  Ə h m ə d  o ğ l u (d.1949) – 1974-cü ildən Bakı və Moskva şəhərlərində hüquq mühafizə orqanlarında işləmiş, 1993-cü ildən Azərbaycan Xarici İşlər nazirinin müavini, Azərbaycan Respublikasının Böyük Britaniya və Şimali İrlan-

diya Krallığında Fövqəladə və Səlahiyyətli səfiri olmuşdur. Hazırda Azərbaycan Respublikası Xarici İşlər nazirinin müavinidir. – 336.

**172. «Nyu-York Tayms»** – ABŞ-da gündəlik qəzet. 1851-ci ildən Nyu-Yorkda nəşr edilir. Tirajı 837,2 min (bazar günündə 1,4 milyon) nüsxədir. – 339.

**173. «Ümumi dövlət»** – ATƏT-in Minsk qrupu həmsədrlərinin (ABŞ, Fransa, Rusiya) Azərbaycana etdiyi təklif; yəni Azərbaycan ərazisində yeni bir erməni dövlətinin yaradılması. Beynəlxalq hüquqda isə «ümumi dövlət» adında anlayış yoxdur. Azərbaycan Dağlıq Qarabağa ancaq öz daxilində yüksək özünüidarəetmə statusu verə bilər. – 343.

**174. Pasxa bayramı** – yəhudi və xristian bayramı. Pasxa əvvəllər yəhudilərin Misirdən «çıxıb getmələri» münasibətilə, sonra isə yəhudi xalqının xilaskarının zühurunu gözləməklə, xristianlıqda isə İsanın iztirabları, din yolunda fəda olması, onun ölümü və yenidən dirilməsi ilə əlaqələndirilir. Əvvəllər yəhudi və xristian pasxaları eyni vaxta təsadüf edirdi. 325-ci ildə Ümumdünya xristian yığıncağı xristian pasxasını yəhudi pasxası qurtarandan bir həftə sonra qeyd etməyi qərara aldı. Bu tarix aprelin 4-dən mayın 8-dək olan dövrə təsadüf edir. – 346.

**175. Suriya,** S u r i y a  Ə r ə b  R e s p u b l i k a s ı – Asiyada dövlət. Sahəsi 185,2 min km$^2$, əhalisi 14,8 milyon nəfərdir. İnzibati ərazisi 10 mühafazə (qubernatorluğa) və Dəməşq munisipalitetinə bölünür. Dövlət başçısı prezident, ali qanunverici orqanı Xalq Şurasıdır. Paytaxtı Dəməşqdir. – 347.

**176. Bəşşar Əsəd** (d.1965) – 2000-ci ildən Suriyanın prezidenti. – 347.

**177. Danimarka,** D a n i m a r k a  K r a l l ı ğ ı – Şimali Avropada dövlət. Sahəsi 43,1 min km$^2$, əhalisi 5,24 milyon nəfərdir. İnzibati ərazisi 14 amta bölünür. Danimarka Konstitusiyalı monarxiyadır. Hökumət başçısı kraliça, qanunverici orqanı birpalatalı folketinqdir. Paytaxtı Kopenhagendir. – 348.

**178. Marqrete II** (d.1940) – 1972-ci ildən Danimarkanın kraliçası. Kral IX Frederikin qızıdır. – 348.

**179. Senat** – ABŞ-da Konqresin yuxarı palatası nəzərdə tutulur. – 352.

**180. Klivlend** – ABŞ-da şəhər. Klivlend ABŞ-ın sənaye, maliyyə–ticarət və mədəni mərkəzlərindən biri kimi tanınır. – 352.

**181. Leonov Aleksey Arxipoviç** (d.1934) **–** SSRİ təyyarəçi-kosmonavtı, aviasiya general mayoru, iki dəfə Sovet İttifaqı Qəhrəmanı. 1965-ci ildə «Vosxod – 2» gəmisi ilə 2-ci pilot kimi kosmosa uçmuş, dünyada ilk dəfə açıq kosmosda olmuşdur. 1975-ci ildə «Soyuz–19» gəmisinin komandiri kimi, EPAS proqramı üzrə elmi eksperimentdə iştirak etmişdir . – 354, 355.

**182. Kubasov Valeri Nikolayeviç** (d.1935) **–** SSRİ təyyarəçi-kosmonavtı, iki dəfə Sovet İttifaqı Qəhrəmanı. Dünyada ilk dəfə kosmosda qaynaq işləri aparmışdır. «Soyuz» – «Apollon» uçuşunun iştirakçısıdır. – 354, 355.

**183. «Soyuz»** – Yerətrafı orbitdə uçuş üçün Sovet İttifaqında buraxılan çoxyerli kosmik gəmi seriyasının adı; 1967-ci ildən həmin seriyadan olan kosmik gəmilərin işlənib hazırlanma və buraxılma proqramı. «Soyuz» proqramı kosmik fəzada elmi və texniki işlərin yerinə yetirilməsindən əlavə, həm də gəmilərdən orbital stansiyaya adam və yükdaşımaq, onları yerə qaytarmaq üçün nəqliyyat vasitəsi kimi istifadəni də nəzərdə tutur. – 354.

**184. Qromıko Andrey Andreyeviç** (1909–1989) – Rusiyanın dövlət və siyasi xadimi, diplomat. Müxtəlif illərdə SSRİ-nin ABŞ-da səfiri, SSRİ Xarici İşlər nazirinin müavini və eyni zamanda SSRİ-nin BMT-nin Təhlükəsizlik Şurasında daimi nümayəndəsi, Böyük Britaniyada səfir. SSRİ Xarici İşlər naziri, SSRİ Ali Sovetinin sədri vəzifələrində çalışmışdır. – 354.

**185. «Apollon»** – kosmonavtların Aya uçuşu üçün ABŞ kosmik gəmilərinin adı, onların hazırlanma və uçuş proqramı. «Apollon» daşıyıcı raket vasitəsilə geosentrik orbitə çıxarılan və sonra Aya tərəf birlikdə uçub Ayətrafı orbitə keçən, bir-birinə birləşdirilmiş iki kosmik gəmidən ibarətdir. «Apollon»nun yanacaq ehtiyatı və mühərriklə birgə çəkisi təqribən 44 tondur. – 354.

**186. Stafford Tomas** (d.1930) – ABŞ astronavtı, Hərbi Hava Qüvvələri briqada generalı. – 355.

**187. Şatalov Vladimir Aleksandroviç** (d.1927) – SSRİ təyyarəçi-kosmonavtı, aviasiya-general leytenantı. İki dəfə Sovet İttifaqı Qəhrəmanı. «Soyuz» kosmik gəmiləri ilə dəfələrlə kosmosu fəth etmişdir. – 355.

**188. Qaqarin Yuri Alekseyeviç** (1934–1968) – SSRİ təyyarəçi-kosmonavtı, dünyada ilk kosmonavt, polkovnik, Sovet İttifaqı Qəhrəmanı. – 355.

**189. Baykonur –** SSRİ-nin, indi isə Rusiya Federasiyasının kosmodromu. Qazaxıstan Respublikasının Karaqanda vilayətindədir. Kosmik tədqiqatlar proqramını həyata keçirmək üçün Baykonurda start kompleksləri, ölçmə məntəqələri və s. var. Yerin ilk süni peyki Baykonurdan buraxılmış (1957), ilk kosmonavt Y.A.Qaqarin (1961) kosmosa buradan üçmuşdur. – 355.

**190. Amerika Mərkəzi Kəşfiyyat İdarəsi** – Amerika Birləşmiş Ştatlarında mülki və hərbi kəşfiyyat işlərini idarə edən idarə. 1947-ci ildə yaradılmışdır. – 357.

**191. Zimbabve,** Zimbabve Respublikası – Cənubi Afrikada dövlət. Sahəsi 390,6 min km$^2$, əhalisi 11,5 milyon nəfərdir. Dövlət və hökumət başçısı prezident, qanunverici orqanı birpalatalı parlament (Milli Məclis)dir. Paytaxt Hararedir. – 359.

**192. Muqabe Robert** (d.1924) – 1987-ci ildən Zimbabvenin prezidenti. 1980–87-ci illərdə Zimbabvenin Baş naziri və Müdafiə naziri olmuşdur. 1984-cü ildən Afrika Milli Qurtuluş Partiyasının Zimbabve üzrə Birinci katibidir. – 359.

**193. İTAR** – **TASS** – Rusiya İnformasiya Teleqraf Agentliyi. 1992-ci ildə SİTA-nın bazası əsasında yaradılmışdır. – 360.

**194. İqnatenko Vitali Nikitiç** (d.1941) – jurnalist. 1991-ci ildən İTAR-TASS Agentliyinin Baş direktorudur. – 360.

**195. Portuqaliya,** Portuqaliya Respublikası – Cənub–Qərbi Avropanın Pireney yarımadasında dövlət. Sahəsi 92 min km$^2$, əhalisi 9,9 milyon nəfərdir. İnzibati ərazisi 19 mahala və iki muxtar vilayətə bölünür. Dövlət başçısı prezident, ali qanunverici orqanı birpalatalı Respublika Məclisidir. Paytaxtı Lissabondur. – 363.

**196. Jorj Sampayyu** (d.1939) – Portuqaliya siyasi xadimi. 1996–2006-cı illərdə Portuqaliya Respublikasının prezidenti olmuşdur (kitabda Baş nazir). – 363.

**197. Yarov Yuri,** Yuri Fyodoroviç (d.1942) – 1999–2008-ci illərdə Müstəqil Dövlətlər Birliyinin İcraiyyə Komitəsinin sədri olmuşdur. – 364–372.

**198. Saparmurad Niyazov,** Saparmurad Ata oğlu (1940–2007) – Türkmənistanın siyasi və dövlət xadimi. 1985-ci ilin dekabrından 1990-cı ilə qədər Türkmənistan KP MK-nın birinci katibi, 1990-cı ildən Türkmənistan Respublikasının prezidenti olmuşdur. – 366,390,405,410, 411.

**199. Lukaşenko Aleksandr Qriqoryeviç** (d.1954) – Belarus dövlət xadimi. 1994-cü ildən Belarus Respublikasının prezidentidir. – 369.

**200. Luçinski Petru** (d.1940) – Moldovanın siyasi və dövlət xadimi. 1971-ci ildən 1989-cu ilə qədər dövlət və partiya işlərində müxtəlif vəzifələrdə çalışmışdır. 1997–2002-ci illərdə Moldova Respublikasının prezidenti olmuşdir. – 369.

**201. Moşe Katsav** (d.1945) – İsrail dövlət xadimi. 2000–2007-ci illərdə İsrail prezidenti. – 373.

**202. Ariel Şaron** (1928–2006) – 2001–2006-cı illərdə İsrailin Baş naziri olmuşdur. 1998–2001-ci illərdə İsrailin Xarici İşlər, Kənd Təsərrüfatı, Tikinti və Müdafiə naziri vəzifələrində çalışmışdır. «Likud» Partiyasının liderlərindən biri olmuşdur. – 374.

**203. Tanzaniya,** Birləşmiş Tanzaniya Respublikası – Şərqi Afrikada dövlət. Sahəsi 945,1 km$^2$, əhalisi 29,0 milyon nəfərdir. İnzibati ərazisi 25 vilayətə bölünür. Millətlər Birliyinə daxildir. Dövlət və

hökumət başçısı prezidentdir. Qanunverici orqanı Milli Məclisdir. Paytaxtı Dolomadır. – 375.

**204. Yuqoslaviya İttifaqı Respublikası** – Cənubi Avropa dövləti. Sahəsi 102,2 min km$^2$, əhalisi 10,5 milyon nəfərdir. Dövlət başçısı prezident, qanunverici orqanı 2 palatalı Skupşina İttifaqıdır. Paytaxtı Belqrad. – 376.

**205. Cənubi Afrika Respublikası** (CAR) – Cənubi Afrikada dövlət. Sahəsi 1,2 milyon km$^2$, əhalisi 41,7 milyon nəfərdir. 9 əyalətə bölünür. Dövlət başçısı prezident, qanunverici orqanı parlamentdir (Senat və Milli Məclis). – 377.

**206. Tabo Mbeki** (d.1942) – Afrika Milli Konqresinin görkəmli nümayəndəsi. 1997–2007-ci illərdə Afrika Milli Konqresinin sədri, 1999–2008-ci illərdə Cənubi Afrika Respublikasının prezidenti olmuşdur. – 377.

**207. Syerra Leone,** S y e r r a L e o n e R e s p u b l i k a s ı – Qərbi Afrikada dövlət. Sahəsi 72,3 min km$^2$, əhalisi 4,6 milyon nəfərdir. İnzibati ərazisi 3 əyalətə və Qərb Vilayətinə bölünür. Millətlər Birliyinə daxildir. Dövlət başçısı prezident, qanunverici orqanı – Nümayəndələr Palatasıdır. Paytaxtı Fritaundur. – 378.

**208. Əhməd Kabba** (d.1932) – 1973–1992-ci illərdə Syerra Leone Respublikasının prezidenti, 2002-ci ildən yenidən prezident seçilmişdir. – 378.

**209. Toqo,** T o q o R e s p u b l i k a s ı – Qərbi Afrikada dövlət. Sahəsi 56,6 min km$^2$, əhalisi 4,3 milyon nəfərdir. İnzibati ərazisi 5 əyalətə bölünür. Dövlət başçısı prezident, müvəqqəti qanunverici orqanı Ali Respublika Şurasıdır. Paytaxtı Lome. – 379.

**210. Türk Dövlətləri Birliyi (**TDB**)** – 1992-ci il oktyabr ayının 30–31-də Ankarada Türkiyə, Azərbaycan, Qazaxıstan, Qırğızıstan, Özbəkistan, Türkmənistan dövlət başçılarının iştirak etdikləri toplantıda yaradılmışdır. TDB-nin nizamnaməsi türkdilli xalqların sosial-mədəni bənzərliyini nəzərə alaraq ortaq mədəni irsin araşdırılmasını, genişləndirilməsini, tanıdılmasını tövsiyə edir. – 380–415.

**211. Avropa Şurasının Parlament Assambleyası** (AŞ PA) – 2004-cü ildə təşkil olunmuşdur. AŞ PA-da 25 Avropa ölkəsinin 732 deputatı fəaliyyət göstərir. – 383,412,413.

**212. Hacıbala Abutalıbov,** Hacıbala İbrahim oğlu (d.1944) – Bakı Şəhər İcra Hakimiyyətinin başçısı. Fizika–riyaziyyat elmləri doktorudur. – 385,386.

**213. Nazarbayev Nursultan,** Nursultan Abiş oğlu (d.1940) – Qazaxıstanın dövlət və siyasi xadimi. 1979-cu ildə Qazaxıstan MK-nın katibi, 1984-cü ildə Qazaxıstan Ali Sovetinin sədri, Nazirlər Sovetinin sədri, 1989–1991-cı illərdə Qazaxıstan KP MK-nın Birinci katibi. 1990-cı ildə həm də Ali Sovetin sədri, 1991-ci ilin dekabrından Qazaxıstan Respublikasının prezidentidir. – 390.

**214. Əsgər Akayev** (d.1944) – 1989–1990-cı illərdə Qırğızıstan EA-nın prezidenti, 1990–2005-ci illərdə Qırğızıstan Respublikasının prezidenti olmuşdur. – 390.

**215. İslam Kərimov,** İslam Əbduqəni oğlu (d.1938) – Özbəkistanın siyasi və dövlət xadimi. 1989–90-cı illərdə Özbəkistan KP MK-nın birinci katibi olmuşdur. 1990-cı ildən Özbəkistan Respublikasının prezidentidir. – 390.

**216. Əmir Teymur,** Teymurləng, Teymur, Topal Teymur (1336–1405) – Orta Asiya görkəmli dövlət xadimi, sərkərdə, əmir. Teymurilər imperiyasının banisi. Türkləşmiş barlas tayfasından idi; döyüşlərdə aldığı yaralara görə «Teymurləng» (Topal Teymur) ləqəbi ilə tanınmışdır. Teymurləng üç yürüşündə (1386–87;1392–97;1399–1404) Azərbaycanda olmuşdur. Əlincə qalası uğrunda 14 il mübarizə aparan Teymurləng buraya 4 dəfə (1387,1393,1397, 1400) yürüş etmiş, ciddi döyüşlər aparsa da məqsədinə nail ola bilməmişdi. – 394.

**217. Füzuli,** Məhəmməd Süleyman oğlu (1494–1556) – Azərbaycanın dahi şairi və mütəfəkkiri. Azərbaycan, fars və ərəb dillərində qəzəl, poema, qəsidə, müsəddəs, rübai, qitə və s. yazmışdır. Aşiqanə qəzəlləri ilə lirik şair kimi şöhrətlənmişdir. Yaradıcılığının zirvəsi olan

«Leyli və Məcnun» poeması Azərbaycan, eləcə də Şərq və dünya poeziyasının nadir incilərindəndir. Kərbəlada dəfn edilmişdir. – 394.

**218. Abay Kunanbayev** (1845–1904) – görkəmli qazax şairi, maarifçi, qazax realist yazılı ədəbiyyatının banisi. – 394.

**219. Nizami Gəncəvi,** İ l y a s Y u s i f o ğ l u (1141–1209) – dahi Azərbaycan şairi və mütəfəkkiri. Dünya ədəbiyyatı tarixinə məsnəvi formasında yazdığı beş epik poemadan ibarət «Xəmsə» müəllifi kimi daxil olmuşdur. Nizami Gəncəvinin ilkin Şərq Renessansının zirvəsi olan yaradıcılığında dövrünün ən humanist, ümumbəşəri ictimai-siyasi, sosial və mənəvi-əxlaqi idealları parlaq bədii əksini tapmışdır. Nizami Gəncəvi Yaxın Şərq ədəbiyyatında mənzum roman janrının əsasını qoymuş, yeni ədəbi məktəb yaratmışdır. Nizami Gəncəvi həm də dövrünün görkəmli mütəfəkkiri olmuşdur. Onun bütün əsərlərində şəxsiyyət azadlığı, insanın mənəvi azadlığı tərənnüm olunur. – 394.

**220. Əlişir Nəvai,** N i z a m ə d d i n M i r Ə l i ş i r (1441–1501) – özbək şairi, mütəfəkkir, dövlət xadimi. Özbək dilində «Xəmsə» yaradaraq Nizami ədəbi məktəbinin ən görkəmli davamçılarından biri kimi, Yaxın Şərqdə şöhrət qazanmışdır. – 394.

**221. Yunis İmrə** – türk dünyasının dahi sənətkarlarından biri, Oğuz ellərinin ilk böyük şairidir. Türk ədəbiyyatında ilk mütəsəvviflərdən biridir. Sufizm fəlsəfəsini sadə xalq dilində, əsasən heca vəznində yazdığı qoşmalarda, gəraylılarda, ilahilərdə, eləcə də əruz vəznində yaratdıtı qəzəl və məsnəvilərdə ifadə etmiş, özündən sonra yaranan Türkiyə, Azərbaycan və türkmən ədəbiyyatlarına güclü təsir göstərmişdir. Böyük xalq şairi və filosofu olan Yunis İmrənin həyatı əfsanələrlə doludur. O, nə zaman yaşamış, harada yaşamış və nə zaman ölmüş – hələ də dəqiq məlum deyildir. Hətta məzarı belə 9 yerdə göstərilir.

Son araşdırmalara görə, Yunis İmrə 1321-ci ildə yetmiş yaşında vəfat etmişdir. – 394.

**222. Məhdumqulu,** M ə x t u m q u l u (təxəllüsü Fəraqi) ( ?-? ) – XVIII əsr türkmən şairi. Ədəbi irsindən dövrümüzədək 10 mindən çox misra gəlib çıxmışdır. Yaradıcılığında vətənpərvərlik, türkmən qəbilələrini birliyə çağırış motivləri güclüdür. – 394.

**223. Mahmud Kaşqari,** M a h m u d i b n ə l – H ü s e y n i b n M ə h ə m m ə d ə l – K a ş q a r i (?-?) – XI əsr Orta Asiya alimi, filoloq və folklorçu. Məşhur «Divani-luğat it-türk» (1072–74) əsərinin müəllifi. Əsərdə türk dillərinin fonetika və morfologiyası, dialekt xüsusiyyətləri haqqında qiymətli məlumat verilmişdir. 8000-ə yaxın leksik vahidi əhatə edən «Divan»da 26 türk dilindən nümunə verilsə də, əsas lüğət materialı 2 ədəbi dildən toplanmışdır. Birincisi, müəllifin ana dili olan Şərq türkcəsi (xaqaniyyə türkcəsi), ikincisi, oğuz türkcəsi; bunu Azərbaycan ədəbi dilinin yazıyaqədərki inkişaf mərhələsi hesab etmək mümkündür. «Divan»ın sonuna əlavə edilmiş xəritə Mahmud Kaşqari dövründə türkdilli xalqların yaşadığı ərazilərin təsvirini verən ilk xəritədir. – 394.

**224. «Manas»** – qədim qırğız qəhrəmanlıq eposu. Eposun manasçılar tərəfindən söylənilmiş 18-dən çox variantı qeydə alınmışdır. Nə vaxt yarandığı dəqiq müəyyənləşdirilməmişdir. – 394.

**225. «Alpamış»** – özbək, qazax, qaraqalpaq, başqırd, tatar və başqa türkdilli xalqların, həmçinin taciklərin qəhrəmanlıq dastanı. Xalq qəhrəmanı Alpamışın adı ilə bağlı Orta Asiya epik rəvayətləri, güman ki, XIV–XVII əsrlərdə Orta Asiya xalqlarının xarici işğalçılara qarşı mübarizəsi dövründə dastan şəklinə düşmüşdür. Xalqın istiqlaliyyəti, ədalət, əmin-amanlıq, yüksək ideallar uğrunda mübarizəsi dastanın əsas ideyasıdır. – 394.

**226. İpək Yolu**, B ö y ü k İ p ə k Y o l u – beynəlxalq tarixi tranzit-ticarət yolu; eramızdan əvvəl II əsrin sonlarından eramızın XVI əsrinədək fəaliyyət göstərmiş, Çindən Şimali Afrika və İspaniyaya qədər uzanaraq, ayrı-ayrı qolları ilə o zaman dünyanın məlum olan, demək olar ki, bütün ölkələrini birləşdirmişdir.

Əlverişli coğrafi mövqedə yerləşməsi və zəngin maddi sərvətlərə malik olması sayəsində Azərbaycan qədim zamanlardan dünya ölkələri arasında iqtisadi və mədəni əlaqələrdə mühüm yer tutmuşdur.

XX əsrin sonunda Azərbaycan Respublikasının prezidenti Heydər Əliyevin Böyük İpək Yolunun yenidən dirçəldilməsi ideyasını irəli sürməsi bütün dünyada, xüsusilə də Böyük İpək Yolu üstündə yerləşən ölkələrdə ciddi maraqla qarşılandı. Bu məqsədlə 1998-ci ilin sentyabrında Bakıda 33 dövlətin və Avropa Birliyinin iştirakı ilə beynəlxalq konfrans keçirildi; TRASEKA proqramı çərçivəsində nəzərdə tutulan

Asiya–Qafqaz–Avropa ticarət dəhlizinin – Böyük İpək Yolunun bərpasının və onun imkanlarından hamılıqla bəhrələnməyin vacibliyi qeyd olundu. – 391,396.

**227. Sirus Təbrizli,** T ə b r i z l i S i r u s X u d a d a t o ğ l u (d.1942) – Yazıçı və publisist. I (1995) və II (2000) çağırış Azərbaycan Respublikası Milli Məclisinin deputatı. 1996–2001-ci illərdə Respublika Mətbuat və İnformasiya naziri olmuşdur. – 414.

**228. Etibar Məmmədov,** E t i b a r S ə l i d a r o ğ l u (d.1955) – Azərbaycan Milli İstiqlal Partiyasının lideri. 1990–95 və 1995–2000-ci illərdə Milli Məclisin deputatı olmuşdur. – 415.

**229. Niderland Krallığı** (qeyri-rəsmi adı Hollandiya) – Qərbi Avropada Şimal dənizi sahilində dövlət. Sahəsi 41,5 min km$^2$, əhalisi 15,6 milyon nəfərdir. İnzibati ərazisi 12 əyalətə bölünür. Dövlət başçısı kral, qanunverici orqanı ikipalatalı (Baş ştatlar) parlamentdir. Paytaxtı Amsterdam. – 416.

**230. Beatriks II** (d.1938) – 1980-ci ildən Niderlandın kraliçası. – 416.

**231. Yaponiya** – Sakit okeanın Şərqi Asiya sahilləri yaxınlığındakı adalarda dövlət. Sahəsi 372 min km$^2$, əhalisi 126 milyon nəfərdir. İnzibati cəhətdən 47 prefekturaya bölünür. Yaponiya Konstitusiyalı monarxiyadır. Paytaxtı Tokio şəhəridir. – 417.

**232. Dzünitiro Konidzumı** (d.1942) – 2001–2006-cı illərdə Yaponiyanın Baş naziri olmuşdur. – 417.

## Şəxsi adlar göstəricisi

**Abutalıbov Hacıbala** – 385,386
**Akayev Əsgər** – 390
**Akyol Taha** – 146
**Alp Arslan** – 186
**Apaydın Ümüd** – 387
**Aras Nüsrət** – 171–181
**Arçison Deyvid** – 307
**Armitac Riçard** – 197
**Atatürk Mustafa Kamal** – 75,76,87,97,113,114,115,126, 127,177,179,391,402,408
**Baxçalı Dövlət** – 105–106,111,289,293,388
**Baybakov Nikolay** – 5–6,268
**Beatriks II** – 416
**Bəhmənov Nizami** – 301
**Bikdeli** – 282
**Bitərəf Həbibullah** – 278–286,303
**Boqdanov Vsevolod** – 51-65
**Bostançıoğlu Mətin** – 171–181
**Brejnev Leonid** – 15
**Buş Corc** – 136,195,197,222,223,224,308, 309,326–333,341,384,399
**Cəm İsmayıl** – 67,108–109,111,196,293,301, 302,334,335,387
**Çay Əbdülxalıq** – 75,171–181,287–293,304,387
**Çeyni Dik** – 197,293,329,332,335,352,353, 357
**Çillər Tansu** – 120
**De Qoll Şarl** – 33
**De Suerma Filip** – 321
**Dəmirəl Süleyman** – 128–131,156,157,167,168,170, 184,187,190,191
**Doğan Aydın** – 135
**Dyomkin Denis** – 51–65
**Ecevit Bülənd** – 94–95,111,184,188,209,291,293

**Eyadema Qnasinqbe** – 379
**Əhməd Şahabuddin** – 219
**Ələkbərov Vahid** – 264–277
**Ələsgərov Murtuz** – 10
**Əliyev İlham** – 64,259,262,267,283,412,413
**Əliyev Məmməd** – 75
**Əliyev Natiq** – 267
**Əmir Teymur** – 394
**Ərzümər Cümhur** – 141,414
**Əsəd Bəşşar** – 347
**Fəthulla Mehdi** – 243–248
**Füzuli Məhəmməd** – 394
**Gəzəgər Osman** – 182–189
**Gəncəvi Nizami** – 394
**Gur Yəhya** – 171–181
**Günər Əli** – 182–189
**Haydar Aslan** – 182–189
**Hüseynov Surət** – 161
**Hüseynova Eleonora** – 27,28–33,43
**Hüseynzadə Çingiz** – 263
**Xatəmi Məhəmməd** – 74,203,206,208,270,271,278,279, 280
**Xeyrəddin Qoca** – 75
**Xərrazi Kamal** – 271
**Xomeyni** – 140
**İbrahimbəyov Maqsud** – 212
**İqnatenko Vitali** – 360
**İlkin Baki** – 334–336
**İnsanov Əli** – 290
**İmrə Yunis** – 294
**İpək Həsən** – 182
**İzgi Ömər** – 110–127
**Kabba Əhməd** – 378
**Kalyujnı Viktor** –194,264–277
**Kaşqari Mahmud** – 394
**Katsav Moşe** – 373
**Kavano Kerri** – 319,320,321,335
**Kazimirov** – 70
**Kərimov İslam** – 390

**Kıvrıqoğlu Hüseyn** – 104,111,295,296,297
**Klinton Bill** – 123,136,166,341,356,410
**Koç Haluk** – 147–155
**Koştunitsa Volislav** – 376
**Konidzumi Dzünıtıro** – 417
**Köçəryan Robert** – 23,25–34,39–43,44,45,46,47,49, 123,134,135,136,137,202,209,210, 223,224,316,319,332–333,340,343, 345
**Kubasov Valeri** – 354,355
**Kubiş Jan** – 320,321
**Kuçma Leonid** – 7,9,14,16,17,18,206
**Kunanbayev Abay** –394
**Qaqarin Yuri** – 355
**Qəzai** – 283
**Qayyard Jan Jak** – 319,320,321
**Qobl Duqlas** – 307
**Qorbaçov Mixail** – 12
**Qrayfer Valeri** – 264–277
**Qribkov Nikolay** – 321
**Qromıko Andrey** – 354
**Quliyev Vilayət** – 213
**Quteontova Yelena** – 51–65
**Leonov Aleksey** – 354,355
**Loğoğlu Faruq** – 68
**Luçinski Petru** – 369
**Lukaşenko Aleksandr** – 369
**Malin Vladimir** – 264–277
**Marqrete II** – 348
**Mbeki Tabo** – 377
**Məhdumqulu** – 394
**Məmmədquliyev Mahmud** – 336
**Məmmədquluzadə Cəlil** – 72
**Məmmədov Etibar** – 415
**Mkapa Bencamin** – 375
**Muqabe Robert** – 359
**Mübarək Hüsnü** – 244,246,247,248,381,382
**Namazov Eldar** – 69,70
**Nazarbayev Nursultan** – 390

| | |
|---|---|
| **Nelson Bill** | – 349–358 |
| **Nəvai Əlişir** | – 394 |
| **Nəzmiyyə xanım** | – 131 |
| **Niyazov Saparmurad** | – 283,366,390,405,410,411 |
| **Olbrayt Madlen** | – 136,166 |
| **Orucov Sabit** | – 268 |
| **Oskanyan** | – 138 |
| **Özal Turqut** | – 191 |
| **Pauell Kolin** | – 134,137,201,202,222,223,308–310,311–318,329,332,335,341,344,352,353,357,388, 399 |
| **Plyuşş İvan** | – 7–19 |
| **Putin Vladimir** | – 49,136,137,138,139,144,152,193,195, 203,206,208,269,270,276,299,300 |
| **Rasizadə Artur** | – 271,290 |
| **Rays Kondoliza** | – 329,332,335,341,352,353,357 |
| **Robertson Corc** | – 303 |
| **Sampayyu Jorj** | – 363 |
| **Sapmaz İrfan** | – 160,162 |
| **Semyonov Sergey** | – 51–65 |
| **Sezər Əhməd Necdət** | – 66,75,76,77–78,81–83,84–87,88,89–90, 96–104,111,132–133,157,167,171–181, 184, 190,191,192,214,218,288,289,290, 293,389,392,401–405,406,407,408,409 |
| **Seyidzadə Dilarə** | – 70 |
| **Stafford Tomas** | – 355 |
| **Stefanopulos Konstantinos** | – 253 |
| **Stoltenberq** | – 60 |
| **Süleymanov Ələkbər** | – 269 |
| **Şaron Ariel** | – 374 |
| **Şarşi Valentin** | – 268 |
| **Şatalov Vladimir** | – 355 |
| **Şaymiyev Mintimer** | – 254 |
| **Şelbi Piçard** | – 349–358 |
| **Şevardnadze Eduard** | – 303,365 |
| **Şərifov Abid** | – 213,279,281,287–293 |
| **Şirak Jak** | – 35–43,44,45,46,100,123,124,125,134, 135,136,175,195,240,398 |
| **Şteynfeld Hans** | – 51–65 |

**Tağıyev Əyyub** – 269
**Talıbov Vasif** – 188,209
**Ter-Petrosyan Levon** – 48,49,137,185,210,345
**Tezcan Qədri** – 75,287–293
**Təbrizli Sirus** – 414
**Tolon Hurşit** – 294–298
**Trubnikov Vlaçeslav** – 319–320
**Trumen Harri** – 308–310,350
**Tuncay Didəm** – 162
**Turan İldırım** – 182
**Uilson Ross** – 222–226
**Vollebek** – 60
**Voronin Vladimir** – 325
**Yarov Yuri** – 364–372
**Yeltsin Boris** – 136,138,139,194
**Yermoşin** – 366
**Yılmaz Məsud** – 106–108,111
**Yusifzadə Xoşbəxt** – 205
**Zülfüqarov Tofiq** – 69,70

## Coğrafi adlar göstəricisi


**Abxaziya** – 365,384
**Ağrı dağ** – 187
**Aland adaları** – 300
**Aleksandriya** (*ABŞ-da şəhər*) – 336
**Almatı** – 368,369,372
**Amerika Birləşmiş Ştatları** – 18,34,38,40,43,46,47,72,86,99,100,117, 118,123,125,134,136,137,151,153,155,159, 160,164,170,174,175,185,195,197,201,202, 203,222–226,240,246,247,266,292,293, 299–323,326–345,349–358,384,386,388, 397,398,399,404,410,415
**Ankara** – 66–218,385,389,392,396,407,410,414
**Aralıq dənizi** – 91,176
**Araz çayı** – 283,284
**Asiya** – 396
**Aşqabad** – 366,372,406,411
**Avropa** – 27,29,30,47,65,78,102,184,185,193,215, 266,324,396,413
**Bakı** – 9,13,29,49,80,92,125,133,139,144,184, 187,212,216,217,219,221,223,234,241,250, 252,253,254,259,267,269,270,271,273,289, 346,347,348,359,360,362,363,373,374,375, 376,377,378,379,385,415,416,417
**Banqladeş** – 219
**Belarus** – 15,369
**Bosniya–Hersoqovina** – 41
**Böyük Britaniya** – 336
**Brüssel** – 184
**Cenevrə** – 316,322,341,345
**Cənubi Afrika** – 377
**Cənubi Qafqaz** – 149,194,243,334,399
**Çeçenistan** – 145
**Çernobıl** – 16
**Çin** – 350

**Dağıstan** – 272
**Dağlıq Qarabağ** –12,21,24,25,34,37,38,39,40,41, 42,44,48,49,59,62,67,68,74,78,81, 82,85,89,90,94,98,99,100,104,107, 109,110,115,116,118,131,134,135, 151,155,157,159,161,163,173,174, 175, 187,189,195,196,201,207,210, 214,222,223,227,250,291,292,300, 301,308,309,312,313,315,316,317, 318,326,327,328,330,332,333,338, 339,340,344,381,384,397,398,404, 412,413
**Danimarka** – 348
**Davos** – 316
**Ərdahan** – 186,187
**Ərdəbil** – 283
**Ərzurum** – 108,183,184,186
**Fələstin** – 245,247,248,383
**Florida** (*ABŞ-da ştat*) – 151,195,223,225,226,246,247, 292,299,300,307–322,333,337, 351,352,399,404
**Fransa** – 21–50,46,86,99,100,117,118,123, 136,137,151,153,159,160,161,164, 165,174,175,184,193,195,202,203, 240,299,309,315,316,318,319,328, 333,398,412
**Gəncə** – 13,88,108,259
**Girəsun** – 88
**Göyçə** – 250
**Gürcüstan** – 92,119,124,142,158,206,215, 243,302,303,365
**Helsinki** – 60,313
**Xaçmaz** – 208
**Xəzər dənizi** – 83,94,100,106,107,119,133,143, 144,150,151,193,194,203,204,215, 224,265,267,271,272,273,274,275, 276,277,279,281,309,327,330,355, 356,395,396,404,411
**Xocalı** – 250,313

**İğdır** – 182,183,184,185,186,187,291
**İmişli** – 278
**İngiltərə** – 193
**İran** – 74,139,140,143,150,185,203,208,209, 273,278–286,303,354,383,411
**İslandiya** – 307
**İsrail** – 59,245,247,248,338,373,374,381
**İstanbul** – 90,132–133,316,380,382,383,387–408
**İsveç** – 56,300
**İsveçrə** – 332,333
**İtaliya** – 123
**Kasablanka** – 247,382
**Keflavik** – 307
**Kemp Devid** – 209
**Kəşmir** – 42
**Ki-Uest** – 300,307–322,326,328,331,332,333,334, 337,338,399,404
**Kipr** – 42,161,162
**Kiyev** – 7
**Klivlend** – 352
**Koreya** – 35
**Kosovo** – 41
**Kuba** – 225
**Qafqaz** – 80,122,123,125,135,137,138,157,173, 192,194,214,244,245,248,249,251,308, 361,396
**Qahirə** – 247
**Qara dəniz** – 119
**Qars** – 88,108,182,183,184,186,187,188,189,291
**Qazaxıstan** – 143,144,149,150,204,206,207,214,270, 271,275,276,289,355,356,369,390,391,395, 397
**Qırğızıstan** – 289,390,391,397,399
**Qrenobl** –32
**Laçın** – 344
**London** – 336
**Mahaçqala** – 270
**Marneuli** – 302
**Mehri** – 185,344

**Meksika körfəzi** – 321
**Mədinə** – 145
**Mərakeş** – 382
**Mərkəzi Asiya** – 396,399
**Minsk** – 316,365
**Misir** – 141,192,193,243–248,381,382
**Moldova** – 206,207,325,369,371,372
**Moskva** – 12,49,55,56,57,60,140,150,151, 203,208,211,275,300,305,316,341, 354,366
**Naxçıvan** – 13,59,60,108,125,182,259
**Naxçıvan MR** – 78,83,188,191,208,209,210,278, 280,281,291,344
**Niderland** – 416
**Norveç** – 51–65,193
**Novorossiysk** – 119,149
**Nyu-York** – 8
**Orta Asiya** – 78,244
**Özbəkistan** – 207,289,370,390,391,397,399, 413
**Paris** – 27–43,46,100,123,134,150,152, 159,170,175,196,202,223,307,316, 398
**Parsabad** – 278
**Pekin** – 196
**Portuqaliya** – 363
**Potomak çayı** – 363
**Rumıniya** – 60
**Rusiya** – 15,26,34,38,40,42,43,46,51–65, 86,99,100,117,118,119,124,136, 137,138,140,141,143,144,145,149, 150,151,158,159,164,165,166,174, 175,185,192,193,194,195,202,203, 240,264–277,299,300,304,309, 315,316,328,333,353,356,360,369, 411
**Səudiyyə Ərəbistanı** – 145
**Skandinaviya** *(yarımada)* – 51–65
**Spitak** – 12

**Stavanger** – 60
**Strasburq** – 29
**Supsa** – 119
**Suriya** – 347
**Syerra Leone** – 378
**Şəki** – 88,208
**Şimali Koreya** – 351
**Şuşa** – 160
**Tacikistan** – 369
**Tanzaniya** – 375
**Tatarıstan** – 254
**Tehran** – 208,281
**Toqo** – 379
**Türkiyə** – 51,65,66–218,244,246,270,283–293,294–298,301,302,334–336, 353,380–415
**Türkmənistan** – 143,144,150,207,271,276,289,302,370, 385,390,391,395,397,405, 413,414
**Ukrayna** – 7–19,206,383
**Vaşinqton** – 222,223,246,293,302,308,316, 322,326, 334,335,336,352,399
**Virçiniya** (*ABŞ-da ştat*) – 336
**Yaxın Şərq** – 245,246,247,248,338
**Yalta** – 7,316
**Yaponiya** – 417
**Yerevan** – 45
**Yuqoslaviya İttifaqı Respublikası**– 376
**Yunanıstan** – 139,253
**Zəngəzur** – 250
**Zimbabve** – 359

# MÜNDƏRİCAT

GÖRKƏMLİ DÖVLƏT XADİMİ VƏ İCTİMAİ XADİM
NİKOLAY BAYBAKOVA

*1 mart 2001-ci il* ........................................................................................................ *5*

UKRAYNA ALİ RADA-sının SƏDRİ İVAN PLYUŞŞ BAŞDA
OLMAQLA BU ÖLKƏNİN PARLAMENT NÜMAYƏNDƏ
HEYƏTİ İLƏ GÖRÜŞDƏ SÖHBƏT

*2 mart 2001-ci il* ........................................................................................................ *7*

QURBAN BAYRAMI MÜNASİBƏTİLƏ
AZƏRBAYCAN XALQINA TƏBRİK

*2 mart 2001-ci il* ........................................................................................................ *20*

FRANSAYA İŞGÜZAR SƏFƏRƏ YOLA DÜŞMƏZDƏN ƏVVƏL
BAKININ BİNƏ BEYNƏLXALQ HAVA LİMANINDA
JURNALİSTLƏRİN SUALLARINA CAVAB

*3 mart 2001-ci il* ........................................................................................................ *21*

AZƏRBAYCAN RESPUBLİKASININ PREZİDENTİ
HEYDƏR ƏLİYEV PARİSƏ GƏLMİŞDİR

*3 mart 2001-ci il* ........................................................................................................ *27*

FRANSADA TƏHSİL ALAN SOYDAŞLARIMIZLA GÖRÜŞ

*3 mart 2001-ci il* ........................................................................................................ *28*

AZƏRBAYCAN PREZİDENTİ HEYDƏR ƏLİYEVİN VƏ
ERMƏNİSTAN PREZİDENTİ ROBERT KÖÇƏRYANIN
TƏKBƏTƏK GÖRÜŞÜ

*4 mart 2001-ci il* ........................................................................................................ *34*

YELİSEY SARAYINDA QARŞILANMA MƏRASİMİ

*5 mart 2001-ci il* ........................................................................................................ *35*

FRANSA PREZİDENTİ JAK ŞİRAK İLƏ GÖRÜŞ

*5 mart 2001-ci il* ............ 37

AZƏRBAYCAN RESPUBLİKASININ PREZİDENTİ
HEYDƏR ƏLİYEVİN, FRANSA RESPUBLİKASININ PREZİDENTİ
JAK ŞİRAKIN VƏ ERMƏNİSTAN RESPUBLİKASININ PREZİDENTİ
ROBERT KÖÇƏRYANIN GÖRÜŞÜ

*5 mart 2001-ci il* ............ 39

FRANSA PREZİDENTİ JAK ŞİRAKIN, AZƏRBAYCAN PREZİDENTİ
HEYDƏR ƏLİYEVİN, ERMƏNİSTAN PREZİDENTİ
ROBERT KÖÇƏRYANIN ÜÇTƏRƏFLİ GÖRÜŞÜNDƏN
SONRA KEÇİRİLMİŞ BİRGƏ BRİFİNQ

*5 mart 2001-ci il* ............ 40

FRANSAYA İŞGÜZAR SƏFƏR BAŞA ÇATDIQDAN SONRA
BAKIYA QAYIDARKƏN BİNƏ HAVA LİMANINDA
JURNALİSTLƏRİN SUALLARINA CAVAB

*6 mart 2001-ci il* ............ 44

SKANDİNAVİYA ÖLKƏLƏRİ VƏ RUSİYANIN BİR QRUP
JURNALİSTİ İLƏ GÖRÜŞDƏ SÖHBƏT

*11 mart 2001-ci il* ............ 51

TÜRKİYƏ RESPUBLİKASININ PREZİDENTİ
ƏHMƏD NECDƏT SEZƏRİN DƏVƏTİ İLƏ DOST ÖLKƏYƏ
RƏSMİ SƏFƏRƏ YOLA DÜŞMƏZDƏN ƏVVƏL
BİNƏ HAVA LİMANINDA JURNALİSTLƏRİN
SUALLARINA CAVAB

*12 mart 2001-ci il* ............ 66

AZƏRBAYCAN PREZİDENTİ HEYDƏR ƏLİYEVİN
TÜRKİYƏYƏ RƏSMİ SƏFƏRİ

*12 mart 2001-ci il* ............ 75

AZƏRBAYCAN RESPUBLİKASININ PREZİDENTİ
HEYDƏR ƏLİYEVİN VƏ TÜRKİYƏ CÜMHURİYYƏTİNİN

PREZİDENTİ ƏHMƏD NECDƏT SEZƏRİN
TƏKBƏTƏK GÖRÜŞÜ

*12 mart 2001-ci il* ........................................................ *81*

AZƏRBAYCAN PREZİDENTİ HEYDƏR ƏLİYEVİN VƏ
TÜRKİYƏ PREZİDENTİ ƏHMƏD NECDƏT SEZƏRİN
RƏHBƏRLİYİ İLƏ AZƏRBAYCAN – TÜRKİYƏ
NÜMAYƏNDƏ HEYƏTLƏRİNİN GÖRÜŞÜ

*12 mart 2001-ci il* ........................................................ *84*

AZƏRBAYCAN–TÜRKİYƏ SƏNƏDLƏRİNİN İMZALANMASI
MƏRASİMİNDƏ JURNALİSTLƏR QARŞISINDA
BƏYANATLAR

*12 mart 2001-ci il*........................................................ *88*

TÜRKİYƏ RESPUBLİKASININ BAŞ NAZİRİ
BÜLƏND ECEVİT İLƏ TƏKBƏTƏK GÖRÜŞ

*12 mart 2001-ci il*........................................................ *94*

AZƏRBAYCAN RESPUBLİKASININ PREZİDENTİ
HEYDƏR ƏLİYEVİN ŞƏRƏFİNƏ TÜRKİYƏ CÜMHURİYYƏTİNİN
PREZİDENTİ TƏRƏFİNDƏN TƏŞKİL EDİLMİŞ
RƏSMİ QƏBULDA NİTQ

*12 mart 2001-ci il* ........................................................ *96*

TÜRKİYƏ SİLAHLI QÜVVƏLƏRİ BAŞ QƏRARGAHININ RƏİSİ,
ORDU GENERALI HÜSEYN KIVRIQOĞLU İLƏ TƏKBƏTƏK
GÖRÜŞ

*13 mart 2001-ci il* ........................................................ *104*

TÜRKİYƏ BÖYÜK MİLLƏT MƏCLİSİNDƏ NİTQ

*13 mart 2001-ci il* ........................................................ *110*

TÜRKİYƏNİN KEÇMİŞ PREZİDENTİ SÜLEYMAN DƏMİRƏL
İLƏ GÖRÜŞDƏ SÖHBƏT

*13 mart 2001-ci il* ........................................................ *128*

AZƏRBAYCAN RESPUBLİKASININ PREZİDENTİ
HEYDƏR ƏLİYEVİN İSTANBULA SƏFƏRİ

*14 mart 2001-ci il* ........................................................................................................ *132*

«SNN TÜRK» TELEVİZİYA KANALININ BAŞ DİREKTORU
TAHA AKYOLA VERDİYİ MÜSAHİBƏ

*15 mart 2001-ci il* ........................................................................................................ *134*

TÜRKİYƏNİN TRT TELEVİZİYASININ XƏBƏRLƏR
DEPARTAMENTİNİN MÜDİRİ HALUK KOÇA VERDİYİ
MÜSAHİBƏ

*15 mart 2001-ci il* ........................................................................................................ *147*

TÜRKİYƏNİN NTV TELEVİZİYA KANALININ ƏMƏKDAŞLARI
İRFAN SAPMAZ VƏ DİDƏM TUNCAYA
VERDİYİ MÜSAHİBƏ

*15 mart 2001-ci il* ........................................................................................................ *156*

TÜRKİYƏNİN «SAMAN YOLU» TELEVİZİYA KANALININ
MÜXBİRİ MƏLİH MERİÇƏ VERDİYİ MÜSAHİBƏ

*15 mart 2001-ci il* ........................................................................................................ *163*

AZƏRBAYCAN PREZİDENTİNƏ ANKARA UNİVERSİTETİNİN
FƏXRİ DOKTORU ADI VERİLMƏSİ MƏRASİMİNDƏ
NİTQ

*16 mart 2001-ci il* ........................................................................................................ *171*

TÜRKİYƏNİN BÖYÜK MİLLƏT MƏCLİSİNİN DEPUTATLARI
ƏLİ GÜNƏR, ASLAN HAYDAR VƏ OSMAN GƏZƏGƏRLƏ
GÖRÜŞDƏ SÖHBƏT

*16 mart 2001-ci il* ........................................................................................................ *182*

TÜRKİYƏNİN «SABAH» QƏZETİNİN SİYASİ ŞƏRHÇİSİ
FÜSUN MUTLUYA VERDİYİ MÜSAHİBƏ

*16 mart 2001-ci il* ........................................................................................................ *190*

TÜRKİYƏYƏ RƏSMİ SƏFƏR BAŞA ÇATDIQDAN SONRA BAKIYA QAYIDARKƏN BİNƏ HAVA LİMANINDA JURNALİSTLƏRİN SUALLARINA CAVAB

*17 mart 2001-ci il* ............................................................................................................ *200*

TÜRKİYƏ İLƏ AZƏRBAYCAN ARASINDA STRATEJİ ƏMƏKDAŞLIĞA ƏSASLANAN İKİTƏRƏFLİ MÜNASİBƏTLƏRİN DAHA DA İNKİŞAF ETDİRİLMƏSİ HAQQINDA BİRGƏ BƏYANAT

*17 mart 2001-ci il* ............................................................................................................ *213*

BANQLADEŞ XALQ RESPUBLİKASININ PREZİDENTİ ZATİ-ALİLƏRİ CƏNAB ŞAHABUDDİN ƏHMƏDƏ

*18 mart 2001-ci il* ............................................................................................................ *219*

NOVRUZ BAYRAMI MÜNASİBƏTİLƏ AZƏRBAYCAN XALQINA TƏBRİK

*18 mart 2001-ci il* ............................................................................................................ *220*

AMERİKA BİRLƏŞMİŞ ŞTATLARININ BAKIDAKI SƏFİRİ ROSS UİLSON İLƏ GÖRÜŞDƏ SÖHBƏT

*20 mart 2001-ci il* ............................................................................................................ *222*

AZƏRBAYCAN RESPUBLİKASININ DÖVLƏT MÜSTƏQİLLİYİNİN ONUNCU İLDÖNÜMÜ HAQQINDA FƏRMAN

*20 mart 2001-ci il* ............................................................................................................ *227*

ÜMUMXALQ NOVRUZ BAYRAMI ŞƏNLİYİNDƏ NİTQ

*21 mart 2001-ci il* ............................................................................................................ *235*

MİSİR ƏRƏB RESPUBLİKASININ XARİCİ İŞLƏR NAZİRİNİN MÜAVİNİ MEHDİ FƏTHULLAHIN BAŞÇILIQ ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİ İLƏ GÖRÜŞDƏ SÖHBƏT

*24 mart 2001-ci il* ............................................................................................................ *243*

31 MART – AZƏRBAYCANLILARIN SOYQIRIMI GÜNÜ MÜNASİBƏTİLƏ AZƏRBAYCAN XALQINA MÜRACİƏT

*27 mart 2001-ci il* ............................................................................................................ *249*

YUNANISTAN RESPUBLİKASININ PREZİDENTİ ZATİ-ALİLƏRİ
CƏNAB KONSTANTİNOS STEFANOPULOSA

*27 mart 2001-ci il ........................................................................................................ 253*

TATARISTAN RESPUBLİKASININ PREZİDENTİ
CƏNAB MİNTİMER ŞAYMİYEVƏ

*27 mart 2001-ci il ........................................................................................................ 254*

AZƏRBAYCAN MİLLİ OLİMPİYA KOMİTƏSİNİN (MOK)
YENİ İNZİBATİ BİNASININ İSTİFADƏYƏ VERİLMƏSİNƏ
HƏSR OLUNMUŞ TƏNTƏNƏLİ MƏRASİMDƏ NİTQ

*27 mart 2001-ci il ........................................................................................................ 255*

RUSİYANIN «LUKoyl» NEFT ŞİRKƏTİNİN PREZİDENTİ
VAHİD ƏLƏKBƏROV BAŞDA OLMAQLA ŞİRKƏTİN
NÜMAYƏNDƏ HEYƏTİ İLƏ GÖRÜŞDƏ SÖHBƏT

*27 mart 2001-ci il ........................................................................................................ 264*

İRAN İSLAM RESPUBLİKASININ ENERGETİKA NAZİRİ
HƏBİBULLAH BİTƏRƏFİN RƏHBƏRLİK ETDİYİ
NÜMAYƏNDƏ HEYƏTİ İLƏ GÖRÜŞDƏ SÖHBƏT

*28 mart 2001-ci il ........................................................................................................ 278*

TÜRKİYƏNİN DÖVLƏT NAZİRİ ƏBDÜLXALIQ ÇAYIN
RƏHBƏRLİK ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİ İLƏ
GÖRÜŞDƏ SÖHBƏT

*30 mart 2001-ci il ........................................................................................................ 287*

TÜRKİYƏ SILAHLI QÜVVƏLƏRİ BAŞ QƏRARGAHININ
MADDİ-TEXNİKİ TƏMİNAT RƏİSİ, KORPUS GENERALI
HURŞİT TOLON İLƏ GÖRÜŞDƏ SÖHBƏT

*30 mart 2001-ci il ........................................................................................................ 294*

AMERİKA BİRLƏŞMİŞ ŞTATLARINA İŞGÜZAR SƏFƏRƏ YOLA
DÜŞMƏZDƏN ƏVVƏL BAKININ BİNƏ BEYNƏLXALQ
HAVA LİMANINDA JURNALİSTLƏRİN
SUALLARINA CAVAB

*1 aprel 2001-ci il ........................................................................................................ 299*

HARRİ TRUMEN ADINA KİÇİK AĞ EVDƏ AMERİKA BİRLƏŞMİŞ ŞTATLARININ DÖVLƏT KATİBİ KOLİN PAUELL İLƏ GÖRÜŞ

*3 aprel 2001-ci il* ........................................................................................ *308*

AMERİKA BİRLƏŞMİŞ ŞTATLARININ DÖVLƏT KATİBİ KOLİN PAUELLİN AZƏRBAYCAN VƏ ERMƏNİSTAN RESPUBLİKALARININ PREZİDENTLƏRİ, ATƏT-in MİNSK QRUPUNUN HƏMSƏDRLƏRİ İLƏ GÖRÜŞDƏ AZƏRBAYCAN RESPUBLİKASININ PREZİDENTİ HEYDƏR ƏLİYEVİN BƏYANATI

*3 aprel 2001-ci il* ........................................................................................ *311*

AZƏRBAYCAN DÖVLƏT BƏDƏN TƏRBİYƏSİ VƏ İDMAN AKADEMİYASINA

*6 aprel 2001-ci il*........................................................................................ *323*

MOLDOVA RESPUBLİKASININ PREZİDENTİ ZATİ-ALİLƏRİ CƏNAB VLADİMİR VORONİNƏ

*8 aprel 2001-ci il*........................................................................................ *325*

AZƏRBAYCAN PREZİDENTİ HEYDƏR ƏLİYEVİN AMERİKA BİRLƏŞMİŞ ŞTATLARININ PREZİDENTİ CORC BUŞ İLƏ GÖRÜŞÜ

*9 aprel 2001-ci il*........................................................................................ *326*

AMERİKA BİRLƏŞMİŞ ŞTATLARININ PREZİDENTİ CORC BUŞ İLƏ GÖRÜŞDƏN SONRA AĞ EVİN QARŞISINDA JURNALİSTLƏRİN SUALLARINA VERDİYİ CAVAB

*9 aprel 2001-ci il*........................................................................................ *330*

ABŞ PREZİDENTİ CORC BUŞUN VAŞİNQTONDA AZƏR-BAYCAN VƏ ERMƏNİSTAN PREZİDENTLƏRİ İLƏ GÖRÜŞLƏRİ HAQQINDA BRİFİNQ

*9 aprel 2001-ci il*........................................................................................ *332*

AZƏRBAYCAN PREZİDENTİ HEYDƏR ƏLİYEVİN TÜRKİYƏNİN ABŞ-dakı SƏFİRİ BAKİ İLKİN İLƏ GÖRÜŞÜ

*9 aprel 2001-ci il*........................................................................................ *334*

AMERİKA BİRLƏŞMİŞ ŞTATLARINA İŞGÜZAR SƏFƏRDƏN BAKIYA QAYIDARKƏN BİNƏ BEYNƏLXALQ HAVA LİMANIN-DA JURNALİSTLƏRƏ VERDİYİ MÜSAHİBƏ

*14 aprel 2001-ci il* ........ *337*

AZƏRBAYCANIN PRAVOSLAV XRİSTİANLARINA

*14 aprel 2001-ci il* ........ *346*

SURİYA ƏRƏB RESPUBLİKASININ PREZİDENTİ ZATİ-ALİLƏRİ CƏNAB BƏŞŞAR ƏSƏDƏ

*15 aprel 2001-ci il* ........ *347*

DANİMARKANIN KRALİÇASI ÜLYAHƏZRƏT II MARQRETEYƏ

*15 aprel 2001-ci il* ........ *348*

AMERİKA BİRLƏŞMİŞ ŞTATLARI SENATININ ÜZVÜ RİÇARD ŞELBİNİN BAŞÇILIQ ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİ İLƏ GÖRÜŞDƏ SÖHBƏT

*16 aprel 2001-ci il* ........ *349*

ZİMBABVE RESPUBLİKASININ PREZİDENTİ ZATİ-ALİLƏRİ CƏNAB ROBERT QABRİEL MUQABEYƏ

*18 aprel 2001-ci il* ........ *359*

RUSİYANIN İTAR-TASS İNFORMASİYA TELEQRAF AGENTLİYİNİN BAŞ DİREKTORU CƏNAB VİTALİ İQNATENKOYA

*18 aprel 2001-ci il* ........ *360*

«QAFQAZIN DAĞ YƏHUDİLƏRİ» BEYNƏLXALQ ELMİ SİMPOZİUMUNA

*22 aprel 2001-ci il* ........ *361*

PORTUQALİYA RESPUBLİKASININ PREZİDENTİ ZATİ-ALİLƏRİ CƏNAB JORJ SAMPAYYUYA

*22 aprel 2001-ci il* ........ *363*

MÜSTƏQİL DÖVLƏTLƏR BİRLİYİ İCRAİYYƏ KOMİTƏSİNİN SƏDRİ, MDB-nin İCRAÇI KATİBİ YURİ YAROV İLƏ GÖRÜŞDƏ SÖHBƏT

*24 aprel 2001-ci il* ........ *364*

İSRAİL DÖVLƏTİNİN PREZİDENTİ ZATİ-ALİLƏRİ CƏNAB MOŞE KATSAVA

*24 aprel 2001-ci il* ........ *373*

İSRAİL DÖVLƏTİNİN BAŞ NAZİRİ ZATİ-ALİLƏRİ CƏNAB ARİEL ŞARONA

*24 aprel 2001-ci il* ........ *374*

TANZANİYA BİRLƏŞMİŞ RESPUBLİKASININ PREZİDENTİ ZATİ-ALİLƏRİ CƏNAB BENCAMİN UİLYAM MKAPAYA

*24 aprel 2001-ci il* ........ *375*

YUQOSLAVİYA İTTİFAQ RESPUBLİKASININ PREZİDENTİ ZATİ-ALİLƏRİ CƏNAB VOLİSLAV KOŞTUNİTSAYA

*24 aprel 2001-ci il*........ *376*

CƏNUBİ AFRİKA RESPUBLİKASININ PREZİDENTİ ZATİ-ALİLƏRİ CƏNAB TABO MBEKİYƏ

*24 aprel 2001-ci il*........ *377*

SYERRA LEONE RESPUBLİKASININ PREZİDENTİ ZATİ-ALİLƏRİ CƏNAB ƏHMƏD TECAN KABBAYA

*24 aprel 2001-ci il*........ *378*

TOQO RESPUBLİKASININ PREZİDENTİ ZATİ-ALİLƏRİ CƏNAB QNASİNQBE EYADEMAYA

*24 aprel 2001-ci il*........ *379*

TÜRKDİLLİ DÖVLƏTLƏRİN BAŞÇILARININ İSTANBUL ŞƏHƏRİNDƏ KEÇİRİLƏCƏK VII ZİRVƏ GÖRÜŞÜNDƏ İŞTİRAK ETMƏK ÜÇÜN TÜRKİYƏ RESPUBLİKASINA YOLA DÜŞMƏZDƏN ƏVVƏL BAKININ BİNƏ BEYNƏLXALQ HAVA LİMANINDA JURNALİSTLƏRİN SUALLARINA VERDİYİ CAVAB

*25 aprel 2001-ci il* ........ 380

AZƏRBAYCAN PREZİDENTİ HEYDƏR ƏLİYEVİN
TÜRKİYƏYƏ İŞGÜZAR SƏFƏRİ

*25 aprel 2001-ci il*........................................................................................................387

TÜRKDİLLİ ÖLKƏLƏRİN DÖVLƏT BAŞÇILARININ
VII ZİRVƏ GÖRÜŞÜNÜN AÇILIŞ
MƏRASİMİNDƏ ÇIXIŞ

*26 aprel 2001-ci il*........................................................................................................389

TÜRKDİLLİ ÖLKƏLƏRİN DÖVLƏT BAŞÇILARININ
VII ZİRVƏ GÖRÜŞÜNDƏ NİTQ

*26 aprel 2001-ci il*........................................................................................................392

TÜRKİYƏ CÜMHURİYYƏTİNİN PREZİDENTİ
ƏHMƏD NECDƏT SEZƏRİN ADINDAN TÜRKDİLLİ
ÖLKƏLƏRİN DÖVLƏT BAŞÇILARININ ŞƏRƏFİNƏ
TƏŞKİL EDİLMİŞ RƏSMİ QƏBULDA ÇIXIŞ

*26 aprel 2001-ci il*........................................................................................................ 401

TÜRKDILLI ÖLKƏLƏRIN DÖVLƏT BAŞÇILARININ
VII ZIRVƏ GÖRÜŞÜNÜN BAĞLANIŞ MƏRASIMINDƏ
ÇIXIŞ

*27 aprel 2001-ci il*........................................................................................................ 406

TÜRKDİLLİ ÖLKƏLƏRİN DÖVLƏT BAŞÇILARI ADINDAN
MƏTBUAT KONFRANSINDA ÇIXIŞ

*27 aprel 2001-ci il*........................................................................................................ 407

TÜRKIYƏYƏ IŞGÜZAR SƏFƏRDƏN BAKIYA QAYIDARKƏN
BINƏ BEYNƏLXALQ HAVA LIMANINDA JURNALISTLƏRİN
SUALLARINA CAVAB

*27 aprel 2001-ci il*........................................................................................................ 409

NIDERLAND KRALIÇASI ÜLYAHƏZRƏT BEATRIKSƏ

*27 aprel 2001-ci il*........................................................................................................416

YAPONİYANIN BAŞ NAZİRİ ZATİ-ALİLƏRİ
CƏNAB DZÜNİTİRO KOİDZUMİYƏ

*28 aprel 2001-ci il* ........ *417*

*Q E Y D L Ə R* ........ *418*

*Şəxsi adlar göstəricisi* ........ *460*

*Coğrafi adlar göstəricisi* ........ *465*

**Kitabı çapa hazırlayan** ***Tofiq Babayev***

**Rəssamı** ***Fuad Fərəcov***
**Texniki redaktoru** ***Zoya Nəcəfova***
**Yığım üzrə operator** ***İlhamə Kərimova***
**Kompüter tərtibatı** ***Məhəbbət Orucov***

---

Cildin hazırlanmasında AzərTAc-ın materiallarından istifadə olunmuşdur.

«Tayms» qarnitur. Formatı 60x90 1/16. Ofset kağızı 1. Şərti çap vərəqi 30.
Uçot vərəqi 30,5. Tirajı 5000. Müqavilə qiyməti ilə.

Azərbaycan Respublikası Mədəniyyət və Turizm Nazirliyi
Azərbaycan Dövlət Nəşriyyatı. Bakı – Mehdi Hüseyn küç. 61, dalan 2, ev 3.
"Qismət" Nəşriyyat, Poliqrafiya və Ticarət LTD tərəfindən çap olunmuşdur.